Şəriət--------- həzrət Ayətullahül-üzma Məkarim Şirazinin **10** şərhi risaləsi

Rəhman və rəhim Allahın adı ilə

MÜQƏDDİMƏ

Bir neçə zəruri xatırlatma

1. İlk mətni mərhum Ayətullah-üzma Bürucerdinin dövründə onun fətvaları əsasında hazırlanmışdır. Qum elmi hövzəsinin bir neçə alimi tərəfindən görülmüş bu iş fiqhi hökmlərin xalqa aydınlaşdırılmasında tə'sirli və ilk addım idi. Qədim risalələrdə mürəkkəb fiqh terminləri oxucular üçün xeyli problem yaradırdı. Amma qeyd olunan risalədə həm terminlər işlədilməmişdir, həm cümlələr sadə və aydın idi, həm də dəqiqlik vardı. Bu səbəbdən də uyğun risalə mö'min zümrənin dini Məsələlərlə tanışlıq istiqamətində böyük tə'sirə malik oldu.

Böyük alim dünyasını dəyişdikdən sonra tanınmış təqlid mərcə'si həmin mətn üzərində işləyib öz fətvalarını ona daxil etdi. Beləcə, uyğun ən'ənə bəyənilərək davam etdirildi.

Amma uyğun risalənin cümlələri mərhum Ayətullahül-üzma Bürucerdinin fətvaları üçün nəzərdə tutulduğundan zaman ötdükcə və başqa böyük alimlərin fətvaları buna əlavə olunduqca müəyyən uyğunsuzluqlar meydana çıxdı və kitab ilkin səlisliyini itirdi. Belə ki, son dövürlərdə məsələlərin şərhi risaləsi yenidən mürəkkəbləşdi, onu anlamaq çətinləşdi. Hətta bə'zi məqamlarda ziddiyyətlər müşahidə olundu.

2. Digər bir tərəfdən, böyük mərcələrin sıx iş rejimi onlara imkam vermir ki, öz fitvlarını bütün məsələlərə tətbiq etsinlər və ətraflı dəyişiklik aparsınlar. Adətən bu iş alimlər qrupuna və ya bir fərdə tapşırılır. Aydın **Məsələ**dir ki, şəriət baxımından mö'təbər sayılsa belə, diqqət baxımından təqlidçi təqlid mərcə'sindən fərqlənir.

3. Bütün bunlarla yanaşı, sür'ətlə dəyişən cəmiyyət vaxtı ötmüş mövzuların risalələrdən çıxarılmasını tələb edir. Bu məsələlərin əvəzində ən çox mühüm məsələlərə yer verilməlidir. Yalnız bu halda müsəlman ümməti fiqhi suallarını cavablandırmaq olar.

Əlinizdəki risalədə həmin problemlər, həmd olsun Allaha, aradan qaldırılmışdır. Onun yetərincə tərəflərin cavab verdiyini düşünürük. Belə ki, əvvəla, ifadələrin tam islahı və dəqiq nəzərdən keçirilməsi risalənin ilkin səlisliyini və uyğunluğunu ona qaytarmışdır.

İkincisi, həzrət Ayətullahül-üzma Məkarim Şirazi bütün məsələlərə şəxsən özü nəzarət etmiş, risalə mətnlərini öz fətvaları ilə (bu fətvalar "Tə'liqati-ürvətül-füsqa" kitabında bəyan olunmuşdur.) tutuşdurmuş, "ürvədə" olmayan məsələləri artırmış, bütün təbirləri islah etmişdir.

Üçüncüsü, ehtiyac duyulmayan məsələlər çıxarılmış, onların əvəzinə aktual məsələlər daxil edilmişdir. İnşaallah, risalə elə bir formaya düşmüşdür ki, ondan hamı asanlıqla bəhrələnə biləcək.

Allah-təala İslam və Qur'an hökmlərinə, Peyğəmbər (s) və mə'sum imamların buyuruqlarına əməl üçün hər birimizə yardım buyursun, niyyətlərimizi xalisləşdirsin, Onun razılığını əsas götürək!

TƏQLİD

Təqlidin hökmləri

Məsələ 1: Heç bir müsəlman dinin əsaslarına (“Üsuli-din”) e’tiqadda təqlid yolu ilə getməməli, öz səviyyəsinə münasib dəlillər əsasında bu e’tiqadlara yiyələnməlidir. Amma dinin hökmlərinə (“Fürui-din”) münasibətdə ya müctəhid olub (İlahi hökmləri dəlillər əsasında müəyyənləşdirə bilib) öz əqidəsinə əməl etməli, ya da (müctəhid olmadığı halda) müctəhidə təqlid etməlidir. Adətən, insanlar mütəxəssis və mə’lumatlı olmadıqları sahələrdə mütəxəssislərlə və mə’lumatlı insanlara müraciət edir, onların yolunu gedirlər. (İbadət və digər şər’i vəzifələrin yerinə yetirilməsi üçün Qur’an və rəvayatlər baxımından me’yar şər’i-büluğ, yetkinlik həddinə çatmaqdır. Oğlanların qəməri tarixi illə on beş yaşının tamam olması və onların on altı yaşa keçməsi, qızların doqquz yaşının tamam olması və onların on yaşa keçməsi büluğ həddinə çatma nişanələrindən biridir. Hər şəmsi il qəməri ildən on bir gün çoxdur. Bu fərqi hesablayıb miladi ili əsas götürsək, oğlanlar üçün büluğ yaşı on dörd il altı ay iyirmi gün, qızlar üçün büluğ yaşı səkkiz il, səkkiz ay iyirmi beş gün alınar.)

İnsan dini hökmlərin yerinə yetirilməsində üçüncü bir yolu da seçə bilər, o, ehtiyat yolunu tutub elə bir şəkildə addım ata bilər ki, vəzifəsini yerinə yetirdiyinə əmin olsun. Məsələn, əgər müctəhidlərdən bir qrupu bir işi haram, başqa bir qrupu halal sayarsa, həmin işi tərk edər. Əgər bir işi müctəhidlərdən bir qrupu müstəhəb, başqa bir qrupu vacib sayarsa, həmin işi yerinə yetirər. Amma ehtiyat yolunu seçmək bir qədər çətindir. Bu yolu seçmiş insan fiqhi məsələlərdən əhatəli şəkildə xəbərdar olmalıdır. Xalq kütləsi üçün münasib yol müctəhidə müraciət və ona təqlid etməkdir.

Məsələ 2: Hökmlərlə müctəhidə təqlidin mahiyyəti müctəhidin göstərişinə əməli istinad edilməsidir. Yə'ni təqlid edən insan öz əməllərini müctəhidin göstərişləri ilə şərtləndirir.

Məsələ 3: Təqlid edilən müctəhid kişi, həddi-büluğa çatmış, ağıllı, on iki imamçı şiə, halal yolla doğulmuş (halalzadə), həmçinin vacib ehtiyata əsasən, ədalətli və diri olmalıdır. (Daxilindəki Allah qorxusu səbəbindən böyük günahdan çəkinən və kiçik günahları təkrarlamayan şəxs ədalətli sayılır).

Məsələ 4: Müctəhidlər arasında müəyyən bir məsələyə münasibətdə fikir ayrılığı varsa, daha elmli, (ə'ləm) müctəhidə təqlid etmək lazımdır.

Məsələ 5: Müctəhidi və daha elmli müctəhidi üç yolla müəyyənləşdirmək olar:

A) Elm əhli olan insan özü müctəhid və daha elmli müctəhidi tanıya bilər.

B) Elm əhlindən olan iki ədalətli şəxs o barədə mə'lumat verdiyi halda (bir şərtlə ki, başqa iki alim onların dediyinin əksinə şəhadət verməsin).

V) Müctəhid və ya daha elmli müctəhid elm əhli arasında və elmi dairələrdə o qədər məhşur ola bilər ki, insan buna əmin olar.

Məsələ 6: Daha elmli müctəhidi dəqiq tanımaq mümkün olmadıqda ehtiyat budur ki, insan daha elmli saydığı müctəhidə təqlid etsin. Əgər bir neçə müctəhidi elm baxımından fərqləndirə bilməzsə, onlardan istənilən birinə təqlid edə bilər.

Məsələ 7: Müctəhidin fətvasını öyrənməyin bir neçə yolu var:

a) Müctəhidin özündən eşitmək və onun əlyazmasını görmək;

b) E'tibarlı sayılan risalədə görmək;

v) E'tibarlı bir şəxsdən eşitmək;

q) Fətvanın xalq arasında xatircəmliyə səbəb olacaq qədər məşhur olması.

Məsələ 8: Əgər insan müctəhidin fətvasının dəyişdiyini güman edərsə, araşdırma aparmayıb əvvəlki fətvaya əməl edə bilər.

Məsələ 9: Əgər bir Məsələ ilə bağlı müctəhid qəti fətva verməmişsə, sadəcə ehtiyat əsasında müəyyən şəkildə əməl etməyi söyləyirsə, elə bir ehtiyat vacib ehtiyat adlanır. Təqlidçi ya onun söylədiyinə əməl etməli, ya da başqa bir müctəhidə üz tutmalıdır. Bu müctəhid bir məsələ ilə bağlı qəti fətva vermişsə, məsələn, namazda iqaməni müstəhəb saymışsa, eyni zamanda onu tərk etməməyi ehtiyat bilmişsə, elə bir ehtiyat, müstəhəb ehtiyat adlanır. Təqlidçi bu göstərişə əməl edib-etməməkdə azaddır. Əgər müctəhid bir iş haqqında "təəmmul məhəlli" və ya "işkal məhəlli" sözlərini işlədirsə, təqlidçi ya ehtiyata əməl edər, ya da başqa birinə üz tutar. Amma müctəhid bir məsələ ilə bağlı "zahirdə belədir" və ya "daha qüvvətli nəzər belədir" ("əqva") tə'birlərini işlədərsə, bu tə'birlər fətva sayılar və təqlidçi ona əməl etməlidir.

Məsələ 10: Əgər insanın təqlid etdiyi müctəhid dünyasını dəyişərsə, ona təqlidi davam etdirmək olar. Həmin müctəhid daha elmli olduqda təqlidi davam etdirmək vacibdir. Bir şərtlə ki, bu işdə onun fətvasına əməl etmiş olsun.

Məsələ 11: İnsan təqlidə başlayarkən dünyasını dəyişmiş müctəhidin fətvalarına təqlidə başlaya bilməz. Vacib ehtiyata əsasən o müctəhid ə'ləm olarsa belə, təqlidə bu şəkildə başlamağa icazə verilmir.

Məsələ 12: Hər bir müsəlman adətən ehtiyac duyduğu məsələləri öyrənməli, ya da ehtiyat yolla tanış olmalıdır.

Məsələ 13: Müsəlman şəxs qarşısına çıxan məsələnin hökmünü bilməsə ehtiyata əməl edə bilər. Əməli yerinə yetirmək üçün vaxt varsa, səbr edib müctəhiddən öyrənməlidir. Əgər müctəhiddən öyrənmək imkanı olmasa, daha çox ehtimal olunan yolla getməli, sonradan məsələni öyrənməlidir. Əgər gördüyü iş müctəhidin fətvasına uyğun olarsa, qəbuldur, uyğun olmazsa onu təkrar yerinə yetirməlidir.

Məsələ 14: Əgər bir şəxs müəyyən bir müddət təqlidsiz hərəkət etmişsə, təqlidə başlayanda araşdırma aparmalıdır. Əgər təqliddən öncəki əməlləri hazırkı müctəhidin fətvalarına uyğundursa qəbuldur, uyğun deyilsə onları təkrar yerinə yetirməlidir. Yetərincə araşdırma aparmadan bir müctəhidə təqlid edilən halda da eyni cür addım atılır.

Məsələ 15: Əgər bir şəxs bir müctəhidin fətvasını düzgün nəql etməmişsə, xəbər tutduqdan sonra onu düzgün şəkildə söyləməlidir. Əgər səhvə minbərdə və ya hər hansı söhbətdə yol vermişsə, müxtəlif məclislərdə uyğun məsələni düzgün şəkildə təkrarlamalıdır. Belə edərsə, səhv addım atanlar öz səhvini düzəldər. Amma müctəhidin fətvası dəyişdiyi vaxt bu dəyişikliyi e'lan etmək vacib deyil.

Məsələ 16: Təqlidi dəyişmək, yə'ni bir müctəhidin fətvalarını boşlayıb o birinə üz tutmaq vacib ehtiyata əsasən yol verilməzdir. Amma ikinci müctəhid daha elmli olduqda təqlidi dəyişmək mümkündür. Yetərincə araşdırma aparmadan təqlidi dəyişən şəxs yenidən əvvəlki müctəhidə üz tutmalıdır.

Məsələ 17: Müctəhidin fətvası dəyişərsə, yeni fətvaya əməl etmək lazımdır. Amma öncəki fətvaya əsasən yerinə yetirilən əməllər (ibadətlər, müamilələr) düzgündür və onları təzələmək lazım deyil. Bir müctəhiddən o birinə təqlidə keçən zaman da ötən əməlləri təzələmək lazım deyil.

Məsələ 18: Əgər insan bir müddət təqlid etmişsə və öz təqlidinin düzgün olub-olmadığını bilmirsə, ötən əməllərinə irad yoxdur. Amma hazırkı və gələcək əməllərində düzgün təqlid etməlidir.

Məsələ 19: Əgər iki müctəhidin səviyyəsi eyni olarsa, müəyyən Məsələlərdə birinə, müəyyən Məsələlərdə o birinə təqlid etmək olar.

Məsələ 20: Müctəhid olmayan şəxsə fətva vermək, şəriət məsələləri ilə bağlı fikir bildirmək haramdır. İnsan yetərincə mə'lumatı olmadığı halda

şəriət məsələləri ilə bağlı münasibət bildirərsə, onun sözləri əsasında hərəkət edən bütün insanların əmələrinə görə məs’uliyyət daşıyır.

TƏHARƏT (DİNİ BAXIMDAN PAKLIQ)

Su növləri

Məsələ 21: Su ya saf (mütləq), ya da qatqılı (müzaf) olur. Qatqılı su odur ki, ona təkcə su deyilməsin. Meyvə şirəsi, sodalı su və gülab bu qəbildəndir. Amma bir su haqqında heç bir qeyd-şərtsiz "su" deyilərsə, belə bir su saf sudur.

Məsələ 22: Saf suyun müxtəlif növləri var və hər növ xüsusi hökmlərə malikdir. Saf su beş qisimdir: "Kürr" su, "qəlil" su, axar su və borularla ötürülən su, yağış suyu, quyu suyu. Bu beş növ su pak və pakedicidir. Qatqılı su isə murdarı paklamır, murdara toxunduqda özü də murdarlanır.

1. Kürr su

Məsələ 23: Kürr su dedikdə vacib ehtiyata əsasən uzunluğu, eni və dərinliyi üç qarış yarım olan qabı dolduran su nəzərdə tutulur. Kürr suyun çəkisi də müəyyəndir. Bu su üç yüz səksən dörd kq. və ya üç yüz səksən dörd l. olmalıdır. Qarışla ölçü apardıqda orta bir qarış nəzərdə tutulur.

Məsələ 24: Əgər sidik və qan kimi murdarın əsli kürr suya tökülərsə, həmin suyun rəngini, qoxusunu və ya dadını dəyişmədiyi halda, həmin suyu murdarlamaz.

Məsələ 25: Murdarlanmış (murdarın əsli olmayan) libas və qab kimi əşyaları kürr suda yusalar paklanar.

Məsələ 26: Kürr suyun rəngi, qoxusu və dadı murdar olmayan bir şey vasitəsi ilə dəyişərsə həmin su murdarlanmaz. Amma istənilən bir bulaşıq sudan çəkinmək daha yaxşıdır.

Məsələ 27: Murdarın əsli (məsələn, qan) kürr miqdarından artıq suya qatılıb onun bir hissəsinin halını dəyişərsə, onun kürr həddində və ya kürrdən artıq qalan hissəsi pakdır və yalnız dəyişmiş hissə murdardır. Qalan hissə kürrdən az olduqda bütün su murdarlanır.

Məsələ 28: Murdar bir şeyi kürr suya birləşən kranın altına tutsalar, ondan axan su pakdır. Lakin o suda murdarın qoxusu, rəngi və ya dadı qalarsa, murdar sayılar.

Məsələ 29: Kürr və ya ondan artıq həddə olmuş suyun kürdən az olub-olmamasında şəkk olunsa, kürr su hökmündədir. Kürdən az olan suyun kürr həddinə çatıb-çatmamasında şəkk olunsa, kürdən az su hökmündədir.

Məsələ 30: Suyun kürr miqdarında olduğunu iki yolla müəyyənləşdirmək mümkündür: Suyun həmin miqdarda olmasına ya insan özü əmin olmalıdır, ya da onu ədalətli bir şəxs söyləməlidir.

2. Az (qəlil) su

Məsələ 31: Kürr miqdarından az olan və yerdən qaynayıb çıxmamış su az (qəlil) su sayılır.

Məsələ 32: Əgər murdar bir şey az suya toxunarsa (vacib ehtiyata əsasən) onu murdarlayar. Amma az su yuxarıdan axıb murdar şeyə toxunduqda onun yalnız murdara toxunmuş miqdarı murdarlanır. Əgər su fəvvarə şəklində aşağıdan yuxarıya qalxarsa və yuxarıdan murdara toxunarsa, onun aşağıda qalan hissəsi murdarlanmışdır.

Məsələ 33: Əgər az və pak su ilə murdar şey (qarşıda deyiləcək şərtlər daxilində) yuyulursa, pak olar. Amma yuyulan zaman ayrılan və "ğusalə" adlanan su murdardır. Amma sidik və nəcisin çıxacağından ayrılan su beş şərt daxilində pakdır:

1. Murdarın üç xüsusiyyətinə malik olmasın;

2. Kənardan murdarlıq toxunmasın;

3. Qan və sidik kimi murdarlıqlarla yanaşı olmasın;

4. Vacib ehtiyata əsasən, həmin suda nəcis qırıntıları görünməsin;

5. Nəcis çıxacağının ətrafı adi həddən artıq bulanmasın. Amma bu suyun pak olması dedikdə nəzərdə tutulur ki, həmin su bədəni və ya libası isladarsa onu suya çəkmək lazım deyil. Amma ondan pak su kimi başqa işlərdə istifadə etmək olmaz.

3. Axar (cari) su

Məsələ 34: Torpaqdan qaynayan və axan sular bulaq və kəhriz suyu, eləcə də, dağlarda toplanmış qardan süzülüb gələn davamlı sular kimidir.

Məsələ 35: Axar su kürr miqdarından az olsa belə murdara toxunduqda murdarlanmır. Yalnız murdarın qoxusunu, rəngini və ya dadını özünə götürərsə murdar sayılar.

Məsələ 36: Əgər axar suya murdarlıq toxunsa və onun bir hissəsinin qoxusunu, rəngini və ya dadını dəyişərsə murdarın qoxusunu, rəngini və ya dadını götürən hissə murdar sayılır. Axar suyun çeşməyə doğru hissəsi kürrdən az olsa belə pak sayılır. Amma murdardan axıb keçən hissəsi kürrdən az olduqda murdar sayılır; həmin hissə öz halını dəyişməyibsə və çeşmə ilə rabitəsi varsa murdar sayılmır.

Məsələ 37: Bə'zi durğun sulardan bir miqdar götürdükdə götürülən hissə yenidən dolur. Belə durğun sular axar su hökmündədir. Onlara murdar bir şey toxunduqda murdarlanmırlar. Onlar kürr həddindən az olsalar da murdarlanmazlar. Çaydan kənarda yaranmış çay ilə əlaqəli durğun sular da belədir.

Məsələ 38: Bə'zi bulaqlar və kəhrizlər bə'zən qaynayır, bə'zən dayanır. Bu sular qaynadığı vaxt axar su hökmündədir.

Məsələ 39: Şəhərin, hamamların və bu kimi yerlərin mənbədən qidalanan, boru ilə axan suları axar su hökmündədir. Bir şətlə ki, onların qidalandığı mənbənin suyu ya təklikdə, ya da borulardakı su ilə birlikdə kürr həddindən az olmasın.

Məsələ 40: Əgər boru ilə çəkilmiş suyun altına bir qab qoyularsa qabdakı su krant suyu ilə əlaqədə olduğu vaxt axar su hökmündədir.

4. Yağış suyu

Məsələ 41: Yağış suyu axar su hökmündədir. Bu su istənilən bir murdar şeyi paklayır. Əgər bədəndə, xalçada, bu kimi başqa şeylərdə murdarın əsli olmazsa və onlardan (salə) su ayrılarsa, yağış suyu bütün bunları paklayır.

Məsələ 42: Bir neçə damla yağış yağması kifayat etmir. Yağıntı elə bir miqdarda olmalıdır ki, ona yağış desinlər.

Məsələ 43: Əgər yağış suyu murdarın əslinə toxunub başqa bir yeri nəmləndirərsə, vacib ehtiyata əsasən, həmin nəm yerdən çəkinmək lazımdır.

Məsələ 44: Əgər torpağın üzərində və ya evin damında murdar bir şey varsa və onun üzərinə yağış yağmışsa vacib ehtiyata əsasən, çəkinmək lazımdır. Amma yağışın murdar şeyin üzərinə yağmayan hissəsi pakdır. Murdarın üzərinə yağmış suya qatılıb novça ilə axan su pak sayılır.

Məsələ 45: Əgər yağış suyu axıb yağışın yağmadığı bir yerə çatarsa oranı paklayar, bir şərtlə ki, yağış kəsilməsin.

Məsələ 46: Yağış suyu yağışla əlaqəli şəkildə bir yerə toplanarsa yağış suyu hökmündədir. Bu su kürr miqdarından az olsa da bütün murdar şeyləri paklayır.

Məsələ 47: Əgər pak bir xalça murdarlanmış yerə sərilmişsə, onun üzərinə yağan yağış altına keçdikdə xalça murdarlanmır, hətta yer pak qalır.

Məsələ 48: Əgər yağış suyu murdar hovuza yağarsa, ya ona qatışarsa, hovuzdakı su paklanar.

5. Quyu suyu

Məsələ 49: Quyu suyu həm pakdır, həm də pakedicidir. Bu su kürr miqdarından az da olsa həmin xüsusiyyətlərə malikdir. Murdarlanmış şeydə murdarın əsli olmazsa, həmin şey quyu suyu ilə yuyulduqda paklanır. Bir şərtlə ki, murdarın əsli toxunub, qoxusunu, rəngini və ya dadını həmin şeyə keçirməsin.

Məsələ 50: Quyuya murdar bir şeyin düşməsi ilə onun suyu murdarlanmasa da, hər murdar əşya müqabilində quyudan bir miqdar su çəkib bayıra atmaq müstəhəbdir. Bu miqdar fiqh kitablarında ətraflı şəkildə bəyan olunmuşdur.

Məsələ 51: Suyu su nasosu ilə bayıra vurulan dərin, yarım dərin və adi bir quyulardan çəkilən su kürr miqdarında olarsa, həmin su pakedicidir.

Əgər kürr miqdarından az olarsa, onun daim cərəyanda olan suyu quyu suyu hökmündədir və murdara toxunmaqla murdarlanmır.

Məsələ 52: Əgər quyunun suyu ona murdarın əslinin düşməsi ilə həmin murdarın qoxusunu, rəngini və ya dadını alarsa, sonradan bu dəyişiklik öz-özünə aradan qalxarsa, quyunun suyu pak sayılmaz. Onun suyunun paklanması üçün bu suya yerdən qaynayan yeni sular qatışmalıdır.

Suların hökmləri

Məsələ 53: Öncə qeyd etdiyimiz kimi, gülab, meyvə şirəsi kimi qatqılı sular murdar şeyi paklamır, həmin sularla dəstəmaz almaq, qüsl vermək düzgün deyil.

Məsələ 54: Əgər qatqılı su murdar şeyə toxunarsa murdarlanar. Yalnız üç halda həmin su murdarlanmaz.

1. Həmin su yuxarıdan aşağıya axmış olsun; məsələn: gülabı bir qabla yuxarıdan aşağıya murdar şeyin üzərinə töksək qabda qalmış gülab murdarlanmaz.

2. Fəvvarə şəklində təzyiqlə aşağıdan yuxarıya qalxmış olsun; belə halda suyun yalnız murdara toxunan hissəsi murdarlanır.

3. Su o qədər çox olsun ki, "murdar ona sirayat etməyib" desinlər. Məsələn, murdar şey qatqılı suyu olan böyük bir gölə və ya çox uzun neft borusunun bir tərəfindəki neftə toxunarsa onların qalan hissəsi murdarlanmaz.

Məsələ 55: Əgər qatqılı və murdar su kürr və ya axar suya qatışdıqdan sonra, qatqılı sayılmazsa, paklanar.

Məsələ 56: Əgər saf suya sonradan nə isə qatılmasına şübhə edəriksə bu su saf su hökmündədir. Məsələn, su sayılıb-sayılmadığı mə'lum olmayan sel suları kimi. Bu elə bir sudur ki, onunla murdar şeyi yumaq, dəstəmaz almaq, qüsl vermək olar. Amma qatqılı suyun sonradan saflaşmasına şübhə edəriksə, bu su qatqılı su hökmündədir.

Məsələ 57: Əgər bir suyun öncəki halı, saf və ya qatqılı olması mə'lum deyilsə, bu su bir şeyi paklamaz, onunla dəstəmaz almaq, qüsl vermək olmaz. Amma bu su kürr miqdarında olduqda ona murdar bir şey toxunsa murdarlanmaz.

Məsələ 58: Əgər su murdar bir şeyə yaxın olduğundan murdarın qoxusunu götürsə, pakdır. Yalnız murdarın əsli ona toxunsa murdarlanar. Bununla belə, ondan çəkinmək daha yaxşıdır.

Məsələ 59: Murdarın tə'sirindən qoxusu, rəngi və ya dadı dəyişmiş suyun həmin rəngi, qoxusu və dadı öz-özünə aradan qalxarsa paklanmaz. Yalnız kürr su və ya yağış suyu ilə qatışdıqda murdarlıq aradan götürülər.

Məsələ 60: Öncə pak olmuş suyun murdarlanıb-murdarlanmamasına şəkk etsək bu su pakdır. Amma öncə murdar olmuş suyun sonradan paklanıb-paklanmamasına şəkk etsək, həmin su murdardır.

Məsələ 61: İt və donuz kimi murdar heyvanların içdiyi suyun artığı murdardır. Amma pişik və başqa yırtıcı heyvanlar kimi əti haram heyvanların içdiyi suyun artığı pakdır. Amma bu suyu içmək məkruhdur, bu işi görməmək daha yaxşıdır.

Məsələ 62: İçiləcək suyun tam təmiz olması müstəhəbdir, bəyənilir. Xəstəlik törədəcək sulardan içmək haramdır. İnsanın yuyunduğu suların da təmiz olması daha yaxşıdır. Üfunətli və bulaşıq sulardan imkan həddində çəkinmək lazımdır.

Ayaqyoluna getməyin (təxəllinin) hökmləri

Məsələ 63: İstər ayaqyolunda, istərsə də başqa vaxtlar, istər məhrəm (bacı və qardaş kimi), istərsə də naməhrəmlərin gözü qabağında, istər büluğ həddinə çatanların, istər büluğ həddinə çatmayanların, hətta yaxşını pisdən seçə bilməyən (müməyyiz) körpələrin hüzurunda insanın öz ayıb yerini örtməsi vacibdir. Amma ər və arvadın bir-birindən örtünməsi vacib deyil.

Məsələ 64: Ayıb yeri örtmək üçün hər şeydən, hətta əl və qeyri-şəffaf əşyalardan istifadə etmək olar.

Məsələ 65: Ayaqyolunda sidiyə gedən və bayıra çıxan vaxt üzü qibləyə və ya arxası qibləyə oturmaq olmaz. Ayıb yerin özünü çevirmək kifayat etmir. Amma bədən üzü qibləyə və arxası qibləyə olmayan vaxt vacib ehtiyata əsasən, ayıb yer üzü qibləyə və arxası qibləyə çevrilməməlidir.

Məsələ 66: Sidik və ya nəcis çıxacağını yuyan vaxt üzü qibləyə və ya arxası qibləyə olmağın eybi yoxdur. Amma "istibra" (sidik kanalının şəriət qaydasında təmizlənməsi) zamanı vacib ehtiyata əsasən üzü qibləyə və ya arxası qibləyə oturmaq olmaz.

Məsələ 67: Böyüklər körpələri, vacib ehtiyata əsasən, bayıra çıxdıqları və ya sidiyə getdikləri vaxt üzü qibləyə və ya arxası qibləyə oturtmamalıdırlar. Amma uşaq özü həmin vəziyyətdə otursa mane olmaq vacib deyil. Amma bu iş görülsə daha yaxşıdır.

Məsələ 68: Əgər ayaqyolu (bilərəkdən və ya səhvən) üzü qibləyə və ya arxası qibləyə tikilmişsə insan elə oturmalıdır ki, üzü qibləyə və ya arxası qibləyə olmasın. Bu məsələni bilərəkdən fərqinə varmamaq haramdır.

Məsələ 69: Ayaqyoluna gedən zaman qibləni tanımayan şəxs onu tapmağa çalışmalıdır. Əgər tapa bilməzsə, bir qədər gözləməlidir. Gözləyə bilmədikdə istənilən bir tərəfə üz tutub oturmasının eybi yoxdur. Təyyarə və qatarda da bu nöqtə nəzərə alınmalıdır.

Məsələ 70: Bir neçə yerdə sidiyə getmək və ya bayıra çıxmaq haram sayılır:

1. İnsanların gediş-gəlişi olan küçə və xiyabanlarda;

2. Xüsusi bir qrup üçün vəqf olunmuş, hədiyyə edilmiş yerlərdə; Tələbələrə məxsus mədrəsələr, namaz qılanlar üçün nəzərdə tutulmuş məscid tualetləri bu qəbildəndir.

3. Mö'minin qəbri üstündə və ya mö'min və müqəddəsliklərə hörmətsizlik sayılacaq yerlərdə.

Məsələ 71: Nəcis çıxacağını yumaqla, üç parça kağız, daş və ya parça ilə təmizləmək olar. Amma nəcis çıxacağı adi həddən artıq bulanarsa, nəcislə birlikdə qan kimi bir murdar şey xaric olarsa və ya kənardan murdarlanarsa, onu yalnız su ilə paklamaq olar.

Məsələ 72: Nəcis çıxacağını istənilən bir halda su ilə yumaq daha yaxşıdır.

Məsələ 73: Sidik çıxacağı yalnız su ilə paklanır. Onu az su ilə iki dəfə, axar su hökmündə olan çox həddinə qoşulmuş sularla bir dəfə yumaq bəsdir.

Məsələ 74: Sidik və nəcisin təbii və ya qeyri-təbii (plastik) çıxacaqlarının yuyulması arasında fərq yoxdur. Amma qeyri-təbii çıxacağı sudan başqa şeylə təmizləmək bəs etmir.

Məsələ 75: Əgər nəcis çıxacağı üç parça, daş, kağız və ya bu kimi bir şeylə təmizləndikdən sonra ondan yalnız su vasitəsi ilə təmizlənə biləcək zərrələr qalarsa, eybi yoxdur, bu vəziyyətdə namaz qılmaq olar.

Məsələ 76: Bir parça daş, kağız və ya parçanın üç tərəfi ilə nəcis çıxacağını təmizləmək bəs edir.

Məsələ 77: İnsan şəkk etsə ki, sidik və ya nəcis çıxacağını paklayıb-paklamayıb, şəkdən sonra özünü paklamalıdır. Amma namaz qıldıqdan sonra bu barədə şəkk edərsə, namazı düzgündür. Növbəti namaz üçün isə özünü paklamalıdır.

İstibra (sidik kanalının şər'i qaydada təmizlənməsi)

Məsələ 78: İstibra kişilərə aid müstəhəb bir əməldir. İnsan sidiyə getdikdən sonra növbəti qaydada istibra əməlini yerinə yetirir: Cinsi alət bir neçə dəfə kökündən üzü yuxarıya sıxılmış halda sığallanır. Sonra yuxarı hissə bir neçə dəfə sıxılır ki, kanalda qalan sidik xaric olsun. Spermanın (məni) istibrası üçün isə sperma xaric olduqdan sonra sidiyə getmək lazımdır. Bu halda kanalda qalan hissə təmizlənir.

Məsələ 79: İnsanın cinsi alətindən xaric olan rütubətlər (sidik və spermadan başqa) bir neçə qisimdir:

1. Bə'zən sidikdən sonra azca ağ və yapışqan şəkilli su xaric olur. Bu su "vəd'i" adlanır.

2. Mazaqlaşma zamanı xaric olan rütubət "məz'i" adlanır;

3. Spermadan sonra xaric olan rütubət "vəz'i" adlanır.

Əgər kanal sidik və spermaya bulaşıq deyilsə, qeyd olunan bu üç rütubət pakdır, dəstəmaz və qüslü batil etmir.

Məsələ 80: Sidikdən sonra istibranın faydası budur ki, sidik kanalı təmizlənir. Əgər istibradan sonra şübhəli rütubət xaric olarsa, o, pakdır və dəstəmazı batil etmir. Amma istibra olunmadığı bir halda belə bir rütubət görünərsə dəstəmazı təzələmək, sidik çıxacağını yumaq lazımdır.

Məsələ 81: Spermadan istibranın faydası budur ki, kanaldan şübhəli rütubət xaric olduqda və onun sperma, yoxsa başqa bir pak su olduğu bilinmədikdə, qüsl vermək lazım olmur. Amma istibra edilməyibsə, spermanın kanalda qalıb sidiklə birlikdə xaric olduğu ehtimal edildikdə yenidən qüsl vermək lazım gəlir.

Məsələ 82: İnsan şəkk etsə ki, istibra əməlini yerinə yetirib-yetirməyib, şübhəli rütubətlərdən çəkinməlidir. İstibra etdiyi halda onu düzgün edib-etməməsində şəkk etsə, şəkkinə e'tina etməməlidir.

Məsələ 83: Qadın üçün istibra yoxdur. Ondan şübhəli rütubət xaric olarsa, bu rütubət pakdır, dəstəmaz və qüslə ehtiyac yoxdur.

Ayaqyolunda bəyənilən (müstəhəb) və bəyənilməyən (məkruh) əməllər

Məsələ 84: İnsanın sidiyə gedərkən və ya bayıra çıxarkən kimsə tərəfindən qətiyyən görünməyən bir yerdə oturması müstəhəbdir. Sidiyə gedərkən və ya bayıra çıxarkən başı örtmək müstəhəbdir.

Məsələ 85: Sidiyə gedərkən və ya bayıra çıxarkən aşağıdakı hallar bəyənilmir (məkruhdur):

1. Meyvə ağaclarının altında oturmaq;

2. İnsanların gediş-gəliş məhəllində oturmaq (kimsə görməsə belə);

3. Evlərin ətrafında oturmaq;

4. Günəş və ayla üzbəüz oturmaq (ayıb yerini örtsə məruh deyil);

5. Çox oturmaq;

6. Zərurət olmadığı halda danışmaq (amma bütün hallarda Allah zikri yaxşı sayılır) ;

7. Ayaq üstə sidiyə getmək;

8. Suya, xüsusilə hərəkətsiz suya sidiyə getmək;

9. Heyvanların yuvasına sidiyə getmək;

10. Sidiyi sıçradacaq bərk yerə və külək qarşısında sidiyə getmək.

Məsələ 86: Sidiyə getmək və bayıra çıxmaq lazım gəldikdə bunun qarşısını almaq bəyənilmir. Bu işin zərəri olsa, insan üçün nöqsanı var.

Məsələ 87: Yuxudan və namazdan qabaq, sperma xaric olduqdan sonra sidiyə getmək bəyənilən işdir.

Murdar şeylər

Məsələ 88: Vacib ehtiyata əsasən, on bir şey murdardır: Sidik, nəcis, sperma, heyvan ölüsü, qan, it, donuz, kafir, məstedici mayelər, piyvə, murdar şey yeyən heyvanın təri.

1, 2. Sidik və nəcis

Məsələ 89: İnsanın və atıcı qanı olan əti haram heyvanın sidiyi və nəcisi murdardır. Hətta atıcı qanı olmayan, əti haram heyvanın da sidiyindən çəkinmək vacib ehtiyatdır. Amma ağcaqanad, milçək və bu kimi kiçik həşəratların nəcisi pakdır. Bu əsasla siçovul, pişik və yırtıcı heyvanların nəcisindən çəkinmək lazımdır.

Məsələ 90: Murdar yemiş heyvanın sidiyi və nəcisi murdardır. Vacib ehtiyata əsasən, insanın cinsi yaxınlıq etdiyi heyvanın da sidiyi və nəcisi murdar sayılır.

Məsələ 91: Donuz südü içmiş qoyunun sidik və nəcisindən çəkinmək lazımdır.

Məsələ 92: Əti halal və haram quşların ifrazatı və sidiyi murdar deyil. Amma müstəhəb ehtiyata əsasən, əti haram quşların, xüsusi ilə yarasanın (gecə quşunun) sidiyindən çəkinmək lazımdır.

3. Sperma (məni)

Məsələ 93: İnsanın və atıcı qanı olan heyvanın sperması murdardır. Bu heyvanların ətinin halal və ya haram olmasının fərqi yoxdur. Hətta atıcı qanı olmayan heyvanların spermasından da çəkinmək vacib ehtiyatdır.

4. Heyvan ölüsü

Məsələ 94: Atıcı qanı olan heyvanın ölüsü murdardır. Heyvan ölüsü dedikdə özü ölmüş heyvan nəzərdə tutulur. Amma şəriət qaydasınca yox, başqa bir qaydada kəsilmiş heyvan pakdır. Ondan çəkinmək müstəhəb ehtiyatdır. Beləcə, qeyri-İslami ölkələrdən gətirilən heyvan əti və dəri pak sayılır. Amma bu ətlərdən yemək haramdır. İnsan həmin heyvanların şəriət qaydasınca kəsildiyinə əmin olsa və ya həmin əti gətirən şəxs onun şər'i qaydada kəsildiyini bildirsə, ondan yemək olar.

Məsələ 95: Ölü heyvanın yun, tük və dırnaq kimi ruhsuz hissələri pakdır. Amma zədələndikdə ağrı verən sümük, diş (bir hissəsi), buynuz kimi ruhu olan hissələrdən çəkinmək yaxşıdır.

Məsələ 96: Diri insan və heyvanın ruhu olan bədən hissəsi bədəndən ayrılarsa, murdardır. Bədəndən ayrılan azca ət də murdar sayılır.

Məsələ 97: İnsanın dodağından, başından, bədəninin başqa yerlərindən qopan dərilər pakdır. Amma güclə qoparılmış dəridən vacib ehtiyata əsasən çəkinmək lazımdır.

Məsələ 98: Ölmüş toyuğun yumurtalığından çıxan yumurda pakdır. Bir şərtlə ki, onun qabığı bərkimiş olsun. Amma həmin yumurtanı suya çəkmək lazımdır.

Məsələ 99: Əgər quzu və çəpiş ot yemək həddinə çatanadək ölsə, onun qursağındakı pendir mayası pakdır. Amma həmin mayanı vacib ehtiyata əsasən suya çəkmək lazımdır.

Məsələ 100: Müsəlman bazarında satılan və ya müsəlmanın hədiyyə etdiyi ətlər pak və halaldır. Bu ətlərə münasibətdə araşdırma aparmaq lazım deyil. Amma mə'lum olsa ki, həmin müsəlman bu əti kafirdən alıb və lazımınca diqqət göstərməyib, ondan yemək haramdır. Qeyri-İslami ölkələrdən gətirilən dərilər pakdır, amma onlarla namaz qılmaq olmaz.

Məsələ 101: Qeyri-İslami ölkələrdən gətirilən yağ, pendir, dərmanlar, sabunlar, kremlər, parçalar, ətirlər və bu kimi başqa şeylər pakdır. Yalnız əminlik varsa, onları pak saymamaq olar.

5. Qan

Məsələ 102: İnsanın və atıcı qanı olan hər bir heyvanın qanı murdardır. Amma balığ və ilan kimi atıcı qanı olmayan heyvanların, eləcə də ağcaqanadın qanı pakdır.

Məsələ 103: Əti halal olan heyvanın başını şəriət qaydasınca kəssələr və onun qanı adi həddə axıb getsə, bədəndə qalan qan pakdır. Amma əgər başını kəsən zaman heyvanın başını bədənindən hündür yerə qoyduqları üçün və ya heyvanın nəfəs çəkməsi səbəbindən qan geri qayıtsa, vacib ehtiyata əsasən həmin qandan çəkinmək lazımdır.

Məsələ 104: Vacib ehtiyata əsasən, toyuq yumurtasındakı qan murdardır və onu yemək haramdır.

Məsələ 105: Süd sağarkən süddə görünən qan murdardır və bu qan südü də murdarlayır.

Məsələ 106: Əgər damaqdan və ya ağızın başqa bir hissəsindən çıxan qan ağız suyunda həll olub itərsə, pakdır. Bu halda ağız suyunu udmaq da olar. Amma bu iş bilərəkdən görülməməlidir.

Məsələ 107: Əgər dəri və dırnaq əzildikdə onların altında qan ölərsə və artıq onu qan saymazlarsa, həmin qan pakdır. Amma onu yenə qan adlandırarlarsa, dərinin və dırnağın altında olduğu vaxt dəstəmaz və qüsl üçün mane yaratmır. Əgər qan toplanan yer deşilərsə ciddi bir zərər və əziyyət olmadıqda onu çıxarmaq lazımdır. Qanı çıxarmaq ciddi əziyyətə səbəb olduqda dəstəmaz və qüsl üçün onun ətrafını yuyub üzərinə parça qoymaq, parçanın üzərindən əli yaş halda çəkmək lazımdır. Ehtiyat budur ki, təyəmmüm də edilsin.

Məsələ 108: Əgər insan dərinin altındakı ləkənin ölü qan və ya əzilmiş ət olduğunu bilməsə, həmin ləkə pak sayılır.

Məsələ 109: Dərini qaşımaq səbəbindən yaranan və ya yaranın ətrafında görünən sarımtıl suyun qan və ya qana qatışıq olması mə'lum deyilsə, o su pakdır.

Məsələ 110: Yara yuyulduqdan və ya sağaldıqdan sonra görünən qırmızı rəngli dəri pakdır. Yalnız onda qan olduğuna əminlik varsa, pak sayılmaz.

6,7. İt və donuz

Məsələ 111. Adi (suda yaşamayan) it və donuz murdardır. Onların hətta tükü, pəncəsi, dırnağı və rütubəti murdardır. Amma su iti və dəniz donuzu pakdır.

Məsələ 112: Bu iki murdar heyvandan, yə'ni it və donuzdan doğulan heyvan eləcə də, onlardan başqa bir heyvanla cütləşməsindən doğulan bala it və donuz adlanmazsa pakdır.

8. Kafir və kafir hökmündə olanlar

Məsələ 113: Kafir, yə'ni Allahı və ya İslam Peyğəmbərini (s) qəbul etməyən, Allaha şərik qoşan şəxs yəhudilik və məsihilik kimi səmavi dinlərdən birini qəbul etsə də, ehtiyata əsasən, murdardır.

Məsələ 114: Allaha və İslam Peyğəmbərinə (s) inandığı halda bə'zən şübhələrə düçar olub araşdırma aparan şəxslər pakdırlar və həmin şübhələrin zərəri yoxdur.

Məsələ 115: Bir şəxs İslamın dini zərurətlərini, yə'ni bütün müsəlmanların qəbul etdiyi məad, namaz və oruc kimi mövzuları inkar edərsə, onların zəruriliyini bilirsə, kafirdir və onların zəruriliyinə şübhə edirsə, kafir deyil. Müstəhəb ehtiyata əsasən belələrindən çəkinmək lazımdır.

Məsələ 116: Yuxarıda kafirin murdar olduğu bildirildi. Bu murdarlıq onun bədəninə, hətta tükünə və dırnağına da aiddir.

Məsələ 117: İslam cəmiyyətində yaşayan bir şəxsin e'tiqadından xəbərsiziksə o pak sayılır. Onun əqidəsini araşdırmaq lazım deyil. Qeyri-İslami cəmiyyətlərdə isə bir şəxsin müsəlman və ya kafir olduğu mə'lum deyilsə, həmin şəxs pakdır.

Məsələ 118: Kafirlərin övladları da valideynləri ilə eyni hökmdədir. Amma müsəlman övladları, hətta təkcə atası müsəlman olan körpə pakdır. Övladın təkcə anası müsəlman olarsa, ehtiyata əsasən ondan çəkinmək lazımdır.

Məsələ 119: Əgər bir şəxs Allahın, Peyğəmbərin (s), mə'sum imamların və ya xanım Fatimənin (ə) ünvanına təhqiramiz söz deyərsə və ya onlarla düşmənçilik edərsə, kafirdir.

Məsələ 120: Həzrət Əli (ə) və digər imamlara münasibətdə ifrata varan, onları Allah sayan və ya Allahın sifətlərini onlara aid edən kəs kafirdir.

Məsələ 121: (Vəhdəti-vücud) əqidəsində olanlar, yə'ni bütün varlıq aləmini Allahın vücudu və bütün mövcudları eynən Allah sayanlar, Allahın insan və digər mövcudlarda hüluluna (görünməsinə) inananlar, Allahı cisim sayanlardan vacib ehtiyata əsasən, çəkinmək lazımdır.

Məsələ 122: Mə'sum imamlarla düşmənçilik etməyən, onlara münasibətdə ifrata varmayan, xəvaric əqidəsindən savayı bütün İslam firqələri pakdır.

9. Məstedici maye

Məsələ 123: Şərab və insanı məst edən istənilən bir maye vacib ehtiyata əsasən, murdardır. Amma əsli maye olmayan tiryək, həşiş kimi məstedici narkotik maddələr pakdır. Onlar su qatılmaqla maye halına salınsa belə murdar sayılmaz. Amma bu kimi maddələrdən istifadə etmək haramdır.

Məsələ 124: Məstedici mayedən alınması bilinməyən tibbi və texniki spirt pakdır. Tibbi və texniki spirtlə hazırlanmış adikolonlar, ətirlər və dərmanlar da pak sayılır.

Məsələ 125: İçilməsi mümkün olmayan, zəhərli spirtlər murdar deyil. Amma onu durulaşdırsalar, şərab və məstedici maye halına salsalar içilməsi haramdır və ehtiyata əsasən murdar sayılır.

Məsələ 126: Əgər üzüm suyu öz-özünə qaynasa (qaynama adətən şərab hazırlanması üçün müqəddimədir) murdar olur və onu içmək haramdır. Amma o və bu kimi başqa vasitə ilə qaynadılsa murdar sayılmaz, amma onu içmək haramdır. Xurma, mövücz, kişmiş suyu da vacib ehtiyata əsasən belədir.

Məsələ 127: Əgər xurma, mövücz və kişmişi yeməklə birlikdə qaynadarlarsa, onu yeməyin eybi yoxdur.

10. Piyvə

Məsələ 128: Arpadan alınmış spirtli içki "piyvə" adlanır, onu içmək haramdır və piyvə şərab kimi murdar sayılır. Amma tibbi məqsədlə arpadan alınan və "mauş-şəyir" adlanan su məstedici deyil, pak və halaldır.

Məsələ 129: Tibdə istifadə edilən toz şəkilli piyvə mayası məstecidi deyil, pak və halaldır.

11. Murdar yemiş heyvanın təri

Məsələ 130: Murdar yemiş dəvənin, hətta başqa heyvanların da təri vacib ehtiyata əsasən murdardır.

Haram yolla cünub olmuş (özündən sperma xaric etmiş) şəxsin təri

Məsələ 131: Zina, livat (homoseksualizm), istimna kimi haram yollarla cünub olmuş şəxsin təri murdar deyil. Amma vacib ehtiyata əsasən belə bir tərlə nəmlənmiş bədən və ya libasla namaz qılınmamalıdır.

Məsələ 132: Müstəhəb ehtiyata əsasən, haram yolla cünub olanın tərindən çəkinmək lazımdır. Bu ehtiyata riayat üçün qüsl zamanı bədən

tərləməsin deyə ilıq su ilə qüsl vermək daha yaxşıdır. Əlbəttə, az su ilə qüsl verdikdə bu şərt nəzərə alınmalıdır. Amma kürr və kürr kimi sularla qüsl verdikdə suyun isti olmasının eybi yoxdur. Müstəhəb ehtiyata əsasən, bu halda qüslü bitirdikdən sonra bütün bədəni bir dəfə suya çəkmək yaxşıdır.

Məsələ 133: Aybaşı günlərində və mübarək ramazan ayında gündüzlər yaxınlıq etmək haramdır. İnsan belə bir yaxınlıq zamanı tərləyərsə vacib ehtiyata əsasən bu təri haram yolla cənabət təri saymalıdır.

Məsələ 134: Haram yolla cənabət təri dedikdə yaxınlıq zamanı, yaxınlıqdan sonra qüsl verənədək görünən tər nəzərdə tutulur.

Məsələ 135: Haram yolla cünub olmuş şəxs su olmadığından, vaxtın azlığından və ya başqa bir səbəblə təyəmmüm edərsə, bədəninin təri pak olar, belə bir vəziyyətdə namaz qıla bilər.

Murdarlığın sübuta yetmə yolları

Məsələ 136: Bir şeyin murdar olması üç yolla sübuta yetir:

1. İnsan buna əmin olmalıdır. Hətta ciddi bir güman bəs etmir. Bu əsasla, insan murdar zənn etdiyi yeməkxanalarda xörək yeyə bilər. Orada murdarlığa əminlik olarsa çəkinmək lazımdır.

2. Mal sahibi (ev sahibi, satıcı və ya xidmətçi) ixtiyarında olan şeyin murdarlığını bildirərsə kifayatdir.

3. İki, hətta bir nəfər ədalətli şəxs şəhadət verərsə kifayatdir.

Məsələ 137: Öncə pak olmuş bir şeyin sonradan murdarlanmasına şəkk edilərsə, həmin şey pakdır. Öncə murdar olmuş bir şeyin sonradan paklandığı şəkk edilərsə, həmin şey murdardır.

Məsələ 138: Əgər insan ixtiyarında olan iki qab və ya iki libasdan birinin murdarlandığına əmindirsə və hansı birinin murdarlandığını bilmirsə, hər ikisindən çəkinməlidir. Amma öz libası və ya istifadəsində olan başqa birinə məxsus libaslardan hansı birinin murdarlandığını bilməzsə, onlardan çəkinməməlidir.

Məsələ 139: Vasvası insanlar paklıq-murdarlıq məsələsində öz baxışın əhəmiyyət verməməlidirlər. Onlar adi şərtlərin hansı hallarda bir şeyi pak və ya murdar saymasını əsas götürməlidirlər. Vasvasılıqdan uzaqlaşmaq üçün ən yaxşı yol e'tinasızlıqdır.

Məsələ 140: İslam şəriəti paklıq-murdarlıq məsələlərinə ifrat diqqət yetirilməsini bəyənmir, vasvasılıq yaradacaq həddə ehtiyatı nöqsan sayır.

Məsələ 141: İnsan bir şeyin murdarlanmasını güman etdikdə araşdırma aparmamalı, sual verməməlidir. Əgər həmin axtarış vasvasılığa səbəb olarsa bəyənilmir.

Məsələ 142: Paklıq-murdarlıq qaydalarına riayat etməklə yanaşı müstəhəbdir ki, bədənin, libasın, evin, məskənin, miniyin və bütün yaşayış mühitinin təmizliyi gözlənilsin. İslam Peyğəmbəri (s) və mə'sum imamlar bu nöqtəyə əhəmiyyət vermişlər.

Murdarlığın sirayat etmə səbəbləri

Məsələ 143: Əgər pak bir şey murdar bir şeyə toxunarsa və onlardan biri rütubətli olarsa, pak şey murdarlanar. Əgər hər iki şey quru olarsa və ya rütubət yaşdan quruya sirayat edəcək həddə olmazsa, murdara toxunan pak şey pak qalar. (Amma meyyit qüslundan öncə hətta quru şəraitdə meyitə toxunmamaq vacib ehtiyatdır.)

Məsələ 144: Əgər pak şeyin murdar şeyə toxunmasına və ya onların rütubətli olmasına şəkk varsa, toxunma zamanı pak şey murdarlanmaz.

Məsələ 145: Xalça və ya libasın hansı hissəsinin murdarlandığı bilinmirsə, onun bir hissəsinə toxunan əl murdarlanmaz. İki şeydən biri murdardırsa və onlardan hansının murdar olduğu bilinmirsə, toxunduqdan sonra hər ikisi murdar sayılmaz.

Məsələ 146: Torpaq, parça və ya bu kimi başqa bir şey rütubətli olduğu vaxt ona murdar şey toxunarsa, həmin toxunan hissə murdar sayılar. Amma rütubət elə bir həddə olarsa ki, bir yerdən o birinə sirayat etsin, həmin şey bütövlükdə murdar sayılar. Xiyar, qarpız, qatıq və bu kimi şeylər çox rütubətli olmazsa, yalnız murdara toxunan hissə murdarlanar.

Məsələ 147: Yağ və şirə axıcı olarsa, bir nöqtəsi murdarlandıqda bütünlüklə murdar sayılar. Əgər axıcı olmazsa, rütubət bir yerdən o birinə sirayat etmədiyindən yalnız toxunan hissə murdar sayılar. Həmin murdar hissəni götürüb atmaq olar.

Məsələ 148: Əgər milçək və ya onun kimi başqa bir həşərat rütubətli murdar bir şeyin üzərindən qalxıb pak bir yerə qonarsa, həmin həşəratın ayağının rütubət götürməməyini düşündükdə onun qonduğu yer murdar sayılmaz. Əgər həşəratın öz ayağında murdar şey apardığını və onun qonduğu yerə sirayat etdiyini biləriksə, həmin yer murdar sayılar.

Məsələ 149: Bədənin tərli yeri murdarlansa tərin sirayat etdiyi yerlər murdar sayılar.

Məsələ 150: Burundan və ya boğazdan gələn bəlğəm qatı olarsa qan olan nöqtə murdar sayılar. Əgər axıcı olarsa, bütünlüklə murdardır.

Məsələ 151: Əgər altı deşik qab murdar yerə qoyularsa, ondakı su təzyiqlə xaric olduğu vaxt qabın içi murdarlanmaz.

Məsələ 152: İynə kimi bir şey bədənin daxilində qan kimi murdara toxunarsa bayıra çıxarılarkən bulaşıq olmasa da, vacib ehtiyata əsasən murdar sayılar. Ağız və burun suyu ağız və burunun daxilində qana toxunarsa ehtiyata əsasən bu sudan çəkinmək lazımdır.

Məsələ 153: Sidiyə batmış əl kimi murdarlanmış şey rütubətli halda pak şeyə toxunarsa onu da murdarlayar.

Murdarların hökmləri

Məsələ 154: Əvvəla, murdar bir şeyi yemək və ya içmək haramdır. Spirtli içkilər kimi murdarın əslini uşaqlara içirtmək də haramdır. Murdarlanmış şeyi vacib ehtiyata əsasən uşaqlara da vermək olmaz. Amma bir şey onların öz əlilə murdarlanarsa eybi yoxdur.

Məsələ 155: Murdar şeyi satmağın və ya istifadəyə verməyin eybi yoxdur. Bu barədə mə'lumat vermək də zəruri deyil. Amma əgər bir şeyi alan və istifadəyə götürən şəxsin həmin şeydən yeməkdə, namazda və bu kimi sahələrdə istifadə edəcəyi bilinərsə, vacib ehtiyata əsasən, murdarlığı e'lan etmək lazımdır. Bir şey istifadəyə götürən şəxsin yanında murdarlanarsa, onu geri qaytaran vaxt eyni şəkildə rəftar olunur.

Məsələ 156: Əgər insan bir şəxsin xəbərsiz halda murdar şey yediyini və ya murdar libas və paltarla namaz qıldığını görərsə, ona bildirməsi vacib deyil. Amma qonaq rütubətli libas və bədənlə murdar xalça üzərində oturmaq istəyərsə ehtiyata əsasən ona e'lan etmək lazımdır.

Məsələ 157: Əgər ev sahibi yemək əsnasında yeməyin murdar olduğunu anlayarsa, vacib ehtiyata əsasən, qonaqlara deməlidir. Amma qonaqlardan biri yeməyin murdar olduğunu başa düşərsə, yalnız özü çəkinməli, o birilərə deməməlidir. Amma həmin adamlarla ünsiyyətdədirsə murdarlığın ona keçməməsi üçün yeməkdən sonra onlara e'lan edə bilər. Məqsəd bu olmalıdır ki, onlar əl və ağızlarını suya çəksinlər.

Məsələ 158: İkincisi, Qur'anın yazısını və vərəqini murdarlamaq haramdır. Murdarlanmış Qur'an yazısı və vərəqini dərhal suya çəkmək lazımdır. Qur'an cildinin murdarlanması Qur'ana hörmətsizliyə səbəb olarsa, bu iş də haram sayılar.

Məsələ 159: Qur'anı murdar yerə qoymaq ona hörmətsizliyə səbəb olarsa, bu iş haramdır və Qur'anı həmin yerdən götürmək lazımdır.

Məsələ 160: Murdar mürəkkəblə Qur'an yazmaq haramdır. İnsan bilərəkdən və bilməyərəkdən bu işi görərsə, ya həmin yazını məhv etməli, ya da suya çəkməlidir.

Məsələ 161: Qur'anın kafirin əlinə verilməsi ona hörmətsizlik sayılarsa bu iş haramdır. Əgər kafirin bu yolla doğru yola gələcəyinə ümid varsa və ya bu yolla İslam təbliğ edilirsə, ona Qur'anı vermək olar, hətta bu iş vacibdir.

Məsələ 162: Qur'an vərəqi, dua və ya Allahın, Peyğəmbərin (s) və mə'sum imamların adı yazılmış vərəq murdar yerə düşərsə, onu dərhal götürmək və suya çəkmək lazımdır. Bu işin xərci ağır olarsa və ya həmin iş mümkünsüz olarsa, vacib ehtiyata əsasən, məsələn, həmin yazı ayaqyoluna düşdükdə onun çürüyüb aradan getməsinə əmin olanadək, həmin ayaqyolundan istifadə edilməməlidir.

Məsələ 163: Qur'anın vərəqini paklamaq yalnız onu murdarlayanın vəzifəsi deyil. Qur'an vərəqinin murdarlanmasından xəbər tutan hər kəs onu paklamağa vəzifəlidir. Bu vəzifəni biri yerinə yetirdikdə o birilərin öhdəsindən götürülür. Amma Qur'an başqasına məxsus olduqda paklanarkən korlanarsa, onu murdarlayan şəxs zərəri ödəməlidir.

Məsələ 164: İmam Hüseynin türbətini murdarlamaq haramdır. Murdarlanmış türbəti paklamaq vacibdir. Türbət murdar yerə düşdükdə 162-ci məsələdə göstərilmiş qaydada hərəkət etmək lazımdır.

Məsələ 165: Dördüncüsü, məscidi murdarlamaq haramdır, murdarlanmış məscidi paklamaq vacibdir. Bu Məsələ məscidin hökmləri bəhsində namaz qılanın yeri haqqında danışılarkən ətraflı şərh olunacaq.

Məsələ 166: Beşincisi, namaz qılan şəxsin bədəni, libası və səcdə yeri pak olmalıdır. Bu Məsələ namaz qılanın libası və məkanı bəhsində şərh ediləcək.

Məsələ 167: Bir şəxs öz ixtiyarında olan malın murdar və ya pak olduğunu bildirərsə, onun sözünü qəbul etmək lazımdır. Onun ədalətli olub-olmaması şərt deyil. Sadəcə, həmin şəxs büluğ həddində olmalıdır və büluğ həddinə çatmayan birinin sözləri qəbul deyil. Amma bir şəxsin dediklərindən əminlik yaranarsa, büluğ həddi şərt sayılmaz.

Pakedicilər ("Mutəhhirat")

Məsələ 168: Murdarı paklayan şeylər pakedici adlanır. On iki şey pakedicidir: su, torpaq, günəş, əslinin dəyişilməsi ("istihalə"), növün dəyişməsi ("inqilab"), üçdə birin qalması, köçürmə ("intiqal"), İslamın qəbulu, tə'sirlənmə ("təbəiyyət), murdarın əslinin təmizlənməsi, murdar yemiş heyvanın istibrası, murdardan təmizlənməsi, müsəlmanın qeyb olması. Bu pak edicilərin hökmləri növbəti Məsələlərdə açıqlanacaq.

1. Su

Məsələ 169: Pak və saf su bütün murdarları paklayır. Bir şərtlə ki, murdar şey yuyulduqda su bulaşmasın, onun qoxusu, rəngi və ya dadı murdardan tə'sirlənməsin. Pak və saf su murdar şeyi o zaman təmizləyir ki, suya çəkməklə murdarın əsli təmizlənsin. Məsələn, əgər bir şeydə qan varsa, o qədər yuyulmalıdır ki, qan təmizlənsin. Az su ilə yuyarkən başqa şərtlər də qoyulur. Bu barədə sonra danışılacaq.

Məsələ 170: Murdar qab az su ilə üç dəfə yuyulmalıdır. Amma onu kürr və ya axar su ilə bir dəfə yumaq bəs edir. Bununla belə, üç dəfə yumaq daha yaxşıdır. (Su boruları ilə axıdılan su axar su hökmündədir.)

Məsələ 171: Əgər it bir qabı yalamışsa və ya ondan su, başqa bir maye içmişsə, öncə həmin qabı bir qədər su ilə qatışmış torpaqla sürtmək, sonra ya az su ilə iki dəfə, ya da kürr və ya axar su ilə bir dəfə yumaq lazımdır. Əgər itin ağzının suyu bir qaba tökülərsə, müstəhəb ehtiyata əsasən,

yuxarıda deyilən qaydada hərəkət edilməlidir. Amma itin bədəninin başqa bir hissəsi və ya rütubəti qaba toxunarsa, həmin qabı torpaqla sürtmək vacib deyil. Həmin qabı az su ilə üç dəfə, kürr və ya axar su ilə bir dəfə yumaq bəs edir.

Məsələ 172: İtin ağzının toxunduğu qabın ağzı darsa və onu torpaqla sürtmək imkanı olmasa, imkan olan şəraitdə bir çubuğa parça sarıyıb yaş torpağı həmin parça ilə qabın içinə sürtmək lazımdır. Bu iş mümkün olmazsa, qaba bir qədər torpaq və bir qədər su töküb onu çalxamaq lazımdır. Sonra isə yuxarıda deyilən qayda ilə hərəkət olunur.

Məsələ 173: Bir qabdan donuz hər hansı bir maye içərsə, həmin qab yeddi dəfə yuyulmalıdır. Bu qabı torpaqla sürtmək lazım deyil. Qabı donuz yaladıqda və ya onda səhra siçovulu öldükdə də vacib ehtiyata əsasən həmin qab yeddi dəfə yuyulmalıdır.

Məsələ 174: Şərabla murdarlanmış qabı az su ilə üç dəfə yumaq və əllə sürtmək lazımdır. Həmin qabı yeddi dəfə yumaq müstəhəbdir.

Məsələ 175: Murdar gildən düzəlmiş və ya murdar su tökülmüş kuzə kürr və ya axar suya daxil edilərsə, su onun içinə daxil olub çıxarsa, bu kuzə pakdır. Su qabın içinə nüfuz etmədiyi halda onun zahiri paklanır. Qabın zahirini az su ilə də paklamaq olar.

Məsələ 176: Qabları paklamaq üçün onları az su ilə üç dəfə doldurub boşaltmaq kifayat edər. Ya da hər dəfə bir qədər su töküb onu elə hərəkət etdirmək lazımdır ki, su bütün murdar yerləri əhatə etsin. Sunra həmin su bayıra tökülür.

Məsələ 177: Küp və qazan kimi böyük qabları paklamaq üçün onları üç dəfə su ilə doldurub boşaltmaq bəs edər. Daha asan yol budur ki, hər dəfə bu qabların divarları yuxarıdan aşağıya suya çəkilsin və onların dibində yığışan su bayıra atılsın. Onların dibindən suyu götürmək üçün istifadə edilən qab hər dəfə yuyulmalıdır.

Məsələ 178: Dəmir əridilən vaxt murdarlanarsa da, suya çəkildikdə zahiri paklanar.

Məsələ 179: Murdarlanmış təndiri paklamaq üçün onu yuxarıdan aşağıya bir dəfə suya çəkmək bəs edər. Bir şərtlə ki, onun bütün ətrafı yuyulmuş olsun. Amma təndir sidiklə murdarlanarsa onu iki dəfə yumaq lazımdır. Yaxşı olar ki, onun dibində çala qazılsın və paklama zamanı axıdılan su həmin çalaya toplansın. Su həmin çaladan çıxarıldıqdan sonra onu torpaqla doldurmaq lazımdır.

Məsələ 180: Murdar şeydən murdarın əslini təmizləmək üçün onu kürr və ya axar su ilə yusalar, ya da murdarın əsli təmizləndikdən sonra onu kürr və ya axar suya salsalar, paklanar. Amma xalça, libas və bu kimi şeyləri paklamaq üçün onları sıxıb suyunu xaric etmək lazımdır.

Məsələ 181: Sidiklə murdarlanmış şeyi paklamaq üçün onu az su ilə iki dəfə, kürr və axar su ilə bir dəfə yumaq kifayatdir. Sidikdən başqa şeylərlə murdarlanan əşyanı isə az və ya kürr su ilə bir dəfə yumaq bəs edər.

Məsələ 182: Libas, xalça və bu kimi şeyləri az su ilə yumaq üçün onları bir qədər sıxmaq lazımdır ki, suyu xaric olsun.

Məsələ 183: Bir şey yeməyə başlamamış südəmər körpənin sidiyi ilə murdarlanarsa həmin şeyin üzərinə bir dəfə su axıtmaq onu paklayar. Belə bir sidiklə murdarlanmış libas, xalça və bu kimi şeyləri sıxmaq lazım deyil. Amma müstəhəb ehtiyat budur ki, iki dəfə su axıdılsın.

Məsələ 184: İplə toxunmuş həsir murdarlandıqda onu kürr və axar suya batırsalar, ya da su kəmərindən axar suya tutsalar, murdarın əsli təmizləndikdən sonra paklanar.

Məsələ 185: Əgər buğda, düyü, sabun və bu kimi şeylər zahirən murdarlanarsa, onları kürr və ya axar suya batırdıqda, eləcə də su kəmərindən axan suya tutduqda paklanar. Əgər murdarlıq onların daxilinə nüfuz edərsə, onları suya batırdıqda və ya suya tutduqda o qədər gözləmək lazımdır ki, suyun onların daxilinə nüfuz edib xaric olduğuna əminlik yaransın.

Məsələ 186: Şübhə varsa ki, murdar su bir şeyin daxilinə nüfuz edib, yoxsa yox, həmin şeyin daxili pakdır.

Məsələ 187: Murdarlanmış şeyi bir qaba qoyub üzərinə üç dəfə su töküb boşaltsalar, həmin şey paklanar. Bu vaxt qab da paklanır. Əgər murdarlanmış şey suyu sıxılıb çıxarılası libas kimi şeydirsə, onu hər dəfə sıxmaq lazımdır. Həmin vaxt qabı maili qoymaq lazımdır ki, su axıb tökülsün.

Məsələ 188: Əgər murdarlanmış libas rəngləndikdə onu kürr və axar suya batırıb, ya da su kranına tutsalar, rəng suya çıxanadək su bütün libası islatdıqda onu paklayır. Libası sıxarkən ondan qatqılı su xaric olsa eybi yoxdur. Amma az su bütün libası islatmazdan öncə bulaşarsa, libası o qədər yumaq lazımdır ki, o saf su ilə islanmış olsun.

Məsələ 189: Xalça və ya libası suya çəkdikdən sonra onda azca sabun və ya başqa əşya görünərsə, pakdır. Həmin əşya böyük olduqda onun zahiri pak sayılır. Əgər murdar su həmin əşyanın daxilinə nüfuz edərsə, onun paklanması üçün pak su ona nüfuz edib xaric olmalıdır.

Məsələ 190: Əgər murdar şeyi yusalar və murdarın əsli təmizlənsə, onda murdarın qoxusunun və rənginin qalmasının eybi yoxdur. Əgər murdarın əslinin qalması ilə bağlı şübhə yaransa, əminliyə çatanadək yumaq lazımdır.

Məsələ 191: Bədəni kürr və ya axar, eləcə də kran suyunda yuyarkən murdarın əsli təmizlənsə bəs edər. Sudan çıxıb ikinci dəfə suya girmək lazım deyil.

Məsələ 192: Murdar qida dişlərin arasında qalarsa, su ağızda dolandırılmaqla onu tamam əhatə etdikdə ağız paklanır.

Məsələ 193: Əgər başın və üzün tükü az su ilə suya çəkildikdə öz-özünə axıb gedərsə onları sıxmaq lazım deyil. Əgər öz-özünə axıb getməzsə, onları sıxmaq lazımdır.

Məsələ 194: Murdarlanmış ət və quyruğu suya çəkdikdə paklanır. Bədən və ya libasda suya mane olmayacaq qədər yağ olarsa onları suya çəkdikdə paklanar. Amma yağ suya mane olacaq həddədirsə, öncə onu təmizləmək lazımdır.

Məsələ 195: Kürr su ilə əlaqəli kranın suyu kürr və axar su hökmündədir. Bu su ilə istənilən bir şey yuyulduqda murdarın əsli təmizləndikdən sonra paklanır.

Məsələ 196: İnsan bir şeyi suya çəkdikdən və onun paklanmasına əmin olduqdan sonra düzgün suya çəkib-çəkməməsilə bağlı şübhəyə düşərsə, həmin şey pakdır. Amma murdar şeyi suya çəkən zaman diqqətsizlik göstərdiyini bilərsə, o işi yenidən görməlidir.

Məsələ 197: Qum və çınqıllı yeri az su ilə suya çəkdikdə axan su yerə hoparsa yer paklanar. Amma alt qatdakı dənəciklər murdar qalar. Əgər yer mailli olsa və axıdılan su onun üzərində qalmazsa həmin yer paklanar. Amma suya çəkərkən su bir yerə yığışıb qalarsa müəyyən vasitə ilə götürülməsə murdardır.

Məsələ 198: Daş duz və ona oxşar şeylərin zahiri murdarlandıqda suya çəkilərsə paklanar. Onları az və kürr su ilə suya çəkməyin, kran altına tutmağın fərqi yoxdur.

Məsələ 199: Qənd və şəkər tozu murdarlanarsa suya çəkməklə paklanmaz.

2. Yer

Məsələ 200: Əgər murdar yerlə yol getdiyi üçün insanın ayağının və ya ayaqqabısının altı murdarlanarsa, pak yerlə yeriməklə və ya yerə sürtməklə paklanar. Bir şərtlə ki, yer pak və quru olsun, murdarın əsli təmizlənsin. Eyni zamanda yerin torpaq, daş, kərpic və ya beton olması lazımdır. Xalça, həsir, çəmənlik üzərində yeriməklə ayaqqabının və ya ayağın altı paklanmaz.

Məsələ 201: Taxta döşənmiş yer üzərində hərəkət etməklə ayaqqabı və ya ayağın altının paklanması çətindir. Amma asfalt üzərində yeriməklə paklana bilər.

Məsələ 202: Ayaq və ya ayaqqabının altının paklanması üçün bir qədər yol getmək və ya ayağı yerə sürtmək bəs edər. Amma yaxşı olar ki, ən azı on beş zira-yeddi tam onda beş metr yol gedilsin.

Məsələ 203: Ayaq və ya ayaqqabının altının rütubətli olması zəruri deyil. Onlar quru olsalar da yol yeriməklə paklanarlar. Yerdə sirayat etməyəcək həddə rütubətin olması mümkündür.

Məsələ 204: Əgər yolda ayaqqabı və ya ayağın ətrafı murdarlanarsa, həmin yerlər yerə toxunmaqla paklanar. Amma əl və dizlər üzərində yeriməklə onların paklanması çətindir. Sü'ni ayaqlar, əsa (əl ağacı), dördayaqlıların nalı, avtomobil təkərləri də bu qəbildəndir.

Məsələ 205: Murdarın yalnız su ilə paklanan xırda zərrələri ayaqqabı və ya ayaqda qalarsa eybi yoxdur. Murdarın qoxu və rənginin də qalması mümkündür.

Məsələ 206: Yol yeriməklə ayaqqabının içindəki murdarlıq paklanmır. Yol yeriməklə corabın altının da paklanmasına irad var. Yalnız corab dəri və bu kimi şeylərdən olsa və ayaqqabı əvəzinə istifadə edilsə paklana bilər.

3. Günəş

Məsələ 207: Günəş şüası yeri və dam örtüyünü paklayır. Amma günəş şüası vasitəsi ilə binanın, qapı-pəncərələrin və bu kimi şeylərin paklanmasına irad var.

Məsələ 208: Yerin və dam örtüyünün günəş şuası ilə paklanması üçün bir neçə şərt var:

1. Murdarlanmış şeyin islanma yolu olsun. Əgər həmin şey qurudursa öncə onu islatmaq lazımdır ki, günəş şuası onu qurutsun.

2. Öncə murdarın əslini təmizləmək lazımdır.

3. Günəş bulud arxasından yox, birbaşa işıq saçmalıdır. Günəş şüasına mane olmayan buludlar və ya şüşə arxasından şüalanmanın eybi yoxdur.

4. Rütubətli murdar yerin günəş şüası ilə quruması zəruridir. Bu rütubət külək və ya başqa istilik vasitəsi ilə quruyarsa bəs etməz. Amma həmin rütubət günəş şüası ilə quruyacaq həddə az olarsa eybi yoxdur.

Məsələ 209: Günəş şüası murdarlanmış həsiri, ağacı, otu, vacib ehtiyata əsasən, paklamır.

Məsələ 210: Murdarın günəş şüası ilə quruyub-qurumadığına, günəş şüasına hər hansı maneçilik olub-olmadığına, murdarın əslinin öncədən təmizlənib-təmizlənmədiyinə şübhə varsa, həmin yer murdardır.

Məsələ 211: Əgər günəş şüası murdar yerin bir hissəsini əhatə edib qurudarsa, həmin hissə paklanar.

4. Əslin dəyişməsi ("istihalə")

Məsələ 212: Əgər murdarın əsli elə dəyişilsə ki, ona başqa ad verilsin, paklanmış sayılar. Məsələn, it duzluğa düşüb duza çevrilərsə paklanar. Murdarlanmış şey başdan-başa dəyişdikdə paklanır. Məsələn, murdar ağac yanıb kül olarsa, murdar su buxara çevrilərsə paklanar. Amma forma dəyişikliyi, məsələn, buğdanın una çevrilməsi onu paklamır.

Məsələ 213: Murdar ağacdan hazırlanmış kömür murdardır. Eləcə də, murdar gildən düzəldilmiş kuzə və kərpic murdar sayılır.

Məsələ 214: Əgər murdar bir şeyin istihalə olub-olmadığına şəkk etsək, onu murdar saymalıyıq.

5. Hal dəyişməsi (“inqilab”)

Məsələ 215: Əgər şərab öz-özünə və ya ona bir şey tökməklə sirkəyə çevrilsə, pak olur və belə bir dəyişmə “inqilab” adlanır.

Məsələ 216: Murdar üzümdən çəkilmiş şərab sirkəyə çevrilsə paklanmır. Hətta şərab xaricdən murdarlanarsa sirkəyə çevrildikdən sonra ondan çəkinmək lazımdır. Eyni zamanda, murdar üzüm, kişmiş və xurmadan hazırlanmış sirkə murdardır.

Məsələ 217: Üzümü çöpləri ilə sirkəyə töksələr, adətən, sirkə olmazdan qabaq şəraba çevrilir. Bu maye daha sonra sirkə halına düşür. Bu vaxt pak olur. Amma xiyar, badımcan və bu kimi şeyləri sirkəyə tökərlərsə vacib ehtiyata əsasən ondan çəkinmək lazımdır.

Məsələ 218: Yeməyə tökülmüş kişmiş və xurma qaynasa belə halaldır.

4. Üçdə birin azalması

Məsələ 219: Üzüm suyu odda qaynasa murdar olmaz. Amma onu yemək haramdır. Amma qaynadığı vaxt üçdə ikisi azalarsa və üçdə biri qalarsa halal olar. Əgər öz-özünə qaynayıb məstedici olarsa, həm murdar, həm də haramdır. Bu maye yalnız sirkəyə çevrilməklə pak və halal olur.

Məsələ 220: Əgər qora salxımında üzüm gilələri olarsa və su bütün salxımı əhatə edərsə, ona “abqura” deyərlər və bu maye qaynamaqla murdar və haram olmaz.

Məsələ 221: Əgər bir şeyin qora və üzüm olması mə’lum deyilsə, odda qaynadıqda haram olmaz.

Məsələ 222: Satıcı bu Məsələlərdən xəbərdar olduqda ondan alınan şirə pak və halaldır, axtarışa ehtiyac yoxdur.

7. Köçürmə (“intiqal”)

Məsələ 223: Əgər insanın və ya atıcı qanı olan heyvanın qanı atıcı qanı olmayan heyvanın bədəninə köçərsə və həmin heyvanın qanı sayılarsa pakdır. Bu proses köçürmə (“intiqal”) adlanır. Bu əsasla, ağcaqanadın bədənindən sayılan qan insandan götürülsə belə pakdır. Amma zəlinin insandan sorduğu qan pak deyil. Çünki bu qan onun bədənindən sayılmır.

Məsələ 224: Əgər ağcaqanaddan çıxan qanın yenicə sorulduğu və ya öz bədənindən olduğu mə’lum deyilsə, pakdır. Amma qan nə qədər ki, ağcaqanadın öz bədənindən sayılmır, murdardır.

8. İslamın qəbulu

Məsələ 225: Murdarlar haqqında danışarkən qeyd etdik ki, vacib ehtiyata əsasən, kafirdən çəkinmək lazımdır. Əgər kafir şəhadət kəlmələrini söyləsə ("Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rəsulullah") müsəlman olar və bədəni paklanar. Amma bədənində murdarın əsli olarsa, onu təmizləyib yerini suya çəkməlidir. İslamı qəbul etməzdən qabaq bədənindən murdarı təmizləyərsə, onu suya çəkməsi lazım deyil.

Məsələ 226: Kafir İslamı qəbul etdikdə, vacib ehtiyata əsasən, onun əynindəki paltar paklanmır.

Məsələ 227: Şəhadət kəlmələrini dilə gətirməsə də, onları qəlbən qəbul edən kafir müsəlman olur. Amma bir kafir şəhadət kəlmələrini dilə gətirdiyi halda onun qəlbən iman gətirməsinə yəqinlik olmasa, vacib ehtiyata əsasən ondan çəkinmək lazımdır.

9. Təsirlənmə ("təbəiyyət")

Məsələ 228: Təsirlənmə dedikdə bir şeyin o birinin paklanmasından təsirlənib paklanması nəzərdə tutulur.

Məsələ 229: Əgər şərab sirkəyə çevrilsə, şərab və ya üzüm qaynayan zaman onunla təmasda olan qab da paklanar. Onun ağzına qoyulan və adətən rütubətlə murdarlanan parça və başqa şey də paklanar. Amma əgər qaynama zamanı maye bayıra xaric olub qabın çöl hissəsini bulaşdırsa, sirkəyə çevrildikdən sonra qabın çöl hissəsi paklanmaz.

Məsələ 230: Kafir ata iman gətirdikdən sonra onun büluğ həddinə çatmamış övladları da pak olur.

Məsələ 231: Meyitə verilən qüsl başa çatdıqdan sonra üzərində qüsl verilən daş, meyitin ayıb yerinin örtüldüyü parça, qüsl verənin əli paklanır.

Məsələ 232: Əgər libas və onun kimi başqa bir şeyi az su ilə suya çəkib adi qaydada sıxsalar onun canında qalmış su pakdır.

Məsələ 233: Əgər murdar qab az su ilə suya çəkilərsə, işin sonunda onda qalan damcılar pakdır.

10. Murdarın əslinin ("eyni-nəcasət") təmizlənməsi

Məsələ 234: Heyvanın bədəni murdarlanarsa, murdarın əsli təmizləndikdən sonra onun bədəni paklanar. Məsələn, quşun dimdiyi qana batarsa və ya heyvan murdar bir şey üzərində oturarsa, qan və həmin bulaşıqlıq təmizləndikdən sonra heyvanın bədəni pak olur.

Məsələ 235: İnsan bədəninin ağız içi və burun içi kimi hissələri murdarlanarsa, murdarlıq təmizləndikdən sonra pak olar. Məsələn, əgər diş laylarından çıxan qan ağız suyu ilə təmizlənərsə və ya tüpürcəklə xaric edilərsə, ağızı suya çəkmək lazım deyil. Amma ağızda sü'ni diş olduqda vacib ehtiyata əsasən onu suya çəkmək lazımdır.

Məsələ 236: Əgər qida ağızda və diş layları arasında qalarsa, ağıza daxil olan qanın həmin qidaya sirayat etdiyi bilinmədikdə qida pakdır. Amma əgər qan ona sirayat edərsə murdarlanar və onu udmaq haramdır.

Məsələ 237: Bədənin iç və çöl hissəsindən olduğu bilinməyən bir hissə, (Məsələn, dodağın bir hissəsi) murdarlanarsa onu suya çəkmək lazımdır.

Məsələ 238: Əgər murdar toz-torpaq bədən, libas, xalça və bu kimi şeyləri bulaşdırarsa, hər ikisi quru olduqda murdarlıq yaratmaz. Bu toz-torpağı çırpmaqla təmizləmək bəs edir. Arada sirayat etməyəcək həddə rütubət varsa da belədir. Amma əgər toz-torpaq və onun toxunduğu şeylərdən biri murdar olarsa murdarlıq yaranar. Toz-torpağın murdarlığına və ya yerin rütubətli olmasına şəkk varsa, onlar pak sayılır.

11. Murdar yemiş heyvanın təmizlənməsi (istibra")

Məsələ 239: Əgər bir heyvan insan nəcisi yeməyə adət etsə, onun sidiyi və nəcisi murdar olar. Belə bir heyvanın əti də haramdır. Onu paklamaq üçün pak şeylərlə qidalandırmaq lazımdır. Belə ki, artıq o "murdar yeyən heyvan" adlandırılmasın. Belə bir qayda ilə heyvanın paklanması "istibra" adlanır. İstibra müddəti dəvə üçün qırx gün, inək üçün otuz gün, qoyun üçün on gün, ördək üçün beş gün, ev toyuğu üçün üç gün müəyyənləşdirilmişdir. Murdarla qidalanan başqa heyvanların üzərindən o ad götürülənədək onları pak qidalarla qidalandırmaq lazımdır.

Məsələ 240: Bə'zən fabriklərdə ev quşlarının qidasına toz şəklində qan qatılır. Belə ki, toyuğun əti bu qida ilə artır. Bu sayağı qidalanan toyuqların əti və yumurtası haram deyil, rütubəti murdar sayılmır. Amma yaxşı olar ki, belə bir toyuqdan və onun yumurtasından pəhriz edilsin.

Məsələ 241: Əgər heyvan, başqa murdardan yeyərsə bu qidalar onun sidiyini və nəcisini murdar etməz. Belə bir heyvanın əti də haram deyil. Yalnız donuz sidiyi ilə qidalanıb inkişaf edən heyvanın əti haramdır.

12. Müsəlmanın qeyb olması

Məsələ 242: Bədəni, libası və ya ixtiyarında olan başqa bir şeyi murdarlanan və bunu bilən müsəlman qeyb olarsa (onunla əlaqə saxlamaq mümkün olmazsa), onun murdarlanmış şeyləri suya çəkdiyini ehtimal etdikdə, həmin şeylər pakdır. Bir şərtlə ki, həmin şeylər üçün (namaz qılınan paltar, qab-qacaq) paklıq şərt sayılsın.

Məsələ 243: Əgər ədalətli kişi və ya bir şəxs murdar şeyin paklandığını bildirərsə, onların şəhadəti qəbuldur. Malın sahibi malın paklandığını bildirərsə və ya bir müsəlmanın onu suya çəkdiyini bilərikə, düzgün suya çəkildiyini bilməsək də həmin şey pakdır.

Məsələ 244: Əgər insan öz libasını yumaq və suya çəkmək üçün müsəlman camaşırxanasına versə, onun sözü libasın pak sayılması üçün bəs edir.

Məsələ 245: Vasvasılıqdan əziyyət çəkən, bir şeyin murdarlanmasına tez inanan, bir şeyi suya çəkərsə onun paklanmasına əmin olmayan insanların əminliyi e'tibarsızdır. Onlar başqaları kimi əmin olmaqla kifayatlənə bilərlər.

Qabların hökmləri

Məsələ 246: Ölü və ya it və donuz kimi murdarın əsli olan heyvanların dərisindən hazırlanan qablar və tuluqlarda içmək, dəstəmaz və qüsl üçün su saxlamaq olmaz. Amma paklıq tələb etməyən suvarma kimi işlərdə bu qəbil qablardan istifadə etmək olar. Amma müstəhəb ehtiyat odur ki, onlardan heç bir iş üçün istifadə edilməsin.

Məsələ 247: Qızıl və gümüş qablarda yemək və digər işlər üçün istifadə etmək haramdır. Vacib ehtiyata əsasən, onlardan otağı bəzəmək və ya başqa məqsədlərlə istifadə etmək olmaz.

Məsələ 248: Qızıl və gümüş qablar hazırlamaq və bu iş müqabilində pul almaqdan, vacib ehtiyata əsasən çəkinmək lazımdır. Bu qəbil qabların alqı-satqısından əldə olunan pula da irad var.

Məsələ 249: Qab sayılmayan stəkan altı, qılınc qını kimi şeylər qızıl və gümüşdən hazırlanarsa eybi yoxdur. Amma vacib ehtiyat budur ki, qızıl və gümüşdən hazırlanmış ətir qabı və sürmə qabı kimi şeylərdən pəhriz edilsin.

Məsələ 250: Qabın qızıl və ya gümüş suyuna çəkilməsinin eybi yoxdur.

Məsələ 251: Əgər hər hansı metala qızıl və gümüş qatıldıqdan sonra ondan qab hazırlanarsa, bu qablar qızıl və gümüş qab sayılmadığı halda onlardan istifadə etmək olar. Amma təkcə qızıl gümüşə qatıldıqda onlardan hazırlanmış qabdan istifadə etmək haramdır.

Məsələ 252: Qızıl və ya gümüş qabda olan qidanı haramdan çəkinmək üçün başqa bir qaba töksələr, həmin yeməkdən istifadə etmək olar. Əgər xörəyin qabı başqa məqsədlə dəyişdirilərsə, ondan istifadə etmək haramdır.

Məsələ 253: Naçar qaldıqda, qızıl və gümüş qabdan istifadə etmək olar. Təqiyyə (əqidəni gizlətmək) məqsədi ilə də o qablardan dəstəmaz və qüsl üçün istifadə etmək olar.

Məsələ 254: Əgər bir qabın qızıl-gümüşdən və ya başqa bir metaldan olduğu mə'lum deyilsə, onlardan istifadə etmək olar və axtarışa ehtiyac yoxdur.

Məsələ 255: Ağ qızıl adlanan qızıl da qırmızı və sarı qızıl hökmündədir. Vacib ehtiyata əsasən, ona qızıl deyilirsə pəhriz etmək lazımdır. Amma platin başqa metaldır və ondan istifadə etmək olar.

Dəstəmaz

Dəstəmaz almağın qaydası

Məsələ 256: Dəstəmaz üz və əlləri yumaqdan, başın qabaq hissəsi və ayaqlara məsh çəkməkdən ibarətdir.

Məsələ 257: Üzü alının yuxarı hissəsindən, yə'ni tük bitən hissədən çənənin qurtaracağınadək yumaq lazımdır. Üz orta və baş barmaq əhatə edəcək endə yuyulmalıdır. Əgər bundan az miqdar yuyularsa dəstəmaz batildir. Bu səbəbdən də arxayınlıq olsun deyə deyilən miqdardan bir qədər artıq yumaq yaxşıdır.

Məsələ 258: Orta və baş barmaq arası dedikdə adi barmaqlar nəzərdə tutulur. Əgər bir şəxsin orta və baş barmaqları adi barmaqlardan çox uzun və çox gödəksə barmaqlarını ölçü götürməməli, insanların adətən yuduğu həddə yumalıdır. Saçı çox yuxarıdan və ya çox aşağıdan bitən insanlar başqalarının yuduğu adi həddi gözləməlidir.

Məsələ 259: Üz və əllər elə yuyulmalıdır ki, su bədənin dərisinə çatsın. Əgər dəridə maneə varsa bu maneə aradan qaldırılmalıdır. Hətta maneə olduğu güman edilsə, axtarış aparmaq lazımdır.

Məsələ 260: Saqqalı olan kişilər tüklər arasından üzünün dərisi göründükdə suyu dəriyə çatdırmalıdır. Əgər tüklər arasından dəri görünmürsə tüklərin üzərindən yumaq bəs edir və suyu dəriyə çatdırmaq lazım deyil.

Məsələ 261: Əgər bir şəxs üzündəki tükdən dərinin görünüb-görünməməsinə şübhə edərsə, vacib ehtiyata əsasən, hər ikisini yumalıdır.

Məsələ 262: Burunun içini, dodağın bir hissəsini, qapanarkən görünməyən gözü yumaq vacib deyil.

Məsələ 263: Üzü yuduqdan sonra sağ qolu dirsəkdən barmaqların ucunadək yumaq lazımdır. Sonra isə sol qol eyni qayda ilə yuyulur.

Məsələ 264: Üzü və qolları yuxarıdan aşağıya yumaq lazımdır. Onları aşağıdan yuxarıya yuduqda dəstəmaz batil olur.

Məsələ 265: Əgər əlin yaşlığı elə bir həddə olarsa ki, onun üzə və əllərə çəkilməsinə yumaq deyilsin, belə bir yumaq bəs edir.

Məsələ 266: Dirsəyin tam yuyulmasına əmin olmaq üçün onu bir qədər yuxarıdan yumaq lazımdır.

Məsələ 267: Adətən, üzü yumazdan öncə əlləri yuyurlar. Amma əllərin üzdən öncə yuyulması dəstəmaz üçün bəs etmir. Üz yuyulduqdan sonra sağ və sol qollar yuyularkən əllər də yuyulur. Əgər üzü yuduqdan sonra qolu əl topuğunadək yusalar dəstəmaz batildir.

Məsələ 268: Dəstəmazda üzü və əlləri bir dəfə yumaq vacibdir. Vacib ehtiyata əsasən, üz və əllər ikinci dəfə yuyulmamalıdır. Üçüncü dəfə və daha artıq yumaq isə haramdır. Birinci dəfə yumaq dedikdə üz və qolların

bir və ya bir neçə ovuc su ilə tam yuyulması nəzərdə tutulur. Üzvlər tam yuyulduqdan sonra bir dəfə sayılır.

Məsələ 269: Qolları yuduqdan sonra əldə qalmış dəstəmaz suyu ilə başın qabaq hissəsinə məsh çəkilir. Vacib ehtiyata əsasən, məsh sağ əllə çəkilməlidir. Yaxşı olar ki, məsh yuxarıdan aşağıya çəkilsin. Amma aşağıdan yuxarıya məsh çəkmək də olar.

Məsələ 270: Alının yuxarısında başın ön hissəsi məsh yeridir. Bu hissənin istənilən qədərinə məsh çəkmək bəs edir. Amma müstəhəb ehtiyat budur ki, uzununa bir barmaq uzunluqda, eninə üç yanaşı barmaq qədər məsh çəkilsin.

Məsələ 271: Başın dərisinə və ya onun tüklərinə məsh çəkmək olar. Amma bir şəxs saçını daradıqda tüklər üzünü örtürsə və ya başın digər yerlərinə çatırsa tüklərin dibinə məsh çəkməlidir. Yaxşı olar ki, dəstəmazdan öncə başın orta hissəsi ayrıcla açılsın. Belə etdikdə sol əli yuduqdan sonra saç və ya onun dərisinə rahatlıqla məsh çəkmək olur.

Məsələ 272: Başa məsh çəkdikdən sonra ayaqlara məsh çəkmək növbəsi çatır. Əldə qalan rütubətlə ayaqlara barmaqların başından ayağın dik hissəsinə qədər məs çəkilir. Vacib ehtiyata əsasən, oynağa qədər məsh çəkmək lazımdır.

Məsələ 273: Sahə baxımından barmaq ölçüsündə məsh çəkmək kifayatdir. Amma yaxşı olar ki, üç bağlı barmaq enində məsh çəkilsin. Amma ayağın üzərinə tam şəkildə bütün əlin içi ilə məsh çəkmək daha yaxşıdır. Əli ayağın üzərinə qoyub azca çəkmək bəs edər.

Məsələ 274: Baş və ayaqlara məsh çəkmək üçün əli onların üzərinə qoyub başı və ya ayaqları hərəkət etdirmək vacib ehtiyata əsasən, dəstəmazı batil edir. Amma məsh çəkən zaman baş və ayağın azca tərpənməsinin eybi yoxdur.

Məsələ 275: Məsh yeri quru olmalıdır. Amma məsh yerində azca rütubət olarsa və məsh zamanı əlin suyu üstünlük təşkil edərsə bunun eybi yoxdur.

Məsələ 276: Əgər əldəki rütubət qurusa, onu başqa üzvlərdəki dəstəmaz suyu ilə isladıb məsh çəkmək olar. Amma kənar su ilə bu işi görmək olmaz. Əgər əldəki rütubət yalnız başa məsh çəkməyə bəs edirsə, başa məsh çəkdikdən sonra digər üzvlərdə əli islatmaq olar.

Məsələ 277: Məsh ayağın dərisinə çəkilməlidir. Corabın və ya ayaqqabının üzərindən məsh çəkmək olmaz. Amma təqiyyə halında, soyuqdan və ya oğurluq qorxusundan corab və ayaqqabını çıxarmaq mümkün olmadıqda onların üzərindən məsh çəkmək olar. Ayaqqabının üzəri murdar olarsa onun üzərinə bir şey atıb onun üzərinə məsh çəkmək olar.

Məsələ 278: Ayağın üzü murdar olduqda və onu suya çəkmək mümkün olmadıqda, vacib ehtiyata əsasən, onun üzərinə pak bir şey qoyub həmin şeyin üzərində məsh çəkmək və sonradan təyəmmüm etmək lazımdır.

İrtimasi (“suya batmaqla) dəstəmaz

Məsələ 279: İnsan dəstəmaz almaq məqsədi ilə üzünü və qollarını suya batıra bilər. Üzü və qolları suya batırdıqdan sonra dəstəmaz niyyəti ilə onları sudan çıxartmaq da mümkündür. Belə bir dəstəmaz “irtimasi” dəstəmaz adlanır.

İrtimasi dəstəmazın hökmləri

Məsələ 280: İrtimasi dəstəmazda üzü və qolları yuxarıdan aşağıya yumaq lazımdır. Dəstəmaz niyyəti etdikdən sonra üzü alın hissədən, qolları dirsəkdən başlayaraq suya batırmaq lazımdır. Əgər sudan çıxararkən dəstəmaz niyyət olunarsa üz alın, qollar, dirsək hissəsindən sudan çıxarılmalıdır.

Məsələ 281: İrtimasi dəstəmazda baş və ayaqların başqa su ilə məsh olmaması üçün sağ və sol qollara irtimasi dəstəmaz alarkən niyyət edilir ki, sudan xaric olduqdan sonra qollarda cərəyanda olan su dəstəmazdandır. Başqa şəkildə baş və ayaqlara məsh iradlıdır.

Məsələ 282: Dəstəmaz üzvlərindən bə’zilərinə irtimasi, bə’zilərinə qeyri-irtimasi dəstəmaz almaq olar. Yaxşı olar ki, həmişə sol qola qeyri-irtimasi dəstəmaz alınsın. Belə edilsə baş və ayaqlara məsh üçün irad olmaz.

Dəstəmazın duaları

Məsələ 283: Yaxşı olar ki, dəstəmaz alan şəxs suya baxdıqda bu duanı oxusun:

“Bismillahi və billahi vəl-həmdu lillahil-ləzi cəələl-maə təhurən və ləm yəc’əlhu nəcisa.”

Dəstəmazdan öncə əllər yuyularkən deyilir:

“Allahumməc’əlni minət-təvvabinə vəc’əlni minəl-mutətəhhirin.” Suyu ağızda dolandırarkən (“məzməzə”) deyilir:

“Allahummə ləqqini huccəti yovmə əlqakə və ətliq lisani bizikrik.” Suyu burnuna alarkən (“istinşaq”) deyilir:

“Allahummə la tuhərrim ələyyə riyhəl-cənnətə vəc’əlni mimmən yəşummu rihəha və ruhəha və tiybəha”. Üzü yuyarkən deyilir:

“Allahummə bəyyiz vəchi yovmə təsvəddu fihil-vucuh və la tusəvvid vəchi yəvmə təbyəzzu fihil-vucuh.” Sağ qol yuyularkən deyilir:

“Allahummə ə’tini kitabi bi yəmini vəl-xuldə fil-cənani biyəsari və hasibni hisabən yəsira.” Sol qol yuyularkən deyilir:

“Allahummə la tu’tini kitabi bi şimali və la min vərai zəhri və la təc’əlha məğlulətən ila unuqi və əuzu bikə min muqəttiatin niyran.” Başa məsh çəkilərkən deyilir:

“Allahummə ğəşşini birəhmətikə və bərəkatikə və əfvik.” Ayaqlara məsh çəkilərkən deyilir:

"Allahummə səbbitni ələs-sirati yəvmə təzillu fihil-əqdamu vəc'əl sə'yi fima yurzikə ənni ya zəl-cəlali vəl-ikram."

Dəstəmazın şərtləri

Məsələ 284: Dəstəmazın on iki şərti var:

1. Dəstəmaz suyunun pak olması;

2. Dəstəmaz suyunun saf (mütləq) olması.

Murdar və ya qatqılı su ilə dəstəmaz batildir. İnsan bilməsə və ya bunu unutsa həmin dəstəmazla qıldığı namazı təzələməlidir.

Məsələ 285: Əgər saf su tapmaq mümkün deyilsə, təyəmmüm etmək lazımdır. İxtiyarda olan qatqılı su torpaqlıdırsa vaxt olduqda onu saflaşmasını gözləmək lazımdır. (Vacib ehtiyata əsasən)

Məsələ 286: **2**. (Üçüncü şərt) vacib ehtiyata əsasən, dəstəmaz suyu, dəstəmaz alınan fəza, dəstəmaz suyunun axdığı yer, dəstəmaz qabı halal (mübah) olmalıdır. Qəsb olunmuş su ilə və ya sahibinin razılığı bilinməyən su ilə dəstəmaz almaq iradlıdır.

Məsələ 287: Əgər su sahibi sudan istifadə üçün icazə vermişsə və insan bilmirsə ki, həmin şəxs fikrini dəyişib, yoxsa yox, onun aldığı dəstəmaz düzgündür.

Məsələ 288: Əgər dini elmlər mədrəsəsinin suyunun yalnız tələbələr üçün vəqf olunub-olunmadığı bilinmirsə, həmin su ilə dəstəmaz almaq iradlıdır. Amma əgər dindar insanlar adətən orada dəstəmaz alırsa, bu həmin suyun hamıya vəqf olunduğunu göstərir.

Məsələ 289: Bir şəxs məscid və hüseyniyyədə namaz qılmaq istəmirsə, oradakı suyun ümumi vəqf olduğunu, yoxsa yalnız namaz qılanlar üçün nəzərdə tutulmasını bilmədiyi halda həmin su ilə dəstəmaz ala bilməz. Ticarət binası və mehmanxanadakı suyun oranın sakinləri üçün nəzərdə tutulub-tutulmadığı bilinmirsə, orada dəstəmaz almaq olmaz. Amma dindarların adətən orada dəstəmaz almasından həmin yerin vəqf olduğu qənaəti yaranarsa, dəstəmaz almaq olar.

Məsələ 290: Əgər bir şəxs tələbə olmasa da tələbələrin qonağıdırsa, həmin mədrəsədə dəstəmaz ala bilər. Bir şərtlə ki, belə bir qonağın qəbulu vəqf şərtlərinə zidd olmasın. Mehmanxana və ticarət mərkəzinin qonağı olan şəxs də orada dəstəmaz ala bilər.

Məsələ 291: Həm böyük, həm də kiçik arxlarda dəstəmaz almaq olar. İnsan arx sahibinin razı olub-olmadığını bilməsə eybi yoxdur. Amma arx sahibi qəti şəkildə orada dəstəmaz alınmasını qadağan edərsə, vacib ehtiyata əsasən, bu işdən çəkinmək lazımdır. Əgər bir arxın məcrası onun sahibindən icazəsiz dəyişdirilmişdirsə, orada ehtiyatən dəstəmaz almamaq yaxşıdır.

Məsələ 292: Bir şəxs suyun qəsbi olduğunu unudub orada həmin su ilə dəstəmaz alarsa, dəstəmazı düzgündür. Amma suyu özü qəsb etmiş olsa aldığı dəstəmaza irad var.

Məsələ 293: Əgər bir şəxs suyu öz malı bilib dəstəmaz alarsa və sonradan suyun başqa birinə məxsus olduğunu anlayarsa, aldığı dəstəmaz düzgündür, amma suyun qiymətini sahibinə ödəməlidir.

Məsələ 294: 4. (Dördüncü şərt) dəstəmaz alınan qab vacib ehtiyata əsasən, qızıl və gümüşdən olmamalıdır.

Məsələ 295: Dəstəmaz suyu qəsbi və ya qızıl-gümüş qabda olarsa və başqa bir su əldə etmək mümkün olmazsa, təyəmmüm etmək lazımdır. Bu qəbil qablarla alınan dəstəmaza irad var. Həmin qablarla irtimasi və ya qeyri-irtimasi dəstəmaz alınmasının fərqi yoxdur. Amma qızıl və ya gümüş qabda olan suyu başqa bir qaba töküb dəstəmaz almaq olar.

Məsələ 296: İnsan bir kərpic və ya bir daşı qəsbi olan hovuzda dəstəmaz alarsa, dəstəmazla qəsbə qatılmış sayılsa bu dəstəmaza irad var. Su kranı və ya su borusunun bir hissəsi qəsbi olduqda da belədir.

Məsələ 297: Əgər imam və imamzadələrin öncə qəbristan olmuş həyətində hovuz və ya arx düzəldilərsə, insan həmin yerin qəbristana vəqf olunduğunu bilməsə həmin hovuz və arxda dəstəmaz ala bilər.

Məsələ 298: **5**. (Beşinci şərt) Dəstəmaz üzvləri yuyulan və məsh çəkilən zaman pak olmalıdır. Amma bir üzvə dəstəmaz aldıqdan sonra həmin üzv murdarlanırsa, dəstəmaz düzgündür.

Məsələ 299: Dəstəmaz üzvlərindən başqa bir üzv murdarlandıqda bunun dəstəmaza tə'siri yoxdur. Amma müstəhəb ehtiyata əsasən, dəstəmazdan öncə sidik və nəcis çıxacağı paklanmalıdır.

Məsələ 300: Əgər dəstəmazdan öncə murdar olmuş dəstəmaz üzvünün paklanıb-paklanmadığına dəstəmazdan sonra şəkk edilərsə, dəstəmaz düzgündür. Amma namaz üçün onu suya çəkmək lazımdır. Həmin üzvə toxunmuş şey də paklanmalıdır.

Məsələ 301: Əgər üzdə və qollarda qanı kəsilməyən kəsik varsa və su ona zərərli deyilsə, həmin yeri kürr və ya axar suya batırmaq, ya da su kəmərindən gələn suyun altına tutmaq lazımdır. Onu o qədər sıxmaq lazımdır ki, qanı kəsilsin. Sonra isə öncə deyildiyi şəkildə irtimasi dəstəmaz almaq lazımdır. Amma su həmin kəsiyə zərərli olduqda qaydası sonradan deyiləcək cəbirə dəstəmazı alınmalıdır.

Məsələ 302: 6. (Altıncı şərt) Dəstəmaz və namaz üçün yetərincə vaxt olmalıdır. Əgər vaxt o qədər azsa ki, dəstəmaz alındıqda bütün namaz və ya onun bir hissəsi vaxtında qılınmayacaq, dəstəmaz əvəzinə təyəmmüm edilməlidir.

Məsələ 303: Namazın vaxtı dar olduqda vəzifəsi təyəmmüm olan şəxs dəstəmaz alsa, dəstəmazı batildir. Amma Qur'an oxumaq üçün dəstəmaz alarsa dəstəmazı düzgündür.

Məsələ 304: 7. (Yeddinci şərt) İnsan Allaha yaxınlaşmaq məqsədi ilə dəstəmaz almalıdır. Riyakarlıqla, özünü göstərmək məqsədilə, ya da sərinləşmək üçün alınan dəstəmaz batildir. Amma Allahın əmrini yerinə

yetirmək üçün dəstəmaz alan şəxs sərinləşəcəyini bilərsə bunun eybi yoxdur.

Məsələ 305: Dəstəmazda niyyəti dilə gətirmək və ya qəlbdən keçirmək vacib deyil. Əgər dəstəmaz alan şəxsdən nə iş gördüyü soruşulanda dəstəmaz aldığını bilərsə, bu kifayat edər.

Məsələ 306: Qadın naməhrəmlərin gördüyü yerdə dəstəmaz alarsa dəstəmazı batil deyil, amma günaha yol vermişdir.

Məsələ 307: 8. (Səkkizinci şərt) Dəstəmazda "tərtibə", yə'ni ardıcıllığa riayat olunmalıdır. Öncə üz, sonra sağ qol, daha sonra sol qol yuyulmalıdır. Bundan sonra başa və sonda ayaqlara məsh çəkilir. Ehtiyata əsasən, sol ayağa sağ ayaqdan öncə məsh çəkilməməlidir.

Məsələ 308: 9. (Doqquzuncu şərt) Dəstəmazdakı əməllər elə yerinə yetirilməlidir ki, onların ardıcıl yerinə yetirildiyi deyilsin. Belə etsə dəstəmaz düzgündür. Havanın istiliyi və külək dəstəmaz üzvünü qurudarsa da, dəstəmaz düzgündür. Məsələn, sağ qolunu yuduğu vaxt üzü quruyarsa, dəstəmaz düzgündür. Amma dəstəmaz əməllərini fasiləsiz yerinə yetirmədikdə dəstəmaz üzvləri qurumasa belə dəstəmaz batildir.

Məsələ 309: Dəstəmaz əsnasında yol getməyin eybi yoxdur. Üzü və qolları yuduqdan sonra bir neçə addım atıb sonra baş və ayaqlara məsh çəkmək olar.

Məsələ 310: 10. (Onuncu şərt) İnsan üzünü və qollarını özü yumalı, başına və ayaqlarına özü məsh çəkməlidir. Bu şərt "mübaşirət" adlanır. Əgər insan üçün bir başqası dəstəmaz alarsa, suyun üzə və qollara çatdırılmasında, başa və ayaqlara məsh çəkilməsində başqa birisi kömək edərsə dəstəmaz batildir. Amma dəstəmaza hazırlıqda kömək etməyin eybi yoxdur.

Məsələ 311: Özü dəstəmaz almağa qadir olmayan şəxs bir başqasının köməyindən istifadə etməlidir. Dəstəmaza kömək edən şəxs muzd istəsə güc çatan həddə ona muzd verilməlidir. Amma insan dəstəmazın niyyətini özü etməli, öz əli ilə məsh çəkməlidir. Əgər özü bu işi bacarmasa, bir başqası onun əlindən tutub məsh yerinə çəkməlidir. Bu da mümkün olmasa, şəxsin əlindəki rütubətdən götürüb həmin rütubətlə başına və ayağına məsh çəkmək lazımdır. Amma belə bir vəziyyətdə vacib ehtiyat budur ki, təyəmmüm də edilsin.

Məsələ 312: İnsan dəstəmazın təklikdə yerinə yetirə biləcəyi əməlində başqasının köməyindən istifadə etməməlidir.

Məsələ 313: **11**. (On birinci şərt) Sudan istifadədə hər hansı bir manea olmamalıdır. Əgər dəstəmaz alan şəxs suyun zərərindən qorxarsa və ya sudan dəstəmaz üçün istifadə edəcəyi təqdirdə susuz qalacağından ehtiyatlanarsa, təyəmmüm etməlidir.

Məsələ 314: Əgər insan dəstəmaz aldıqdan sonra suyun zərərli olduğunu başa düşərsə, dəstəmazı düzgündür.

Məsələ 315: Əgər az miqdarda suyun zərəri olmazsa, həmin miqdarda su ilə dəstəmaz almaq lazımdır. Əgər soyuq su zərərlidirsə, isti sudan istifadə edilməlidir.

Məsələ 316: **12**. (On ikinci şərt) Suyun dəstəmaz üzvlərinə çatmasına maneə olmamalıdır. Əgər bir şəxs dəstəmaz üzvünə nəyinsə yapışdığını bilirsə, amma həmin şeyin suya mane olub-olmadığına şəkdədirsə, həmin şeyi təmizləməlidir.

Məsələ 317: Əgər dırnağın altında azca çirk olarsa, onun dəstəmaza maneçiliyi yoxdur. Amma onu təmizləmək daha yaxşıdır; dırnağı tutsa, suyun bədənə çatmasına mane olan çirki təmizləməlidir. Əgər dırnaq adi həddən uzun olarsa dırnağın altında dəstəmaza mane olan çirk təmizlənməlidir.

Məsələ 318: Yanma və ya başqa bir səbəbdən dəstəmaz üzvlərində suluq kimi qabarıqlıq yaranarsa onu yumaq və üzərindən məsh çəkmək bəs edər. Həmin suluq deşildikdə suyu onun altında dəriyə çatdırmaq lazım deyil. Amma dərinin bir hissəsi qopduqda və qalxıb-yatdıqda suyu onun altına çatdırmaq lazımdır. Bir şərtlə ki, bu işin zərəri olmasın.

Məsələ 319: İnsan dəstəmaz üzvlərində maneə olduğunu ehtimal etdikdə və onun ehtimalı ağlabatan olduqda, araşdırma aparmalıdır. Məsələn, torpaqla və ya boya ilə işlədikdən sonra dəstəmaz üzvündə torpaq və ya rəng qalması ilə bağlı şəkk əsasında araşdırma aparmalıdır.

Məsələ 320: Suyun bədənə çatmasına mane olmayan rənglər dəstəmaza tə'sirsizdir. Amma bu rənglər mane olduqda və ya onların maneçiliyinə şəkk edildikdə, onları təmizləmək lazımdır.

Məsələ 321: Əgər barmaqdakı üzük, qoldakı qolbaq və bu kimi şeylər suyun dəstəmaz üzvlərinə çatmasına mane olmazsa, dəstəmaz düzgündür. Suyun dəriyə çatması üçün həmin əşyaları tərpətmək lazımdır. Əgər insan dəstəmazdan sonra dəstəmaz üzvlərində üzük və ya başqa maneə görsə və onların dəstəmaz vaxtı üzərində olub-olmadığını bilməsə, dəstəmazı düzgündür. Bir şərtlə ki, dəstəmaz zamanı bu şeylərə diqqətli olduğunu düşünsün.

Məsələ 322: Dəstəmazı başa çatdırdıqdan sonra şəkk yaransa ki, dəstəmazın bütün əməlləri yerinə yetirilib, yoxsa yox, eləcə də, dəstəmazın bütün şərtləri ödənib yoxsa yox, bu şəklərə e'tina etmək lazım deyil. Amma dəstəmaz əsnasında şəkk yaranarsa bu işi görmək lazımdır.

Dəstəmazın hökmləri

Məsələ 323: Dəstəmazlı şəxs dəstəmazın batil olub-olmadığına şəkk edərsə, dəstəmazının qaldığını qəbul etməlidir. Əgər dəstəmazı olmayan şəxs sonradan dəstəmaz alıb-almadığını şəkk edərsə, dəstəmazlı olmadığını qəbul etməlidir.

Məsələ 324: Bir şəxs dəstəmaz aldığını və dəstəmazı pozan bir iş gördüyünü düşünərsə, hansı birinin öncə baş verdiyini bilmədikdə dəstəmaz almalıdır.

Məsələ 325: Bir şəxs dəstəmaz əməllərinə və ya onun şərtlərinə (Məsələn, suyun pak olmasına, dəstəmaz üzvlərində suya maneə olmasında) çox şəkk edərsə, şəkkinə əhəmiyyət verməməli, başqaları kimi hərəkət etməlidir.

Məsələ 326: Əgər namazdan sonra şəkk yaranarsa ki, dəstəmaz alınmışdır, yoxsa yox, namaz düzgündür, amma sonrakı namazlar üçün dəstəmaz almaq lazımdır.

Məsələ 327: Əgər namaz arasında şəkk yaransa ki, dəstəmaz alınmışdır, yoxsa yox, vacib ehtiyata əsasən, namazı tamamlayıb sonradan dəstəmaz almaq və namazı təzələmək lazımdır.

Məsələ 328: Əgər insanda elə bir xəstəlik varsa ki, sidik damla-damla xaric olsun və ya nəcisin qabağını saxlaya bilməsin, namazın son vaxtınadək dəstəmaz və namaz üçün möhlət tapacağını bilsə, namazı həmin vaxt qılmalıdır. Belə bir şəxs namazın vacib hissələri ilə kifayatlənməli, möhlət olmadıqda azan, iqamə və qunutu tərk etməlidir.

Məsələ 329: Əgər dəstəmaz və namaz miqdarında möhlət olmasa, amma namaz gedişində bir neçə dəfə sidik və nəcis xaric olsa, həmin şəxs hər dəfə dəstəmaz almaq istəsə eybi yoxdur. Bu halda vacib ehtiyata əsasən, yanına su qabı qoymalı və hər dəfə sidik və ya nəcis xaric olduqda dəstəmaz almalıdır. Sonra namazın qalan hissəsini qıla bilər. Amma sidik və nəcis tez-tez xaric olarsa və insan üçün hər dəfə dəstəmaz almaq çətinlik törədərsə, bir dəfə dəstəmaz alması bəs edər.

Məsələ 330: Sidik və nəcis tez-tez xaric olduqda və hər dəfə dəstəmaz almağa imkan olmadıqda, bir dəstəmazla həm günorta, həm də ikindi namazlarını qılmaq olar. Ehtiyata əsasən, hər namaz üçün bir dəstəmaz almaq yaxşıdır.

Məsələ 331: Amma sidik və nəcis ixtiyari şəkildə xaric olarsa, insan dəstəmazını təzələməlidir.

Məsələ 332: Əgər bir şəxs xəstəlik səbəbindən bağırsaq yelinin qarşısını ala bilmirsə, sidik və nəcisin qarşısını ala bilməyənlərin vəzifəsinə əməl etməlidir.

Məsələ 333: Bir insandan sidik və nəcis ardıcıl şəkildə xaric olursa, bu şəxs hər dəstəmazdan sonra dərhal namaza başlamalıdır. Belə bir şəxs ehtiyat namazı, yaddan çıxmış səcdə və təşəhhüd üçün dəstəmaz almaya bilər. Bir şərtlə ki, namazla bu işlər arasında fasilə buraxmasın.

Məsələ 334: Bir şəxsdən ixtiyarsız olaraq sidik və nəcis xaric olursa, namazda bədənini bulaşıqlıqlardan qorumaq üçün parçadan istifadə etməlidir. Ehtiyata əsasən, hər namazdan öncə sidik və nəcis çıxacağını suya çəkməlidir.

Məsələ 335: Bu qəbil xəstəliyi olanlar asanlıqla müalicə oluna bilərsə, müalicə olunmaları vacibdir. Müalicə olunmamalarının iradı var.

Məsələ 336: Belə bir xəstəliyə düçar olan şəxs sağaldıqdan sonra xəstəlik zamanı yuxarıda göstərilən qaydada qıldığı namazları yenidən qılmaya bilər. Amma namazın vaxtı ötməmiş sağalarsa, vacib ehtiyata əsasən, namazı təzələməlidir.

Hansı hallarda dəstəmaz almaq vacibdir?

Məsələ 337: Altı halda dəstəmaz almaq vacibdir:

1. Vacib namaz üçün (meyyit namazından savayı);

2. Yaddan çıxmış səcdə və təşəhhüd üçün;

3. Vacib təvaf üçün (hətta müstəhəb həcc və ümrədə əməllərin tərkibindən sayılan təvaf vacib sayılır).

4. Dəstəmaz alıb təharətli (pak) qalmağı nəzr etmiş və ya bu barədə and içmiş şəxs üçün;

5. Qur'ana toxunmağı nəzir etmiş şəxs üçün (belə bir nəzir şər'ən fəzilət sayılsa belə; məsələn, insan hörmət əlaməti olaraq Qur'an yazısını öpmək istəyir);

6. Murdarlanmış Qur'anı suya çəkmək üçün və ya onu bulaşıq yerdən çıxararkən ona toxunmağa məcbur olduqda.

Məsələ 338: Dəstəmazsız şəxsin Qur'an xəttinə toxunması haramdır. Amma Qur'anın başqa dillərə tərcüməsi belə deyil.

Məsələ 339: Əgər dəli bir şəxs və ya uşaq Qur'an xəttinə dəstəmazsız toxunarsa, bu işin qarşısını almaq vacib deyil. Amma onların hərəkəti Qur'ana hörmətsizlik sayılarsa bu işin qarşısı alınmalıdır.

Məsələ 340: Dəstəmazı olmayan şəxsin istənilən bir dildə yazılmış Allah adına əl vurması vacib ehtiyata əsasən haramdır. Dinə hörmətsizlik ünvanında Peyğəmbərin (s), mə'sum imamların və xanım Zəhranın (ə) adına da dəstəmazsız toxunmaq haram sayılır.

Məsələ 341: İnsanın daim təharətli qalmaq məqsədi ilə dəstəmaz alması müstəhəbdir. İstər namaza yaxın, istərsə namazdan kənar vaxtda alınmış belə bir dəstəmazla namaz qılmaq olar.

Məsələ 342: Bir şəxs namaz vaxtının çatdığına əmin olub vacib dəstəmaz niyyəti ilə dəstəmaz alsa və sonradan namaz vaxtının çatmadığını bilsə, dəstəmazı düzgündür.

Məsələ 343: Bir neçə halda dəstəmaz almaq müstəhəbdir: Qur'an oxumaq üçün, meyyit namazı qılmaq üçün, dua üçün, namazdan öncə dəstəmazı təzələmək üçün. Yuxarıda qeyd olunan məqsədlərlə alınmış dəstəmazla dəstəmaz tələb edən bütün işləri görmək olar.

Hansı hallarda dəstəmaz batil olur?

Məsələ 344: Səkkiz halda dəstəmaz batil olur: Sidik xaric olduqda, nəcis xaric olduqda, bağırsaqdan yel xaric olduqda, yatdıqda (elə bir yuxu ki, düşüncəni saxlayır, göz yumulur, qulaq eşitmir; amma göz görməsə qulaq eşitsə dəstəmaz batil olmaz), vacib ehtiyata əsasən, düşüncəni işdən salan bütün işlər, (məstlik, huşsuzluq, divanəlik), qadınlarda istihazə, qüslü vacib edən işlər, insanın meyyitinə toxunmaq.

"Cəbirə" dəstəmazın hökmləri

Yaralı və ya sınmış üzvün bağlandığı, eləcə də, onların üzərinə qoyulmuş dərman "cəbirə" adlanır.

Məsələ 345: Dəstəmaz üzvlərindən birində yara, irinli-qanlı çiban və ya sınıqlıq olarsa, onların üzəri açıq olduqda, qanlı olmadıqda və su zərər vermədikdə, adi qaydada dəstəmaz almaq lazımdır.

Məsələ 346: Əgər yara, çiban və ya sınıq əllərin üzərindədirsə və su zərərli deyilsə, onların ətrafını yumaq bəs edər. Amma rütubətli əli onların üzərinə çəkmək zərər yetirmədikdə bu işi görmək lazımdır. Su zərərli olduqda onların üzərinə parça qoyub rütubətli əli parçanın üzərindən çəkmək müstəhəbdir.

Məsələ 347: Əgər yara, çiban və ya sınıq məsh yerində olarsa və məsh çəkmək mümkün olmazsa, onların üzərinə pak bir parça qoyub parçanın üzərindən rütubətli əllə məsh çəkmək lazımdır. Vacib ehtiyata əsasən, təyəmmüm də edilməlidir. Əgər onların üzərinə parça qoymaq mümkün olmazsa məshsiz dəstəmaz almaq və vacib ehtiyata əsasən, təyəmmüm etmək lazımdır.

Məsələ 348: Əgər yara, çiban və ya sınıq parça və ya bu kimi şeylə örtülü olarsa, onu açmaq məşəqqət yaratmazsa və su zərər verməzsə, onu açıb dəstəmaz almaq lazımdır. Başqa hallarda onların ətrafını yumaq, müstəhəb ehtiyata əsasən, cəbirə üzərindən məsh çəkmək lazımdır. Əgər cəbirə murdarlanmışsa və ya onun üzərindən əl çəkmək mümkün deyilsə, pak bir parça qoyub rütubətli əli onun üzərindən çəkmək lazımdır.

Məsələ 349: Əgər cəbirə bütün üzv və ya qollardan birini bütünlüklə örtmüşsə, ehtiyata əsasən həm cəbirə dəstəmazı almaq, həm də təyəmmüm etmək lazımdır. Cəbirə bütün dəstəmaz üzvlərini örtdükdə də belə edilir.

Məsələ 350: Əlinin içində və barmaqlarında cəbirə olan, dəstəmazda nəm əlini onun üzərinə çəkən şəxs başına və ayaqlarına həmin rütubətlə məsh çəkə bilər. Əgər rütubət bəs etməzsə başqa dəstəmaz üzvlərindən rütubət götürmək olar.

Məsələ 351: Əgər cəbirə yaranın ətrafını adi həddən artıq örtərsə və onu götürmək mümkün olmazsa, cəbirə göstərişinə əməl edilməlidir. Müstəhəb

ehtiyata əsasən, təyəmmüm də edilməlidir. Artıq cəbirəni götürmək mümkün olduqda onu götürmək lazımdır.

Məsələ 352: Dəstəmaz üzvlərində yara, çiban, sınıq olmazsa, amma başqa bir səbəbdən su zərər verərsə, təyəmmüm etmək lazımdır. Amma üz və qolların bir hissəsinə zərərli olduqda zərərli olmayan hissəni yumaq bəs edər. Ehtiyata əsasən təyəmmüm edilməlidir.

Məsələ 353: Əgər dəstəmaz və qüsl üzvlərinə bir şey yapışarsa və onu qoparmaq mümkün olmazsa, cəbirə göstərişinə əməl edilməlidir. Yə'ni həmin şeyin ətrafı yuyulmalı və üzərinə əl çəkilməlidir.

Məsələ 354: Cəbirə qüslü də cəbirə dəstəmazı kimidir. Amma qüslü vacib ehtiyata əsasən, imkan həddində ardıcıllıqla yerinə yetirmək lazımdır.

Məsələ 355: Vəzifəsi təyəmmüm olan şəxs təyəmmüm üzvlərində yara, çiban və ya sınıq olduqda, cəbirə dəstəmaz göstərişləri əsasında cəbirə təyəmmümü etməlidir.

Məsələ 356: Vəzifəsi cəbirə dəstəmaz və ya qüslü olan şəxs vaxt başa çatanadək üzrünün aradan qalxmayacağını bildikdə ilk vaxtda namaz qıla bilər. Amma namazın son vaxtınadək üzrünün aradan qalxacağına ümid edirsə vacib ehtiyata əsasən, gözləməlidir.

Məsələ 357: Göz ağrısı səbəbindən üzü yumaq zərərli olarsa, təyəmmüm etmək lazımdır. İmkan olduqda gözün ətrafını, üzün qalan hissəsini yumaq bəs edər.

Məsələ 358: Cəbirə dəstəmaz və ya qüsüllə yerinə yetirilmiş namazlar təzələnmir. Amma namazın vaxtı başa çatmamış üzr aradan qalxarsa, vacib ehtiyata əsasən, namazı yenidən qılmaq lazımdır.

"Qüsl" (müəyyən hallarda dini qayda əsasında yuyunmaq)

Vacib qüsüllər

Məsələ 359: Yeddi vacib qüsl var: Cənabət qüslü, istihazə qüslü, heyiz qüslü, nifas qüslü, meyyitə toxunma qüslü, meyyit qüslü, vacib olmuş müstəhəb qüsl (nəzir, and və bu kimi səbəblərlə)

1. Cənabət

Məsələ 360: İnsan iki halda "cünub" (cənabətli, qüsl verməyə borclu) olur:

1."Cima" (cinsi yaxınlıq);

2. Yuxuda və ya oyaq vaxt, az və ya çox miqdarda, şəhvət və ya şəhvətsiz sperma (məni) xaric olması.

Cənabətin hökmləri

Məsələ 361: İnsan ondan xaric olan rütubətin sperma və ya başqa bir şey olduğunu bilməsə, bu maye atıcılıq və şəhvətlə xaric olduqda sperma hökmündədir. Əgər bu əlamətlərin heç biri və ya biri olmazsa, həmin rütubət sperma hökmündə deyil. Amma qadında və ya xəstə insanda həmin mayenin atıcılıqla xaric olması şərt deyil. Əgər rütubət xaric olan vaxt insan yüksək şəhvani durumda olarsa, həmin rütubət sperma sayılır.

Məsələ 362: Sperma xaric olduqdan sonra bədən adətən süstləşir. Amma bu Məsələ qəti şərt və nişanələrdən sayılmır.

Məsələ 363: Müstəhəbdir ki, sperma xaric olduqdan sonra sidiyə gedilsin. Belə olduqda sperma zərrələri kanaldan xaric olur. Əgər sidiyə gedilməsə, qüsldən sonra özündə rütubət görsə, bu rütubətin sperma olub-olmadığı mə'lum olmazsa, o sperma hökmündədir və yenidən qüsül verilməlidir.

Məsələ 364: Əgər insan cima (cinsi yaxınlıq) etsə və sünnət yeri həddində yaxınlıq olsa, həm kişi, həm də qadın cünub, cənabətli olar. Tərəflərin büluğ həddində olub-olmaması, spermanın xaric olub-olmaması şərt deyil. Deyilən hökm qabaqdan yaxınlığa aiddir. Əgər arxadan yaxınlıq olarsa, vacib ehtiyata əsasən, həm qüsl, həm də dəstəmaza ehtiyac var.

Məsələ 365: Əgər sünnət həddində yaxınlıq olub-olmadığı şübhəlidirsə, qüsül vacib deyil.

Məsələ 366: Allah eləməmiş, insan heyvanla yaxınlıq edərsə və sperma xaric olarsa, cünub olar və qüsl etmək kafidir. Amma sperma xaric olmasa, vacib ehtiyata əsasən, namaz və bu kimi ibadətlər üçün həm qüsl lazımdır, həm də dəstəmaz. Amma bu işdən öncə dəstəmazı olarsa təkcə qüsl bəs edər.

Məsələ 367: Əgər sperma yerindən hərəkət edərsə amma onun qarşısı alınarsa və ya hər hansı bir səbəbdən xaric olmazsa, qüsl vacib deyil. Spermanın xaric olub-olmadığına şübhə ediləndə də qüsl vacib olmur.

Məsələ 368: Bir şəxsin qüsl üçün suyu yoxdursa, zövcəsi ilə yaxınlıq edə bilər və bu iş üçün təyəmmüm kifayət edir. Bu işin namaz vaxtından öncə və ya sonra olmasının fərqi yoxdur.

Məsələ 369: İnsan öz libasında sperma görərsə və əmin olarsa ki, bu onun öz spermasıdır, qüsl verməlidir. İnsan hansı namazları cənabət halda qıldığına əmindirsə, onları təzələməlidir. Şübhəli namazları təzələməyə ehtiyac yoxdur.

Cənabətli şəxsə haram olan işlər

Məsələ 370: Beş iş cənabətli şəxsə haramdır:

1. Qur'an xəttinə, Allahın adına, vacib ehtiyata əsasən peyğəmbərlərin və imamların adına əl vurmaq (dəstəmaz haqqında danışılarkən qeyd olunduğu kimi);

2. Hətta bir qapıdan daxil olub o birindən çıxdıqda, Məscidül-Həram və Məscidün-Nəbiyyə daxil olmaq;

3. Digər məscidlərdə dayanmaq. Amma bir qapıdan daxil olub, o birisindən çıxdıqda eybi yoxdur. Məsciddən bir şeyi götürmək üçün də oraya daxil olmaq mümkündür. Vacib ehtiyata əsasən, mə'sum imamların hərəmində də dayanmaq olmaz;

4. Məscidə bir şey qoymaq üçün oraya daxil olmaq;

5. Səcdəli ayələrdən birini oxumaq. Amma səcdəli ayə olan surələrdən başqa ayələri oxumaq olar.

Məsələ 371: Vacib səcdəsi olan dörd surə var: 32-ci surə: "Əlif, lam mim, səcdə", 41-ci surə: "Ha, mim, səcdə", 53-cü surə: "Ən-nəcm", 96-cı surə: "İqrə".

Cənabətli şəxsə məkruh olan işlər

Məsələ 372: Cənabətli şəxs üçün bir neçə iş məkruhdur, yə'ni bu işləri tərk etmək yaxşıdır:

1, 2. Yemək və içmək; dəstəmaz alınsa bu işlər məkruh olmaz;

3. Qur'ani-kərimdən yeddi ayədən artıq ayə oxumaq. Vacib səcdəsi olmayan surələrdən də yeddi ayədən artıq oxumaq məkruhdur;

4. Bədənin Qur'an cildinə, onun haşiyəsinə, sətirlərinin arasına toxunmaq və Qur'an gəzdirmək;

5. Dəstəmazsız yatmaq;

6. Saçlara həna qoymaq və bu kimi işlər;

7. Bədənə yağ və krem çəkmək;

8. Yuxuda sperma xaric olduqdan ("möhtəlim") sonra cinsi yaxınlıq etmək.

Cənabət qüslünün hökmləri

Məsələ 373: Paklanmaq məqsədi ilə cənabət qüslü vermək müstəhəbdir. Amma namaz və bu kimi ibadətlər üçün qüsl vermək vacibdir. Meyyit namazı, şükür səcdəsi, başqasından səcdə ayəsi eşitdikdə səcdə qılmaq üçün cənabət qüslü vermək vacib deyil. Bu işləri cənabət halında da görmək olar. Amma yaxşı olar ki, meyyit namazı, şükür səcdəsi və bu kimi işlər üçün qüsl verilsin.

Məsələ 374: Qüsldə vacib və ya müstəhəb qüsül niyyət etmək zəruri deyil. İnsan Allahın əmrini yerinə yetirmək məqsədi ilə bu işi görürsə bəs edir.

Məsələ 375: Əgər insan əmin olsa ki, namazın vaxtı daxil olub və vacib qüsl niyyət etsə, sonradan mə'um olsa ki, namaz vaxtı çatmayıbmış, onun qüslü düzgündür. Vacib namaz niyyəti ilə qüsl verdikdən sonra vaxtın ötdüyü bilinərsə qüsl düzgündür.

Qüslün qisimləri və hökmləri

Məsələ 376: İstər vacib, istər müstəhəb qüslü iki şəkildə yerinə yetirmək olar: Tərtibi şəkildə və irtimasi şəkildə.

Məsələ 377: Tərtibi qüsl bu şəkildə yerinə yetirilir: Niyyətdən sonra baş və boyun yuyulur, sonra sağ və daha sonra sol tərəf (vacib ehtiyata əsasən,) yuyulur. Bilərəkdən və ya bilməyərəkdən, ya da unutqanlıqdan bu ardıcıllıq pozularsa, yenidən qüsl vermək lazımdır.

Məsələ 378: Göbəyin və ayıb yerin yarısını sağ tərəflə, yarısını sol tərəflə yumaq lazımdır. Amma yaxşı olar ki, onlar həm sağ, həm də sol tərəflə tam şəkildə yuyulsunlar.

Məsələ 379: Hər üç tərəfə, yə'ni baş və boyuna, sağ tərəfə və sol tərəfə tam qüsl verildiyinə əmin olmaq üçün hər tərəfi yuyarkən o biri tərəfin də bir hissəsi yuyulur. Müstəhəb ehtiyat budur ki, boyunun sağ hissəsi bədənin sağ tərəfi, sol hissəsi bədənin sol tərəfi ilə də yuyulsun.

Məsələ 380: İnsan qüsüldən sonra başa düşsə ki, bədəninin bir hissəsini yumayıb, qalan hissə sol tərəfdə olsa, həmin hissəni yumaqla qüsül tamamlanır. Əgər sağ tərəfdə qüsl verilməmiş hissə qalmışsa ehtiyat budur ki, həmin hissəni yuduqdan sonra sol tərəf bir daha yuyulsun. Əgər baş və boyunun bir hissəsi qalmışsa onları yuduqdan sonra həm sağ və həm də sol tərəfi yumaq lazımdır.

Məsələ 381: Qüsül tamamlandıqdan sonra şəkk yaranarsa ki, üzvlər düzgün yuyulub, yoxsa yox, bu şəkkə e'tina edilmir.

Məsələ 382: İrtimasi qüsl verərkən niyyətdən sonra bütün bədən bir dəfə və ya tədricən suya batırılır. Bu işi həm hovuz və ya gölməçədə həm də bədəni bir dəfəyə bürüyən şəlalə altında görmək olar. Amma adi duş altında irtimasi qüsl vermək mümkün deyil.

Məsələ 383: Bədənin bir hissəsi sudan kənarda olan vaxt irtimasi qüsül niyyət edilsə və insan suya daxil olsa bəs edər. Amma bütün bədən suda olduğu vaxt qüsl niyyəti ilə bədənin tərpədilməsinə irad var.

Məsələ 384: Əgər irtimasi qüsüldən sonra mə'lum olsa ki, bədənin bir hissəsi yuyulmayıb, yenidən qüsl vermək lazımdır.

Məsələ 385: İrtimasi qüsüldə ayaqların da altının islanması üçün onları yerdən qaldırmaq lazımdır.

Məsələ 386: Tərtibi qüsl üçün vaxt olmadıqda və irtimasi qüsl verməyə imkan olduqda, irtimasi qüsl vermək vacibdir.

Məsələ 387: Vacib ehtiyat budur ki, vacib oruc tutmuş, həcc və ümrə üçün ehram bağlamış şəxs irtimasi qüsl verməsin, başını suya batırmasın. Əgər unudaraq irtimasi qüslü verərsə, qüslü düzgündür. Bu halda irtimasi qüslün oruc və ehrama zərəri yoxdur.

Məsələ 388: Tərtibi qüsüldə üç dəfə suya batmaq olar. Birinci dəfə baş və boyuna qüsül vermək niyyəti ilə, ikinci dəfə sağ tərəfə qüsl vermək niyyəti ilə üçüncü dəfə sol tərəfə qüsl vermək niyyəti ilə suya batmaq düzgündür.

Məsələ 389: İrtimasi qüsüldə bədən tamamilə pak olmalıdır. (Vacib ehtiyata əsasən). Tərtibi qüsldə isə bütün bədənin pak olması vacib deyil. Tərtibi qüsl zamanı hər üzvə qüsl verməzdən öncə həmin üzv paklanarsa bəs edər.

Məsələ 390: Öncə qeyd etdik ki, haram yolla cünub olmuş şəxsin təri murdar deyil. Belə bir şəxs isti su ilə qüsl verə bilər. Amma daha yaxşı olar ki, onu tərlətməyəcək ilıq su ilə qüsl versin.

Məsələ 391: Əgər bədənin az bir hissəsi yuyulmamış qalarsa qüsl batildir. Amma qulaq, burun və gözün içi kimi daxili fəzaları yumaq lazım deyil.

Məsələ 392: Qüsl verərkən suyun bədənə çatmasına mane olan hər şey təmizlənməlidir. Əgər ağlabatan şəkildə belə bir şeyin olması ehtimal edilərsə, araşdırma aparıb arxayın olmaq lazımdır.

Məsələ 393: Bədəndən sayılan qısa tükləri yumaq lazımdır. Vacib ehtiyata əsasən, uzun tükləri və onların altını da yumaq lazımdır.

Məsələ 394: Dəstəmaz suyunun pak olması kimi şərtlər qüsüldə də öz gücündə qalır. Amma qüsüldə bədəni yuxarıdan aşağıya yumaq vacib deyil. Tərtibi qüsüldə bədən üzvlərinin yuyulması arasında fasilə də buraxıla bilər. Amma sidik və nəcisini saxlaya bilməyən şəxs ardıcıl qüsl verib dərhal namaz qılmalıdır. İstihazə halında olan qadın da belədir.

Məsələ 395: Hamam pulunu vermək fikri olmayan və ya hamam sahibinin razılığını öyrənmədən hamam pulunu nisyəyə saxlayan şəxsin qüslü ehtiyata əsasən batildir. Hamam pulunu haram və ya xümsü verilməmiş puldan ödəmək də qüslü batil edir.

Məsələ 396: Hamamda adi həddən artıq su işlədən şəxsin qüslünə irad var. Amma hamamçını razı salmaq məqsədi olsa, eybi yoxdur.

Məsələ 397: Əgər insan qüsl verib-vermədiyinə şəkk etsə, qüsl verməlidir. Amma qüsl verdikdən sonra verdiyi qüslün düzgünlüyünə şübhə etsə, bu şübhəyə əhəmiyyət verməməlidir.

Məsələ 398: Əgər qüsl zamanı "hədəsi-əsğər", yə'ni dəstəmazı pozan bir iş baş verərsə bunun qüslə tə'siri olmaz. Amma namaz və bu kimi işlər üçün yenidən dəstəmaz almaq lazımdır.

Məsələ 399: Əgər bir şəxs cunub olduqdan və namaz qıldıqdan sonra qüsl verib-vermədiyinə şəkk edərsə, qıldığı namazlar düzgündür, amma sonrakı namazlar üçün qüsl verməlidir.

Məsələ 400: Bir neçə vacib və ya həm vacib, həm də müstəhəb qüsl əvəzinə bir qüsl vermək bəs edər. Yə'ni cənabət, heyz, meyyitə toxunma, cümə qüslü niyyəti ilə verilən bir qüsl bütün qüsülləri aradan qaldırır.

Məsələ 401: Cənabət və ya başqa bir qüsül, vacib və ya müstəhəb qüsüldən sonra namaz qılmaq olar və dəstəmaz almaq vacib deyil. Amma müstəhəb ehtiyat budur ki, cənabət qüslündən başqa qüsüllərdən sonra dəstəmaz alınsın.

2. "İstihazə"

Məsələ 402: Qadından xaric olan qanlardan biri "istihazə" qanı adlanır. İstihazə qanı xaric olan qadın "müstəhazə" adlanır. Əgər qadının bətnindən xaric olan qan heyiz (aybaşı), nifas, yara və ya çiban qanı deyilsə, istihazə qanıdır.

Məsələ 403: İstihazə qanı adətən açıq rəngli, soyuq və duru olur. Bu qanın təzyiqi və yandırıcılığı olmur. Amma istihazə qanı bə'zən tünd və ya qırmızı, isti və qatı ola bilər. Onun təzyiq və yandırıcılıqla xaric olması mümkündür.

Məsələ 404: İstihazənin iki növü var: Qəlilə" və "kəsirə". Qəlilə istihazədə qadın pambığı özünə daxil etdikdə qan onu bulaşdırır, amma o biri tərəfindən xaric olmur. Qanın pambığa nüfuz edib, etməməsinin fərqi yoxdur. Kəsirə istihazə odur ki, qan pambığa hopub o biri tərəfə keçsin və axsın.

Müstəhazə qanın hökmləri

Məsələ 405: Qəlilə istihazə halında qadın hər namaz üçün vacib ehtiyata əsasən, dəstəmaz almalıdır. Vacibdir ki, qanın o biri üzvlərə sirayat etməsinin qarşısı alınsın. Amma pambıq və ya parçanı dəyişmək vacib deyil. Amma ehtiyata əsasən bu işi görmək yaxşıdır. Kəsirə istihazə halında olan qadın üç qüsl verməlidir: Sübh namazı üçün, günorta və ikindi namazları üçün, şam və xiftən namazları üçün. Müstəhəb ehtiyat budur ki, qüsüldən öncə və ya sonra hər namaz üçün dəstəmaz alsın.

Məsələ 406: Əgər namazın vaxtı daxil olmamış dəstəmaz alıb qüsül verərsə, vacib ehtiyata əsasən, namazı daxil olduqdan sonra onu təzələməlidir.

Məsələ 407: Əgər qəlilə istihazə sübh namazından sonra kəsirə istihazəyə çevrilərsə, günorta və ikindi namazları üçün qüsl vermək lazımdır. Əgər günorta və ikindi namazlarından sonra kəsirəyə çevrilərsə, şam və xiftən namazları üçün qüsül vermək lazımdır.

Məsələ 408: Qüslün vacib olduğu bütün hallarda əgər təkrar qüsl vermək zərərli olarsa və ya məşəqqət hesabına başa gələrsə, qüsl əvəzinə təyəmmüm edə bilər.

Məsələ 409: "Kəsirə" və "qəlilə" istihazə zamanı sübh azanından öncə gecə namazı üçün qüsl verilərsə və ya dəstəmaz alınarsa, vacib ehtiyata əsasən, sübh namazının vaxtı daxil olduqdan sonra yenidən qüsl verib dəstəmaz almaq lazımdır.

Məsələ 410: Qəlilə istihazə halında olan qadın günorta və ikindi, şam və xiftən namazlarını ayrı-ayrı qılarsa, onların hər biri üçün dəstəmaz almalıdır. Müstəhəb namazlar da belədir. Amma bütün gecə namazları üçün bir dəstəmaz və ya qüsl bəs edər. Ehtiyat namazı, yaddan çıxmış səcdə və təşəhhüd, dərhal namazdan sonra yerinə yetirilən səcdə-səhv üçün qüsl və dəstəmaz lazım deyil.

Məsələ 411: Müstəhazə qadın qan kəsildikdən sonra yalnız birinci namaz üçün istihazənin vəzifələrini yerinə yetirməlidir.

Məsələ 412: Qadın qəlilə və ya kəsirə istihazə olduğunu bilməsə, vacib ehtiyata əsasən, namazdan öncə özündə araşdırma aparmalıdır. Araşdırma apara bilmirsə, ehtiyat budur ki, həm kəsirə, həm də qəlilə istihazənin vəzifələrini yerinə yetirsin. Amma əvvəlcə kəsirə və ya qəlilə olduğu mə'lumdursa, həmin vəzifəni yerinə yetirə bilər.

Məsələ 413: Müstəhazə qadın namazdan sonra özünü araşdırsa və qan olmadığını görsə, pozulmamış dəstəmazı ilə başqa namaz qıla bilər. Bir qədər sonra yenidən qan görsə də belədir.

Məsələ 414: Müstəhazə qadın namazın vaxtı başa çatmamış paklanacağını bilərsə və ya namazı qılacağı qanın kəsiləcəyini bilirsə, vacib ehtiyata əsasən, səbr etməli, paklandıqdan sonra qüsl verib, ya dəstəmaz alıb namaz qılmalıdır.

Məsələ 415: Müstəhazə qadın qüsl və ya dəstəmazdan sonra dərhal namaza başlamalıdır. Amma onun azan və iqamə deməsi, namazdan öncə dua oxuması, adi həddə cəmiyyət namazını gözləməsinin eybi yoxdur. Belə bir qadın namazda qunut və qunut kimi müstəhəb işləri yerinə yetirə bilər.

Məsələ 416: Qan bayıra axdıqda zərəri olmadığı halda qüsldən öncə və sonra pambıq və ya parça vasitəsi ilə qanın qarşısını almalıdır. Bu iş məşəqqətə səbəb olduqda onu yerinə yetirmək lazım deyil.

Məsələ 417: İstər tərtibi, istər irtimasi qüsl zamanı qan kəsilməsə bunun qüslə tə'siri yoxdur.

Məsələ 418: Müstəhazə qadın ramazan ayının orucunu tutmalıdır. Şam və xiftən namazları üçün qüsl verdikdən sonra səhəri gün oruc tuta bilər. Vacib ehtiyata əsasən, oruc olduğu günlərin də qüslünü vermiş olsun.

Məsələ 419: Əgər oruc tutmuş qadın günorta və ikindi namazlarından sonra müstəhazə olarsa, həmin günün orucu üçün qüsl verməsi lazım deyil.

Məsələ 420: Əgər namaz gedişində qadının qəlilə istihazəsi kəsirəyə çevrilsə, namazı saxlayıb qüsl verməli və onu yenidən qılmalıdır. Qüslə vaxt olmazsa təyəmmüm edə bilər. Təyəmmümə də vaxt olmasa, namazı tamamlayıb, vacib ehtiyata əsasən, sonradan onun qəzasını yerinə yetirməlidir.

Məsələ 421: Qadının kəsirə istihazəsi qəliləyə çevrilsə, birinci namaz üçün qüsl verməli, sonrakı namazlar üçün dəstəmaz almalıdır.

Məsələ 422: Kəsirə istihazə halında olan qadın gün uzunu qüsüllərini yerinə yetirsə, təvaf, qəza namazı, ayat namazı, gecə namazı kimi əməllər üçün başqa bir qüsl verməsi vacib deyil, təkcə dəstəmaz almalıdır.

Məsələ 423: Müstəhazə qadın qəza namazı qıla bilər. Amma vacib ehtiyata əsasən, hər namaz üçün bir dəstəmaz almalıdır. Günün nafilə (müstəhəb) namazlarını qılmaq üçün vacib namaz üçün alınmış dəstəmaz bəs edər. Bütün gecə namazları üçün bir dəstəmaz kifayat edir. Bir şərtlə ki, bu namazlar ardıcıl yerinə yetirilsin.

Məsələ 424: Qadından xaric olan qanda heyiz və nifas şərtləri ödənmirsə, bu qan bəkarət, yara, cərrahi əməliyyat qanı deyilsə, istihazə qanıdır.

Məsələ 425: Qadın şəkk edərsə ki, gördüyü qan yara qanıdır, yoxsa yox, zahirən sağlamdırsa, bu qanı istihazə qanı hesab etməlidir. Amma sağlamlığı şübhəlidirsə, qan istihazə qanı sayılmır.

3. Heyiz (aybaşı)

Məsələ 426: Çox vaxt (aybaşı) adlanan heyiz elə bir qana deyilir ki, adətən, hər ay bir neçə gün bətndən xaric olur, nütfə formalaşdıqda bətndəki körpənin qidası olur. Heyz qanı görən qadına "haiz" deyirlər. Müqəddəs İslam şəriətində heyz qadının hökmləri var və bu barədə növbəti məsələlərdə danışılacaq.

Heyz qadının hökmləri

Məsələ 427: Heyz qanının nişanələri var. Bu qan çox vaxt qatı, isti, qaramtıl və ya qırmızıdır. Bu qan təzyiqlə xaric olur və yandırıcıdır.

Məsələ 428: Seyyidə və qeyri-seyyidə qadınlar qəməri təqvimlə 50 yaşı tamam olduqdan sonra aybaşıdan kəsilir və "yaisə" adlanırlar. Həmin yaşda özlərində qan görərlərsə, bu heyiz qanı sayılmır. Amma həmin qanda heyizin bütün əlamətləri olarsa, heyiz qadının hökmlərinə əməl etməlidirlər.

Məsələ 429: Qızın doqquz yaşdan öncə və qadının yaisə olduqdan sonra gördüyü qan heyiz hökmündə deyil. Əgər bu qan yara və ya cərrahi əməliyyat qanı deyilsə, istihazə qanıdır.

Məsələ 430: Hamilə qadınlar və ya körpəsinə süd verən qadınlar heyiz ola bilər.

Məsələ 431: Doqquz yaşının tamam olub-olmadığını bilməyən qız özündə qan görərsə və həmin qanda heyiz nişanələri olmazsa, bu qan heyiz

qanı sayılmır. Əgər həmin qanda heyiz nişanələri olarsa və qız heyiz olduğuna əmin olarsa, demək, doqquz yaşı tamam olmuşdur və büluğ həddinə çatmışdır. Amma yaisə olub-olmadığına şübhə edən qadın özündə qan görüb bu qanın heyiz qanı olub-olmadığını bilməzsə, bunu heyiz qanı qəbul etməli və hələ ki, yaisə olmadığını bilməlidir.

Məsələ 432: Heyiz üç gündən az, on gündən çox olmur. Hətta azca əskik olarsa bu heyiz deyil.

Məsələ 433: Heyizin ilk üç günü ardıcıl olmalıdır. Əgər iki gün qan görüb, bir gün pak olarsa və yenidən qan görərsə, bu heyiz deyil. Üç gün ardıcıl dedikdə həmin üç gündə qanın kəsilməməsi nəzərdə tutulmur. Daxil hissədə qanın olması bəs edir.

Məsələ 434: Birinci gecə və dördüncü gecə qan görmək şərt deyil. Amma ikinci və üçüncü gecə qanın kəsilməməsi və davam etməsi şərtdir.

Məsələ 435: Əgər üç gün ardıcıl qan görünüb sonra pak olarsa və yenidən qan görünərsə, qan görünən günlər üst-üstə on gündən artıq olmamalıdır. Qanın göründüyü bütün günlər heyiz sayılır. Ortada pak olduğu günlər pak qadın hökmündədir.

Məsələ 436: Əgər üç gündən az qan görüb paklanarsa, sonradan üç gün və ya artıq deyilən nişanələrə malik qan görünərsə, yalnız ikinci qan heyiz qanıdır.

Məsələ 437: Qanaxma keçirən qadın həkimə müraciət etdikdə həkim bu qanın heyz və ya yara qanı olduğunu bildirərsə, həkimin sözlərindən əminlik yarandıqda deyilən hökmə əməl edə bilər.

Məsələ 438: Heyz qadına haram olan işlər bunlardır:

1. Namaz, oruc, Allah evinin təvafı kimi dəstəmaz, qüsl və ya təyəmmümlə icra olunan bütün ibadətlər. Amma meyyit namazı kimi paklıq tələb etməyən ibadətləri yerinə yetirə bilər.

2.Cənabətli insana haram olan bütün işlər.

3. Cinsi yaxınlıq etmək. Bu iş həm kişi, həm də qadın üçün haramdır.

4.Heyizli halda tələq (boşanmaq) batildir.

Məsələ 439: Kişi öz qadını ilə heyz halında yaxınlıq edərsə, müstəhəbdir ki, kəffarə versin. Kəffarə miqdarı heyiz günlərinin birinci üçdə birində bir misqal qızıl və ya onun qiyməti, ikinci üçdə birində yarım misqal qızıl, üçüncü üçdə birində dörddə bir misqal qızıldır. Əgər aybaşı altı gün çəkərsə, onun ilk iki günündə bir misqal, ikinci iki günündə yarım misqal, son iki günündə dörddə bir misqal kəffarə verilir.

Məsələ 440: Əgər qızılın dəyərini ödəmək istəsə, günün qiymətini əsas götürməlidir.

Məsələ 441: Heyiz halında olan zövcə ilə mazaqlaşmaq haram deyil və bu işin kəffarəsi yoxdur.

Məsələ 442: Əgər yaxınlığı təkrarlasa, müstəhəbdir ki, kəffarəni də təkrar ödəsin.

Məsələ 443: Əgər kişi yaxınlıq zamanı qadının haiz olduğunu başa düşsə, dərhal ondan ayrılmalıdır. Əgər ayrılmasa, günaha yol verib və müstəhəb ehtiyata əsasən, kəffarə ödəməlidir.

Məsələ 444: Əgər kişi heyizli qadınla zina etsə və ya heyizli qadını öz zövcəsi bilib onunla yaxınlaşsa, ehtiyata əsasən kəffarə verməlidir.

Məsələ 445: Kəffarə ödəyə bilməyən şəxs yaxşı olar, sədəqə versin. Əgər sədəqə də verə bilməsə günahına görə tövbə qılmalıdır.

Məsələ 446: Qadın heyizli olduğunu və ya heyizdən paklandığını desə, onun sözü qəbuldur. Amma şübhə yaransa onun sözü qəbul edilməyə bilər.

Məsələ 447: Əgər qadın namaz gedişində heyiz olsa namazı batildir. O namazını davam etdirməməlidir. Amma heyiz olub-olmadığına şübhələnsə, namazı düzgündür.

Məsələ 448: Qadın heyizdən paklansa, ibadətləri yerinə yetirmək üçün qüsül verməlidir. Əgər su əldə edə bilməsə təyəmmüm etsin. Heyiz qüslü də cənabət qüslü kimidir. Ondan sonra namaz üçün dəstəmaz almaq lazım deyil. Amma müstəhəb ehtiyat budur ki, dəstəmaz da alsın (qüsüldən öncə və ya sonra olmasının fərqi yoxdur.)

Məsələ 449: Qadın heyiz qanından paklandıqdan sonra onun boşanması mümkündür. Əri onunla yaxınlıq edə bilər. Qüsül verməmişdən öncə də yaxınlıq etmək mümkündür. Amma müstəhəb ehtiyat budur ki, qüsüldən öncə yaxınlıq olmasın. Amma məsciddə dayanmaq, Qur'an xəttinə toxunmaq kimi heyizə haram olan işlər qüsül verənədək vacib ehtiyata əsasən, halal olmur.

Məsələ 450: Qadının heyiz zamanı qılmadığı namazların qəzası yoxdur. Amma vacib orucların qəzası tutulmalıdır.

Məsələ 451: Namaz vaxtı daxil olduqdan sonra qadın güman etsə ki, namazı tə'xirə salsa heyiz olacaq, dərhal namazını qılmalıdır.

Məsələ 452: Əgər qadın namazın ilk vaxtında bir namazı qılmaq həddində pak olsa və həmin namazı qılmayıb heyiz olsa, həmin namazın sonradan qəzasını yerinə yetirməlidir. Bu işdə hər kəs öz vəziyyətini nəzərə almalıdır. Məsələn, müsafir şəxs iki rəkət həddində, müsafir sayılmayan şəxs dörd rəkət həddində, dəstəmazı olmayan şəxs həm də dəstəmaz üçün vaxt nəzərdə tutmalıdır. Yalnız namaz üçün vaxt qaldıqda libas və bədəni də paklamaq lazımdırsa həmin namazın qəzasını yerinə yetirmək ehtiyat sayılır.

Məsələ 453: Əgər namazın son vaxtında paklanarsa, qüsl etməli və namaz qılmalıdır. Əgər bir rəkət namaz üçün vaxt qalarsa belə, vacib ehtiyata əsasən, namazı qılsın. Namazı qılmazsa onun qəzasını yerinə yetirməlidir.

Məsələ 454: Əgər namazın son vaxtında paklansa və qüsl üçün vaxt olmasa, yalnız təyəmmüm edib namazın bir rəkətini vaxtında qıla bilsə, namaz ona vacib deyil. Amma vaxt darlığından əlavə vəzifəsi təyəmmüm

olsa, məsələn, su onun üçün zərərli olsa, təyəmmüm edib namazını qılmalıdır.

Məsələ 455: Qadın paklansa və şəkk etsə ki, namaz üçün yetərincə vaxt qalıb, yoxsa yox, namazını qılmalıdır.

Məsələ 456: Müstəhəbdir ki, heyz olmuş qadın namaz vaxtı özünü qandan paklayıb pambıq və ya parçanı dəyişsin və dəstəmaz alsın. Əgər bu işləri görə bilməzsə təyəmmüm etsin. Bundan sonra namaz yerində üzü qibləyə əyləşib zikr və duaya məşğul olsun. Amma Qur'an oxuması, özü ilə Qur'an gəzdirməsi, Qur'anın haşiyələrinə toxunması, həna qoyması yaxşı deyil.

Heyiz qadının növləri

Məsələ 457: Heyz qadınlar dörd qrupa bölünür:

1."Vəqtiyyə" və "ədədiyyə" qaydası olanlar: İki ay ardıcıl eyni vaxtda heyz görən və hər iki ayda heyz günlərinin sayı eyni olan qadınlar. Məsələn, hər iki ayın birinci günündən yeddinci gününədək qan görənlər.

2. "Vəqtiyyə" adəti olanlar: İki ay ardıcıl eyni vaxtda heyz olanlar. Amma bu qrupdan olanların ayrı-ayrı aylarda heyz günləri bir-birindən fərqlənir. Məsələn, bir ayda beş gün, ikinci ayda yeddi gün qan görürlər.

3. "Ədədiyyə" adəti olanlar: İki ay ardıcıl eyni müddət heyiz olanlar. Amma onların heyizi ayrı-ayrı aylarda, ayrı-ayrı günlərdə başlanır. Məsələn, bir ayın ilk günü, o biri ayın onuncu günü.

4. Müztəribə: Bir neçə ay heyiz olub heyiz vaxtı bilinməyən qadınlar. Bə'ziləri əvvəlcə müəyyən qaydada heyiz olsa da, sonra da bu qaydanın pozulması mümkündür.

5. Mubtədiə: Bu qrupdan olan qadınlar ilk dəfə heyiz olanlardır.

6. Nasiyə: Heyiz qaydasını yaddan çıxarmış qadınlar.

Bu altı qrupun hər birinin öz hökmləri var.

1. "Vəqtiyyə" və "ədədiyyə" adəti olanlar

Məsələ 458: Vəqtiyyə və ədədiyyə qaydası olan qadınlar əvvəlcədən bildikləri gündə heyiz olurlar. Onlar adət günlərinin sonunadək heyiz qadının hökmlərinə əməl edirlər. həmin müddətdə onların gördüyü qanda heyiz nişanələrindən olub-olmamasının fərqi yoxdur.

Məsələ 459: Əgər qadın bütün ay boyu paklanmazsa, amma iki ay ardıcıl müəyyən günlərdə (məsələn ayın birindən yeddisinədək) heyiz nişanələri olan qan görərsə, həmin günləri heyiz günü saymalıdır.

Məsələ 460: "Vəqtiyyə" və "ədədiyyə" adəti olan qadınlar adət günlərindən iki-üç gün qabaq qan görərlərsə, belə ki, adət günləri tezləşib və ya yubanıb söyləsələr, heyiz qadının hökmlərinə əməl etməlidirlər. həmin qanda heyiz nişanələrinin olub-olmamasının fərqi yoxdur.

Məsələ 461: Vəqtiyyə və ədədiyyə adəti olan qadın adətindən bir neçə gün qabaq və ya bir neçə gün sonra qan görərsə (adətən qadınlarda bu vaxt tezləşir və ya yubanır) üst-üstə on gündən artıq olmasa, bütün günlər heyiz sayılır. Əgər on gündən artıq çəkərsə, yalnız adət günlərində gördüyü qan heyiz qanıdır. Əvvəlki və sonrakı günlər istihazə sayılır. Əgər adət günlərindən bir neçə gün qabaq adət günlərinə əlavə olaraq qan görərsə və ya adətdən bir neçə gün sonra adət günlərinə əlavə olaraq qan müşahidə edərsə, on günü aşmasa bütün günləri heyizdir. Əgər on günü aşsa, yalnız adət günləri heyiz sayılır.

Məsələ 462: Adəti olan qadın üç gün və ya daha artıq qan görüb təmizlənərsə və yenidən qan görərsə, iki qan görmək arasında fasilə on gündən az olduqda və qan gördüyü bütün günləri on gündən çox olmadıqda, onların hər biri heyiz sayılır. (Amma ortada qan görmədiyi günlər pak sayılır) əgər on gündən artıq olarsa, adətdə olduğu qan heyiz qanı, digərləri istihazədir. Əgər qanlardan heç biri adət günlərində olmamışsa, heyiz nişanələrinə malik qan heyiz qanı, digərləri istihazədir. Əgər hər ikisində heyiz nişanələri varsa on gün müddətində heyiz sayılır, qalan müddət istihazədir.

Məsələ 463: Vəqtiyyə və ədədiyyə adəti olan qadın adət vaxtı qan görməsə və həmin vaxtdan başqa vaxta heyiz günləri sayda bir vaxt qan görsə, onu heyiz saymalıdır. Bu qan adət günlərindən öncə və ya sonra olsa da fərqi yoxdur. Bir şərtlə ki, həmin qanda heyiz nişanələri olsun.

Məsələ 464: Vəqtiyyə və ədədiyyə adəti olan qadın adət günləri qan görsə, amma günlərin sayı adət günlərindən artıq və ya əskik olsa, adət vaxtından öncə və ya sonra adət günləri sayda qan müşahidə etsə də, yalnız adət vaxtında gördüyü qan heyiz qanı sayılır.

Məsələ 465: Vəqtiyyə və ədədiyyə adəti olan qadın on gündən artıq qan görərsə, adət günlərinə təsadüf edən qan heyiz qanıdır. (Bu qanda heyiz nişanələrinin olub-olmamasının fərqi yoxdur.) Adət günlərindən sonra görünən qan istihazə sayılır. (həmin qanda heyiz nişanəsinin olub-olmamasının fərqi yoxdur).

4. Vəqtiyyə adəti olan qadın

Məsələ 466: Vəqtiyyə adəti olan qadın, yə'ni iki ay ardıcıl eyni günlərdə heyiz qanı müşahidə edən qadın həmin günləri bütünlüklə heyiz saymalıdır. Bir şərtlə ki, üç gündən az və on gündən artıq olmasın.

Məsələ 467: Qandan təmizlənməyən, amma iki ay ardıcıl müəyyən vaxtda qanında heyiz nişanələri olan qadın heyiz nişanəli qan gördüyü günlər arasında fərq olsa da, heyiz nişanəsi olan günləri heyiz saymalıdır.

Məsələ 468: İki ay ardıcıl eyni vaxtda qan görən qadın üç gün və ya daha artıq heyiz qanı görüb paklanarsa, ikinci dəfə yenidən üç gün və ya daha artıq qan görərsə, qan gördüyü günlərin sayı on gündən artıq olmasa (ikinci

ayda həmin günlər birinci aydakından artıq-əskik olsa) bütün gördüyü qanları heyiz qanı saymalıdır. Ortada qan görmədiyi günlər pak hökmündədir.

Məsələ 469: Vəqtiyyə adəti olan qadın adət günlərində və ya iki-üç gün qabaq və ya sonra qan görərsə, heyizin tezləşdiyi və ya yubandığı deyildiyi halda heyiz qadının hökmlərinə əməl etməlidir. Həmin qanda heyiz nişanələrinin olub-olmamasının fərqi yoxdur.

Məsələ 470: Vəqtiyyə adəti olan qadın on gündən artıq qan görsə və qanın nişanələrinə görə müəyyənləşdirə bilməsə, ona qohum qadınların adət günlərinə uyğun olaraq heyiz vaxtı müəyyənləşdirməlidir. (Qohumların ata və ya ana tərəfdən olmasının, həyatda olmalarının fərqi yoxdur. Amma əksəriyyətin qaydası eyni olmalıdır. Amma bə'zilərində beş gün, bə'zilərində səkkiz gün adətdirsə, vacib ehtiyata əsasən, hər ayda yeddi gün adət götürülməlidir.)

3. Ədədiyyə adəti olan qadın

Məsələ 471: Ədədiyyə adəti olan qadın, yə'ni iki ardıcıl ayda eyni müddət qan görən qadın həmin neçə gündə heyiz hökmlərinə əməl etməlidir.

Məsələ 472: Qandan təmizlənməyən, amma iki ardıcıl ay bir neçə gün heyiz nişanəli, bir neçə gün istihazə nişanəli qan görən qadın hər iki ayda heyiz nişanəli günlərin sayı eyni olarsa, amma bu günlər eyni vaxta düşməzsə, həmin heyiz nişanəli günləri heyiz saymalıdır.

Məsələ 473: Ədədiyyə adəti olan qadın adət günlərindən artıq qan görərsə və bu günlərin sayı on gündən artıq olarsa, bütün qanlar eyni şəkildə olduqda adət günləri sayda günləri heyiz, qalan günləri istihazə saymalıdır. Əgər bir neçə günün qanında heyiz nişanəsi olarsa həmin günlər heyiz sayılmalıdır. Adət günlərindən artıq qan görərsə onun axırından əskiltməlidir. Əgər həmin günlər adət günlərindən az olarsa, həmin günləri və adət günlərinə uyğun olaraq sonrakı bir neçə günü heyiz saymalı, qalan günləri istihazə hökmünə əməl etməlidir.

4. Müztəribə

Məsələ 474: Müztəribə dedikdə bir neçə ay qan görsə də müəyyən adəti olmayan qadınlar nəzərdə tutulur. Belələri on gün və ya on gündən az qan görərlərsə bütün günləri heyiz saymalıdırlar. Əgər on gündən artıq qan görərlərsə, heyiz nişanəsi olan günlər üç gündən az, on gündən çox olmadığından heyiz sayılır. Bütün qanlar eyni şəkildə olarsa qohumların adəti üzrə hərəkət edilir. (Əgər əksər qohumlarda adət eyni cürdürsə) qohumların adəti fərqli olsa, ehtiyat budur ki, qadın yeddi gün adət müddəti tə'yin etsin.

5. Mubtədiə

Məsələ 475: Mubtədiə dedikdə ilk dəfə heyiz qanı görmüş qadın nəzərdə tutulur. Əgər qan görünən günlər on gün və ya on gündən az olarsa heyiz sayılır. Əgər on gündən çox olarsa qanlar eyni cür olduqda qohumların adəti üzrə hərəkət olunur. Onların adəti fərqli olduqda yuxarıda deyildiyi qaydada hərəkət edilir. Tə'yin olunmuş müddət heyiz, qalan günlər istihazə sayılır.

Məsələ 476: Əgər mubtədiə qadın on gündən artıq qan görərsə, bu on günün bir neçə günündə heyiz nişanəsi olarsa, heyiz nişanəsi olan günlər üç gündən az, on gündən çox olmadıqda heyiz hökmlərinə əməl olunur. Qalan günlər istihazə sayılır. Əgər üç gündən az olarsa heyiz nişanəsi olan günləri heyiz hökmlərinə əməl olunur, qalan günlər qohumların adəti əsas götürülür. Heyiz nişanəsi olan günlər on günü aşarsa qohumların adəti əsas götürülür, qalan günlər istihazə sayılır.

6. Nasiyə

Məsələ 477: Nasiyə dedikdə adət günlərini unutmuş qadın nəzərdə tutulur. Belə bir qadın on günü və ya on gündən az qan görərsə həmin günləri heyiz saymalıdır. Əgər on gündən artıq qan görərsə, heyiz nişanəsi olan günləri heyiz saymalı (bir şərtlə ki, üç gündən az və on gündən çox olmasın), bütün günlərdə qan eyni şəkildə olduqda vacib ehtiyata əsasən, yeddi günü heyiz, qalan günləri istihazə hökmünə əməl etməlidir.

Heyiz mövzusunda müxtəlif məsələlər

Məsələ 478: Mubtədiə, muztəribə, nasiə və ədədiyyə adəti olan qadınlar heyiz nişanəli qan gördükdə dərhal ibadəti tərk etməlidirlər. Sonradan başa düşsələr ki, heyiz olmayıblar, yerinə yetirmədikləri ibadətlərin qəzasını yerinə yetirməlidirlər. Amma qanda heyiz nişanəsi olmadıqda istihazə hökmünə əməl olunmalıdır. Heyiz qanı sübuta yetənədək belə əməl olunur. Amma vəqtiyyə adəti və vəqtiyyə və ədədiyyə adəti olan qadınlar adət günlərində qan görən kimi ibadəti tərk edirlər.

Məsələ 479: Adəti olan qadınlar iki ay ardıcıl adətlərinin ziddinə olaraq qan görsələr adətləri dəyişir və iki ayda gördüklərini əsas götürürlər.

Məsələ 480: Adətən ayda bir dəfə qan görən qadın bir ayda iki dəfə qan görərsə və həmin qanlarda heyiz nişanəsi olarsa, ortada pak olduğu günlər on gündən az olmadıqda qan gördüyü hər iki dövrü heyiz saymalıdır.

Məsələ 481: Əgər üç gün və ya daha artıq heyiz nişanəli qan görüb sonra on gün və ya daha artıq istihazə nişanəli qan görərlərsə, sonra yenidən heyiz nişanəli qan gördükdə bütün heyiz nişanəsi olan günləri heyiz hökmünə əməl etməlidirlər.

Məsələ 482: Əgər qadın on gündən tez paklanarsa və bətnində qan olmadığını bilərsə, on gün tamam olmamışdan öncə yenidən qan görəcəyinə əmin olsa belə, qüsül verib ibadətlərini yerinə yetirməlidir.

Məsələ 483: On gündən tez paklanmış qadın ehtimal etsə ki, bətnində qan var, bir qədər pambıqla özünü yoxlamalıdır. Pak olsa qüsl verib ibadətlərini yerinə yetirməlidir. Əgər pak olmasa, qanlı su görünsə belə, öncə heyz haqqında deyilmiş hökmə əməl edilməlidir.

4. Nifas

Məsələ 484: Körpənin hər hansı hissəsi ananın bətnindən göründüyü andan qadının gördüyü bütün qanlar nifas qanı sayılır. Nifas halında olan qadına "nəfsa" deyirlər. Demək, uşaq görünməzdən öncə müşahidə olunan qan nifas qanı deyil.

Məsələ 485: Nifas qanının bir an davam etməsi mümkündür. Amma bu qan on gündən artıq görünə bilməz.

Nifas qadının hökmləri

Məsələ 486: Vacib ehtiyata əsasən, qanın nifas qanı sayılması üçün körpə kamil olmalıdır. Bətndən laxtalanmış qan xaric olsa və bilinsə ki, bu qan bətndə qalsaydı insan olacaqdı, həm qandan pak olmuş qadının vəzifələrinə əməl olunmalı, həm də heyiz qadının tərk etdiyi işlər tərk edilməlidir.

Məsələ 487: Əgər şəkk yaransa ki, bir şey siqt olub (düşüb) yoxsa yox, ya da düşən şey insan olub, yoxsa yox, xaric olan qan nifas qanı sayılmır və onu araşdırmaq lazım deyil.

Məsələ 488: Heyizli qadına haram olan bütün işlər nifas qadına da haramdır. Heyizli qadına vacib, müstəhəb, məkruh olan işlər nifas qadın üçün də eyni hökmdədir.

Məsələ 489: Nifas halında qadına yaxınlaşmaq haramdır. Əgər ər nifas zövcəsi ilə yaxınlıq edərsə, müstəhəb ehtiyat budur ki, heyizin hökmlərinə əməl edilsin, kəffarə verilsin. Nifas halda tələq da batildir.

Məsələ 490: Nifas qanından paklanmış qadın qüsül verməli, ibadətlərini yerinə yetirməlidir. Əgər doğuşdan on gün keçməmiş yenidən qan görərsə qan gördüyü günlər üst-üstə on gün və ya on gündən əskik olduqda, bütün günlər nifas sayılır. Arada paklanan qadın ibadətini yerinə yetirə bilər.

Məsələ 491: Əgər qadın zahirən nifas qanından paklanarsa və ehtimal edərsə ki, bətnində qan var, bir qədər pambıqla özünü yoxlamalıdır. Əgər pak olsa qüsl verib ibadətlərini yerinə yetirməlidir.

Məsələ 492: Əgər nifas qanı on günü ötüb keçsə, heyizdə olduğu kimi ədədiyyə günləri nifas, qalan günlər istihazə sayılır. Əgər adət yoxsa, on günədək nifas, qalan günlər istihazədir.

Məsələ 493: Bir qadının heyiz adəti on gündən az olarsa, əgər adət günlərindən artıq nifas qanı müşahidə etsə, öz adət günləri həddində nifas

halında olduğunu qəbul etməlidir. Vacib ehtiyata əsasən, onuncu günədək ibadətdən çəkinməlidir. Əgər qan on gündən artıq gələrsə, adət günləri həddində nifas halındadır, qalan günlər istihazə qəbul olunur və həmin günlərdə buraxılan ibadətlərin qəzası yerinə yetirilir.

Məsələ 494: Bir çox qadınlar doğuşdan sonra bir ay və ya daha artıq müddət özlərində qan müşahidə edirlər. Bu qadınların heyiz adəti olarsa, həmin günlər həddində nifas halında olduqlarını qəbul etməli, on gündən sonra istihazə hökmünə əməl etməlidirlər. On gün keçdikdən sonra heyiz günlərinə təsadüf edərsə heyiz hökmünə əməl etməlidirlər. (Qanda heyiz nişanəsinin olub-olmamasının fərqi yoxdur) əgər heyiz günlərinə təsadüf etməsə, istihazə hökmünə əməl etməlidirlər. Bir şərtlə ki, qanda heyiz nişanəsi olmasın.

Məsələ 495: Doğuşdan sonra bir ay və ya daha artıq müddətdə özündə qan müşahidə edən qadınlar aylıq adətə malik olmadıqda ilk on günü nifas, ikinci on günü istihazə, sonrakı on günü qanda heyiz nişanəsi olduqda heyiz hökmünə əməl etməlidirlər. Qanda heyiz nişanəsi olmasa həmin günlər də istihazə qəbul olunur.

5. Meyyitə toxunmaq

Məsələ 496: Bir şəxs ölmüş insanın bədəninə soyuduqdan sonra, qüsüldən öncə toxunsa, meyyitə toxunmaq qüslü verməlidir. Bilərəkdən və ya bilməyərəkdən toxunmağın fərqi yoxdur. Hətta dırnaq meyyitin dırnağına toxunarsa, meyyitə toxunmaq qüslü vacib olur.

Meyyitə toxunmağın hökmləri

Məsələ 497: Əgər ölmüş insanın bədəni tam soyumamışsa ona toxunduqdan sonra qüsül vacib olmaz. Hətta toxunulan hissə soyumuşsa da bu hökm öz gücündədir. Meyyitə üç qüsl verildikdən sonra ona toxunan insanın qüsl verməsi vacib deyil.

Məsələ 498: İnsanın tükü meyyitə toxunarsa və ya əli meyyitin tükünə dəyərsə, vacib ehtiyata əsasən, qüsül verməlidir.

Məsələ 499: İnsan dörd ayı tamam olmuş siqt (düşmüş) uşağın meyyitinə toxunarsa qüsül verməsi vacibdir. Əgər körpə dörd aylıqdan kiçik olarsa, müstəhəb ehtiyata əsasən, qüsül verilməlidir.

Məsələ 500: Əgər dörd aylıq və ya dörd aylıqdan böyük uşaq dünyaya ölü gələrsə, onun anası vacib ehtiyata əsasən, meyyitə toxunmaq qüslü verməlidir.

Məsələ 501: Əgər körpə anası öldükdən sonra dünyaya gələrsə, vacib ehtiyata əsasən, büluğ həddinə çatdıqdan sonra meyyitə toxunmaq qüslü verməlidir.

Məsələ 502: Büluğ həddinə çatmamış və ya divanə şəxs meyyitə toxunsa büluğ həddinə çatdıqda və ya ağıla gəldikdən sonra meyyitə toxunma qüslü

verməsi vacibdir. (Müməyyiz) yə'ni yaxşını pisdən seçə bilən uşaq qüsül versə onun qüslü düzgün deyil.

Məsələ 503: Əgər diri insanın və ya ölünün bədənindən üzərində sümük olan ət parçası qoparsa (Məsələn, bir əl və ya bir barmaq) ona qüsül verilməmiş toxunanlar meyyitə toxunma qüslü verməlidir. Amma həmin ətin üzərində sümük olmasa, qüsül vacib deyil. Amma ölünün və ya dirinin sümüyünə və ya dişinə toxunduqda qüsül vacib deyil.

Məsələ 504: Meyyitə toxunma qüslü cənabət qüslü kimi verilir. Bu qüsüldən sonra dəstəmaz almaq vacib deyil. Amma müstəhəb ehtiyat budur ki, dəstəmaz alınsın.

Məsələ 505: İnsan bir neçə meyyitə toxunsa və ya bir meyyitə bir neçə dəfə toxunsa, bir qüsül verməsi bəs edər.

Məsələ 506: Meyyitə toxunma qüslü verməli olan şəxs məscidə gedə bilər, vacib səcdəsi olan Qur'an surəsi oxuya bilər, zövcəsi ilə yaxınlıq edə bilər. Amma namaz və bu kimi ibadətlər üçün qüsül verməlidir. Yə'ni meyyitə toxunma qüslü verməli olan insan dəstəmazsız insan kimidir.

Can verən insan ("möhtəzir")

Məsələ 507: "Möhtəzirin", yə'ni can verən insanın növbəti Məsələlərdə açıqlanacaq hökmləri var.

Can verənin hökmləri

Məsələ 508: Vacib ehtiyata əsasən, can verən insan arxası üstə uzadılmalıdır və ayaqlarının altı üzü qibləyə olmalıdır. Onun kişi və ya qadın olmasının, böyük və ya kiçik olmasının fərqi yoxdur. Əgər can verən şəxsi bu qaydada uzatmaq mümkün deyilsə, vacib ehtiyata əsasən, imkan həddində həmin göstərişə əməl olunmalıdır. Bu da mümkün olmasa onu üzü qibləyə oturtmaq lazımdır. Bu da mümkün olmasa, onu üzü qibləyə sağ çiyni və ya sol çiyni üzərində uzatmaq lazımdır.

Məsələ 509: Can verən insanı üzü qibləyə çevirmək hər bir insana vacibdir. Bu işdə onun sahibindən icazə almaq lazım deyil.

Məsələ 510: Müstəhəbdir ki, can verən şəxsə şəhadət kəlmələri, on iki imamın adı və digər dini əqidələr onu anlayacağı şəkildə təlqin olunsun (deyilsin). Müstəhəbdir ki, bu sözlər can verən şəxs ölənədək təkrarlansın.

Məsələ 511: Müstəhəbdir ki, can verən insana belə bir dua təlqin olunsun: "Əllahummağfirliəl-kəsirə min məasikə vəqbəl minnil-yəsirə min taətikə ya mən yəqbəlul-yəsirə və yə'fu ənil kəsiri iqbəl minnil-yəsirə və'fu hənnil-kəsirə innəkə əntəl-əfuvvul-ğəfur. Allahummərhəm fəinnəkə rəhim."

Yaxşı olar ki, bu duanı o özü də təkrarlasın.

Məsələ 512: Müstəhəbdir ki, çətin can verən insanı namaz qıldığı yerə aparsınlar.

Məsələ 513: Can verən şəxsin rahatlığı üçün onun başı üzərində “Yasin”, “Saffat”, “Əhzab” surələrini və “Ayatəl-kürsi” oxumaq yaxşıdır. Can verənin başı üzərində bacardıqca çox Qur’an oxunsun.

Məsələ 514: Can verən şəxsi tənha qoymaq, onun qarnı üzərinə ağır bir şey yerləşdirmək, onun yanında cənabətli və heyiz halında insanın qalması, can verənin yanında ağlamaq və danışmaq, can veräni qadınlarla tənha buraxmaq məkruh əməllərdəndir, (pislənilir).

Ölülər

Ölünün hökmləri

Məsələ 515: Müstəhəbdir ki, insan öldükdən sonra onun ağzı, gözləri və çənəsi bağlanılsın. Ölünün əllərini yanına salmaq, ayaqlarını uzatmaq, üzünə bir parça çəkmək lazımdır. Cənazənin dəfni üçün mö’minləri xəbərdar etmək lazımdır. Nə qədər ki, cənazə öldüyü yerdən tərpədilməyib üzü qibləyə saxlanılsın. Onun dəfninə tələsmək lazımdır. Amma insanın öldüyünə yəqinlik yoxsa, səbr edib bunu müəyyənləşdirmək lazımdır.

Məsələ 516: Ölmüş qadın hamilə olsa onun bətnində sağ olan və ya sağ olması ehtimal edilən körpə çıxarılmalıdır. Bundan ötrü meyyitin sol tərəfi yarılıb, körpə çıxarıldıqdan sonra həmin yer tikilir. Bu işi bacaranlara əl çatırsa, onların nəzarəti altında hərəkət etmək lazımdır.

Məsələ 517: Müsəlmana qüsül vermək, onu kəfənləmək, ona namaz qılmaq və dəfn etmək kifayi vacibdir. Yə’ni bə’ziləri bu işi görərsə, başqalarının öhdəsindən götürülər. Əgər bu işi kimsə görməsə günaha yol verilmişdir. Bu işdə müsəlman firqələri arasında fərq qoyulmur.

Məsələ 518: Yuxarıdakı işləri yerinə yetirən insan varsa, həmin işlər başqalarına vacib olmur. Amma həmin şəxs işi yarımçıq qoysa, başqaları onu tamamlamalıdır. Əgər başqa birinin bu işləri görüb-görmədiyinə şübhə varsa, insan özü addım atmalıdır.

Məsələ 519: Bir şəxs qüsül, kəfən, namaz və dəfnlə məşğul olsa, onun bu işləri düzgün yerinə yetirib-yetirmədiyini bilməsə, lazımınca yerinə yetirdiyini qəbul etməliyik. Amma səhvə yol verdiyinə əmin olsa, həmin işləri yenidən görməliyik.

Məsələ 520: Qüsül, kəfən, namaz və dəfn üçün meyyit sahibindən icazə almaq lazımdır. Sahiblik baxımından qadına daha yaxın olan onun əridir. Meyyitin irsindən pay alanlar bu işdə ərdən sonra gəlir. Əgər onun varisi kişi və qadın olsa, ehtiyat budur ki, hər ikisindən icazə alınsın.

Məsələ 521: Əgər bir şəxs özünü meyyitin sahibi kimi təqdim etsə və ya meyyit sahibindən icazə aldığını bildirsə, meyyitlə bağlı işlərdə ondan icazə alınmalıdır.

Məsələ 522: Əgər insan ölməzdən qabaq qəyyum olaraq başqa birini tə’yin etsə, məsələn, vəsiyyət etsə ki, filankəs mənə namaz qılsın, bu

vəsiyyətə əməl etmək vacibdir. Müstəhəb ehtiyat budur ki, onun sahibindən də icazə alınsın. Amma insan ölməzdən qabaq bir şəxsə bu işlərlə bağlı tapşırıq verərsə, həmin şəxsə bu vəsiyyəti qəbul etmək vacib deyil. Əlbəttə ki, qəbul etmək daha yaxşıdır. Əgər qəbul etsə, ona əməl etməlidir.

Məsələ 523: Əgər meyyit sahibinin razı olduğu bilinsə, o bunu dilə gətirməsə də, zahirən razılığının müəyyən olması kifayat edir.

6. Meyyit qüslü

Məsələ 524: Müsəlman meyyitə üç qüsül vermək vacibdir: Sidr qatılmış su ilə, kafur qatılmış su ilə, saf su ilə. Amma şəhid və bir qisim başqaları üçün qüsül yoxdur və bu barədə sonradan danışılacaq.

Meyyit qüslünün hökmləri

Məsələ 525: Sidir və kafurun suyu bulaşdıracaq həddə olmasının eybi yoxdur. Amma sidr və kafur o qədər az olmamalıdır ki, onların qatılmadığı söylənilsin. Su qatqılı şəkil aldıqda yaxşı olar ki, meyyit əvvəlcə onunla yuyulsun, sonra üzərinə tökülsün.

Məsələ 526: Əgər lazımı qədər sidir və kafur tapılmasa, vacib ehtiyata əsasən, tapılan miqdarı suya qatmaq lazımdır. Əgər tamamilə tapılmasa, onların əvəzinə adi su ilə qüsül verilməlidir.

Məsələ 527: Həcc və ümrə üçün ehram bağlamış şəxs təvafdan qabaq, xoş ətir halal olmamışdan öncə dünyasını dəyişsə, ona kafurlu su əvəzinə adi su ilə qüsül verilir.

Məsələ 528: Meyyitə qüsül verən şəxs müsəlman, büluğ həddində və ağıllı olmalıdır. Həmin şəxsin qüsl məsələlərini bilməsi lazımdır. Müstəhəb ehtiyat budur ki, həmin şəxs on iki imamçı şiə olsun.

Məsələ 529: Meyyit qüslü Allaha xatir, ona yaxınlaşmaq məqsədi ilə verilməlidir.

Məsələ 530: Müsəlman uşaq zinadan doğulmuşsa da ona qüsül vermək vacibdir. Uşaqlıqdan divanə olan və həmin halda büluğ həddinə çatan şəxsin ata-anası müsəlman olarsa, ona qüsül vermək vacibdir. Öncə müsəlman olub sonradan ağlını itirmiş şəxs də bu hökmdədir.

Məsələ 531: Dörd aylıq və ya daha böyük olan siqt (düşmüş) uşağa qüsül verilməlidir. Əgər dörd aylıqdan kiçik olsa, vacib ehtiyata əsasən, onu parçaya büküb qüsülsüz dəfn edirlər.

Məsələ 532: Qadına kişi qüsül verə bilməz. Eləcə də, qadın kişiyə qüsül verə bilməz. Yalnız ər və arvad bir-birlərinə qüsl verə bilərlər. Amma müstəhəb ehtiyat budur ki, zərurət olmadıqda bu iş görülməsin.

Məsələ 533: Kişi üç yaşı tamam olmamış körpə qıza qüsl verə bilər. Qadın da üç yaşı tamam olmamış körpə oğlana qüsl verə bilər.

Məsələ 534: Əgər kişiyə qüsl vermək üçün kişi tapılmasa, ona məhrəm qadınlar qüsl verə bilərlər. Eləcə də, qadın meyitə qüsl üçün qadın

tapılmasa, məhrəm kişilər ona qüsl verə bilərlər. Yaxşı olar ki, bu qüsl paltar üzərindən verilsin.

Məsələ 535: Kişiyə kişi, qadına qadın qüsl verərkən onun ayıb yerindən başqa yerlərini açа bilər.

Məsələ 536: Ölünün ayıb yerinə baxmaq haramdır. Amma bu iş qüslü batil etmir.

Məsələ 537: Əgər meyyitin bədəni murdara toxunarsa qüsüldən öncə həmin yeri yumaq lazımdır. Müstəhəb ehtiyata əsasən, qüsüldən öncə meyyitin bütün bədəni murdarlıqdan təmizlənsin.

Məsələ 538: Meyyit qüslü də cənabət qüslü kimidir. Ehtiyat budur ki, tərtibi qüsül mümkün olduqda irtimasi qüsül verilməsin. Amma tərtibi qüsüldə bədənin üç hissəsini ardıcıllıqla suya batırmaq olar. Əgər qadın heyiz halında, bir şəxs cənabətli halda dünyadan gedərsə, meyyit qüslü bəs edir.

Məsələ 539: Meyyit qüslü vermək müqabilində muzd almaq olmaz. Amma müqəddimə, təmizlik və bu kimi işlər üçün muzd almağın eybi yoxdur.

Məsələ 540: Əgər su tapılmasa və ya hər hansı səbəbdən qüsl vermək mümkün olmasa, meyyitə hər qüsl əvəzində təyəmmüm etdirilməlidir. Təyəmmüm edən şəxs meyyitlə üzbəüz dayanır, əlini torpağa vurub meyyitin üzünə və əllərinin arxasına çəkir.

Kəfənləmənin hökmləri

Məsələ 541: Müsəlman meyyiti üç parça ilə kəfənləmək vacibdir. Bu hissələr fitə, köynək və sərtasər (başdan başa) adlanır.

Məsələ 542: Fitə meyyitin göbəkdən dizinədək olan hissəni örtməlidir. Yaxşı olar ki, sinədən ayaqların üzərinədək örtsün. Vacib ehtiyata əsasən, köynək çiyinlərdən baldırların yarısınadək (dizdən aşağı) hissəni tamam bürüsün. Vacib ehtiyata əsasən, sərtasərin uzunluğu elə bir həddə olmalıdır ki, meyyit büründükdən sonra hər iki başını bağlamaq mümkün olsun. Sərtasərin eni elə bir həddə olmalıdır ki, bir tərəfini o biri tərəfinin üzərinə aşırmaq mümkün olsun.

Məsələ 543: Kəfəni orta həddi gözləməklə meyyitin malı hesabına hazırlamaq olar. Onun övladları qalmışsa da belədir. Amma övladlarının payından adi həddən artıq miqdarda götürmək olmaz. Amma ölən şəxs vəsiyyət etmiş olarsa, artıq miqdarı üçdə birdən hesablamaq olar.

Məsələ 544: Kəfənin vacib miqdarını, qüsül, hənut və dəfn kimi vacib işlərin xərclərini meyyitin malından götürürlər və vəsiyyətə ehtiyac yoxdur. Əgər meyyitin malı olmasa, o xərclər Beytül-maldan, xümsdən ödənir.

Məsələ 545: Arvadın kəfən xərci ərin öhdəsinədir. Qadının öz malı olsa da belədir. “Ric’i” tələq verilmiş (boşanmış) qadın iddə müddəti başa çatmamış ölərsə, onun kəfən xərci ərinin öhdəsinədir.

Məsələ 546: Əgər meyyitin bir malı olmasa, hətta sağ ikən onun xərcini ödəyən qohumlarına vacib deyil ki, kəfən xərcini ödəsinlər. Amma başqa bir yol olmasa vacib ehtiyata əsasən, sağ ikən onun xərcini ödəyən kəs kəfən hazırlamalıdır.

Məsələ 547: Vacib ehtiyat budur ki, kəfənin hər üç hissəsi qalın olsun və onun o biri tərəfi görünməsin.

Məsələ 548: Hətta başqa parça tapılmasa da, qəsbi parça ilə kəfənləmək olmaz. Əgər qəsbi parça ilə kəfənlənsə sahibi razılıq verməsə kəfəni çıxarmalıdırlar. Hətta meyyit dəfn olunsa da bu iş görülməlilir. Meyyiti həmən kəfənə bükən şəxs bu işi görməlidir. Ölü heyvanın dərisi, murdar şeylə kəfənləmək olmaz. Vacib ehtiyat budur ki, xalis ipək parça, qızıl saplı parça, əti haram heyvanın yunu və dərisindən hazırlanmış parça ilə kəfənləmək olmaz. Başqa çarə olmasa eybi yoxdur.

Məsələ 549: Zərurət olmadıqda meyyiti hətta əti halal heyvanların dərisi ilə kəfənləmək olmaz. Amma əti halal heyvanın yunundan və tükündən hazırlanmış parça ilə kəfənləməyin eybi yoxdur. Amma müstəhəb ehtiyat budur ki, həmin iş görülməsin.

Məsələ 550: Əgər kəfən xaricdən və ya meyyitin özündən murdarlanarsa, onu yumaq lazımdır. Əgər kəfən korlanmazsa, onun murdar hissəsini kəsmək olar. Bu iş mümkün olmasa, kəfəni dəyişmək lazımdır.

Məsələ 551: Həcc və ümrə üçün ehram bağlamış şəxs dünyasını dəyişsə onu başqaları kimi kəfənləmək lazımdır. Onun başını və üzünü örtməyin eybi yoxdur.

“Hənutun” hökmləri

Məsələ 552: Qüsül başa çatdıqdan sonra meyyiti “hənut” etmək vacibdir. “Hənut” dedikdə yeddi səcdə yerinə (alın, əllərin içi, dizlər, ayaqların baş barmaqlarının ucu) kafur sürtülməsi nəzərdə tutulur. Ehtiyat budur ki, bu üzvlərin üzərinə bir qədər kafur qoyulsun. Kafur pak, halal və təzə olmalıdır. Belə ki, onun səciyyəvi qoxusu olmalıdır.

Məsələ 553: Ehtiyat budur ki, kafur əvvəlcə meyyitin alnına çəkilsin. Bu işi kəfənləmədən öncə və ya həmin vaxt görmək lazımdır, sonraya saxlamaq olmaz.

Məsələ 554: Həcc və ya ümrə üçün ehram bağlamış şəxs dünyasını dəyişsə onu hənut etmək, ətirləmək olmaz.

Məsələ 555: Əri ölmüş, hələ ki, iddə müddətində olan qadının ətirlənməsi haramdır. Amma bu qadın ölərsə onu hənut etmək vacibdir.

Məsələ 556: Ehtiyat budur ki, meyyitə müşk, ənbər və bu kimi başqa ətirlər vurulmasın. Həmin ətirlərdən hətta hənut üçün də kafura qatmaq olmaz.

Məsələ 557: Əgər kafur qüsül və hənuta çatmasa, vacib ehtiyata əsasən, ondan qüsüldə istifadə edilir. Əgər yeddi üzvə çatmasa, alına vurmaq lazımdır.

Məsələ 558: Yaxşı olar ki, kafura bir qədər Seyyidüş-şühədanın türbətindən qatılsın. Amma həmin türbətdən o qədər qatmaq olmaz ki, qatqı kafur adlanmasın.

Məsələ 559: Müstəhəbdir ki, qəbirdə meyyitin yanına iki tər çubuq qoyulsun. Bu çubuq kəfənin içinə də qoyula bilər.

Meyyit namazı

Məsələ 560: Hər bir müsəlman və büluğ həddinə çatmış şəxsin meyyiti üçün namaz qılmaq vacibdir. Büluğ həddinə çatmamış uşağın yaşı altıdan az deyilsə, vacib ehtiyata əsasən, onun meyyiti üçün namaz qılınmalıdır.

Məsələ 561: Meyyit namazı qüsül, hənut və kəfəndən sonra qılınır. Hətta unutqanlıq səbəbindən bu namaz qüsül, hənut və kəfəndən qabaq və ya onlar arasında qılınarsa batildir.

Məsələ 562: Meyyit namazında dəstəmaz, qüsül və ya təyəmmüm, bədən və libasın pak olması şərt deyil. Amma müstəhəb ehtiyat budur ki, başqa namazlar üçün nəzərdə tutulmuş şərtlərə riayat edilsin.

Məsələ 563: Meyyit namazını üzü qibləyə qılmaq vacibdir. Vacib ehtiyat budur ki, meyyiti namaz qılan şəxsin qarşısında arxası üstə uzatsınlar, onun baş tərəfi namaz qılanın sağında, ayaq tərəfi namaz qılanın solunda yerləşsin.

Məsələ 564: Namaz qılanın yeri meyyitin yerindən yuxarı və ya aşağı olmamalıdır. Amma azca fərqin eybi yoxdur. Namaz qılan şəxs meyyitdən uzaqda dayanmamalıdır. Amma bu namazı cəmiyyətlə qılan şəxs uzaq dayandıqda yaxın dayanmış şəxsə cərgə ilə bağlı olarsa eybi yoxdur.

Məsələ 565: Namaz qılan şəxs meyyitin qarşısında dayanmalıdır, onlar arasında pərdə və divar kimi arakəsmə olmamalıdır. Amma meyyiti tabut və bu kimi şeylərə qoymağın eybi yoxdur.

Məsələ 566: Meyyit namazını ayaq üstə, Allaha yaxınlıq məqsədi ilə qılmaq lazımdır. Niyyətdə meyyit müəyyənləşdirilməlidir. Məsələn, niyyət edilir ki, bu meyyitə namaz qılıram, qürbətən iləllah. Meyyit namazını ayaq üstə qılacaq şəxs olmasa, ona oturaq vəziyyətdə namaz qılınmalıdır.

Məsələ 567: Meyyit vəsiyyət etsə ki, ona meyyit namazını müəyyən bir şəxs qılsın, onun vəsiyyətinə əməl etmək vacibdir. Bu işdə meyyit sahibindən icazə almaq vacib deyil. Amma müstəhəb ehtiyat budur ki, icazə alınsın.

Məsələ 568: Bir meyyitə bir neçə meyyit namazı qılmaq məkruhdur, bəyənilmir. Hətta bir nəfərin həmin namazı bir neçə dəfə qılmasına irad var. Amma meyyit elm, fəzl, təqva əhli olarsa, bu iş məkruh sayılmaz.

Məsələ 569: Əgər meyyiti bilməzlikdən, unutqanlıqdan və ya hər hansı başqa bir üzürlü səbəbdən namazsız dəfn edərlərsə və ya dəfndən sonra ona qılınan namazın batil olduğu bilinərsə, həmin qaydada qəbrə namaz qılmaq vacibdir.

Meyyit namazının qaydası

Məsələ 570: Meyyit namazının beş təkbiri var və əgər namaz qılan şəxs aşağıdakı qaydada beş təkbir deyərsə bəs edər. Niyyət və təkbirdən sonra deyilir:

اَشهَدُ اَن لاَاِلَهَ اِلاَّالله وَاَنَّ مُحَمَّداً رَسُولُ اللهِ

"Əşhədu ənla ilahə illəllahu və ənnə Muhəmmədən rəsulullah."

İkinci təkbirdən sonra deyilir:

أَللّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

"Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd."

Üçüncü təkbirdən sonra deyilir:

أَللّهُمَّ اغفِرللمؤمِنِينَ وَالمؤمِنَاتِ

"Əllahum-məğfirlil mu'mininə vəl-mu'minat".

Dördüncü təkbirdən sonra meyyit kişidirsə:

أَللّهُمَّ اغفِر لِهَذَا المَيِّتِ

"Allahummәğfir lihazəl-məyyit" meyyit qadındırsa:

أَللّهُمَّ اغفِر لِهَذهِ المَيِّتِ

"Allahummәğfir lihazihil-məyyit" deyilir.

Sonra beşinci təkbir söylənilir. Yaxşı olar ki, birinci təkbirdən sonra belə deyilsin:

أَشهَدُ اَن لاَاِلهَ إلاَاللهُ وَحدَهُ لاَشَرِيكَ لَهُ وَاَشهَدُ اَنَّ مُحَمَّدًا عَبدُهُ وَرَسُولُهُ اَرسَلَهُ بِالحَقِ بَشِيرًا وَنَذِيرًا بَينَ يَدَي السَاعِةِ

"Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləhu və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu ərsələhu bil həqqi bəşirən bi nəzirən bəynə yədəyh saə".

İkinci təkbirdən sonra deyilsin:

أَللّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَبَارِك عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَارحَم مُحَمَّدًا وَآلَ مُحَمَّداً كَ اَفضَلِ مَاصَلَّيتَ وَبَارَكتَ وَتَرَحَّمتَ عَلَى اِبراهِيمَ وَآلِ اِبراهِيمَ اِنَّكَ حَمِيدً مَجِيدً وَصَلَّ عَلَى جَمِيعِ الأَنبِيَاءِ وَ المُرسَلِينَ و الشهداء و الصديقين و جميع عباد الله الصالحين

"Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd və barik əla Muhəmmədin və ali Muhəmməd və vərhəm Muhəmmədən və ali Muhəmməd kəəfzəli ma səlləytə və barəktə və tərhəmtə əla İbrahimə və ali İbrahimə innəkə həmidun məcid və səlli əla cəmiil ənbiyai vəl mursəlin vəşuhədai və siddiqin və cəmii ibadillahi salihin."

Üçüncü təkbirdən sonra deyilsin:

أَللّهُمَّ اغفِر لِلمؤمِنِينَ وَالمُؤمِنَاتِ وَالمُسلِمِينَ وَالمُسلِمَاتِ الاَحيَاءِ مِنْهُم وَالاَمواَتِ تَابِع بَينَنَا وَبَينَهُم بِالخَيرَاتِ اِنَّكَ مجيب الدعوات اِنَّكَ عَلَى كُلَّ شَيءٍ قَدِيرً

“Allahummağfirlil-muminina vəl muminat vəl musliminə vəl muslimat əl əhyai minhum vəl əmvat tabi bəynəna və bəynəhum bilxəyrat innəkə mucibud-dəəvat innəkə əla kulli şəyin qədir.”

Dördüncü təkbirdən sonra meyyit kişidirsə belə deyilir:

أَللّٰهُمَّ اِنَّ هٰذا عَبدُكَ وَابنُ عَبدِكَ وَابنُ اَمَتِكَ نَزَلَ بِكَ وَاَنتَ خَيرُ مَنزُولٍ بِهِ أَللّٰهُمَّ اِنَّا لاَنَعلَمُ مِنهُ اِلاَ خَيرًا وَاَنتَ اَعلَمُ بِهِ مِنَّا أَللّٰهُمَّ اِن كَانَ مُحسِنًا فَزِد فِى اِحسَانِهِ وَ اِن كَانَ مُسِيئًا فَتَجَاوَز عَنهُ وَاَغفِرلَهُ أَللّٰهُمَّ اجعَلهُ عِندَكَ فِى اَعلَى عِلِّيِّينَ وَاخلُف عَلَى اَهلِهِ فِى الغَابِرِينَ وَارحَمهُ بِرَحمَتِكَ يَااَرحَمَ الرَّاحِمِينَ

“Allahummə innə haza əbdukə vəbnu əbdikə vəbnu əmətikə nəzələ bikə və əntə xəyru mənzuri bihi allahummə inna la nəələmu minhu illa xəyrən və əntə əələmu bihi minnə Allahummə in kanə muhsinən fəzid fi ihsanihi və in kanə musiən fətəcavəh ənhu vəğfir və hu Allahumməcəlhu indəkə fi əla illiyyinə vəxluf əla əhdihi fil-ğabirinə vərhəmhu birəhmətikə ya ərhəmər-rahimin.”

Əgər meyyit qadındırsa dördüncü təkbirdən sonra belə deyilir:

أَللّٰهُمَّ اِنَّ هَذِهِ اَمَتُكَ وَابنَتُ عَبدِكَ وَابنَتُ اَمَتِكَ نَزَلَت بِكَ وَاَنتَ خَيرُ مَنزُولٍ بِهِ أَللّٰهُمَّ اِنَّا لاَنَعلَمُ مِنهَا الاَّ خَيرًا وَاَنتَ اَعلَمُ بِهَا مِنَّا أَللّٰهُمَّ اِن كَانَت مُحسِنَةً فَزِد فِى اِحسَانِهَا وَاِن كَانَت مُسِيئَةً فَتَجَاوَز عَنهَا وَاغفِرلَهَا أَللّٰهُمَّ اجعَلهَا عِندَكَ فِى اعلىَ عِلِّيِّين وَاخلُف عَلَى اَهلِهَا فِى الغابِرِنَ وَارحَمهَا بِرَحمَتِكَ يَا اَرحَمَ لرَّاحِمِنَ

“Allahummə innə hazihi əmətukə vəbnətu əbdikə vəbnətu əmətikə nəzələt-bikə və əntə xəyru mənzulin bihi. əllahummə inna la nəələmu minha illa xəyrən və əntə ələmu biha minna allahummə in kanət muhsinətən fəzid fi ihsaniha və in kanət musiətən fətəcavəz ənha vəxfir ləha Allahumməcəlha indəkə fi əla illiyyinə vəxluf əla əhliha fil-ğabilinə vərhəmha birəhmətikə ya ərhəmər rahimin.”

Sonra beşinci təkbir söylənilir.

Bu ardıcıllıqla əvəzliklər kişi cinsinə aid edilər. Namaz bir qadın bir neçə qadın meyyiti üçün qılındıqda əvəzliklər və adlar qadın cinsi üçün nəzərdə tutulur. Əgər həm kişi, həm də qadın meyyiti üçün qılınırsa, hər ikisi (ikilik) nəzərdə saxlanılır.

Məsələ 571: Təkbirləri və duanı elə ardıcıl oxumaq lazımdır ki, namazın şəkli dəyişməsin. Vacib ehtiyata əsasən, namazın ortasında kimsə ilə danışılmasın.

Məsələ 572: Müstəhəbdir ki, meyyit namazı camaatla qılınsın. Amma camaatla meyyit namazı qılan şəxs bütün təkbirləri və duaları deməlidir. Qeyd olunduğu kimi, yuxarıdakı geniş duaları demək müstəhəbdir. Bir şəxs onları əzbər bilmirsə üzünə oxuya bilər.

Meyyit namazının müstəhəb keyfiyyətləri

Məsələ 573: Müstəhəbdir ki, meyyit namazı qılan şəxs dəstəmazlı, qüsül və ya təyəmmüm etmiş olsun. Ehtiyata əsasən, dəstəmaz və qüsül mümkün olmadıqda təyəmmüm edilir. Bir şəxs dəstəmaz alıb qüsül versə namaza

çatmayacaqsa, müstəhəbdir ki, meyyit namazının o biri şərtlərinə savab məqsədi ilə əməl etsin: Əvvəla, meyyit kişidirsə imam-camaat və ya meyyit namazı qılan şəxs meyyitin düz orta bərabərində dayansın. Əgər meyyit qadındırsa sinəsi istiqamətində dursun. İkincisi, namazı ayaqyalın qılsın. Üçüncüsü, hər təkbirdə əllərini qaldırsın. Dördüncüsü, meyyitlə fasiləsi o qədər az olsun ki, külək libasını tərpətsə cənazəyə toxunsun. Beşincisi, əgər namaz camaatla qılınırsa, imam təkbir və duaları ucadan söyləsin, onunla namaz qılanlar astadan desinlər. Altıncısı, namaz qılan şəxs meyyit və mö'minlər üçün çox dua etsin. Yeddincisi, namazdan öncə üç dəfə "Əssəlat" söyləsin. Səkkizincisi, namazı elə bir yerdə qılsın ki, meyyit namazında daha çox insan iştirak etsin. Doqquzuncusu, yaxşı olar ki, meyyit namazı məsciddə qılınsın. Yalnız Məscidül-həramda belə etmək olmaz. Onuncusu, heyiz qadın meyyit namazını camaatla qılarsa, bir cərgədə tək dayansın.

Dəfnin hökmləri

Məsələ 574: Meyyit elə dəfn olunmalıdır ki, qoxusu bayıra çıxmasın, vəhşi heyvanlar ona toxuna bilməsinlər. Əgər vəhşi heyvanın cəsədə toxunacağı ehtimal edilsə, qəbri kərpic və bu kimi şeylərlə hörmək lazımdır.

Məsələ 575: Meyyiti torpaqda dəfn etmək mümkün olmasa, vacibdir ki, dəfn əvəzinə bina və ya tabuta qoyulsun, ətrafı möhkəmləndirilsin.

Məsələ 576: Dəfn zamanı meyyiti qəbrə sağ çiyni üzərində qoymaq lazımdır. Onun üzü qibləyə olmalıdır.

Məsələ 577: Bir şəxs gəmidə ölsə, çürümə qorxusu olmasa və gəmidə saxlanması mümkün olsa, quruya çatınca gözləmək lazımdır. Onu gəmidə saxlamaq mümkün olmadıqda qüsül, hənut və kəfənləmədən sonra namaz qılınır, dəniz heyvanlarının toxuna bilməyəcəyi bir şeydə dənizə atılır. Bu da mümkün olmasa, onun ayağına ağır bir şey bağlanır və dənizə atılır. Meyyit elə bir yerə atılmalıdır ki, atılan kimi heyvanlara yem olmasın.

Məsələ 578: Əgər düşmənin qəbri açacağından, cəsədi çıxaracağından və ya ona bir zərər yetirəcəyindən qorxsalar, mümkün olduqda yuxarıda deyən şəkildə meyyit dənizə atılmalıdır.

Məsələ 579: Lazım gəldikdə qəbir xərclərini, eləcə də meyyiti dənizə atmağın xərclərini meyyitin malından ödəmək olar.

Məsələ 580: Kafir qadın dünyasını dəyişsə və bətnində körpəsi ölsə, həmin körpənin atası müsəlman olduqda qadın qəbrə sol tərəfi üstündə arxası qibləyə qoyulur ki, uşaq üzü qibləyə qalsın. Hətta uşağın bədəninə ruh daxil olmazdan öncə vacib ehtiyata əsasən, bu göstərişə əməl olunmalıdır.

Məsələ 581: Müsəlmanı qeyri-müsəlman qəbristanlığında, kafiri müsəlman qəbristanlığında dəfn etmək olmaz. Vacib ehtiyata əsasən, müsəlmanı ona ehtiramsızlıq sayılacaq yerdə də dəfn etmək haramdır. (Məsələn, küllük, zibillik)

Məsələ 582: Meyyit qəsb olunmuş yerdə dəfn edilməməlidir. Meyyiti dəfn üçün vəqf edilməmiş yerdə dəfn etmək olmaz. (Məsələn, məscid, mədrəsə). Amma öncədən vəqfdə dəfn üçün yer nəzərdə tutulsa eybi yoxdur.

Məsələ 583: Meyyiti o zaman başqa meyyitin qəbrində dəfn etmək olar ki, əvvəlki ölünün cəsədi görünməsin. Yeri halal və ümumi vəqf olduqda bunun eybi yoxdur.

Məsələ 584: Vacib ehtiyata əsasən, meyyitdən ayrılan tük, dırnaq və diş kimi şeylər onunla birlikdə dəfn olunmalıdır. Amma bundan ötrü qəbir açılmamalıdır. Amma həyatda olduğu vaxt insanın bədənindən ayrılan dırnaq və dişləri onunla dəfn etmək vacib deyil. Amma bu iş görülsə daha yaxşıdır.

Məsələ 585: Bir şəxs quyuda ölsə və onu oradan çıxarmaq mümkün olmasa, quyunun ağzını bağlamaq və quyunu həmin şəxsə qəbir qərar vermək lazımdır. Quyu başqa birinə məxsus olduqda, onu bir yolla razı salmaq lazımdır.

Məsələ 586: Körpə ananın bətnində ölsə və onun bətində qalması ana üçün zərərli olsa, onu ən asan yolla çıxarmaq lazımdır. Körpəni doğramaq lazım gəlsə belə bu iş görülməlidir. Bu işi ilk növbədə ixtisası olan ər görməlidir. Ər bacarmasa, bu iş ixtisaslı qadına tapşırılmalıdır. Bu da mümkün olmasa, həmin işi bacaran məhrəm kişi körpəni çıxarmalıdır. Başqa yol qalmadıqda həmin işi mütəxəssis naməhrəm kişi görə bilər.

Məsələ 587: Ana ölsə və bətnindəki körpə sağ qalsa, həmin körpəni dərhal çıxarmaq lazımdır. Körpə yuxarıda qeyd olunan qaydada çıxarılmalıdır. Körpəni hansı tərəfdən sağlam çıxarmaq mümkünsə həmin tərəfdən də çıxarılmalıdır. Ölmüş ananın yarılmış bədəni yenidən tikilir. Bu iş peşəkar bir adamın nəzarəti altında görülür. Peşəkar olmadıqda meyyitin sol tərəfi yarılır və körpə dərhal çıxarılır.

Dəfndə müstəhəb əməllər

Məsələ 588: Müstəhəbdir ki, Allahın razılığını qazanmaq ümidi ilə dəfndə aşağıdakı işlər görülsün:

1. Qəbir orta boylu insanın qaməti ölçüsündə qazılsın.

2. Meyyit ən yaxın qəbristanlıqda basdırılsın. Amma uzaqdakı qəbristanlığın üstünlükləri varsa, məsələn orada mö'min insanlar dəfn olunmuşsa və ya "Fatihə" oxuyan çoxsa, meyyiti həmin qəbristanlıqda basdrmaq olar.

3. Dəfn zamanı cənazəni qəbrin bir neçə addımlığında yerə qoysunlar, üç dəfəyə asta-asta qəbrə yaxınlaşdırsınlar və dördüncü dəfə onu qəbrə salsınlar.

4. Meyyit kişi olsa onu baş tərəfindən qəbrə daxil etsinlər. Meyyit qadındırsa, onu qəbrə eninə daxil etsinlər. Qadını qəbrə daxil edərkən qəbrin üzərinə parça tutsunlar.

5. Cənazəni tabutdan asta-asta çıxarıb, aramlıqla qəbrə qoysunlar. Dəfndən öncə və dəfn zamanı göstəriş verilən duaları oxusunlar.

6. Qəbirdə meyyiti yerləşdirmək üçün "ləhəd" olmalıdır. Ləhəd elə hazırlanmalıdır ki, torpaq meyyitin üstünə tökülməsin. Qəbrin aşağı hissəsi dar olmalıdır. Meyyit qəbrə qoyulduqdan sonra yuxarı hissəyə kəsək və ya kərpic qoyulur, ya da qəbrin qiblə tərəfi aşağıdan azca genişləndirilir. Belə ki, meyyit orada yerləşsin.

7. Meyyitin başının arxa tərəfinə torpaq və ya kəsək qoyulur ki, onu sağ tərəfi üstə uzadanda arxaya aşmasın.

8. Meyyit qəbrə qoyulduqdan sonra kəfənin düyünləri açılır, meyyitin üzü torpağa qoyulur, başının altına torpaqdan balış düzəldilir.

9. Meyyiti qəbrə qoyan şəxs pak (təharətli), başı və ayağı açıq olmalıdır. Bu şəxsin qohumlardan olmaması lazımdır. Əlin arxası ilə torpaq qəbirə tökülür və deyilir: "İnna lillahi və inna iləyhi raciun." Əgər meyyit qadın olsa, ona məhrəm şəxs meyyiti qəbrə qoyur. Məhrəm olmasa qohumları onu qəbrə yerləşdirir.

10. Ləhədi örtməzdən öncə sağ əl meyyitin çiyninə vurulur və hərəkət etdirilərək üç dəfə deyilir: "İsmə' ifhəm ya fulanəbnə fulan" (filan sözünün yerinə meyyitin adı və atasının adı deyilir.) Məsələn üç dəfə deyilir:

اِسمَع اِفهَم يَا مُحَمَّد بن عِلِيٍّ

"İsmə ifhəm ya Muhəmmədəbnə Əli".

Sonra aşağıdakı qaydada İslam əqidələri meyyitə tələqin olunur və belə deyilir:

هَل اَنتَ عَلىَ العَهدِ الَّذِي فَارَقتَنَا عَليهِ مِن شَهَادَتِ اَن لاَ اِلهَ اِلاَّاللَّه وَحدَهُ لاَشَرِيكَ لَهُ وَاَنَّ مُحَمَّدًا صَلّى اللَّهُ عَلَيهِ وَآلِهِ عَبدُهُ وَرَسُولُهُ وَسَيّدُ النَّبِيِّينَ وَخَاتَمُ المُرسَلِنَ وَاَنَّ عَلِيًّا عليه السلام اَمِير المُومِنِينَ وَسَيّدُ الوَصيِّينَ وَاِمَامُ اِفتَرَضَ اللهُ طَاعَتَهُ عَلَى العَالَمِينَ وَاَنَّ الحَسَنَ وَالحُسَينَ وَعَلىَّ بنَ الحُسَين وَمُحَمَّدَ بنَ عَلِىّ وَجَعفَرَبنَ مُحَمَّدٍ وَمُوسى بنَ جَعفَرٍ وَعَلِىَّبنَ مُوسىَ وَمُحَمَّدَ بنَ عَلىّ وَعَلِىّ بنَ مُحَمَّدٍ وَالحَسَنَ بنَ عِلِىّ وَالقَايمَ الحُجّةَ المَهدِىّ صَلَواَتُ اللهِ عَلَيهِم ائمَّةُ المُومِنِينَ وَحُجَجُ اللهِ عَلىَ الخَلقِ اجمَعِينَ وَاَيمَّتَكَ اَنمّةٌ هُدِىَ بِهِم اَبرارَ يَا فُلاَنَ بنَ فُلاَن

"Həl əntə ələl-əhdil-ləzi farəqtəna ələyhi min şəhadəti ənla ilahə illəllahu vəhdəhula şərikə ləhu və ənnə Muhəmmədən səlləllahu ələyhi və alihi əbduhu və rəsuluhu və səyyidun-nəbiyyinə və xatəmul-mursəlinə və ənnə Əyiyyən Əmirul-mo'mininə və səyyidul-vəsiyyinə və imamuniftərəzəllahu taətəhu ələl-aləmin və ənnəl-Həsənə vəl-Huseynə və Əliyyəbnəl-Huseyni və Muhəmmədəbnə Əliyyin və Cəfərəbnə Muhəmmədin və Musəbnə Cəfərin və Əliyyəbnə Musa və Muhəmmədəbnə Əliyyin və Əliyyəbnə Muhəmmədin vəl-Həsənəbnə Əliyyin vəl Qaiməl-Huccətəl-Məhdiyyə sələvatullahi ələyhim əimmətul-mu'mininə və hucəcullahi ələl-xəlqi əcməin

və əimmətukə əimmətu hudən əbrarun ya fulanəbnə fulan (“filan”) əvəzinə meyyitin adı və atasının adı deyilir.)

Sonra deyilir:

اِذا اَتَاكَ المَلَكَانِ المُقَرَّبَانِ رَسُولَينِ مِن عِندِاللهِ تَبَارَكَ وَتَعَالىَ وَسَألاَكَ عَن رَبِّكَ وَعَن نَبِيِّكَ وَعَن دِينِكَ وَعَن كِتَابِكَ وَعَن قِبلَتِكَ وَعَن اَئمَّتِكَ فَلاَتَخَف وَلاَتَحزَن وَقُل فِي جوابِهِمَااللهُ رَبِّيَ وَمُحمَّدٌ صَلَّىاللهُ عَلَيهِ وَآلِهِ نَبِيِّي وَالاِسلاَمُ دِينِيَ والقُرآنُ كِتَابِي وَالكَعبةُ قِبلَتِي وَاَمِيرُ المُؤمِنِينَ عَلِيُّ بنُ اَبِي طَالِبٍ عليه السلام اِمَامِي وَالحَسَنُ بنُ عَلِيّ المُجتَبىَ عليه السلام اِمَامِي وَالحُسَينُ بنُ عَلِيّ الشَّهِيدُ بِكَربَلاَ عليه السلام اِمَامِي وَعَلِيٌّ زَينُ العَابِدِينَ عليه السلام اِمَامِي وَمُحَمَّدٌ البَاقِرُ عليه السلام عليه السلام اِمَامِي وَعَلِيُّ الرِّضَا عليه اِمَامِي وَجَعفَرٌ الصَّادِقُ عليه السلام اِمَامِي وَمُوسَى الكَاظِمُ السلام اِمَامِي وَمُحَمَّدٌ الجَوادُ عليه السلام اِمَامِي وَعَلِيٌّ الهادِي عليه السلام اِمَامِيوَالحَسَنُ العَسكَرِي عليه السلام اِمَامِي وَالحُجَّةُ المُنتَظَرُ عليه السلام اِمَامِي هَؤلاَءِ صَلَوَاتُ اللهِ عَلَيهِم اَجمَعِينَ اَئِمَّتِي وَسادَتِي وَقَادَتِي وَشُفَعَائي بِهِم اَتَوَلَّى وَمِن اَعدائهِم اَتَبَرَّءُ فِي الدُّنيَا وَالاَخِرَةِ ثُمَّ اعلَم يَا فُلاَنَ بنَ فُلاَن

“İza ətakəl-mələkanil-muqərrəbani və rəsuləyni min indillahi təbarəkə və təala və səəlakə ən rəbbikə və ən nəbiyyikə və ən dinikə və ən kitabikə və ən qiblətikə və ən əimmətikə fələ təxəv vələ təhzən və qul fi cəvabihima Allahu Rəbbi və Muhəmmədun səlləllahu ələyhi və alihi nəbiyyi vəl-İslamu dini vəl-Qur’anu kitabi vəl-Kəbətu qibləti vəl-Əmirəl-mö’mininə Əliyyubnu Əbi Talibin imami vəl-Həsənubnu Əliyyinil-Muctəba imami vəl-Huseynubnu Əliyyiniş-şəhidu bi-Kərbəla imami və əliyyun Zəynul-Abidinə imami və Muhəmmədunil-Baqiru imami və Cəfərunis-Sadiqu imami və Musəl Kazimu imami və Əliyyunir-Riza imami və Muhəmmədunil-Cəvadu imami və Əliyyunil-Hadiyyu imami vəl-Həsənul Əskəriyyu imami vəl-Huccətul muntəzəru imami həulai sələvatullahu ələyhim əcməinə əimməti və sadəti və qadəti və şufəai bihim ətəvəlla və min ə’daihim ətəbərruu fid dünya vəl axirəti summə’ləm ya fulanəbnə fulan (“filan”) əvəzinə meyyitin adı və atasının adı deyilir.”

Sonra deyilir:

اِنَّ اللهَ تَبَارَكَ وَتَعَالَى نِعمَ الرَّبُّ وَاَنَّ مُحَمَّداً صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ نِعمَ الرَّسُولُ وَاَنَّ عَلِيَّ بنَ اَبِي طَالِبٍ وَاَولاَدَهُ المَعصُومِينَ الأَئمَّةَ الإِثنيَ عَشرَ نِعمَ الاَئِمَّةُ وَاَنَّ مَاجَاءَ بِهِ مُحَمَّدٌ صَلَّى اللهُ عَلَيهِ وَ آلِهِ حَقٌّ وَاَنَّ المَوتَ حَقٌّ وَسُؤالَ مُنكَرٍ وَنَكِيرٍ فِي القَبرِ حَقٌّ وَالبَعثَ حَقٌّ وَالنُّشُورَ حَقٌّ وَالصِّراطَ حَقٌّ وَالمِيزَانَ حَقٌّ وَتَطايُرَ الكُتُبِ حَقٌّ وَاَنَّ الجَنَّةَ حَقٌّ وَالنَّارَ حَقٌّ وَاَنَّ السَّاعَةَ آتِيَةٌ لاَرَيبَ فِيهَا وَاَنَّ اللهَ يَبعَثُ مَن فِي القُبُورِ

“İnnəllahə təbarəkə və təala ni’mər rəbbu və ənnə Muhəmmədən səlləllahu ələyhi və alihi nimər rəsulu və ənnə Əniyyəbnə Əbi Talibin və əvladul-məsuminəl-əimmətəl-isna əşərə niməl-əimmətu və ənnə maca əbihi Muhəmmədun səlləllahu ələyhi və alihi həqqun və ənnəl-məvtə həqqun və sualə munkərin və nəkirin fil-qəbri həqqun vəl-bəsə həqqun vən-nuşurə həqqun və siratə həqqun vəl-mizanə həqqun və tətayurəl-kutubi həqqun və ənnəl-cənnətə həqqun vən-narə həqqun və ənnəs-saətə atiyətun-la rəybə fiha və ənəllahə yəbəsu mən fil-qubur.” Sonra deyilir: “Əfəhimtə ya fulan (“filan”) əvəzinə meyyitin adı çəkilir) sonra deyilir:

ثَبَّتَكَ اللهُ بِالقولِ الثَّابِتِ وَهَداكَ اللهُ اِلى صِراطٍ مُستَقِيمٍ عَرَّفَ اللهُ بَينَكَ وَبَينَ اَولِيَاءِكَ فِى مُستَقَرٍّ مِن رَحمَتِهِ

"Səbbətəkəllahu bil-qəvlis-sabiti və hədəkəllahu ila siratin mustəqimin ərrəfəllahu bəynəkə və bəynə əvliyaikə fi mustəqərrin min rəhməti." Sonra deyilir: "Əllahummə cafil-ərzə ən cənbəyhi və əs'id biruhihi iləykə vəl-ləqhihi minkə bürhanən Allahummə əffəkə əffəkə."

11. Qəbir düzbucaqlı formasında düzəldilir və yerdən dörd barmaq qaldırılır. Onun üzərinə nişan qoyulur ki, tanınsın. Qəbirin üzərinə su səpilir və su səpdikdən sonra orada iştirak edənlər əllərini qəbrə qoyub barmaqlarını açılmış vəziyyətdə torpaqa daxil edirlər, yeddi dəfə "İnna ənzəlna" surəsini oxuyurlar. Sonra meyyit üçün bağışlanma dilənilir.

12. Sonra bu dua oxunur:

اَللّٰهُمَّ جَافِ الاَرضَ عَن جَنبَيهِ واصعَد بِرُوحِهِ اِلَيكَ وَلَقِّه مِنكَ بُرهَانًا اللّٰهُمَّ عَفوَكَ عَفوَكَ

Allahummə cafil-ərzə ən cənbəyhi və əsid iləykə ruhəhu vəl-ləqhihi minkə rizvanən və əskin qəbrəhu min rəhmətikə ma tuğnihi bihi ən rəhməti mən sivak."

Məsələ 589: Əzadarlıq sahiblərinə başsağlığı vermək müstəhəbdir. Amma əzadarlıqdan bir müddət ötmüşsə və müsibət yaddan çıxmışsa başsağlığı ilə müsibəti yada salmamaq üçün bu işi tərk etmək daha yaxşıdır. Yaxşı olar ki, meyyitin əhlinə üç gün təam göndərilsin.

Məsələ 590: Yaxşı olar ki, insan qohumlarının, xüsusilə övladının ölümü müqabilində səbirli olsun, hər dəfə meyyiti yada salanda "İnna lillahi və inna iləyhi raciun" söyləsin və meyyit üçün Qur'an oxuyub bağışlanma diləsin.

Məsələ 591: Bir şəxsin ölümünə görə üzü və bədəni cırmaq, yaralamaq olmaz. Ata və qardaşdan başqa ölənlər üçün yaxanı cırmağa da icazə verilmir.

Məsələ 592: Əgər kişi öz zövcəsinin və ya övladının ölümünə görə libasını cırarsa və ya qadın meyyitin əzadarlığında üzünü cırarsa (belə ki, qan gəlsin), saçını yolarsa, vacib ehtiyata əsasən, and kəffarəsi kimi kəffarə versin, yə'ni bir bəndə azad etməli, ya on fəqirə təam verməli, ya da onları geyindirməlidir. Hətta üzünü cırarkən qan gəlməsə bu göstərişə əməl etsin.

Məsələ 593: Vacib ehtiyat budur ki, meyyitə ağlayarkən səs qaldırılmasın, fəryad çəkilməsin.

Vəhşət namazı

Məsələ 594: Müstəhəbdir ki, Allahın razılığını qazanmaq ümidi ilə ilk qəbir gecəsində meyyit üçün iki rəkət vəhşət namazı qılınsın. Bu namazın birinci rəkətində "Həmd"dən sonra bir dəfə "Ayatəl-kürsi", oxunur. İkinci rəkətdə "Həmd"dən sonra on dəfə "İnna ənzəlna" surəsi oxunur. Namazın salamından sonra deyilir: "Allahummə səlli əla Muhəmmədin və ali

Muhəmməd vəb'əs səvabəha ila qəbri fulan." ("filan") sözünün əvəzinə meyyitin adı deyilir).

Məsələ 595: Vəhşət namazını ilk qəbir gecəsində istənilən vaxt qılmaq olar. Amma daha münasib olar ki, birinci gecə şam namazından sonra qılınsın.

Məsələ 596: Əgər meyyit müəyyən səbəblərdən gec dəfn olunarsa, vəhşət namazını birinci qəbir gecəsinədək tə'xirə salmaq lazımdır.

Qəbrin açılmasının hökmləri

Məsələ 597: Müsəlmanın qəbrini açmaq haramdır. Uşaq və divanənin də qəbrini açmaq haram sayılır. Qəbrin açılması dedikdə onun elə bir şəklə salınması nəzərdə tutulur ki, meyyitin bədəni görünsün. Bədən görünməsə eybi yoxdur. Bir şərtlə ki, bu iş hörmətsizlik sayılmasın.

Məsələ 598: Əgər əmin olsa ki, bədən tam torpağa çevrilib, qəbri açmağın eybi yoxdur. Amma imam övladlarının, şəhidlərin, alimlərin və saleh insanların qəbrini illər ötdükdən sonra da açmaq olmaz.

Məsələ 599: Qəbri açmaq bir neçə halda haram sayılmır:

1. Meyyit qəsbi torpaqda dəfn edildikdə və torpaq sahibi razı olmadıqda. Meyyitin kəfəni və ya onunla dəfn olunmuş bir şey qəsbi olduqda. Varisə çatacaq bir şey meyyitlə birlikdə dəfn edildikdə və varis həmin şeyin qəbirdə qalması ilə razılaşmadıqda. (Məsələn, qiymətli üzük və ya başqa bir zinət əşyası). Hətta varis razılaşdıqda həmin şeyin qəbirdə qalması israfdırsa onu çıxarmaq lazımdır. Əgər meyyit vəsiyyət etsə ki, bir dua və ya üzüyü onunla birlikdə dəfn etsinlər, vəsiyyəti mülkünün üçdə birindən artıq olmazsa və israf sayılmazsa, qəbiri açmaq olmaz.

2. Həqiqəti sübuta yetirmək üçün meyyitin bədəninə baxmaq zəruri olduqda.

3. Meyyit ona hörmətsizlik sayılacaq bir yerdə dəfn edildikdə. Məsələn, kafir qəbristanlığında və ya zibillikdə.

4. Qəbirin açılmamasından daha əhəmiyyətli şər'i bir məsələyə görə. Məsələn, hamilə qadının bətnindən körpəni çıxarmaq üçün. (Körpə anası öldükdən sonra bir müddət sağ qala bilər.

5. Meyyitə vəhşi heyvanın toxunmasından və ya düşmənin onun qəbirdən çıxarmasından qorxduqda.

6. Meyyitin bədəninin bir hissəsi onun cəsədi ilə dəfn edilmədikdə. Vacib ehtiyat budur ki, həmin hissə dəfn olunanda meyyitin bədəni görünməsin.

Məsələ 600: Bir şəxs vəsiyyət etsə ki, onu müəyyən bir yerdə dəfn etsinlər və onun vəsiyyətinə əməl edilməsə, qəbri açıb cəsədi vəsiyyətdə göstərilən yerə köçürmək olmaz.

Məsələ 601: Bir şəxs vəsiyyət etsə ki, dəfndən sonra onun qəbrini açıb bədənini müqəddəs bir yerə və hər hansı nöqtəyə aparsınlar, belə bir vəsiyyətə əməl edilməsi iradlıdır.

Məsələ 602: Dəfnin tə'xiri meyyitə hörmətsizlik sayılarsa bu iş görülməməlidir.

Şəhidin hökmləri

Məsələ 603: Qeyd etdiyimiz kimi, müsəlman meyyitə qüsl verib kəfənləmək vacibdir. Amma iki qrupun hökmü fərq edir:

1.Allah yolunda şəhidlər, yə'ni İslami cihad meydanında, Peyğəmbər və mə'sum imamlarla, onların naibləri ilə yanaşı həlak olanlar. İmam Mehdinin (ə) qeyb dövründə də İslam düşmənləri ilə savaşda həlak olanlar şəhid sayılır. Şəhid həm kişi, həm də qadın, həm yaşlı, həm də uşaq ola bilər. Bu halda onlara qüsül, kəfən və hənut vacib deyil. Onları əyinlərindəki libasla, namazdan sonra dəfn etmək lazımdır.

Məsələ 604: Ötən məsələdə haqqında danışılan insanlar savaş meydanında şəhid olanlardır. Yə'ni belələri müsəlmanlar onlara gəlib çatanadək dünyalarını dəyişirlər. Amma ona yetişən vaxt sağ olarsa və ya yaralı vəziyyətdə savaş meydanında çıxarılarsa, xəstəxanada və ya başqa bir yerdə dünyasını dəyişərsə, şəhid savabına malik olsa da, yuxarıdakı Məsələ ona şamil olunmur.

Məsələ 605: Bu gün savaş meydanları genişlənmiş, kilometrlərlə uzanmışdır. Silahlar olduqca uzaq məsafəni hədəfə ala bilir. Əsgərlərin hərəkət etdiyi bütün bu səhnə savaş meydanı sayılır. Amma düşmən cəbhədən kənarda bir məntəqəni bombalayarsa, yuxarıdakı hökm orada həlak olanlara aid deyil.

Məsələ 606: Şəhid müəyyən səbəbdən libassız qalarsa, onu kəfənləmək lazımdır. Amma o qüsülsüz dəfn olunur.

Məsələ 607: 2 (Qüsl və kəfənin vacib olmadığı ikinci qrup) şər'i qisas və ya hökmlə qətli vacib olanlar üçün şər'i hakimin göstərişi ilə sağ olduqları vaxt meyyit qüslü verilirlər. Onlar meyyitə məxsus üç qüslü verir, sonra kəfənin fitə və köynək hissələrinə bölünürlər. Onlar meyyit kimi hənut olunur. Öldürüldükdən sonra kəfənin üçüncü hissəsinə bürünürlər. Onlara namaz qılınır və həmin vəziyyətdə dəfn edilirlər. Onların bədəni və kəfəni qanla və ya qorxudan murdarlansa, təkrar qüsül lazım deyil.

Müstəhəb qüsüllər

Məsələ 608: İslamda müstəhəb qüsüllər çoxdur. O cümlədən:

1.Cümə qüslü; bu qüsül ən mühüm və tə'kid olunmuş müstəhəb qüsüllərdəndir. Yaxşı olar ki, imkan həddində bu qüsül tərk olunmasın. Bu qüslü cümə günü sübh azanından həmin gün günortayadək vermək olar. Əgər günortayadək bu qüsül verilməsə ehtiyat budur ki, "əda və qəza" niyyəti etmədən həmin gün əsrədək, günorta və axşam arasınadək bu qüsül yerinə yetirilsin. Əgər cümə günü qüsül verə bilməsə müstəhəbdir ki, şənbə günü sübdən qürub vaxtınadək bu qüslün qəzasını yerinə yetirsin. Bir şəxs

cümə günü su tapmayacağından qorxarsa cümə axşamı öncədən niyyətlə bu qüslü verə bilər.

2. Mübarək Ramazan ayının gecə qüsülləri; Ramazan ayında ayın 1-dən 21-dək hər gecə qüsül vermək müstəhəbdir. Yaxşı olar ki, bu qüsüllər gün batanda yerinə yetirilsin. Ramazan ayının 21-dən sonunadək həmin qüslü şam və xiftən namazlarının arasında vermək lazımdır. Ehtiyat budur ki, Ramazan ayındakı və sonradan adı çəkiləcək başqa qüsüllər Allahın razılığına ümidlə yerinə yetirilsin.

3. Fitir və Qurban bayramları günü qüsül; bu qüsüllərin vaxtı bayram günü sübh azanından qürub vaxtınadəkdir. Yaxşı olar ki, onu bayram namazından öncə yerinə yetirsinlər.

4. Fitir bayramı qüslü; bu qüslün vaxtı qürubdan sübh azanınadəkdir. Yaxşı olar ki, həmin qüsül gecənin əvvəlində verilsin.

5. Zil-hiccənin 8-ci və 10-cu gününün qüsülları; bu günlər "tərviyyə" və "ərəfə" adlanır.

6. Rəcəb ayının 1-ci, orta, 27-ci (məb'əs) və son günlərinin qüslü;

7. Zil-hiccənin 18-ci gününün (Qədir bayramı) qüslü;

8. Şəbanın 15-ci gününün qüslü (İmam Mehdinin (ə) mövlud günü), rəbiül-əvvəlin 17-ci günün qüslü (Həzrət Peyğəmbərin (s) mövludu) və novruz bayramı gününün qüslü.

9. Dünyaya yenicə gəlmiş uşağın qüslü.

10. Ərindən qeyrisi üçün ətirlənmiş qadının qüslü və məst halda yatmış şəxsin qüslü;

11. Dardan asılana baxmaq üçün getmiş və onu görmüş şəxsin qüslü. Amma bir şəxs təsadüfən belə bir şey görərsə və ya şəhadət üçün orada olması lazım gələrsə qüsül verməsi lazım deyil.

12. Tövbə qüslü; bir şəxs günahdan sonra tövbə qılarsa qüsül versin.

Məsələ 609: Müqəddəs məkanlara daxil olarkən savab ümidi ilə qüsül vermək müstəhəbdir. Məkkə və Mədinəyə daxil olarkən qüsül vermək müstəhəb sayılır. Məscidül-Həram və Məscidün-Nəbiyə, eləcə də mə'sum imamların hərəminə daxil olarkən müstəhəb qüsül vermək olar. Əgər həmin müqəddəs yerlərə bir neçə dəfə daxil olarsa bir qüsül verməsi bəs edər. Bir şəxs eyni bir gündə Məkkəyə, həm də Məscidül-Hərama daxil olarsa və ya Mədinəyə, həm də Məscidün-Nəbiyə daxil olarsa, bir qüsül verməsi bəs edər. Peyğəmbər (s) və imamları uzaqdan və yaxından ziyarətdə, ibadətdə sövq və Allahın razılığı üçün səfərə gedərkən müstəhəb qüsül vermək olar.

Məsələ 610: İnsan Allahın razılığını əldə etmək ümidi ilə qüsül verib həmin qüsüllə namaz qıla bilməz. O, ehtiyatən dəstəmaz almalıdır. Amma qəti müstəhəb qüsüllərlə, məsələn cümə qüslü ilə namaz qılmaq olar.

Məsələ 611: Bir şəxs bir neçə müstəhəb qüsül və ya bir neçə müstəhəb və vacib qüsül vermək istəyərsə bütün qüsüllərin niyyəti ilə bir qüsül versə bəs edər.

Təyəmmüm

Dəstəmaz və qüsül əvəzinə təyəmmümün vacib olduğu hallar:

Məsələ 612: Yeddi halda dəstəmaz və qüsl əvəzinə təyəmmüm edilir.

Birinci hal

Dəstəmaz və qüsl üçün ehtiyat duyulan həddə suyun olmaması;

Məsələ 613: İnsan şəhərdə, yaşayış məntəqəsində olduğu vaxt su tapa bilməsə, sudan ümidini üzənədək axtarış aparmalıdır. Amma çöl şəraitində yer dağlıq, hündür-alçaq, ağac kimi maneələr olarsa, bir ox həddində (mərhum Məclisi bir ox həddini **200** addım saymışdır) dörd istiqamətdə su axtarılmalıdır. Əgər yer hamar və maneəsiz olarsa, dörd istiqamətdə iki ox məsafəsində axtarış aparılır. Hansı tərəfdə su olmadığına əmindirsə axtarışa ehtiyac yoxdur. Əgər dörd tərəfdən bə'zisi hamar, bə'zisi maneəli olarsa, hər tərəfin özünə müvafiq axtarış aparılır.

Məsələ 614: Əgər bir şəxs əmin olarsa ki, göstərilən məsafədən bir qədər uzaqda su var və namazın vaxtı dar deyil, su ardınca getməlidir. Bu iş çox məşəqqətli olarsa, bir qədər uzaqda su olduğuna əminlik varsa da, axtarış lazım deyil.

Məsələ 615: İnsan su ardınca inandığı bir adamı göndərə bilər. Bir neçə nəfər tərəfindən göndərilən bir nəfərin də axtarış aparması kifayat edər.

Məsələ 616: Əgər namaz vaxtından öncə axtarış aparılsa və su tapılmasa, namaz vaxtınadək həmin yerdə qaldıqda ikinci dəfə su axtarışına ehtiyac yoxdur. Yalnız həmin məhəllin vəziyyəti dəyişsə axtarışa ehtiyac olar. Bir namazda dəstəmaz üçün axtarış aparmışsa, nə qədər ki, şərait dəyişməyib, o biri namazlar üçün də axtarışa ehtiyac yoxdur.

Məsələ 617: Namazın vaxtı dar olduqda su axtarışı səbəbindən vaxt ötəcəksə və ya hər hansı təhlükə varsa, axtarışa ehtiyac yoxdur. Əgər bir qədər axtarmaq imkanı varsa həmin qədərlə kifayatlənmək lazımdır.

Məsələ 618: Bir şəxs bilərəkdən axtarış aparmasa ki, namazın vaxtı daralsın, günaha yol vermişdir. Amma bu şəxsin təyəmmümlə qıldığı namaz düzgündür.

Məsələ 619: Bir şəxs su tapmayacağına əmin olub axtarış aparmasa və təyəmmümlə namaz qılsa, sonradan başa düşsə ki, axtarış aparsaydı su tapardı, namazı batildir. Eləcə də əgər axtarışdan sonra təyəmmüm edib namaz qılarsa, sonradan anlayarsa ki, axtarış apardığı yerdə su olub vacib ehtiyata əsasən, namazını təzələməlidir. Namazın vaxtı keçmişsə onun qəzasını qılmaq lazımdır.

Məsələ 620: Dəstəmazı olan şəxs bilərsə ki, dəstəmazı pozulsa dəstəmaz ala bilməyəcək, böyük məşəqqət yaratmasa namazadək dəstəmazını qorumalıdır. Hətta dəstəmaz üçün su tapa bilməyəcəyini ciddi ehtimal etsə,

eləcə də sonradan suyun tapılmayacağını bilsə, vacib ehtiyata əsasən, dəstəmazını qorumalıdır.

Məsələ 621: Əgər yalnız dəstəmaz və ya qüsl üçün su varsa və bu su boş yerə işlənsə su tapılmayacağı mə'lumsa, namazın vaxtı daxil olduqda onu boş yerə işlətmək haramdır. Vacib ehtiyat budur ki, namazın vaxtından öncə də bu su boş yerə işlədilməsin. Ağlabatan ehtimal varsa ki, su boş yerə işlədilsə, başqa su tapılmayacaq, vacib ehtiyata əsasən, suyu saxlamaq lazımdır. Bütün bu hallarda suyun boş yerə işlədilməsi yanlış addımdır, amma belə bir şəxsin təyəmmümlə namazı düzgündür.

İkinci hal

Məsələ 622: Quyuda su olduğu halda onu çıxarmaq üçün bir vasitə yoxdursa və su əldə etmək mümkün deyilsə, təyəmmüm olunmalıdır. Su adətən insanların dözə bilmədiyi bir məşəqqətlə əldə edilirsə, təyəmmüm etmək olar.

Məsələ 623: Əgər quyudan suyu çıxarmaq üçün vasitəyə ehtiyac varsa, bu vasitə əldə olunmalıdır. Onu kirayəyə də götürmək olsa, bu iş görülməlidir. Hətta bir neçə qat baha olsa da, vasitə əldə olunmalıdır. Amma vasitə və ya su əldə etmək üçün elə bir xərc lazım gəlsə ki, bu xərc insanın vəziyyətinə zərərli olsun, bu işi görmək vacib deyil.

Məsələ 624: Əgər su əldə etmək üçün borc götürmək zəruri olarsa bu iş görülməlidir. Amma insan borcu ödəmək gücündə olmadığını bildikdə borc götürməsi vacib deyil. Bir şəxs minnət qoymadan bir qədər su verərsə onu qəbul etmək lazımdır.

Üçüncü hal

Məsələ 625: Su olduğu halda dəstəmaz alsa xəstələnəcəyindən qorxan və bu xəstəliyin uzanacağından ehtiyatlanan, müalicənin çətinliyini bilən şəxs təyəmmüm etməlidir. Amma isti suyun ona zərəri yoxdursa, isti su ilə dəstəmaz almalı və ya qüsl verməlidir. Zərər labüd olmasa da, belə bir qorxu varsa dəstəmaz əvəzinə təyəmmüm edilir.

Məsələ 626: Göz xəstəliyi olan və suyun bu xəstəliyə zərər verəcəyini bilən insan gözünün ətrafını yuya bilsə dəstəmaz almalıdır. Əks təqdirdə təyəmmüm edilir.

Məsələ 627: Bir şəxs suyun zərərli olduğunu bilib, təyəmmüm edərsə, sonradan suyun zərərli olmadığını anlasa təyəmmümü batildir. Həmin təyəmmümlə qıldığı namazı vacib ehtiyata əsasən, təzələməlidir. Amma bir şəxs suyun zərərli olmadığını bilib dəstəmaz alarsa və ya qüsl verərsə, sonradan suyun zərərli olduğunu bildikdə vacib ehtiyat budur ki, təyəmmüm etsin, əgər qılıbsa namazını təzələsin.

Dördüncü hal

Məsələ 628: Kifayat qədər su olduğu halda dəstəmaz və qüslə işlədilsə özünün, övladının, dostlarının və yoldaşlarının susuzluqdan öləcəyindən və ya xəstələnəcəyindən, eləcə də böyük zəhmətə düşəcəyindən qorxan şəxs təyəmmüm etməlidir. Qeyri-müsəlman bir şəxsin həyatı təhlükədə olarsa suyu ona verib təyəmmüm etmək lazımdır. Bu hökm heyvana münasibətdə də öz gücündədir.

Məsələ 629: Pak sudan əlavə bir qədər murdar su varsa, murdar sudan istifadə edə bilməz. Namaz üçün təyəmmüm edib, pak suyu içmək üçün saxlamalıdır. Amma murdar suyu heyvana verməyin eybi yoxdur.

Beşinci hal

Məsələ 630: Əgər ixtiyarında azca su olan şəxs dəstəmaz alıb qüsl verdikdə bədənini və libasını təmizləməyə su qalmayacaqsa, bədənini və libasını təmizləməli, namaz üçün təyəmmüm etməlidir. Amma təyəmmüm üçün bir şey tapmadıqda suyu dəstəmaz və qüslə sərf etməli, murdar bədən və ya libasla namaz qılmalıdır.

Altıncı hal

Məsələ 631: Əgər su və ya onun qabı qəsbi olarsa və ya qab qızıl-gümüşdən olarsa və başqa bir qab tapmaq mümkün olmasa, dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm etməlidir.

Yeddinci hal

Məsələ 632: Vaxt dar olduqda dəstəmaz və ya qüsl verməklə namazın bir hissəsinin vaxtı ötəcəksə, təyəmmüm edilməlidir.

Məsələ 633: Əgər bir şəxs bilərəkdən namazı o qədər yubatsa ki, dəstəmaz və qüslə vaxt qalmasın, günaha yol vermişdir. Amma onun təyəmmümlə qıldığı namaz düzgündür. Müstəhəb ehtiyat budur ki, həmin namazın qəzasını da yerinə yetirsin.

Məsələ 634: Bir şəxs vaxtın dar olub-olmadığını bilməzsə dəstəmaz almalı və ya qüsl verməlidir. Amma vaxtın az olduğunu bildikdə dəstəmaz və qüsl verəcəyi halda namazın vaxtının ötəcəyindən qorxarsa təyəmmüm etməlidir.

Məsələ 635: Bir şəxs vaxt dar olduğu üçün təyəmmüm edib namaza başlasa, namaz arasında ixtiyarında olan su əlindən çıxsa, sonrakı namazları həmin təyəmmümlə qıla bilər.

Məsələ 636: Dəstəmaz aldıqda və ya qüsl verdikdə iqamə və qunut kimi müstəhəblərsiz namazı vaxtında qılacağını bilən şəxs bu işi görməlidir. Hətta əgər surə "İxlas" oxumağa vaxt olmasa namazı dəstəmazla həmin surəsiz qılmalıdır.

Nələrə təyəmmüm etmək olar?

Məsələ 637: Bir neçə şeyə təyəmmüm etmək düzgündür: torpaq, çınqıl, qum, kəsək (bir-birinə yapışmış torpaq) və daş. Bir şərtlə ki, bütün bunlar pak və bir qədər tozlu olsun.

Məsələ 638: Əhəng daşı, gəc daşı, mərmər, qara daş və bu kimi şeylərə təyəmmüm etmək olar. Əqiq və firuzə daşı kimi cəvahirata təyəmmüm etmək olmaz. Vacib ehtiyat budur ki, bişmiş gəc və əhəngə, eləcə də kərpic və saxsıya təyəmmüm edilməsin.

Məsələ 639: Əgər yuxarıdakı məsələlərdə adı çəkilən şeylər tapılmasa, libas və bu kimi şeylərin üzərindəki toza təyəmmüm etmək olar; toz da tapılmasa, gilə təyəmmüm etmək olar. Gil də tapılmasa vacib ehtiyat budur ki, namaz təyəmmümsüz qılınsın, sonradan qəzası yerinə yetirilsin. Namazı dəstəmaz və təyəmmümsüz qılmağa məcbur olan şəxs "faqidut-təhureyn" adlanır.

Məsələ 640: Su tapılmadıqda qar və ya buz olarsa, mümkün olan şəraitdə onları əritmək və dəstəmaz, qüsl üçün istifadə etmək lazımdır.

Məsələ 641: Əgər saman və ya bu kimi şeylər torpaq və ya quma qatışarsa, onlara təyəmmüm etmək olmaz. Amma o qədər az olarsa ki, torpaq və ya qumda itmiş sayılsın, təyəmmüm etmək olar.

Məsələ 642: Təyəmmüm üçün torpaq və bu kimi şeylər tapılmasa, bu şeyləri almaq mümkün olduqda alınması vacibdir.

Məsələ 643: Gildən divara təyəmmüm etmək olar. Müstəhəb ehtiyat budur ki, quru yer və quru torpaq olan halda nəmli yer və torpağa təyəmmüm edilməsin.

Məsələ 644: Təyəmmüm edilən şey vacib ehtiyata əsasən, qəsbi olmamalıdır. Amma qəsbi olduğu bilinmirsə və ya unudulmuşsa təyəmmüm etmək düzgündür. Amma insan özü onu qəsb etmiş olsa təyəmmüm edə bilməz.

Məsələ 645: Bir şəxs qəsbi yerdə həbs olunmuşsa, oradakı torpaq və ya daşa təyəmmüm edib namaz qıla bilər.

Məsələ 646: Qeyd olundu ki, imkan olan yerdə tozlu şeyə təyəmmüm edilməlidir. Əl ona vurulduqdan sonra müstəhəbdir ki, artıq tozun getməsi üçün əli çırpmaq müstəhəbdir.

Məsələ 647: Bulaşıq, çökək, yol kənarındakı, şoranlıq (üzünün yığılmadığı halda) yerə təyəmmüm etməmək daha yaxşıdır. Əgər şoranlıq yerin üzünün duzu yığılmamışsa ona təyəmmüm etmək batildir. Təyəmmüm ediləsi yer elə bulaşıqdırsa ki, xəstəlik qorxusu yaranır, vacib ehtiyata əsasən, namazı təyəmmümsüz qılıb sonradan qəzasını yerinə yetirsinlər.

Təyəmmümün qaydası

Məsələ 648: Təyəmmüm üçün əvvəlcə niyyət edilir. Sonra hər iki əlin içi birlikdə təyəmmüm ediləcək şeyə vurulur. Sonra hər iki əl vacib ehtiyata əsasən, tük bitən yerdən başlayaraq bütün alın, onun iki tərəfi, qaşlar və burunun üzərinə çəkilir. Vacib ehtiyat budur ki, qaşlara da məsh çəkilsin. Sonra sol əlin içi sağ əlin arxasına, sağ əlin içi sol əlin arxasına çəkilir.

Təyəmmümün hökmləri

Məsələ 649: Dəstəmaz əvəzinə təyəmmümlə qüsl əvəzinə təyəmmüm arasında fərq yoxdur. Amma müstəhəb ehtiyat budur ki, qüsl əvəzinə təyəmmümdə əllər ikinci dəfə yerə vurulsun və sol əl sağ əlin arxasına, sağ əl sol əlin arxasına çəkilsin.

Məsələ 650: Təyəmmümdə bütün alın və əllərin arxasına məsh çəkilməlidir. Əgər azca bir hissəsinə məsh çəkilməsə təyəmmüm batildir. Bu işin bilərəkdən və ya unutqanlıqdan olmasının fərqi yoxdur. Amma həddən ziyada diqqət də lazım deyil. Bütün alına və əllərin arxasına məsh çəkilməsinin söylənilməsi bəs edər.

Məsələ 651: Bütün alın və əllərin üzərinə məsh çəkildiyinə arxayın olmaq üçün onların ətrafını da məshə daxil etmək lazımdır. Amma barmaqların arasına məsh çəkmək lazım deyil. Vacib ehtiyat budur ki, alına və əllərin arxasına yuxarıdan aşağıya məsh çəkilsin. Təyəmmümdəki işlər ardıcıl yerinə yetirilməlidir. Əgər arada təyəmmüm şəklini pozacaq fasilə verilərsə təyəmmüm batildir.

Məsələ 652: Niyyətdə qüsl, yoxsa dəstəmaz əvəzinə təyəmmüm edildiyini müəyyənləşdirməyə ehtiyac yoxdur. Allahın əmrini yerinə yetirmək məqsədi ilə bu işin görülməsi bəs edər. Allahın əmrini yerinə yetirmək məqsədi ilə bu işi gördükdə birinin əvəzinə o birini niyyət etməyin eybi yoxdur və təyəmmüm düzgündür.

Məsələ 653: Vacib ehtiyata əsasən, təyəmmüm üzvləri və əllərin içi pak olmalıdır. Amma əlin içi murdar olduqda və onu suya çəkmək mümkün olmadıqda, həmin vəziyyətdə təyəmmüm edilir.

Məsələ 654: Təyəmmüm edərkən təyəmmüm üzvlərində olan maneələri təmizləmək lazımdır. Əgər barmaqda üzük varsa onu çıxarmaq lazımdır. Hətta alını örtmüş saç kənarlaşdırılmalıdır. Hər hansı maneə olduğu ehtimal edildikdə axtarış aparmaq lazımdır.

Məsələ 655: Əgər alında, əllərin arxasında və ya içində yara varsa və yaraların örtüldüyü parçanı açmaq mümkün deyilsə, müəyyən zərəri varsa, həmin halda təyəmmüm edilməlidir.

Məsələ 656: Özü təyəmmüm etməyə qadir olmayan şəxs naib tutmalıdır. Yə'ni bir şəxs onun əllərini torpağa vurmalıdır. Mümkün olmadıqda əlləri torpağa qoyulur, sonra öz əli ilə təyəmmüm edilir. Bu da mümkün olmasa,

naib özü təyəmmüm ediləcək şeyə əlini vurub həmin şəxsin alnına və əllərinə çəkir.

Məsələ 657: Təyəmmümü başa çatdırdıqdan sonra onun düzgün yerinə yetirilib-yetirilmədiyinə şübhə yaranarsa, bu şübhələrə əhəmiyyət verilmir. Əgər təyəmmüm gedişində şək yaranarsa vacib ehtiyat budur ki, şübhəli hissəni yenidən yerinə yetirsin.

Məsələ 658: Vəzifəsi təyəmmüm olan şəxs namaz vaxtından öncə təyəmmüm edə bilməz. Amma vacib və ya müstəhəb bir iş üçün təyəmmüm edərsə, namazadək üzrü yerində qalsa, həmin təyəmmümlə namaz qıla bilər.

Məsələ 659: Vəzifəsi təyəmmüm olan şəxs əmin olsa və ya ehtimal etsə ki, vaxtın sonunadək üzrü yerində qalacaq, əvvəl vaxtda təyəmmüm edə bilər. Amma əmin olsa ki, son vaxtadək üzrü aradan qalxacaq, vacib ehtiyata əsasən, gözləməlidir.

Məsələ 660: Təyəmmümlə namaz qılan şəxs qəza namazlarını da təyəmmümlə qıla bilər. Amma üzrünün tezliklə aradan qalxacağını bilərsə səbr etməlidir. Vacib ehtiyata əsasən, üzrünün aradan qalxmasına ümid etdikdə, gözləməlidir.

Məsələ 661: Dəstəmaz ala bilməyən və ya qüsl verə bilməyən şəxs müstəhəb namazları təyəmmümlə qıla bilər. Hətta gecə namazı üçün vaxt dar olduqda təyəmmüm etmək mümkündür.

Məsələ 662: Bir şəxs su olmadığından və ya başqa bir səbəblə təyəmmüm etsə, sonradan su tapsa və ya üzrü aradan qalxsa, təyəmümü öz-özünə batil olur.

Məsələ 663: Dəstəmazı batil edən işlər dəstəmaz əvəzinə təyəmmümü də batil edir. Qüslü batil edən işlər qüsl əvəzinə təyəmmümü də batil edir.

Məsələ 664: İnsana bir neçə qüsl vacib olarsa və qüsl verə bilməzsə, bütün qüsüllərin əvəzinə bir təyəmmüm bəs edər.

Məsələ 665: Əgər qüsl əvəzinə təyəmmüm edilərsə, dəstəmaz almaq və ya dəstəmaz əvəzinə təyəmmüm etmək lazım deyil. Bu qüsl cənabət qüslü və ya başqa bir qüsl ola bilər. Müstəhəb ehtiyat budur ki, başqa qüsüllərdə dəstəmaz alsın. Dəstəmaz ala bilməsə dəstəmaz əvəzinə təyəmmüm etsin.

Məsələ 666: Qüsl əvəzinə təyəmmüm edən şəxs sonradan dəstəmazı pozan bir iş görsə, sonrakı namazlar üçün yalnız dəstəmaz almalıdır. Dəstəmaz ala bilməsə onun əvəzinə təyəmmüm edir.

Məsələ 667: Vəzifəsi təyəmmüm olan şəxs başqa bir iş üçün təyəmmüm etsə, təyəmmümü və üzrü gücündə qalanadək dəstəmaz və qüsl tələb edən bütün işləri görə bilər. hətta vaxt dar olduğundan təyəmmüm edərsə, bu təyəmmümlə Qur'an xəttinə toxuna bilər və dəstəmaz tələb edən başqa işləri görə bilər.

Məsələ 668: Təyəmmümlə qılınan namazların qəzasını yerinə yetirmək lazım deyil. Amma bir neçə halda müstəhəb ehtiyat budur ki, həmin namazlar təzələnsin:

1. Su olmayan və ya suyun zərərli olduğu vaxtlarda özünü cünub etmiş insanın təyəmmümlə qıldığı namazlar.

2. İnsanın bilərəkdən su axtarışına getməyib vaxt dar olan zaman təyəmmümlə qıldığı namazlar (sonradan anlayır ki, axtarış aparsaydı su tapardı).

3. Yaxında su olmadığını bildiyi halda əlində olan suyu boş yerə işlədən insanın təyəmmümlə qıldığı namazlar.

NAMAZ

Namazın əhəmiyyəti

Namaz insanla Allah arasında rabitədir. Namaz ruhu səfalandırır, qəlbi paklayır, təqva ruhu yaradır, insanı tərbiyələndirir və günahlardan çəkindirir. Namaz olduqca mühüm bir ibadətdir. Rəvayatlərə əsasən, namaz Allah dərgahında qəbul olarsa, başqa ibadətlər də qəbul olar. Əgər namaz qəbul olmazsa başqa ibadətlər də qəbul edilməz. Rəvayatlərdə bildirilir ki, beş vaxt namazını yerinə yetirən insan gündə beş dəfə yuyunub çirkabdan təmizlənən insan kimi günahlardan təmizlənir. Ayə və rəvayatlərdə, Peyğəmbər (s) və mə'sum imamların buyuruqlarında cidi tövsiyə olunmuş əməllərdən biri namazdır. Buna görə də namazı tərk etmək kəbirə günahlardan sayılır.

Yaxşı olar ki, insan namazını yubatmayıb ilk vaxtda qılsın. Namaza ciddi əhəmiyyət vermək, onu aram qılmaq lazımdır. Namaza diqqətsizlik və onun sür'ətlə qılınması namazı tə'sirdən sala bilər.

Hədisdə nəql olunur ki, bir gün İslam Peyğəmbəri (s) məsciddə bir şəxsin sür'ətlə namaz qıldığını, rüku və səcdələri lazımınca yerinə yetirmədiyini gördü. Həzrət buyurdu: "Əgər bu şəxs bu sayağı namaz qılan halda dünyadan getsə mənim dinimdə gedənlərdən sayılmaz."

Namazın ruhu qəlbin iştirakıdır. Namazda diqqəti yayındıran şeylərdən çəkinmək yaxşıdır. Namaz qılan şəxs namazın mətnindəki sözləri anlamalı, namaz boyu öz namazına diqqətli olmalı, cismi və qəlbi müt'i olmalı (xüzu və xüşu), kiminlə danışdığını anlayıb özünü Allahın əzəmət və böyüklüyü qarşısında kiçik saymalıdır.

Mə'sumlar haqqında nəql olunur ki, bu insanlar namazda ilahi düşüncəyə qərq olmuş, özlərini unutmuşlar. Belə ki, Əmirəl-mö'minin Əlinin (ə) ayağına batmış oxu namaz əsnasında çıxararkən Həzrət bundan xəbər tutmur.

Namazın qəbulu və onun kamilliyi üçün onun vacib şərtlərini yerinə yetirməklə yanaşı, aşağıdakı nöqtələri nəzərə almaq lazımdır.

Namazdan öncə günahları yada salıb tövbə qılmaq; namazın qəbuluna mane olan həsəd, təkəbbür, qeybət, haram qida, məstedici içkilər, xüms və zəkatdan boyun qaçırmaq kimi günahlardan çəkinmək.

Namazı dəyərdən salan, qəlbin iştirakına mane olan işlərdən də pəhriz etmək yaxşıdır. Məsələn, yuxulu vəziyyətdə, ayaqyolu ehtiyaclarını saxlamış halda, səs-küy içində, insanın diqqətini cəlb edən mənzərələr qarşısında namaz qılmaqdan çəkinmək lazımdır. Pak libas, saçların səliqəsi, dişlərin yuyulması, ətirlənmək, əqiq üzük taxmaq kimi savablı işlərə diqqət yetirmək lazımdır.

Vacib namazlar

Məsələ 669: Altı vacib namaz var: "Yövmiyyə" namazları (gündəlik on yeddi rəkət namaz), Allah evinin vacib təvaf namazı, Ayat namazı, meyyit namazı, böyük oğul üçün ata-ananın qəza namazları, nəzir, əhd və and vasitəsi ilə vacib olmuş namazlar.

Vacib yövmiyyə namazları

Məsələ 670: Beş vacib yövmiyyə namazı var: Hər biri dörd rəkətdən ibarət olan günorta və ikindi namazları, üç rəkət şam namazı, dörd rəkət xiftən namazı, iki rəkət sübh namazı. Amma səfərdə dörd rəkətli namazlar müəyyən şərtlər ödəndiyi halda iki rəkət qılınır.

Cümə namazı

Məsələ 671: Cümə namazı iki rəkətdir. Bu namaz cümə günləri günorta namazını əvəz edir. Cümə namazı Peyğəmbərin (s), mə'sum imamların, onların xüsusi naiblərinin hüzuru zamanı vacib olur. Böyük qeyb dövründə isə insan cümə namazı və günorta namazından birini seçə bilər. Ədalətli İslam hökuməti olan dövrdə ehtiyat budur ki, cümə namazı tərk edilməsin.

Cümə namazının hökmləri

1.Cümə namazının vaxtı günortadan başlayır. Bu namaz azan, xütbələr və adi namazın vaxtı başa çatanadəkdir. Bu müddət ötdükdən sonra cümə namazının vaxtı qurtarır və günorta namazı qılınmalıdır.

2. Cümə namazı hökmü cümə namazı məhəllindən iki fərsəxədək (təqribən **12** km.) aralı yaşayanlara şamil olunur. Cümə namazı hər şəxsə vacib olduğu vaxt bu insanların cümə namazında iştirakı zəruri olur.

3. Cümə namazının xütbələrinə çata bilməyən, amma həmin namazda, ya da onun bir rəkətində iştirak edən şəxsin namazı düzgündür. Vacib ehtiyata əsasən, insan bilərəkdən cümə namazına yubanmamalıdır.

4. Cümə namazı camaatla qılınmalıdır. Cümə namazının qılınması üçün ən azı beş nəfər olmalıdır. (İmam cümə və başqa dörd nəfər)

5. İki cümə namazı qılınan məhəl arasında məsafə bir fərsəxdən (altı km-dən) az olmamalıdır. Əgər iki cümə namazı arasında məsafə bir fərsəxdən (altı km-dən) az olarsa, birinci namaz düzgün, ikincisi batildir.

6. Cümə namazı müsafirlərə, qadınlara, xəstələrə və iş qabiliyyəti olmayanlara vacib deyil. Amma adı çəkilənlər cümə namazında iştirak etsələr namazları düzgündür. Vacib ehtiyata əsasən, cümə namazının qılınması üçün zəruri olan beş nəfər bu insanlardan olmamalıdır.

Cümə namazının qaydası

1. Cümə namazı sübh namazı kimi iki rəkətdir. Bu namazın iki qunutu var. Qunutlardan biri birinci rəkətdə rükudan öncə, ikincisi ikinci rəkətdə rükudan sonradır. Müstəhəbdir ki, imam birinci rəkətdə "Həmd"dən sonra "Cumuə" surəsini, ikinci rəkətdə "Həmd"dən sonra "Munafiqun" surəsini oxusun. Vacib ehtiyat budur ki, bu surələrdən birini oxusa, o birini oxumasın.

2.Cümə namazından qabaq imam-cümə iki xütbə oxumalıdır.

3. Vacib ehtiyata əsasən, xütbələr günorta azanından başlayır. Əgər azandan öncə başlasa yenidən oxunmalıdır.

4. Xütbələr aşağıdakı hissələrdən ibarət olur. Allaha həmd-səna; Məhəmməd və Ali-Məhəmmədə salavat; moizə, nəsihət, ilahi təqvaya çağırış; hər xütbədə "İxlas", "Kafirun", "Əsr" kimi qısa surələrdən birini oxumaq; vacib ehtiyata əsasən, imamın özü və mö'minlər üçün bağışlanma diləməsi, ikinci xütbədə salavat zamanı imamların adını bir-bir çəkməsi.

Bu əsasla, birinci xütbə beş, ikinci xütbə altı hissədən ibarət olur. İmam xütbələri qiyam (ayaq üstü) halında oxumalı, iki xütbə arasında azca əyləşməli, səsini lazımı həddə namaz qılanlara çatdırmalı, moizə-nəsihəti başa düşülən dildə bəyan etməlidir.

5. Xütbə oxuyanın əmmamə və əbada olması, əsa və ya bu kimi bir şeyə söykənməsi daha yaxşıdır. İmam xütbəyə başlamazdan öncə məmumlara salam verir. Yaxşı olar ki, xütbədə müsəlmanlar, İslam dünyası və həmin məntəqə sakinləri ilə bağlı ictimai-siyasi, əxlaqi mövzular şərh olunsun. Müsəlmanlar bu mövzularla bağlı vəzifələri ilə tanış edilsin. Onlara düşmənin planları haqqında mə'lumat verilsin. Xütbə oxuyan imam öz xütbələrində insanların tə'lim-tərbiyəsinə, onların günün məsələləri ilə tanışlığına xüsusi diqqət yetirməlidir. Xütbənin əsas məqsədlərindən biri budur. Xütbələr aydın, tə'sirli bir dillə bəyan edilməlidir. Bu ibadi-siyasi ne'mətdən lazımınca bəhrələnmək lazımdır. Xütbələrdə müsəlmanlar düşmən qarşısında birliyə çağırılmalı, təfriqə yaradan mövzular açıqlanmamalıdır. Vacib ehtiyata əsasən, xütbə oxunan zaman namaz qılanlar dəstəmazlı olmalı, üzü imama əyləşməli, sakitliyi gözləməli, xütbələri dinləməlidirlər. Amma bilərəkdən də danışsalar, cümə namazı batil olmaz. Amma bu işi görənlər xilafa yol vermişlər.

Yövmiyyə namazlarının vaxtı

Günorta və ikindi namazlarının vaxtı

Məsələ 672: Günorta və ikindi namazlarının vaxtı günortadan günəşin qürub vaxtınadəkdir. Bu vaxt günəşin səmanın tən ortasından qüruba doğru hərəkəti ilə başlayır. Günorta namazının vaxtının müəyyənləşdirmək üçün ən yaxşı üsul hamar yerdə düz bir çubuq basdırmaqdır. Səhər günəş doğanda bu çubuğun kölgəsi qüruba doğru uzanır. Günəş qalxdıqca kölgə də kiçilir. Kölgənin ən qısa vaxtı günorta sayılır. Sonra çubuğun kölgəsi gündoğana doğru uzanmağa başlayır. Amma Məkkə kimi bə'zi şəhərlərdə arabir günortalar kölgə tamamilə itir. Günəş hər tərəfə eyni dərəcədə şüalanır. Belə məntəqələrdə kölgə itib yenidən görünən zaman günorta və ikindi namazlarının vaxtı başlayır. Diqqətli olmaq lazımdır ki, günorta saatla başlamır. Bə'zilərinin saat on ikini günorta sayması düzgün deyil.

Məsələ 673: Günorta və ikindi namazlarının xüsusi və müştərək vaxtı var. Günorta namazının xüsusi vaxtı günortadan başlayır və dörd rəkət namaz vaxtınadək davam edir. İkindi namazının xüsusi vaxtı qüruba ikindi namazı həddində vaxt qalanadəkdir. Günorta namazı həmin vaxtadək qılınmasa qəzaya getmişdir və ikindi namazı qılınmalıdır. Göstərilən iki vaxt arasındakı vaxt günorta və ikindi namazlarının müştərək vaxtıdır.

Məsələ 674: Günorta namazını qılmamış səhvən ikindi namazını başlayarsa və namaz əsnasında yada düşərsə, bu hal müştərək vaxtda yarandıqda niyyəti dəyişmək olar. İnsan qəbul edir ki, həmin məqamadək qıldığı günorta namazı olub və bu qayda ilə namaza davam edir. Günorta namazını başa vurduqdan sonra ikindi namazı qılınır. Amma bu hal günorta namazının xüsusi vaxtında yaranarsa namaz batildir və yenidən qılınmalıdır.

Şam və xiftən namazlarının vaxtı

Məsələ 675: Günəş üfüqdə itdikdən sonra qürub başlayır. Ehtiyat budur ki, insan günəşin qürubundan sonra başı üzərində yaranmış qızartının ötüb keçməsini gözləsin. Qürub vaxtı şam və xiftən namazlarının vaxtı başlayır və bu vaxt gecə yarıyadək davam edir.

Məsələ 676: Şam və xiftən namazlarının da xüsusi və müştərək vaxtı var. Şam namazının xüsusi vaxtı qürubdan başlayır və üç rəkət müddətində davam edir. Müsafir xiftən namazını tam şəkildə həmin vaxtda qılarsa səhvən olsa belə, namazı batildir. Xiftən namazının xüsusi vaxtı gecə yarıya dörd rəkətlik vaxt qalandan başlayır. Bir şəxs bilərəkdən şam namazını həmin vaxtadək yubatsa namazı qəzaya getmişdir və xiftən namazını qılmalıdır. Qeyd olunan iki vaxt arasındakı vaxt müştərək sayılır. Həmin

vaxtda bir şəxs səhvən xiftən namazını şam namazından qabaq qılarsa və sonradan bunu başa düşərsə, namazı düzgündür və şam namazını qılmalıdır.

Məsələ 677: Xüsusi və müştərək vaxtın ölçüsü ayrı-ayrı insanlar üçün fərqlənə bilər. Məsələn, bu miqdar günorta, ikindi və xiftən namazlarına münasibətdə müsafir üçün iki rəkət, qeyri müsafir üçün dörd rəkətdir.

Məsələ 678: Əgər diqqətsizlik və ya unutqanlıq səbəbindən şam namazı qılmamış xiftən namazına başlanılsa və namaz əsnasında bu Məsələdən xəbər tutulsa, niyyəti şam namazına çevirmək lazımdır. Yalnız dördüncü rəkətə daxil olduqdan sonra bu mümkün deyil. Belə bir halda xiftən namazı başa vurulduqdan sonra şam namazı qılınır.

Məsələ 679: Xiftən namazının vaxtı gecə yarıyadəkdir. Vacib ehtiyat budur ki, qürub vaxtından sübh azanınadək olan vaxt gecə sayılsın. Gecə namazına vaxt tə'yin edərkən həmin vaxt qürubdan gün doğanadək hesablanır.

Məsələ 680: Bir şəxs bilərəkdən şam və xiftən namazlarını gecə yarıyadək qılmasa, onların vaxtı keçmişdir və qəzası qılınmalıdır. Amma üzürlü səbəbdən qıla bilməmişsə, sübh namazınadək qıla bilər və namazı vaxtında qılınmış (əda) sayılır.

Sübh namazının vaxtı

Məsələ 681: Sübh azanının vaxtı (namaz və oruc üçün) aylı və aysız gecələrdə eynidir. Bu işdə me'yar ay işığında görünməsə belə üfüqdə şəfəq nurunun zahir olmasıdır. Sübh namazının vaxtı fəcr tülusunun əvvəlindən (birinci fəcr) başlayır, günəş doğanədək, sübh ağartısına (ikinci fəcr) qədər davam edir. Sübh namazını hava işıqlanmamış, birinci sübhün qaranlığında qılmaq daha yaxşıdır.

Namaz vaxtının hökmləri

Məsələ 682: İnsan namaz vaxtının çatdığına əmin olandan sonra namaza başlaya bilər. Ya da ədalətli bir şəxs namaz vaxtının çatdığını bildirməlidir. Vaxt tanıyan və etibarlı şəxsin azanı da kifayət edər. Əgər başqa yollarla vaxtın çatdığına güclü ehtimal olarsa (istər saatla, istər saatsız) bu bəs edər.

Məsələ 683: Havanın tutqunluğu, zindanda olmaq və ya korluq səbəbindən vaxtın daxil olduğunu müəyyən etmək mümkün deyilsə, güclü ehtimalla namaza başlamaq olar.

Məsələ 684: Yuxarıdakı göstərişlər əsasında namaza başlayan şəxs namazın ortasında vaxtın çatmadığını bilərsə, namazı batildir. Namazı başa çatdırdıqdan sonra da bunu anlayarsa, namazı bütünlüklə vaxtından qabaq qıldığı halda həmin namazı təzələməlidir. Amma namaz arasında və ya namazdan sonra başa düşərsə ki, vaxt daxil olmuşdur, namazı düzgündür.

Məsələ 685: Bir insan diqqətsizlik və ya unutqanlıq səbəbindən vaxtdan xəbər tutmadan namaza başlasa, bu namaz vaxtında qılınmışdırsa

düzgündür. Əgər namazı bütünlüklə və ya onun bir hissəsini vaxtından əvvəl qılmışsa, namazı batildir.

Məsələ 686: Namazdan sonra şəkk etsə ki, namazı vaxtında qılmışdır, yoxsa yox, namazı düzgündür. Bir şərtlə ki, namaza başlamazdan öncə vaxtdan xəbərsiz olmasın. Namazın ortasında vaxtın çatmadığına şübhə etsə namazı batildir və vaxt çatdıqdan sonra onu təzələməlidir.

Məsələ 687: Vaxt dar olduqda müstəhəb işlər səbəbindən namazın vacib bir hissəsi vaxtından sonraya düşərsə, müstəhəb işləri tərk etmək lazımdır (qunut və iqamə kimi müstəhəblər).

Məsələ 688: Əgər bir şəxsin bir rəkətlik vaxtı qalmışsa, bütün namazı əda, yə'ni "vaxtında" niyyəti ilə qılmalıdır. Amma namazı belə bir vaxtadək tə'xirə salmaq haramdır. Əgər qürubadək beş rəkət namaz həddində vaxt qalmışsa, günorta və ikindi namazlarını əda, yəni "vaxtında" niyyəti ilə qılsın. O biri namazlar da bu qayda ilə qılınır.

Məsələ 689: Tə'kid olunmuş müstəhəblərdən biri budur ki, namaz ilk fəzilətli vaxtda qılınsın. Rəvayatlərdə bu barədə tövsiyələr çoxdur. Namaz ilk vaxta nə qədər yaxın olarsa bir o qədər fəzilətlidir.

Məsələ 690: Üzrü olan şəxs əmindirsə ki, son vaxtadək üzrü aradan qalxacaq, səbr etməsi vacibdir. Əgər əmin olsa ki, üzrü qalacaq, səbr etməsi vacib deyil. Amma ehtimal etsə ki, üzrü aradan qalxacaq, vacib ehtiyata əsasən, səbr etməlidir.

Məsələ 691: Namaz məsələlərini, şəkk və səhvlərlə bağlı vəzifələrini bilməyən şəxs namazda bu hallarla rastlaşacağını ehtimal edərsə, həmin məsələləri öyrənmək üçün namazı ilk vaxtından tə'xirə salmalıdır. Amma namazı yetərincə qılacağına əmindirsə, onu əvvəl vaxtda qıla bilər.

Məsələ 692: Namazda elə bir şərait yaransa ki, namaz qılan şəxs lazımı hökmü bilməsin, iki yoldan birini seçə bilər. Əgər sonradan mə'lum olsa ki, düzgün hərəkət etməyib, namazını təzələsin. Ehtiyat budur ki, iki yoldan düzgünlüyünə daha çox ehtimal ediləni seçilsin.

Məsələ 693: Bir şəxs məscidin murdarlandığını görərsə, yaxşı olar ki, əvvəlcə məscidi təmizləsin, sonra namazını qılsın. Əgər borc sahibi borcunu tələb etsə, yaxşı olar ki, əvvəlcə onun borcu verilsin. Namaz və onun müqəddimələri çox vaxt tələb edərsə, əvvəlcə məscidi təmizləmək, eyni zamanda borc sahibinin borcunu ödəmək, sonra namazı qılmaq lazımdır. Bu göstərişə əməl etməsə, günaha yol vermişdir, amma namazı düzgündür. Vaxt dar olduqda öncə namaz qılınmalıdır.

Məsələ 694: Beş namazdan hər birini öz vaxtında qılmaq müstəhəbdir. Namazların öz vaxtında qılınması daha fəzilətlidir. Yalnız nafilə və ya tə'qibat həddində ara vermək bəs etmir. Me'yar fəzilətli vaxtdır.

Məsələ 695: Günorta namazının fəzilətli vaxtı göstərici çubuğun kölgəsinin onun öz uzunluğuna çatdığı vaxta qədərdir. İkindi namazının fəzilətli vaxtı göstərici çubuğun kölgəsinin öz uzunluğuna çatdığı vaxtdan

kölgənin iki çubuq bərabərinə çatdığı vaxta qədərdir. Şam namazının fəzilətli vaxtı qürubdan üfüq qızartısının gözdən itdiyi vaxta qədərdir. İşa namazının fəzilətli vaxtı həmin qızartı gözdən itəndən gecənin üçdə birinədəkdir. Sübh namazının fəzilətli vaxtı birinci fəcr tülusundan hava işıqlananadəkdir.

Namazlarda tərtib

Məsələ 696: Günorta və ikindi namazları tərtiblə qılınmalıdır. Yə'ni əvvəlcə günorta, sonra ikindi namazı qılınmalıdır. Şam və xiftən namazları da belədir. Əgər bir şəxs bilərəkdən ikindi namazını günorta namazından, xiftən namazını şam namazından öncə qılarsa namazları batildir.

Məsələ 697: Günorta namazı niyyəti ilə namaza başlayıb namazın gedişində günorta namazını öncə başa vurduğunu yada salan şəxs niyyətini ikindi namazına çevirə bilməz və namazı batildir. Şam və xiftən namazları da belədir. Amma əgər bir şəxs ikindi namazını niyyət edib namaz gedişində günorta namazını qılmadığını yada salarsa, niyyətini günorta namazını çevirə bilər. Xiftən namazını başladıqdan sonra şam namazını qılmadığı yadına düşərsə, dördüncü rəkətin rükusundan sonra niyyətini dəyişə bilər. Amma əgər dördüncü rəkətin rükusundan sonra yadına düşərsə, namazını xiftən namazı niyyəti ilə başa vurub, sonradan şam namazını qılmalıdır. Ehtiyat budur ki, xiftən namazını da yenidən qılsın.

Məsələ 698: Əgər ikindi namazının gedişində şəkk yaransa ki, günorta namazı qılınıb, yoxsa yox, əvvəlki **Məsələ**də deyilən göstərişə əməl olunmalıdır. Yə'ni niyyət günorta namazına çevrilməli, sonradan ikindi namazı qılınmalıdır. Eləcə də, xiftən namazının gedişində şəkk etsə ki, şam namazını qılıb yoxsa yox, əvvəlki göstərişə əməl olunur.

Məsələ 699: Qəza namazının niyyətini "vaxtında", yə'ni əda namazına çevirmək, müstəhəb namazının niyyətini vacib namaza çevirmək olmaz. Amma vaxtında qılınan namazın niyyətini qəza namazına çevirmək mümkündür. Əgər qəza namazı həmin günün qəzası olarsa, vacib ehtiyata əsasən, niyyət dəyişilər, qəza namazı başa çatdırıldıqdan sonra vaxtındakı namaz qılınar. Belə bir keçid o zaman mümkündür ki, niyyəti dəyişməyin vaxtı ötüb keçməmiş olsun. Məsələn, namazın niyyətini o zaman sübh namazının qəzasına çevirmək olar ki, dörd rəkətli namazın üçüncü rəkətinə başlanılmayıb.

Nafilə (müstəhəb) namazlar

Məsələ 700: Müstəhəb namaz çoxdur. Bu namazlar "nafilə" adlanır. Nafilə namazları arasında gündəlik nafilə namazları daha çox tövsiyə olunmuşdur.

Məsələ 701: Gündəlik nafilə namazları bunlardır: Səkkiz rəkət günorta, səkkiz rəkət ikindi, dörd rəkət şam, iki rəkət oturaq halda xiftən, on bir rəkət

gecə, iki rəkət sübh nafiləsi. Xiftən namazının iki rəkətlik nafiləsi oturaq yerinə yetirildiyindən bir rəkət sayılır. Nəticədə gündəlik nafilələr otuz dörd rəkət olur. Amma cümə günləri bu namazlar dörd rəkət artır. Günorta və ikindi nafilələrinə dörd rəkət əlavə olunur. Bütün nafilə namazları iki rəkət-iki rəkət qılınır.

Məsələ 702: On bir rəkət gecə nafiləsinin səkkiz rəkəti "gecə nafiləsi", iki rəkəti "şəf' nafiləsi", bir rəkəti "vətr" nafiləsi niyyəti ilə yerinə yetirilir.

Məsələ 703: Gecə nafiləsi nafilə namazlarının ən mühümlərindəndir. Ayə və rəvayatlərdə bu namazın əhəmiyyəti xüsusi vurğulanır, onun insan ruhuna müstəsna tə'sirindən danışılır. Bu namazlar insanın tərbiyəsində, onun problemlərinin həllində çox tə'sirlidir. Dua kitablarında bu namazın qaydaları göstərilir. Xüsusilə vətr namazının qunutuna ciddi əhəmiyyət verilir. Əlbəttə ki, bu qaydaları yerinə yetirmək yaxşıdır. Amma gecə namazlarını adi şəkildə də qılmaq olar. Müəyyən səbəblərdən gecənin axırlarında oyana bilməyən şəxs yatmazdan öncə bu namazı qıla bilər.

Məsələ 704: Nafilə namazlarını oturaq da qılmaq olar. Amma bu halda ehtiyat budur ki, iki rəkət oturaq namaz bir rəkət sayılsın. Məsələn, günortanın səkkiz rəkətlik nafiləsi on altı rəkət oturaq namazla əvəz edilsin.

Məsələ 705: Səfərdə günorta və ikindi nafilələri qılınmır. Ehtiyat budur ki, xiftən namazının da nafiləsi qılınmasın. Amma qalan nafilələr, yə'ni sübh, şam və gecə nafilələri səfərdə də qılınır.

Məsələ 706: Qeyd etdik ki, nafilə namazları iki rəkət-iki rəkət qılınır. Yalnız vətr namazı bir rəkətdir. Vətr namazını oturaq qılmaq istəyən şəxs ayrı-ayrı iki bir rəkətli namaz qılmalıdır.

Gündəlik nafilələrin vaxtı

Məsələ 707: Günorta nafiləsinin vaxtı günorta namazından qabaqdır. Bu vaxt günortadan başlayır və göstərici çubuğun kölgəsi yeddidə iki uzunluğa çatanədək davam edir. Məsələn, əgər göstərici çubuğun uzunluğu yeddi qarışdırsa, onun kölgəsi iki qarış uzunluğa çatanadək günorta nafiləsinin vaxtıdır.

Məsələ 708: İkindi namazının nafiləsi ikindi namazından öncə qılınır. Onun vaxtı göstərici çubuğun kölgəsi həmin çubuğun yeddidə dörd uzunluğuna çatanadəkdir.

Məsələ 709: Şam nafiləsinin vaxtı şam namazından sonra başlayır, günəş batandan sonra qürubda yaranan qızartı itənədək davam edir.

Məsələ 710: Xiftən nafiləsi xiftən namazından sonra qılınır. Onun vaxtı gecə yarıyadəkdir. Amma bu nafilənin xiftən namazının ardınca qılınması daha yaxşıdır.

Məsələ 711: Sübh nafiləsinin vaxtı sübh namazından qabaqdır. Bu vaxt fəcr tülusundan şərqdə qızartı görünənədəkdir. Bu namazı gecə namazının ardınca da qılmaq olar.

Məsələ 712: Gecə nafiləsinin vaxtı ehtiyata əsasən gecə yarıdan başlayır və sübh azanınadək davam edir. Amma yaxşı olar ki, bu namaz səhər vaxtı, yə'ni gecənin son üçdə birində qılınsın.

Ğufeylə namazı

Məsələ 713: Savab ümidi ilə qılınan namazlardan biri ğüfeylə namazıdır. Bu namaz şam və xiftən namazları arasında qılınır. Onun vaxtı şam namazından sonra başlayır, qərbdə qızartı itənədək davam edir. İki rəkətlik ğufeylə namazının birinci rəkətində "Həmd"dən sonra surə əvəzinə bu ayə oxunur:

وَذَاالنُّونِ اِذ ذَهَبَ مُغَاضِبًا فَظَنَّ اَن لَن نَقدِرَعَلَيهِ فَنَادَى فِى الظُّلُمَاتِ اَن لاَ اِلهَ اِلاَّ اَنتَ سُبحَانَكَ اِنّى كُنتُ مِنَ الظَّالِمِينَ فَاستَجَبنَا لَهُ وَنَجَّينَاهُ مِنَ الغَمِّ وَكَذَالِكَ نُنجِى المؤمِنِينَ

"Vəzzənnuni iz zəhəbə muğazibən fəzənnə ən lən nəqdirə ələyhi fənada fiz zulumati ənla ilahə illa əntə subhanəkə inni kuntu minəz-zalimin, fəstəcəbna ləhu və nəccəynahu minəl-ğəmmi və kəzalikə nuncil-mu'minin"

Ğufeylə namazının ikinci rəkətində "Həmd"dən sonra surə əvəzinə bu ayə oxunur:

وَعِندَهُ مَفَاتِحُ الغَيبِ لاَيَعلَمُهَا اِلاَّ هُوَ وَيَعلَمُ مَا فِى البَرِّ والبَحرِ وَمَا تَسقُطُ مِن وَرَقَةٍ اِلاَّ يَعلَمُهَا وَلاَحَبَّةٍ فِى ظُلُمَاتِ الاَرضِ وَلاَ رَطبٍ وَلاَ يَابِسٍ اِلاَّ فِى كِتابٍ مُبِينٍ

"Və indəhu məfatihul ğəybi la yə'ləmuha illa huvə və yə'ləmu ma fil bərri vəl bəhri və ma təsqutu min vərəqətin illa yə'ləmuha və la həbbətin fi zulumatil-ərzi və la rətbin və la yabisin illa fi kitabin mubin."

Namazın qunutunda belə deyilir:

اَللَّهُمَّ اِنِّى اَسأَلُكَ بِمَفَاتِحِ الغَيبِ الَّتِى لاَيَعلَمُهَا اِلاَّ اَنتَ اَن تُصَلِّىَ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاَن تَفعَلَ بِى كَذا وَ كَذا

"Allahummə inni əs'ələukə bi məfatihil-ğəybil-ləti la yə'ləmuha illa əntə ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd və ən təf'ələ bi kəza və kəza" bu duadakı "kəza və kəza" sözlərinin əvəzinə arzu-istək ərz olunur.

Sonra deyilir:

اَللَّهُمَّ اَنتَ وَلِىُّ نِعمَتِى وَالقَادِرُ عَلَى طَلِبَتِى تَعلَمُ حَاجَتِى فَاسأَلُكَ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ عَلَيهِ وَعَلَيهِمُ السَلاَمُ لَمَّا قَضَيتَهَالِى

"Allahummə əntə vəliyyu ni'məti vəl-qadiru əla tələibəti tə'ləmu hacəti fə əs'ələukə bi həqqi Muhəmmədin və ali Muhəmmədin ələyhi və ələyhimus sələmu ləmma kəzəytəhali".

Qiblənin hökmləri

Məsələ 714: Bütün vacib namazlar üzü qibləyə qılınır.

Məsələ 715: Müqəddəs Məkkə şəhərindəki Kə'bə evi dünya müsəlmanlarının qibləsidir. İnsan harada olur-olsun, üzü Kə'bəyə namaz qılmalıdır. Amma uzaqda olan bir şəxs elə dayansa ki, onun üzü qibləyə

dayandığı söylənilsin, bəs edər. Beləcə, uzunluğu Kə'bə evindən xeyli artıq olan cəmiyyət namazının sıralarında hamı üzü qibləyə dayanmış sayılır.

Məsələ 716: Zəruri deyil ki, üzü qibləyə dayanan vaxt barmaqların ucu da üzü qibləyə olsun. Oturan vaxt dizlərin baş tərəfinin də tam üzü qibləyə olması zəruri deyil. Bir insan haqqında "üzü qibləyə dayanmışdır və ya oturmuşdur" söylənilərsə, bəs edər.

Məsələ 717: Namazı oturaq vəziyyətdə qıla bilməyən şəxs uzanmış vəziyyətdə qıla bilər. Amma onun bədəninin ön tərəfi üzü qibləyə olmalıdır. Bu da mümkün olmasa, sol tərəf üstündə uzanmaq olar. Bu vaxt da bədənin ön hissəsi üzü qibləyə olmalıdır. Əgər tərəflər üzərində uzanmaq mümkün olmasa, arxası üstəyə uzanmaq olar. Bu vaxt ayaqların altı üzü qibləyə olmalıdır.

Məsələ 718: Ehtiyat namazında, yaddan çıxmış səcdə və təşəhhüdə görə namazda da üzü qibləyə olmaq lazımdır. Vacib ehtiyata əsasən, səcdeyi-səhvi yerinə yetirərkən də üzü qibləyə dayanmaq lazımdır.

Məsələ 719: Müstəhəb namazı yol gedə-gedə süvari halda qılmaq olar. Bu vaxt üzü qibləyə olmaq vacib deyil.

Məsələ 720: Qibləni tə'yin etmək üçün çox yol var. İnsan öncə çalışmalıdır ki, müəyyənləşdirilmiş qibləyə əmin olsun. Bu işdə iki ədalətli şahidin və ya bir e'tibarlı şəxsi hiss olunan nişanələrlə şəhadəti və ya elmi şəkildə qibləni müəyyənləşdirmiş birinin sözü qəbuldur. Bu yollarla qibləni müəyyənləşdirmək olmadıqda, məscidlərin mehrabı, qəbirlər əsasında və bu kimi başqa yollarla qibləni tapmaq olar.

Məsələ 721: Adi qiblənümalar (kompaslar) nöqsanlı işləməsə, qibləni müəyyənləşdirmək üçün yaxşı vasitədir. Qiblənin bu yolla müəyyənləşdirilməsinə ümid daha çoxdur. Bəlkə də ən dəqiq üsul bu üsuldur.

Məsələ 722: Ev sahibi, mehmanxana məs'ulu və bu kimi şəxslər biganə olmazsa, onların sözünə e'timad göstərmək mümkündür.

Məsələ 723: Əgər qibləni tapmaq üçün bir yol olmasa, dörd səmtdən hansının qiblə olduğu bilinməsə, üzü bir tərəfə dayanıb namaz qılmaq bəs edər. Amma müstəhəb ehtiyata əsasən, namaz hər dörd tərəfə üz tutmaqla qılınsın. Əgər iki və ya üç tərəfin qiblə olması ehtimalı varsa, yalnız onlara doğru dayanıb namaz qılmaq lazımdır.

Məsələ 724: Bir şəxs üzü dörd tərəfə dayanıb namaz qılmaq istəyərsə, günorta və ikindi, şam və xiftən namazlarından birini dörd tərəfə qılıb qurtardıqdan sonra o birinə başlasa daha yaxşıdır.

Məsələ 725: Heyvanları kəsərkən onların üzü qibləyə olmalıdır. Qiblə tapılmasa ehtimal əsasında hərəkət edilir. Ehtimal da olmasa, üzü hansı tərəfə kəsilsə düzgündür. Müsəlman üzü qibləyə dəfn olunmalıdır; bu **Məsələ**də də yuxarıdakı göstərişlərə əməl edilir.

Namazda bədənin örtülməsi

Məsələ 726: Kişi bir şəxs onu görməsə də namaz zamanı ayıb yerini örtməlidir. Daha yaxşı olar ki, göbəkdən dizədək örtünsün. Bundan da üstünü hörmətli insanların hüzurunda olduğu kimi geyinməkdir.

Məsələ 727: Qadın namazda bütün bədənini, hətta başını və qaşlarını tükünü örtməlidir. Amma üzünü, əllərini əl topuğunadək, ayaqlarını ayaq topuğunadək örtməsi vacib deyil. Vacib həddə örtündüyünə əmin olmaq üçün ehtiyat budur ki, üzündən bir qədər, topuğundan aşağı bir qədər örtünsün.

Məsələ 728: Ehtiyat namazında, yaddan çıxmış səcdə və təşəhhüdün yerinə yetirilməsində, vacib ehtiyata əsasən, səcdeyi-səhv və Qur'anın vacib səcdələrində namazdakı kimi örtünmək lazımdır.

Məsələ 729: Qadın sü'ni saçlarını, gizli zinətlərini (boyunbağı və qolbağ kimi) də örtməlidir.

Məsələ 730: Əgər namaz gedişində mə'lum olsa ki, örtüləsi yer açıq qalıb, dərhal örtmək lazımdır. Bir şərtlə ki, namazın formasını pozan iş görülməsin. Əgər bu iş uzun çəkərsə, vacib ehtiyata əsasən, özünü örtüb namazını başa çatdırsın və onu yenidən qılsın.

Məsələ 731: Əgər namazı başa çatdırdıqdan sonra mə'lum olsa ki, örtüləsi yer açıq qalıb, namaz düzgündür.

Məsələ 732: İnsan namazda özünü ağac yarpağı və ya otla örtə bilər. Amma müstəhəb ehtiyat budur ki, bir şey tapılmadıqda bu şeylərdən istifadə olunsun.

Məsələ 733: Əgər namaz zamanı torpaqdan başqa bir şey tapılmasa, bədəni torpaqla örtüb namaz qılmaq lazımdır.

Məsələ 734: Əgər insan çılpaqsa və örtünmək üçün bir şey tapmırsa, namazın vaxtı qurtaranadək bir şey tapacağını ehtimal edərsə, ehtiyat budur ki, namazı tə'xirə salsın. Əgər tapa bilməsə, bir şəxs gördüyü halda, oturaq namaz qılmalı və ayıb yerini bu yolla örtməlidir. Əgər bir şəxs görmürsə əli ilə ayıb yerini örtmüş halda ayaq üstə namaz qıla bilər. Bu halda rüku və səcdələr işarə ilə yerinə yetirilir. Səcdə üçün başı bir qədər aşağı əymək bəs edər.

Namaz qılanın libası ilə bağlı şərtlər

Məsələ 735: Namaz qılan şəxsin libası ilə bağlı altı şərt var: Pak olsun; vacib ehtiyata əsasən, qəsbi olmasın; ölü heyvanın hissələrindən olmasın; əti haram heyvanın hissələrindən olmasın; (beşinci və altıncı şərt) namaz qılan şəxs kişidirsə, onun libası xalis ipək və ya qızılla toxunmuş olmasın. Bu Məsələlər qarşıda şərh olunacaq.

Birinci şərt:

Paklıq

Məsələ 736: Bir şəxs bilərəkdən murdar libas və ya murdar bədənlə namaz qılarsa, namazı batildir. Hətta məsələni bilmədiyindən belə etsə də hökm gücündə qalır.

Məsələ 737: Əgər bir şəxs bədəninin və ya libasının murdar olduğunu bilməsə və namazdan sonra bunu anlasa, namazı düzgündür. Amma öncədən bilib sonra yaddan çıxarmışsa və bu halda namaz qılmışsa, namazını təzələməlidir. Bu məsələnin namazın ortasında və ya namazdan sonra xatırlanması şərt deyil. Namazın vaxtı keçərsə onun qəzası yerinə yetirilir.

Məsələ 738: Namaza məşğul insanın namaz gedişində bədəninin və libasının murdarlanması, eləcə də, libasının və bədəninin murdar olduğunu anlaması mümkündür. Əgər belə bir məqamda libas və bədəni həmin vaxt murdarlandığını və ya öncədən murdar olduğunu bilməsə, su olduqda və libası, bədəni suya çəkmək və ya libası dəyişmək namazın formasını pozmadıqda, libasını və bədənini suya çəkməli, ya da libasını dəyişməlidir. Sonra namaz davam etdirilir. Namazı davam etdirmək mümkün olmadıqda, namaz saxlanılır, pak libas və bədənlə namaz qılınır. Namazın vaxtı dar olmadıqda bu göstərişə əməl edilir. Vaxt dar olduqda həmin vəziyyətdə namaz qılınır və namaz düzgündür.

Məsələ 739: Bir şəxs namazdan sonra libasının və ya bədəninin murdar olduğunu başa düşsə, namazı düzgündür. Bu halın vaxtında və ya vaxt keçəndən sonra yaranmasının fərqi yoxdur.

Məsələ 740: İnsan murdar libas və ya bədəni suya çəkib onların paklığına əmin olduqdan sonra namaz qılarsa və namazdan sonra hələ də murdarlıq qaldığını başa düşərsə, namazı düzgündür. Sonrakı namazlar üçün paklanmaq lazımdır.

Məsələ 741: İnsan bədənində qan görüb əmin olsa ki, bir dirhəm ölçüsündən azdır və ya namaza mane olmayan yara və çiban qanıdır, namazını qıldıqdan sonra həmin qanın bir dirhəm ölçüsündən çox olduğunu və ya qanın yara və çiban qanı olmadığını anlasa namazı düzgündür.

Məsələ 742: Əgər bir şeyin murdar olduğunu unutsa, bədəni və ya libası həmin şeyin rütubətinə toxunsa, namaz qıldıqdan sonra bunu xatırladıqda namazı düzgündür. Amma bədəni murdarlığını unutduğu bir şeyə rütubətlə toxunsa və özünü suya çəkmədən qüsl versə, qüslü və namazı batildir.

Məsələ 743: Yalnız bir libası olan şəxsin bədəni və libası murdarlanarsa və yalnız birini suya çəkmək üçün su olarsa, vacib ehtiyat budur ki, bədənini suya çəksin və namazını həmin murdar libasla qılsın. Amma libasın murdarlığı daha çox olsa (Məsələn, sidiklə murdarlansa. Cidiklə murdarlanan libas az su ilə iki dəfə suya çəkilir. Amma bədən qanla

murdarlandıqda, onu bir dəfə yumaq bəsdir), vacib ehtiyat budur ki, libasını yusun və murdar bədənlə namaz qılsın.

Məsələ 744: Əgər bir şəxsin murdar libasdan başqa bir libası yoxsa və namazın vaxtı qurtaranadək pak libas tapacağına gümanı gəlmirsə, həmin libasla namaz qıla bilər.

Məsələ 745: Bir şəxsin iki libasından biri murdardırsa və onların hansı birinin murdar olduğunu bilmirsə, onlardan heç biri ilə namaz qıla bilməz. Hər ikisini suya çəkməlidir. Bunu edə bilməsə, namazlarını ayrı-ayrılıqda hər iki libasla qılmalıdır.

İkinci şərt:

Libasın qəsbi olması

Məsələ 746: Namaz qılan şəxsin libası vacib ehtiyata əsasən, mübah, halal olmalıdır. İnsan bilərəkdən qəsbi libasla namaz qılsa, (hətta libasda bir sap və ya bir düymə qəsbidirsə) namazını təzələməlidir. Amma libasın qəsbiliyini bilmədən qıldığı namazlar düzgündür. Əgər libasın qəsbi olduğunu bilib sonradan yaddan çıxararsa, (əgər libası qəsb edən özü deyilsə. Yə'ni qəsb edib, sonra onu yaddan çıxarmamışsa) həmin libasla qıldığı namazları vacib ehtiyata əsasən, təzələməlidir.

Məsələ 747: Əgər insan namaz gedişində anlasa ki, libası qəsbidir, əynində ayıb yerini örtəcək bir şey varsa, qəsbi libası çıxarıb namazını davam etdirməlidir. Əgər əynində ayıb yerini örtəcək bir şey yoxsa, qəsbi libasla namazını başa çatdırmalıdır.

Məsələ 748: Əgər bir şəxs həyatını qorumaq məqsədi ilə qəsbi libasla namaz qılsa, namazı düzgündür. Eləcə də, libası oğrudan və bu kimi şeylərdən qorumaq üçün onu geyərsə namazı düzgündür.

Məsələ 749: Əgər xümsü və ya zəkatı verilməmiş pulla libas alıb həmin libasla namaz qılarsa bu namaza irad var. Əgər nisyə libas alıb müamilə zamanı bu fikirdə olarsa ki, borcunu xüms və zəkatı verilməmiş pulla ödəsin və ya ümumiyyətlə ödəməsin, namazına irad var.

Üçüncü şərt:

Ölmüş Heyvan hissələrindən hazırlanmış libas

Məsələ 750: Namaz qılan şəxsin libası atıcı qanı olan heyvanların ölüsünün hissələrindən olmamalıdır. Vacib ehtiyat budur ki, balıq və ilan kimi atıcı qanı olmayan heyvanların da hissələrindən olmasın.

Məsələ 751: Namaz qılanın üstündə ölü heyvan hissələri olmamalıdır. Bu hökm libasdan əlavə əşyalara da aiddir. Amma tük, yun kimi ruhsuz hissələrin eybi yoxdur. Məsələn, əti halal heyvan ölüsünün yunundan və tükündən hazırlanmış libasla namaz qılmaq olar.

Məsələ 752: Müsəlman bazarından alınmış dəri paltarla namaz qılmaq olar. Hətta həmin heyvanın şər'i qaydada zibh edilib-edilməməsinə şübhə olsa da, bunun eybi yoxdur. Amma dərinin qeyri-İslami məmləkətdən gətirildiyinə yəqinlik olsa, həmin dəri üstündə olan halda namaz qılmaq olmaz. Əgər satıcı lazımınca araşdırma aparmayan biganə bir şəxsdirsə, ondan alınmış dəri mə'mulatla da namaz qılmaq düzgün deyil. Amma bir şəxs öz üzərindəki dərinin İslami, ya qeyri-İslami məmləkətdən gətirildiyini bilməsə, həmin dəri ilə namaz qılmaq olar.

Dördüncü şərt:

Əti haram olan heyvanın hissəsi

Məsələ 753: Namaz qılanın libası əti haram heyvanın hissələrindən olmamalıdır. Namaz qılanın üstündə belə bir heyvanın tükü də olsa, iradı var.

Məsələ 754: Əgər namaz qılanın libasında əti haram olan heyvanın ağzının və burnunun suyu kimi bir rütubət olsa, bu rütubətin əsli aradan getməmiş onunla namaz qılmağa irad var. Amma həmin rütubət qurusa və onun əsli aradan getsə, qılınmış namaz düzgündür.

Məsələ 755: Namaz qılanın libasında başqa bir şəxsin tükü, təri və ya ağzının suyu olarsa bu halda namaz qıla bilər.

Məsələ 756: Namaz qılanın üstündə mirvari və ya mum olarsa bu vəziyyətdə namaz qılmaq olar. Amma əti haram olan heyvandan götürülmüş sədəf düymə ilə namaz qılmağın eybi var.

Məsələ 757: Əgər insan şəkk etsə ki, əynindəki libas əti halal, yoxsa haram olan heyvanın tükündən və yunundandır, qıldığı namaz düzgündür. Bu libasın ölkə daxilində və ya xaricində hazırlanmasının fərqi yoxdur.

Məsələ 758: Plastik maddələrdən hazırlanmış sü'ni dərilərlə namaz qılmaq olar. Bir şəxs öz üzərindəki dərinin sü'ni və ya təbii olduğuna şübhə edərsə, həmin dərinin əti haram, ya ölü heyvan dərisi olduğunu bilməzsə, bunun da eybi yoxdur.

Məsələ 759: Vacib ehtiyata əsasən, sar və səncab (dələ) dərisindən namazda çəkinmək lazımdır.

Beşinci şərt:

Qızıl sap parçalar

Məsələ 760: Kişilərin qızıl saplı libasla qıldığı namaz batildir. Amma qadınlar israf sayılmasa, belə bir libasla namaz qıla bilər. Namazdan başqa vaxtlarda da kişilərin bu qəbil libas geyinməsi haram sayılır.

Məsələ 761: Kişilərin qızıl üzük taxması, qızıl saat vurması, üzərində qızıl zinət gəzdirməsi haramdır. Bu zinətlərlə qılınan namaz batildir. Vacib

ehtiyata əsasən, qızıldan hazırlanmış eynəkdən də çəkinmək lazımdır. Amma bütün bunlar istər namazda, istər namazdan başqa vaxtlarda qadınlara halaldır.

Məsələ 762: Kişilərdə qabaq dişin zinət məqsədi ilə qızıldan olması həm namazda, həm də namazdan başqa hallarda eyiblidir. Bu işi yalnız çarəsizlikdən görmək olar.

Altıncı şərt:

Libas xalis ipəkdən olmamalıdır

Məsələ 763: Kişilərin xalis ipəkdən libas geyinməsi haramdır. Hətta xalis ipəkdən hazırlanmış araxçın və başqa şeylər də namazı batil edir. Libasın astarı da xalis ipəkdən olmamalıdır. Amma qadınlar üçün bütün bunlar həm namazda, həm də namazdan başqa vaxtlarda halaldır.

Məsələ 764: Bir libasın xalis ipəkdən və ya başqa bir şeydən olması mə'lum deyilsə, onu geymək olar və bu libasla qılınan namaz dügzündür.

Məsələ 765: Kişinin cibində ipək və bu kimi başqa bir dəsmal olsa haram deyil və bu halda namaz batil olmur.

Məsələ 766: Əgər libas ipəklə başqa bir şeyin qatqısından hazırlanarsa bunun eybi yoxdur. Amma həmin qatqıda ikinci şeyin miqdarı hesaba alınmayacaq qədər az olarsa, bu libas icazə verilmir.

Məsələ 767: Çıxılmaz vəziyyətə düşdükdə ipək və qızıldan hazırlanmış, qəsbi, ölü heyvan hissələrindən düzəldilmiş libaslardan istifadə etmək olar. Çıxılmaz vəziyyətdə həmin libaslarla namaz da qılmaq mümkündür.

Məsələ 768: Əgər insanın murdarlanmış, ipək, qızıl saplı libasdan başqa bir libası yoxsa həmin libasla namazını qılmalıdır. Amma libası qəsbi olduqda və çılpaq namaz qılmağa şərait yarandıqda çılpağın hökmünə əməl etməlidir.

Məsələ 769: Əgər insanın ixtiyarında namaz üçün münasib libas olmazsa, onu almalı və ya kirayəyə görürməlidir. Bir şəxs belə bir libası bağışlasa və ya icarəyə versə, minnət və narahatçılıq olmasa qəbul etmək lazımdır.

Məsələ 770: Vacib ehtiyata əsasən, insan şan-şöhrət göstəricisi olan libaslardan çəkinməlidir. Şöhrət libası dedikdə elə bir libas nəzərdə tutulur ki, bu libası geyməkdə riyakarlıq olsun. Məsələn, bir şəxs özünü zahid və tərki-dünya göstərmək üçün ucuz və solğun rəngli libaslar geyərsə, buna irad var. Amma əgər həqiqətən onun məqsədi sadə geyinməkdirsə bunun eybi yoxdur. Əksinə, riyakarlıq yox, sadəlik məqsədi ilə belə geyinmək bəyənilmiş işdir. Şöhrət libası ilə qılınan namaz batil deyil.

Məsələ 771: İnsanın ona hörmətsizlik gətirəcək və fəsad yaradacaq libaslar geyinməsinə irad var.

Məsələ 772: Ehtiyata əsasən, kişi qadına məxsus və qadın kişiyə məxsus libas geyməməlidir. Amma belə bir libasla namaz qılmaq olar.

Məsələ 773: Uzanmış vəziyyətdə namaz qılmalı olan şəxs çılpaq olsa, vacib ehtiyata əsasən, istifadə etdiyi döşək və döşək üzü murdar, xalis ipək və bu kimi şeylər olmamalıdır. Çıxılmaz vəziyyətdə isə bunun eybi yoxdur.

Hansı hallarda namaz qılan şəxsin libası və ya bədəni murdar ola bilər?

Məsələ 774: Altı halda namaz qılan şəxsin bədəni və ya libası murdar olarsa, bu halda namaz qıla bilər:

1. Libas və ya bədən yara, zədə və ya çiban vasitəsi ilə qana bulaşdıqda.

2. Libasdakı və ya bədəndəki qan bir dirhəm ölçüsündən az olduqda (bir dirhəm təqribən şəhadət barmağının bir bəndi ölçüsündədir).

3. Corab və araqçın kimi xırda geyimlər murdarlandıqda;

4. Namaz qılanın üstündə murdarlanmış bir şey olduqda;

5. Uşaq saxlayan dayənin libası;

6. İnsan murdar bədən və ya libasla namaz qılmağa məcbur olduqda, məsələn, murdarlanmış libası dəyişmək mümkün olmadıqda, onu paklamaq üçün vaxt dar olduqda. Bu hallarda zərurət səbəbi ilə həmin libasla namaz qılmaq olar.

Bu mövzular növbəti Məsələlərdə şərh ediləcək.

Məsələ 775: Birinci üzürlü hal: Namaz qılanın bədəni və libası yara, zədə və ya çiban qanına bulaşmışdır, onları suya çəkmək çətindir. Nə qədər ki, yara, zədə və ya çiban sağalmayıb, insan bu halda namaz qıla bilər. Qanlı çirk gələn zaman, yaranın üzərindəki dərman murdarlandığı vaxt bu halda namaz qılmaq olar. Amma əgər yara sağalmışsa və libasdakı, ya da bədəndəki qanı yumaq asandırsa, bu iş görülməlidir.

Məsələ 776: Əgər libas və ya bədənin yaradan kənarda qalan hissəsi murdarlanarsa, onu suya çəkmək lazımdır. Yaradan gələn qanın daim sirayat etdiyi istisnadır.

Məsələ 777: Əgər yaranı tibbi parça ilə örtmək asansa və bu yolla qanın libasa və ya bədənə sirayatinin qarşısını almaq mümkündürsə, bu iş görülməlidir.

Məsələ 778: Əgər yara burunun və ya ağızın içindədirsə, oradan axıb bədənə və ya libasa dəydiyi vaxt vacib ehtiyat budur ki, bu halda namaz qılınmasın. Bədənin daxilindəki babasil qanı da bu hökmdədir.

Məsələ 779: Bədəni yaralı şəxs libasında və ya bədənində qan görərsə və bu qanın hansı qan olduğunu bilməzsə, həmin halda namaz qılmasına irad var.

Məsələ 780: Əgər bədəndə bir neçə yara olarsa və bu yaralar bir yara sayılacaq həddə yaxındırlarsa, bütün yaralar sağalanadək həmin halda

namaz qılmaq olar. Amma yaralar o qədər aralıdırsa ki, hərəsi bir yara sayılsın, hər yara sağaldıqdan sonra bədən və libas onun qanındn təmizlənməlidir.

Məsələ 781: İkinci üzürlü hal: Əgər namaz qılanın libasındakı və ya bədənindəki qan bir dirhəm ölçüsündən kiçikdirsə, həmin halda namaz qılmaq olar. Bir şərtlə ki, bu qan heyiz, nifas, istihazə, eləcə də it və donuz, ölü heyvan, əti haram olan heyvanın qanı olmasın. Vacib ehtiyata əsasən, kafirin də qanı bu qəbildəndir.

Məsələ 782: Əgər qan libas və bədənin bir neçə yerinə yayılmışsa, birlikdə bir dirhəm ölçüsündən az olduqda namaz qılmaq olar.

Məsələ 783: Əgər qan libasın astarına da sirayat etmişsə, libasdakı və astardakı qan ayrıca hesablanır. Amma parça qalın olmadıqda onun üzü və arxası bir sayılır.

Məsələ 784: Bir dirhəm ölçüsündən az olan qan libası yumadan gedərsə, onun yeri murdardır. Amma bu halda namaz qılmaq olar.

Məsələ 785: Əgər libasdakı qan bir dirhəm ölçüsündən kiçik olarsa və onun üzərinə sidik kimi başqa bir murdar tökülərsə, bu halda namaz qılmaq olmaz.

Məsələ 786: Üçüncü üzürlü hal: Namaz qılan şəxsin ayıb yeri örtməyə bəs etməyəcək həddə xırda geyimləri (Məsələn, araqçıq, corab) murdarlanarsa, onlarla namaz qılmaq olar. Murdarlanmış üzük və eynək də bu qəbildəndir.

Məsələ 787: Dördüncü üzürlü hal: Əgər namaz qılan şəxsin cibində ayıb yeri örtəcək ölçüdə murdar dəsmal və ya başqa bir şey olarsa, onunla namaz qıla bilər. Başqa murdar əşyalar da bu qəbildəndir. Amma müstəhəb ehtiyat budur ki, onlardan pəhriz edilsin.

Məsələ 788: Beşinci üzürlü hal: Körpə uşağa dayəlik edən və libasını namaz üçün asanlıqla paklaya bilməyən qadın gündə bir dəfə libasını paklayarsa onunla namaz qıla bilər. Onun libası uşaq sidiyi ilə murdarlansa da eyni hökmdədir. Amma ehtiyat budur ki, libasını qılacağı birinci namaz üçün suya çəksin.

Məsələ 789: Əgər adi geyim kimi vasitələrlə uşaqdakı murdarlığın sirayat etməsinin qarşısını ala bilərsə bunu etməlidir. Əgər bir neçə libası varsa pak libasdan istifadə etməlidir.

Namaz qılanın paltarı ilə bağlı müstəhəb və məkruh hallar

Məsələ 790: Namaz qılanın libası ilə bağlı savab ümidi olan bir neçə hal var. Ağ libas geyinmək, ən pak libasları geymək, xoş ətirdən istifadə etmək, barmağa əqiq üzük salmaq bu qəbil savab işlərdəndir.

Məsələ 791: Namaz qılan şəxs savab ümidi ilə libasına münasibətdə bir neçə işdən çəkinə bilər: Qara libas geyməkdən (əzadarlıqda qara geymək, çadra, əba və seyyidlərin əmmaməsinin qara olmasının eybi yoxdur). Çirkin və dar libasdan çəkinmək. Murdar-təmiz bilməyən insanın libasından çəkinmək savabdır. Xüsusilə şərabxorun libasından çəkinmək lazımdır. Namazda düymələrin açıq olması, üzərində çöhrə çəkilmiş libas geymək, üzərində insan və ya heyvan şəkli çəkilmiş üzük taxmaq kərahətli (bəyənilməyən) işlərdir.

Namaz qılanın yeri

Məsələ 792: Namaz qılanın yeri ilə bağlı bir neçə şərt ödənməlidir:

Birinci şərt: Yerin halal olması;

Vacib ehtiyat budur ki, namaz qılanın namaz qıldığı yer halal olsun. Demək, qəsbi yerdə və ya qəsbi xalça üzərində namaz qılmaq iradlıdır. Başqasının ixtiyarında olan icarəyə götürülmüş yer də belədir. Həmin yerdə icarəçinin icazəsi olmadan namaz qılmaq iradlıdır. Başqasına aid mülk də bu qəbildəndir. Məsələn, bir şəxs vəsiyyət etsə ki, onun malının üçdə biri müəyyən istiqamətdə xərclənsin, o dünyasını dəyişdikdən sonra üçdə bir ayrılanadək həmin yerdə namaz qılmaq olmaz.

Məsələ 793: Bir şəxs məsciddə daim müəyyən yerdə namaz qılırsa, başqası onun yerini qəsb etsə vacib ehtiyata əsasən, qıldıqları namazları təzələməlidir.

Məsələ 794: Bir şəxs bir yerdə namaz qıldıqdan sonra həmin yerin qəsbi olduğunu bilsə, namazı düzgündür. Bir yerin qəsbi olduğunu bilib sonradan bunu unudan şəxsin də orada qıldığı namaz düzgündür. Amma namaz qılan şəxs özü qəsb etmiş olsa, orada namaz qılması iradlıdır.

Məsələ 795: Əgər bir şəxs bir yerin qəsbi olduğunu bilərsə, amma qəsbi yerdə namaz qılmaqla bağlı məsələdən xəbərsiz olarsa, orada qıldığı namazı vacib ehtiyata əsasən, təzələməlidir.

Məsələ 796: Vacib namazı süvari halda qılmağa məcbur olar şəxs miniyi, yəhəri, üzəngisi qəsbi olsa və suvari halda namaz qılmağa məcbur olmasa, həmin halda qıldığı namaz iradlıdır. Bu hökm müstəhəb namaza da aiddir.

Məsələ 797: Bir şəxs başqası ilə şərikli mülkə malik olarsa, nə qədər ki, payı ayrılmayıb, şərikindən icazəsiz orada namaz qıla bilməz.

Məsələ 798: Xüms və zəkatı verilməmiş pulla mülk alsa, həmin mülkdən istifadəsi haramdır və orada qıldığı namazlar iradlıdır. Mülkün haqqını ödəməyi boynuna götürdüyü halda, həmin məbləği xümsü və zəkatı verilməmiş pulla ödəmək istəsə, vacib ehtiyata əsasən, bu işdən çəkinməlidir.

Məsələ 799: Əgər müəyyən dəlillər əsasında mülk sahibinin razılığı mə'lum olsa, orada namaz qılmaq olar. Bu halda mülk sahibinin dillə

razılığı olmaya da bilər. Amma dillə razılıq vermiş sahibin qəlbən razı olmadığı bilinərsə, orada namaz qılmaq olmaz.

Məsələ 800: Xüms və ya zəkat borcu olan ölünün mülkündən istifadə etmək orada namaz qılmaq haramdır. Yalnız onun borcunu verdikdən sonra mülkündən istifadə etmək olar.

Məsələ 801: Xalqa borclu olan meyyitin mülkündə vərəsənin icazəsi ilə namaz qılmaq olar. Bir şərtlə ki, bu istifadə borcluların haqqına mane olmasın.

Məsələ 802: Meyyitin vərəsələrindən bə'ziləri sağır, divanə və ya itkin olarsa, onların mülkündən istifadə və orada namaz qılmaq haramdır. Amma meyyiti götürmək üçün cüz'i istifadənin eybi yoxdur.

Məsələ 803: Mehmanxana və hamam kimi yerlərdə oranın müsafirləri və müştəriləri namaz qıla bilər. Amma xüsusi mülklərdə sahibin icazəsi olmadan namaz qılmaq olmaz. Sahib istifadə icazəsi verdiyi zaman namaz qılınması ilə də razılaşdığı mə'lum olur. Necə ki, bir şəxsi qonaq çağıran şəxs ona namaz qılmaq icazəsi də verəsidir.

Məsələ 804: Hasara alınmamış böyük əkin yerlərində əkin olmadığı vaxt namaz qılmaq, əyləşmək, yatmaq və oradan cüzi istifadə etməyin eybi yoxdur. Həmin yerin yaşayış məntəqəsinə yaxın və ya uzaq olmasının fərqi yoxdur. Onun sahibləri yaşlı və ya az yaşlı şəxslər ola bilər. Amma əkin sahəsinin sahibi aydın şəkildə bildirsə ki, razı deyil və ya onun qəlbən razı olmadığını bilsək, həmin yerdən istifadə etmək haramdır, namaz qılınmasına irad var.

İkinci şərt:

Hərəkətsizlik

Məsələ 805: Əgər namaz qılan şəxsin namaz qılmaq istədiyi yer hərəkətli olarsa, yə'ni həmin şəxs həmin yerdə namazın əməllərini adi qaydada yerinə yetirə bilməzsə, onun namazı batildir. Beləcə, gəmidə, qatarda və bu kimi başqa yerlərdə namazın əməllərini düzgün yerinə yetirmək düzgün olduqda bunun eybi yoxdur. Vaxt darlığından və ya başqa bir zərurətdən gəmi, aftomobil və bu kimi hərəkətli bir yerdə namaz qılmağa məcbur olduqda imkan həddində daim dəyişən qiblə tərəfə dayanmaq lazımdır. Namaz qılan şəxs dəyişən qibləyə doğru hərəkət etdiyi vaxt namazın mətnindən deməməlidir.

Məsələ 806: Arpa, buğda və bu kimi dənli bitkilər xırmanında bir qədər hərəkət olsa da, namazın vacib əməllərini yerinə yetirmək mümkünsə namaz qılmaq olar.

Məsələ 807: Külək, yağış və ya izdihamın sıxıntısı səbəbindən namazın düzgün yerinə yetirilməsinə şübhə yarandıqda, namazı başa vurmaq ümidi ilə başlayıb maneəsiz başa çatdırsa, namaz düzgündür.

Məsələ 808: Əgər bir yerdə dayanmaq haramdırsa (Məsələn, uçmaqda olan bir yerdə) orada namaz qılınmamalıdır. Namaz qılınarsa belə, vacib ehtiyat budur ki, həmin namaz təzələnsin. Eləcə də üzərində dayanmaq və oturmaq haram olan bir yerdə (məsələn, Allahın adı yazılmış xalça üzərində) namaz qılmağın hökmü yuxarıdakı kimidir.

Üçüncü şərt:

Namazın vacib şərtlərini yerinə yetirməyin mümkünlüyü

Məsələ 809: Namaz elə bir yerdə qılınmalıdır ki, onun vacib şərtlərini yerinə yetirmək mümkün olsun. Əgər bir yer alçaq olduğundan ayaq üstə düz dayanmaq mümkün deyilsə və ya rükuya, səcdəyə getmək olmursa, belə bir yerdə namaz batildir.

Məsələ 810: Namaz qılan şəxs ədəbə riayat edərək Peyğəmbər və mə'sum imamların qəbrindən öndə dayanmamalıdır. Əgər onun namazı müqəddəsliklərə hörmətsizlik sayılarsa, haramdır və belə bir namaza irad var. Başqa hallarda isə namaz batil olur.

Dördüncü şərt:

Kişinin qadından öndə dayanması

Məsələ 811: Namazda qadın kişidən arxada dayanmalıdır. Qadının səcdə yeri kişinin səcdə yerindən bir qədər arxada olmalıdır. Əks təqdirdə namaz batildir. Bu hökmdə məhrəm və naməhrəmlər arasında fərq qoyulmur. Amma əgər qadın və kişi arasında divar və ya pərdə olarsa, eləcə də onlar arasındakı məsafə təqribən beş metrə çatarsa, bunun eybi yoxdur.

Məsələ 812: Əgər qadın kişidən öndə dayandığı vəziyyətdə birlikdə namaza başlasalar, hər ikisinin namazı batildir. Amma biri namaza başladıqdan sonra o biri qoşularsa, birincinin namazı düzgündür, ikincinin namazı batildir.

Beşinci şərt:

Səcdə yerinin oturulan yerdən hündür olmaması

Məsələ 813: Namaz qılanın alnını qoyduğu yer onun durduğu yerdən o qədər hündür olmamalıdır ki, səcdə forması pozulsun. Vacib ehtiyat budur ki, səcdə yeri oturulan yerdən dörd bağlı barmaqdan artıq hündür və ya alçaq olmasın.

Məsələ 814: Kişinin naməhrəm qadınla başqalarının daxil ola bilmədiyi xəlvət bir yerdə olmasının eybi var və vacib ehtiyat budur ki, bu hal yaranmasın. Belə bir yerdə namaz qılmağın da eybi var. Eləcə də, şərab içilən, qumar oynanılan, qeybət edilən günah məclisləri kimi yerlərdə namaz qılınmasına irad var.

Məsələ 815: Vacib ehtiyat budur ki, Kə'bə evində (Kə'bənin daxilində) vacib namaz qılınmasın. Amma orada müstəhəb namaz qılmaq olar. Hətta müstəhəbdir ki, Kə'bənin daxilində hər künc qarşısında iki rəkət namaz qılınsın. Kə'bənin üzərində isə həm vacib, həm də müstəhəb namaz qılmağın eybi var.

Namaz qılınması üçün müstəhəb və ya məkruh olan yerlər

Məsələ 816: Namazın məsciddə qılınması müstəhəbdir və bu məsələ xüsusi vurğulanır. Namaz üçün Məscidül-Həram, sonra Məscidün-Nəbi, sonra Kufə məscidi, sonra Beytül-Müqəddəs məscidi, sonra şəhərin Came məscidi, sonra isə məhəllə və bazar məscidi üstün sayılır.

Məsələ 817: Qadınların özlərini naməhrəmdən yetərincə qoruya biləcəyi halda onların məsciddə namaz qılması daha yaxşıdır. Əgər dini məsələləri öyrənmək üçün məscidə getməkdən savayı yol yoxsa, onların məscidə getməsi vacibdir.

Məsələ 818: İmamların hərəmində namaz qılmaq müstəhəbdir. Hətta hədisdə bildirilir ki, Əmirəl-mö'mininin (ə) pak hərəmində qılınan namaz iki yüz min namaza bərabərdir.

Məsələ 819: Namaz qılanı olmayan məscidə getmək müstəhəbdir. Məscidin qonşuları üzürsüz səbəbdən məsciddə namaz qılmağı tərk etməsinlər.

Məsələ 820: Yaxşı olar ki, insan məscidə e'tinasızlıq səbəbindən getməyənlərlə dostluq rabitəsi qurmasın. Onlarla bir süfrəyə əyləşməmək, hər hansı işdə məsləhətləşməmək, onlardan qız almamaq, onlara qız verməmək daha yaxşıdır.

Məsələ 821: Yaxşı olar ki, bir neçə yerdə namaz qılınmasın: Hamam, şoran torpaq, oturmuş və ya dayanmış insanın qarşısında, açıq qapının qarşısında, yollarda, get-gələ mane olacaq təqdirdə küçələrin kənarında. Əgər küçənin kənarında namaz qılınması insanlara əziyyət yaradarsa bu iş haramdır. Eləcə də od qarşısında, çıraq önündə, mətbəxdə, od kürəsi olan yerdə, quyu qarşısında, kanalizasiya axan quyu qabağında, ruhu olan əkslərlə üzbəüz namaz qılmamaq daha yaxşıdır. Amma bu əkslərin önündə pərdə olarsa eybi yoxdur. Namaz qılanla üz bəüz olmasa da əks olan yerdə, qəbirlərin önündə, qəbir üstündə, qəbristanlıqda, cənabətli şəxs olan otaqda namaz qılmamaq yaxşıdır.

Məsələ 822: Əgər insanın namaz qıldığı yerdə onun qarşısında get-gəl olarsa, araya bir şey qoymaq müstəhəbdir. Araya əsa, təsbih, hətta bir ip qoymaq bəs edər.

Məscidin hökmləri

Məsələ 823: Məscidi murdarlamaq haramdır. Məscidin yerinin, tavanının, damının, divarının iç tərəfinin murdarlanması bu qəbildəndir. Vacib ehtiyat budur ki, məscidin divarının çöl tərəfi də murdarlanmasın. Amma əgər divarın çölü vəqfdən sayılmazsa eybi yoxdur.

Məsələ 824: Məscid murdarlandıqda onu təmizləmək həm bir şəxsə kifayi vacibdir. Yə'ni bir nəfər bu işi görərsə, o birilərin öhdəsindən götürülər. Əks təqdirdə hamı günahkardır. Məscidi murdarlayan şəxs bu hökmdə başqalarından fərqlənmir.

Məsələ 825: Məsələn, bir şəxs müsafir olduğundan məscidi təmizləyə bilməsə və ya köməyə ehtiyac olduğu halda köməyi olmasa, vacib ehtiyat budur ki, məscidi paklaya biləcək şəxslərə bu barədə mə'lumat versin.

Məsələ 826: Əgər məscidin elə bir yeri murdarlanarsa ki, oranı qazmadan və ya uçurmadan təmizləmək mümkün olmasın, bu iş görülməlidir. Vacib ehtiyata əsasən, qazılmış yeri doldurmaq, uçurulmuş yeri düzəltmək lazımdır. Yaxşı olar ki, uçurulmuş yeri məscidi murdarlayan şəxs tə'mir etsin. Bu işin xərci olarsa, vacib ehtiyata əsasən, həmin şəxs zamindir.

Məsələ 827: Əgər məscid qəsb olunsa və ya məscid görkəmindən çıxarılsa, hətta ona məscid deyilməsə, yenə də oranı murdarlamaq ehtiyata əsasən haramdır və murdarlanmış yeri paklamaq lazımdır.

Məsələ 828: Peyğəmbər və mə'sum imamların hərəmini bulaşdırmaq hörmətsizlik sayılarsa, bu iş haramdır. Belə bir halda oranı təmizləmək vacibdir. Hətta hörmətsizlik olmazsa, ehtiyat budur ki, həmin yer təmizlənsin.

Məsələ 829: Məscidin xalçasını da murdarlamaq haramdır. Əgər xalça murdarlanarsa, onu paklamaq lazımdır. Bu işin xərci olsa xalçanı murdarlamış şəxs zamindir. (Vacib ehtiyata əsasən.)

Məsələ 830: Məscidə qan və sidik kimi murdar şeylər daxil etmək haramdır. Vacib ehtiyata əsasən, bu iş hörmətsizlik sayılmasa belə yol verilməzdir. Amma bir şəxsin libasında və ya bədənində, eləcə də bir körpənin libasından məscidə daxil edilən cüzi murdarlığın eybi yoxdur. Amma murdarlanmış bir şeyi (Məsələn, libası) hörmətsizlik sayılmayacağı halda, eləcə də məscidin bulaşmasına səbəb olmadığı təqdirdə məscidə daxil etmək haram deyil .

Məsələ 831: Əgər rövzə oxunması, əzadarlıq keçirilməsi, bayram mərasimlərinin qurulması üçün məsciddə çadır qurub qara çəksələr, oraya çay və yemək ləvazimatı aparsalar, bu iş məscidə zərər vurmasa və namaza mane olmasa, eybi yoxdur.

Məsələ 832: Məscidi qızılla bəzəməyin eybi var. Ehtiyat budur ki, insan və heyvan kimi ruhu olan şeylərin əksi məscidə vurulmasın.

Məsələ 833: Əgər məscid dağılsa, onun torpağını satmaq, mülk və yol üçün istifadə etmək olmaz. Məscidin hətta qapı-pəncərələrini satmaq haramdır. Məscid uçulduqda onun müxtəlif ləvazimatlarını özünə sərf etmək lazımdır. Əgər həmin məsciddə ehtiyac duyulmasa, uyğun şeyləri başqa məscidə sərf etmək olar. Əgər başqa məscidlərin də karına gəlməsə, onları satıb pulunu həmin məscidin, ya da başqa məscidin tə'mirinə xərcləmək olar.

Məsələ 834: Məscid tikmək müstəhəbdir. Müsəlmanların daha çox istifadə edə biləcəyi münasib yerdə məscid tikmək daha yaxşıdır. Məscidi tə'mir etmək də müstəhəbdir. Bu iş ən yaxşı işlərdən sayılır. Əgər məscid çox dağılsa və onu tə'mir etmək mümkün olmasa, yeni məscid tikmək olar.

Məsələ 835: Uçulmamış məscidi genişləndirmək lazım gələrsə onu söküb daha yaxşı və daha böyüyünü tikmək olar.

Məsələ 836: Məscidi təmizləmək, işıqlandırmaq, məsciddə zəruri işləri görmək müstəhəbdir. Eləcə də məscidə getmək istəyən şəxsin ətirlənməsi, pak libaslar geyməsi, ayaqqabısının altını təmiz olsun deyə nəzərdən keçirməsi müstəhəbdir. Məscidə sağ ayaqla daxil olub, sol ayaqla çıxmaq, məscidə tez gəlib, məsciddən gec çıxmaq daha yaxşıdır.

Məsələ 837: Məscidə daxil olarkən ehtiram niyyəti ilə iki rəkət namaz qılmaq müstəhəbdir. Başqa vacib və ya müstəhəb namaz qılınsa da bəs edər.

Məsələ 838: Məsciddə yatmaq, dünya işləri barədə danışmaq, nəsihətamiz olmayan şe'rlər oxumaq məkruhdur, bəyənilmir. Eləcə də məscidi ağız, burun və sinə suyu ilə bulamaq, səsi qaldırmaq, hay-küy salmaq, məscidin hörmətinə yaraşmayan işlər görmək məkruhdur.

Məsələ 839: Körpələri və divanələri məscidə buraxmaq məkruhdur. Amma körpələr maneçilik yaratmasalar, onları məscid və namaza həvəsləndirmək üçün oraya gətirmək müstəhəbdir. Bə'zən isə bu vacib olur.

Məsələ 840: Sarımsaq, soğan və bu kimi şeylər yemiş, ağzının qoxusu insanları narahat edəcək şəxsin məscidə getməsi məkruhdur.

Azan və iqamə

Məsələ 841: Yövmiyyə namazlarından öncə azan və iqamə söyləmək müstəhəbdir. Yaxşı olar ki, bu iş tərk edilməsin. Xüsusilə iqamənin söylənməsi müstəhəbdir. Amma Fitr və Qurban bayram namazlarında, digər vacib namazlarda azan və ya iqaməyə ehtiyac yoxdur. Bu namazlarda Allahın razılığı ümidi ilə üç dəfə "Əs-səlat" demək olar. Müstəhəbdir ki, təbərrük və savab ümidi ilə körpə dünyaya gələn gün və ya göbək sarğısı düşdükdən sonra sağ qulağına azan, sol qulağına iqamə söylənsin.

Məsələ 842: Azan on səkkiz cümlədən ibarətdir:

اَللهُ اَکبَر

1. “Allahu əkbər” dörd dəfə deyilir (“Allah vəsf olunan hər şeydən böyükdür).”

اَشهَدُ اَن لاَ اِلهَ الاّ اللهُ

2. “Əşhədu ənla ilahə illəllah” iki dəfə söylənilir (“Şəhadət verirəm ki, yeganə Allahdan başqa mə’bud yoxdur”).

اَشهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ الله

3. “Əşhədu ənnə Muhəmmmədən rəsulullah.” İki dəfə deyilir (“Şəhadət verirəm ki, Məhəmməd Allahın rəsuludur”).

حَیَّ عَلَی الصّلوةِ

4. “Həyyə ələs-səlat” iki dəfə deyilir (“Tələs namaza doğru.”)

حَیَّ عَلَی الفَلاَحِ

5. “Həyyə ələl-fəlah” iki dəfə deyilir (“Tələs qurtuluşa doğru.”)

حَیَّ عَلَی خَیرِ الْعَمَلِ

6. “Həyyə əla xeyril-əməl” iki dəfə deyilir (“Tələs əməllərin ən xeyirlisinə, namaza.”)

اَللهُ اَکبَر

7. “Allahu əkbər” iki dəfə deyilir (“Allah vəsf olunası hər şeydən böyükdür.”)

لاَ اِلَهَ اِلاّ الله

8. “La ilahə illəllah” iki dəfə deyilir (“Yeganə Allahdan savayı mə’bud yoxdur.”)

İqamə on yeddi cümlədir. İqamə ilə azan arasındakı fərq bundan ibrətdir ki, iqamənin başlanğıcında: “Allahu əkbər” iki dəfə deyilir, sonunda “La ilahə illəllah” bir dəfə deyilir. Bundan əlavə, “Həyyə əla xeyril-əməl” dedikdən sonra iki dəfə “Qəd qamətis-səlat” söylənilir. (“Namaz bərpa oldu.”)

Məsələ 843: “Əşhədu ənnə Əliyyən vəliyyullah” (“Şəhadət verirəm ki, Əli Allahın bütün xalq üçün vəlisidir”) cümləsi azan və iqamənin əsas mətnindən deyil. Amma “Əşhədu ənnə Muhəmmədən rəsulullah” söylədikdən sonra təbərrük məqsədi ilə onu azan və iqamədən saymamaqla demək olar.

Hansı hallarda azan deyilmir

Məsələ 844: Beş halda azan söylənilmir və vacib ehtiyata əsasən, onu tərk etmək lazımdır:

1.Cümə günü ikindi namazının azanı. Bu namaz cümə namazı ilə birgə qılınır.

2. Ərəfə günü ikindi namazının azanı. Bu namaz Zilhiccənin **9**-cu günü günorta namazı ilə qılınır.

3. Qurban bayramı gecəsi Məş’ərül-Həramda olan şəxs üçün xiftən namazının azanı. Bu namaz şam namazı ilə birlikdə qılınır.

4. İkindi namazını günorta namazının, xiftən namazını şam namazının arxasınca dərhal qılmalı olan istihazəli qadın üçün.

5. Sidik və nəcisini saxlaya bilməyən şəxs üçün ikindi və xiftən namazlarının azanı.

Ümumiyyətlə, özündən əvvəlki namazla ardıcıl qılınan namaz üçün azan deyilmir. Onlar arasında nafilə və tə'qibat kimi fasilənin olması bəs etmir. Amma hər bir namaz öz fəzilətli vaxtında qılınarsa hər ikisinin azan və iqaməsini söyləmək müstəhəbdir.

Məsələ 845: Camaat namazında bir nəfər azan və iqamə söyləyərsə, başqaları üçün də kifayat edər. Başqaları vacib ehtiyata əsasən, belə vaxtlarda azan və iqaməni tərk etməlidir.

Məsələ 846: Bir şəxs camaat namazı qılmaq üçün məscidə getsə və camaat namazının başa çatdığını görsə, namazın cərgələri pozulmayan halda ehtiyat budur ki, öz namazı üçün azan və iqamə deməsin. Bir şərtlə ki, öncəki cəmiyyət namazında azan və iqamə deyilmiş olsun.

Məsələ 847: Bir qrup şəxs camaat namazına məşğul ikən və ya bu namazı yenicə bitirdikləri vaxt onların cərgələri dağılmamış başqa bir şəxs fərdi və ya camaatla namaz qılmaq istəsə, azan və iqamə söyləmir. Bir şərtlə ki, öncəki namaz üçün azan və iqamə deyilsin, bu namaz düzgün olsun, hər iki namaz bir məkanda, vaxtında (əda), eyni vaxtda və məsciddə olsun.

Məsələ 848: Müstəhəbdir ki, başqa birinin dediyi azanı eşidən şəxs onun hər cümləsini təkrarlasın. Savab ümidi ilə iqaməni də təkrarlamaq müstəhəbdir. (Bu təkrarlama azan və iqamənin "hekayati" adlanır.)

Məsələ 849: Əgər kişi qadının söylədiyi azanı eşidərsə azan söyləmək onun öhdəsindən götürülməz. Amma qadın kişinin söylədiyi azanı eşidərsə, azan söyləmək öhdəsindən götürülər.

Məsələ 850: Kişilərin və qadınların iştirak etdiyi camaat namazında azan və iqaməni kişi söyləməlidir. Qadınların camaat namazında isə qadının söylədiyi azan və iqamə bəs edər.

Məsələ 851: Əgər azan və iqamənin sözləri qarışıq şəkildə deyilsə, məsələn, əvvəlcə "Əşhədu ənnə Muhəmmədən rəsulullah" sonra "Əşhədu ənla ilahə illəllah" söylənilsə, əvvələ qayıdıb ardıcıllığı gözləmək lazımdır.

Məsələ 852: Azan və iqamə arasında uzun fasilə verilməməlidir. Əgər elə bir fasilə verilsə ki, iqamə azanın ardınca deyilmiş sayılmasın, onu yenidən demək lazımdır.

Məsələ 853: Azan və iqamə aydın ərəb dilində söylənilməlidir. Əgər ərəb mətnində səhvə yol verilsə və ya mətnlərin tərcüməsi söylənilsə düzgün deyil.

Məsələ 854: Namazın vaxtı daxil olmamış azan və iqamə söyləmək olmaz. Əgər namazın vaxtı daxil olmamış azan və iqamə söylənilsə batildir.

Məsələ 855: Əgər bir şəxs iqaməni deməzdən öncə şəkk etsə ki, azan deyib yoxsa yox, azanı söyləsin. Əgər iqaməni deməyə başlayıbsa şəkkinə

əhəmiyyət verməsin. Amma azan və iqamənin cümlələrini düzgün dediyinə şəkk etsə, ehtiyat budur ki, yenidən söyləsin.

Məsələ 856: Azan deyərkən üzü qibləyə əyləşmək, dəstəmazlı olmaq, səsi qaldırmaq, səsi uzatmaq, cümlələr arasında azca fasilə buraxmaq, arada danışmamaq müstəhəbdir.

Məsələ 857: Yaxşı olar ki, insan iqamə deyən zaman bədənini aram saxlasın, iqaməni azandan asta söyləsin, cümlələr arasında azca fasilə buraxsın, azan və iqamə arasında ya bir addım atsın, ya azca otursun, ya səcdəyə getsin, ya dua oxusun, ya da iki rəkət namaz qılsın.

Məsələ 858: Azan üçün ədalətli, vaxtı tanıyan, səsi münasib və uca olan bir şəxs seçilsə daha yaxşıdır. Yaxşı olar ki, azan uca bir yerdən söylənilsin. Amma səs ucaldıcı varsa, azanı uca yerdən deməmək olar.

Məsələ 859: Radio və bu kimi başqa xətlərdən azan eşitmək bəs etmir, namaz qılanın özünün yuxarıdakı şərtlər ödənməklə azan söyləməsi nəzərdə tutulur.

Məsələ 860: Günah məclislərə münasib haram musiqi tonunda azan söyləmək haram və batildir.

Məsələ 861: Vacib ehtiyat budur ki, azan həmişə namaz məqsədi ilə deyilsin. Namazı nəzərdə tutmadan yalnız vaxtın daxil olmasını bildirmək üçün azan deyilməsinə irad var.

Namazın vacib şərtləri

Məsələ 862: Namazın on bir vacib şərti var: Niyyət; "Təkbirətül-ehram" ("Allahu əkbər" söyləmək); qiyam (farağat vəziyyətdə dayanmaq); qiraət; rüku; səcdələr; rüku və səcdənin zikrləri; təşəhhüd; salam; tərtib (ardıcıllıq); movalat (fasiləsizlik);

Məsələ 863: Namazın vacib şərtləri iki qismə bölünür: Rükn (əsas) şərtlər və rükn olmayan şərtlər. Rükn sayılan şərtlər yerinə yetirilmədikdə və ya artırılıb-əskildildikdə namaz batil olur. Bu işin bilərəkdən və ya səhvən baş verməsi şərt deyil. Rükn olmayan şərtlər isə bilərəkdən yerinə yetirilmədikdə və ya artırılıb-əskildildikdə namaz batil olur. Bu şərtlər bilmədən pozulduqda namaz batil olmur.

Məsələ 864: Namazın beş rüknü (əsası) var: Niyyət; təkbirətül-ehram; qiyam (təkbirətül-ehram deyərkən, rükuya bağlı qiyam, yə'ni rükudan qabaq qiyam vəziyyətində dayanmaq; rüku; səcdələr.) Niyyətdə artıqlıq təsəvvür olunmur. Təkbirətül-ehram da bilmədən artırılarsa namaz batil olmaz. Amma müstəhəb ehtiyat budur ki, belə olsa təkrarlansın.)

1. Niyyət

Məsələ 865: Namaz Allaha yaxınlaşmaq, Onun əmrini yerinə yetirmək məqsədi ilə icra olunmalıdır. Niyyəti dilə gətirmək və ya namazdan öncə

qəlbdən keçirmək vacib deyil. Əgər namaza dayanan şəxsdən nə etdiyini soruşduqda Allaha xatir namaz qıldığını söyləyərsə, bəs edər.

Məsələ 866: Niyyət edərkən hansı namazın qılındığını nəzərdə tutmaq lazımdır. Təkcə dörd rəkət namaz niyyət edilsə kifayat deyil. Qılınacaq namaz niyyətdə müəyyənləşməlidir. Vacib ehtiyat budur ki, namazın qəza və ya əda olması da müəyyənləşsin.

Məsələ 867: Niyyət namazın sonunadək gücündə qalmalıdır. Əgər insan namaz gedişində nə etdiyini bilməzsə namaz batildir.

Məsələ 868: Bir şəxs riya üçün, yə'ni özünü başqalarına göstərmək məqsədi ilə namaz qılıb ibadət edərsə, həm ibadəti batildir, həm də kəbirə günaha yol vermişdir. Əgər həm Allahı, həm də xalqı nəzərdə tutarsa, yenə də əməli batildir, kəbirə günah etmişdir.

Məsələ 869: Əgər namazın bir hissəsi riyakarlıqla icra olunarsa namaz yenə batildir. Həmin hissəni vacib və ya müstəhəb olmasının fərqi yoxdur. (Vacib ehtiyata əsasən).

Məsələ 870: Bir şəxs namazı Allaha xatir qıldığı halda riya üçün, özünü camaata göstərmək məqsədi ilə məscidə gedib cəmiyyət namazında iştirak edərsə, namazı batildir. Amma məqsədi namazı ilk vaxtında qılmaq və ya məsciddə qılmağın rahatlığıdırsa, bunun eybi yoxdur.

2. Təkbirətül-ehram

Məsələ 871: Namazın ilk hissəsi "təkbirətül-ehram" adlanır. Təkbirətül-ehram dedikdə "Allahu əkbər" söylənilməsi nəzərdə tutulur. Təkbirətül-ehramı bilərəkdən və ya səhvən tərk etmək namazı batil edir. Amma onu bilərəkdən artırmaq, məsələn, bir dəfə yox, iki dəfə "Allahu əkbər" söyləmək bilərəkdəndirsə, namazı batil edir.

Məsələ 872: "Allahu əkbər" cümləsi də namazın digər zikrləri kimi aydın ərəbcə söylənilməlidir. Bu sözlərin ərəbcə səhv söylənilməsi və ya tərcüməsinin deyilməsi bəs etmir.

Məsələ 873: "Təkbirətül-ehram" deyərkən bədən aram olmalıdır. Addım atan vəziyyətdə "Allahu əkbər" söylənilsə batildir. Səhvən belə edərsə, vacib ehtiyat budur ki, namazı pozacaq bir iş görsün (Məsələn, üzünü qiblədən çevirsin və yenidən təkbir söyləsin.)

Məsələ 874: Namazın təkbiri, Həmd-surəsi, başqa zikrləri elə deyilməlidir ki, (maneçilik olmasa) ən azı namaz qılan özü bunu eşitsin.

Məsələ 875: Əgər bir şəxs xəstəlik və ya lallıq səbəbindən təkbir deyə bilməzsə, bacardığı şəkildə deməlidir. Təkbir deməyə heç bir imkanı olmayan şəxs vacib ehtiyata əsasən, bunu işarə ilə həyata keçirməlidir. Cəmiyyətdə kar və lal kimi tanınan kəs dili ilə bacardığı kimi deməli və qəlbindən keçirməlidir.

Məsələ 876: "Təkbirətül-ehram"dan sonra savab ümidi ilə bu duanı oxumaq müstəhəbdir:

يَامُحسِنُ قَد اَتَاكَ المُسيئُ وَقَد اَمَرتَ المُحسِنَ اَن يَتَجاوَزَ عَنِ المُسيئِ اَنتَ المُحسِنُ وَاَنَا المُسِيئُ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَتَجاوَزْ عَن قَبِيحِ مَاتَعلَمُ مِنِّى

"Ya muhsinu qəd ətakəl-musiu və qəd əmərtəl-muhsinə ən yətəcavəzə ənil-musii əntəl-muhsinu və ənəl-musiu bihəqqi Muhəmmədin və ali Muhəmmədin səlli əla Muhəmmədin və ali Muhəmməd və təcavəz ən qəbihi ma tələmu minni"

Tərcüməsi: "Ey ehsan edən Allah! Günahkar bəndən qapına gəlmiş. Əmr etmisən ki, ehsan əhli günahkarı bağışlasın. Sən ehsan edənsən, mən isə günahkar. Məhəmməd və Ali-Məhəmməd hörmətinə, Məhəmməd və Ali-Məhəmmədə salam göndər və bildiyin pis işlərimi bağışla!"

Məsələ 877: Müstəhəbdir ki, namazda "təkbirətül-ehram" və digər təkbirləri deyərkən əllər qulaq bərabərinədək qaldırılsın.

Məsələ 878: Bir şəxs şəkk etsə ki, "təkbirətül-ehram" söyləyib yoxsa yox, "Həmd" söyləməyə başlamışsa şəkkinə əhəmiyyət verməsin. Əgər hələ ki, heç nə deməyibsə, təkbiri söyləsin. "Təkbirətül-ehram"ı düzgün deyib-demədiyinə şəkk etdikdə bu şəkk təkbirdən sonra yaranmışsa ona əhəmiyyət verməsin.

3. Qiyam

Məsələ 879: Qiyam dedikdə "təkbirətül-ehram" vaxtı və rükudan öncə farağat dayanmaq nəzərdə tutulur. Bu qiyam vacib və rüküdür. Həmd-surə oxunarkən, eləcə də rükudan sonrakı qiyamlar vacibdir, amma rükn deyil.

Məsələ 880: Bir şəxs rüknü unutsa və Həmd-surədən sonra otursa, rüku etmədiyi yadına düşsə, ayağa qalxıb rükunu yerinə yetirməlidir. Amma əyilmiş vəziyyətdən rüku halını alsa, rükuya bağlı qiyamı yerinə yetirmədiyindən namazı batildir.

Məsələ 881: Qiyam zamanı bədən və ayaqlar hərəkət etməməlidir. Bir tərəfə əyilmək və ya nəyəsə söykənmək də olmaz. Amma zərurət səbəbindən bu halların eybi yoxdur.

Məsələ 882: Əgər həmd-surə üçün qiyam halında unudub bədənini və ayaqlarını tərpətsə, eləcə də bir tərəfə əyilsə namazı batil deyil. Amma "təkbirətül-ehram" və rükuya bağlı qiyam zamanı hərəkət etsə vacib ehtiyata əsasən, namazını tamamlayıb yenidən qılmalıdır.

Məsələ 883: Qiyam zamanı bir ayaq üstə dayanmağa irad var. Amma bədənin ağırlığını hər iki ayağa bərabər şəkildə salmaq vacib deyil.

Məsələ 884: Əgər ayaqlarını çox aralı qoymaqla farağat halından çıxsa, namazı batildir. Amma zərurət səbəbindən eybi yoxdur.

Məsələ 885: Namazda bir qədər irəli getmək və ya geri çəkilmək istədikdə eləcə də, sağa və ya sola hərəkət etmək lazım gəldikdə, bir şey deməməlidir. Amma "Bi həvlillahi və quvvətihi əqumu və əqud" zikri ayağa qalxarkən deyilməlidir.

Məsələ 886: Namazın vacib zikirləri zamanı da bədən aram dayanmalıdır. Vacib ehtiyat budur ki, müstəhəb zikirlərdə də bu şərtə əməl edilsin.

Məsələ 887: Əgər hərəkət halında zikr desə, məsələn, rükuya və ya səcdəyə gedərkən təkbir deyərsə, ehtiyat budur ki, namazını yenidən qılsın. Amma qəsdi sırf zikr etmək olsa eybi yoxdur. Yə'ni məqsədi səcdədən öncəki zikr yox, sadəcə zikr olsa.

Məsələ 888: Əgər həmd-surənin qiraəti zamanı və ya təsbihat söyləyərkən ixtiyarsız olaraq farağat halını pozacaq hərəkət etsə, məsələn, cəmiyyət arasında ona tənə vurub itələsələr, vacib ehtiyat budur ki, bədəni aramlaşdıqdan sonra hərəkət zamanı dediklərini bir daha desin.

Məsələ 889: Namaz arasında dayana bilməsə oturmalıdır, otura da bilməsə, uzanmalıdır. Amma bədəni aramlaşanadək bir şey deməməlidir.

Məsələ 890: Ayaq üstə namaz qıla bilməyən şəxs oturub qılmalıdır. Amma əsa və ya divara söykənməklə, ayaqlarını aralı qoymaqla dayana bilirsə, dayanıb namaz qılmalıdır. Bu iş məşəqqətə səbəb olarsa oturub namaz qıla bilər. Eləcə də, oturaq vəziyyətdə bir şeyə söykənərək namaz qıla bildikdə uzanıb qılmamalıdır. Oturub qıla bilmirsə, sağ tərəfi üstə uzanıb qılmalıdır. Bu vaxt bədənin ön hissəsi qibləyə olmalıdır. Sağ tərəfi üstə uzana bilmədikdə sol tərəfi üstə uzanıb qılmalıdır. Bu da mümkün olmadıqda, arxası üstə uzanıb qıla bilər. həmin vaxt ayaqlarının altı üzü qibləyə olmalıdır.

Məsələ 891: Bir şəxs namazın bir hissəsini ayaq üstə qıla bilərsə həmin qədərini ayaq üstə qılması vacibdir. Qalan hissəsini əyləşib qıla bilər. Bu da mümkün olmasa uzanıb qılsın.

Məsələ 892: Bir şəxs zəiflikdən namazını uzanıb qılarsa, namazın gedişində qalxıb otura bilsə, həmin həddə oturaq vəziyyətdə qılmalıdır. Oturaq vəziyyətdə qıldığı vaxt ayağa qalxa bilərsə, bacardığı qədər ayaq üstə qılmalıdır. Amma bədən aramlaşanadək zikr deməməlidir.

Məsələ 893: Bir şəxs namazın son vaxtınadək ayaq üstə namaz qıla biləcəyini ehtimal edərsə, vacib ehtiyata əsasən, namazını əvvəl vaxtda qılmamalıdır.

Məsələ 894: Əgər ayaq üstə namaz qılmağa gücü varkən bunun zərərli olduğunu ehtimal verərsə, eləcə də bu səbəbdən xəstəliyinin uzun çəkəcəyini düşünərsə, oturub namaz qılmalıdır. Bu da zərərli olsa uzanmış vəziyyətdə namaz qıla bilər.

Məsələ 895: Yaxşı olar ki, ayaq üstə olduğu vaxt qamətini düz saxlasın. Çiyinlərini aşağı buraxsın, əllərini budlarının üzərinə qoysun, barmaqlarını bir-birinə yapışdırsın, bədəninin ağırlığını bərabər şəkildə iki ayağına salsın. Həmin vaxt səcdə yerinə baxsın, xüzu, xüşulu (qəlbən və cismən təvazökar) olsun. Kişilər ayaqlarını bir qədər aralı, qadınlar isə bitişik saxlamalıdır.

4.Qiraət

Məsələ 896: Gündəlik vacib namazların birinci və ikinci rəkətində "təkbirətül-ehram"dan sonra Həmd-surəsi oxunmalıdır. "Həmd"dən sonra vacib ehtiyata əsasən, Qur'ani-Məcidin surələrindən biri tam şəkildə oxunmalıdır. "Həmd"dən sonra hər hansı surədən bir neçə ayə oxumaq bəs etməz. Nəzərdə saxlamaq lazımdır ki, "Fil" və "Qüreyş", eləcə də "Züha" və "Şərh" surələri namazda bir surə sayılır.

Məsələ 897: Vaxt dar olanda, oğru və ya yırtıcı qorxusu olanda, yalnız "Həmd"i oxumaq bəs edər. Tələsik bir iş olanda da surəni oxumamaq mümkündür.

Məsələ 898: "Həmdi" surədən qabaq oxumaq vacibdir. Bir şəxs bilərəkdən bu qaydanı pozsa namazı batildir. Əgər rükudan qabaq bu iş baş verərsə, yenidən və düzgün oxumaq lazımdır. Rükuya çatdıqdan sonra yada düşərsə, namaz düzgün sayılır. "Həmdi", surəni və ya hər ikisini unutduqda da bu hökm gücündədir.

Məsələ 899: Vacib namazda səcdə ayəsi olan surələrdən biri bilərəkdən oxunarsa, vacib ehtiyata əsasən, səcdəni yerinə yetirib qalxmaq və "Həmd", ardınca başqa surə oxumaq lazımdır. Namazı başa vurduqdan sonra isə bu namaz təzələnir. Əgər səcdə surəsini səhvən oxuyarsa, səcdə ayəsinə çatmazdan öncə başa düşdükdə həmin surəni tərk edib başqa surə oxumalıdır. Əgər yarıdan keçmiş olarsa ehtiyat budur ki, namazı təzələsin. Səcdə ayəsini oxuduqdan sonra başa düşərsə, yuxarıdakı qaydaya əməl etməlidir.

Məsələ 900: Müstəhəb namazlarda səcdə surələrini oxumaq olar. Bu halda səcdə ayəsindən sonra səcdə qılınır, sonra namaz davam etdirilir.

Məsələ 901: Müstəhəb namazlarda surəni oxumamaq olar. Hətta müstəhəb namaz nəzir vasitəsi ilə vacib olarsa da bu iş mümkündür. Amma xüsusi surələri olan müstəhəb namazlarda həmin namazın göstərişlərinə əməl edilməlidir.

Məsələ 902: Cümə gününün günorta namazında birinci rəkətdə "Həmd"dən sonra "Cumuə" surəsini, ikinci rəkətdə "Həmd"dən sonra "Munafiqun" surəsini oxumaq müstəhəbdir. Bu surələrdən birini oxumağa başlasa vacib ehtiyat budur ki, o biri surəyə keçməsin.

Məsələ 903: İstənilən bir namazda "İxlas" və ya "Kafirun" surəsindən digər bir surəyə keçməz olmaz. Yalnız cümə namazında "Cumuə" və "Munafiqun" surələrinin yerinə başqa bir surə oxunmuşsa, surənin yarısına çatmamış onu tərk edib "Cumuə" və "Munafiqun" surələrini oxumaq olar.

Məsələ 904: "İxlas" və "Kafirun" surələrindən başqa surələri yarıda saxlayıb başqa surə oxumaq olar. Bir şərtlə ki, həmin surənin ortasına çatmamış olsun.

Məsələ 905: Əgər surənin ("İxlas") bir hissəsini unutsa və ya vaxt dar olduğundan davam etdirə bilməsə, onu saxlayıb başqa bir surə oxuya bilər.

Saxlanılmış surənin yarıdan saxlanılmasının, İxlas və Kafirun olmasının fərqi yoxdur.

Məsələ 906: Kişilərin sübh, şam və xiftən namazlarında Həmd-surəni ucadan oxuması vacibdir. Onlar günorta və ikindi namazlarının Həmd-surəsini astadan oxumalıdırlar. Qadınlar günorta və ikindi namazının Həmd-surəsini astadan oxumalıdırlar. Onlar sübh, şam və xiftən namazlarının Həmd-surəsini həm ucadan, həm də astadan oxuya bilərlər. Amma əgər onların səsini naməhrəm eşidərsə, müstəhəb ehtiyat budur ki, Həmd-surəni astadan oxusunlar.

Məsələ 907: Həmd-surəni ucadan oxumaq zəruri olduğu vaxt bilərəkdən onun bir sözünü astadan oxumaq namazı batil edir. Eləcə də astadan oxumalı olduğu yerdə bir sözü ucadan oxuyarsa namazı batil olar.

Məsələ 908: Ucadan oxunmalı qiraəti bilərəkdən astadan, astadan oxunmalı qiraəti bilərəkdən ucadan oxuyan şəxsin namazı batildir. Amma məsələni bilmədiyindən və ya unutduğundan belə edərsə namazı düzgündür. Əgər məsələni öyrənməkdə səhlənkarlıq etmiş olarsa, vacib ehtiyata əsasən, namazı təzələməlidir.

Məsələ 909: Əgər Həmd-surə oxuduğu vaxt başa düşərsə ki, həmin hissəni göstərişin ziddinə olaraq ya uca, ya da astadan oxuyub, onu təkrar oxuması lazım deyil. Amma yaxşı olar ki, yenidən düzgün oxusun.

Məsələ 910: Bir şəxs namazın qiraət və zikrində səsini çox ucaldıb, qışqırsa, namazı batildir.

Məsələ 911: Namazın qiraət və zikrini düzgün oxumaq lazımdır. Bilməyən bunu öyrənməlidir. Amma düzgün tələffüzü öyrənə bilməyənlər namazı bacardıqları kimi qılmalıdır. Bu qəbil insanlar imkan daxilində namazını cəmiyyətlə qılmağa çalışmalıdır.

Məsələ 912: Namazın qiraət və zikrini səhlənkarlıq səbəbindən öyrənməyənlərin namazı batildir. Vaxt dar olduqda vacib ehtiyat budur ki, elələri namazını cəmiyyətlə qılsın. Cəmiyyətlə qılmaq imkanı olmasa, dar vaxtda qıldığı namaz düzgündür.

Məsələ 913: Vacib ehtiyata əsasən, namazın vacib göstərişlərini öyrətmək müqabilində pul almaq olmaz. Amma müstəhəb göstərişlərin öyrədilməsi ilahi hökmlərin hifzi sayılmasa, bunun müqabilində muzd almaq olar.

Məsələ 914: İnsan Həmd-surəni və ya digər zikirlərin mətnindən hər hansı bir sözü bilməsə, ya onun fəthə və kəsrəsini dəyişik salsa, ya bir hərfini başqa hərf kimi oxusa (məsələn, "Zad" hərfinin əvəzinə "za" oxusa) leksik baxımdan səhv olarsa, namaz batildir.

Məsələ 915: Əgər bir şəxs namazın mətnində bir söz və ya bir ayəni uzun müddət oxuduqdan sonra yanlış oxuduğunu başa düşərsə, namazını yenidən qılması vacib deyil. Amma müstəhəb ehtiyat budur ki, onu ya təzələsin, ya da qəzasını qılsın.

Məsələ 916: Vacib deyil ki, təcvid alimlərinin daha gözəl oxunuşla bağlı göstərişlərinə əməl edilsin. Amma elə oxumaq lazımdır ki, "ərəbcə düzgün oxudu" söylənilsin. Amma təcvid göstərişlərinə əməl etmək daha yaxşıdır.

Məsələ 917: Vacib ehtiyat budur ki, namazda hərəkələrdə vəqf olunmasın. Hərəkələrdə vəqf dedikdə sözün son hərəkəsinin deyilməsi, amma sözdən sonra fasilə verilməsi nəzərdə tutulur. Məsələn, "Allahu əkbəru" deyib bir müddət fasilədən sonra "Bismillah" başlanılmamalıdır. Namazda "sükunla vəslin", yə'ni son hərəkəni demədən fasilə verməməyin eybi yoxdur. Belə ki, "Allahu əkbər" sözünün son hərəkəsi deyilmir, eyni zamanda fasilə verilmədən sonrakı sözü oxunur.

Məsələ 918: Üç rəkətli və dörd rəkətli namazın üçüncü və dördüncü rəkətində insan həm Həmd oxuya bilər, həm də üç dəfə təsbihati-ərbəə ("Sübhanəllahi vəl həmdulillahi və la ilahə illəllahu vəllahu əkbər") deyə bilər. Bu cümləni bir dəfə də demək bəs edər. Üçüncü və dördüncü rəkətlərin birində Həmd oxuyub, o birində təsbihat demək olar.

Məsələ 919: Namazın üçüncü və dördüncü rəkətlərində Həmdi və ya təsbihati ərbəəni astadan demək vacibdir. Vacib ehtiyata əsasən, "Bismillah" da astadan deyilməlidir.

Məsələ 920: Bir şəxs namazın birinci və ya ikinci rəkətində onu üçüncü və ya dördüncü rəkət sayaraq Həmd-surə əvəzinə təsbihat desə, rükudan öncə başa düşsə Həmd-surə oxumalıdır. Əgər rüku vaxtı və ya rükudan sonra anlasa, namazı düzgündür, müstəhəb ehtiyata əsasən, iki səcdəyi-səhv yerinə yetirməlidir.

Məsələ 921: Əgər üçüncü və ya dördüncü rəkətdə Həmd oxumaq istədikdə dilinə təsbihat gəlsə, ya da təsbihat oxumaq istədiyi vaxt dilinə Həmd gəlsə, bəs etməz, yenidən nəzərdə tutduğunu oxumalıdır. Amma hər ikisini niyyətində tutmuşsa, hansı birini oxusa bəs edər.

Məsələ 922: Təsbihatdan sonra "Əstəğfirullahə rəbbi və ətubu iləyh" söyləmək müstəhəbdir. "Əstəğfirullah" əvəzinə "Allahummağfirli" söyləyə bilər.

Məsələ 923: Əgər rükuda və ya rükudan sonra şəkk etsə ki, təsbihatı deyib, yoxsa yox, bu şəkkə əhəmiyyət verməsin. Amma əgər rüku həddinədək əyilməyibsə, vacib ehtiyat budur ki, qayıdıb təsbihatı söyləsin.

Məsələ 924: Əgər namazda bir ayə və ya zikrdə şəkk etsə, onu düzgün deyənədək təkrarlamalıdır. Amma vəsvəsə həddinə çatarsa əhəmiyyət verməsin. Vəsvəsə həddinə çatmış şəkkə əhəmiyyət versə namazına irad var, vacib ehtiyata əsasən, yenidən qılmalıdır.

Məsələ 925: Müstəhəbdir ki, namazın birinci rəkətində Həmdi oxumağa başlamazdan öncə "Əuzu billahi minəş-şeytanir rəcim" söyləsin. Müstəhəbdir ki, imam-camaat "Bismillahir-rəhmanir-rəhim" cümləsini günorta və ikindi namazlarının birinci və ikinci rəkətində ucadan desin. Müstəhəbdir ki, namazda Həmd və surə, zikirlər dəqiq deyilsin, ayələr bir-

birinə birləşdirilməsin və onların mə'nasına diqqət yetirilsin. Namaz cəmiyyətlə qılınırsa imam Həmdi başa vurduqdan sonra savab ümidi ilə "Əlhəmdu-lillahi rəbbil-aləmin" deyilir. İxlas surəsi oxunduqdan sonra bir, iki və ya üç dəfə "Kəzalikəllahə rəbbi" və ya "Kəzalikəllahə rəbbuna" söyləmək müstəhəbdir.

Məsələ 926: Yaxşı olar ki, namazların birinci rəkətində Həmddən sonra "Qədr" surəsi, ikinci rəkətində Həmddən sonra "İxlas" surəsi oxunsun. Yaxşı olar ki, Həmddən sonra heç bir surə hər iki rəkətdə təkrarlanmasın. Yalnız "İxlas" surəsi təkrarlana bilər. Gündəlik yövmiyyə namazlarında başdan başa "İxlas" surəsini demək yaxşı deyil. Yaxşı olar ki, insanların diqqətini ehtiyac duyduqları problemlərə yönəldən, onları günahdan çəkindirən surələr seçilsin.

5. Rüku

Məsələ 927: Namazın hər rəkətində qiraətdən (Həmd-surədən) sonra rükuya getmək vacibdir. Rüku dedikdə əlləri dizə qoyacaq həddə əyilmək nəzərdə tutulur. Vacib ehtiyat budur ki, əllər dizlərə qoyulsun.

Məsələ 928: Əgər bir şəxsin qolları və dizi başqalarından fərqlidirsə, məsələn, qolları çox uzundur və azca əyildikdə dizlərinə çatır, bu şəxs adi həddə əyilməlidir.

Məsələ 929: Oturaq vəziyyətdə namaz qılan şəxs rükuda o qədər əyilməlidir ki, onun rükuya getdiyi söylənilsin.

Məsələ 930: İnsan rüku məqsədi ilə əyilməlidir. Belə bir niyyət olmadan əyildikdə onu rüku saymaq olmaz. İnsan ayaq üstə dayanmalı və rüku məqsədi ilə əyilməlidir.

Məsələ 931: Rükuda zikr demək vacibdir. Vacib ehtiyata əsasən, rükuda üç dəfə "Sübhanəllah" və ya bir dəfə "Sübhanə rəbbiyəl əzimi və bihəmdih" deyilməlidir. Bu zikrlər aydın ərəb dilində tələffüz olunmalıdır. Müstəhəbdir ki, bu zikirlər üç, beş və ya yeddi dəfə təkrarlansın.

Məsələ 932: Vacib zikri deyərkən bədən aram dayanmalıdır. Rükuda müstəhəb zikirləri deyərkən də bədən aram olmalıdır.

Məsələ 933: İnsan vacib zikr söylədiyi vaxt bir şəxs ona toxunsa və ya başqa bir səbəbdən bədəni hərəkətə gəlsə, yalnız aram dayandıqdan sonra zikri yenidən deməlidir. Amma azca hərəkətin eybi yoxdur.

Məsələ 934: Bir şəxs rüku səviyyəsinə çatmamış və bədəni aramlaşmamış rükunun zikrini desə, bədən aramlaşdıqdan sonra onu yenidən deməlidir. Hətta bilərəkdən belə etsə, ehtiyat budur ki, namazını təzələsin.

Məsələ 935: Vacib zikr başa çatmamışdan öncə bilərəkdən rükudan qalxarsa, namazı batildir. Əgər bilmədən qalxarsa, rükudan tam qalxmamış başa düşsə, bədəni aram halda yenidən zikr deməlidir. Rükudan qalxdıqdan sonra başa düşsə, namazı düzgündür.

Məsələ 936: Rüku həddində əyilə bilməyən şəxs bir şeyə söykənib rüku etsin. Bu da mümkün olmasa, bacardığı qədər əyilsin. Bu da mümkün olmasa, oturaq vəziyyətdə rükunu yerinə yetirsin. Bu da mümkün olmadıqda ayaq üstə işarə ilə rüku etsin. İşarə edə bilməyən kəs rüku niyyəti ilə gözünü yumsun, zikri dedikdən sonra rükudan qalxmaq niyyəti ilə gözünü açsın.

Məsələ 937: Bir şəxs xəstəlik və ya digər bir səbəbdən rüku edə bilməsə, rükunun vacib zikri həddində dayansın, rüku vəziyyətindən çıxmamışdan öncə zikri söyləsin. Bədəni aram olmasa da eybi yoxdur. Əgər bacarmasa, qalxan halda zikri tamamlasın.

Məsələ 938: Qocalıq səbəbindən bir şəxsin qəddi əyilmişsə, xəstəlik və ya başqa bir səbəbdən rüku halına oxşar haldadırsa, namazda qiraət üçün bacardığı qədər qəddini düzəltməli, bunu bacarmasa rükudan öncə belini bir qədər düzəldib sonra rüku vəziyyətini almalıdır. Bu da mümkün olmasa, rüku üçün bir qədər əyilsin. Bir şərtlə ki, rüku halından çıxmasın. Bu da mümkün olmadıqda ehtiyat budur ki, başı ilə işarə etsin və həmin halı rüku nəzərdə tutsun.

Məsələ 939: Rüku halı rükn vaciblərdəndir. Əgər rüku tərk olunsa və ya bir rəkətdə iki və ya daha artıq rüku yerinə yetirilsə, namaz batildir. Bunun bilərəkdən, səhvən və ya unutqanlıqdan baş verməsinin fərqi yoxdur.

Məsələ 940: Rüku başa çatdıqdan sonra düz vəziyyətdə dayanmaq vacibdir. Bədən aramlaşdıqdan sonra səcdə yerinə yetirilir. Rükudan sonra qiyam halı tərk olunsa, namaz batildir. Amma səhvən olsa eybi yoxdur.

Məsələ 941: Rüku yaddan çıxarsa, birinci səcdədən əvvəl, ya iki səcdə arasında, ya da alnı ikinci səcdəyə qoymamışdan öncə yada düşərsə, ayağa qalxmalı, sonra rükuya getməlidir.

Məsələ 942: Müstəhəbdir ki, rükuya getməzdən öncə ayaq üstü vəziyyətdə "Allahu əkbər" söylənilsin. Rükuda dizlər arxaya verilsin və bel düz saxlanılsın. Boynu çəkib bel bərabərində saxlamaq müstəhəbdir. Həmin vaxt iki qədəm arasına baxmaq, rükudan qalxıb düz dayanan zaman bədən aram vəziyyətdə "Səmiəllahu limən həmidəh" söyləmək müstəhəbdir.

Məsələ 943: Vacib və müstəhəb namazların rüku hökmləri arasında fərq oyxdur. Vacib ehtiyata əsasən, rükununu çoxluğu məsələsi də bu qəbildəndir.

6. Səcdələr

Məsələ 944: Vacib və müstəhəb namazların hər rəkətində iki səcdə yerinə yetirilməlidir. Səcdələr rükudan sonra yerinə yetirilir. Namaz qılan şəxs bilərəkdən və ya unutduğu üçün hər iki səcdəni ötürərsə və ya iki səcdə əvəzinə dörd səcdə qılarsa, namazı batildir. Amma səhvən olduqda, artıq və ya əskik bir səcdə namazı batil etmir.

Məsələ 945: Səcdədə bədənin yeddi hissəsi yerə toxunmalıdır: Alın, əllərin içi, dizlər, ayaqların böyük barmaqlarının başı. Əgər bilərəkdən bu

hissələrdən biri yerə toxunmasa, səcdə batildir. Əgər bilərəkdən alın səcdəyə qoyulmazsa yenə də səcdə batildir. Amma əgər alın səcdədə olduqda o biri üzvlərdən bə'zisi bilmədən yerdən qalxarsa səcdə düzgündür.

7. Rüku və səcdənin zikrləri

Məsələ 946: Rükuda zikr demək vacibdir. Vacib ehtiyata əsasən, rükuda ya üç dəfə "Sübhanallah", ya bir dəfə "Sübhanə rəbbiyəl əzimi vəbihəmdih" söylənilir. Səcdələrdə də zikr demək vacibdir. Ehtiyat budur ki, ən azı üç dəfə "Sübhanəllah" və ya bir dəfə "Sübhanə rəbbiyəl ə'əla və bihəmdih" deyilsin. Amma artıq deyilsə daha yaxşıdır.

Səcdənin hökmləri

Məsələ 947: Səcdə zamanı bədən səcdənin zikri deyilən həddə aram qalmalıdır. Hətta müstəhəb zikr zamanı da bu zikr səcdə üçün göstəriş verilmiş zikr məqsədi ilə deyilirsə, bədənin aram qalması lazımdır. Amma sırf zikr məqsədi ilə namazın istənilən bir yerində bədənin tərpənməsinin eybi yoxdur.

Məsələ 948: Bədən aramlaşmamış səcdənin zikrinə başlanılsa namaz batildir. Zikrin bir hissəsi bədən səcdədən qalxan zaman deyilərsə, səhvən olduqda eybi yoxdur. Başı səcdədən qaldırmamış bunu hiss edən şəxs zikri yenidən deməlidir.

Məsələ 949: Zikrə məşğul olmadığı vaxt alın istisna olmaqla o biri üzvləri yerdən qaldırmaq, yerini dəyişmək olar. Amma zikr zamanı buna icazə verilmir.

Məsələ 950: Birinci səcdədən sonra bədən aramlaşanadək oturmalı, sonra ikinci səcdəyə getməlidir.

Məsələ 951: Vacib ehtiyata əsasən, namaz qılanın alnı dizlərini qoyduğu yerdən dörd bükülü barmaqdan artıq aşağı və ya yuxarı olmamalıdır. Alının da qoyulduğu yer dizlərin qoyulduğu yerdən dörd bağlı barmaqdan artıq yuxarı və ya aşağı olmamalıdır. Eləcə də, alının qoyulduğu yer ayaq barmaqların qoyulduğu yerdən bir o qədər fərqlənməməlidir. Bu halda yerin mailli olmasının fərqi yoxdur.

Məsələ 952: Əgər bilmədən alın elə bir yerə qoyularsa ki, dizlərin və ya ayaq barmaqların səviyyəsindən dörd bağlı barmaqdan çox fərqlənsin, bu fərq səbəbindən namaz qılanın səcdədə olmadığı söylənilərsə, başını qaldırmalı və dörd bağlı barmaqdan az fərqli yerə qoymalıdır. Amma əgər bu hal səcdə sayılsa, alını həmin yerdən fərqi az olan yerə çəkmək lazımdır. Alnı çəkmək mümkün olmadıqda ehtiyat budur ki, namazı bitirib yenidən qılsın.

Məsələ 953: Alın elə bir yerə qoyulmalıdır ki, həmin yerə səcdə etmək düzgün sayılsın. Bu barədə qarşıdakı Məsələlərdə danışılacaq. Əgər alınla səcdə yeri arasında saç və ya möhürün çirki kimi bir manea yaransa, alın

möhürün özünə çatmasa, səcdə batildir. Amma möhürün rənginin dəyişməsinin eybi yoxdur.

Məsələ 954: Əgər əllərinin içini yerə qoya bilməsə, onların arxasını yerə qoymalıdır. Əgər bu da mümkün olmasa dirsəklərini yerə qoya bilər. Bu da mümkün olmadıqda biləklər yerə qoyulur.

Məsələ 955: Vacib ehtiyata əsasən, səcdə zamanı ayaqların böyük barmaqlarının başı yerə qoyulmalıdır. O biri barmaqların qoyulması bəs etmir. Hətta dırnaq uzun olduğundan barmaq yerə dəyməsə bunun eybi var.

Məsələ 956: Bir şəxsin baş barmağı kəsilmişsə, onun qalan hissəsini yerə qoymalıdır. Əgər bir şey qalmamışsa, o biri barmağını yerə qoya bilər. Əgər ayağında barmaq yoxsa ayağının qalan hissəsini yerə qoysun.

Məsələ 957: Əgər deyilməyən şəkildə səcdə etsə, məsələn yerə uzansa və bədənin yeddi üzvü yerə yapışmasa, səcdəsi batildir.

Məsələ 958: Əgər alında çiban və bu kimi başqa bir yara olsa, alnını möhürə qoya bilmədikdə alnının başqa bir tərəfini möhürə qoya bilər, ya da iki tərəfə möhür qoyub yaranı bu möhürlərin arasına sala bilər. bir şərtlə ki, bu hündürlük dörd bağlı barmaqdan çox olmasın. Əgər yara bütün alnı əhatə edərsə, alının iki kənar tərəfindən biri ilə səcdə etmək olar. Bu da mümkün olmasa çənəni möhürə qoymaq olar. Bu da mümkün olmadıqda üzün istənilən bir yerini möhürə qoymaq mümkündür. Üzün heç bir hissəsini möhürə qoymaq mümkün deyilsə, əyilmək bəs edər.

Məsələ 959: Alnını yerə qoya bilməyən şəxs bacardığı qədər əyilməli, möhür və ya səcdə ediləsi başqa bir şeyi hündür bir yerə qoymalıdır ki, alnı ona çatsın. Əllərinin içini, dizlərini və ayaq barmaqlarını adi halda yerə qoymalıdır. Əgər əyilə bilməsə başı ilə işarə verməlidir. Başı ilə də işarə verə bilməsə gözləri ilə işarə etməlidir. Səcdə niyyəti ilə göz yumulur, səcdədən qalxmaq niyyəti ilə göz açılır. Hər halda vacib ehtiyat budur ki, möhürü qaldırıb alnına qoysun. Bütün bunlar mümkün olmadıqda ehtiyat budur ki, qəlbində səcdə niyyət etsin.

Məsələ 960: Əgər alın ixtiyarsız olaraq səcdə yerindən qalxsa və qayıtsa, bir səcdə hesab olunur. Səcdənin zikrini deyib-deməməsinin fərqi yoxdur. Amma ixtiyari olaraq başını qaldırsa, zikrdən öncə və bilərəkdən olsa, namazı batildir. Əks təqdirdə, eybi yoxdur.

Məsələ 961: Təqiyyə (əqidəni gizlətmək) məqsədi ilə xalça və bu kimi şeylərə səcdə edə bilər. Möhürə səcdə məqsədi ilə başqa yerə getmək lazım deyil. Amma həmin yerdə daş və həsir kimi şeylərə səcdə etmək mümkün olsa bu iş vacibdir.

Məsələ 962: Əgər bir şeyin üzərində bədən aramlaşmırsa, həmin şeyə səcdə edilməsinə irad var. Amma öncə qeyd etdiyimiz kimi, gəmi və qatar kimi yerlərdə namazın vacib şərtlərini yerinə yetirmək mümkünsə, namaz düzgündür. Əgər bir şeyə (məsələn, balışa) səcdə etdikdə bədən əvvəlcə aramlaşmırsa, sonra aramlıq tapırsa, səcdə etmək olar.

Məsələ 963: Əgər yer palçıq olarsa və səcdə zamanı bədən, libas bulaşarsa, ayaq üstə namaz qılmaq və səcdə üçün işarə etmək olar.

Məsələ 964: İkinci səcdədən sonra təşəhhüd vacib olmadıqda, yaxşı olar ki, bir qədər otursun, sonra növbəti rəkət üçün qalxsın.

Nələrə səcdə etmək olar?

Məsələ 965: Səcdə zamanı alın yerə və ya yerdən cücərən ağac, yarpaq kimi şeylərə qoyulmalıdır. Yeməli və geyməli şeylər yerdən cücərərsə belə onlara səcdə etmək olmaz. Eləcə də, qızıl və gümüş kimi metallara səcdə batildir. Amma mərmər, ağ və qara daş, hətta əqiqə səcdə etmək olar.

Məsələ 966: Vacib ehtiyat budur ki, qidada istifadə olunan üzüm yarpağına səcdə edilməsin.

Məsələ 967: Yerdən cücərən və heyvan yemi olan saman və ota səcdə etmək olar. Eləcə də insanın qidalanmadığı çiçəklərə də səcdə etmək olar. Amma bənövşə, maldili kimi qidada istifadə olunan gül və bitkilərə ehtiyata əsasən səcdə edilməməlidir. Bə'zi məntəqələrdə qida kimi istifadə olunan bitkilərə də səcdə etmək düzgün deyil.

Məsələ 968: Əhəng və gəc daşına bişməzdən öncə, həm də bişəndən sonra səcdə etmək olar. Kərpicə, saxsıya, sementə də səcdə etmək olar.

Məsələ 969: Pambıq və ya bu kimi səcdə ediləsi şeydən hazırlandığı mə'lum olan kağıza səcdə etmək olar. Hazırda əksər kağızlar ağacdan hazırlandığı üçün (ən azı nədən hazırlandığına şübhə var) onlara səcdə etmək olar.

Məsələ 970: Səcdə üçün ən üstün şey Həzrət Seyyidüş-şühədanın (İmam Hüseynin) türbətidir. Bu türbət şəhidləri yada salır.

Məsələ 971: Əgər insanın əlində səcdə ediləsi bir şey yoxsa və ya qızmar isti, sərt soyuq səbəbindən səcdə edə bilmirsə, kətan və ya pambıqdan olan libasına səcdə edə bilər. Əgər paltar yundandırsa bu paltara və ya xalçaya səcdə etsin. Bu da mümkün olmasa, metal və mə'dəndən çıxan şeylərə səcdə etsin. Bir şey tapmasa əlinin arxasına səcdə etsin; əlin arxası səcdə ediləsi son şeydir.

Məsələ 972: Əgər birinci səcdədə möhür alına yapışsa, ikinci səcdə üçün onu alından götürmək lazımdır. Həmin vəziyyətdə ikinci səcdəyə getsə buna irad var.

Məsələ 973: Əgər namaz əsnasında səcdə ediləsi şey əldən çıxsa, məsələn, uşaq onu götürsə, namazın vaxtı geniş olduqda onu başa vurub, ehtiyata əsasən onu yenidən qılmaq lazımdır. Vaxt dar olduqda, bu namazın qəzası yoxdur. Hər iki halda əvvəlki iki məsələdə deyilən göstərişə əməl etsin.

Məsələ 974: Səcdə halında başa düşsə ki, alnını səcdə edilməyəsi bir şeyə qoyub, namazın surətini pozmadıqda alnını səcdə ediləsi bir şeyin

üzərinə çəksin. Yaxında bir şey olmasa və vaxt dar olsa, əvvəlki məsələdəki hökmə əməl olunur.

Məsələ 975: Əgər namazdan və səcdədən sonra başa düşsə ki, səcdə edilməyəsi bir şeyə səcdə edib, namazı düzgündür.

Məsələ 976: Allahdan qeyrisi üçün səcdə etmək haramdır. Bə'zi avam insanlar imamların qəbri qarşısında səcdə qılırlar. Bu səcdələr imam üçün olsa haramdır, Allaha şükür üçün olsa eybi yoxdur. İmamların qəbri qarşısında səcdə edilməsi baxanlarda belə bir təsəvvür yaradırsa ki, həmin şəxs imama səcdə edir və bu iş düşmənlərin əlinə bəhanə edirsə, eybi var.

Səcdədə müstəhəb əməllər

Məsələ 977: Səcdədə savab ümidi ilə bir neçə əməl bəyənilir:

1. Rükudan qalxdıqdan sonra bədən aram olduğu halda səcdəyə getmək üçün təkbir söyləmək. Eləcə də, birinci səcdədən sonra və ikinci səcdəyə getmək üçün təkbir söyləmək bəyənilir.

2. Kişilər əvvəlcə əllərini, qadınlar isə dizlərini yerə qoysunlar.

3. Alından əlavə burunu səcdə ediləsi bir şeyin üzərinə qoymaq.

4. Səcdə halında əl barmaqlarını birləşdirmək və qulaqlar bərabərində üzü qibləyə yerə qoymaq.

5. Səcdədə dua etmək, öz ehtiyacını Allahdan diləmək. Münasib dualardan biri budur:

يَاخَيرَ المَسئُولِينَ وَيَا خَيرَ المُعطِينَ اُرزُقنِى وَارزُق عِيَالِى مِن فضلِكَ فَاِنَّكَ ذُوالفَضلِ العَظِيم

"Ya xəyrəl-məs'ulinə və əvsəəl-mu'tinə urzuqni vərzuq iyali min fəzlikə fəinnəkə zul-fəzlil-əzim".

Duanın tərcüməsi: "Ey insanların çağırdığı ən üstün kəs, ey bağışlayanların ən üstünü, mənə və ailəmə öz fəzlindən ruzi ver. Sən böyük fəzl sahibisən."

6. Səcdədən sonra sol bud üzərində oturmaq, sağ ayağın üstünü sol ayağın alt hissəsinin üzərinə qoymaq. (Bu hal "təvvərük" adlanır.)

7. İki səcdə arasında bədən aram vəziyyətdə "Əstəğfirullahə və ətubu iləyh" söyləmək.

8. Səcdəni uzatmaq, Allaha təsbih, Həmd deyib onu zikr etmək. Muhəmməd və Ali-Muhəmmədə salavat göndərmək.

9. Oturan vaxt əlləri budların üzərinə qoymaq.

10. Ayağa qalxarkən əvvəlcə dizləri, sonra əlləri qaldırmaq.

Səcdədə məkruh (bəyənilməyən) əməllər

Məsələ 978: Səcdə halında Qur'an oxumaq məkruhdur. Eləcə də, səcdə yerindən toz-torpağı təmizləmək üçün üfürmək bəyənilmir. Əgər üfürən zaman ağızdan iki hərflik bir söz çıxsa, irad var.

Qur'ani-məcidin vacib səcdələri

Məsələ 979: Qeyd olunduğu kimi, Qur'ani-məcidin dörd surəsində səcdə ayəsi var. ("Əlif lam mim, səcdə", "Ha mim səcdə", "Ən-Nəcm", "İqrə" surələri) İnsan səcdə ayəsi oxuduğu və bu ayəni dinlədiyi vaxt dərhal səcdə etməlidir. Əgər səcdəni unutsa yadına düşən kimi onu yerinə yetirməsi vacibdir. Əgər ayəni dinlədiyi halda onu eşitsə, vacib ehtiyata əsasən, səcdə etməlidir.

Məsələ 980: Əgər insan həm özü səcdə ayəsi oxusa, həm də bu ayəni başqasından eşitsə bir səcdə qılsa bəs edər.

Məsələ 981: Namazdan başqa vaxtlarda səcdə halında səcdə ayəsi oxusa və ya bu ayəni eşitsə, səcdədən qalxıb yenidən səcdə etməlidir.

Məsələ 982: Əgər səcdə ayəsini lent yazısından və ya radiodan eşitsə, ehtiyat budur ki, səcdə etsin.

Məsələ 983: Qur'anın vacib səcdəsi üçün alını səcdə ediləsi şeyə qoymalıdır. Vacib ehtiyata əsasən, ayıb yerini örtməli, qəsbiliklə bağlı şərtləri yerinə yetirməlidir. Amma namazın digər şərtləri vacib səcdədə ödənməyə də bilər.

Məsələ 984: Qur'anın vacib səcdəsi üçün səcdəyə getmək kifayat edir. Səcdədə zikr deməmək də olar. Amma yaxşı olar ki, zikr deyilsin. Belə bir zikrin deyilməsi daha yaxşıdır:

لاَاِلَه اِلاَّ اللهُ حَقًّا حَقًّا لاَ اِلَهَ الاَّ اللهُ اِيمَانًا وَتَصدِيقًا لاَاِلَه اِلاَّ اللهُ عبوديّةً وَرِقًّا سَجَدتُ لَكَ يَارَبِّ تَعَبُّداً وَرِقًّالاَ مُستَنْكِفًا وَلاَ مَستَكبِراً بَل اَنَا عَبدٌ ذَلِيلٌ ضَعِيفٌ خَائِفٌ مُستَجِيرٌ

"La ilahə illəllah həqqən həqqa la ilahə illəllahu imanən və təsdiqa la ilahə illəllahu ubudiyyətən vəriqqa səcədtu ləkə ya rəbbi təəbbudən və riqqa la mustənsikən və la mustəqbira bəl ənə əbdun zəlilun zəifun xaifun mustəcir."

Məsələ 985: Qur'an ayəsinə görə səcdədə üzü qibləyə olmaq şərt deyil və istənilən bir tərəfə səcdə qılmaq olar. Amma yaxşı olar ki, səcdə üzü qibləyə yerinə yetirilsin.

8. Təşəhhüd

Məsələ 986: Bütün namazların ikinci rəkətində təşəhhüd vacibdir. Eləcə də şam və xiftən, günorta və ikindi namazlarının sonunda təşəhhüd deyilməlidir. Təşəhhüd belə yerinə yetirilir: İkinci səcdədən sonra oturmaq və bədən aram halda ikən təşəhhüdün zikrini demək lazımdır:

اَشْهَدُ اَن لا اِلَـٰهَ الاَّ اللهُ وَحدَهُ لاشَرِيكَ لَهُ وَاَشهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ اَللَّهُمَّ صَلِّ عَلىَ مُحَمَّدٍ وَآلِ مُحَمَّد

"Əşhədu ənla ilahə illəllah vəhdəhula şərikələh və əşhədu ənnə Muhəmməddən əbduhu və rəsuluh Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd". Təşəhhüdün zikri aydın ərəbcə, ardıcıl və fasiləsiz deyilməlidir.

Məsələ 987: Əgər təşəhhüdü unutsa, sonrakı rəkətin rükusundan öncə yadına düşsə, oturub təşəhhüdü deməlidir. Sonra yenidən qalxır və yenidən təsbihat söyləyir. Amma sonrakı rəkətin rükusunda və ya rükudan sonra yadına düşsə, namazı düzgündür, təkrara ehtiyac yoxdur. Amma ehtiyat budur ki, namazdan sonra təşəhhüdün qəzasını və iki səcdəye-səhv yerinə yetirsin.

Məsələ 988: Əgər şəkk etsə ki, təşəhhüdü deyib, yoxsa yox, o biri rəkətə başlasa, əhəmiyyət verməsin. Amma nə qədər ki, qalxmayıb onu deməlidir.

Məsələ 989: Müstəhəbdir ki, təşəhhüd halında sol budu üzərində əyləşsin və sağ ayağının üzünü sol ayağının alt hissəsinin üzərinə qoysun. Təşəhhüddən öncə "Əlhəmdulillahi" və ya "Bismillahi və billahi vəl həmdulillahi və xəyrul-əsmai lillahi" söyləməsi müstəhəbdir. Müstəhəbdir ki, təşəhhüd halında əllərini budlarının üzərinə qoysun, barmaqlarını birləşdirsin və ətəyinə baxsın. Təşəhhüd başa çatdıqdan sonra desin: "Vətəqəbbəl şəfaətəhu vərfə dərəcətəh" ("Pərvərdigara, Peyğəmbərin şəfaətini qəbul et, onun dərəcəsini ucalt.")

9. Salam

Məsələ 990: Bütün namazların son rəkətində təşəhhüddən sonra salam söyləmək vacibdir. Salam üç hissədən ibarətdir:

اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

"Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh;

السَّلاَمُ عَلَيْنا وَعَلى عِبادِ اللهِ الصالِحِينَ

Əssəlamu ələyna və əla ibadillahiş-salihin;

اَسَّلاَمُ عَلَيكُم وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh".

Salamda üçüncü hissəni demək vacibdir. Və bununla kifayatlənmək olar. Amma təkcə ikinci hissə ilə kifayatlənmək olmaz. Birinci hissə isə müstəhəbdir.

Məsələ 991: Əgər namazın salamı yaddan çıxarsa, yada düşdüyü vaxt namazın forması pozularsa, bilərəkdən və ya bilməyərəkdən namazı batil edən iş görülməzsə, (məsələn, qiblədən çıxmaq), salam demək lazımdır. Bu halda namaz düzgündür. Salamın yaddan çıxdığını xatırlayanda namazın forması pozularsa, amma bilərəkdən və ya səhvən namazı batil edən iş görülməzsə, salam demək lazım deyil və namaz düzgündür. Namazın

forması pozulmazdan öncə namazı batil edən iş görərsə, vacib ehtiyat budur ki, namazını yenidən qılsın.

10. Tərtib

Məsələ 992: Namaz qılan şəxs namazın əməllərini yuxarıda deyilən Məsələlər əsasında ardıcıl yerinə yetirməlidir. Əgər bilərəkdən bu ardıcıllığı pozsa, məsələn, səcdələri rükudan qabaq, təşəhhüdü səcdələrdən qabaq yerinə yetirsə, namazı batildir. Bu ardıcıllıq yaddan çıxdığı üçün pozularsa, növbəti rüknə daxil olmamış həmin əməlləri yenidən yerinə yetirməklə ardıcıllığı qorumaq lazımdır. Əgər sonrakı rüknə daxil olmuşsa, namazı düzgündür. Bir şərtlə ki, rükn unudulmasın. Məsələn, rükunu unudub ikinci səcdəyə getsə, namazı batildir.

11. Muvalat

Məsələ 993: Namaz qılan şəxs muvalat şərtini, yə'ni namazda fasiləsizliyi gözləməlidir. Namazın əməlləri arasında, məsələn rüku və səcdələr arasında elə bir fasilə yaranmamalıdır ki, namazın forması pozulsun. Əks təqdirdə namaz batildir. Bunun bilərəkdən və ya səhvən olmasının fərqi yoxdur.

Məsələ 994: Əgər qiraətin, zikrlərin və ya təşəhhüdün sözləri arasında bilmədən fasilə yaradılarsa, qiraətin forması itdiyi halda namazın forması yerində olarsa, qayıdıb düzgün demək lazımdır. Əgər sonrakı rüknə daxil olmasa namazı düzgündür.

Məsələ 995: Rüku, səcdə, qunutu uzatmaq və uzun surələr, zikrlər oxumaq namazın muvalatını pozmur, əksinə fəzilətdir.

Qunut

Məsələ 996: Bütün vacib və müstəhəb namazlarda ikinci rəkətin rükusundan öncə qunut tutmaq müstəhəbdir. Amma ehtiyat budur ki, şəf' namazında qunut tutulmasın. Amma bir rəkətlik vətr namazında rükudan öncə qunut tutmaq müstəhəbdir.

Məsələ 997: Ayat namazının beş qunutu, fitr və qurban bayramları namazının birinci rəkətində beş, ikinci rəkətində dörd qunut var.

Məsələ 998: Qunutda xüsusi bir zikr demək, dua oxumaq şərt deyil. Əlləri qaldırmaq da zəruri sayılmır. Amma yaxşı olar ki, əllər üz müqabilində qaldırılsın. Belə ki, əllərin içi üzü səmaya olsun. Qunutda əllər bir-birinə yapışdırılır, zikr deyilir, dua oxunur. Qunutda istənilən bir zikri söyləmək olar. Hətta bir dəfə "Sübhanəllah" demək bəs edər. Amma yaxşı olar ki, qunutda bə'zi dualar oxunsun.

Məsələn:

لاَ إِلهَ إِلاّ اللهُ الحَلِيمُ الكَرِيمُ لاَ إِلهَ إِلاّ اللهُ العَلِيُّ العَظِيمُ سُبحانَ اللهِ رَبِّ السَّمَاوَاتِ السَّبعِ وَرَبِّ الأَرَضِينَ السَّبعِ وَمَا فِيهِنَّ وَمَابَينَهُنَّ وَرَبِّ العَرشِ العَظِيمِ وَالحَمدُ لِلهِ رَبِّ العَالَمِينَ

“La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-əliyyul-əzim. Sübhanəllahi rəbbis-səmavati səb’i və rəbbil ərəzinəs-səb’i və ma fihinnə və ma bənyəhunnə və rəbbil-ərşil-əzim vəl həmdulillahi rəbbil aləmin.”

Qunutda dünya və axirət ehtiyaclarını istəmək olar.

Məsələ 999: Qunutu bir qədər ucadan demək müstəhəbdir. Amma cəmiyyət namazında imam-camaat iqtida edənin qunutunun səsini eşitməməlidir.

Məsələ 1000: Əgər bilərəkdən qunut tərk edilsə, onun qəzası yoxdur. Əgər yaddan çıxsa, rüku həddinədək əyilməmiş xatırlayanda qalxıb qunut demək müstəhəbdir. Əgər rükuda yada düşsə, rükudan sonra onu demək olar. Əgər səcdədə yadına düşsə namazın salamından sonra qəzasını demək olar.

NAMAZIN TƏRCÜMƏSI

“Həmd” surəsinin tərcüməsi

بِسْمِ اللهِ الرَّحْمـَنِ الرَّحِيمِ

“Bismillahir-rəhmanir-rəhim”-“Rəhman və rəhim Allahın adı ilə.”

الْحَمْدُ للهِ رَبِّ الْعَالَمِينَ

“Əlhəmdu lillahi Rəbbil-aləmin”-“Həmd-səna aləmlərin rəbbi olan Allaha məxsusdur.”

الرَّحْمـنِ الرَّحِيمِ

“Ər-rəhmanir-rəhim”-“O rəhmandır, rəhimdir.”

مَـلِكِ يَوْمِ الدِّينِ

“Maliki yovmid-din”-“Cəza gününün sahibidir.”

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

“İyyakə nə’budu və iyyəkə nəstəin”-“(Pərvərdigara,) yalnız Sənə pərəstiş edir, yalnız Səndən yardım diləyirik.”

اهدِنَـــا الصِّرَاطَ المُستَقِيمَ

“İhdinəs-siratəl-mustəqim”-“Bzi doğru yola hidayat et.”

صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ

“Siratəl-ləzinə ən’əmtə ələyhim”-“Ne’mət verdiyin kəslərin yoluna.”

غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ

“Ğəyril-məğzubi ələyhim vələzzalin”-“Qəzəbləndiyin, yolunu azmış kəslərin yoluna yox!”

“Qul huvəllah” (“İxlas”) surəsinin tərcüməsi

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

“Bismillahir-rəhmanir-rəhim”–“Rəhman və rəhim Allahın adı ilə.”

قُلْ هُوَ اللَّهُ أَحَدٌ

“Qul huvəllahu əhəd”–“De ki, O yeganə Allahdır.”

اللَّهُ الصَّمَدُ

“Əllahus-səməd”–“Allah ehtiyacsızdır, hamı Ona möhtacdır.”

لَمْ يَلِدْ وَلَمْ يُولَدْ

“Ləm yəlid və ləm yuləd”–“(Hç vaxt) doğmadı və doğulmamışdır.”

وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

“Və ləm yəkun ləhu kufuvən əhəd”–”Heç bir oxşarı yoxdur!”

Rükuda zikrin tərcüməsi

سُبحان رَبِّیَ العَظیمِ وَ بِحَمدِهِ

“Sübhanə rəbbiyəl-əzimi və bihəmdih”–”mənim böyük Rəbbim pak və nöqsansızdır, Ona həmd-səna deyirəm.”

Səcdədə zikrin tərcüməsi

سُبحان رَبِّیَ الأعلی وَ بِحَمدِهِ

“Sübhanə rəbbiyəl-ə’la və bihəmdih” – “Pak və nöqsansızdır mənim uca rəbbim və Ona həmd-səna deyirəm.”

Təşəhhüdün tərcüməsi

اَشْهَدُ اَن لا اِلَـٰهَ الاَّ اللهُ وَحدَهُ لاشَرِيكَ لَهُ

“Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləh” – “Şəhadət verirəm ki, Allahdan savayı pərəstişə layiq olan yoxdur. O yeganə və şəriksizdir.”

وَاَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ

“Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh”–”Şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi və rəsuludur.”

اَللّٰهُمَّ صَلِّ عَلیَ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

“Əllahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd”-“Pərvərdigara! Salam göndər Məhəmməd və onun əhli-beytinə.”

Salamın tərcüməsi

اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

“Əs-səlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh”-“Salam olsun sənə, ey Peyğəmbər, Allahın rəhmət və bərəkətinə çatasan.”

السَّلاَمُ عَلَيْنا وَعَلی عِبادِ اللهِ الصّالِحِينَ

“Əssəlamu ələyna və əla ibadillahis-salihin”-“Salam olsun bizə və Allahın bütün saleh bəndələrinə.”

السَّلاَمُ عَلَيكُم وَرَحمَةُ اللهِ وَبَرَكاتُهُ

“Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh”-“Salam olsun siz mö’minlərə, Allahın rəhmət və bərəkətinə çatasınız.”

Təsbihatın tərcüməsi

سُبحَانَ اللهِ وَالحَمْدُ للهِ وَلا اِلَهَ اِلاَّ اللهُ وَاللهُ اَكْبَر

“Sübhanəllahi vəlhəmdulillahi və la ilahə illəllahu vəllahu əkbər”-“Allah pak və nöqsansızdır, Həmd-səna Allaha məxsusdur, Allahdan savayı mə’bud yoxdur, Allah vəsfə gələcək hər nədən böyükdür.”

Qunutun tərcüməsi

“Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənəh və qina əzabən-nar”-“Pərvərdigara, bizə dünyada və axirətdə yaxşılıq buyur, bizi cəhənnəm əzabından qoru!”

Namazın tə’qibatı (namazın ardınca oxunan zikr, dua və Qur’an)

Məsələ 1001: Namaz qılan şəxsin namazdan sonra zikr, dua və Qur’an oxumaqla məşğul olması müstəhəbdir və bu iş tə’qibat adlanır. Yaxşı olar ki, namaz qılan şəxs namazını bitirdikdən sonra yerindən qalxmamış və dəstəmazı batil olmamış, üzü qibləyə oturduğu halda tə’qib oxusun. Dua kitablarından mə’sumlardan bir sıra dualar nəql olunmuşdur. Bu tə’qiblər arasında ən mühümlərindən biri də Həzrət Zəhranın (ə) təsbihatıdır. Bu təsbihat 34 “Allahu əkbər”, 33 “Əlhəmdulillah”, 33 “Sübhanəllah” deməkdən ibarətdir. Bu təsbihatın böyük fəziləti və savabı var.

Məsələ 1002: Namazdan sonrakı müstəhəb əməllərdən biri şükür səcdəsidir. Şükür səcdəsi üçün alın şükür etmək məqsədi ilə yerə qoyulur. Şükrü dilə gətirmək daha yaxşıdır. Allahın razılığını qazanmaq ümidi ilə bir, üç, ya da yüz dəfə “Şükrən-lillah” söylənilir. Müstəhəbdir ki, insan nə vaxt ne’mətə çatsa və ya bəladan uzaqlaşsa, şükür səcdəsi yerinə yetirsin.

Məsələ 1003: Namazda, namazdan sonra və başqa hallarda Peyğəmbər (s) və onun Əhli-beytinə salam göndərmək tə’kidlə vurğulanmış müstəhəb əməllərdəndir. Bu da müstəhəbdir ki, nə vaxt Peyğəmbərin (s) mübarək adı çəkilərsə, Həzrət “Əhməd”, “Müstəfa”, “Əbül-Qasim” kimi ləqəb və künyələrlə xatırlanarsa, ona salam göndərilsin. Hətta namaz halında namaz qılan şəxs özü bu müqəddəs adları dilinə gətirdikdə salavat çəkməsi müstəhəbdir.

Məsələ 1004: Həzrət Peyğəmbərin (s) mübarək adını yazarkən salavat yazmaq müstəhəbdir. Hətta Peyğəmbəri (s) xatırlayan zaman onun adı dilə gətirilməsə belə salavat göndərmək yaxşıdır. Salavat çox fəzilətli və savablı zikrlərdəndir.

Namazın batil olduğu hallar

Məsələ 1005: On iki iş namazı batil edir. Onlar "mübtilat" (batil edənlər) adlanır.

1. Namazın şərtlərindən birinin pozulması

Əgər namazın gedişində onun düzgünlük şərtlərindən biri pozularsa, namaz batil olar.

2. Dəstəmazın pozulması

Məsələ 1006: Əgər namaz gedişində dəstəmazı batil edən hal yaranarsa, bunun bilərəkdən, səhvən və ya çarəsizlikdən baş verməsindən asılı olmayaraq, namaz batildir. Amma sidik və nəcisini saxlaya bilməyən şəxs dəstəmazın hökmləri haqqında danışılarkən qeyd edilən göstərişlər əsasında addım atmalıdır. İstihazə halında olan qadından gələn qan namazı batil etmir. Bir şərtlə ki, həmin qadın istihazənin hökmlərinə əməl etmiş olsun.

Məsələ 1007: Bir şəxs özündən asılı olmayaraq yatarsa (məsələn, səcdədə yuxuya gedərsə) namazın səcdəsində, ondan sonra və ya şükür səcdəsində yatdığını bilməsə, namazı təzələməlidir.

3. Əlləri qarşıda üst-üstə qoyub (əlləri bağlı) namaz qılmaq

Məsələ 1008: Bir şəxs bə'zi İslam firqələri kimi əlləri bağlı namaz qılarsa, hətta ədəb üçün əlləri üst-üstə və ya əlləri sinəsində namaz qılarsa, həmin firqələrə oxşamasa belə, ehtiyat üçün namazını təzələməlidir. Amma yaddan çıxardığı və ya çarəsiz qaldığı üçün (məsələn, əlini qaşımaq üçün) belə etsə, eybi yoxdur.

4. "Amin" söyləmək

Məsələ 1009: Əgər "Həmd" oxuduqdan sonra "amin" söyləyərsə, vacib ehtiyat budur ki, namazını başa çatdırdıqdan sonra yenidən qılsın. Amma bu sözü səhvən və ya təqiyyə üçün deyərsə, eybi yoxdur.

5. Arxası qibləyə namaz qılmaq

Məsələ 1010: Bir şəxs arxası qibləyə dayanmış vəziyyətdə və ya tam sola, ya da sağa dönmüş halda namaz qılarsa, namazı batildir. Bu halın bilərəkdən və ya unutqanlıqdan yaranmasının fərqi yoxdur. Eləcə də, bilərəkdən o qədər dönərsə ki, üzü qibləyə olmadığı söylənilsin, namazı batildir.

Məsələ 1011: Bilərəkdən və ya səhvən təkcə üzünü tam şəkildə sağa və ya sola çevirsə, vacib ehtiyat budur ki, namazını təzələsin. Amma üzünü azca çevirsə, belə ki, qiblədən çıxmamış olsa, namazı batil deyil.

6. Danışmaq

Məsələ 1012: Əgər namaz qılan şəxs namaz qıldığı vaxt bilərəkdən danışsa, hətta bir cümlə və ya söz söyləsə, dediyi iki hərfdən ibarət olsa belə namazı batildir. Hətta iki hərfdən ibarət söz mə'na daşımasa belə namaz batil olur.

Məsələ 1013: Səhvən və ya unutqanlıq səbəbindən bir söz demək namazı batil etmir.

Məsələ 1014: Əgər namaz gedişində bir hərfdən ibarət mə'na daşıyan söz deyilsə və bu mə'na nəzərdə tutulsa, namaz batildir. Mə'na nəzərdə tutulmasa, amma şəxs bu sözün mə'nasını bilsə, ehtiyat budur ki, namazı təzələsin.

Məsələ 1015: Hətta bilərəkdən öskürmək, ah çəkmək, səbir vurmaq namazı batil etmir. Amma iki hərfdən ibarət olan "ah", "of" kimi sözlərin bilərəkdən deyilməsi, vacib ehtiyata əsasən, namazı batil edir.

Məsələ 1016: Namazın istənilən bir yerində Allahın zikri, Qur'an və dua oxumaq olar. Əgər Allahı zikr etmək məqsədi ilə "Əllahu əkbər" deyilərsə, eybi yoxdur. Amma bu sözü deyən şəxsin məqsədi ətrafdakılara nəsə anlatmaqdırsa, eybi var. Ərəb dilində olmayan dua və zikrlər söylənilməsinə irad var.

Məsələ 1017: Savab və ya ehtiyat üçün Həmd-surənin ayələrini, rüku və səcdənin zikrlərini, təsbihatı təkrarlamağın eybi yoxdur. Amma bunun səbəbi vasvasılıq olarsa, iradlıdır.

Məsələ 1018: Namaz qılan şəxs namaz halında başqasına salam verməməlidir. Amma bir başqası ona salam verərsə salamın cavabını alması vacibdir. Amma namaz qılan şəxs verilən salamı həmin şəkildə almalıdır. Əgər "Əssəlamu ələykə" deyilmişsə, "Əssəlamu ələykə" deyərək cavab vermək lazımdır. Əgər təkcə "salam" deyilmişsə, bu salamın cavabı da təkcə "salam" söyləməkdir.

Məsələ 1019: Təkcə namazda yox, başqa vaxtlarda da salamın cavabını almaq vacib, salam vermək müstəhəbdir. Cavab elə bir şəkildə verilməlidir ki, salama cavab sayılsın. Əgər salamdan sonra fasilə böyük olarsa, verilən cavab salamın cavabı sayılmaz. Əgər namaz qılanın salamı cavab sayılmazsa, bu iş haramdır və cavab vermək vacib deyil.

Məsələ 1020: Namaz qıldığı vaxt verilən salamın cavabını almayan şəxs günaha yol vermişdir. Amma onun namazı düzgündür.

Məsələ 1021: Salamın cavabı elə bir şəkildə verilməlidir ki, salam verən şəxs eşitsin. Amma salam verən şəxs kar olarsa və ya səs-küylü bir şəraitdə salam verərsə, cavabı adi qaydada almaq bəs edər. Ehtiyat budur ki, salam işarə ilə də anladılsın.

Məsələ 1022: Namaz qılan şəxs ona verilmiş salamın cavabını Qur'an ayəsi oxumaq məqsədi ilə yox, cavab məqsədi ilə söyləməlidir.

Məsələ 1023: Namaz qılan şəxsə kişi və ya naməhrəm qadının, hətta yaxşını pisdən seçə bilməyən körpənin salam verməsinin fərqi yoxdur. Salamın cavabını almaq vacibdir.

Məsələ 1024: Əgər salam verənin məqsədi məsxərə və ya zarafatdırsa, eləcə də, salamı düzgün şəkildə vermirsə, onun cavabını almaq vacib deyil. Vacib ehtiyat budur ki, qeyri-müsəlmanın salamını yalnız "salam" və ya "ələykə" şəklində cavablandırsınlar.

Məsələ 1025: Bir şəxs məclisə daxil olub cəmiyyətə salam verərsə, onun cavabını qaytarmaq hamıya vacibdir. Amma bir şəxs salamı alarsa, bəs edər.

Məsələ 1026: Əgər bir qrupa salam verilsə və həmin qrup arasında bir şəxs namaza məşğul olsa, namaz qılan şəxs salamın ona verilib-verilmədiyinə şübhəli olsa, cavab verməməlidir. Amma salamın ona verildiyinə əmin olsa, başqaları cavab verdikdə onun cavab verməsi lazım deyil. Amma məhz ona ünvanlanmış salama cavab verən olmasa, özü cavab verməlidir.

Məsələ 1027: Salam vermək tə'kid olunmuş müstəhəb əməllərdəndir. Ayə və rəvayatlərdə bu barədə xeyli tövsiyə var. Yaxşı olar ki, süvari şəxs piyadaya, ayaq üstə olan oturana, yaşı az olan yaşı çox olana salam versin.

Məsələ 1028: Əgər iki şəxs eyni zamanda bir-birinə salam verərsə, vacib ehtiyat budur ki, salamın hər ikisi cavablandırılsın.

Məsələ 1029: Salama cavab olaraq "salam məndən" söyləmək bəs etmir. Belə bir salam birinci salam kimi sayılır, ehtiyatən, hər iki tərəf salama cavab verməlidir.

Məsələ 1030: Müstəhəbdir ki, salama daha üstün şəkildə cavab verilsin. Bu Məsələ namaz qılana aid deyil. Bir şəxs "salamun əleykum" deyə salam verərsə, cavabında "salamun əleykum və rəhmətullah" söyləmək daha yaxşıdır.

7. Gülüş

Məsələ 1031: Bilərəkdən və bərkdən gülmək namazı batil edir. İxtiyarsız gülüş də belədir. Amma təbəssüm namazı batil etmir. Hətta bilərəkdən təbəssümün eybi yoxdur. Bir şəxs namazda olduğunu unudub səhfən gülərsə, namazı batil olmaz.

Məsələ 1032: İnsan gülüş səsini boğmaq üçün özünü sıxarsa həmin vaxt halı dəyişsə, rəngi qızarsa və bədəni əssə, namaz qılan haldan çıxdıqda namazı batildir. Bu həddə çatmasa eybi yoxdur.

8. Ağlamaq

Məsələ 1033: Hətta ixtiyarsız olaraq ucadan ağlamaq namazı batil edir. Vacib ehtiyata əsasən, səssiz ağlamaq da namazı batil edir. Amma insan Allah qorxusundan, axirətə görə ağlasa nəinki namaz batil olmaz, bu hal üstün və övliyalara məxsus haldır.

9. Namazın formasını pozmaq

Məsələ 1034: Əl çalmaq, atılıb düşmək kimi namazın formasını pozan işlər istər bilərəkdən, istər unutqanlıqdan baş versə, namaz batil olur. Amma namazın formasını pozmayan işlərin eybi yoxdur. Məsələn, əl ilə işarə etmək olar.

Məsələ 1035: Əgər namaz gedişində namaz qılan şəxs o qədər sussa ki, namazın forması pozulsun, namaz batildir. Amma namaz gedişində susan şəxs namazı pozacaq həddə susub-susmadığına şəkk etsə, namazı düzgündür. Eləcə də, bir işin namazın formasını pozmasına şübhə yarandıqda namaz düzgündür.

10. Yemək və içmək

Məsələ 1036: Namazın formasını pozacaq şəkildə yemək və içmək namazı batil edir. Amma ağızda qalmış qida parçasını namaz vaxtı udmaq namazı batil etməz.

11. Şəkk

Məsələ 1037: İki rəkətli və üç rəkətli namazlarda rəkətlərin sayına münasibətdə yaranan şəkk namazı batil edir. Eləcə də, dörd rəkətli namazların birinci və ikinci rəkətində rəkətlərin sayı ilə bağlı şəkk namazı batil edir.

12. Namazın rüknlərini (əsaslarını) artırıb-əskiltmək

Məsələ 1038: Bir şəxs bilərəkdən və ya səhvən namazın rüknlərini artırıb-əskildərsə, məsələn, rüku və səcdələri artırıb-əskildərsə, namaz batil olar. Amma rükn olmayan hissələrin bilmədən artırılıb-əskildilməsi namazı batil etmir. Bu iş bilərəkdən baş versə, məsələn, bir səcdə artırılsa və ya əskildilsə, namaz batil olar.

Məsələ 1039: Əgər namazdan sonra şəkk yaransa ki, namazı batil edən işlərə yol verilib-yoxsa yox, bu şəkkə əhəmiyyət verilmir və namaz düzgündür.

Namazda məkruh sayılan (bəyənilməyən) əməllər

Məsələ 1040: Namaz qılan şəxsin xüzu-xüşusunu (namazda qəlb və bədən təvazösünü) pozan istənilən bir iş məkruhdur (bəyənilmir). Sola-sağa baxmaq, (əlbəttə üz xeyli çevrilsə namaza tə'siri var), saç-saqqalla oynamaq, barmaqları oynatmaq, tüpürmək, üzüyün yazısına baxmaq, həmd-surə və zikr söyləyən vaxt başqasının sözünü eşitmək üçün sakit dayanmaq məkruhdur, bəyənilmir. Eləcə də, yuxulu halda namaz qılmaq, ayaqyoluna getmək zərurəti yaranan vaxt namaz qılmaq, dar paltarda namaz qılmaq bəyənilmir.

Hansı hallarda namazı dayandırmaq olar

Məsələ 1041: Ehtiyata əsasən, vacib namazı bilərəkdən kəsmək olmaz. Amma əhəmiyyətli maddi və ya həyati zərərin qarşısını almaq üçün namazı kəsməyin eybi yoxdur. Məsələn, namaz qılan şəxsin və ya başqa birinin həyatı üçün təhlükə yaranarsa və namazı kəsmədən təhlükəni uzaqlaşdırmaq mümkün olmazsa, namaz kəsilməlidir. Eləcə də, insan qorunmalı olan malını hifz etmək üçün namazı kəsə bilər. Amma əhəmiyyətsiz bir mal üçün namazı kəsmək məkruhdur, bəyənilmir.

Məsələ 1042: Əgər namaza başlayandan sonra borclu öz borcunu tələb edərsə, namaz qıla-qıla, namazın surətini pozmadan borcu qaytarmaq mümkün olarsa, yaxşı olar ki, borc sahibinə verilsin. Amma namazı kəsmədən bu işi görmək mümkün olmasa, namaz bitənədək səbr etmək lazımdır. Xüsusi bir zərurət olmadıqda (məsələn, borc sahibinin yoldaşları onu incitmədikdə) borcu namaz həddində yubatmağın eybi yoxdur.

Məsələ 1043: Əgər namaz əsnasında mə'lum olsa ki, məscid murdarlanıb və məscidin paklanması namazı kəsmədən mümkünsə, paklamaq lazımdır. Başqa hallarda namazı bitirdikdən sonra məscid paklanır. Ehtiyat budur ki, bu hallarda namaz uzadılmasın.

Məsələ 1044: Namazı saxlamaq vacib olduqda onu davam etdirmək günahdır və namaz üçün eyib sayılır.

Məsələ 1045: Əgər rükudan öncə mə'lum olarsa ki, azan və iqamə yaddan çıxıb, namazın vaxtı dar olmadıqda namazı kəsib, azan və iqaməni demək, yenidən namaza başlamaq lazımdır.

Namazda şəkk ("şəkkiyyat")

Məsələ 1046: Namazda iyirmi üç qisim şəkk var:

1.Səkkiz şəkk namazı batil edir;

2. Altı şəkkə əhəmiyyət verilməməlidir.

3. Doqquz şəkk düzgün sayılır və bu şəkləri aradan qaldırmaq üçün növbəti Məsələlərdə göstərişlər verilir.

1. Namazı batil edən şəklər:

Məsələ 1047: Namazı batil edən şəklər:

1. Sübh namazı, müsafir namazı kimi iki rəkətli namazların rəkətlərinin sayında şəkk; Amma iki rəkətli müstəhəb namazlarda belə şəklər namazı batil etmir.

2. Üç rəkətli namazların rəkətinin sayında şəkk (şam namazı);

3. Dörd rəkətli namazlarda bir rəkət, ya çox qılınması ilə bağlı şəkk; məsələn, namaz qılan şəkk etsə ki, bir rəkət qılıb, yoxsa üç rəkət, namazı batildir.

4. Dörd rəkətli namazlarda ikinci səcdə tamamlanmamış iki, ya çox rəkətin qılınması ilə bağlı şəkk; məsələn, namaz qılan şəkk etsə ki, iki rəkət qılıb, yoxsa, üç rəkət, namazı batildir.)

5. İki, ya beşdən çox rəkətin qılınması ilə bağlı şəkk;

6. Üç və ya altı rəkət qılınması ilə bağlı şəkk; (Əlbəttə ki, bu qəbil şəklər nadir hallarda baş verir. Bununla belə, onların hökmü aydın olmalıdır.)

7. Dörd rəkət, ya altı rəkət, ya daha çox rəkət qılınması ilə bağlı şəkk; Vacib ehtiyat budur ki, belə məqamlarda dörd, ya beş rəkət qılınması ilə bağlı şəkkin hökmünə əməl olunsun. Yə'ni dörd rəkət qılındığı qəbul edilsin, namaz tamamlansın və namazdan sonra iki səcdeyi-səhv yerinə yetirilsin. Sonradan həmin namazı təzələmək lazımdır.

8. Ümumiyyətlə neçə rəkət namaz qıldığını bilməyən adamın rəkətlərin sayı ilə bağlı şəkki.

Məsələ 1048: Əgər insan namaz əsnasında namazı batil edən şəklərdən biri ilə rastlaşarsa, namazı kəsə bilməz. Öncə bir qədər fikirləşməli, şəkk öz gücündə qalsa, namazı kəsməlidir.

2. Hansı şəklərə əhəmiyyət verilməməlilir?

Məsələ 1049: Altı şəkkə əhəmiyyət verilməməlidir:

1. Vaxtı keçmiş şəkk;

2. Namazın salamından sonra şəkk;

3. Namazın vaxtı ötdükdən sonrakı şəkk;

4. Çox şəkk edən insanın ("kəsiruş-şəkk") şəkki;

5. İmamın və ya mə'mumun (iqtida edənin) şəkki;

6. Müstəhəb namazlarda şəkk.

1.Vaxtı ötmüş şəkk

Məsələ 1050: Əgər namaz əsnasında bir hissəsinin vaxtı keçdikdən sonra şəkk yaransa ki, həmin hissə yerinə yetirilib, yoxsa yox, (məsələn, rükuya getdikdən sonra şəkk yaranır ki, Həmd-surə deyilib, yoxsa yox) həmin şəkkə əhəmiyyət verilməməlidir. Növbəti hissənin rükn olub-olmamasının fərqi yoxdur.

Məsələ 1051: Əgər Həmd və ya surədə şəkk yaransa, məsələn, ikinci ayəni deyərkən birinci ayəni deyib-demədiyinə şəkk etsə, (ya da ayənin bir sözünü deyən vaxt ondan əvvəlki sözünü deyib-demədiyinə şəkk etsə) ehtiyata əsasən, geri qayıdıb onu Allaha yaxınlıq məqsədi ilə deməlidir və ardını davam etdirməlidir.

Məsələ 1052: Rüku və ya səcdələrdən sonra zikri düzgün deyib-demədiyinə şəkk etsə, həmin şəkkə etina etməməlidir.

Məsələ 1053: Əgər qalxdığı vaxt təşəhhüdü deyib-demədiyinə şəkk etsə və ya səcdəyə getdiyi vaxt rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, vacib ehtiyat budur ki, geri qayıdıb yerinə yetirsin.

Məsələ 1054: Oturaq və ya uzanmış halda namaz qılan şəxs Həmd və təsbihatı deyərkən səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirmədiyinə şəkk etsə, buna əhəmiyyət verməməlidir. Amma Həmd və təsbehə başlamamış belə bir şəkk yaransa onları yerinə yetirməlidir.

Məsələ 1055: Əgər bir hissənin məqamı keçdikdən sonra şəkk edib geri qayıtsa və onu yerinə yetirsə, sonradan həmin hissəni yerinə yetirmiş olduğunu və ikinci dəfə yerinə yetirdiyini bildikdə, həmin hissə rükn olduqda, namaz batildir. Əgər rükn olmasa namaz düzgündür.

Məsələ 1056: Əgər bir hissənin yeri ötdükdən sonra şəkk etsə və göstəriş əsasında əhəmiyyət verməyib keçsə, sonradan həmin hissənin yerinə yetirilmədiyi mə'lum olduqda sonrakı rüknə başlamayıbsa geri dönməlidir. Əgər rüknə daxil olubsa namazı düzgündür. Bir şərtlə ki, şəkk etdiyi və buraxdığı hissə rükn olmasın.

Məsələ 1057: Əgər şəkk etsə ki, namazın salamını söyləyib, yoxsa yox, düzgün söyləyib, yoxsa səhv, başqa namaza başladıqda və ya namazı pozan bir iş gördükdə namaz halından çıxdığı üçün öz şəkkinə əhəmiyyət verməməlidir. Əgər bütün bunlardan qabaq olarsa geri qayıtmalı və salamı söyləməlidir.

2. Salamdan sonra şəkk

Məsələ 1058: Namazın salamını dedikdən sonra şəkk yaransa ki, namazı düzgün qılıb, yoxsa yox, rəkətlərin sayına, namazın şərtlərinə, qiblə və paklığa, rüku və səcdə kimi hissələrə aidliyindən asılı olmayaraq şəkkinə əhəmiyyət verməməlidir.

3. Vaxt keçdikdən sonra şəkk

Məsələ 1059: Namazın vaxtı keçdikdən sonra namazın qılınıb-qılınmaması ilə bağlı şəkkə əhəmiyyət verilmir. Hətta qılmadığını güman etsə də bu hökm gücündədir. Amma namazın vaxtı ötməmiş belə bir şəkk yaransa, hətta namazı qıldığını güman etsə belə onu yenidən yerinə yetirməlidir.

Məsələ 1060: Əgər günorta və ikindi namazlarının vaxtı ötdükdən sonra cəmi dörd rəkət qıldığını bilərsə və hansı niyyətlə qıldığını bilməzsə, istər günorta, istər ikindi namazı olsun, vacib namazın qəzası niyyəti ilə dörd rəkət namaz qılmalıdır. Amma şam və xiftən namazlarının vaxtı ötdükdən sonra onların hansı birini qıldığını bilməsə, həm şam, həm də xiftən namazlarının qəzasını yerinə yetirməlidir.

4. Çox şəkk edənin şəkki ("kəsirüş-şəkk")

Məsələ 1061: Çox şəkk edən şəxs öz şəkkinə əhəmiyyət verməməlidir. Bu şəkkin rəkətin sayı, onun hissələri və ya şərtləri ilə bağlı olmasının fərqi yoxdur.

Məsələ 1062: Əgər bir şəxs bir namazda üç dəfə və ya üç ardıcıl namazda şəkk edərsə, "kəsirüş-şəkk", yə'ni çox şəkk edən sayılır.

Məsələ 1063: Əgər bir insan xəstəlik, əsəb, müsibət səbəbindən bir müddət çox şəkk edərsə, şəkkinə əhəmiyyət verməməli və göstəriş əsasında hərəkət etməlidir.

Məsələ 1064: Şəkkə əhəmiyyət verməmək dedikdə iki ehtimaldan öz faydasına olanı əsas götürmək nəzərdə tutulur. Məsələn, bir şəxs şəkk edirsə ki, səcdə və ya rükunu yerinə yetirib, onları yerinə yetirdiyini qəbul etməlidir. Bu hissələrin yerinin ötməsinin fərqi yoxdur. Sübh namazını iki və ya üç rəkət qılmasına şəkk etsə, onu iki rəkət qıldığını qəbul etməlidir.

Məsələ 1065: Əgər bir şəxs namazın bir hissəsi ilə bağlı çox şəkk edərsə, (məsələn, Həmd-surədə şəkk) başqa hissələrlə bağlı şəklərinə göstəriş əsasında əməl etməli, yalnız adətən üzləşdiyi şəkkə etina etməməlidir. Eləcə də, bir şəxs müəyyən bir namazda, məsələn, sübh namazında şəkk edərsə, yalnız həmin namazla bağlı şəkkinə əhəmiyyət vermir. Əgər bir şəxs yalnız müəyyən məkanda (məsələn, cəmiyyət arasında) namaz qıldıqda şəkk edərsə, yalnız həmin məkandakı şəklərinə etina etmir.

Məsələ 1066: İnsan şəkk etsə ki, "çox şəkk edən" hökmündədir, yoxsa yox, hələ ki, çox şəkk edən olmadığını qəbul etməlidir. Amma çox şəkk edən olduqdan sonra həmin haldan çıxdığına şəkk etsə, öz şəkkinə əhəmiyyət verməməlidir.

Məsələ 1067: Çox şəkk edən şəxs bir rüknü (məsələn, rükunu) yerinə yetirib-yetirmədiyinə şəkk etsə və ona əhəmiyyət verməsə, sonradan yadına düşdükdə onu yerinə yetirməlidir. Əgər sonrakı rüknə daxil olmayıbsa onu yerinə yetirməsi lazımdır. Əgər sonrakı rüknə başlayıbsa, namazı batildir. Amma həmin hissə rükn olmadıqda və sonradan onu yerinə yetirmədiyini xatırladıqda, sonrakı rüknə keçənədək onu yerinə yetirməlidir. Əgər sonrakı rüknə keçsə geri qayıtmır və namazı düzgündür.

Məsələ 1068: Vasvası şəxslər öz əminliyinə və şəkkinə əməl etməməlidir. Onlar adi fərdlər kimi hərəkət etməli, əmin olub-olmadıqlarını əsas götürməməlidirlər. Əks təqdirdə bir çox hallarda namazları batil olasıdır.

5. İmam və ya mə'mumun şəkki

Məsələ 1069: Əgər imam-camaat rəkətlərin sayı ilə bağlı şəkk etsə, məsələn, bilməsə ki, üç rəkət qılıb, yoxsa dörd rəkət, mə'mumlar rəkətlərin sayını bildikdə bunu işarə ilə imama anladırlar və imam bu işarəyə əsasən

hərəkət edir. İmam rəkətlərin sayını bildiyi vaxt mə'mum şəkk edərsə, imama tabe olmalı, öz şəkkinə əhəmiyyət verməməlidir.

Məsələ 1070: İmama işarə üçün rəkətlərin sayı qədər əli dizə vurmaq və ya "Allahu əkbər" söyləmək olar. Ümumiyyətlə, artıq söz və ya namaza xilaf işə yol vermədən hər hansı şəkildə işarə etmək olar. Amma mə'mum imamdan qabaq durub namazını davam etdirməməlidir.

6. Müstəhəb namazlarda şəkk

Məsələ 1071: Əgər müstəhəb namazların rəkətlərinin sayında şəkk yaransa namaz qılan şəxs yuxarı və ya aşağı sayı götürməkdə azaddır. Yuxarı say namazı batil etdikdə, aşağı say əsas götürülür. Məsələn, bir və ya iki rəkət namaz qılındığına şəkk yarandıqda, həm bir, həm də iki rəkət əsas götürmək olar. Amma iki və ya üç rəkət namaz qılındığına şəkk yarandıqda, hökmən iki rəkəti əsas götürmək lazımdır.

Məsələ 1072: Rüknlərin artırılıb-azaldılmasının nafilə namazlarına da tə'siri var.

Məsələ 1073: Namazın hərəkətləri baxımından müstəhəb namazla vacib namaz arasında fərq yoxdur. Məsələn, Həmd və ya rüku ilə bağlı şəkk yarandıqda həmin hissənin yeri ötüb keçənədək yerinə yetirilir. Əgər yeri ötmüşsə, şəkkə etina olunmur.

Məsələ 1074: Müstəhəb namazlarda vacib ehtiyata əsasən, zənn-gümana namazı batil edənədək əhəmiyyət verilir. Məsələn, iki rəkət namaz qılınmasına şübhə yaranmışsa, iki rəkət qəbul edilir. Əgər üç rəkət qılındığına güman yaranmışsa, iki rəkət əsas götürülür.

Məsələ 1075: Müstəhəb namazlarda səcdeyi-səhv yoxdur. Yə'ni əgər müstəhəb namaz qılan şəxs, vacib namazlarda səcdeyi-səhvə səbəb olan işi yerinə yetirsə, səcdeyi-səhv lazım deyil. Həmçinin müstəhəb namazlarda yaddan çıxmış səcdə və təşəhhüdün qəzası yoxdur.

Məsələ 1076: Əgər nafilə namazının vaxtı keçdikdən sonra onun yerinə yetirilib-yetirilməməsi ilə bağlı şəkk yaranarsa, bu şəkkə əhəmiyyət verilmir. Əgər vaxt varsa, yerinə yetirilir.

3. Düzgün şəklər

Məsələ 1077: Qeyd olunduğu kimi dörd rəkətli namazların rəkətlərinin sayı ilə bağlı şəklər doqquz halda düzgündür və şəklə bağlı vəzifəyə əməl etmək lazımdır:

1. Başı ikinci səcdədən qaldırdıqdan sonra ikinci, ya üçüncü rəkət olması ilə bağlı şəkk: Bu halda üçüncü rəkət olduğu qəbul edilməli, əlavə bir rəkət qılmaqla namaz tamamlanmalıdır. Namaz tamamlandıqdan sonra göstəriş əsasında bir rəkət ayaq üstə ehtiyat namazı qılınır. Əgər ikinci səcdədə vacib zikr deyildikdən sonra şəkk yaranarsa, vacib ehtiyata əsasən, eyni göstərişə

əməl olunur və sonra namaz yenidən qılınır. (Bu hökm ikinci səcdədən başı qaldıranadək bütün hallara aiddir.)

2. Üçüncü, ya dördüncü rəkət olması ilə bağlı şəkk: Namazın istənilən bir yerində belə bir şəkk yaranarsa, dördüncü rəkətin qılındığı qəbul edilir, namaz tamamlanır, namaz tamamlandıqdan sonra ya bir rəkət ayaq üstə, ya da iki rəkət oturaq ehtiyat namazı qılınır.

3. Başı ikinci səcdədən qaldırdıqdan sonra ikinci, ya dördüncü rəkət olması ilə bağlı şəkk: Bu vaxt dördüncü rəkət olduğu qəbul edilməli, namaz tamamlanmalı, sonra iki rəkət ayaq üstə ehtiyat namazı qılınmalıdır.

4. Başı ikinci səcdədən qaldırdıqdan sonra iki, ya üç, ya dörd rəkət qılınması ilə bağlı şəkk: Dörd rəkət qılındığı qəbul edilməli, namazdan sonra iki rəkət ayaq üstə, sonra iki rəkət oturaq ehtiyat namazı qılınmalıdır.

5. Başı ikinci səcdədən qaldırdıqdan sonra dördüncü, ya beşinci rəkət olması ilə bağlı şəkk: Dördüncü rəkətin qılındığı qəbul edilməli, namaz tamamlanmalı, sonra iki səcdeyi-səhv yerinə yetirilməlidir.

8. Ayaq üstü vəziyyətdə dördüncü, ya beşinci rəkət olması ilə bağlı şəkk: Bu halda oturmaq lazımdır. Oturduqdan sonra bu şəkk üçlə dörd arasındakı şəklə əvəz olunur. Dördüncü rəkət qəbul edilir, namaz tamamlanır, sonra ya bir rəkət ayaq üstə, ya da iki rəkət oturaq ehtiyat namazı qılınır. Vacib ehtiyat budur ki, həmin namaz yenidən qılınsın.

7. Ayaq üstü vəziyyətdə üçüncü, ya beşinci rəkət olması ilə bağlı şəkk: Bu halda oturmaq lazımdır. Oturduqdan sonra şəkk iki ilə dörd arasındakı şəkkə çevrilir. Dördüncü rəkət olduğu qəbul edilir, namaz tamamlanır, sonra ayaq üstə iki rəkət ehtiyat namazı qılınır. Vacib ehtiyata əsasən, namaz yenidən qılınmalıdır.

8. Ayaq üstü vəziyyətdə üç, ya dörd, ya da beşinci rəkətin olması ilə bağlı şəkk: Bu vaxt oturmaq lazımdır. Oturduqdan sonra əvvəlki şəkk iki, ya üç, ya dördüncü rəkətin olması ilə bağlı şəklə əvəz edilir. Dördüncü rəkətin olduğu qəbul edilir, namaz tamamlanır, sonra ayaq üstə iki rəkət, daha sonra oturaq iki rəkət ehtiyat namazı qılınır. Ehtiyat budur ki, namaz yenidən qılınsın.

9. Ayaq üstü vəziyyətdə beşinci, ya altıncı rəkət olması ilə bağlı şəkk: Bu halda oturmaq lazımdır. Oturduqdan sonra şəkk dördlə beş arasındakı şəklə əvəz olunur. Namaz tamamlanır, iki səcdeyi-səhv yerinə yetirilir. Ehtiyata əsasən, namaz təzələnməlidir.

Şəklə bağlı müxtəlif məsələlər

Məsələ 1078: İnsan düzgün şəkk ilə qarşılaşdığı vaxt namazı kəsə bilməz. Belə məqamlarda zəruri göstərişə əməl olunmalıdır. Bütün şəklərdən öncə bir qədər fikirləşmək lazımdır. Əgər ehtimallardan heç birinə əminlik yaranmazsa və ya mö'təbər ehtimal müəyyənləşməsə, şəkk batil

şəklərdən olduqda namaz kəsilir. Şəkk düzgün şəkdirsə lazımı göstərişə əməl edilməlidir.

Məsələ 1079: Namazın rəkətlərində zənn-güman əminlik hökmündədir, gümanı əsas götürüb namazı davam etdirmək lazımdır. Amma şəkk birinci və ikinci rəkətlə bağlı olduqda vacib ehtiyat budur ki, namaz yenidən qılınsın.

Məsələ 1080: Əgər öncə bir tərəfə güman güclü olarsa, sonra hər iki güman eyni gücdə qalarsa və şəkk halı yaranarsa, şəkk göstərişinə əməl olunmalıdır. Amma öncə şəkk halı yaransa, sonra bir tərəfə güman güclü olsa, güman əsasında əməl edilir. Namazı batil edən şəklərdə isə şəkk təsdiqləndikdə namaz yenidən qılınır, bu şəkkin güclü olub-olmamasının əhəmiyyəti yoxdur.

Məsələ 1081: Bir şəxs qarşısına çıxan halın şəkk, yoxsa zənn-güman olduğunu bilməsə, şəkk hökmünə əməl etməlidir.

Məsələ 1082: Əgər təşəhhüdə başladıqda və ya növbəti rəkətə keçdikdən sonra şəkk etsə ki, iki səcdə qılıb, yoxsa yox, eləcə də ikinci səcdədən sonra baş verən düzgün şəklə qarşılaşsa, (məsələn, iki və üç arasında şəkk), səcdələri yerinə yetirdiyini qəbul etməli, şəkk göstərişinə tabe olmalıdır. Bu halda namazı düzgündür. Amma səcdə məhəlli ötməmiş şəkk etsə, namazı batildir.

Məsələ 1083: Əgər şəkki aradan qalxsa və başqa bir şəkk yaransa, ikinci şəkki əsas götürməlidir. Məsələn, iki və üç arasında şəkdən sonra əmin olsa ki, üçüncünü qılıb, sonra üç və dörd arasında şəkk etsə, üç və dörd arasında şəkk göstərişinə əməl etməlidir.

Məsələ 1084: Əgər namaz gedişində şəkk etdiyini bilsə də, iki, ya üç, iki ya dörd arasında şəkk etdiyini müəyyənləşdirmədikdə, vacib ehtiyat budur ki, hər iki göstərişə əməl etsin, həm də namazını yenidən qılsın.

Məsələ 1085: Oturaq namaz qılan şəxs şəkki müqabilində bir rəkət ayaq üstə, yoxsa iki rəkət oturaq namaz qılacağını bilmədikdə, bir rəkət oturaq namaz qılmalıdır. Əgər şəkki müqabilində iki rəkət ayaq üstə ehtiyat namazı qılınmalı olsa, iki rəkət oturaq qılmalıdır. Digər şəklər də belədir.

Məsələ 1086: Ayaq üstə namaz qılan şəxs ehtiyat namazını həmin vəziyyətdə qıla bilməsə, oturaq halda namaz qılan şəxsin vəzifəsinə əməl etməlidir. Ötən **Məsələ**də deyildiyi kimi ehtiyat namazı qılmaq lazımdır. Əksinə, oturaq halda namaz qılan şəxs ehtiyat namazını ayaq üstə qıla bilərsə, ayaq üstə qılan şəxsin vəzifəsini yerinə yetirməlidir.

Ehtiyat namazının qaydası

Məsələ 1087: Namazın rəkətləri ilə bağlı şəkk yarandıqda qılınan ehtiyat namazı aşağıdakı qaydadadır: Namazın salamından sonra dərhal ehtiyat namazı niyyət olunur. “Allahu əkbər” deyilir, “Həmd” oxunur (surə tərk edilir), rükuya gedilir, adi namazlardakı kimi səcdə qılınır. Əgər ehtiyat

namazı bir rəkətdirsə, iki səcdədən sonra təşəhhüd və salam deyilir. Əgər ehtiyat namazı iki rəkətdirsə, iki səcdədən sonra bir rəkət də qılınır, təşəhhüd və salam deyilir.

Məsələ 1088: Ehtiyat namazının azanı, iqaməsi, surəsi və qunutu yoxdur. "Həmd" astadan oxunur. Vacib ehtiyat budur ki, "Bismillah" da astadan deyilsin. Namazla ehtiyat namazı arasında namazı batil edəcək iş görülməsin.

Məsələ 1089: Əgər ehtiyat namazına başlamamış mə'lum olsa ki, qılınmış namaz düzgündür, ehtiyat namazı lazım deyil. Əgər ehtiyat namazının gedişində bunu anlasa, ehtiyat namazını kəsə bilər.

Məsələ 1090: Əgər ehtiyat namazından öncə mə'lum olsa ki, namazın rəkətləri az olub, məsələn, dörd rəkət əvəzinə üç rəkət qılınıb, namazı batil edən iş görülməmişsə, həmin əskik miqdar yerinə yetirilməlidir. Yersiz salama görə ehtiyatən iki səcdeyi-səhv yerinə yetirilir. Əgər namazı batil edən bir iş görülmüşsə, namaz təzələnməlidir.

Məsələ 1091: Ehtiyat namazından sonra mə'lum olsa ki, namazı ehtiyat namazı həddində əskik olub, namazı düzgündür. (Məsələn, üç və dörd arasında şəkdən sonra ehtiyat namazı qılır və namazı bitirdikdən sonra mə'luma olur ki, əvvəlcə üç rəkət qılıbmış.) Əgər mə'lum olsa ki, namazının əskiyi ehtiyat namazından az olub, vacib ehtiyat budur ki, həmin əskik miqdarı dərhal yerinə yetirsin, namazını da təzələsin. Əgər mə'lum olsa ki, namazının əskiyi ehtiyat namazından çox olub, ehtiyat namazından sonra namazı batil edəcək bir iş görülməmişsə, vacib ehtiyat budur ki, həmin əskik miqdarı yerinə yetirsin, namazını da təzələsin.

Məsələ 1092: Bir şəxs şəkk edərsə ki, vacib olmuş ehtiyat namazını yerinə yetirib, yoxsa yox, namazın vaxtı ötərsə öz şəkkinə əhəmiyyət verməsin. Əgər namazın vaxtından qalırsa, başqa işə başlamamış ehtiyat namazını qılsın. Əgər namazı batil edən bir iş görmüşsə, vacib ehtiyat budur ki, ehtiyat namazını qılsın və namazını təzələsin.

Məsələ 1093: Rükn və qeyri-rüknlərin artırılıb-əskildilməsi, namazın hissələrinin yerinə yetirilməsinə şəkk baxımından ehtiyat namazı da digər vacib namazlar kimidir.

Məsələ 1094: Əgər ehtiyat namazının rəkətlərinin sayı ilə bağlı şəkk yaransa, yuxarı ehtimal əsas götürülür, yuxarı ehtimal namazı batil etsə, aşağı ehtimal əsas götürülür. Bu halda namaz düzgündür.

Məsələ 1095: Əgər ehtiyat namazının hissələri bilmədən artırılıb-əskildilərsə, səcdeyi-səhv vacib deyil.

Məsələ 1096: Əgər ehtiyat namazında təşəhhüd və ya səcdə yaddan çıxarsa, vacib ehtiyat budur ki, salamdan sonra onun qəzası yerinə yetirilsin.

Məsələ 1097: Bir şəxsə səcdə və ya təşəhhüdün qəzası, eləcə də, səcdeyi-səhv vacib olarsa, əgər ehtiyat namazı da qılmalıdırsa, öncə ehtiyat namazını

qılır, sonra səcdə və ya təşəhhüdün qəzası, daha sonra səcdeyi-səhv yerinə yetirilir.

Məsələ 1098: Gündəlik vacib namazlardakı şəkk, səhv və zənn haqqında deyilən hökmlər digər namazlar üçün də öz gücündədir. Məsələn, ayat namazında şəkk yaransa ki, bir rəkət qılınıb, yoxsa iki rəkət, bu şəkk iki rəkətli namaza aid olduğundan namaz batildir. Şəkk, səhv və zənnlə bağlı digər hökmlər də öz gücündə qalır.

Səcdeyi-səhvin vacib olduğu hallar

Məsələ 1099: Vacib ehtiyata əsasən, bir neçə halda namazdan sonra səcdeyi-səhv yerinə yetirilir. Həmin hallarla tanış olaq:

1. Yersiz söz; namaz qılan şəxs namazı bitirdiyini güman edərək səhvən bir söz deyir.

2. Yersiz salam; məsələn, dörd rəkətlik namazın ikinci rəkətində salam deyir.

3. Səcdə yaddan çıxdıqda;

4. Təşəhhüd yaddan çıxdıqda;

5. Ayağa qalxmaq əvəzinə səhvən oturduqda və ya oturmaq əvəzinə ayağa qalxdıqda;

6. İkinci rəkətdən sonra dördüncü və ya beşinci rəkət olması ilə bağlı şəkk yarandıqda vacibdir ki, namazı bitirib iki səcdeyi-səhv yerinə yetirsin. Əlavə artırma-əskiltmə olduqda səcdeyi-səhv yerinə yetirmək müstəhəbdir.

Səcdeyi-səhvin hökmləri

Məsələ 1100: Səhv deyilmiş sözü yenidən düzgün təkrarladıqda səcdeyi-səhv lazım deyil.

Məsələ 1101: Əgər namazda bir neçə söz və ya bir neçə cümlə deməklə namaz qılan halından xaric olarsa, bütün bunlara görə iki səcdeyi-səhv yerinə yetirmək kifayatdir.

Məsələ 1102: Əgər səhvən "Əssəlamu əleykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh" deyərsə, səcdeyi-səhv vacib yox, müstəhəb olur. Amma əgər o biri iki salamdan bir qədər deyərsə, vacib ehtiyat budur ki, səcdeyi-səhv yerinə yetirsin. Əgər hər üç salamı salam verilməyən yerdə səhvən deyərsə, bütün bunlara görə iki səcdeyi-səhv bəs edir.

Məsələ 1103: Əgər vacib səcdeyi-səhvi namazın salamından sonra bilərəkdən yerinə yetirməzsə, günaha yol verib və tez bir zamanda onu yerinə yetirməlidir. Amma namazı batil deyil.

Məsələ 1104: Əgər səcdeyi-səhvi zəruri edən bir iş görüb-görmədiyinə şəkk edərsə, heç nə vacib olmur. Əgər iki və ya dörd səcdeyi-səhv yerinə yetirməli olduğuna şübhə edərsə, iki səcdeyi-səhv etməsi bəsdir.

Səcdeyi-səhvin qaydası

Məsələ 1105: Səcdeyi-səhv aşağıdakı qaydada yerinə yetirilir: Namazdan sonra dərhal səcdeyi-səhv niyyət olunur və sonra səcdəyə gedərək deyilir: "Bismillahi və billahi əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh" sonra başını səcdədən qaldırıb oturur və yenidən səcdəyə gedib həmin zikri deyir. İkinci səcdədən başını qaldırıb təşəhhüd və salam söyləyir. Ehtiyat budur ki, təşəhhüdün vacib miqdarı və son salamla kifayatlənsin.

Məsələ 1106: Səcdeyi-səhv üzü qibləyə, dəstəmaz və təharətli halda yerinə yetirilməlidir. Alın səcdənin düzgün sayıldığı şeyə qoyulmalıdır.

Yaddan çıxmış səcdə və təşəhhüdün qəzası

Məsələ 1107: Əgər bir şəxs namazın bir neçə səcdəsini unudarsa namazdan sonra onların qəzasını yerinə yetirməlidir. (Əlbəttə ki, bir rəkətin iki səcdəsini yaddan çıxarmaq namazı batil edir.) Təşəhhüd yaddan çıxdıqda namazdan sonra dərhal onun qəzasını yerinə yetirmək lazımdır. Yaddan çıxmış səcdə və təşəhhüdün qəzasından əlavə onların hər biri üçün vacib ehtiyata əsasən, iki səcdeyi-səhv yerinə yetirilir. (Öncə deyildiyi kimi, səcdeyi-səhvin təşəhhüdü yaddan çıxmış təşəhhüd üçün bəs edir.)

Məsələ 1108: Yaddan çıxmış səcdə və təşəhhüdün qəzasını yerinə yetirərkən namazın təharət, qiblə və başqa şərtləri ödənməlidir. Bu qəzalar namazdan dərhal sonra yerinə yetirilir.

Məsələ 1109: Əgər bir səcdə və təşəhhüd yaddan çıxmışsa, vacib ehtiyat budur ki, hansını əvvəl unudubsa onun da qəzasını birinci yerinə yetirsin. Əgər hansı birini öncə unutduğunu bilməsə, ehtiyat budur ki, əvvəlcə bir səcdə və bir təşəhhüdün qəzasını, sonra bir təşəhhüd və bir səcdənin qəzasını yerinə yetirsin.

Məsələ 1110: Əgər namazdan sonra onun formasını pozan və ya onu batil edən bir iş görərsə (məsələn, qiblədən çıxarsa) səcdə və təşəhhüdün qəzasını yerinə yetirdikdən sonra vacib ehtiyata əsasən, namazını təzələməlidir. Əgər səcdeyi-səhvə səbəb olan bir iş görərsə, səcdə və təşəhhüdün qəzasını yerinə yetirdikdən sonra, ehtiyat budur ki, səcdeyi-səhv yerinə yetirsin.

Məsələ 1111: Əgər şəkk yaranarsa ki, səcdə və ya təşəhhüd unudulub, yoxsa yox, onların qəzasını yerinə yetirmək vacib deyil. Əgər birini unutduğuna əmindirsə və hansı birini unutduğunu bilmirsə, hər ikisinin qəzasını yerinə yetirməlidir. İstənilən birinin qəzasını əvvəlcə yerinə yetirə bilər.

Məsələ 1112: Əgər səcdə və ya təşəhhüdün qəzasından əlavə səcdeyi-səhv yerinə yetirməlidirsə, namazdan sonra əvvəlcə səcdə və ya təşəhhüdün qəzasını yerinə yetirməli, sonra səcdeyi-səhv etməlidir.

Məsələ 1113: Əgər şəkk yaransa ki, yaddan çıxmış səcdə və ya təşəhhüdün qəzasını namazdan dərhal sonra yerinə yetirib yoxsa yox, nə qədər ki, namazın vaxtı qurtarmayıb səcdə və ya təşəhhüdün qəzasını yerinə yetirsin. Əgər vaxt keçərsə, vacib ehtiyat budur ki, onun qəzasını yerinə yetirsin. Bu halda namazı düzgündür.

Məsələ 1114: Səcdə və ya təşəhhüdün qəzasını yerinə yetirmək üçün namazdan sonra niyyət edilir, sonra həmin səcdə və ya təşəhhüd "Allahu əkbər" və başqa bir şey deyilmədən yerinə yetirilir. Sonradan ehtiyata əsasən səcdeyi-səhv də edilir.

Namazın hissə və şərtlərinin dəyişməsi

Məsələ 1115: Əgər bir şəxs bilərəkdən namazın vacib hissə və şərtlərini artırıb-əskildərsə, namazı batildir. Məsələni bilmədiyindən rüknlərdə dəyişiklik edərsə namaz batil olur. Dəyişiklik rükndən olmazsa namaz düzgündür. Bir şərtlə ki, həmin şəxs məsələni öyrənmək imkanına malik olmasın. ("Cahili-qasir")

Məsələ 1116: Əgər bilmədən namazın hər hansı hissə və ya şərti artırılıb-əskildilərsə, bu dəyişiklik rükndə baş verdikdə namaz batildir. Əgər dəyişilən rükn deyilsə, namaz düzgündür. Dəstəmaz və qüsl kimi şərtlər yerinə yetirilməzsə namaz batildir və bunun bilərəkdən, ya səhvən baş verməsinin fərqi yoxdur.

Məsələ 1117: Əgər namazın salamından öncə xatırlayarsa ki, namazın sonunda bir rəkət və ya daha artıq qılmayıb, onu yerinə yetirməlidir. Bu halda namazı düzgündür. Əgər namazın salamından sonra xatırlayarsa, bilərəkdən və ya səhvən namazı pozan bir iş görərsə (məsələn, qiblədən çıxarsa) namazı batildir. Namazı batil edən bir iş görməzsə, dərhal yaddan çıxmış rəkəti yerinə yetirir və namazı düzgündür. Vacib ehtiyat budur ki, yersiz salama görə səcdeyi-səhv də etsin.

Məsələ 1118: Əgər namazı vaxtından öncə və ya arxası qibləyə qıldığını bilərsə, onu təzələməlidir. Əgər namazın vaxtı keçərsə onun qəzasını yerinə yetirməlidir. Amma bilmədən namazı sağ və ya sol tərəfə dayanaraq qılarsa namaz batil deyil.

Müsafirin (səfərdə olanın) namazı

Məsələ 1119: Müsafir səkkiz şərt ödənməklə dörd rəkətlik namazını iki rəkətli qılmalıdır:

Birinci şərt:

Səfər şər'i səkkiz fərsəxdən az olmasın

Məsələ 1120: Bir şəxsin bir yerə gedib qayıtması səkkiz fərsəx (təqribən 43 km) olarsa, dörd rəkətli namazlarını qəsr, yə'ni yarı qılmalıdır. Gedərkən

(21,5 km.) dörd fərsəx məsafə qət etməsi vacib deyil. Əgər gedib qayıtdığı yol səkkiz fərsəx olarsa, namazı yarıdır. Müsafir getdiyi yerdən həmin gün qayıtmaya da bilər. Bir şərtlə ki, həmin yerdə **10** gün qalmaq qərarına gəlməsin.

Məsələ 1121: Bir şəxs səfərinin səkkiz fərsəx olub-olmadığını şəkk edərsə, namazını yarı qılmamalıdır. Amma şəkk yarandıqda bu məsələni bilənlərdən öyrənməli, araşdırma aparmalıdır. Bir şərtlə ki, bu araşdırma məşəqqət yaratmasın.

Məsələ 1122: Gedilən yolu müxtəlif vasitələrlə öyrənmək olar. Əvvəla, insan özü bu yolu ölçə bilər. İkincisi, bu yolun miqdarı camaat arasında mə'lum olar. Üçüncüsü, e'tibarlı bir şəxs yolun uzunluğu barədə mə'lumat verər.

Məsələ 1123: Səfərdə səkkiz fərsəx yol getdiyinə əmin olan şəxs namazını yarı qıldıqdan sonra həmin məsafənin səkkiz fərsəx olmadığını bilərsə, namazı batildir. Namazı təzələməli və dörd rəkət qılmalıdır. Vaxt ötmüşsə namazın qəzasını yerinə yetirmək lazımdır. Yolun səkkiz fərsəx olmadığını bildiyi halda, yolda həmin yolun səkkiz fərsəx olduğu mə'lum olarsa, namazını yarı qılmalıdır. Əgər bütöv qılmışsa təzələməlidir.

Məsələ 1124: Bir şəxs aralarındakı məsafə dörd fərsəxdən az olan iki məhəl arasında bir neçə dəfə gedib gəlsə, onun namazı yarı olmaz. Gedilən yol üst-üstə səkkiz fərsəxdən çox olsa belə bu səfər müsafir səfəri sayılmaz. Amma bu şəxsi hamı müsafir sayarsa, ehtiyata əsasən, namazını həm tam, həm də yarı qılmalıdır.

Məsələ 1125: Əgər bir yerə getmək üçün iki yol varsa, bu yollardan biri səkkiz fərsəxdən az, o biri səkkiz fərsəxdən çoxsa, birinci yolla getdikdə namazı tam, ikinci yolla getdikdə yarı qılmaq lazımdır.

Məsələ 1126: Səkkiz fərsəx məsafə şəhərin son evindən hesablanır.

İkinci şərt:

Əvvəlcədən səkkiz fərsəx getmək məqsədi olsun

Məsələ 1127: Bir şəxs əvvəlcə səkkiz fərsəxdən az yolu olan bir yerə getmək istəsə, yolda və ya həmin yerə çatdıqdan sonra səfərini davam etdirmək qərarına gəlsə, getdiyi yol üst-üstə səkkiz fərsəxdən çox olduqda əvvəlcədən bu məsafəni getmək qərarı olmadığından namazını bütöv qılmalıdır. Amma bir yerə çatdıqdan sonra daha səkkiz fərsəx yol getmək qərara alınarsa, namaz yarı qılınar.

Məsələ 1128: Bir şəxs itirdiyi bir şeyi axtarmaq üçün yola çıxmışsa və nə qədər yol gedəcəyini bilmirsə, namazını tam qılmalıdır. Amma qayıtdığı vaxt vətəninə qədər olan məsafə səkkiz fərsəx və ya daha artıq olarsa namazı yarıdır.

Məsələ 1129: Səkkiz fərsəx yol getmək qərarına gəlmiş şəxs gündə azca yol getsə də namazını yarı qılmalıdır. Bir şərtlə ki, onu müsafir saysınlar.

Məsələ 1130: Bir şəxs səfərdə başqasından asılıdırsa (məsələn, atadan asılı olan oğul) həmin şəxsin səkkiz fərsəx yol gedəcəyini bildikdə namazını yarı qılmalıdır. Hətta məcburi şəkildə aparılan məhbus kimi şəxs səfərinin səkkiz fərsəx və ya daha artıq olduğunu bildikdə müsafirin hökmünə əməl etməlidir. Bir şərtlə ki, dörd fərsəx yol getməmiş onlardan ayrılacağına ağlabatan ehtimalı olmasın.

Üçüncü şərt:

Yolda səfər məqsədinin dəyişməməsi

Məsələ 1131: Əgər dörd fərsəx yol getməmiş məqsədini dəyişsə və ya tərəddüddə olsa namazını tam qılmalıdır. Amma dörd fərsəx yol qət etdikdən sonra səfər məqsədindən daşınsa namazı yarıdır. Bir şərtlə ki, qalmaq və ya qayıtmaqla bağlı tərəddüddə olmasın, həmin yerdə on gün qalmaq qərarına gəlməsin.

Məsələ 1132: Bir şəxs səkkiz fərsəx və ya daha artıq uzaqlıqda olan yerə getmək istəyərsə səkkiz fərsəx yol getməmiş səfərini davam edib-etməməklə bağlı şəkk-tərəddüd keçirərsə və həmin yerdə bir qədər qalarsa, yolu davam etmək qərarına gəldikdə namazı yarıdır. Əgər tərəddüd halında yolun bir hissəsini gedib sonra yola davam etmək qərarına gələrsə, yolun qalan hissəsi səkkiz fərsəx və ya artıq olarsa, namazı yarıdır.

Dördüncü şərt:

Səkkiz fərsəx yol getməzdən qabaq vətənindən keçməsin və yolda on gün, on gündən artıq qalmaq qərarına gəlməsin.

Məsələ 1133: Əgər müsafir vətəninə daxil olsa səfəri qırılır, eləcə də on gün qalacağı yerə çatsa, vətənindən keçmək və ya bir yerdə on gün qalmaqla bağlı tərəddüddə olsa namazı tamdır.

Beşinci şərt:

Səfər haram iş üçün olmasın.

Məsələ 1134: Bir şəxs oğurluq, xəyanət və ya başqa bir haram iş üçün səfərə çıxarsa, namazını tam qılmalıdır. Eləcə də səfər özü haram səfər olsa (bədənə zərərli səfər, vacib ehtiyata əsasən, qadının ərindən icazəsiz səfərə çıxması, ata-anadan icazəsiz və onların əziyyətinə səbəb olacaq səfər) namaz tam qılınır. Amma səfər həcc kimi vacib səfər olarsa, ərin, ata-ananın razılığı şərt deyil və namaz yarı qılınır.

Məsələ 1135: Səfərin haram səfər olmamasına və haram iş üçün səfərə çıxılmamasına baxmayaraq səfərdə günaha yol verilsə (məsələn, şərab içilsə, qeybət edilsə, zülmə yol verilsə) namaz yarı qılınır.

Məsələ 1136: Əgər vacib bir işdən boyun qaçırmaq üçün səfərə çıxılsa (məsələn, borclu borcunu verməmək üçün səfərə çıxsa) namaz tam qılınmalıdır. Belə bir məqsəd olmasa, namaz yarıdır.

Məsələ 1137: Səfər haram olmasa da müsafir haram miniyə süvar olarsa və ya qəsbi yerə səfərə çıxarsa, ehtiyata əsasən, namazını həm tam, həm də yarı qılmalıdır.

Məsələ 1138: Bir şəxs zalım bir adamla səfərə çıxsa və onun səfərinə kömək etsə zalım sayılır və səfəri haramdır. Belə bir şəxs namazını tam qılmalıdır. Amma bu səfərə məcbur olsa və ya səfərə çıxmaqda məqsədi daha mühüm bir iş, məsələn, bir məzlumun həyatını xilas etmək olsa, namazı yarıdır.

Məsələ 1139: Əyləncə, gəzinti, istirahət üçün səfərə çıxmaq, su, hava və bu kimi şeylərdən istifadə etmək israf və haram işə səbəb olmasa, halaldır və namaz qəsr qılınır.

Məsələ 1140: Bir şəxs dolanışıq məqsədi ilə ova çıxsa səfəri halaldır və namazı yarıdır. Eləcə də, daha çox qazanmaq üçün ova gedənin namazı yarıdır. Amma bir şəxs əyləncə üçün ova çıxarsa, səfəri haramdır və namazını tam qılmalıdır.

Məsələ 1141: Günah səfərdən qayıdan şəxs tövbə etsə, qayıtdığı yerə səkkiz fərsəx və ya bir qədər artıq qalan məhəldən namazını yarı qılmalıdır. Tövbə etməsə də, geri qayıdarkən günaha yol verməzsə eyni hökmə əməl edir.

Məsələ 1142: Səfəri günah səfər olan şəxs yolda məqsədini dəyişsə, qalan yol səkkiz fərsəx və ya daha artıq olarsa, eləcə də gedib qayıdacağı yol üst-üstə səkkiz fərsəx olarsa, namazını yarı qılmalıdır. Amma günah üçün səfərə çıxmamış, yolda məqsədini dəyişib günah iş görmək istəyən şəxs namazını tam qılmalıdır. Amma əvvəlcə yarı qıldığı namazlar düzgündür.

Köçəri həyat tərzi yaşamış olmasın

Məsələ 1143: Köçərilərin xüsusi vətəni olmur, harada özləri və heyvanları üçün su və qida tapırlarsa orada qalırlar. Onlar bu səfərlərdə namazlarını tam qılmalı və oruc tutmalıdırlar.

Məsələ 1144: Əgər köçəri bir insan həcc, ticarət səfəri kimi köçəri həyatına aid olmayan səfərə çıxarsa namazını yarı qılır.

Yeddinci şərt:

Şəxsin peşəsi səfərə çıxmaq olmasın.

Məsələ 1145: Sürücü, təyyarəçi, dənizçi, sarvan kimi peşəsi səfərə çıxmaq olan şəxslər hətta birinci səfərdə namazlarını tam qılmalıdırlar.

Məsələ 1146: Peşəsi səfərə çıxmaq olmayan insan peşəsi ilə bağlı (müəllim, fəhlə, qulluqçu kimi) səfərə çıxmağa məcbursa, hər gün işi ilə bağlı yol gedirsə, gedib gəldiyi yol səkkiz fərsəx və ya daha artıq olarsa, namazını tam qılmalı, oruc tutmalıdır.

Məsələ 1147: Peşəsi səfərə çıxmaq olan şəxs peşəsindən əlavə bir məqsədlə (məsələn, həcc ziyarəti üçün) səfərə çıxarsa, başqa müsafirlər kimi namazını yarı qılmalıdır. Amma sürücü haqqını almaqla ziyarətçiləri apararsa və bu səfərdə özü də ziyarət edərsə, namazını tam qılmalıdır.

Məsələ 1148: Bir şəxs həcc rəhbəri və ya hər hansı ziyarətdə karvan müdiri kimi səfərə çıxarsa, səfər onun peşəsi ilə bağlı müqəddimə sayılır və bir müddət uzanır. Belə bir şəxs namazını tam qılmalıdır.

Məsələ 1149: Əgər bir şəxsin peşəsi ilin bir hissəsini səfərə çıxmaqdırsa (məsələn, bə'zi sürücülər yalnız müəyyən fəsildə işləyir) onun üçün iş sayılan səfərlərdə namazını tam qılmalıdır.

Məsələ 1150: Bir şəxs şəhər daxilində sürücülük edirsə, təsadüfən şəhərdən çıxdıqda və səkkiz fərsəx, daha artıq yol getdikdə, namazı yarıdır. Amma həm şəhərdə, həm də şəhərdən kənarda sürücülük edən şəxs şəhərdən kənara çıxdıqda namazını tam qılmalıdır.

Məsələ 1151: Bir şəxsin peşəsi səfərə çıxmaqdırsa, bir məhəldə on gün və ya daha artıq qalsa, həmin yerin vətən olub-olmamasından, on gün qalmaq qərarına gəlib-gəlməməsindən asılı olmayaraq, birinci səfərdə namazını yarı qılmalıdır. Əgər şəkk etsə ki, on gün qalacaq, yoxsa yox, namazını tam qılmalıdır.

Məsələ 1152: Özü üçün vətən müəyyənləşdirməmiş və səyahətlə məşğul olan adamlar namazını tam qılmalıdır.

Məsələ 1153: Bir şəxsin peşəsi səfərə çıxmaq deyilsə, amma bir məntəqədə olan malını daşımaq üçün ardıcıl səfərə çıxırsa, namazını yarı qılmalıdır.

Məsələ 1154: Bir şəxs vətənindən çıxıb başqa bir vətən seçmək qərarına gəlmişsə, səfərdə namazını yarı qılmalıdır. Amma səfəri uzun çəksə və köçəri sayılsa namazı tamdır.

Səkkizinci şərt:

"Tərəxxüs həddinə" çatmaq

Məsələ 1155: "Tərəxxüs həddi" dedikdə vətəndən o qədər uzaqlaşmaq nəzərdə tutulur ki, həmin yerdə şəhərin azan səsi eşidilməsin, camaat görünməsin. Amma şəhər divarının görünüb-görünməməsinin əhəmiyyəti yoxdur. Amma həmin vaxt havada görmə və eşitməyə mane olacaq toz və külək olmamalıdır. Bu iki şərtdən biri ödənsə bəs edər. Bir şərtlə ki, ikinci şərtin ödənmədiyinə əminlik olmasın. Əks təqdirdə ehtiyat budur ki, namaz həm tam, həm də yarı qılınsın.

Məsələ 1156: Şəhərlərlə bağlı me'yar adi şəhərlərdir. Bir şəhər çox alçaqda və ya çox ucada yerləşərsə, yenə orta vəziyyətdə olan şəhəri me'yar götürmək lazımdır. Müəyyənləşdirilməlidir ki, hansı məsafədə şəhərdən azan səsi eşidilir, hansı məsafədə şəhər əhli görünür.

Məsələ 1157: İnsan tərəxxüs həddinə çatdığına şübhə edərsə və ya eşitdiyi səsin azan səsi olub-olmadığına şübhəsi olarsa, namazını tam qılmalıdır. Amma sözləri ayırd etmək mümkün olmasa da səsin azan səsi olduğu bilinsə namazını həm tam, həm də yarı qılmalıdır.

Məsələ 1158: Əgər şəxs elə bir yerə çatarsa ki, şəhərin adətən hündür yerdən deyilən azanını eşitməsin, namazı yarıdır. Hətta səs ucaldıcı ilə deyilən azan səsini eşidərsə də bu hökm gücündədir. Əgər bir şəxsin eşitmə və görmə gücü zəif və ya iti olarsa, adi eşitmə və görmə me'yar götürülməlidir.

Məsələ 1159: Bir şəxis səfər zamanı öz vətəninə çatsa, orada namazı tamdır. Amma həmin yerdən səfərini səkkiz fərsəx və ya daha artıq davam etdirmək istəsə, tərəxxüs həddinə çatdıqda namazı yarıdır.

Səfəri səfər hökmündən salan hallar

Məsələ 1160: Bir neçə halda səfər səfər hökmündən düşür və namaz tam qılınmalıdır.

1. Vətənə çatmaq

Vətən dedikdə elə bir yer nəzərdə tutulur ki, insan həmin yeri qalmaq və yaşamaq üçün seçmişdir. Şəxsin orada doğulması şərt deyil. Həmin yer ata-ananın vətəni və ya seçilmiş bir yer ola bilər.

Məsələ 1161: İnsan bir yeri qalmaq ("iqamət") üçün seçərsə, belə ki, orada olduğu vaxtda ona müsafir deməsinlər, həmin yerdə daimi və ya müvəqqəti qalmaq məqsədindən asılı olmayaraq (məsələn, iki il və ya daha artıq qalmaq istəyir) bu yer onun üçün vətən sayılır. Necə ki, dövlət mə'murları iki ildən bir yeri dəyişir və həmin yer onlara vətən sayılır.

Məsələ 1162: Bə'ziləri iki yerdə yaşayır. Məsələn, altı ay bir şəhərdə, altı ay başqa şəhərdə qalırlar. Belələri üçün hər iki yer vətən sayılır. İnsanın hətta bu qəbil üç vətəni ola bilər.

Məsələ 1163: İnsan vətəni sayılan yerdən getsə və orada yaşamaq məqsədi olmasa, arabir yaxınları və dostları görmək üçün həmin yerə gəldikdə namazı yarıdır. Həmin yerdə evinin və yaxınlarının olub-olmamasının fərqi yoxdur. Bir şərtlə ki, həmin yerdə on gün qalmaq məqsədi olmasın. Eləcə də, insan vətənindən başqa bir yeri yaşamaq üçün seçdikdə və orada altı aydan artıq, ya əskik qaldıqda, həmin yerdə evinin olub-olmamasından asılı olmayaraq köçdükdən sonra həmin yerdə namazı yarıdır.

2. On gün qalmaq məqsədi

Məsələ 1164: Əgər bir müsafir on gün ardıcıl bir yerdə qalmaq istəsə və ya məcbur qalmalı olacağını bilsə, orada namazı tamdır.

Məsələ 1165: Qalmaq məqsədinin şər'ən ödənməsi üçün on gün qalmaq lazımdır. Amma əvvəlki və sonrakı gecənin tə'siri yoxdur. Demək, birinci günün sübh azanından onuncu günün qürubunadək qalarsa (on gün, doqquz gecə) namazını tam qılmalıdır. Eləcə də, məqsədi birinci günün günortasından on birinci günün günortasına qədər qalmaq olarsa uyğun hökm gücündədir.

Məsələ 1166: Bir müsafir müəyyən məhəldə on gün qalmaq qərarına gələrsə bir neçə yerdə dayanmağı nəzərdə tuta bilər. Bir şərtlə ki, həmin yerlər arasında məsafə az olsun. (Məsələn, bir-iki km.) Belə ki, onu müsafir adlandırmasınlar. Bu baxımdan böyük və kiçik şəhərlər arasında fərq yoxdur. Yə'ni böyük şəhər və kiçik şəhər məfhumlarının müsafirin hökmlərinə tə'siri yoxdur.

Məsələ 1167: Bir yerdə on gün qalmaq qərarına gəlmiş müsafir öncədən nəzərdə tutarsa ki, həmin on gün arasında harayasa getsin, əgər həmin yer uzaqda olmasa, (müsafir sayılmasa) namazını tam qılmalıdır. Müsafir sayıldığı təqdirdə bütün on gün namazı yarıdır.

Məsələ 1168: Əgər bir şəxs qərara gəlmişsə ki, on gün bir məhəldə qalsın, amma bunun üçün maneə yaranacağını ehtimal verərsə, xalqın nəzərində bu ehtimal əsaslı sayılmadıqda, namazını tam qılmalıdır. Ehtimal güclü olduqda isə namazı yarıdır.

Məsələ 1169: Bir yerdə on gün qalmaq məqsədi olmayan müsafir dostu ilə görüşəcəyi və ya yaxşı mənzil tapacağı halda on gün qalmaq qərarındadırsa, namazını yarı qılmalıdır.

Məsələ 1170: Müsafir ayın axırına on gün və ya daha artıq qaldığını bilirsə və qərara gəlirsə ki, ayın axırınadək həmin yerdə qalacaq, namazını tam qılmalıdır. Hətta ayın axırına nə qədər qaldığını bilmədiyi vaxt ayın

sonunadək qalmaq qərarındadırsa, əslində on gün və ya daha artıq qalırsa, namazını tam qılmalıdır.

Məsələ 1171: Bir şəxs on gün qalmağı niyyət etsə və sonradan fikrindən daşınsa, tərəddüdə düşsə, bir dörd rəkətlik namaz qılmamışsa, namazı yarıdır. Amma dörd rəkətli bir namaz qıldıqdan sonra fikrini dəyişmişsə, nə qədər ki, oradadır namazını tam qılmalıdır.

Məsələ 1172: Bir şəxs on gün qalmaq qərarına gəlib oruc tutarsa və günortadan sonra qalmaq fikrindən daşınarsa, əgər bir dörd rəkətli namaz qılmışsa orucu düzgündür. Nə qədər ki, oradadır namazlarını tam qılmalı, ramazan ayının orucunu tutmalıdır. Amma dörd rəkətli bir namaz qılmamışsa, orucu düzgün deyil, namazları yarıdır.

Məsələ 1173: Əgər insan şəkk edərsə ki, dörd rəkətli namaz qıldıqdan sonra, yoxsa əvvəl fikrindən daşınıb, namazını yarı qılmalıdır.

Məsələ 1174: Əgər bir müsafir namazı yarı qılmaq niyyəti ilə namaza başlasa və namaz gedişində orada on gün, ya daha artıq qalmaq qərarına gəlsə, namazını dörd rəkətli qılmalıdır. Əksinə, on gün qalmaq niyyət edib dörd rəkətli namaza başlasa və namazın gedişində niyyətini dəyişsə, üçüncü rəkətə başlamamışsa, namazını iki rəkətli qılmalıdır. O biri namazları da yarıdır. Əgər üçüncü rəkətin rükusuna getmişsə namazı batildir. Nə qədər ki, oradadır, namazları yarı qılmalıdır.

Məsələ 1175: Bir şəxs bir məhəldə on gün qalmağı niyyət etmişsə, on gündən artıq qaldıqda səfərə çıxanadək namazı tamdır. Onun yenidən on gün niyyət etməsinə ehtiyac yoxdur.

Məsələ 1176: On gün qalmaq niyyət etmiş şəxs vacib oruclarını tutmalıdır. O müstəhəb oruc tutub, günorta, ikindi və xiftən namazlarının nafiləsini qıla bilər.

Məsələ 1177: Bir yerdə on gün qalmaq niyyət etmiş şəxs on gün keçdikdən və ya bir dörd rəkətlik namaz qıldıqdan sonra dörd fərsəxdən uzaqda olmayan bir yerə gedərsə, qaldığı yerə qayıtdıqda namazını tam qılmalıdır. Əgər qaldığı yerdən səkkiz fərsəxdən uzaqda olmayan yerə gedərsə və həmin yerdə on gün qalarsa, namazını yolda və ikinci yerdə tam qılmalıdır. Səkkiz fərsəxdən uzağa gedərsə, namazını yolda yarı, on gün qalmaq məqsədində olduğu ikinci yerdə tam qılmalıdır.

Məsələ 1178: Yoldaşlarının bir yerdə on gün qalmaq məqsədində olduğunu düşünüb on gün qalmaq qərarına gələn şəxs bir dörd rəkətli namaz qıldıqdan sonra başa düşsə ki, yoldaşları belə bir niyyət etməyib və ya fikirlərindən daşınıblar, nə qədər ki, həmin yerdədir, namazlarını tam qılmalıdır.

3. Bir yerdə niyyət etmədən bir ay qalmaq

Məsələ 1179: Bir yerdə neçə gün qalacağını bilməyən müsafir namazını yarı qılır. Bu vəziyyətdə otuz gün keçdikdən sonra isə namazını tam qılmalıdır. Həmin müddətdən sonra az da qalsa bu hökm gücündədir. Əgər qəməri təqvimlə bir ay qalsa, bu ay otuz gündən az olsa da bəs edər. Məsələn, bir ayın onundan o biri ayın onunadək.)

Məsələ 1180: Bir şəxs bir məhəldə doqquz gün və ya bir qədər az qalmaq istəsə, həmin müddət ötdükdən sonra bir daha doqquz günü və ya bir qədər az qalmaq qərarına gələrsə, otuz gün başa çatanadək namazını yarı qılır. Otuz birinci gündən namazlarını tam qılmağa başlayır.

Məsələ 1181: Bir məhəldə otuz gündən az qalmaq bəs etmir. Bir şəxs niyyət etmədən bir yerdə iyirmi gün qalıb sonra bir neçə fərsəx uzağa gedərsə həmin yerdə iyirmi gün qaldıqda namazı yarıdır.

Müsafirin namazı ilə bağlı müxtəlif məsələlər

Məsələ 1182: Müsafir dörd yerdə namazını tam və ya yarı qılmaqda azaddır: "Məscidül-Həram", "Məscün-Nəbi", "Kufə" məscidi, İmam Hüseyn (ə)-ın hərəmi. Bu dörd yerdə namazı tam qılmaq fəzilətlidir. Məscidin Peyğəmbər (s) dövründəki əhatəsi ilə bu günkü əhatəsi arasında fərq yoxdur. Peyğəmbər (s) məscidi, Kufə məscidi və İmam Hüseynin (ə) hərəmi də bu hökmdədir.

Məsələ 1183: Müsafir olduğunu bilib, namazı yarı qılmalı olan şəxs onun tam qılarsa namazı batildir. Əgər müsafir namazının yarı olduğunu unudarsa və tam qılarsa, onu təzələməlidir. Müsafir namazının hökmünü bilib səfərdə olduğuna diqqət yetirməyən və namazını tam qılan şəxs, əgər müsafir namazının yarı olması hökmünü bilməmişsə, bu vaxtadək bu hökmü eşitməmişsə, yarı namaz əvəzinə qıldığı tam namaz düzgündür.

Məsələ 1184: Namazı yarı qılmalı olduğunu ümumi şəkildə bilən müsafir onu xırdalıqlarından xəbərsiz olarsa (məsələn, bilməzsə ki, müsafir üçün səkkiz fərsəx yol getmək şərtdir) ehtiyata əsasən tam qıldığı namazı yarı şəkildə təzələməlidir.

Məsələ 1185: Bir şəxs müsafir olduğunu unudub namazı tam qılarsa, namazın vaxtı ötməmiş yadına düşdükdə, namazı yarı şəkildə yerinə yetirməlidir. Vaxtı keçdikdən sonra başa düşsə qəzası yoxdur.

Məsələ 1186: Vəzifəsi namazı tam qılmaq olan şəxs bilərəkdən, səhvən və ya unutduğu üçün namazı yarı qılarsa, namazı batildir. Hətta on gün qalmaq qərarına gəlib həmin müddətdə namazı tam qılmalı olduğunu bilməyən və yarı qılan şəxs vacib ehtiyat budur ki, onları tam şəkildə təzələsin.

Məsələ 1187: Dörd rəkətli namaza məşğul ikən müsafir olduğunu xatırlayan şəxs (ya da səkkiz fərsəx yol getdiyini yada salan adam) üçüncü

rəkətin rükusuna getməsə, namazını iki rəkətli başa çatdırmalıdır. Əgər üçüncü rəkətin rükusuna getsə namazı batildir, onu yarı şəkildə yenidən qılmalıdır.

Məsələ 1188: Bir şəxs yarı namaz qıldığı vaxt namazın gedişində müsafir olmadığını, namazı tam qılmalı olduğunu yada salsa, namazını dörd rəkətli tamamlamalıdır və bu namaz düzgündür.

Məsələ 1189: Namazın əvvəl vaxtında səfərdə olub namazını qılmayan, sonra vətəninə və ya on gün qalmalı olduğu yerə çatan şəxs namazını tam qılmalıdır. Namazın əvvəl vaxtında vətənində və ya on gün qalmalı yerdə olan, sonra səfərə çıxan şəxs səfərdə namazını yarı qılır.

Məsələ 1190: İnsanın namazı səfərdə qəzaya getsə, onun qəzasını yarı qılmalıdır. (Namazın qəzasını səfərdə və ya vətəndə qılmağın fərqi yoxdur.) Əgər vətəndə namazı qəzaya getsə həmin namazın qəzası səfərdə də tamdır.

Məsələ 1191: Müstəhəbdir ki, müsafir savab ümidi ilə hər yarı namazdan sonra otuz dəfə desin: "Sübhanəllahi vəlhəmdulillahi və la ilahə illəllahu vəllahu əkbər."

Məsələ 1192: Müsafir namazının hökmü səfərin asan və ya çətin olmasından asılı deyil. Bugünki rahat səfərlərdə də yarı namaz hökmlərinə əməl olunmalıdır.

Qəza namazı

Məsələ 1193: Vacib namazı vaxtında qılmamış şəxs onun qəzasını yerinə yetirməlidir. Namazın əvvəl vaxtından son vaxtınadək yuxuda olmağın, xəstəliyin, məstliyin bu hökmə tə'siri yoxdur. Amma namazın əvvəl vaxtından son vaxtınadək huşunu itirmiş şəxsə həmin namazın qəzası vacib deyil. Eləcə də, İslamı qəbul etmiş kafirə, heyz və nifas halında olan qadına qəza namazı vacib deyil.

Məsələ 1194: Namazın vaxtı ötdükdən sonra mə'lum olsa ki, qılınmış namaz batil olub, onun qəzasını yerinə yetirmək lazımdır.

Məsələ 1195: Öhdəsində qəza namazı olan şəxs bu namazları yerinə yetirməkdə səhlənkarlıq göstərməməlidir. Amma vacib deyil ki, onları dərhal yerinə yetirsin. Amma qəzaya getmiş bir və ya iki namazı həmin günün namazından öncə yerinə yetirmək vacib ehtiyatdır.

Məsələ 1196: Qəza namazı olan şəxs müstəhəb namaz qıla bilər. Qəza namazını yövmiyyə namazından qabaq və sonra qılmaq olar.

Məsələ 1197: Bir şəxs öncə qıldığı namazların düzgün olmadığını düşünərsə və ya düzgün qıldığını unudarsa, müstəhəb ehtiyat budur ki, onların qəzasını yerinə yetirsin.

Məsələ 1198: Qəza namazlarında tərtib lazım deyil.

Məsələ 1199: Bir neçə namazı qəzaya getmiş şəxs onların sayını bilmirsə, az ehtimala əməl etməlidir. Amma bu namazların sayını öncə

bilmişsə və səhlənkarlıqdan unutmuşsa, ehtiyat vacib budur ki, çox ehtimala əməl etsin.

Məsələ 1200: Öhdəsində əvvəlki günlərdən qəza namazı qalan şəxs qəza namazından qabaq gündəlik namazlarını qıla bilər. Amma günün qəzaya verilmiş namazını vacib ehtiyata əsasən, öncə yerinə yetirmək lazımdır.

Məsələ 1201: Öhdəsində bir dörd rəkətli namaz qaldığını bilən şəxs bu namazın günorta, ikindi və ya xiftən namazı olduğunu bilməzsə, öhdəsində qalmış qəza namazı niyyəti ilə bir dörd rəkətli namaz qıla bilər. Bu namazların Həmd-surəsini ucadan və ya astadan deməkdə azaddır.

Məsələ 1202: Həyatda olan insanın qəza namazını kimsə yerinə yetirə bilməz. Həmin şəxs qəza namazını qılmağa aciz olsa belə bu iş görülməməlidir. Amma o dünyasını dəyişdikdən sonra bu işi görmək olar.

Məsələ 1203: Qəza namazını cəmiyyətlə qılmaq olar. İmam-camaatın əda və ya qəza namazı qılmasının fərqi yoxdur. Amma ehtiyat budur ki, hər ikisi eyni namazı qılsın. Məsələn, günorta namazının qəzası günorta namazı, ikindi namazının qəzası ikindi namazı ilə qılınsın.

Məsələ 1204: Müstəhəbdir ki, yaxşını pisdən seçə bilən uşağa namaz və digər ibadətlər vərdiş verilsin. Müstəhəbdir ki, o qəza namazına həvəsləndirilsin. (Əlbəttə ki, bu işdə onu incitmək, namazdan bezdirmək olmaz.)

Ata və ananın qəza namazı

Məsələ 1205: Dünyasını dəyişmiş ata və ananın qəza namazlarını və oruclarını yerinə yetirmək onların ölümündən sonra qalmış böyük oğula vacibdir. Bir şərtlə ki, ata və ana namaz və oruclarını itaətsizlik səbəbindən qəzaya verməsinlər, bu işi görməyə qadir olsunlar. Hətta itaətsizlikdən tərk etmişlərsə də, müstəhəb ehtiyata əsasən, həmin qəzaları yerinə yetirmək lazımdır. Eləcə də səfərdə qəzaya getmiş orucları tutmağa qadir olan ata və ananın qəzalarını yerinə yetirmək böyük oğul üçün ehtiyatdır.

Ata və ananın qəza namazlarının böyük oğula vacib olmadığı hallar

Məsələ 1206: Əgər ata və ananın qəza namazını və orucunu bir başqası yerinə yetirərsə, böyük oğulun öhdəsindən götürülər.

Məsələ 1207: Böyük oğul ata və anasının qəza namazı və orucunu olduğunu bilməsə, ona bir şey vacib deyil. Bu sahədə axtarış aparmağa ehtiyac yoxdur.

Məsələ 1208: Böyük oğul dünyasını dəyişsə, o biri oğlanların vəzifəsi yoxdur.

Məsələ 1209: Hansı oğulun böyük oğul olduğu mə'lum olmasa (oğlanların doğum tarixi itsə) ata və ananın qəza namaz və orucu onların heç

birinə vacib deyil. Amma müstəhəb ehtiyat budur ki, öz aralarında bölsünlər.

Məsələ 1210: Böyük oğul ata və ananın qəza namaz və orucunu yerinə yetirərkən öz vəzifəsinə əməl etməlidir. Yə'ni həmin ibadətləri öz təqlid mərcəsinin hökmünə uyğun yerinə yetirməlidir.

Məsələ 1211: Öz qəza namazı və orucu olan oğula ata və ananın qəza namaz və orucu vacib olarsa, istənilən birini əvvəl yerinə yetirsə düzgündür.

Məsələ 1212: Əgər ata və ya ana dünyasını dəyişən vaxt böyük oğul büluğ həddinə çatmamış və ya divanə olarsa, nə vaxt büluğ həddinə çatsa və ağıla gəlsə ata və ananın namaz və orucunu yerinə yetirməlidir.

"İsticari" namaz

Məsələ 1213: Dünyasını dəyişmiş insanın qəza namazları və ibadətlərini yerinə yetirmək üçün muzd vermək iradsız deyil. Amma həcc istisnadır. Bir şəxs ibadət üçün muzd vermək, "əcir" tutmaq istədikdə savab qazanmaq ümidində olsun. Amma qəza namaz və oruclarını, eləcə də müstəhəb namaz və orucları savab üçün əcir almadan yerinə yetirməyin eybi yoxdur.

Məsələ 1214: İnsan bə'zi müstəhəb işlər, məsələn Peyğəmbər (s) və imamların qəbrinin ziyarəti üçün sağ adamlar tərəfindən əcir ola bilər. Vacib ehtiyat budur ki, bu işdə yalnız müqəddimə əməlləri üçün pul götürsün. Eləcə də müstəhəb əməlləri yerinə yetirib onların savabını ölülərə və ya dirilərə hədiyyə edə bilər.

Məsələ 1215: Bir şəxs dünyasını dəyişmiş şəxsin qəza namazları üçün əcir olarsa, namaz məsələlərini yaxşıca bilməli, düzgün qiraətə malik olmalıdır.

Məsələ 1216: Bir başqası tərəfindən namaz və ya oruc, eləcə də bir ibadəti yerinə yetirmək istəyən şəxs öz niyyətində meyyiti müəyyənləşdirməlidir. Meyyitin adını bilmək zəruri deyil, müəyyən əlamət və nişanə ilə müəyyənləşdirmək bəs edər.

Məsələ 1217: Meyyitin qəza ibadətini yerinə yetirən şəxs özünü meyyitin yerində fərz etməli, meyyitin öhdəsində olan qəzanı yerinə yetirməlidir. Əgər ibadəti yerinə yetirib savabını hədiyyə etsə, qəza ödənməz.

Məsələ 1218: Meyyitin ibadət borcu o vaxt ödənər ki, ibadəti öhdəsinə götürmüş şəxs onu yerinə yetirsin. Əminlik olmazsa, kifayat etməz. Amma namazın qılındığına əmin olduqda, onun düzgün qılınıb-qılınmamasını bilməməyin eybi yoxdur.

Məsələ 1219: Əgər naib (qəza namazını yerinə yetirməyi öhdəsinə götürmüş şəxs) namazı qıldığını söyləyərsə, onun sözü ilə kifayatlənmək olmaz. Bu şəxs e'tibarlı bir şəxs olduqda isə sözü mö'təbərdir.

Məsələ 1220: Meyyitin ibadətlərini yerinə yetirməyi öhdəsinə götürmüş şəxs namazın şərtlərini ödəməyə qadir olmalıdır. Məsələn, namazı oturaq

qılan şəxs naib ola bilməz. Hətta vacib ehtiyata əsasən, təyəmmüm və cəbirə ilə namaz qılan şəxs naib olmamalıdır.

Məsələ 1221: Kişi qadın, qadın kişi üçün naib ola bilər. Naib namazın asta və uca qılınmasında meyyitin yox, öz vəzifəsinə əməl etməlidir. Meyyitin qəza namazı tərtiblə qılınmaya bilər. Amma bir günün günorta və ikindi, şam və xiftən namazlarında tərtibə riayat olunmalıdır.

Məsələ 1222: Namaz və oruc üçün əcir tutulan şəxslə xüsusi şərt kəsilərsə (məsələn, namazı məsciddə və ya müəyyən saatda qılması deyilərsə) bu şərtə əməl etməlidir. Amma xüsusi bir şərt olmasa, vəzifəsinə uyğun adi qaydada hərəkət etməlidir. Müstəhəbləri də adi qaydada yerinə yetirə bilər. Bundan artığına vəzifəli deyil. Nə qədər ki, şərt kəsilməyib, ayat namazlarını qılması vacib deyil.

Məsələ 1223: Meyyitin qəza namazları üçün bir neçə şəxs əcir tutularsa, onların hərəsi üçün müəyyən vaxt tə'yin etmək lazım deyil. Onlar həmin namazları istədikləri vaxt qıla bilər. Amma namazlar arasında tərtibə riayat etmək üçün müstəhəb ehtiyat budur ki, onların hər biri üçün müəyyən vaxt tə'yin edilsin. Məsələn, biri ilə sübhdən günortayadək, o biri ilə günortadan axşamadək namaz qılması şərt kəsilsin. Yə'ni hər iki şəxs məsələn, günorta namazından başlayıb sübh namazınadək qılsın. Bir və ya bir neçə günün namazının qılınmasının fərqi yoxdur.

Məsələ 1224: Əgər əcir tutulmuş şəxs öhdəsində olan namaz və orucları yerinə yetirməmiş dünyasını dəyişərsə, muzdu tam aldığı halda bütün namazları qılacağını öhdəsinə götürmüşsə, qılınmamış namazların muzdu onun malından götürülməlidir. Əgər belə bir şərt kəsilməmişsə, vərəsələri onun malından götürüb qalan namazların icrası üçün əcir tutmalıdırlar. Dünyasını dəyişmiş əcirin malı olmadıqda vərəsələrə bir şey vacib olmur. Amma yaxşı olar ki, meyyitin borcu ödənsin.

Məsələ 1225: Əgər əcir öhdəsinə götürdüyü əməli başa vurmamış dünyasını dəyişərsə və özünün də qəza namazı qalarsa, öhdəsinə götürdüyü namazların qılınması üçün onun malından əcir tutulmalıdır. Əgər özünün qılması şərt kəsilibsə, yerinə yetirilməmiş namazların haqqı qaytarılmalıdır. Amma həmin şəxsin öz qəza namazları üçün malından götürə bilməzlər. Yalnız vərəsələrin razılığı ilə və ya malının üçdə birini vəsiyyət etsə belə etmək olar.

Camaat namazı

Məsələ 1226: Camaat namazı böyük əhəmiyyət daşıyan müstəhəb əməllərdən, ən böyük dini göstəricilərdəndir. Rəvayatlərdə bu məsələyə xüsusi əhəmiyyət verilmişdir. Xüsusi ilə, məscidin qonşuları və məscidin azan səsini eşidən şəxsə tə'kidlə tövsiyə olunur. Yaxşı olar ki, insan bacardığı həddə namazını camaatla qılsın. Rəvayatdə bildirilir ki, bir şəxs İmam-camaata iqtida etsə, onun namazının hər rəkətinə 150 namazın savabı

verilər. Əgər iqtida edən iki nəfər olsa bu savab 600 namazın savabına çatar. Namaz qılanların sayı artdıqca namazın da savabı artır. Əgər iqtida edənlərin sayı on nəfərə çatarsa, bu namazın savabını bütün göy kağız, dənizlər mürəkkəb, ağaclar qələm olsa, mələklər, insanlar və cinlər yazsa, onu yazıb başa vura bilməzlər.

Məsələ 1227: E'tinasızlıq səbəbindən camaat namazında iştirak etməmək haramdır.

Məsələ 1228: Müstəhəbdir ki, insan səbr edib, namazını camaatla qılsın. Camaatla qılınan namaz insanın fərdi qıldığı namazdan üstündür. Camaatın qısa qıldığı namaz fərdin uzun qıldığı namazdan fəzilətlidir.

Məsələ 1229: Namaz üçün cəmiyyət toplandıqda namazını fərdi qılmış şəxsin yenidən cəmiyyətlə qılması müstəhəbdir. Əgər sonradan birinci namazının batil olduğunu bilsə, ikinci namaz bəs edər.

Məsələ 1230: İmam-camaat namazını bir cəmiyyətlə qıldıqdan sonra ikinci cəmiyyətlə də qıla bilər. Amma iki dəfədən artıq qılmasına irad var. Beləcə, bir imam-camaat iki məsciddə cəmiyyət namazı qıla bilər.

Məsələ 1231: İnsanın namazdakı vasvasılığı onun namazı üçün nöqsandır. Bir şəxs namazı camaatla qılacağı təqdirdə vasvasılıqdan uzaq olacağını bilərsə, namazını camaatla qılmalıdır.

Məsələ 1232: "İstisqa", yə'ni yağış namazı, imamın qeybi dövründə müstəhəb olan Fitr və Qurban bayramı namazlarından savayı heç bir müstəhəb namazı camaatla qılmaq olmaz.

Məsələ 1233: Yövmiyyə namazlarının istənilən birində imama iqtida etmək olar. Məsələn, imam günorta namazı qılırsa, ikindi namazını ona iqtida etmək olar. Amma imam ehtiyat üçün namazını təzələyərsə ona iqtida etmək olmaz. Amma hər ikisi ehtiyat üçün qılsa eybi yoxdur.

Məsələ 1234: Əgər imam-camaat qəza namazı qılıbsa, ona iqtida etmək olar. Amma namazını ehtiyat üçün qəza edirsə, ona iqtida etməyə irad var.

Məsələ 1235: İmamın nafilə və ya vacib namaz qıldığını bilmədən ona iqtida etmək olmaz.

Camaat namazının şərtləri

Məsələ 1236: Camaat namazında bir neçə şərtə əməl etmək lazımdır:

1. Ara kəsmənin olmaması

İmamla mə'mumlar, eləcə də mə'mumlar arasında görməyə mane olan arakəsmə olmamalıdır. Hətta şüşə arakəsmənin eybi var. Amma mə'mum qadın olarsa onunla kişilər arasında ara kəsmə olmasının eybi yoxdur.

Məsələ 1237: İmam mehrabda dayandığı vaxt onun arxasında bir nəfər iqtida etməsə, sağ və solda dayanıb mehrabın divarı səbəbindən imamı görməyənlər ona iqtida edə bilməzlər. hətta imamın arxasında bir şəxs dayandığı halda mehrabın divarları səbəbindən onu görməyənlərin iqtida

etməsi iradlıdır. Amma onların arxasında dayananların namazı düzgündür. Hətta cərgələr artıq məsciddən xaric olarsa, eybi yoxdur.

Məsələ 1238: Cərgələr uzandığından cərgənin qurtaracağında dayananlar imamı görməzsə bunun eybi yoxdur. Bir cərgənin uzanması səbəbindən onun iki tərəfində dayananların da qarşısını görməməsi camaat namazına mane olmur.

Məsələ 1239: Sütunun arxasında dayanmış şəxs sağ və sol tərəfdən mə'mumlar vasitəsi ilə imama bağlanırsa qıldığı namaz düzdür.

2. İmamın yerinin mə'mumun yerindən hündür olmaması

Məsələ 1240: İmamın yeri mə'mumun yerindən hündür olmamalıdır. Amma azca hündürlüyün eybi yoxdur. Yer mailli olsa və imam hündür tərəfdə dayansa, maillik çox olmadıqda və həmin yer haram adlandırıldıqda bunun eybi yoxdur.

Məsələ 1241: Mə'mumun yerinin imamın yerindən hündür olmasının eybi yoxdur. Amma imam məscid səhnəsində dayansa mə'mumların balkon və damda dayanması, "camaat namazı" adlandırılmayacaq şəkildə yerləşməsi düzgün deyil. Məsələn, imamın birinci mərtəbədə dayandığı vaxt mə'mumun camaatdan uzaq təbəqədə dayanması düzgün sayılmır.

3. İmamla mə'mum arasında ara olmaması

Məsələ 1242: Əgər imamla mə'mum və ya mə'mumların öz arasında bir neçə addım ara olarsa, onlara toplum deyildikdə bunun eybi yoxdur. Demək, arada namaz qılmayan bir, iki nəfərin olması namazı batil etmir. Amma müstəhəbdir ki, cərgələr bir-birinə tam bağlansın.

Məsələ 1243: İmam təkbir deyib namaza başlayan vaxt ön cərgələr namaza hazır olduqda hamı təkbir deyib namaza başlaya bilər və qarşıdakıların namaza başlamasına gözləmək lazım deyil. Hətta gözləmək ehtiyata ziddir.

Məsələ 1244: Mə'lum olsa ki, qarşıdakı cərgələrdən birinin namazı batildir, sonrakı cərgələr iqtida edə bilməz.

4. Mə'mum imamdan öndə dayanmamalıdır.

Məsələ 1245: Əgər mə'mum namazın əvvəlində və ya gedişində qabaqda dayansa onun namazı batil olur. Ehtiyat budur ki, imamla bir bərabərdə də dayanmasın. Namazın bütün gedişində, hətta rüku və səcdələrdə də imamdan bir qədər arxada dayanmaq lazımdır.

Camaat namazının hökmləri

Məsələ 1246: Mə'mum imamın namazının batil olduğuna tam əminsə, məsələn, bilirsə ki, imamın dəstəmazı yoxdur, ona iqtida edə bilməz. İmam özü bunu bilməsə də fərqi yoxdur. Amma mə'mum namazdan sonra imamın ədalətli olmadığını, ya Allah eləməmiş, kafir olduğunu, ya namazının batil olduğunu bilərsə namazı düzgündür.

Məsələ 1247: Əgər mə'mum namazın gedişində şəkk etsə ki, iqtida niyyət edib yoxsa yox, əminlik əldə edə bilsə, namazını camaatla başa vurur. Amma əminlik əldə etməsə, namazını fərdi niyyətlə başa çatdırmalıdır.

Məsələ 1248: Üzürsüz səbəbə camaat namazından ayrılmaq, fərdi namaz niyyət etmək olmaz. İnsanın öncədən və ya namaz əsnasında belə bir qərara gəlməsinin fərqi yoxdur.

Məsələ 1249: Əgər mə'mum hər hansı üzür səbəbindən imam Həmd-surəni dedikdən sonra namazdan ayrılarsa və fərdi niyyət edərsə Həmd-surəni oxumamalıdır. Amma əgər həmd-surə başa çatmamış niyyət edərsə, imamın oxumadığı miqdarı oxumalıdır.

Məsələ 1250: Əgər namaz gedişində hər hansı üzür səbəbindən fərdi namaz niyyət edilsə, yenidən camaat namazına qatılmaq olmaz. Əgər fərdi niyyət edib-etməməklə bağlı tərəddüddə olarsa və sonra qərara gələrsə ki, namazı camaatla qılsın, qıldığı namaza irad var. Amma fərdi niyyət edib-etmədiyinə şəkk də olsa, qəbul edir ki, fərdi niyyət etməyib.

Məsələ 1251: İmam rükuda olduğu vaxt ona iqtida edən şəxs imamın rükusuna çatarsa namazı düzgündür. Rükuda imama çatmazsa və ya çatıb-çatmadığına şübhə edərsə, namazı fərdi tamamlasın və vacib ehtiyat budur ki, namazını təzələsin.

Məsələ 1252: Namazın digər rəkətlərində (birinci rəkətdən başqa) və imamın rükusuna çatmaq lazımdır. Yoxsa, şəxsin qıldığı camaat namazına irad var.

Məsələ 1253: Əgər imam rükuda olduğu vaxt iqtida etsə və rüku həddinə əyilənədək imam rükudan qalxsa, fərdi niyyət etsin və namazı düzgündür. Onu təkrarlamaq lazım deyil.

Məsələ 1254: Əgər namazın əvvəlində və ya həmdlə surə arasında iqtida etsə və imamın rükusuna çatmasa, qıldığı camaat namazı düzgün deyil. Üzürlü hal istisnadır.

Məsələ 1255: Camaat namazına çatdığı vaxt imam namazın son təşəhhüdünü oxuyarsa bu namazdan savab əldə etmək məqsədi ilə niyyət edib təkbirətül-ehram deyir və əyləşir. Təşəhhüdü imamla oxuyur, amma salam demir. Bir qədər səbr edir, imam salamı dedikdən sonra ayağa qalxıb

namaza davam edir. Yə'ni həmd-surə oxuyur və bunu namazın birinci rəkəti sayır.

Məsələ 1256: Əgər ikinci rəkətdə iqtida etsə, qunut və təşəhhüdü imamla desə, ehtiyat budur ki, təşəhhüdü oxuyarkən dizlərini yerdən qaldırıb yalnız əllərini və ayaqlarını yerdə saxlasın (yarım oturaq vəziyyət alsın). İmamın təşəhhüdündən sonra qalxıb həmd-surə oxusun. Surəyə vaxt olmasa həmdi oxuyub rükuda imama çatsın.

Məsələ 1257: İmamın ikinci rəkətində iqtida edən şəxs öz namazının ikinci rəkətində, imamın namazının üçüncü rəkətində iki səcdədən sonra oturur, təşəhhüdün vacib miqdarını oxuyub qalxır və imama çatır. Əgər üç dəfə təsbihat deməyə vaxt çatmasa, bir dəfə deyir və rükuda özünü imama çatdırır.

Məsələ 1258: Əgər imam üçüncü və ya dördüncü rəkətdə olsa, mə'mum iqtida edəcəyi təqdirdə Həmd oxumaqla rükuda imama çatmayacağını bilsə, vacib ehtiyata əsasən, səbr etsin, imam rükuya getdikdən sonra iqtida etsin.

Məsələ 1259: Əgər üçüncü və ya dördüncü rəkətdə imama iqtida etsə, Həmd və surəni oxumalıdır. Surə üçün vaxt olmasa təkcə Həmdi oxuya bilər. Amma özünü rükuda imama çatdırmalıdır.

Məsələ 1260: Bir şəxs əmin olsa ki, surəni oxusa rükuda imama çatacaq, vacib ehtiyat budur ki, surəni oxusun. Əgər surəni oxuduqda təsadüfən rükuda imama çatmasa, qıldığı camaat namazı düzgündür.

Məsələ 1261: Əgər imam ayaq üstə olsa və mə'mum hansı rəkətin qılındığını bilməsə, iqtida edib, savab məqsədi ilə Həmd surəni oxuya bilər və namazı düzgündür. İmamın üçüncü və ya dördüncü, birinci və ya ikinci rəkətdə olmasının fərqi yoxdur. Bir şərtlə ki, namaz günorta və ikindi namazı olsun və imam Həmd-surəni astadan oxumuş olsun.

Məsələ 1262: Əgər düşünsə ki, imam birinci və ya ikinci rəkətdədir, Həmd-surəni oxumasa və rükudan sonra başa düşsə ki, imam üçüncü və ya dördüncü rəkətdə imiş, namazı düzgündür, amma rükudan öncə bunu başa düşsə, Həmd-surəni oxumalıdır. Vaxtı olmasa təkcə Həmd oxuya bilər. Amma rükuda imama çatmalıdır.

Məsələ 1263: Müstəhəb namaz qıldığı vaxt camaat namazı başlasa namazı bitirdiyi halda camaat namazına çatmayacağından qorxsa, müstəhəbdir ki, namazı saxlayıb camaat namazına qoşulsun.

Məsələ 1264: Vacib namaz qıldığı vaxt camaat namazı başlasa, üçüncü rəkətə daxil olmayıbsa, çatmayacağından qorxduqda müstəhəbdir ki, niyyətini müstəhəb namaza çevirib iki rəkətlə kifayatlənsin və özünü camaat namazına çatdırsın.

Məsələ 1265: Mə'mum təşəhhüd və salam oxuduğu vaxt imam namazını tamamlasa fərdi niyyət etmək lazım deyil.

Məsələ 1266: İmamdan bir rəkət geridə qalmış şəxs imam təşəhhüdü oxuduğu vaxt ehtiyat budur ki, dizlərini yerdən qaldırıb əllərini və

ayaqlarını yerdə saxlasın və imamla təşəhhüdü söyləsin. Təşəhhüd əvəzinə zikr də deyə bilər. Əgər təşəhhüd son təşəhhüddürsə səbr etsin ki, imam namazın salamını söyləsin, sonra ayağa qalxıb namazını davam etdirsin.

İmam-camaatla bağlı şərtlər

Məsələ 1267: İmam-camaat büluğ həddinə çatmış, ağıllı, adil, halalzadə, on iki imamçı şiə və qiraəti düzgün şəxs olmalıdır. Mə'mum kişidirsə, imam da kişi olmalıdır. Amma qadın qadınlar üçün imam dayana bilər.

Məsələ 1268: Ədalət dedikdə insanın batinindəki Allah qorxusu nəzərdə tutulur. Belə bir qorxu insanı böyük günahlara batmaqdan və kiçik günahları təkrarlamaqdan çəkindirir. Ünsiyyətdə olduğumuz bir şəxsdən günah görməmişiksə, bu onun ədalətini göstərir.

Məsələ 1269: Əvvəllər ədalətli olmuş şəxsin həmin halda qalıb-qalmadığına şəkk varsa, onu ədalətli saymaq lazımdır. Amma ədalətdən düşdüyünə əmin olduqda münasibət dəyişir.

Məsələ 1270: Ayaq üstə namaz qılan şəxs oturan və ya uzanmış halda namaz qılan şəxsə iqtida edə bilməz. Oturaq vəziyyətdə namaz qılan şəxs uzanmış vəziyyətdə namaz qılan şəxsə iqtida edə bilməz.

Məsələ 1271: Əgər imam-camaat təyəmmüm və ya cəbirə ilə namaz qılırsa, ona iqtida etmək olar. Amma üzürlü səbəbdən murdar libasla məcbur qalıb namaz qılırsa, vacib ehtiyata əsasən, ona iqtida edilməməlidir. Eləcə də, sidik və nəcisini saxlaya bilməyən şəxs, istihazə halında olan qadın, ümumi şəkildə namazını üzürlü səbəbdən naqis qılan şəxs imam-camaat dayana bilməz. Amma təyəmmüm və cəbirə dəstəmaz istisnadır.

Məsələ 1272: Xora və ala xəstəliyinə tutulmuş şəxs ehtiyata əsasən imam-camaat dayana bilməz. Hətta özü kimiləri üçün də imam dayanması yaxşı deyil.

Camaat namazı hökmlərinin davamı

Məsələ 1273: Mə'mum öz niyyətində imamı müəyyənləşdirməlidir. Amma imamın adını bilmək vacib deyil. Əgər qarşıda dayanmış zəruri şərtlərə malik imama iqtida etmək niyyət edilərsə kifayatdir.

Məsələ 1274: Mə'mum namazın Həmd-surəsindən başqa bütün zikrlərini deməlidir. Həmd-surə o zaman öhdədən götürülür ki, mə'mum birinci və ikinci rəkətlərdə imamla namaz qılsın. Amma üçüncü və dördüncü rəkətlərdə imamın qiyam vəziyyətində ona iqtida edən şəxs Həmd-surəni özü deməlidir.

Məsələ 1275: Əgər mə'mum sübh, şam və xiftən namazlarında imamın qiraət səsini eşidərsə Həmd-surəni deməməlidir. Əgər imamın səsini eşitməzsə Həmd-surəni astadan oxuya bilər. Günorta və ikindi namazlarında isə vacib ehtiyat budur ki, Həmd və surəni heç vaxt deməsin. Amma astadan zikr demək olar və bu müstəhəbdir.

Məsələ 1276: Əgər mə'mum imamın Həmd-surəsinin bə'zi kəlmələrini və ya aydın olmayan şəkildə səsini eşidərsə, vacib ehtiyata əsasən, Həmd-surə deməsin.

Məsələ 1277: Əgər mə'mum səhvən Həmd-surə oxuyarsa və ya düşünərsə ki, eşitdiyi səs imamın səsi deyil, sonradan həmin səsin imamın səsi olduğunu başa düşdükdə namazı düzgündür. İmamın və ya başqa birinin səsi olduğuna şübhə etdikdə ehtiyata əsasən Həmd-surə oxumalıdır.

Məsələ 1278: Mə'mum təkbirətül-ehramı imamdan qabaq deməməlidir. Amma digər zikrləri öncə deməsinin eybi yoxdur. Müstəhəb ehtiyata əsasən, imamın səsini eşitdiyi halda ondan öncə deməsin.

Məsələ 1279: Mə'mum namazın əməllərini, məsələn, rüku və səcdələri imamdan öncə yerinə yetirməməlidir. Əməllər imamla birlikdə və ya azca ondan sonra yerinə yetirilməlidir. Əgər mə'mum səhvən imamdan qabaq rükudan qalxsa yenidən rükuya getməli və imamla birlikdə qalxmalıdır. Bu halda rükunun say çoxluğu namazı batil etmir. Amma rükuya qayıtdıqda imama çatmamış imam rükudan qalxarsa namazı batildir.

Məsələ 1280: Mə'mum imamın səcdədən qalxdığını düşünüb səcdədən qalxarsa imam qalxmadığı halda yenidən səcdəyə getməlidir. Əgər bu hal hər iki səcdədə yaranarsa rükn olan iki səcdənin artması burada namazı batil etmir. Amma səcdəyə qayıtdığı vaxt imam səcdədən qalxarsa bu hal iki səcdədə baş verdikdə namaz batil olur.

Məsələ 1281: Əgər səhvən rüku və ya səcdədən qalxarsa və təkrar qayıdışda imama çatmayacağını düşünüb rüku və səcdəyə getməzsə namazı düzgündür.

Məsələ 1282: Əgər mə'mum səhvən imamdan qabaq rükuya gedərsə, qalxıb imamın qiraətinin bir hissəsinə çatsa qalxmalıdır və imamla birlikdə rükuya getməlidir. Əgər imamın qiraətinə çatmayacağını bilsə, vacib ehtiyat budur ki, başını qaldırıb namazı imamla tamamlasın və yenidən qılsın.

Məsələ 1283: Mə'mum geri qayıtmalı olduğu hallarda bilərəkdən qayıtmasa, namazına irad var.

Məsələ 1284: İmam təşəhhüd olmayan rəkətdə səhvən təşəhhüd desə, ya qunutu olmayan rəkətdə səhvən qunut tutsa, mə'mum təşəhhüd və qunutu oxumamalıdır. Amma imamdan qabaq dura bilməz və ya imamdan öncə rükuya gedə bilməz. İmamın səhvini işarə ilə ona çatdırmalıdır. Əgər mümkün olmasa, səbr etməlidir ki, imam təşəhhüd və ya qunutu tamamlasın. Namazın davamını isə onunla qılır.

Camaat namazında müstəhəb olan işlər

Məsələ 1285: Camaat namazında savab ümidi ilə aşağıdakı göstərişlərə riayat etmək müstəhəbdir:

1. Əgər mə'mum bir kişisə imamın sağ tərəfində, azca ondan arxaya dayansın. Əgər bir qadınsa imamın sağ tərəfində elə dayansın ki, onun səcdə yeri imamın diz və ya durduğu yer bərabərində olsun. Əgər mə'mum bir kişi və bir qadın, ya da bir kişi və bir neçə qadınsa, kişi imamın sağ tərəfində o birilər imamın arxasında dayansın. Əgər bir neçə kişi və bir neçə qadınsa hamılıqla imamın arxasında dayansınlar. Mə'mum bir neçə kişi və bir neçə qadın olduqda kişilər imamın arxasında, qadınlar kişilərin arxasında dayansınlar.

2. Əgər həm imam, həm də mə'mum qadın olarsa, bir cərgədə dayansınlar. Amma imam bir qədər irəlidə dursun.

3. İmam cərgənin orta hissəsində dayansın. Elm, fəzilət və təqva əhli birinci sırada dayansınlar.

4. Camaat namazının cərgələri nizamlı olsun. Cərgədəkilərin çiyinləri bir xətdə olsun. Bir cərgədə dayananlar arasında ara buraxılmasın.

5. "Qəd qamətis-səlat" dedikdən sonra mə'mumlar qalxsınlar camaat namazına hazır olsunlar.

6. İmam-camaat başqalarından halsız olan mə'mumların vəziyyətini nəzərə alsın, tələsməsin. Eləcə də rüku, səcdələr və qunutu uzatmasın. Amma iqtida edənlərin hamısında bu hazırlığın olduğunu bilərsə, namazı uzada bilər.

7. İmam-camaat Həmd və surəni oxuyan zaman səsini mə'mumların eşidəcəyi həddə qaldırsın, amma həddən artıq yox.

8. Əgər imam rükuda anlasa ki, kimlərsə təzəcə namaza çatıb və iqtida etmək istəyirlər, rükunu azca uzatsın ki, onlar namaza qoşula bilsin. Amma rükunu iki rüku həddindən çox uzatmasın. Hətta başqa birinin də qoşulmaq istədiyini bilsə rükuda bu həddi gözləsin.

Camaat namazında məkruh olan işlər

Məsələ 1286: Savab ümidi ilə aşağıda göstərilən hallardan çəkinmək daha yaxşıdır:

1. Əgər sıralarda yer varsa tənha dayanmasın.

2. Mə'mum namazın zikrlərini elə desin ki, imam eşitməsin;

3. Günorta və ikindi, eləcə də xiftən namazını yarı qılan müsafir müsafir olmayanlar üçün imam dayanmasın. Eləcə də, müsafir olan şəxs müsafir olmayana iqtida etməsin (əlbəttə burada savabın azlığı nəzərdə tutulur.)

Ayat namazının hökmləri

Məsələ 1287: Dörd halda ayat namazı vacib olur:

1, **2**. Günəş və ay tutulanda (bir hissəsi də tutulsa, qorxan olsa da, olmasa da).

3. Zəlzələ baş verəndə (bir şəxs qorxsa da, qorxmasa da);

4. Şimşək çaxanda, qara və qırmızı külək əsəndə, qorxulu səma hadisəsi baş verəndə. (Bu halda çoxlarının qorxması şərtdir.) Vacib ehtiyata əsasən, çoxlarını qorxuya salan yer hadisələri baş verəndə də ayat namazı qılınmalıdır.

Məsələ 1288: Ayat namazına səbəb olan hadisələr təkrar baş verdikdə onların hər biri üçün namaz qılmaq vacibdir. Məsələn, bir neçə dəfə zəlzələ baş verdikdə, günəş tutulduğu vaxt zəlzələ baş verdikdə hər bir hadisə üçün namaz qılınır. Amma ayat namazı gedişində hadisə baş verərsə həmin namaz bəsdir.

Məsələ 1289: Qılınan namazın hansı hadisə ilə bağlı qılındığını müəyyənləşdirmək vacib deyil. Vacib niyyəti yerinə yetirmək bəs edir.

Məsələ 1290: Ayat namazı hadisə baş verən yerin əhlinə vacibdir.

Məsələ 1291: Günəş və ay tutulmasına görə ayat namazının vaxtı günəş və ay tutulmağa başlayandan tam açılana qədərdir. Müstəhəb ehtiyat budur ki, açılmağa başlayan vaxt qılınsın.

Məsələ 1292: Zəlzələ, şimşək və bu kimi hadisə baş verdikdə dərhal ayat namazı qılınmalıdır. Dərhal qılmayan günaha yol vermişdir, müstəhəb ehtiyat budur ki, ömrünün sonunadək nə vaxt bacarsa qılsın.

Məsələ 1293: Əgər günəş və ay tutulması baş verdikdən sonra bu hadisədən xəbər tutarsa, ayat namazının qəzasını yerinə yetirməlidir. Amma günəş və ay tam tutulmadıqda qəzasını qılmaq vacib deyil.

Məsələ 1294: Günəş və ya ayın tutulduğunu bilib buna əmin olmadığından namaz qılmayan şəxs, sonradan düz deyildiyini bilərsə, günəş və ya ay tam tutulmuşsa, ayat namazı qılmalıdır.

Məsələ 1295: Astronomların və ya bu sahədən mə'lumatlı insanların günəş və ya ayın tutulması ilə bağlı dediklərindən əminlik yaransa, ayat namazı qılmalıdır. Əgər söylənilsə ki, filan vaxt günəş və ya ay tutulacaq, bu hadisə filan müddət davam edəcək, əminlik yarandıqda vaxtı gözləməlidir.

Məsələ 1296: Gündəlik namaz vacib olduğu vaxt ayat namazı vacib olarsa, hər ikisi üçün vaxt olduqda hansını qabaq qılsa olar. Birinin vaxtı dar olsa həmin namazı öncə qılmalıdır. Hər ikisinin vaxtı dar olsa öncə gündəlik namazı qılmalıdır.

Məsələ 1297: Gündəlik namazın gedişində anlasa ki, ayat namazının vaxtı dardır, gündəlik namazın da vaxtı dar olduqda onu davam etdirib, sonra ayat namazı qılmalıdır. Gündəlik namazın vaxtı dar olmadıqda, onu

saxlayıb ayat namazını qılmalı, sonra gündəlik namazı yerinə yetirməlidir. Ayat namazının gedişində mə'lum olsa ki, gündəlik namazın vaxtı dardır, ayat namazını saxlayıb gündəlik namazı qılmalıdır. Namazı bitirdikdən sonra namaz halından çıxmamış ayat namazının davamını qıla bilər.

Məsələ 1298: Əgər qadın aybaşı və nifas halında olduğu vaxt günəş və ay tutularsa, günəş və ya ay açılanadək heyz və nifas qanından təmizlənməsə, ayat namazı ona vacib deyil, qəzası da yoxdur.

Ayat namazının qaydası

Məsələ 1299: Ayat namazı iki rəkətdir. Hər rəkətdə beş rüku var. Onu iki şəkildə yerinə yetirmək olar:

1. Niyyətdən sonra təkbir deyilir, tam şəkildə bir Həmd və surə oxunur, rükuya gedilir. Rükudan qalxdıqdan sonra yenidən bir tam Həmd və surə oxunur, yenə rükuya gedilir. Bu qayda ilə beş dəfə Həmd və surə oxunur, beş rüku yerinə yetirilir. Beşinci rükudan sonra iki dəfə səcdə edilir və ayağa qalxmaqla ikinci rəkətə başlanılır. İkinci rəkət də birinci rəkət kimi qılınır və səcdələrdən sonra təşəhhüd və salam oxunur.

2. Niyyət və təkbirdən sonra Həmd oxunur, surənin ayələri beş hissəyə bölünür. Birinci hissədən sonra rükuya gedilir və rükudan qalxdıqdan sonra ikinci hissə deyilir. İkinci hissə deyildikdən sonra ikinci dəfə rükuya gedilir. Beləcə surənin hər hissəsi oxunduqdan sonra bir rüku yerinə yetirilir. Məsələn, "Həmd"dən sonra "İxlas" surəsi oxunacaqsa, İxlas surəsi beş hissəyə bölünür: "Bismillahir rəhmanir rəhim", "Qul huvəllahu əhəd", "Allahu səməd" "Ləm yəlid və ləm yuləd", "və ləm yəkun ləhu kufuvən əhəd". Hər hissə deyildikdən sonra bir rüku yerinə yetirilir. Beşinci rükudan sonra iki dəfə səcdə edilir və ayağa qalxmaqla ikinci rəkətə başlanılır. İkinci rəkət də eyni qaydada qılınır, sonra təşəhhüd və salam oxunur.

Məsələ 1300: Ayat namazının bir rəkətini birinci, ikinci rəkətini o biri qayda ilə qılmaq olar.

Məsələ 1301: Gündəlik namazda vacib və müstəhəb olan işlər ayat namazında da vacib və müstəhəbdir. Amma ayat namazının azan və iqaməsi yoxdur. Bunun əvəzində üç dəfə "Əssəlat" deyilir.

Məsələ 1302: Müstəhəbdir ki, hər rəkətdə səcdəyə getməzdən öncə "Səmiəllahu li mən həmidəh" və "Allahu əkbər" deyilsin. Eləcə də, hər rükudan öncə və sonra təkbir demək müstəhəbdir.

Məsələ 1303: Onuncu rükudan öncə qunut oxumaq müstəhəbdir.

Məsələ 1304: Rəkətlərin sayında şəkk olsa və neçə rəkət qılındığı bilinməsə, namaz batildir. Amma rəkətlərin sayında şəkk olduqda, az ehtimal əsas götürülür. Məhəl ötsə, yə'ni səcdəyə gedilsə şəkkə e'tina olunmur.

Məsələ 1305: Ayat namazının hər rükusu bir rükndür. Bilərəkdən və ya səhvən bu rüknlər artırılıb-əskildilsə namaz batildir.

Fitr və qurban bayramı namazı

Məsələ 1306: Bu namaz imamın hüzuru dövründə vacibdir və camaatla qılınmalıdır. Amma imam qeybdə olduğu vaxt bu namaz müstəhəbdir və həm camatla, həm də fərdi qılına bilər.

Məsələ 1307: Fitr və qurban bayramı namazlarının vaxtı günəş doğandan günortayadəkdir. Amma müstəhəbdir ki, qurban bayramının namazı günəş qalxdıqdan sonra, fitr bayramının namazı günəş qalxdıqdan sonra iftardan, fitrə zəkatı verildikdən sonra qılınsın.

Fitr və qurban bayramı namazlarının qaydası

Məsələ 1308: Fitr və qurban bayramı namazı iki rəkətdir. Birinci rəkətdə Həmd və surədən sonra beş təkbir deyilir. Hər təkbirdən sonra qunut tutulur. Beşinci qunutdan sonra növbəti təkbir deyilir. Sonra rüku və səcdələr yerinə yetirilir. İkinci rəkətdə dörd təkbir deyilir. Hər təkbirdən sonra qunut tutulur. Beşinci təkbirdən sonra rüku və səcdələr yerinə yetirilir, təşəhhüd və salam deyilir.

Məsələ 1309: Fitr və qurban bayramı namazları iki rəkətdir. Birinci rəkətdə həmd və surə oxunduqdan sonra beş təkbir deyilməli və hər təkbirdən sonra bir qunut tutulmalıdır. Beşinci qunutdan sonra növbəti təkbir deyilir, ardınca rüku və səcdələr yerinə yetirilir. İkinci rəkətdə dörd təkbir deyilir və hər təkbirdən sonra qunut tutulur. Beşinci təkbirdən sonra rüku və səcdələr yerinə yetirilir. Təşəhhüd və salamla namaz başa çatır.

Məsələ 1310: Bu namazların qunutunda istənilən bir duanı oxumaq olar. Amma savab məqsədi ilə bu duanı oxumaq daha münasibdir: "Əllahummə əhləl-kibriyai vəl-əzəmə və əhləl-cudi vəl-cəbəruti və əhləl-əfvi vər-rəhməti və əhlət-təqva vəl-məğfirəti əs`əlukə bihəqqi hazəl-yəvmilləzi cəaltəhu lil-musliminə əydən vəlimuhəmmədin səlləllahu ələyhi və alihi zuxrən və şərəfən və kəramətən və məzidən ən tusəlli əla muhəmmədin və ali muhəmmədin və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi muhəmmədən və alə muhəmmədin və ən tuxricəni min kulli suin əxrəctə minhu muhəmmədən və alə muhəmmədin sələvatukə ələyi və ələyhim əllahummə inni əs`əlukə xəyrə ma səələkə bihi ibadukəs-salihunə və əuzu bikə mimməstəazə minhu ibadukəl-muxləsun".

Fitr və qurban bayramları namazlarında müstəhəb əməllər

Məsələ 1310: Fitr və qurban bayramları namazlarında savab ümidi ilə aşağıdakı əməlləri yerinə yetirmək müstəhəbdir:

1. Bayram namazında qiraəti ucadan oxumaq.

2. Namazdan sonra cümə namazında olduğu kimi iki xütbə oxumaq. Fərq budur ki, cümə namazında namazdan qabaq, bayram namazında namazdan sonra xütbə oxunur. (Bu xütbə camaatla qılınan namaza aiddir).

3. Bu namazlarda xüsusi bir surə oxumaq şərt deyil. Amma yaxşı olar ki, birinci rəkətdə "Səbbihismi rəbbikəl-ə`la" surəsinin əvvəli, ikinci rək`ətdə "Vəş-Şəms" surəsi oxunsun.

4. Fitr bayramı günü bayram namazından öncə xurma ilə oruc açılsın, Qurban bayramında namazdan sonra bir qədər qurban əti yeyilsin.

5. Bayram namazından öncə qüsl verilsin, namazdan əvvəl və sonra dua kitablarında verilmiş dualardan oxunsun.

6. Bayram namazında yerə səcdə edilsin, təkbir deyilərkən əllər yuxarı qaldırılsın.

7. Fitr bayramı gecəsi şam və xiftən namazlarından sonra, fitr günü sübh, günorta və ikindi, eləcə də bayram namazından sonra bu təkbirlər deyilsin: "Əllahu əkbər, əllahu əkbər, la ilahə illəllahu vəllahu əkbəru, əllahu əkbəru və lillahil-həmd, əllahu əkbəru əla ma hədana"

8. Qurban bayramı namazından sonra on namazı (onların birincisi bayram gününün günorta və ikindi namazları, sonuncusu on ikinci günün sübh namazı) başa vurub, eyni təkbirlər deyilir və əlavə olunur: "Əllahu əkbəru əla ma rəzəqna min bəhimətil-ən`ami vəl-həmdu lillahi əla ma əblana". Əgər Qurban bayramı günü Minada olarsa, bu təkbirləri on beş namazdan sonra desin. Bu namazların birincisi bayram gününün günorta namazı, sonuncusu Zil-hiccənin on üçüncü gününün sübh namazıdır.

9. Bayram namazı açıq fəzada qılınsın.

Fitr və qurban bayramları namazının hökmləri

Məsələ 1311: Əgər namazın təkbir və qunutlarının sayında şəkk yaransa, vaxtı ötməyibsə, az ehtimal əsas götürülsün. Sonradan, deyilmiş olduğu bilinsə, namaz düzgündür.

Məsələ 1312: Səhvən qiraət, ya təkbirlər, ya da qunutlar unudulsa, rükuya getdikdən sonra yada düşsə, namaz düzgündür.

Məsələ 1313: Bayram namazında bir səcdə və ya təşəhhüd unudulsa, vacib ehtiyat budur ki, namazdan sonra yerinə yetirilsin. Gündəlik namazlarda səcdeyi-səhvə səbəb olan hal yaransa, vacib ehtiyat budur ki, səcdeyi-səhvi namazdan sonra yerinə yetirsin.

ORUC

Orucun vacib olması

Məsələ 1314: Bütün mükəlləflərə hər il ramazan ayını, sonrakı məsələlərdə veriləcək şərhlər əsasında, oruc tutmaq vacibdir.

Məsələ 1315: İnsanın Allah-taalanın əmrini yerinə yetirmək məqsədi ilə sübh azanından qüruba qədər orucu batil edən şeylərdən (onların şərhi sonra qeyd ediləcək) çəkinməsinə oruc deyilir.

Niyyət

Məsələ 1316: Oruc ibadətlərdəndir və niyyətlə icra edilməsi lazımdır. Niyyətin dilə gətirilməsi və yaxud qəlbdən keçirilməsi lazım deyil. Əgər nəzərində Allahın əmrini yerinə yetirmək məqsədi ilə sübh azanından məğribə qədər orucu batil edən işlərdən çəkinmək olsa, kafidir.

Məsələ 1317: Ehtiyat üçün, bu zamanın hamısında oruc olduğunu yəqin etməkdən ötrü bir az sübh azanından qabaq, həmçinin bir az da qürubdan sonra orucu batil edən işlərdən çəkinməlidir.

Məsələ 1318: Mübarək ramazan aynının gecələrində sabahkı günün orucu üçün niyyət etməsi kafidir. Lakin, birinci gecədə bundan əlavə, bir ayın orucunu niyyət etməsi yaxşıdır.

Məsələ 1319: Niyyətin müəyyən vaxtı yoxdur, sübh azanından qabaqkı vaxta qədər istədiyi vaxtda niyyət etsə, kafidir. Obaşdana durduğu zaman ondan, "Məqsədin nədir?" deyə sual edildikdə "Oruc tutmaq istəyirəm" desə, kafidir.

Məsələ 1320: Bütün gün uzunu müstəhəb orucun niyyətini etmək olar. Hətta qüruba az bir vaxt qalmış olsa belə, orucu batil edən şeyləri yerinə yetirməyibsə, müstəhəb oruc niyyəti edə bilər və onun orucu düzgündür.

Məsələ 1321: Əgər ramazan ayında niyyəti unutsa və zöhr azanından qabaq yadına düşsə, tez niyyət etməlidir və orucu batil edən şeyləri yerinə yetirməyibsə, orucu düzgündür. Lakin, zöhrdən sonra niyyət etsə, (orucu) düzgün deyil.

Məsələ 1322: Ramazan aynının oruclarından başqa, oruc tutmaq istəyən şəxs onu müəyyən etməlidir. Məsələn, qəza və yaxud nəzir orucu tutduğunu niyyət etməlidir. Lakin, ramazan ayında sabah oruc tutacağını niyyət etsə, kafidir. Əgər ramazan ayının olmasını bilməsə və yaxud bilib unutsa və ayrı orucu niyyət etsə, ramazan ayının orucundan hesab olunar. Lakin, bilərəkdən ramazan ayında başqa orucu niyyəti etsə (ramazan ayında başqa oruc tutmağın düzgün olmadığını bildiyi halda), onun orucu batildir. Yəni, nə ramazan və nə də ayrı (orucdan) hesab olmaz.

Məsələ 1323: Niyyət halında birinci, ikinci və s. günlərin orucunu tutduğunu müəyyən etməsi lazım deyil. Hətta, əgər günü müəyyən etsə,

məsələn, “ayın ikinci gününün orucunu tuturam” desə və sonra mə’lum olsa ki, üçüncü gündür, onun orucu düzgündür.

Məsələ 1324: Əgər sübh azanından qabaq oruc niyyəti etsə və sonra huşdan getsə və ya məst olsa və gün ərzində huşa gəlsə və heç bir xilaf iş görmədiyi halda, vacib ehtiyata görə, o günün orucunu tamam etməli və qəzasını da yerinə yetirməlidir.

Məsələ 1325: Əgər ramazan ayı olduğunu bilmədiyindən, yaxud unutduğundan oruc tutmasa və zöhr namazından sonra, yaxud zöhrdən qabaq iftar etmiş halda xəbər tutsa, ramazan ayına ehtiram edərək qüruba qədər orucu batil edən şeylərdən pəhriz etməli və ramazan ayından sonra həmin günün qəzasını tutmalıdır.

Məsələ 1326: Sübh azanından qabaq həddi-büluğa çatan uşaq oruc tutmalıdır. Əgər azandan sonra həddi-büluğa çatsa və orucu batil edən şeyləri yerinə yetirməyibsə, vacib ehtiyata əsasən, oruc tutmalı və sonra qəzasını da yerinə yetirməlidir.

Məsələ 1327: Ramazan ayının və yaxud başqa vacib orucun qəzası boynunda olan şəxsin müstəhəb oruc tutması caiz deyil. Əgər unutqanlıq üzündən müstəhəb oruc tutsa və zöhrdən qabaq yadına düşsə, niyyətini vacib orucla əvəz edə bilər. Lakin, zöhrdən sonra yadına düşsə, orucu batildir.

Məsələ 1328: Ölü bir şəxsin orucunu tutmaq üçün əcir olan şəxs özü üçün müstəhəb oruc tuta bilər.

Məsələ 1329: Mübarək ayın orucundan başqa bir oruc insana vacib olsa, məsələn, müəyyən bir gündə oruc tutmağı nəzir edibsə, əgər bilərəkdən sübh azanına qədər niyyət etməsə, orucu batildir lakin, bunu unutsa və zöhrdən qabaq yadına düşsə, niyyət edə bilər.

Məsələ 1330: Əgər müəyyən olmayan vacib oruc boynunda varsa (ramazan ayının qəza orucu və yaxud kəffarə kimi) zöhrə qədər niyyət edə bilər. Yəni, orucu batil edən şeyləri yerinə yetirmədiyi halda, zöhrdən qabaq niyyət etsə, orucu düzgündür.

Məsələ 1331: Əgər ramazan ayında, zöhrdən qabaq kafir bir şəxs müsəlman olsa və bu vaxta qədər orucu batil edən şeyləri yerinə yetirməyibsə, vacib ehtiyata əsasən, oruc tutmalıdır və qəzası da yoxdur. Habelə, zöhrdən qabaq sağalan xəstə orucu batil edən şeyləri yerinə yetirməyibsə, oruc niyyəti etməli və ehtiyat üçün qəzasını da yerinə yetirməlidir. Əgər, zöhrdən sonra sağalsa, həmin günün orucu vacib deyil, sonra yalnız qəzasını tutmalıdır.

Məsələ 1332: Yəvmuş-şəkdə, yəni insanın tərddüd etdiyi gün - şaban ayının axırı və ya ramazan ayının ilk günü oruc tutmaq vacib deyil. Əgər (yəvmuş-şəkdə) oruc tutmaq istəsə, şaban ayını niyyət etməlidir və yaxud boynunda qəza orucu olsa, qəzanı niyyət etməlidir. Belə ki, sonradan ramazan ayı olduğu mə’lum olsa (orucu) ramazan ayından hesab olar.

Lakin, əgər gün ərzində (ramazan ayı olduğunu) başa düşsə, tez öz niyyətini ramazan ayının orucu ilə əvəz etməlidir.

Məsələ 1333: Əgər ramazan ayında, yaxud hər hansı müəyyən bir vacib orucda oruc tutmaq niyyətindən dönsə və yaxud oruc tutub-tutmamasında tərddüd etsə, orucu batil olur. Həmçinin, orucu batil edən bir şeyi yerinə yetirməyi niyyət etsə, məsələn, nəsə yemək qərarına gəlsə, hətta yemək yeməsə belə, orucu batil olur. Əgər qərara gəldiyi zaman o əməlin orucu batil etməsinə diqqət yetirməyibsə, istisnadır.

Məsələ. **1334:** Müstəhəb və vaxtı müəyyən olmayan orucda (qəza orucu kimi), orucu batil edən şeylərdən birini yerinə yetirməsi qərarına gəlsə və yaxud o işi yerinə yetirib-yetirməməsində tərddüd etsə, əgər (o işi) yerinə yetirməsə, zöhrdən qabaq yenidən niyyət etsə, orucu düzgündür.

Orucu batil edən işlər

Məsələ 1335: Ehtiyata əsasən, doqquz şey orucu batil edir:

1-Yemək-içmək; 2-Cima; 3-İstimna (istimna–spermanın xaric olmasına səbəb olan müəyyən bir iş görmək); 4-Allah, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və onun canişinlərinin (əleyhimüs-salam) adından yalan demək; 5-Qəliz tozu boğaza çatdırmaq; 6-Başını suya batırmaq; 7-Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq; 8-Axıcı (maye) şeylərlə imalə etmək; 9- Bilərəkdən qusmaq.

Orucu batil edən işlərin hökmləri

1-Yemək və içmək

Məsələ 1336: Bilərəkdən yeyib-içmək orucu batil edir –istər o şeyin yeyilib-içilməsi adət olsun, çörək, su və s. kimi, istərsə də adət olmasın, ağac yarpaqları kimi; istər az olsun, istərsə də çox; hətta əgər diş fırçasını ağzından çıxardıb, yenidən ağzına qoyaraq rütubətini udsa, orucu batil olur. Amma əgər diş fırçasının rütubəti az olduğundan ağzının suyunda aradan getsə, istisnadır.

Məsələ 1337: Əgər yemək yediyi və yaxud su içdiyi halda sübh olduğunu bilsə, ağzında olanları geri qaytarmalıdır. Əgər bilərəkdən udsa, orucu batil olar və kəffarəsi də var.

Məsələ 1338: Səhv və unutqanlıq üzündən yeyib–içmək orucu batil etmir.

Məsələ 1339: Vacib ehtiyata görə, oruc tutan şəxs iynə, qida və dərman kimi istifadə edilən sistemlərin vurulmasından çəkinməlidir. Lakin, bədən üzvünü hissiz edən iynələrin vurulmasının eybi yoxdur.

Məsələ 1340: Oruc tutmaq istəyən şəxsin sübh azanından qabaq dişlərini fırçalaması və xilal etməsi yaxışıdır. Əgər dişlərinin arasında qalan yeməyin gündüz udacağını bilsə, vacib ehtiyata əsasən, qabaqcadan onları fırçalayıb

xilal etsin. Belə etmədikdə, yemək udulsa, orucu sona qədər tutmalı və sonra qəzasını da yerinə yetirməlidir.

Məsələ 1341: Ağız suyunu udmaq–hətta əgər turşluq və s. kimi şeyləri xəyala gətirməklə belə ağıza yığılsa, orucu batil etmir. Başdan, sinədən gələn suyu (bəlğəm və burun suyunu), ağız fəzasına çatmadığı halda, udmağın eybi yoxdur. Amma ağız fəzasına daxil olsa, ehtiyat-vacibə görə onu udmamalıdır.

Məsələ 1342: Uşaq üçün yeməyi çeynəmək, yeməyin dadına baxmaq, ağızı su və dərmanla yumaqla onlardan bir şey boğaza getməsə, orucu batil etmir. Əgər ixtiyarsız olaraq boğaza çatsa, eybi yoxdur. Amma əgər əvvəldən ixtiyarsız olaraq boğaza çatacağını bilsə, orucu batildir, qəza və kəffarəsi var.

Məsələ 1343: Əgər insan dözülməz həddə susuzlanıb, xəstələnmək və yaxud həlak olmaq qorxusu hiss etsə, zəruri olduğu qədər su içə bilər. Lakin, onun orucu batil olur. Əgər ramazan ayı olsa, sonrakı günləri oruc tutmalıdır.

Məsələ 1344: İnsan zəifliyə görə orucunu yeyə bilməz. Amma onun zəifliyi dözülməz dərəcədə olsa və xəstələnmək qorxusu hiss etsə, orucunu yeyə bilər.

2-Cima

Məsələ 1345: Cima (qadınla cinsi yaxınlıq), hərçənd dəllək kəsən yerə qədər daxil olsa və sperma gəlməsə belə, hər iki tərəfin orucunu batil edir. Amma dəllək kəsən yerdən az daxil olsa və sperma gəlməsə, oruc batil olmur. Əgər qeyd olunan miqdarın daxil olub-olmamasında şəkk etsə, onun orucu düzgündür.

Məsələ 1346: Əgər oruc olduğunu unudaraq cima etsə və yaxud heç bir ixtiyarı olmadığı halda onu cimaya məcbur etsələr oruc batil olmaz. Lakin, cima əsnasında (oruc tutması) yadına düşsə, yaxud daha bu işə məcbur olmasa, dərhal (cima halından) çıxmalıdır. Əks təqdirdə, onun orucu batildir.

3-İstimna

Məsələ 1347: Əgər oruc tutan şəxs özü ilə bir iş görüb, özündən sperma xaric etsə, onun orucu batil olur. Amma (sperma) ixtiyarsız olaraq yuxuda və yaxud oyaq olduğu halda gəlsə, oruc batil olmur.

Məsələ 1348: Əgər oruc tutan şəxs gündüz yatacağı halda möhtəlim-yuxuda spermanın xaric olacağını bilsə, yatması caizdir. Əgər möhtəlim olsa, orucuna xələl gəlməz.

Məsələ 1349: Əgər oruc tutan şəxs sperma gələn halda yuxudan oyansa, onun qarşısını alması vacib deyil.

Məsələ 1350: Oruc tutan şəxs möhtəlim olsa qusuldan qabaq sidik gəlməsi üçün (hərçənd belə edəcəyi halda spermanın qalan hissəsinin kanaldan xaric olmasını bilsə) istibra edə bilər. Hətta qusl etmiş olsa, bu işin

onun orucu uçün bir zərəri yoxdur. Amma, qalan sperma xaric olduqdan sonra yenidən qusl etməlidir.

Məsələ 1351: Oruc tutan şəxs möhtəlim olsa və spermanın kanalda qaldığını bilib qusuldan qabaq sidiyə getməsə və qusuldan sonra sperma gələcəyi halda, yaxşı olar ki, qusuldan əvvəl sidiyə çıxsın, lakin bu (iş), vacib deyil.

Məsələ 1352: Əgər oruc tutan şəxs spermanın çölə gəlməsi məqsədi ilə istimna etsə, sperma gəlməsə belə, orucu batildir.

Məsələ 1353: Əgər oruc tutan şəxs spermanın çölə gəlməsi qəsdi olmadan, məsələn, öz arvadı ilə mazaqlaşsa və onun adəti bu qədər mazaqlaşmaqla ondan spermanın çölə gəlməsi olmasa, orucu düzgündür. Lakin, əgər təsadüfən ondan sperma xaric olsa orucunun eybi var. Əgər əvvəlcədən spermanın gəlməməsindən xatircəm olsa, istisnadır.

4-Allah, Peyğəmbər (s) və İmamların adından yalan danışmaq

Məsələ 1354: Əgər oruc tutan şəxs Allah, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və o Həzrətin canişinlərinin (əleyhimüs-salam) adından demək, yazmaq, işarə etmək və s. kimi işlərlə yalan desə, hətta əgər dərhal tövbə etsə, vacib ehtiyata əsasən, orucu batildir. Başqa peyğəmbərlərin və həzrət Zəhranın (əleyha salam) adından yalan danışmaq da eyni hökmə malikdir.

Məsələ 1355: Əgər doğru və ya yalan olduğunu bilmədiyi bir hədisi nəql etmək istəsə, gərək xəbəri deyən şəxsdən, yaxud qeyd etdiyi kitabdan nəql etsin. Məsələn, filan ravi belə deyir və yaxud filan kitabda "Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) belə buyrduğu nəql edilir", deməlidir.

Məsələ 1356: Əgər bir şeyin düzlüyünə e'tiqad bəsləyərək onu Allahın və yaxud Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) adından nəql etsə, sonra isə yalan olduğunu başa düşsə, orucu düzgündür. Əks təqdirdə, bir şeyi yalan bildiyi halda Allaha və Peyğəmbərə nisbət versə və sonradan onun doğru olması məlum olsa belə, onun orucunun eybi var.

Məsələ 1357: Əgər başqasının quraşdırdığı yalan xəbəri bilərəkdən Allaha və Peyğəmbərə (səlləllahu əleyhi və alihi və səlləm) nisbət versə, orucunun eybi var.

Məsələ 1358: Əgər oruc tutan şəxsdən "Peyğəmbər belə bir şeyi buyurub ?" deyə soruşsalar və bilərəkdən ""Bəli" desə və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) belə bir sözü buyurmadığı halda və yaxud "Yox" desə və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) demiş olsa, onun orucunun eybi var.

Məsələ 1359: Əgər şəriət hökmlərini nəql etdiyi zaman bilərəkdən yalan danışsa, məsələn, vacib əməli qeyri-vacib, haramı halal desə və məqsədi onu Allaha və Peyğəmbərə (səlləllahu əleyhi və alihi və səlləm) nisbət vermək olsa, orucunun eybi vardır. Lakin, məqsədi hökmü müctəhidə aid etmək

olsa, haram iş görmüşdür, amma orucu batil deyil. Mə'lumatsız halda şübhəli bir hökmü nəql edən şəxs də belədir.

5- Qəliz tozu boğaza çatdırmaq

Məsələ 1360: Qəliz toz boğaza çatıb gilə dönüb, içəri getsə, orucu batil edir. Belə olmadıqda, istər yeyilməsi halal olsun, un kimi, istərsə də haram, oruc düzgündür.

Məsələ 1361: Əgər külək və yeri süpürmək vasitəsi ilə qəliz toz qalxsa və ehtiyatsızlıq üzündən boğaza çatsa, onun orucu batil olur (qabaqkı məsələdə qeyd olunduğu kimi).

Məsələ 1362: Bütün insanların hər bir halda siqaret və digər tütün mə'mulatlarından çəkinmələri lazımdır və əlavə olaraq, bunlar, vacib ehtiyata əsasən, orucun batil olmasına səbəb olur. Həmçinin, ehtiyata əsasən, oruc tutan şəxs qəliz buxarı da boğazına çatdırmasın. Lakin, içi buxarlı olmasına baxmayaraq, hamama getməyin eybi yoxdur.

Məsələ 1363: Əgər oruc olduğunu unutsa, özünü gözləməsə, yaxud ixtiyarsız olaraq toz və s. kimi şeylər boğaza çatsa, onun orucu batil olmur.

Məsələ 1364: Tüstü və tozun boğaza çata biləcəyini ehtimal verdiyi halda ehtiyat etməlidir, lakin, onun boğaza çatmayacağına yəqin və yaxud ehtimalı varsa orucu düzgündür.

6-Başı suya batırmaq

Məsələ 1365: Vacib ehtiyata görə, oruc tutan şəxs bilərəkdən, hətta bədənin qalan hissəsi sudan çöldə olsa belə, başını tamamilə suya batırmamalıdır. Amma bədəninin hamısı, başın isə bir hissəsi suyun altına batsa, lakin başın bir hissəsi sudan xaric olsa, oruc batil olmaz. Başı gülab kimi mayelərə və başqa müzaf sulara batırmaq, mütləq suyun hökmündədir.

Məsələ 1366: Əgər əvvəlcə başın bir hissəsini, sonra isə o biri hissəsini suya batırsa, orucu düzgündür. Lakin, bütün başını suya batırıb, yalnız saçıların bir hissəsi çöldə qalsa, orucunun eybi var.

Məsələ 1367: Boğulan bir nəfəri xilas etmək üçün başını suya batırmağa məcbur olan şəxsin orucunun eybi var. Lakin, müsəlman bir şəxsi xilas etmək üçün bu işi görmək vacibdir və sonradan qəzasını tutmalıdır.

Məsələ 1368: Əgər dalğıclar başlarını papaqları ilə örtüb, onunla suyun təkinə getsələr, orucları düzgündür.

Məsələ 1369: Əgər oruc tutan şəxs ixtiyarsız olaraq suya düşsə, yaxud onu suya atsalar və başı suyun altına batsa, yaxud oruc olduğunu unudub, başını suya batırsa, orucu batil olmaz. Lakin, yadına düşsə, vacib ehtiyata əsasən, tez başını sudan çıxarmalıdır.

Məsələ 1370: Əgər bir şəxs oruc olduğunu unudub qusul niyyəti ilə başını suya batırsa, oruc və quslu düzgündür. Əgər müəyyən bir vacib oruc tutduğunu bilib, qusul üçün qəsdən belə bir iş görsə, vacib ehtiyata əsasən, həm orucun qəzasını yerinə yetirməlidir və həm də yenidən qusl almalıdır.

7-Sübh azanına qədər cənabət halında qalmaq

Məsələ 1371: Vacib ehtiyata görə, bilərəkdən sübh azanına qədər qusl etməyən cənabətli şəxsin orucu batildir. Lakin, qusl etməyə imkanı olmasa və yaxud vaxt az olsa, təyəmmüm etməlidir. Amma (qusul verməməsi) bilərəkdən olmasa, orucu düzgündür. Heyz və nifas qanından təmizlənib, sübh azanına qədər qusl etməyən qadının hökmü cənabət qusulunda qalan şəxsin hökmü ilə eynidir.

Məsələ 1372: Cənabət halında qalmaqla orucun batil olması yalnız ramazan ayına və onun qəzasına aiddir və başqa orucların batil olmasına səbəb olmur.

Məsələ 1373: Əgər cənabətli olan şəxs ramazan ayında quslu unutsa və bir neçə gündən sonra yadına düşsə, cənabətli olduğunu yəqin etdiyi həmin günlərin qəzasını tutmalıdır. Məsələn, əgər üç, yaxud dörd gün cənabətli olduğunu bilmirsə, üç günün orucunu qəza etməlidir və dördüncü günün orucunu tutmaq isə ehtiyat müstəhəbdir.

Məsələ 1374: Ramazan ayının gecəsində qusul və təyəmmümün heç biri üçün vaxtı olmayan bir şəxs, özünü cənabətli etsə, orucunun eybi var; ehtiyata görə, qəza və kəffarəsini yerinə yetirməlidir. Həmçinin, qüsl üçün yox, yalnız təyəmmüm üçün vaxtı olsa (qəza və kəffarəsini yerinə yetirməlidir).

Məsələ 1375: Əgər, qüsl etmək üçün vaxtın olmasını düşünərək özünü cənabətli etsə və sonra vaxtın az olduğunu bilsə, təyəmmüm etsə, orucu düzgündür.

Məsələ 1376: Ramazan ayı gecəsində cənabətli olan bir şəxs yatacağı halda sübhə qədər oyana bilməyəcəyini bilsə, yatmamalıdır. Əgər yatsa və sübhə qədər oyanmasa, orucunun eybi var və vacib ehtiyata əsasən, qəza və kəffarəsini də yerinə yetirməlidir. Lakin, oyanacağını ehtimal verdiyi halda yata bilər və ehtiyata əsasən, ikinci dəfə oyananda yatmayıb, qusl etməlidir.

Məsələ 1377: Ramazan ayının gecəsində cənabətli olan şəxs bilsə, yaxud ehtimal versə ki, yatsa sübh azanından qabaq oyanacaq, bu halda oyanandan sonra qusul alacağını qərara alsa və bu niyyətlə yatıb, azana qədər oyanmasa, orucu düzgündür. Lakin qusul alacağını niyyət etməsə və ya tərddüd etsə ki, qusul edər, ya yox, bu halda oyanmasa, orucunun eybi var.

Məsələ 1378: Əgər belə bir şəxs yatıb oyansa və yaxud bilsə və ya ehtimal versə ki, yatdığı halda sübh azanından qabaq qusul üçün oyana bilər və əgər yatıb oyanmasa, ehtiyata görə həmin günün qəzasını tutmalıdır. Həmçinin, üçüncü dəfə də yatıb oyanmasa, hökm eynidir. Lakin, bunların heç birində ona kəffarə vacib olmur.

Məsələ 1379: Möhtəlim olduğu yuxu birinci yuxu hesab olmur, lakin o yuxudan oyanıb, ikinci dəfə yatsa, ikinci yuxu sayılır.

Məsələ 1380: Gün ərzində möhtəlim olan şəxs tez qusul etməlidir, lakin əgər qusul etməsə, onun orucunun eybi yoxdur.

Məsələ 1381: Əgər ramazan ayında sübh azanından sonra oyanıb, möhtəlim olduğunu görsə və bunun istər azandan qabaq, istərsə də sonra baş verdiyini bilsə, yaxud şəkk etsə, orucu düzgündür.

Məsələ 1382: Ramazan ayının orucunun qəzasını tutmaq istəyən bir şəxs sübh azanından sonra oyanıb möhtəlim olduğunu görsə və sübh azanından qabaq möhtəlim olduğunu bilsə, əgər qəza orucunun vaxtı az deyilsə, vacib ehtiyata əsasən, başqa bir gündə oruc tutsun. Əgər qəza orucunun vaxtı azdırsa, məsələn, boynunda beş gün qəza orucu var və ramazan ayının başlanmasına da beş gün qalırsa, həmin günü oruc tutsun və orucu düzgündür.

Məsələ 1383: Əgər mübarək ramazan ayında sübh azanından qabaq heyz və nifasdan pak olub qusul etməyə vaxtı olmasa, təyəmmüm etməlidir və orucu düzgündür. Lakin, nə qusul və nə də təyəmmüm etməyə vaxtı olmasa, (orucunu tutmalı), sonradan isə qusul etməlidir və orucu da düzgündür.

Məsələ 1384: Sübh azanından sonra heyz və ya nifas qanından pak olan, həmçinin gün ərzində, hətta qüruba yaxın bir vaxtda heyz və nifas qanı görən qadın oruc tuta bilməz.

Məsələ 1385: Əgər qadın sübh azanından qabaq heyz və yaxud nifasdan paklanıb səhlənkarlıq üzündən qusl etməsə, vacib ehtiyata görə, orucu batildir. Lakin səhlənkarlıq üzündən deyil, yalnız hamamın açılmasını və yaxud suyun isti olmasını gözlədiyi üçün azana qədər qusul etməsə, təyəmmüm aldığı halda onun orucu düzgündür.

Məsələ 1386: Əgər istihazə halında olan bir qadın öz qusullarını istihazə hökmlərində deyilən qaydalara uyğun olaraq yerinə yetirsə, orucu düzgündür.

Məsələ 1387: Meyyitə məss edən şəxs və boynunda məss-meyyit quslu vacib olan şəxs qusul almadan oruc tuta bilər. Hətta oruc halında da meyyitə məss etsə, orucu batil olmaz, lakin namaz üçün qusul etməlidir.

8-Mayelərlə imalə etmək

Məsələ 1388: Maye şeylərlə imalə etmək, hətta çarəsizlik üzündən bir xəstəliyin müalicəsi üçün də olsa belə, orucu batil edir. Amma müalicə üçün istifadə olunan qeyri-maye (şam kimi) eybi yoxdur. Ehtiyat vacibə əsasən, qidalanmaqdan ötrü qeyri-mayelərin istifadəsindən çəkinmək lazımdır.

9-Qusmaq

Məsələ 1389: Bilərəkdən qusmaq orucu batil edir. Hətta zəhərlənmədən qurtulmaq, xəstəliyi dərman etmək və s. səbəbilə olsa belə, (orucu batildir). Lakin, səhvən və yaxud ixtiyarsız olaraq qusmaq orucu batil etməz.

Məsələ 1390: Əgər gecə bir şey yesə və bu yemək vasitəsilə gündüz ixtiyarsız olaraq qusacağını bilsə orucu batil olmaz. Lakin, ehtiyat müstəhəbbə görə bu işi görməməlidir. Bu işi gördüyü halda isə orucun qəzasını yerinə yetirməlidir.

Məsələ 1391: Oruc tutan şəxsin zorla qusmağının qarşısını alması vacib deyil, lakin, zərər və məşəqqəti olmadığı halda onun qarşısını alması yaxşıdır.

Məsələ 1392: Əgər yemək qalığı, milçək və s. kimi bir həşarat ixtiyarsız olaraq oruc tutan şəxsin boğazına getsə və çox aşağı getdiyindən çıxardılması mümkün olmasa orucu düzgündür. Bacardığı halda onu çıxarmalıdır və onu çölə çıxarmaq orucuna da heç bir zərər yetirməz. Əksinə, bu halda onu udsa, orucu batildir.

Məsələ 1393: Gəyirmək vasitəsi ilə boğazından qusmaq hesab olunan bir şeyin gəlməsinə yəqin edən şəxs bilərəkdən gəyirməməlidir. Lakin, yəqini olmadığı halda bunun eybi yoxdur və əgər geyirməklə ixtiyarsız olaraq ağzına bir şey gəlsə onu çölə boşaltmalıdır və əgər onu bilərəkdən udsa orucu batildir, lakin, ixtiyarsız olaraq udmağının eybi yoxdur.

Məsələ 1394: Öncədən qeyd edilən doqquz şeyi səhvən və yaxud ixtiyarsız olaraq yerinə yetirən şəxsin orucu düzgündür. Lakin, boynunda cənabət qüslü olan şəxs yatıb, sübh azanına qədər qusl etməsə, orucunun əvvəldə izah etdiyimiz şəkildə eybi var.

Məsələ 1395: Oruc tutan şəxs səhvən orucu batil edən şeylərdən birini yerinə yetirsə və orucunun batil olmasını düşünərək bilərəkdən bu işlərdən birini yenidən təkrar etsə orucu batil olmaz, lakin ehtiyat müstəhəbbə görə, qəzasını tutmalıdır.

Məsələ 1396: Əgər zorla bir şeyi oruc tutan şəxsin boğazına töksələr və ya başını tamamilə suya batırsalar, orucu batil olmaz. Lakin, onu iftar etməyə məcbur etsələr, məsələn, desələr ki, əgər yemək yeməsən sənin canını və malını təhlükədə qoyarıq və o da təhlükəni sovuşdurmaq üçün yemək yesə, orucu batildir.

Məsələ 1397: Vacib ehtiyata görə, oruc tutan şəxs boğazına zorla nəyisə tökəcəkləri və ya onu iftar etməyə məcbur edəcəkləri yerə getməməlidir. Lakin, belə bir yerə getməyi qəsd edib sonra fikrindən daşınsa və ya getdikdən sonra ona yeməyə heç nə verməsələr, orucu düzgündür.

Oruc tutan şəxsə məkruh olan işlər

Məsələ 1398: Oruc tutan şəxsə bir neçə iş məkruhdur:

1. Gözə dərman tökmək;
2. Sürmə çəkmək , əgər dadı, iyi boğaza çatarsa;
3. Zəifliyə səbəb olan işləri görmək, qan almaq, hamama getmək kimi;
4. Burunotu çəkmək, əgər boğaza çatacağını bilməsə; amma əgər boğaza çatacağını bilsə caiz deyildir;
5. Ətirli bitkiləri iyləmək;
6. Ehtiyata görə, qadının suda oturması;
7. Ehtiyata görə, qeyri-maye şeylərlə imalə etmək ;
8. Bədəndəki paltarları islatmaq;

9. Diş çəkdirmək, ağızdan qanın gəlməsinə və zəifliyə səbəb olan bütün işlər ;

10. Təzə çubuqla dişi fırçalamaq;

11. Məninin çölə gəlməsi qəsdi olmadan həyat yoldaşını öpmək, yaxud şəhvətini təhrik edən hər bir iş görmək. Amma məninin çölə gəlməsi qəsdi ilə olsa, orucu batildir.

Qəza və kəffarə vacib olan yerlər

Məsələ 1399: Orucu batil edən şeyləri bilərəkdən və mə'lumatlı olan halda yerinə yetirmək orucu batil etməklə yanaşı, qəza və kəffarəyə də səbəb olur. Lakin, məsələni bilmədiyindən olsa, kəffarəsi yoxdur, lakin, ehtiyata əsasən, qəzasını yerinə yetirsin. İnsanın qürubun olub-olmamasında şəkk etməsinin hökmü də belədir.

Məsələ 1400: Əgər bir şəxs məlumatsızlıq və məsələni bilməzlik üzündən, haram bildiyi işi yerinə yetirsə, lakin bu haram işin orucu batil etməsini bilməsə, ehtiyata görə, kəffarə ona vacibdir.

Orucun kəffarəsi

Məsələ 1401: Ramazan ayının orucunun kəffarəsi üç şeydən ibarətdir: 1-Bir qul azad etmək; 2-İki ay oruc tutmaq; - 3-Altımış fəqiri doyurmaq (Onların hər birinə bir müdd (təqribən, 750qm) buğda, arpa və bunlara oxşar qidalardan versə, kafidir). Bu günümüzdə qul azad etmək imkanı yoxdur. Bu baxımdan, iki şeydən birini icra etməyə ixtiyarı var. Həmçinin, buğdanın yerinə bir müdd miqdarında olan çörək də verə bilər.

Məsələ 1402: Əgər bu üç işdən heç birini yerinə yetirmək imkanı olmasa, neçə müddə imkanı çatsa, fəqirə verməlidir. Əgər buna da imkanı çatmazsa, on səkkiz gün oruc tutmalıdır. Əgər bunu da edə bilməsə, neçə günə imkanı çatsa oruc tutmalıdır. Əgər bunu da edə bilməsə, tövbə etməlidir. Qəlbində "Əstəğfirullah" deməsi də kafidir və sonradan imkanı çatdıqda kəffarə verməsi vacib deyil.

Orucun kəffarəsinin hökmləri

Məsələ 1403: Ramazan ayının orucunun kəffarəsi kimi iki ay oruc tutmaq istəyən bir kəs, vacib ehtiyata əsasən, onun 31 gününü ardıcıl tutmalıdır. Lakin, yuxarıda qeyd etdiyimiz 18 günlük orucu ardıcıl olaraq tutması lazım deyil.

Məsələ 1404: Əgər ardıcıl oruc tutmalı olan günlər arasında üzürsüz olaraq fasilə salsa, (orucların) hamısını əvvəldən başlamalıdır. Lakin, heyz, nifas kimi üzr, yaxud getməyə məcbur olduğu bir səfər qarşıya çıxsa, üzrü aradan getdikdən sonra davam etdirə bilər və yenidən başlaması lazım deyil.

Məsələ 1405: Əgər bir şəxs öz orucunu haram şeylə batil etsə, vacib ehtiyata əsasən, kəffarəsini cəm halda verməlidir. Yəni həm bir qul azad

etməli, həm iki ay oruc tutmalı, həm də 60 fəqiri doyuzdurmalıdır (yaxud da onların hər birinə bir müdd-750 qram miqdarında olan yemək verməlidir). Əgər hər üçünü yerinə yetirmək imkanı olmazsa, mümkün olan qədərini yerinə yetirməlidir (İstər bu şey haram olsun şərab, zina kimi və istərsə də öz arvadı ilə heyz halında yaxınlıq etmək kimi olsun).

Məsələ 1406: Əgər oruc tutan şəxs Allah və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in adından yalan danışsa, cəm kəffarəsi deyil, bir kəffarə verməsi kafidir.

Məsələ 1407: Əgər oruc tutan şəxs ramazan ayının bir günündə bir neçə dəfə cima etsə, ona bir kəffarə vacibdir. Əgər onun ciması haram olsa, bir cəm kəffarəsi və həmçinin, əgər bir gündə bir neçə dəfə orucu batil edən başqa işləri yerinə yetirsə, hökmü eynidir.

Məsələ 1408: Əgər oruc tutan şəxs orucunu halal şeylə batil edib, sonra isə orucu batil edən haram bir iş görsə, vacib ehtiyata əsasən, hər biri üçün bir kəffarə verməlidir.

Məsələ 1409: Oruc tutan şəxs gəyirdiyi halda ağzına gələn şeyi udmamalıdır. Əks təqdirdə orucu batil olar, qəza və kəffarəsi var. Lakin, cəm kəffarəsi lazım deyil.

Məsələ 1410: Əgər bir şəxs müəyyən gündə Allah yolunda oruc tutacağını nəzir etsə və həmin günü bilərəkdən oruc tutmasa və yaxud öz orucunu batil etsə, kəffarə verməlidir (Onun kəffarəsi ramazan ayının kəffarəsi kimidir).

Məsələ 1411: Əgər e'timadsız bir şəxsin "qürub olmuşdur" deməsi ilə iftar etsə və sonra mə'lum olsa ki, qürub olmamışdır, ona qəza və kəffarə vacibdir.

Məsələ 1412: Əgər orucunu bilərəkdən batil edib sonra səfərə çıxsa, kəffarə üzərindən götürülmür. Lakin, bilərəkdən orucunu batil etsə və sonradan heyz, nifas və yaxud xəstəlik kimi üzr qarşısına çıxsa, ona kəffarə vacib deyil.

Məsələ 1413: Əgər ramazan ayının birinci günü olduğunu yəqin edib, qəsdən orucunu batil etsə və sonradan şəban ayının axırı olması mə'lum olsa, ona kəffarə vacib deyil.

Məsələ 1414: Həmçinin əgər bir şəxs ramazanın axırı, yaxud şəvvalın əvvəli olduğunda şəkk etdiyi halda qəsdən orucunu batil etsə və sonradan bayram günü olduğu mə'lum olsa, kəffarəsi yoxdur.

Məsələ 1415: Əgər oruc tutan şəxs ramazan ayında özünün oruc tutmuş arvadı ilə cima etsə, əgər onu məcbur edibsə, həm özünün, həm də arvadının kəffarəsini verməlidir. Amma əgər o cimaya razı olsa, hər birinə bir kəffarə vacib olur. Əgər orucu batil edən digər şeylərə məcbur etsə, günah etmişdir, amma kəffarə isə heç birinə vacib deyil. Lakin, orucunu yeyən şəxs qəzasını tutmalıdır.

Məsələ 1416: Oruc tutan qadın, oruc tutmuş ərini cimaya məcbur etdiyi halda yalnız bir kəffarə ona vacibdir və ərinin kəffarəsini verməsi lazım deyil.

Məsələ 1417: İlk halda cima etməyə məcbur edilən, lakin cima əsnasında bu işə razı olan qadının əri, vacib ehtiyata əsasən, iki kəffarə verməlidir. Qadına isə yalnız qəza vacib olur.

Məsələ 1418: Səfərdə olmaq və ya xəstəlik səbəbi ilə oruc tutmayan bir şəxs arvadını cimaya məcbur edə bilməz. Amma məcbur etsə günah etmişdir, lakin onun da kəffarəsini verməsi lazım deyil.

Məsələ 1419: Kəffarənin dərhal verilməsi lazım deyil. Lakin, "səhlənkarlıq edir" deyiminə səbəb olmamalıdır.

Məsələ 1420: Kəffarəni ödəməməyin üstündən neçə ilin keçməsinə baxmayaraq heç nə ona əlavə olunmaz.

Məsələ 1421: Orucun kəffarəsi üçün 60 fəqirə yemək verməyi seçən bir şəxs hər birinə bir müdd (təqribən, 750 qm) yemək verməlidir. Bir neçə nəfərə bir müdd- 750 qm (yemək) verə bilməz. Lakin, 60 fəqiri tapmadığı zaman bu işi görə bilər. Həmçinin, fəqirin yeməyi öz ailəsinə aparıb onlarla birlikdə yediyini yəqin etdiyi zaman ona ailə üzvlərinin hər biri üçün, hətta azyaşlı olsalar belə, bir müdd-750 qm yemək verə bilər.

Məsələ 1422: Ramazan ayının orucunun qəzasını tutan bir şəxsin zöhrdən sonra orucunu batil etməsi caiz deyil. Bu işi bilərəkdən gördüyü halda isə 10 fəqirin hər birinə bir müdd – 750 qm yemək verməlidir. Bunu bacarmadığı halda üç gün ardıcıl oruc tutmalıdır.

Orucun yalnız qəzası lazım olan yerlər

Məsələ 1423: Bir neçə halda orucun yalnız qəzası lazım olur, kaffarə isə vacib deyil:

1. Ramazan ayının gecələrinin birində cənabətli olub yatsa və sonra oyansa və sonra yenə də ikinci və yaxud üçüncü dəfə üçün yatıb oyanmadığı halda, vacib ehtiyata görə orucun qəzasını tutmalıdır. Lakin, birinci yuxudan oyanmasa, qəzası yoxdur və orucu da düzgündür.
2. Əgər orucu batil edən əməllərdən yerinə yetirməsə lakin, oruc niyyəti etməsə və ya orucunu yeməsini qəsd etsə və yaxud riyakarlıqla orucunu batil etsə.
3. Vacib ehtiyata əsasən, əgər ramazan ayında cənabət quslunu unudub, o hal ilə bir və ya bir neçə gün oruc tutsa;
4. Ramazan ayında sübhün açılıb-açılmamasında araşdırma aparmadan orucu batil edən bir iş görsə və sonradan sübh olduğu mə'lum olsa; Habelə əgər araşdırma aparandan sonra sübh olmasını güman və yaxud şəkk etsə. Lakin, araşdırma apardıqdan sonra sübh olmamasına yəqin edib, bir şey yesə və sonra sübh olduğu mə'lum olsa, qəza vacib deyil.

5. Bir şəxs "sübh olmayıb, hələ vaxta var", desə və insan onun dediyinə əsasən, orucu batil edən bir iş görsə və sonra sübh olduğu məlum olsa, burda da qəza lazımdır. Lakin, araşdırma apardıqdan sonra sübh olmamasına yəqin edib, bir şey yesə və sonra sübh olması mə'lum olsa, qəza vacib deyil.

6. Bir şəxs "sübh olmuşdur" desə və insan onun sözünə yəqin etməsə, yaxud zarafat etdiyini güman edərək orucu batil edən işlərdən görsə və sonra sübhün açıldığı mə'lum olsa;

7. Əgər bir adil şəxs qürub olmasını xəbər versə və onun dediyinə əsasən iftar etsə və sonradan qürubun olmaması mə'lum olsa;

8. Əgər təmiz havada qaranlıq səbəbi ilə qürub olmasını yəqin edib iftar etsə, sonradan qürub olmaması mə'lum olsa;

9. Sərinləmək qəsdi ilə və ya heç bir səbəb olmadan suyu ağzında qar-qara etdikdə ixtiyarsız olaraq onu udsa, qəza etməlidir. Amma əgər oruc olduğunu unudub suyu udsa və yaxud dəstəmaz üçün suyu qar-qara edəndə ixtiyarsız olaraq udsa, ona qəza vacib deyil.

10. Bir şəxs öz arvadı ilə mazaqlaşsa və istimna məqsədi olmadan ondan sperma çölə gəlsə. Lakin, əgər bu işlə spermanın gəlməməsinə əmin olub, təsadüfi halda sperma xaric olsa, orucu düzgündür və qəzası da yoxdur.

Qəza lazım olmayan yerlər

Bir neçə halda orucun qəzası lazım deyil:

Məsələ 1424: a) Maye olmayan şeyi ağzına qoyub, ixtiyarsız olaraq udsa və yaxud burnuna su çəkdiyi halda ixtiyarsız olaraq onu udsa;

b) Ramazan ayında araşdırma apardıqdan sonra sübhün olmamasını yəqin edib, bir şey yesə və sonradan sübhün olması mə'lum olsa;

v) Oruc olduğunu unudaraq suyu udsa;

q) Dəstəmaz aldıqda ağzına su alıb, ixtiyarsız olaraq onu udsa;

ğ) Bir şəxs arvadı ilə mazaqlaşdıqda spermanın gəlməməsinə əmin olduğu halda ondan təsadüfən sperma xaric olsa;

d) Ramazan gecəsində cənabətli olduğu halda yatsa və birinci yuxudan oyanmasa.

Məsələ 1425: Oruc tutan şəxsin çox qar-qara etməsi məkruhdur. Qar-qara etdikdən sonra ağzında olan əlavə suyu boşaltmalıdır. Çox yaxşıdır ki, üç dəfə ağzındakı suyu boşaltsın. Əgər qar-qara etdikdə ixtiyarsız olaraq suyun boğaza getməsini bilsə, qar-qara etməməlidir.

Məsələ 1426: İnsan qürubun olub-olmamasında şəkk etdikdə iftar edə bilməz. İftar etdiyi halda isə həm qəzası və həm də kəffarəsi var. Lakin, sübhün olub-olmamasında şəkk etsə orucu batil edən şeyləri yerinə yetirə bilər və araşdırma aparmaq da vacib deyil.

Qəza orucunun hökmləri

Məsələ 1427: Dəli olduğu vaxtlarda tutmadığı orucları, ağıllı olduqdan sonra qəza etməsi lazım deyil. Habelə, müsəlman olan kafirə, kafir olduğu vaxtlardakı orucların qəzasını tutması vacib deyil. Lakin, müsəlman mürtəd olsa və yenidən qayıdıb, müsəlman olsa, mürtəd olduğu vaxtlarda qəzaya gedən oruclarının qəzasını tutmalıdır.

Məsələ 1428: İstər səhv və istərsə də müalicə qəsdi ilə məstedici maddələri yeməsindən asılı olmayaraq, məstlik halında tərk edilən orucun qəzasını yerinə yetirilməlidir. Əgər qabaqcadan oruc niyyəti edib, lakin məst halında orucu tamamlayan şəxs, vacib ehtiyata görə, orucunun qəzasını yerinə yetirməlidir.

Məsələ 1429: Müsafir olmaq, xəstələnmək və s. səbəblər üzündən tərk edilən orucuların qəzası yerinə yetirilməlidir. Lakin, tərk edilən orucların sayını bilmədikdə yəqin etdiyi günlərin sayı qədər orucun qəzasını yerinə yetirməlidir və ehtiyat müstəhəb olmasına baxmayaraq, ona əlavə etmək vacib deyil.

Məsələ 1430: Əgər bir neçə ramazan ayının qəzalarını tutmalıdırsa, hər hansı ayın qəzasını birinci tutsa, maneəsi yoxdur. Lakin, sonuncu ayın qəzasını tutmağa vaxt az olsa, ehtiyata görə, əvvəl sonuncu ayın qəzasını yerinə yetirməlidir.

Məsələ 1431: Bir kəs ramazan ayının orucunun qəzasını tutsa, bu halda əgər o orucların qəzasının vaxtı az olmasa, zöhrdən qabaq öz orucunu batil edə bilər lakin, zöhrdən sonra caiz deyil. Vacib ehtiyata görə, əgər qeyri-müəyyən oruc (məsələn, nəzir orucunun qəzası kimi) tutduğu halda da zöhrdən sonra orucunu batil etməsin.

Məsələ 1432: Əgər xəstəlik, yaxud heyz və ya nifas səbəbilə ramazan ayının orucunu tutmasa və ramazan ayı qurtarmamışdan qabaq ölsə, tutmadığı günləri onun üçün qəza etmələri vacib deyil.

Məsələ 1433: Əgər xəstəlik səbəbilə ramazan ayının orucunu tutmasa və onun xəstəliyi gələn ilin ramazan ayına kimi davam etsə, oruc tutmadığı günlərin qəzası ona vacib deyil, yalnız hər gün üçün bir müdd (təqribən 750 qm) buğda, arpa və s. kimi fəqirə verməlidir. Amma başqa üzr səbəbilə (məsələn, səfərə getdiyi üçün) oruc tutmasa və onun üzrü gələn ramazan ayına qədər davam etsə, vacib ehtiyata görə, oruc tutmadığı günlərin qəzasını ramazandan sonra qəza etməli və hər gün üçün bir müdd yemək fəqirə versin. Həmçinin, əgər xəstəlik üzündən orucu tərk edib sonradan sağalsa, lakin başqa bir üzrün – müsafirlik kimi -qarşıya çıxması da bu hökmdədir.

Məsələ 1434: Üzürlü səbəbə görə ramazan ayının orucunu tutmayan şəxs, üzrü aradan götürüldükdən sonra bilərəkdən gələn ramazan ayına qədər orucun qəzasını yerinə yetirmədikdə, sonradan qəzasını yerinə

yetirməli və həm də hər gün üçün bir müdd yemək kəffarə verməlidir. Habelə, qəzanı tutmaqdan ötrü səhlankarlıq etdiyindən vaxt daralsa və bu az vaxtda bir üzür ortaya çıxdıqda sonradan həm qəzasını tutmalı və həm də kəffarə verməlidir. Lakin, səhlənkarlıq etmədiyi halda vaxtın az olduğu zamanda təsadüfən, bir üzür qarşıya çıxarsa, sonra yalnız qəzasını yerinə yetirməlidir.

Məsələ 1435: Əgər insanın xəstəliyi bir neçə il davam etsə və sonra sağalsa, növbəti ramazan ayına qədər qəzaları tutmaq miqdarında vaxt olsa, gərək axırıncı ramazan ayının qəzasını tutsun, əvvəlki illərin qəzalarının hər günü üçün bir müdd təam verməlidir.

Məsələ 1436: Əgər ramazan ayının oruclarının qəzasını bir neçə il təxirə salsa, qəzasını yerinə yetirib, hər gün üçün də bir müdd təam fəqirə verməlidir və bir neçə ilin keçməsi ilə kəffarə çoxalmır.

Məsələ 1437: Hər günün kəffarəsini bir fəqirə vermək lazım deyil. Əksinə, bir neçə günün kəffarəsini bir fəqirə verə bilər. Əgər bir müdd miqdarında çörək versə, kafidir. Lakin, onun pulunu verə bilməz. Əgər həmin pulla çörək alacağına əmin olsa, istisnadır.

Məsələ 1438: Ata-ananın vəfatından sonra böyük oğul onun oruc və namazlarını "qəza namazı" bölümündə verilən şərh əsasında yerinə yetirməlidir.

Məsələ 1439: Əgər ölən şəxsin sahibi ölənin qəza orucu olub-olmamasını bilməsə, onun üçün qəza orucu tutmaq vacib deyil. Lakin, ehtimal versə ki, bir müddət oruc qəzası var, yəqin etdiyi qədər (qəzasını) yerinə yetirməlidir və bundan artıq lazım deyil.

Müsafir şəxsin orucunun hökmləri

Məsələ 1440: Müsafir şəxs (müsafirin namazı bölümündə verilən şərh əsasında) oruc tutmamalıdır. Ümumiyyətlə, namaz yarı olan yerlərdə oruc tutulmamalıdır. Namazını bütöv qılan müsafir (məsələn, işi səfər olan, on gün qalmağı qəsd edən) isə səfərdə orucunu tutmalıdır.

Məsələ 1441: Ramazan ayında səfərə çıxmaq haram deyil, lakin, orucdan boyun qaçırmaq üçün səfərə getmək məkruhdur.

Məsələ 1442: Əgər ramazan ayının oruclarından əlavə, vaxtı müəyyən olan digər bir oruc insana vacib olsa (məsələn, şaban ayının 15-də oruc tutmağı nəzir edib), vacib ehtiyata görə, həmin gündə səfərə getməməlidir. Əgər səfərdədirsə, imkan varsa bir yerdə 10 gün qalmasını qəsd edib, həmin günü oruc tutmalıdır.

Məsələ 1443: Oruc tutmağı nəzir edib onun gününü müəyyən etməyən şəxs onu səfərdə tuta bilməz. Amma səfərdə müəyyən bir günü oruc tutmağı nəzir etsə və yaxud səfərdə olub-olmamasından asılı olmayaraq, müəyyən bir günü oruc tutmağı nəzir etsə, vacib ehtiyata görə, o günü səfərdə olmasına baxmayaraq, oruc tutmalıdır.

Məsələ 1444: Müsafir, Allahdan hacətlərini istəmək üçün Mədinə şəhərində üç gün müstəhəb oruc tuta bilər (10 gün orada qalmağı qəsd etməsə belə). Lakin, ehtiyata görə üçüncü, dördüncü və cümə günləri oruc tutsun.

Məsələ 1445: Səfərdə olan zaman orucunun batil olduğunu bilməyən bir şəxs səfərdə oruc tutsa, orucu düzgündür. Amma gün ərzində məsələni başa düşsə, orucu batildir.

Məsələ 1446: Bir şəxs səfərdə olduğunu, yaxud səfərdə orucunun batil olduğunu unudub, bu halda oruc tutsa, vacib ehtiyata görə, orucun qəzasını tutmalıdır.

Məsələ 1447: Oruc tutan şəxs zöhrdən sonra səfərə getdiyi halda orucunu axıra qədər tutmalıdır. Zöhrdən qabaq səfər etdikdə isə orucu batildir. Lakin, tərəxxüs həddinə çatmamışdan qabaq iftar edə bilməz. Əgər o həddə çatmamışdan qabaq iftar etsə, ona kəffarə vacibdir (tərəxxüsdən məqsəd, azan səsinin eşidilmədiyi və camaatın nəzərində, şəhərin gözdən itdiyi yerdir).

Məsələ 1448: Əgər müsafir zöhrdən qabaq öz vətəninə, yaxud 10 gün qalmaq istədiyi yerə çatsa, bu halda orucu batil edən işləri yerinə yetirməyibsə, oruc tutmalıdır. Əgər (orucu batil edən işlərdən) görübsə, sonradan qəzasını tutmalıdır. Müstəhəbdir ki, bu şəxs günün qalmış hissəsində özünü orucu batil edən şeylərdən saxlasın. Lakin, zöhrdən sonra vətənə daxil olsa, oruc tuta bilməz.

Məsələ 1449: Müsafir və oruc tutmaqda üzrü olan bir şəxsin, ramazan ayının gündüzündə doyunca yeyib-içməsi, habelə cima etməsi məkruhdur.

Oruc vacib olmayan şəxslər

Məsələ 1450: Oruc tutmaq onlar üçün çətin olan qoca kişi və qadın oruc tutmaya bilərlər. Lakin, hər gün üçün bir müdd (750 qm) buğda, arpa və s. fəqirə verməlidirlər. Çox yaxşıdır ki, buğda və arpanın yerinə çörək versinlər. (Çörək) verdikləri halda, vacib ehtiyata əsasən, onun çəkisi 750 qm xalis buğda qədər olmalıdır.

Məsələ 1451: Qocalıq səbəbi ilə oruc tutmayan şəxslər, sonra havalar mülayim, gündüzlər qısa olduğu halda oruc tuta bilərlərsə, ehtiyata görə, onun qəzasını tutmalıdırlar.

Məsələ 1452: İnsan aclıq və susuzluq qarşısında dözülməz bir hala gəlib çıxdığı xəstəlik səbəbindən oruc tutmağa taqəti olmasa və yaxud bu iş onun üçün çox çətin olsa, belə şəxsə oruc tutmaq vacib deyil. Lakin, hər gün üçün, qabaqdakı məsələdə deyildiyi kimi, bir müdd (750 qm) yemək kəffarə verməlidir və yaxşı olar ki, belə şəxs zərurətdən çox su içməsin. Əgər sonradan qəzasını tuta bilərsə, vacib ehtiyata görə, qəzasını tutmalıdır.

Məsələ 1453: Doğum vaxtı yaxınlaşan hamilə qadınların oruc tutması bətnindəki uşağa zərər yetirdiyi halda oruc onlara vacib deyil. Lakin,

qabaqkı məsələdə qeyd edilən kəffarəni ödəməlidirlər. Lakin, oruc tutmaq onun özünə zərərli olsa, ona oruc vacib deyil və kəffarəsi də yoxdur. Lakin, sonra qəzasını tutmalıdır.

Məsələ 1454: Uşağa süd verən qadınlar, istər anaları olsun, istərsə də dayələri, oruc tutmaları südlərinin azalıb, uşağın narahatçılığına səbəb olarsa, oruc tutmaq onlara vacib deyil. Lakin, hər gün üçün həmin (bir müdd -750 qm yemək) vacibdir və sonradan da orucun qəzasını tutmalıdırlar. Lakin, oruc tutmaq onların özləri üçün zərərli olarsa, onlara nə oruc və nə də kəffarə vacib deyil. Belə şəxslər sonradan tutmadıqları orucların qəzalarını tutmalıdırlar.

Məsələ 1455: Əgər uşağa muzd almadan süd verən və yaxud minnətsiz olaraq uşağa süd vermək üçün dayənin muzdunu ödəyən bir şəxs tapıldığı halda oruc tutmaq vacib olur.

Ayın əvvəlinin sübut olunması yolları

Məsələ 1456: Ayın əvvəli beş yolla sübut olunur:

1-Ayı gözlə görmək, amma cihazlarla ayı görmək kafi deyil;

2-Sözlərindən yəqin hasil olan bir qrup adamın şəhadət verməsi ilə (əgər adil olmasalar belə), həmçinin, yəqin hasil olan hər şeyin vasitəsi ilə;

3-İki adil kişinin şəhadət verməsi ilə; Lakin, bu iki adil şəxs ayın xüsusiyyətlərini bir-birinin əksinə desələr, yaxud xəbər verdikləri nişanələr onların səhv etdiklərini bəyan etdiyi zaman onların dedikləri ilə ayın əvvəli olması sübuta yetmir.

4-Şəban ayının əvvəlindən 30 gün keçmiş olsa; Bunun vasitəsi ilə ramazan ayının əvvəli olması sübuta yetir. Yaxud ramazan ayının əvvəlindən 30 gün keçsə, bu halda şəvval ayının əvvəli sübut olunur. (Bu, bir haldadır i, öncəki ayın əvvəli də bu yolla isbat edilsin).

5-Şəriət hakiminin (hakimi şər') hökmü ilə; Belə ki, adil müctəhid üçün ayın əvvəli sabit olduqdan sonra ayın əvvəli olmasına hökm versin. Belə olan halda hamının ona itaət etməsi lazımdır və yalnız səhv etməsinə yəqin edən şəxslər ona itaət etməyə bilər.

Məsələ 1457: Ayın əvvəli təqvim və elm əhli olmalarına baxmayaraq, astronomların hesablamalarına əsasən sübuta yetmir. Amma əgər bir şəxs üçün onların dediklərindən yəqin hasil olsa, onlara əməl edə bilər. Habelə, ayın yuxarıda olması və ya gec qürub etməsi keçən gecənin ayın birinci gecəsi olmasına dəlalət etmir.

Məsələ 1458: Əgər bir şəhərdə ayın əvvəli sabit olsa, yaxın və üfüqləri eyni olan uzaq şəhərlər üçün də bu kafidir. Həmçinin, şərq şəhərlərində ay görsənsə, onlara nisbətdə qərbdə yerləşən şəhərlər üçün də bu kafidir. (Məsələn, ayın əvvəli Məşhəd şəhərində isbat olsa, qətiyyətlə Tehran şəhərində olan şəxslər üçün də bu kafidir; lakin, bunun əksi kifayət etmir).

Məsələ 1459: Əgər ramazan ayının əvvəli sübuta yetməsə, oruc vacib deyil. Lakin, sonradan oruc tutmadığı günün ramazan ayının birinci günü olması sübuta yetirilsə, o günün qəzasını tutmalıdır.

Məsələ 1460: İnsan oruc tutduğu günün ramazanın axırı və ya şəvval ayının birinci günü olmasında şəkk etdikdə o günü oruc tutmalıdır. Lakin, gün ərzində şəvval ayının birinci günü olması sübuta yetirilsə, hətta qüruba az qalmasına baxmayaraq, iftar etməlidir.

Məsələ 1461: Zindanda olan şəxs ramazan ayının daxil olmasına yəqin hasil etmədikdə öz gümanına əməl etməli və ən çox ramazan ayı olmasına ehtimal verdiyi ayda oruc tutmalıdır. Lakin, onun üçün heç bir güman hasil olmadığı təqdirdə hər hansı bir ayda oruc tutsa, düzgündür. Vacib ehtiyata əsasən, əgər onun zindanda qalması uzanarsa gələn il də həmin ayda oruc tutmalıdır.

Haram oruclar

Məsələ 1462: Bir ildə iki gün- Fitr (şəvval ayının əvvəli) və Qurban (zilhiccənin onu) bayramları günü oruc tutmaq haramdır.

Məsələ 1463: Əgər qadının (müstəhəb) oruc tutması səbəbilə ərinin haqqı aradan gedərsə, oruc tutması caiz deyil. Hətta ərinin haqqı aradan getməsə belə, vacib ehtiyata əsasən, (oruc tutması) ərinin icazəsi ilə olmalıdır. Həmçinin, övladın müstəhəb oruc tutması ata-ananın əziyyətə düşməsinə səbəb olsa, caiz deyil. Lakin, onlardan icazə almaq lazım deyil.

Məsələ 1464: Oruc tutmağın onun üçün zərərli olmasını bilən bir şəxs oruc tutmamalıdır və əgər oruc tutsa, səhih deyil. Əgər yəqin deyil, oruc tutmağın ona kəskin şəkildə zərər yetirəcəyinə (istər bu, şəxsi təcrübəsindən və istərsə də həkim məsləhətindən) böyük ehtimal verdiyi halda oruc tutmamalıdır.

Məsələ 1465: Əgər həkim oruc tutmağın zərərli olduğunu desə, lakin şəxsi təcrübəsindən oruc tutmağın ona heç bir zərəri olmadığını bilən bir şəxs, oruc tutmalıdır. Zərərin olması mə'lum olmadığı halda bir–iki gün təcrübə edib sonra yuxarıda deyilən hökmlərə əsasən əməl etməlidir.

Məsələ 1466: Oruc tutmağın ona bir zərər yetirməyəcəyini düşünərək oruc tutub qürubdan sonra orucun ona zərər yetirdiyini bildikdə, ehtiyata əsasən, onun qəzasını yerinə yetirməlidir.

Məsələ 1467: Bir şəxs şə'ban ayının axırı və ya ramazan ayının birinci günü olmasında şəkk etsə və bu gündə oruc tutmaq istədisə, şə'ban ayının axırını niyyət etməlidir. Əgər ramazan ayının birinci gününü niyyət etsə, orucu haram və batildir.

Məsələ 1468: Qeyd edilən günlərdən başqa da haram günlər var və o günlər haqqında daha geniş yazılan kitablarda söz açılmışdır.

Məkruh oruclar

Məsələ 1469: "Aşura" gününün, habelə Ərəfə, yaxud Qurban bayramı günü olmasında şəkk olan günün orucu məkruhdur. Qonağın ev sahibinin icazəsi olmasdan oruc tutması da məkruhdur.

Müstəhəb oruclar

Məsələ 1470: Məkruh və haram günlərdən başqa ilin bütün günlərində oruc tutmaq müstəhəbdir. Bə'zi günlərdə isə oruc tutmağa daha çox tə'kid olunmuşdur:

1-Hər ayın birinci və axırıncı cümə axşamı günləri, ayın 10-dan sonra olan birinci çərşənbə; əgər bir şəxs bunları tuta bilməsə, müstəhəbdir ki, qəza etsin.

2-Hər ayın 13, 14, 15-ci günləri;

3-Rəcəb və şə'ban aylarının hamısı. Hamısını tuta bilmədikdə bə'zi günləri, hətta bir gün də belə olsa tutsun;

4-Zil-hiccənin 24-cü və zil-qə'dənin 29-cu günləri;

5- Zil-hiccənin 1-dən 9- na qədər; Əgər zəifliyi ilə əlaqədar oruc tuta bilməsə Ərəfə gününün dualarını oxusun və o günün orucu məkruhdur.

6- "Qədir –xum" bayramında; (18 zil-hiccə)

7- Məhərrəm ayının 1-ci, 3-cü və 7-ci günləri;

8- Peyğəmbərin (s) mövludu günü; (17 rəbiül- əvvəl)

9-Peyğəmbərin (s) besəti günü; (O Həzrətin (s) peyğəmbərliyə seçildiyi gün)

10-Novruz bayramı günü.

Məsələ 1471: Müstəhəb oruc tutan şəxsin orucunu axıra qədər tutması lazım deyil və istədiyi vaxt iftar edə bilər. Hətta, müstəhəbdir ki, mö'min qardaşlardan bir nəfər onu yeməyə də'vət etsə, onun də'vətini qəbul edib iftar etsin.

Oruc tuta bilməyən şəxslər

Məsələ 1472: Altı qrup şəxsin oruc tutması düzgün deyil; baxmayaraq ki, orucu batil edən işlərdən çəkinmələri müstəhəbdir:

1-Səfərdə orucu batil edən işlərdən görüb zöhrdən qabaq vətəninə və ya 10 gün qalmaq istədiyi yerə çatan şəxs;

2- Sonra vətəninə, yaxud 10 gün qalmaq istədiyi yerə çatan müsafir;

3- Zöhrdən qabaq sağalan və orucu batil edən işlərdən birini görən xəstələr;

4-Zöhrdən sonra sağalan xəstələr; baxmayaraq ki, o vaxta qədər heç nə yeməyiblər.

5-Gün ərzində heyz və ya nifas qanından pak olan qadın;

6- Ramazan ayı günlərində zöhrdən sonra İslamı qəbul edən qeyri-müsəlman. Əgər zöhrdən qabaq müsəlman olsa və orucu batil edən işlərdən heç birini etməyibsə vacib ehtiyata görə, oruc tutmalıdır.

Məsələ 1473: Müstəhəbdir ki, oruc tutan şəxs məğrib və işa namazını iftardan qabaq qılsın. Amma hüzuri-qəlb ilə namaz qıla bilməzsə və ya əgər bir şəxs onu gözləyirsə, yaxşı olar ki, əvvəl iftar etsin. Lakin, mümkün olan qədər namazı fəzilətli vaxtında qılsın.

XÜMS

Yeddi halda lazım olan xüms

Məsələ 1474: Yeddi şeydə xüms vacibdir:

1-Qazanc və iş mənfəəti; 2-Mə'dən; 3-Xəzinə; 4-Harama qarışmış halal mal; 5-Dalğıclıq vasitəsi ilə əldə edilən cəvahirat; 6-Müharibə qənimətləri; 7-Zimmi kafirin1 müsəlmandan aldığı torpaq (Vacib ehtiyata əsasən).

Yeddi halda lazım olan xüms və onun hökmləri

1-Qazanc və iş mənfəəti

Məsələ 1475: Əgər insan əkinçilik, sənət, ticarət, fəhləlik, müxtəlif idarələrdə işləməklə və s. qazanc əldə etsə, bu halda özünün, ailəsinin və öhdəsində olduğu şəxslərin illik xərclərindən artıq qaldığı halda, onun xümsünü (beşdən birini) sonradan deyiləcək göstərişlərə əsasən, ödəməlidir.

Məsələ 1476: Qazanc və qazanc növlərində heç bir fərq yoxdur. Lakin, insan başqasından borc ünvanı ilə bir şey alsa, xümsü yoxdur. Həmçinin, irs adı ilə ona çatan malların xümsü yoxdur. Amma, əgər meyyitin öz malının xümsünü vermədiyini və yaxud başqa mallarına görə xümsə borclu olduğunu bilsə, istisnadır.

Məsələ 1477: Əgər bir şəxs ona bir şey bağışlasa və illik xərcindən artıq qalsa vacib ehtiyata görə, onun xümsünü ödəməlidir. Habelə, uzaq qohumundan ona irs çatsa və onun belə bir qohumun olmasından xəbəri olmayıbsa və ona belə bir yerdən irs çatacağına güman etməyibsə, vacib ehtiyata görə, onun xümsünü ödəməlidir.

Məsələ 1478: Əgər bir şəxs hər hansı bir mülkü müəyyən şəxslərə, məsələn, öz övladlarına vəqf etsə və o mülkdən müəyyən gəlir əldə olunsa və onların illik xərclərindən artıq olsa, onun xümsü verilməlidir.

Məsələ 1479: Müstəhəqq şəxslərin xüms və yaxud zəkat ünvanı ilə aldığı şeylərin, illik xərclərindən çox olsa belə, xümsü yoxdur. Lakin, əgər ona bu vasitə ilə verilən maldan müəyyən mənfəət əldə etsə, məsələn, ona xüms kimi verilən ağacdan meyvə əldə etsə, illik xərclərindən artıq qalan hissənin xümsünü verməlidir.

Məsələ 1480: Əgər xümsü verilməmiş pulun özü ilə bir mal alsalar, müamilə xüms miqdarına nisbətdə batildir. Lakin, şəriət hakimi icazə versə, istisnadır. Bu halda, aldığı şeyin beşdə birini şəriət hakiminə verməlidir.

Məsələ 1481: Əgər bir malı öz öhdəliyi ilə alıb, müamilədən sonra onun haqqını xümsünü vermədiyi pulla ödəsə, müamiləsi düzgündür və onu işlətməsi caizdir. Lakin, xümsü verilməyən pulu satıcıya verdiyi üçün , o

[1]İslam dövlətinin himayəsində yaşayıb onun qanunlarına itaət edən kafir.

pulun xümsü qədər ona borclu sayılır. Satıcıya verilən pul yanında qaldığı halda şəriət hakimi onu alacaq. (Pul) xərcləndiyi halda şəriət hakimi onun əvəzini alıcıdan və yaxud da satıcıdan tələb edəcəkdir.

Məsələ 1482: Xümsü verilməyən malı alan şəxsin alveri xümsə nisbətdə batildir. Lakin, şəriət hakiminin icazəsi ilə belə bir alver baş tuta bilər. Belə olan halda gərək alverin xümsünün pulu ona verilsin. Əgər (bu pulu) satıcıya veribsə, ondan alınıb şəriət hakiminə verilməlidir.

Məsələ 1483: Əgər xümsünü vermədiyi bir şeyi başqasına bağışlasa, bu malın xümsü qədəri onun mülkü sayılmır.

Məsələ 1484: Əgər insana kafirdən, yaxud xüms verməyə e'tiqadı olmayan bir şəxsdən müəyyən qədər mal ticarət və yaxud başqa bir yolla yetişsə, onun xümsünü vermək vacib deyil. Lakin, əgər xümsün verilməsinə e'tiqadı olduğu halda xümsünu ödəməyibsə, onun xümsünu ödəmək vacibdir.

Məsələ 1485: Əgər ümumi şəkildə bir şəxsin xümsə e'tiqadlı olduğunu, lakin, xümsünü vermədiyini bilir, amma, bizə verdiyi mala xüms düşüb-düşmədiyini bilmiriksə, məsələn, ehtimal üzündən, bir mal irs vasitəsi ilə ona çatıb və yaxud borc alıb və bu malın da ondan olduğuna ehtimal etdiyimiz halda, bu malda təsərrüf etməyin eybi yoxdur və onun xümsü lazım deyil. Habelə, belə şəxslərin də'vətini qəbul etmək və yaxud evlərində namaz qılmaq caizdir. Lakin, hazırladığı yeməyin və ya tikdirdiyi evin xümsü verilməyən pulla olduğunu bilsək, (orada yemək yeyib namaz qılmaq caiz deyil).

Məsələ 1486: Hər bir şəxsin xüms ilini hesablamaq bşlanğıcı əldə etdiyi ilk qazancdır. Yəni əgər bir şəxs ticarətə, qazanca, sənətə, əkinçiliyə və s. başlasa və əldə etdiyi ilk qazanc günü onun xüms ilidir. Bu vaxtı heç bir məqsəd və niyyətlə nə qabağa və nə də arxaya çəkə bilməz. İlin əvvəlini qabağa çəkmək istəyən şəxs üçün çıxış yolu öz illik hesabını müəyyən edilmiş gündən tez çatdıraraq, xümsünü ödəməsidir. Həmin vaxt onun xüms ili sayılacaq.

Məsələ 1487: İnsan ilin ortasında əlinə çatan hər bir mənfəətin xumsunu verə bilər. Lakin, onun ilin sonuna qədər saxlayıb, ehtimal verdiyi xərclərini ondan götürə bilər.

Məsələ 1488: Xümsü vermək üçün həm qəməri və həm də şəmsi ilini me'yar götürə bilər.

Məsələ 1489: Artıq gəliri olmayan şəxsin xüms ili tə'yin etməsinə ehtiyac yoxdur.

Məsələ 1490: Xüms ili olan şəxs ilin ortasında ölsə ilin sonuna qədər onun xərclərini gəlirlərindən azladıb, qalan hissəsinin xümsünü ödəməlidirlər.

Məsələ 1491: Əgər ticarət üçün aldığı malın qiyməti bahalaşsa, ticarət və alver məsləhətlərinə əsasən, malı satmayıb il ərzində onun qiyməti aşağı

düşsə, bahalanan miqdarın xümsü ona vacib deyil. Lakin, malın qiyməti ilin sonuna qədər yuxarı olduğu halda il tamam olanda onun xümsünü ödəməlidir. Hətta, il tamam olduqdan sonra malın qiyməti aşağı düşsə belə. Bu, bir haldadır ki, ilin sonu malın satılma vaxtı olduğu halda öz istəyi ilə onu satmasın.

Məsələ 1492: Əgər ticarət malından başqa xümsünü vermiş olduğu və ya ümumiyyətlə xümsü olmayan (irs kimi) malı olsa və onu qiyməti bahalanandan sonra satsa, bahalaşan miqdarın xümsünü verməlidir. Həmçinin, xümsünü verdiyi qoyun kökəlsə, onu satan zaman artan çəkinin xümsünü verməlidir.

Məsələ 1493: Əgər qiyməti bahalanandan sonra satmaq məqsədi ilə bağ salsa, onun satış vaxtı yetişdikdə xümsünü ödəməlidir. Amma məqsədi meyvəsindən istifadə etmək olsa, meyvələrin xümsünü verməlidir. Bağın xümsünü isə satan vaxt verəcək.

Məsələ 1494: Materialından istifadə etmək üçün böyüdülən ağacların taxtalarının satış vaxtı yetişdikdə onun xümsünü verməlidirlər; hətta, onu satmaq istəməsələr belə. Lakin, onların satış vaxtı çatmayıbsa, neçə il ötməsinə baxmayaraq, xümsü yoxdur.

Məsələ 1495: Bir neçə iş və qazanc yeri olan şəxs, məsələn, həm əkinçilik edir, həm peşə sahibidir və həm də fəhləlik qazancı varsa, ilin sonunda bütün qazanclarını birgə hesablamalı və xərclərinin qalan hissəsinin xümsünü ödəməlidir.

Məsələ 1496: Fayda əldə etmək üçün etdiyi xərclər, məsələn, dəllallıq, yükdaşıma və s. illik xərclərindən hesab olunur.

Məsələ 1497: Məişət xərclərinin xümsü yoxdur. Yəni, insanın il boyu yemək, geyim, mənzil, ev avadanlıqları, izdivac, qızın cehizliyi, vacib və müstəhəb ziyarətlər, hədiyyə, ziyafət və bu kimi şeylər üçün ifrat etmədən xərclədiyi qazancın xümsü yoxdur. Lakin, ilin sonuna qalan artıq qazancın xümsü var. İlin xərcinə çevrilən şeylərin, məsələn, ev, xalça, ayrı avadanlıqların xümsü yoxdur. Əgər sonradan onu satsalar onun qiymətinə xüms düşməz. Xüsusi ilə əgər onu onun kimi bir şeylə əvəz etmək istəsələr.

Məsələ 1498: İnsanın nəzir, kəffarə və s. şeylərə xərclədiyi mal illik xərclərindən hesab olunur. Habelə bağışladığı, hədiyyə verdiyi mallar ifrat həddində olmadığı halda illik xərclərindən hesab olunur.

Məsələ 1499: Mülki evə ehtiyacı olan şəxsin ev alması üçün xərclədiyi pulun xümsü yoxdur. Lakin, illik gəliri ev alması üçün kafi olmadıqda və bu imkana çatmaqdan ötrü bir neçə il pul yığsa, bir il keçəndən sonra bu pulların xümsü verilməlidir. Amma, misal üçün, ilin əvvəlində ev üçün torpaq, sonrakı ildə evin avadanlıqlarını və üçüncü ildə evin tikinti xərclərini ödədiyi halda heç birinin xümsü yoxdur.

Məsələ 1500: Əksər ailələrdə adətən, qızın cehizliyini tədriclə hazırlayırlar. Bu halda, cehizliyin alınmasından bir il ötdükdən sonra xüms

ona vacib olur. Lakin, bəzi məntəqələrdə əvvəlcədən cehizlik hazırlanmadıqda eyb sayılırsa və yaxud cehizliyi birdəfəlik hazırlamaq imkansız olduqda, alınan cehizliyin xümsü yoxdur.

Məsələ 1501: Özləri üçün qabaqcadan hazırladıqları qəbir və kəfənlərin üstündən bir il ötdükdə xümsü var.

Məsələ 1502: Bir dəfə xümsü verilən mala ikinci dəfə xüms gəlməz. Lakin, xümsü verilən mal inkişaf etsə və ya ona bir şey əlavə olunsa xümsü var.

Məsələ 1503: Qeyd edildiyi kimi, Həcc və ya müstəhəb ziyarətlərin xərci həmin ilin gəlirindən sayılsa, xümsü yoxdur. Əgər çarəsizlik üzündən bir neçə il öncə (ziyarətə getmək üçün) ad yazdırıb, pulunu ödəsə, həmin ilin gəlirindən hesab olunur, (o pulun) həm o ildə və həm də sonrakı illərdə xümsü yoxdur.

Məsələ 1504: Kəsb və ticarətdən müəyyən qədər gəlir əldə edən bir şəxsin, xümsü vacib olmayan və yaxud xümsü verilmiş başqa malı da olsa, o iki malı bir-birindən ayıra bilər və illik xərclərini yalnız həmin ilin qazancından götürə bilər. Lakin, öz xərclərini xümsü olmayan və ya qabaqcadan xümsü verilmiş puldan götürsə, bu xərcləri o ilin gəlirindən azalda bilməz.

Məsələ 1505: Əgər alver və iş gəlirindən bir il üçün lazım olan azuqəni alsa və ilin axırında ondan bir şey artıq qalsa, onun xümsünü verməlidir. Ehtiyata görə, hətta ərzaq mə'mulatları və s. kimi az əhəmiyyəti olan şeylərin hamısını hesablamalıdır. Diqqət yetirilməlidir ki, əgər onun qiymətini hesablayıb, pulunun xümsünü vermək istəsə və qiyməti, aldığı vaxtdakı qiymətdən artıq və ya az olmasından asılı olmayaraq, ilin axırındakı qiymətlə hesab etməlidir.

Məsələ 1506: İl boyu ehtiyac duyduğu avadanlıqları alsa, xümsü yoxdur. Əgər sonradan o avadanlıqlardan ehtiyacsız olsa, xümsünu verməsi lazım deyil. Həmçinin, qadınların yaşı ötməsi ilə onlara lazım olmayan qızıl əşyalarının da xümsü yoxdur. Lakin, ehtiyat müstəhəbbə əsasən, bu avadanlıqların, qızıl əşyalarının xümsünu versin.

Məsələ 1507: Dini tələbələrin və ya qeyrilərinin qazanclarından aldıqları kitablara ehtiyacları olduğu halda, xümsü yoxdur. Amma hazırda bu kitablara ehtiyacları yoxdursa və məqsədləri gələcəkdə istifadə etmədirsə xümsü var. (Əgər il boyu o kitablardan istifadə etməsələr, lakin, o kitabların kitabxanada zəruri hallarda istifadə etmək üçün olması lazımdırsa, ehtiyacdan sayılır.) Həmçinin, il boyu istifadə olunmasa belə, yanğının baş verə biləcəyi ehtimal olunan yerlərdə yanğınsöndürən cihazların və evlərdə məişət xərclərindən hesab olunan tə'cili yardım üçün lazım olan bəzi dərmanların xümsü yoxdur.

Məsələ 1508: Əgər bir ildə qazan əldə etməsə, ehtiyata əsasən, o ilin xərcini sonrakı ilin qazancından azalda bilməz.

Məsələ 1509: Əgər ilin əvvəlində qazancı olmadığı üçün sərmayəsindən xərcləsə və lakin il tamam olmadıqdan öncə bir qazanc əldə etsə, sərmayəsindən götürdüyü miqdarı qazancdan azalda bilər.

Məsələ 1510: Ehtiyac duyulan, az olduqda şəxsiyyətinə uyğun yaşaya bilməyəcəyi təqdirdə, sərmayənin xümsü yoxdur. Yəni həmin və sonrakı ilin gəlirlərindən götürüb, sərmayə edə bilər. Onun xümsünu ödəməklə işinə bir zərər yetişməzsə, bu sərmayənin ticarət, yer, su, əkinçilik üçün əmlak və iş vəsaitləri olmasından asılı olmayaraq, onun xümsünu verməlidir.

Məsələ 1511: Əgər iş və yaxud ticarət əsnasında sərmayənin bir miqdarı aradan getsə və bu, alver zərərlərindən sayılsa, onun miqdarını qazancdan götürə bilər. Lakin ayrı hadisələrə görə zərərə uğrasa (oğurluq və s. kimi), onu qazancdan götürə bilməz. Əgər yerdə qalan sərmayə ilə öz şəxsiyyətinə uyğun ticarət işini davam etdirə bilməsə, istisnadır.

Məsələ 1512: Əgər sərmayədən başqa, onun malından olan başqa bir şey sınmaq, yanmaq, oğurlanmaq və s. vasitlərlə aradan getsə, həmin il ona ehtiyacı olduğu halda, onu həmin ilin qazancından hazırlaya bilər.

Məsələ 1513: Əgər ilin əvvəlində öz xərclərini ödəməkdən ötrü borc etsə və il qurtarmazdan qabaq qazanc əldə etsə, öz borc miqdarını o mənfəətdən çıxa bilər. İl boyu qazanc əldə etməsə və öz xərclərini ödəməkdən ötrü borc alsa, borclarını ödəməkdən ötrü sonrakı illərin qazancından istifadə edə bilər.

Məsələ 1514: Məişət xərcləri, zərər, talançılıq və s. şeylərə görə insan borca düşərsə, onu həmin ilin qazancından ödəyə bilər. Amma borcunu kredit yolu ilə verirsə, yalnız həmin ildə ödəməli olduğu kreditlər o ilin xərclərindən sayılır.

Məsələ 1515: Əgər malını çoxaltmaq və ya ehtiyacı olmadığı bir əmlakı almaq qəsdi ilə borc alsa, o borcu ilin qazancından azalda bilməz. Lakin borca götürdüyü malı və yaxud borc vasitəsi ilə aldığı şeyi hansısa səbəb üzündən əldən versə və məcburi halda borcunu ödəməli olsa, onu illik mənfəət və qazancından ödəyə bilər.

Məsələ 1516: İnsan xümsünü vermədiyi maldan istifadə edə bilməz. Yalnız xüms verməyi niyyət etmək kafi deyil. Həmçinin, xümsü boynuna alıb, maldan istifadə edə bilməz. Əgər istifadə etsə, haram iş görmüşdür və o mal tələf olsa, onun xümsünü ödəməlidir.

Məsələ 1517: Xüms borcu olan bir şəxs şəriət hakiminin icazəsi ilə (müstəhəqlərin məsləhətini nəzərə almaqla) razılaşıb və pulu əldən-ələ verib malın hamısında təsərrüf edə bilər. Əgər ondan sonra malda bir gəlir əldə edilsə, ona məxsus olar.

Məsələ 1518: Başqası ilə şərik olan bir şəxs, ortağının malının xümsünü vermədiyini bildiyi halda onunla alverini davam etdirməsi caiz deyil. Şərikli mala xüms gəldiyi halda, hər ikisinin ondan istifadə etməsi haramdır.

Məsələ 1519: İnsan bir malın xümsünün verilmədiyini yəqin etdiyi halda ondan istifadə edə bilməz. Lakin bir kəsin malının xümsünü verib-vermədiyində şəkk etdiyi halda o maldan istifadə etməsi caizdir. Belə bir şəxsin verdiyi hədiyyəni almaq, onunla alver etmək, verdiyi ziyafətdə iştirak etməyin eybi yoxdur və bu haqda araşdırma aparmaq lazım deyil.

Məsələ 1520: Bir şəxs dini vəzifə boynuna gəldikdən bəri xüms verməyib, qazanc əldə edib, məişətinə lazım olan avadanlıqlar alıb və indi isə xüms verməli olduğunu anlayıb və onun haqqında öz vəzifəsini icra edib, yaşayışını halal etmək istəyirsə, əgər qazancının mənfətindən özünə lazım olmayan əşyaları alıb, bir il onun üstündən ötübsə, onun xümsünü verməlidir. Yox, əgər, mənfət qazandığı il əsnasında öz şə'ninə uyğun, ehtiyac duyduğu ev avadanlıqları və başqa şeyləri alıbsa, qazanc əldə etdiyi il əsnasında onları aldığını bilsə, onun xümsünü verməsi lazım deyil. Əgər il əsnasında və ya il tamam olandan sonra olduğunu bilməsə, vacib ehtiyata əsasən, gərək şəriət hakimi və ya onun nümayəndəsi ilə razılaşmalıdır. Yəni, şəkk etdiyi bütün malını hesablamalı və şəriət hakimi xüms baxımından onun borcunu təxmin edib, onunla müsalihə edər və onu ödəməklə bütün malı pak olar.

Məsələ 1521: Əgər bir kiçik uşağın qazancı olub, illik xərcindən artıq qalsa, vacib ehtiyata əsasən, həddi-büluğa çatdıqdan sonra onun xümsünü verməlidir.

Məsələ 1522: Müxtəlif paltarlar, üzük, bəzək əşyaları və ayrı ev avadanlıqları insanın şə'nində və ehtiyac duyduğu həddə olsa və həmin ilin mənfəətindən alınarsa, xümsü yoxdur. Lakin ehtiyac duyulmadığı həddə və şə'nindən xaric olarsa, ehtiyac duyulmayan miqdarın xümsü verilməlidir.

Məsələ 1523: Haram əşyalar (kişi üçün qızıl üzük və ya eyş-işrət əşyaları almaq) üçün xərclənən pulların xümsü var.

Məsələ 1524: Təqaüd, girovu geri alma ünvanı ilə verilən məbləğ illik gəlirdən hesab edilir. Əgər ondan ilin sonuna qədər bir şey qalmasa xümsü yoxdur, əgər artıq qalarsa xümsü var.

Məsələ 1525: Bankda yerləşdirilən pullara verilən hədiyyələr, əgər müştəri ilə (bankda pul qoyanla) bank arasında heç bir müqavilə imzalanmayıbsa, haladır. Ehtiyat vacibə əsasən, ilin ötməsi ilə onun xümsü vacib olur. Bu, müştərinin özünü tələbkar bilməmədiyi, yalnız bank sahibi müştərilərini həvəsləndirmək qəsdi ilə hədiyyə verdiyi haldadır.

2-Mə'dən

Məsələ 1526: Mə'dəndən qızıl, gümüş, qurğuşun, dəmir, mis, daş kömür, neft, kükürd, firuzə, duz və başqa mə'dən adlanan hər şey, müxtəlif filizlər əldə edildikdə xümslarının verilməsi vacibdir. Bunların vacib ehtiyata əsasən, müəyyən hədləri yoxdur. Yəni istər çox, istərsə də az olsun, xümsü var.

Məsələ 1527: Gəc, əhəng, qırmızı gil, həmçinin müxtəlif daşlar və s. mə'dən qazıntılarından hesab olunduğu halda xümsü verilməlidir.

Məsələ 1528: İstər mə'dən yerin səthində olsun, istərsə də dərinliyində; istər mülki yer olsun, istərsə də sahibsiz, onu çıxardan istər müsəlman olsun, ya qeyri-müsəlman, həddi-büluğa çatmış olsun və yaxud az yaşlı, bütün hallarda onun xümsü verilməlidir. Uşaq olduğu halda onun qəyyumu verməlidir.

Məsələ 1529: Mə'dənin çıxardılması üçn xərclənən pul, onun saflaşması (əgər saflaşmasına ehtiyac olsa) və yaxud mə'dən üçün icarənin ödənilən miqdarı azaldıldıqdan sonra, yerdə qalan hissənin xümsü var. Lakin, illik xərc mə'dən gəlirindən azaldılmır.

Məsələ 1530: Əgər bir neçə nəfər mə'dəndən bir şey çaxartsalar, az və ya çox olmasından asılı olmayaraq, xərclər azaldıqdan sonra, vacib ehtiyata görə, xümsünü verməlidirlər (vacib ehtiyata əsasən).

Məsələ 1531: Başqasının mülkündə olan bir mə'dəni istixrac etsələr əldə olunan şeylər mülkün sahibinə məxsusdur. Mülkün sahibi onların çıxarılmasına bir şey xərcləmədiyindən, mə'dəndən çıxarılanların hamısının xümsünü verməlidir. Əgər bu iş onun göstərişi ilə icra edilibsə, xərc onun öhdəsinə düşür və mə'dənin mənfəətindən azaldılır.

Məsələ 1532: Mə'dən böyük, mübah və ya mülki bir yerdə olan mədənlərdən olsa, şəriət hakimi (adil müctəhid) onun çıxarılmasına və müsəlmanların məsləhətinə uyğun yerlərdə xərclənməsinə nəzarət etmək hüququ var. Belə olan halda, mə'dənçilər şəriət hakiminin nəzərinə riayət etməlidirlər.

Məsələ 1533: İslam hökmətinin çıxartdığı mədənlərə xüms düşmür.

3-Xəzinə

Məsələ 1534: Yerin altında, dağda, divarda, ağacın içərisində, gizlədilmiş mala, xalq arasında belə qəbul olunduğu halda, xəzinə deyilir.

Məsələ 1535: Əgər insan bir kəsin şəxsi mülkü olmayan yerdə xəzinə tapsa və xəzinənin sahibi heç bir halda tanınmasa, onun şəxsi malı hesab olunur və xümsünü da verməlidir. Habelə, əgər başqasından aldığı yerdə xəzinə tapsa və onun, yerin keçmiş sahiblərindən birinin olmadığını bilsə, öz malı sayılır, onun xümsünü verməlidir. Əgər malın onlardan birinin olduğunu ehtimal verərsə, vacib ehtiyata əsasən, əvvəlki sahibinə xəbər verməlidir. Əgər onun olmadığı mə'lum olarsa, ondan əvvəlki sahibinə xəbər verməlidir. Bu minvalla ondan qabaq tanıdığı bütün yerin sahiblərinə xəbər verməlidir. Əgər onların heç birinin olmadığı bilinsə, mal onundur, xümsünü də verməlidir.

Məsələ 1536: Xəzinənin nisabı (müəyyən olunmuş həddi) var. Onun nisabı 105 misqal gümüş, yaxud 15 misqal qızıldır. Yə'ni, əgər xəzinədən əldə edilən şeyin qiyməti bu həddə çatsa, xümsü vacibdir. Amma, əgər

bundan az olsa, xümsü vacib deyil. Əgər onun qiyməti 15 misqal qızıla çatmayıb, 105 misqal gümüşə çatarsa və yaxud bunun əksi, yenə də xümsü vacibdir.

Məsələ 1537: Əgər bir yerdə basdırılmış bir neçə qabda müəyyən qədər xəzinə tapılsa və onların qiyməti üst-üstə nisab həddinə çatsa, onun xümsü verməlidir. Amma bir neçə yerdə müxtəlif xəzinələr tapılsa, onlardan hər birinin qiyməti nisab həddinə çatsa, xümsü var. Onları üst-üstə toplayıb, hesablamaq lazım deyil.

Məsələ 1538: Əgər xəzinənin ixracı üçün müəyyən qədər xərc çəkibsə onu çıxmalı, qalanının xümsünü isə verməlidir.

Məsələ 1539: İki və ya daha çox adam xəzinə tapdıqları halda şərikdirlər, müqavilələrinə uyğun əməl etməlidirlər və hər birinə düşən pay nisab həddinə çatsa xümsü var.

Məsələ 1540: Bir şəxs aldığı heyvanın qarnından müəyyən mal tapsa və o malı satıcının olduğunu ehtimal versə, vacib ehtiyata əsasən, ona xəbər verməlidir. Onun malı olmaması mə'lum olsa, tərtiblə əvvəlki sahiblərindən də soruşmalıdır. Onlardan heç birinin malı olmadığı mə'lum olsa, mal onun sayılır və müstəhəbb ehtiyata əsasən, onun xümsünü, nisab həddinə çatıb-çatmamasından asılı olmayaraq, mə'dən xümsü kimi verməlidir.

Məsələ 1541: Əgər bir nəfər balıq alıb qarnından gövhər tapsa, gövhər onu ovlayan ovçunun, ayrısına satdığı adamın və yaxud ondan qabaqkı satıcıların yox, özünündür və ehtiyat müstəhəbbə görə, onun xümsünü verməlidir.

4-Harama qarışan halal mal

Məsələ 1542: Əgər halal mal haram mala, ayrıd edilə bilməyəcəyi tərzdə qarışsa və haram malın sahibi və miqdarı mə'lum olmasa, bütün malın xümsü verilməlidir və qalan mal ona halal olur.

Məsələ 1543: Əgər halal mal harama qarışsa və o malın miqdarını bilsə (məsələn, üçdə birinin haram olmasını bilsə), ancaq sahibini tanımasa, o miqdarı həm xüms və həm də sədəqə üçün istifadə edilən yerə xərcləsin (məsələn, seyid fəqirlərə).

Məsələ 1544: Əgər halal mal harama qarışsa və insan haram malın miqdarını bilməsə, ancaq sahibini tanısa, gərək bir-birləri ilə razılaşsınlar. Amma malın sahibi razı olmasa və qətiyyətlə müəyyən bir miqdarın onun olduğunu bilsə (məsələn, dörddə biri) və ondan artığında şəkk etsə, yəqin etdiyi miqdarı ona qaytarmalı və ondan artıq hissəsinin onun olmasını ehtimal versə, onunla bölməlidir.

Məsələ 1545: Əgər harama qarışan halal malın xümsünü verib sonradan haram malın xümsdan çox olmasını bilsə, vacib ehtiyata əsasən, xümsdan artıq olduğunu bildiyi miqdarı həm xüms və həm də sədəqə üçün istifadə edilən yerə xərcləsin.

Məsələ 1546: Əgər harama qarışmış halal malın xümsünü versə və sonradan sahibi mə'lum olsa, vacib ehtiyata əsasən, gərək əvəzini ona versin. Habelə, əgər sahibini tanımadığı malı onun adından sədəqə versə və sonradan sahibi tapılsa, buna razı olmasa, (yuxarıda qeyd edilən hökm icra edilməlidir).

Məsələ 1547: Əgər insan malının ayrılarının malı ilə qarışdığını və onun miqdarını və sahibinin bir neçə müəyyən şəxsdən ibarət olduğunu bilsə və ancaq dəqiq şəkildə sahibinin kim olduğunu bilməsə, gərək malı onların hamısının arasında bərabər şəkildə bölsün.

5-Dalğıclıqla əldə olunan cəvahir

Məsələ 1548: İnsan dənizin dibinə girməklə oradan lö'lö, mərcan və s. kimi cəvahirlər çıxarsa onun xümsünü verməlidir. Bu şərtlə ki, onun qiyməti, çıxarılmasına sərf edilən xərclər azaldıqdan sonra, bir şər'i misqal olan qızıl sikkədən (şər'i misqal 18 qızıl noxud miqdarındadır) az olmasın. Bu cəvahirlər istər mə'dən əşyalarından olsun, istərsə də bitkilərdən, bir dəfəyə və ya camaatın bir dəfə hesab etdiyi ardıcıl və fasiləsiz olaraq bir neçə dəfəyə dəryadan çıxarmış olsun; istər çıxardığı şey bir növdən olsun, istərsə də bir neçə növdən.

Məsələ 1549: Əgər bir neçə nəfər dənizdən cəvahir çıxartsa, ehtiyata əsasən, hər birinə düşən payın nisab həddinə çatması lazım deyil; ümumilikdə nisab həddinə çatsa, (onun) xümsünü verməlidirlər.

Məsələ 1550: Əgər dənizin dibinə girmədən, müəyyən vasitələrlə cəvahir çıxarılsa və ya suyun üzərindən, yaxud sahildən götürülsə, ona sərf olunan xərclər çıxıldıqdan sonra qiyməti nisab həddinə çatarsa, vacib ehtiyata görə, xümsü mütləq verilməlidir.

Məsələ 1551: Dənizdə ovlanan balıq və ayrı heyvanların xümsü yoxdur. Lakin, qazanc gəliri hesab edilir, əgər ilin sonunda ondan və ya qiymətindən artıq qalarsa, xümsü verilməlidir.

Məsələ 1552: İnsanın cəvahir çıxartmaq məqsədi ilə dənizə girməsi şərt deyil. Əgər ayrı məqsədlə suya girib, təsadüfən cəvahir tapsa, xümsünü verməlidir.

Məsələ 1553: Əgər insan dənizin dibinə gedib bir heyvan tutub çölə çıxartsa və onun qarnından cəvahir çıxsa, o cəvahirin qiyməti, çıxarılmasına sərf edilən xərclər azaldıqdan sonra, nisab miqdarına çatsa (belə ki, heyvan sədəf kimi ola və adətən qarnında cəvahir ola xümsünü verməlidir. Əgər təsadüfən cəvahiri udubsa, yenə də vacib ehtiyata əsasən, xümsü verilməlidir.

Məsələ 1554: Cəvahir bəslənən, sədəf ovlanan böyük çaylardan çıxarılan cəvahirlərin də xümsü var.

Məsələ 1555: Dənizdən çıxarılan xoş ətirli ənbər dalğıcılıq yolu ilə əldə edildikdə xümsü var. Həmçinin, əgər ənbər suyun səthindən və yaxud

sahildən əldən edilsə, vacib ehtiyata əsasən, yenə də onun xümsünü verməlidirlər.

Məsələ 1556: Əgər bir şəxsin qazanc yeri dalğıcılıq və ya mə'dən şeyləri çıxartmaqdırsa, əgər onların xümsünü versə və illik xərclərindən bir şey artıq qalsa, yenidən xümsünü verməsi lazım deyil.

6-Döyüş qənimətləri

Məsələ 1557: Əgər müsəlmanlar məsum imamın əmri ilə kafirlərlə döyüşsə və döyüşdə qənimət əldə etsə, xümsünü verməlidir. Lakin, onun qorunmasına, daşınmasına xərclənən miqdar azaldılır.

Məsələ 1558: Müsəlmanlar İmamın (ə) xüsusi və ya ümumi naibinin icazəsi ilə kafir əleyhinə döyüşüb qənimət əldə etdikdə, vacib ehtiyata əsasən, onun xümsünü verməlidir.

Məsələ 1559: Şəxsi istifadəsi olmayan, top və tank kimi döyüşdə qənimət götürülən silahları şəriət hakimi və müsəlmanların vəliyyi əmri İslam ordusunun ixtiyarında qoya bilər.

Məsələ 1560: Müsəlmanların döyüş əsnasında kafirlərin malından istifadə etmək haqları var, gərək onların xümsünü versinlər.

Məsələ 1561: Xümsü verilməli olan qənimətlər yalnız nəql edilən qənimətlərdir. Belə ki, onların xümsü verilməklə döyüşçülərin mülkü hesab edilir. Lakin, kafirlərdən əldə edilən torpaqların xümsü yoxdur və o, bütün müsəlmanlarındır.

Məsələ 1562: Bir qrup müsəlman ayrı bir qrupun əleyhinə təcavüz etsə, təcavüzkarın qarşısı alınmalıdır ki, Allahın hökmünə baş əysinlər. Əgər müsəlmanlar bu arada qənimət eldə etsələr, onu şəxsi malları hesab edə bilməzlər. Gərək onu saxlasınlar və vaxtında sahiblərinə qaytarsınlar. Bir halda ki, əgər bu qənimətlər onların əlində olduğu halda yenidən təcavüzə və fəsada səbəb olarsa, şəriət hakiminin icazəsi ilə, ondan düzgün istifadə olunar.

7-Zimmi kafirin müsəlmandan aldığı torpaq

Məsələ 1563: Sağlam etnik qrup halında müsəlmanlarla dinc yanaşı yaşayıb, bütün zimmilik şərtlərini qəbul edən zimmi kafir müsəlmandan müəyyən qədər torpaq alsa, gəlirinin beşdə birini adi zəkatın onda biri yerinə ödəməlidir.

Məsələ 1564: Zimmi kafir müsəlmandan aldığı torpaq sahəsini başqa müsəlmana satsa, xüms ləğv olunmur. Həmçinin əgər o, ölsə və bir müsəlman o torpağı irs aparsa, ehtiyata əsasən, onun xümsünü ödəməlidir.

Əgər zimmi kafir yeri alan zaman xüms verməyəcəyini, yaxud satıcının onun xümsünü verməsini şərt etsə, onun şərti batildir və xümsü özü verməlidir. Amma əgər satıcının, xüms miqdarını onun tərəfindən verməsini şərt etsə, buna əməl etmək lazımdır.

Məsələ 1565: Əgər bir müsəlman müəyyən bir torpaq sahəsini alver qəsdi olmadan zimmi kafirin mülkünə keçirsə və onun əvəzini alsa, məsələn, onunla qarşılıqlı razılıq əldə etsə vacib ehtiyata əsasən, zimmi kafir onun xümsünü verməlidir.

Xümsün istifadə olunma yerləri

Məsələ 1566: Xüms iki yerə bölünməlidir: bir qismi İmamın (ə) mübarək payı, ikinci qismi isə seyyidlərindir. Seyyidin payı fəqir, ehtiyaclı yetim və yaxud səfərdə müşkülü çıxan (öz məntəqələrində fəqir olmasa belə) ehtiyaclı seyidlərə verilməlidir. Zamanımızda İmamın (ə) payı ədalətli müctəhidə və yaxud onun nümayəndəsinə verilməli və onlar da onu İmamın razılığı olan müsəlmanların rifahı, xüsusi ilə elmiyyə hövzələrinin (dini mədrəsələr) idarəsi və s. üçün istifadə etsinlər.

Məsələ 1567: İmamın mübarək payını, yalnız adil müctəhidin icazəsi və zəruri hallar riayət edilməklə, məscid, hüseyniyyə, xəstəxana, tibb məntəqəsi, məktəb və s. inşa edilməsi üçün istifadə etmək olar. Lakin, seyidlərin payını yuxarıda qeyd etdiyimiz yerlərdən başqa xərcləmək olmaz.

Məsələ 1568: Borclu şəxs, müctəhid və yaxud onun nümayəndəsi məsləhət bildiyi halda, borcunu əldən-ələ verib, öz boynuna alıb, hissə-hissə ödəsin.

Məsələ 1569: Seyidlərin payını, (vacib ehtiyata əsasən) müctəhidin icazəsi olmadan yuxarıda qeyd edilən seyidlərə vermək olmaz. İmamın (ə) payı da müctəhidin icazəsi olmadan istifadə edilsə məqbul deyil. Müctəhid sonradan qəbul edib icazə versə, istisnadır.

Məsələ 1570: Müctəhid məsləhət bildikdə, çoxlu xüms borcu olan və onu verməyə imkanı olmayan şəxsə İmamın (ə) payını bağışlaya bilər.

Məsələ 1571: Bir şəxs İmamın (ə) payını təqlid etmədiyi müctəhidə o halda verə bilər ki, o müctəhidlə təqlid etdiyi müctəhid İmamın (ə) payını eyni şəkildə istifadə etməsini bilir.

Məsələ 1572: Adil olmayan seyidə xüms vermək olar. Lakin, ehtiyac vacibə əsasən, (xüms) aşkar günah etməyən şəxsə verilsin. Günah məqsədi ilə səfər etməyən şəxsin yolda müşkülü çıxdığı halda ona xüms vermək olar; Tövbə edib, yolun davamını günah etməyən şəxsə də xüms vermək olar.

Məsələ 1573: 12 İmamı (ə) qəbul etməyən seyidə, vacibun-nəfəqəyə, məsələn, insan öz xümsünu seyid arvadına verə bilməz. Əgər arvad çarəsizlik üzündən, kişinin vacibun-nəfəqəsi olmayan şəxslərin xərclərini ödəyirsə, istisnadır.

Məsələ 1574: Seyidlərin seyid olması aşağıdakı üsullarla sabit olur:

1. İki nəfər adil şəxs onun seyidliyini təsdiq etsin (bir nəfər də kafidir).
2. Güman və yaxud yəqinə səbəb olmasından asılı olmayaraq, öz şəhər və məntəqəsində seyidliyi ilə məşhur olsun.

Məsələ 1575: Xərci ayrısına vacib olan, lakin bu xərcləri ödənilməyən fəqirə xüms vermək olar. Məsələn, əri gündəlik tələbatını ödəyə bilməyən seyidə xanım xüms ala bilər.

Məsələ 1576: Vacib ehtiyata əsasən, seyidlər illik xərclərindən artıq xüms ala bilməzlər.

Məsələ 1577: Şəhərində müstəhəqqin (xüms almaq üçün lazım olan şərtlərə malik olan şəxs) olub-olmamasından asılı olmayaraq, xümsün bir şəhərdən ayrı şəhərə aparılmasının maneəsi yoxdur. Lakin, hər bir halda, xüms tələf olduqda gərək ayrı malından onu ödəsin və aparma xərci də öz öhdəsinədir. Lakin, şəriət hakiminin nümayəndəsinə versə, o, bir şəhərdən ayrı şəhərə apardığı zaman tələf olsa, ona heç nə vacib olmaz.

Məsələ 1578: Fəqir seyidlər qazanc və iş üçün sərmayəyə ehtiyaclı olsalar, xüms adı ilə (yalnız onların ehtiyacını ödəyən miqdarda) onlara vermək olar.

Məsələ 1579: Seyidlərin payı ehtiyaclarından çox olduğu halda onu adil müctəhidə vermək lazımdır ki, lazım bildikləri yerlərdə istifadə etsinlər. Əgər onların ehtiyaclarından az olarsa, İmamın (ə) payından götürüb onlara vermək olar. Belə olan halda, seyidlərin payının az və ya çox olmasının eybi yoxdur.

Məsələ 1580: Ehtiyac vacibə əsasən, seyidlərin payı, ayrı maldın yox, həmin maldan və ya işlək puldan verilməlidir. Yaxud da, ayrı malı müstəhəqqə (xüms almaq üçün lazım olan şərtlərə malik olan şəxsə) satıb, sonra borcu ünvanı ilə hesab etsinlər.

Məsələ 1581: Ehtiyaclı seyidə borc verən şəxs ondan alacağını xüms adı ilə hesab edə bilər. Lakin, İmamın (ə) payında şəriət hakiminin icazəsi lazımdır.

Məsələ 1582: Seyidə, xüms verilən zaman onun xüms olduğunu demək lazım deyil; xümsü niyyət edib, onu hədiyyə adı ilə verə bilər. Həmçinin, şəriət hakiminin icazəsi isə İmam payını müstəhəqlərə (o adla) verə bilər.

Məsələ 1583: Müstəhəqq (şəxs) xümsü alıb malikə (onu verənə) bağışlaya bilməz. Öz şə'nində olan bir malı olsa və imkan olsa ona bağışlasa, istisnadır.

Məsələ 1584: Əgər xümsü şəriət hakimi, yaxud onun vəkili ilə əldə dolandırıb (Bu belədir ki, bir kəs xümsü öz əli ilə verib sonra yenidən borc kimi alır) sonrakı il ödəmək istəsə o ilin mənfəətlərindən azalda bilməz. Məsələn, əgər 2000 tuman xümsə borcludursa sonrakı ilin mənfəətlərindən 20000 tuman xərclərindən artıq qalıbsa, gərək 20000 tumanın xümsünü versin, sonradan xüms kimi borclu olduğu 2000 tumanın əlavəsindən versin.

Məsələ 1585: Seyid payının seyidlərə verilməsində məqsəd onların zəkat almaqdan məhrum olmalarıdır. Bu baxımdan, bu ayrı-seçkilik sayılmır. Onların zəkat almamalarının səbəbi isə uyğun mövzularda bəyan edilib.

ZƏKAT

Mal zəkatının hökmləri

Məsələ 1586: Zəkat 9 şeyə vacibdir: 1-Buğda; 2-Arpa; 3-Xurma; 4-Üzüm (kişmiş); 5-Qızıl; 6-Gümüş; 7-Qoyun; 8-İnək; 9. Dəvə.

Əgər bir şəxs bu 9 şeydən birinin sahibi olsa, gərək sonradan qeyd ediləcək məsələlərdə bəyan edilən şərtlər əsasında müəyyən miqdarını təyin edilmiş yerlərdə istifadə etməlidir. Habelə, hər il iş, qazanc, alverin sərmayəsindən, həmçinin başqa taxıllardan (buğda, arpa, xurma, kişmişdən başqa) zəkat vermək müstəhəbdir.

Zəkatın vacib olma şərtləri

Məsələ 1587: Zəkat bir neçə şərtlə vacib olur:

1. Mal sonradan qeyd ediləcək nisab həddinə çatsın.
2. Sahibi həddi-büluğa çatmış və ağıllı olmalıdır.
3. O maldan təsərrüf etmə qüdrətinə malik olmalıdır.
4. İnək, qoyun, dəvə, qızıl və gümüş məsələsində 12 ay keçməlidir. Lakin, vacib ehtiyata əsasən, on ikinci ayın əvvəllərindən zəkat (qeyd edilənlərə) aid olur (vacib olur). Əgər bəzi şərtlər 12-ci ay əsnasında aradan getsə, zəkat ödənilməlidir.

Məsələ 1588: İnək, qoyun, dəvə, qızıl, gümüş sahibi il əsnasında həddi-büluğa çatarsa, ona zəkat vermək vacib deyil.

Məsələ 1589: Buğda və arpanın zəkatı dənin bərkidiyi-ona buğda və arpa deyildiyi halda vacib olur. Üzüm və kişmişin zəkatı meyvənin yetişdiyi- ona üzüm deyildiyi haldadır. Xurmanın hökmü isə yetişib, yeməli olduğu zamandadır. Lakin, buğda və arpanın zəkatının verilmə zamanı xırman edilib, samandan ayırdıqlarından sonradır. Xurma və kişmişdə quruyan zamanıdır. Əgər onu tər (qurumamış) halında istifadə etmək istəsələr, qurumuşu nisab həddinə çatdığı halda, zəkatını verməlidirlər.

Məsələ 1590: Buğda, arpa, kişmiş, xurma məsələlərində zəkat o vaxt vacib olur ki, zəkat vacib olan vaxtda onların sahibi həddi-büluğa çatmış olsun.

Məsələ 1591: İnsanın qəsb edilmiş və ondan istifadə edə bilmədiyi malın zəkatı yoxdur. Həmçinin, qəsb edilmiş və zəkatı vacib olan vaxtda qəsb edənin öhdəsində olan, lakin sonradan sahibinə qaytarılan əkin sahəsinin zəkatı yoxdur.

Məsələ 1592: Əgər bir nəfər zəkatı olan qızıl, gümüş və s. bir şeyi borc alsa və (bu şeylər) bir il onun yanında qaldığı halda, gərək zəkatını versin. Borc verən şəxsə isə heç nə vacib olmur.

Məsələ 1593: Buğda, arpa, xurma və kişmiş nisab həddinə çatdıqda zəkatı vacib olur. Onların nisabı 288 Təbriz "mən"indən 45 misqal azdır ki, təqribən 847 kq-miqdarındadır.

Məsələ 1594: Zəkatı verilməmişdən qabaq istifadə edilən və yaxud birinə verilən üzüm, xurma, arpa və buğdanın zəkatı verilməlidir.

Məsələ 1595: Əgər (malın) sahibi zəkat vacib olandan sonra ölsə, zəkat onun malından verilməlidir. Lakin, zəkat vacib olmamışdan qabaq ölərsə, zəkat varislərin öhdəsindədir. Yənin hər birinin payı nisab həddinə çatarsa, zəkatını verməlidirlər.

Məsələ 1596: Şəriət hakimi buğda, arpa samandan ayırdıqdan, üzüm, xurma quruduqdan sonra zəkatlarının toplanılması üçün mə'mur təyin edə bilər. Əgər məhrumların payı olan zəkatın ödənilməsindən boyun qaçırarlarsa, zor gücü ilə onlardan ala bilər.

Məsələ 1597: Əgər bir şəxs əkin sahəsini və yaxud bağı zəkat vacib olmazdan qabaq satın alsa, onun zəkatı yeni sahibə vacibdir. Lakin, zəkat vacib olandan sonra alsa, zəkat satıcının- köhnə sahibin öhdəsinə düşür.

Məsələ 1598: Əgər insan buğda, arpa, xurma, yaxud üzüm alsa və satıcının onun zəkatını verdiyini bilsə, zəkat ona vacib deyil. Şəkk etdiyi halda da heç nə ona vacib deyil. Lakin, onun zakətını verm̈ədiyini bilsə (həmin) zəkat daxilində olan alver batildir, lakin, şəriət hakimi icazə versə, istisnadır. Belə olan halda zəkat miqdarının qiymətini satıcıdan alırlar. İcazə verm̈ədikdə zəkatı alıcıdan alacaqlar. Əgər alıcı onun miqdarını satıcıya veribsə, onu geri ala bilər.

Məsələ 1599: Əgər buğda, arpa, xurma və ya üzümün çəkisi tər vaxtında nisab həddinə çatsa və quruduqdan sonra nisab həddinə çatmasa, onun zəkatı vacib deyil.

Məsələ 1600: Əgər xurma və üzümü qurumazdan qabaq istifadə edib və yaxud satsalar, onların zəkatı, quru vaxtlarında nisab həddinə çatdığı halda, vacib olur.

Məsələ 1601: Zəkatı verilmiş taxıllar bir neçə il də onun yanında qalsa, zəkatı yoxdur.

Məsələ 1602: Yağış suyu, yeraltı suvarma kanalı, çay, bənd və ya yerin rütubəti ilə suvarılan buğda, arpa, xurma və üzümün zəkatının miqdarı onda biri qədərdir. Əgər, dərin, yarı dərin və ya dayaz quyuların suyu, nasos, əl və yaxud heyvanın quyu və çaydan su çəkməsi ilə suvarılarsa, zəkatı iyirmidə biri qədərdir.

Məsələ 1603: Əgər bir əkin sahəsi yağış və yaxud quyu suyu ilə suvarılsa və onlardan birinin çox az təsiri olduğu üçün hesaba alınmasa, zəkat ən çox suvarılan vasitəyə əsasən verilməlidir. Lakin, əgər hər ikisi ilə diqqət

yetiriləcək qədər suvarılıbsa, məsələn, yarısı və ya üçdə biri yağış suyu və qalanı quyu suyu ilə suvarılıbsa, onun zəkatının bir hissəsi onda biri və digər hissəsini iyirmidə biri hesabı ilə verməlidir.

Məsələ 1604: Əgər suvarmanın yağış və yaxud quyu suyu və bu kimi vasitələrlə olmasını bilməsə, yalnız iyirmidə biri ona vacibdir.

Məsələ 1605: Əgər tarla yağış və yaxud çay suyu ilə suvarılıb quyu suyuna ehtiyac olmasa və bununla belə yenə də quyu suyu ilə suvarılsa və bu işin məhsulda heç bir təsiri olmasa, zəkatı onda biri qədərdir. Yaxud əksinə, quyu suyu ilə suvarılsa və yağış ona yağsa və məhsulunda heç bir təsir qoymasa, zəkatı iyirmidə biri qədərdir.

Məsələ 1606: Əgər bir tarlanı quyu suyu ilə suvarsalar və onunla yanaşı olan tarla onun rütubətindən istifadə edib, yenidən suvarılmasına ehtiyacı olmasa, quyu suyu ilə suvarılan tarlanın zəkatı iyirmidə bir və onunla yanaşı olan tarlanın zəkatı onda biri qədərdir.

Məsələ 1607: Ehtiyat vacibə əsasən, əkin üçün xərclədiklərini və həmçinin toxumun qiymətini məhsuldan azaltmasın.

Məsələ 1608: Hər vaxt üzüm və yaxud xurma ağacı alsa onun qiyməti şübhəsiz xərclərindən sayılmır. Əgər üzüm və xurmanı yetişməzdən qabaq alsa, vacib ehtiyata əsasən, onun da pulunu məhsuldan azaltmamalıdır. Həmçinin, torpaq almaq üçün verdiyi pul da xərclərdən sayılmır.

Məsələ 1609: Əgər insan fəsilləri bir-biri ilə fərqlənən, yəni əkinçilik məhsulları və meyvəsi bir vaxtda yetişməyən bir neçə şəhərdə buğda, arpa, xurma, yaxud üzümü olsa, onların hamısı bir ilin məhsulu hesab olunur. Bu halda birinci yetişən şey nisab həddinə çatdığı halda, zəkatı verilməlidir. Qalanlarının zəkatını isə onların yetişdikləri vaxt verməlidir. Əgər əvvəldə yetişən nisab həddinə çatmasa, səbr etməli, digər məhsullarda yetişməli və bu məhsullar üst-üstə nisab həddinə çatarsa, onun zəkatı vacibdir.

Məsələ 1610: Əgər xurma və üzüm ağacları bir ildə iki dəfə meyvə versə və üst-üstə yığıldıqda nisab həddinə çatsa, vacib ehtiyata əsasən, zəkatı vacibdir.

Məsələ 1611: Əgər xurma və üzümün zəkatı ona vacib olsa zəkatı təzə xurma və üzümdən verə bilməz (Lakin, təzə xurma və üzümü müstəhəqqə sata və onun borcunu zəkatdan hesablaya bilər). Əgər xurma və üzümü qurumamışdan qabaq satmaq istəsə, onun zəkatını özündən verə bilər.

Məsələ 1612: Əgər bir nəfər dünyasını dəyişsə və öhdəsində vacib zəkat və həm də camaata borcu olsa, ilk olaraq vacib olan bütün zəkatı zəkatı vacib olan maldan verməli və sonra borclarını ödəməlidirlər. Bu bir halda ola bilər ki, [ölən şəxsin] zəkatı vacib olan malı olsun.

Məsələ 1613: Həm əkini və həm də borcu olan bir şəxs ölsə və varisləri əkinə zəkat vacib olmazdan qabaq onun borcunu başqa maldan ödəsələr, varislərdən hansının payı zəkat həddinə çatsa, zəkatını verməlidir. Yox, əgər

borcunu zəkat vacib olmamışdan qabaq ödəməsələr və ölən şəxsin malı yalnız borcu qədər olarsa, zəkat vacib olmaz.

Məsələ 1614: Əgər əkin sahəsinin məhsullarının yaxşı-pisi varsa hər birinin zəkatı o maldan verilməli və yaxud qiymətini hesablamalıdır. Hamısının zəkatını pis məhsuldan verə bilməz, lakin hamısını yaxşı məhsuldan verməsi yaxşıdır.

Qızıl və gümüşün nisabı

Məsələ 1615: Qızılın iki nisab həddi vardır:

Birincisi, 15 adi misqal çəkisində olan iyirmi şər'i misqaldır. Hər vaxt bu miqdara çatsa və digər şərtlər də onda olsa, onun qırxda birini (iki yarım faizini) zəkat ünvanı ilə ödəməlidir. Bu miqdara çatmadıqda, zəkatı yoxdur.

İkincisi, 3 adi misqal çəkisində olan 4 şər'i misqaldır . Yəni əgər 3 misqal 15 misqala əlavə edilsə bütün 18 misqalın zəkatını iki yarım faiz qərarı ilə verməlidir. Əgər 3 misqaldan az əlavə edilsə, yalnız 15 misqalın zəkatı vacibdir və artığının zəkatı yoxdur. Həmçinin, hər nə qədər yuxarıya getsə, yəni 3 misqal əlavə edilsə, gərək onun tam zəkatını versin. Əgər az əlavə edilsə, artıq əlavənin zəkatı yoxdur.

Məsələ 1616: Gümüşün də iki nisab həddi var:

Birincisi, 105 adi misqaldır; əgər bu miqdara çatsa və digər şərtlər də mövcud olsa, insan onun qırxda birini (iki yarım faizini) zəkat ünvanı ilə ödəməlidir. Əgər bu miqdara çatmasa, zəkatı vacib deyil.

İkincisi, 21 misqaldır. Yə'ni 21 misqal 105 misqala əlavə olunsa, bütün 126 misqalın zəkatı verilməlidir. Əgər 21 misqaldan az əlavə olunsa, 105 misqalın zəkatı vacibdir. Artığının zəkatı yoxdur. Həmçinin, nə qədər yuxarı getsə, lakin hesabın asan olması üçün insan sahibi olduğu qızıl və gümüşün iki ayırım faizini ödəyərsə, ona vacib olan zəkatı vermişdir. Bəzən də, vacib miqdarından çox vermişdir.

Məsələ 1617: Hər il qızıl və gümüşə zəkat düşür. Belə ki, müəyyən olan qızıl və gümüşünün zəkatını versin və sonrakı ildə yenə də deyilən şərtlər onda mövcud olsa, ikinci dəfə də zəkatını verməlidir. Bu, (qızıl və gümüş) nisab həddindən azalana qədər davam edir. Lakin, xüms belə deyil. Yəni bir dəfə xümsü verilən mala yenidən xüms düşmür və əgər çoxalsa, istisnadır. Habelə, buğda, arpa, xurma və üzümün bir dəfədən artıq xümsü yoxdur.

Məsələ 1618: Qızıl və gümüşün zəkatının vacib olması şərtlərindən biri də "sikkəli" və onunla alver etməyin adi hal almasıdır. Bu baxımdan, alver edilməsi adi hal almayan sikkələrə zəkat düşmür.

Məsələ 1619: Ehtiyat müstəhəbbə əsasən, əskinas kimi işlək pullarda digər şərtlər mövcud olduqda, zəkatı verilməlidir.

Məsələ 1620: İşlək sikkəli qızıl və gümüş qadınlar tərəfindən zinət əşyaları halına salınıb, ondan zinət əşyaları kimi istifadə etdikləri halda zəkatı yoxdur. Əgər bir nəfərin bir miqdar qızıl və gümüşü olsa və onların

heç biri nisab həddində olmasa, zəkat onlara vacib olmur. Baxmayaraq ki, onların ümumilikdə qiyməti nisab həddinə çatmış olsun.

Məsələ 1621: Zəkatın vacib olma şərtlərindən biri də budur ki, insan bir il tamam nisab həddi miqdarının sahibi olsun və əgər on ikinci aya daxil olsa, ehtiyata əsasən, onun zəkatını verməlidir. Amma, on bir ay keçəndən sonra onu satsa və yaxud nisab həddindən azalsa və yaxud onun ixtiyarında olmasa, ona zəkat düşmür. Həmçinin, əgər onu başqa bir şeylə əvəz etsə və yaxud onları əridib sikkə halından xaric etsə (yuxarıda qeyd edilən hökmlə eynidir, yəni ona zəkat düşmür). Lakin, qızıl və gümüş sikkələrini başqa qızıl və gümüş sikkələri ilə əvəz etsə, vacib ehtiyata əsasən, onun zəkatını ödəməlidir.

Məsələ 1622: Zəkatdan qaçmaq məqsədi ilə qızıl və gümüş dəyişdirilsə və yaxud əridilsə ona zəkat düşməz. Lakin, xeyir və səadətdən məhrum olmuşdur. Ehtiyat müstəhəb odur ki, onun zəkatını versin.

Məsələ 1623: Əgər sahibi olduğu qızl və gümüşün yaxşı-pisi, faizi az-çoxluğu varsa hər birinin zəkatını ondan verəcəkdir. Lakin, yaxşıdır ki, hamısının zəkatını ən üstünündən versin.

Məsələ 1624: Əgər qızıl və gümüş həddindən artıq başqa filizlə qarışıq olduğundan ona qızıl və gümüş deyilmədiyi halda xalis (qızıl və gümüşü) nisab həddinə çatarsa zəkatını verməlidir. Əgər nisab hədinə çatıb-çatmamasında şəkk edərsə, zəkat vacib deyil. Əgər bacararsa onu imtahan etsin və ehtiyat vacib də imtahan etməkdir.

Mal-qaranın zəkatı

Məsələ 1625: Qoyun, inək və dəvənin nisab həddində, əvvəldə qeyd edilən şərtlərdən əlavə, bu heyvanların istifadəsiz olması lazımdır. Əgər il uzunu pərakəndə halda işləyib, (lakin) işlək heyvan sayılmazsa, onun zəkatı vacibdir.

Məsələ 1626: Vacib ehtiyata əsasən, nisab həddinə çatan inək, qoyun, dəvənin biyaban və yaxud əl ilə biçilmiş ot yeməsindən və yaxud bə'zən biyaban və bə'zən də əl ilə biçilmiş otla qidalanmasından asılı olmayaraq, zəkatı verilməlidir.

Məsələ 1627: Əgər bu heyvanlar üçün kimsənin əkmədiyi bir ot sahəsi alsa, icarə etsə və yaxud orada (heyvanları) otarması üçün xərcə düşsə, gərək zəkat versin.

Qoyunun nisab həddi

Məsələ 1628: Qoyunun 5 nisab həddi var:

1. 40 qoyunun zəkatı 1 qoyundur və ondan azın zəkatı yoxdur.
2. 121 qoyunun zəkatı 2 qoyundur.
3. 201 qoyunun zəkatı 3 qoyundur.
4. 301 qoyunun zəkatı 4 qoyundur.
5. 400 və daha çox qoyunun hər 100 baş (qoyunu) üçün bir baş qoyun verməlidir və 100 başdan az olan (qoyunların) zəkatı yoxdur. İki nisab həddi arasında da zəkat yoxdur, məsələn, əgər 40 (baş) qoyun ikinci nisab həddi olan (121) (baş) qoyuna çatmayıbsa yalnız 1 (baş) qoyun verər. Sonrakı nisab hədləri də bu qayda ilədir.

Məsələ 1629: Zəkatı qoyunların özündən vermək icbari deyil, əgər ayrı qoyundan da versə caizdir. Habelə, qoyun, inək və dəvənin yerinə onların pulunu da verə bilər. Əgər müstəhəqqə heyvanın özünün verilməsi faydalı olarsa, ehtiyata əsasən, bu halda onun özünü verməlidir.

İnəyin nisab həddi

Məsələ 1630: İnəyin iki nisab həddi var:

1. 30 başdır, yəni, inəklərin sayı 30-a çatan zaman əvvəldə qeyd edilən şərtlərə malik olduğu halda, ən azı iki illik bir dişi və yaxud erkək buzov zəkat verməlidir.

2. 40 başdır, onun zəkatı ən azı 3 illik dişi buzovdur. 30-la 40 arasında olanların zəkatı yoxdur. Məsələn, bir kəsin 35 inəyi olsa, yalnız 30 inəyin zəkatını verməlidir. Həmçinin əgər 40 inəkdən artıq inəyi olsa, 60-a çatmayınca, yalnız 40 inəyin zəkatını verməlidir. Hər vaxt (inəklərin sayı) 60-a çatsa, ən azı ikinci ilə daxil olmuş 2 buzov verməlidir. Beləcə, (inəklərin sayı artdıqca) 30-30, 40-40 və əgər mümkündürsə 30-40-la hesablayıb, yuxarıda qeyd edilən göstərişə uyğun əməl etməlidir. Lakin, elə hesablamalıdır ki, bir şey artıq qalmasın. Yaxud, əgər (artıq) qalırsa 9 (başdan) çox olmasın. Məsələn, bir nəfərin 70 baş inəyi varsa, gərək 30-40 hesabı ilə hesablayıb hər birinin zəkatını yuxarıda qeyd edilən göstərişə uyğun versin. Əgər bir nəfərin 80 baş qoyunu varsa, 40-40 hesabı ilə hesablamalıdır.

Dəvənin nisab həddi

Məsələ 1631: Dəvənin 12 nisabı var:

1. 5 dəvənin zəkatı 1 qoyundur. Bundan az miqdarın zəkatı yoxdur.
2. 10 dəvənin zəkatı 2 qoyundur.
3. 15 dəvənin zəkatı 3 qoyundur.
4. 20 dəvənin zəkatı 4 qoyundur.
5. 25 dəvənin zəkatı 5 qoyundur.
6. 26 dəvənin zəkatı 2 illik 1 dəvədir.
7. 36 dəvənin zəkatı 3 illik 1 dəvədir.
8. 46 dəvənin zəkatı 4 illik 1 dəvədir.
9. 61 dəvənin zəkatı 5 illik 1 dəvədir.
10. 76 dəvənin zəkatı 3 illik 2 dəvədir.
11. 91 dəvənin zəkatı 4 illik 2 dəvədir.
12. 121 və ondan yuxarı (olan) dəvələri 40-40 hesab edib və 40 (baş) dəvə üçün 3 illik 1 dəvə verməlidir. Yaxud 50-50 hesablayıb, hər 50 dəvə üçün 4 illik 1 dəvə verməlidir Yaxud 40-50 hesab etməlidir. Lakin, burda da elə hesablamalıdır ki, bir şey artıq qalmasın, qalsa da 9-dan çox olmasın. Zəkatı mütləq dişi dəvədən olmalıdır.

Məsələ 1632: İki nisab arasında olan say üçün zəkat vacib deyil. Yəni, əgər dəvələrin sayı birinci nisab həddi olan 5-dən keçib ikinci nisab həddi olan 10-a çatmasa, yalnız 5 dəvənin zəkatını verər. Başqa nisab hədləri də bu qayda ilədir.

Məsələ 1633: Dişi və ya erkək və ya bəzilərinin dişi və bəzilərinin də erkək olmasından asılı olmayaraq hər vaxt qoyun, inək, dəvə nisab həddinə çatsa zəkatı vacibdir.

Məsələ 1634: Keçi, qoyun və quzunun zəkatda bir-birləri ilə fərqi yoxdur. Habelə, müxtəlif dəvə, inək və camış növləri də eyni cinsdən hesab olunur.

Məsələ 1635: Vacib ehtiyata əsasən, zəkat üçün verilən qoyunun ən azı bir ili, keçinin isə iki ili tamam olmalıdır.

Məsələ 1636: Zəkat verdiyi qoyunun qiyməti digər qoyunlarının qiymətindən az olarsa, eybi yoxdur. Lakin, müstəhəbdir ki, qiyməti çox olan qoyunu versin. Yaxud da ən azı orta həddə olmalıdır. İnək və dəvə də eyni hökmə aiddir.

Məsələ 1637: Bir-birləri ilə şərik olanların payı nisab həddinə çatsa, gərək zəkat versin.

Məsələ 1638: Əgər bir nəfərin bir neçə yerdə qoyun, inək və dəvəsi varsa, üst-üstə toplanıldıqda nisab həddinə çatsa gərək zəkatını versin. Xəstə, nöqsanlı qoyun, inək və dəvələrin də zəkatları vacibdir.

Məsələ 1639: Əgər bütün qoyun, inək və dəvələr sağlam, nöqsansız və cavan olsa, onların zəkatını xəstə, nöqsanlı və qocadan verə bilməz. Əgər bə'zisi sağlam və ya xəstə, nöqsansız və ya eyibli və yaxud cavan və ya qoca olarsa, vacib ehtiyata əsasən, zəkat üçün sağlam, nöqsansız və cavanları seçməlidir. Lakin, onların hamısı xəstə, eyibli və qoca olarsa zəkatını onların özündən verə bilər.

Məsələ 1640: Ona mal-qaranın zəkatı vacib olan şəxs zəkatı başqa maldan versə, onların sayı nisab həddindən azalmayınca hər il zəkat verməlidir. Hər vaxt nisab həddi azalsa, artıq zəkat vacib deyil. Əgər 11-ci ay tamam olmazdan öncə heyvanı ayrı bir şeylə dəyişsə, ona zəkat vacib deyil. Lakin, o heyvanları başqa qoyun, inək və dəvə ilə dəyişsə, məsələn, 40 (baş) qoyun verib 40 (baş) ayrı qoyun alsa, vacib ehtiyata əsasən, onların zəkatını verməlidir.

Zəkatın istifadə olunduğu yerlər

Məsələ 1641: Zəkat aşağıda qeyd edilən səkkiz yerin birində istifadə edilməlidir:

1-2 — Fəqir və miskinlərə; Bunlar özlərinin, ailələrinin illik xərclərini tə'min edə bilməyən şəxslərdir. Fəqirlə miskinin fərqi, fəqirin heç kəsdən bir şey ummamasında, ehtiyaclı miskinin isə (bir şey) ummasındadır. Sənəti, mülkü, sərmayəsi və yaxud qazancı olan şəxslər məişətlərini tə'min edə bilmədiyi hallarda fəqir sayılırlar və məişət çatışmazlıqlarını zəkatdan götürə bilərlər.

3-İmam, yaxud onun naibi tərəfindən zəkatı yığmağa, saxlamağa, hesablamağa və yaxud onu İmam (əleyhis-salam)-a, naibinə və yaxud istifadə olunması üçün lazımi yerlərə çatdırmağa vəzifəli şəxs zəhmət çəkdiyi qədər zəkatdan istifadə edə bilər.

4-Zəkat almaqla (imanı) güclənən və ya İslam dininə marağı artan zəif imanlı şəxslərə;

5-Qulların alınıb və azad olunmasına;

6-Öz borcunu verə bilməyən borclu şəxslərə;

7-"Səbilillah"(Allah yolunda), yə'ni, ümumi dini faydası olan məscid, dini məktəblər, təbliğat mərkəzləri tikmək, (müxtəlif yerlərə dini) təbliğatçı göndərmək, faydalı dini kitablar nəşr etmək , qısası hər bir vasitə ilə İslama faydası olan işlər görmək, xüsusi ilə Allah yolunda cihad etmək;

8-İbnüs-səbil. Səfərdə yolda qalan ehtiyaclı şəxs ehtiyacını təmin edə bilən qədər zəkatdan istifadə edə bilər.

Məsələ 1642: Ehtiyat-vacibə əsasən, fəqir və yaxud miskin özünün və ailəsinin illik xərclərindən artıq zəkatdan götürə bilməz. Əgər çatışmazlığı varsa, yalnız çatışmazlığı qədər götürə bilər.

Məsələ 1643: Qazancı illik xərclərindən az olan sənətkar və yaxud fəhlə xərclərini ödəməyən hissəsini zəkatdan götürə bilər və iş alətləri, sərmayəsi və mülki ilə xərclərini təmin etməsi lazım deyil.

Məsələ 1644: Ehtiyaclı şəxs ehtiyac duyduğu minik vasitəsini, evi və qazanc üçün lazım olan sərmayəni zəkatla hazırlaya bilər. Bu hissədə gərək ehtiyacını ödəyən, şəxsiyyətini təmin edən miqdarla kifayətlənsin.

Məsələ 1645: Hansısa bir sənəti və yaxud başqa işləri öyrənməklə məişətini idarə etməyi bacara bilən şəxs zəkata ehtiyacı olmasın deyə mütləq (sənət) öyrənməlidir. Lakin, sənəti öyrənməyə məşğul olana qədər, zəkatdan istifadə edə bilər.

Məsələ 1646: Vacib elmləri öyrənənlər, qazilər, (şəriət) hədləri icraçıları və bu kimi şəxslər zəkatdan istifadə edə bilərlər.

Məsələ 1647: Zəkatı olan və fəqirə borc vermiş şəxs borcunu zəkat ünvanı ilə hesablaya bilər. Əgər fəqir borclu dünyasını dəyişsə belə borcunu zəkatdan hesablaya bilər. Əgər (borclu şəxs) borcu qədər özündən bir şey saxlayıbsa, vacib ehtiyata əsasən, onun borcunu zəkatla hesablamaq olmaz.

Məsələ 1648: Fəqirliyi mə'lum olmayan şəxsə zəkat vermək olmaz. Lakin, əgər zahiri görkəmindən fəqirliyi ehtimal olunsa, həmçinin, e'timadlı şəxslər fəqir olmasını xəbər versələr, ona zəkat vermək caizdir.

Məsələ 1649: Fəqirə - bu, zəkat malıdır- deyilməsi lazım deyil. Əksinə, zəkatı ona hədiyyə adı ilə vermək olar (yalan danışmamaq şərti ilə). Lakin, hər bir halda, zəkat qəsdi etməlidir.

Məsələ 1650: Əgər fəqir hesab edib, bir şəxsə zəkat verilsə və sonradan fəqir olmaması bilinsə və yaxud məsələni (şəriət hökmünü) bilmədiyindən fəqir olmayan şəxsə zəkat verilsə, əgər ona verdiyi (zəkat) qalmış olsa, geri alıb, müstəhəqqinə çatdıra bilər. Əgər aradan gedibsə, o şeyi alan şəxs onun zəkat olmasını bilib və yaxud ehtimal veribsə, onun əvəzini verməli və o da müstəhəqqə çatdırmalıdır. Əgər zəkat adı ilə verməyibsə, ondan heç nə ala bilməz. Hər bir halda, əgər müstəhəqq seçimində səhlənkarlıq etməyibsə, ikinci dəfə öz malından (zəkat) ödəməsi lazım deyil.

Məsələ 1651: Borcunu qaytara bilməyən, hətta illik xərcləri olan şəxs, borcunu qaytarmaq üçün zəkat ala bilər. Bu şərtlə ki, borcu günah işlərdə xərcləməyib.

Məsələ 1652: Pulu qurtaran, malları oğurlanan və yaxud nəqliyyatı xarab olan müsafirin səfəri günah yönlü deyilsə və məqsədinə çatmaq üçün borc ala və ya bir şeyi sata bilmirsə, vətənində fəqir olmamasından asılı olmayaraq, zəkat ala bilər. Vətənə çatdıqdan sonra zəkat adı ilə aldığı miqdarı qaytarması lazım deyil. Lakin, vətənə çatdıqdan sonra zəkatın artıq qalan miqdarını şəriət hakiminə qaytarmalı və onun zəkat olmasını deməlidir.

Zəkatın müstəhəqləri

Məsələ 1653: Zəkat müstəhəqləri aşağıda qeyd edilən şərtlərə malik olmalıdırlar:

Birincisi, Allaha, İslam peyğəmbərinə (s) və on iki imama iman gətirmək. Müsəlman şiələrindən olan fəqir uşaq və ruhi xəstələrə zəkat vermək olar. Lakin, zəkat uşaq və divanəyə təmlik (yiyələnmə, sahib olma), yaxud onlar üçün xərcləmək qəsdi olmasından asılı olmayaraq, onların hamilərinə verilməlidir. Əgər onlara əli çatmırsa, özü və yaxud da e'timadlı bir şəxsin vasitəsi ilə zəkatı onların ehtiyacı üçün istifadə edə bilər.

Məsələ 1654: İkincisi, zəkat vermək günaha səbəb olmamalıdır. Belə olan halda, onu günah işlərdə istifadə edən şəxsə zəkat vermək olmaz. Vacib ehtiyata əsasən, spirtli içki içənə də zəkat verilməsin.

Məsələ 1655: Zəkatda ədalət və böyük günahlara qurşanmamaq şərt deyil.

Məsələ 1656: Üçüncüsü, xərcləri özünə vacib olan kəslərə -övlada, arvada, ata-anaya zəkat vermək olmaz. Əgər onlar borclu olsalar və borclarını ödəyə bilməsələr, onlara borclarını ödəyə biləcəkləri qədər zəkat vermək olar.

Məsələ 1657: Əgər bir nəfər nəfəqəsi özünə vacib olan şəxslərin xərclərini ödəyə bilmirsə, məsələn, arvad-uşağının xərcini verməyə imkanı yoxdursa və yaxud imkanlı olduğu halda vermirsə, başqaları onlara zəkat verə bilər.

Məsələ 1658: Hər vaxt övladın elmi-dini kitablara ehtiyacı olsa, ata onları almaq üçün ona zəkat verə bilər.

Məsələ 1659: Hər vaxt ər arvadının xərclərini ödəməsə, qadın şəriət hakimi və yaxud başqalarının vasitəsi ilə haqqını ala bilər. Belə bir qadın zəkatdan istifadə edə bilməz.

Məsələ 1660: Ərin zəkatı alıb arvadı və uşaqları üçün xərcləyəcəyindən asılı olmayaraq, qadın fəqir ərinə zəkat verə bilər.

Məsələ 1661: Dördüncüsü, zəkat alan seyid olmamalıdır. Lakin, zəkat verən də seyid olsa (ala bilər). Əgər xüms və s. dini vergilər onların xərclərinə kifayat etdiyi üçün çarəsizlikdən zəkat almağa məcbur olsa, seyid olmayan şəxsdən zəkat ala bilər. Lakin, vacib ehtiyata əsasən, yalnız gündəlik xərcləri qədər alsın.

Zəkatın niyyəti

Məsələ 1662: Zəkatda qürbət qəsdi şərtdir. Yəni zəkat Allah-taalanın əmrinə itaət etmək üçün verilməlidir. Gərək niyyətində malın və yaxud fitrənin zəkatı olmasını müəyyən etsin. Lakin, əgər buğda, arpa və başqa şeylərin zəkatını verirsə, zəkatın hansının olmasını müəyyən etməsi lazım deyil.

Məsələ 1663: Bir neçə malın zəkatı vacib olan şəxs müəyyən qədər zəkat verib heç birini niyyət etməsə, bu halda, verdiyi şey onların biri ilə eyni cinsdən olsa, həmin cinsin zəkatı hesab olunur. Əgər heç biri ilə həmcins olmasa, onların hamısına bölünər. Bu baxımdan, məsələn, əgər zəkat adı ilə bir qoyun versə, qoyunun zəkatı hesab olur. Lakin, qoyun və inəkdən zəkata borclu olduğu halda müəyyən qədər gümüş pul versə, hər ikisinin arasında bölünər.

Məsələ 1664: Əgər bir nəfəri malın zəkatını verməyə vəkil etsələr, vəkilin niyyət edib-etməməsindən asılı olmayaraq, həmin miqdar malik niyyət etsə kafidir. Əgər malik zəkatın niyyətini etməyib, bütün öhdəlikləri vəkilə tapşırıbsa, gərək vəkil niyyət etsin.

Məsələ 1665: Əgər malik və yaxud vəkil qürbət qəsdi olmadan zəkatı fəqirə versə, mal aradan getməzdən öncə malikin özü qürbət niyyəti etsə, zəkat hesab olunar.

Məsələ 1666: Hər vaxt zəkatı öz istəyi ilə ödəməsə, şəriət hakimi güc tətbiq etməklə ondan ala bilər və zəkat hesab olunar. Belə olan halda qürbət niyyəti hesab olunmur. Lakin, ehtiyat odur ki, şəriət hakimi qürbət qəsdi etsin.

Zəkatın müxtəlif məsələləri

Məsələ 1667: Zəkatı ödəməkdə səhlənkarlıq etmək olmaz. Yəni zəkat vacib olan vaxtda onu fəqirə və yaxud şəriət hakiminə çatdırmalıdır. Lakin müəyyən bir fəqiri gözləsə və ya hansısa üstün cəhəti olan fəqirə vermək istədikdə, gözləyə bilər. Amma, vacib ehtiyata əsasən, bu halda zəkatı maldan ayırsın.

Məsələ 1668: Zəkatı müstəhəqqə çatdıra bilən şəxsin səhlankarlığı nəticəsində mal aradan getsə, (zəkata) zamindir və onun əvəzini ödəməlidir. Əgər səhlənkarlıq etməyibsə, öhdəsinə bir şey düşmür.

Məsələ 1669: Zəkatı malın özündən ayırdıqdan sonra onun qalanından istifadə etmək olar. Əgər ayrı bir maldan ayrılsa, o malın hamısından istifadə etmək olar.

Məsələ 1670: İnsan ayırıb kənara qoyduğu zəkatı götürüb, ayrı bir şeyi yerinə qoya bilməz.

Məsələ 1671: Əgər kənara qoyulan zəkatın bir mənfəəti olsa, məsələn, (zəkat üçün kənara qoyulan) qoyun quzu doğsa, o şey zəkatdan hesab olunur.

Məsələ 1672: Zəkatı kənara qoyduğu vaxtda bir müstəhəqq hazır olsa, zəkatı ona verməsi yaxşıdır. Ondan üstün bir şəxsi nəzərdə tutduğu halda (isə) istisnadır.

Məsələ 1673: Şəriət hakimi -əd - İslam hökmlərini icra edə bildiyi halda, vacib ehtiyata əsasən, zəkatı ona verməli və yaxud onun icazəsi ilə istifadə etməlidirlər. Belə olan halda insanların şəriət hakiminin icazəsi olmadan onu (zəkatı) bölməsi işkallıdır.

Məsələ 1674: Zəkat üçün ayırdığı eyni mal ilə özü üçün ticarət etməsi düzgün deyil. Lakin, şəriət hakiminin icazəsi ilə olsa, düzgündür və o malın mənfəəti zəkatdır.

Məsələ 1675: Zəkat insana vacib olmazdan öncə zəkat adı ilə fəqirə nəsə verə bilməz. Lakin, ona borc verib, zəkat ona vacib olandan sonra (zəkat borcunun yerinə) hesablaya bilər.

Məsələ 1676: Bir nəfərə zəkatın vacib olmadığını bilən fəqir ondan zəkat adı ilə bir şey ala bilməz. Əgər alsa və mal onun yanında tələf olsa, zamindir. Amma o şəxs fəqir olaraq qalsa, sonradan onun borcunu zəkat adı ilə hesablamaq olar.

Məsələ 1677: Qoyun, inək və dəvənin zəkatını möhtərəm ehtiyaclılara vermək müstəhəbdir. Həmçinin, zəkat verdikdə qohumları ayrılarından, elm, adamlarını digərlərindən, bir şey ummayanları umanlardan qabağa salmaq müstəhəbdir.

Məsələ 1678: Vacib zəkatı aşkar, müstəhəb sədəqəni isə gizli vermək müstəhəbdir.

Məsələ 1679: Hər vaxt birinə zəkat vacib olsa, lakin o məntəqədə müstəhəq olmasa, sonradan bu məntəqədə müstəhəqq tapa biləcəyinə ümid etmədiyi halda, mütləq zəkatı ayrı məntəqəyə aparıb istifadəyə verməlidir. Vacib ehtiyata əsasən, ayrı məntəqəyə aparmaq xərcləri onun öhdəsinə düşür. Lakin, zəkat tələf olduqda, zamin deyil.

Məsələ 1680: Zəkatı verənin məntəqəsində müstəhəq tapıldığı halda da zəkatı ayrı bir məntəqəyə apara bilər. Lakin, onu aparmaq xərcləri onun öhdəsindədir və hətta, şəriət hakiminin icazəsi ilə aparsa belə, əgər zəkat tələf olsa, vacib ehtiyata əsasən, zamindir.

Məsələ 1681: Zəkat verdiyi buğda, arpa və sairənin ümumi xərcləri öz onun öhdəsindədir.

Məsələ 1682: Vacib ehtiyata əsasən, hər bir fəqirə gümüş zəkatının birinci nisab həddindən (2 misqal və 15 noxud qədər) az verməsin. Əgər buğda, arpa kimi bir şeylərdən zəkat verirsə, yenə də qiyməti o miqdardan az olmamalıdır.

Məsələ 1683: İnsanın müstəhəqqə verdiyi zəkatı onun özünə satmasını istəməsi məkruhdur. Lakin, müstəhəqq şəxs aldığı zəkatı pula çevirmək istəsə, zəkatı ona verən şəxs başqalarından öndədir.

Məsələ 1684: Əgər vacib zəkatı ödəyib-ödəmədiyində şəkk etsə, hətta onun şəkki qabaqkı illərin zəkatına aid olsa belə, mütləq ödəməlidir.

Məsələ 1685: Fəqirin, miqdarından az olan zəkatla razılaşmaq, onun qiymətindən baha olan bir şeyi almaq və yaxud zəkatı malikdən alıb özünə bağışlamaq haqqı yoxdur. Hətta bir şəxsin çoxlu zəkat borcu olsa, fəqir olub, zəkatı ödəyə bilmədiyindən, digər borcları kimi, (bu da) onun öhdəsində qalır və (zəkatı) alıb ona bağışlamaq işkallıdır.

Məsələ 1686: İnsan zəkatla İslami hədəflərin inkişafında tə'sirli olan dini, elmi, Quran, dua və s. kitablar alıb, istər hamı, istərsə də xüsusi adamlar, hətta övladı və xərcləri özünə vacib olan şəxslər üçün vəqf edə bilər. Lakin, zəkatla hansısa mülkü alıb, oğluna vəqf edə bilməz.

Məsələ 1687: Fəqir şəxs Həccə, ziyarətə və bu kimi yerlərə getmək üçün zəkat ala bilər. Lakin, illik xərcləri qədər zəkat alıbsa, ziyarət və bu kimi yerlər üçün zəkat alması işkallıdır.

Məsələ 1688: Əgər malik malının zəkatını vermək üçün bir şəxsi vəkil etsə, lakin ifadəsinin zahiri (mənası) onu başqalarına vermək olsa, müstəhəqq olmasından asılı olmayaraq, vəkil özü ondan heç nə götürə bilməz. Əgər ifadəsinin zahiri (mənası) ümumi olsa, özü də istifadə edə bilər.

Məsələ 1689: Hər vaxt bir şəxs zəkat adı ilə ehtiyac duyduğu qədərilə qoyun, inək, dəvə, qızıl, gümüşü alsa, əgər nisab həddində olsa və təsadüfən, üstündən bir il keçsə, onun zəkatını ödəməlidir.

Məsələ 1690: Hər vaxt iki nəfər zəkatı vacib olan malda şərik olsalar və onlardan biri öz zəkat payını versə və sonra malı bölüşdürsələr, o birisi (şəriki) zəkat payını verməsə belə, onun öz payından istifadə etməsində işkal yoxdur.

Məsələ 1691: Əgər bir nəfərin öhdəsində xüms, zəkat və ya borc varsa və kəffarə, nəzr və s. kimi şeylər ünvanı ilə bə'zi mallar da ona vacib olubsa, bunların hamısını ödəyə bilmirsə və əgər zəkat, xüms vacib olan eyni malın özü aradan getməyibsə, xüms və zəkatın (ödəməsini) önə salmalıdır. Əgər aradan gedibsə, ehtiyata əsasən, camaatın haqqını önə salmalıdır. Əgər belə bir şəxs dünyadan köçsə və onun malı bütün bunlar üçün kifayat etməsə, qeyd edilən qaydada əməl etməlidirlər.

Fitrə zəkatı

Məsələ 1692: Fitr bayramı gecəsinin qürubundan qabaq həddi-büluğa çatmış, aqil və imkanlı olan bütün şəxslərə zəkatın fitrəsi vacibdir. Yəni gərək özü və onun çörək yeyənləri (ailə üzvlərindən biri kimi) sayılan hər nəfər üçün, buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və s. kimi o məntəqənin yemək növlərindən sayılan qidalardan bir sa' (təqribən 3 kq.) müstəhəqqə verməlidir. Əgər bunlardan hər hansının pulunu versə, kifayatdir.

Məsələ 1693: İmkanlı şəxs dedikdə iş, alver yolu ilə özünün və ailəsinin illik xərclərini ödəyə bilənlər nəzərdə tutulur. Belə olmayan şəxs fəqirdir, ona fitrənin zəkatı vacib deyil və fitrə zəkatını ala bilər.

Məsələ 1694: İnsan fitr bayramı gecəsinin qürubundan qabaq- böyük-kiçik, müsəlman- kafir, xərcləri özünə vacib olan şəxslər- xərcləri özünə vacib olmayan şəxslər olmasından, onun yanında yaşayıb-yaşamamasından asılı olmayaraq- ailə üzvlərindən sayılanların fitrələrini verməlidir.

Məsələ 1695: Başqa bir şəhərdə yaşayan ailə üzvlərindən bir şəxsi onun malından fitrəsini ödəməsi üçün vəkil etsə və onun bu işi görəcəyindən xatircəm olsa, kifayat edər.

Məsələ 1696: Qonaq ev sahibinin icazəsi ilə fitr bayramı gecəsinin qürbundan qabaq (evə) gəlib, onun çörək yeyəni sayılsa (yəni, bir müddət yanında qalmaq fikrində olsa) qonağın zəkatını vermək vacibdir. Lakin, yalnız bayram gecəsi üçün də'vət olunubsa, onun zəkatı ev sahibinə vacib deyil. Ev sahibinin razılığı olmadan (evə) gəlibsə, vacib ehtiyata əsasən, onun fitrəsini verməlidir. Onu, xərcini verməyə məcbur edən şəxsin hökmü də yuxarıdakı hökmlə eynidir.

Məsələ 1697: Əgər qürubdan qabaq uşaq həddi-büluğa çatsa, dəli ağıllansa, fəqir imkanlı olsa, gərək fitrənin zəkatını versin. Lakin, (yuxarıda qeyd edilən şərtlər) qürubdan sonra olsa, zəkatın fitrəsi lazım deyil. Amma, bayram gününün günortasından öncəyə qədər deyilən şərtlər olarsa, zəkat fitrəsinin verilməsi müstəhəbdir.

Məsələ 1698: Fəqir bir şəxsin yalnız 1 sa' (təqribən 3 kq.) buğda və ona oxşar ərzağı olduğu halda, zəkat fitrəsini verməsi müstəhəbdir. Əgər ailəsinin də fitrəsini ödəmək istəsə, 1 sanı fitrə qəsdi ilə onların birinə və o da eyni məqsədlə onu ayrısına versin və (beləcə) sonuncu ailə üzvünə qədər (davam etsin). Sonradan onu özlərindən olmayan bir şəxsə vermələri yaxşıdır. Əgər onlardan biri kiçikdirsə (səğir), başçısı onun əvəzinə qəbul edib ayrı şəxsə versin.

Məsələ 1699: Əgər fitr bayramı gecəsinin qürbundan sonra uşağı dünyaya gəlsə, yaxud bir şəxs onun çörək yeyəni olsa, onun fitrəsini verməsi vacib deyil, müstəhəbdir.

Məsələ 1700: Kiminsə çörək yeyəni olan bir şəxs qürubdan qabaq başqa birinin çörək yeyəni sayılsa, onun fitrə zəkatı ikinci şəxsin öhdəsindədir. Məsələn, qız qürubdan qabaq ər evinə köçərsə, zəkatını əri verməlidir.

Məsələ 1701: Əgər insanın zəkat fitrəsi başqasına vacib olsa, onun özünə vacib deyil. Lakin, əgər ona vacib olan şəxs ödəməsə, vacib ehtiyata əsasən, bacarırsa özü versin.

Məsələ 1702: İnsanın zəkat fitrəsi başqasına vacib olduğu halda özü onu ödəsə, üzərindən götürülməz. Əgər qarşı tərəfin icazəsi ilə baş tutsa, istisnadır.

Məsələ 1703: Əgər əri tərəfindən xərcləri ödənilməyən qadın başqasının çörək yeyənidirsə, fitrəsi çörəyini yediyi şəxsin öhdəsindədir. Əgər qadın imkanlı olduğu üçün şəxsi malından xərcləyirsə, fitrəsini şəxsən özü verməlidir.

Məsələ 1704: Seyid olan şəxs qeyri-seyiddən zəkat ala bilməz.

Məsələ 1705: Ana və yaxud dayədən süd əmən körpənin fitrəsi, ana və yaxud dayənin xərclərini ödəyən şəxsin öhdəsindədir. Əgər körpənin şəxsi malından xərclərini götürürlərsə, onun fitrəsi nə özünə və nə də özgəsinə vacib deyil.

Məsələ 1706: Əgər bir şəxs ailəsinin xərclərini haram maldan verirsə, onların fitrəsini halal maldan verməsi vacibdir.

Məsələ 1707: Əgər insan bir kəsi əcir edib, xərclərini verməsini (bir xidmətçi kimi) şərt etsə, onun fitrəsini verməlidir. Lakin verdiyi xərclər fəhlələrin əmək haqlarının bir hissəsi sayılarsa, onların fitrəsi iş sahibinə vacib deyil. Habelə, mehmanxana və ona oxşar yerlərdə çalışan fəhlələr adət üzrə yeməklərini orada yeyir və bu, həqiqətdə, onların məvaciblərindən sayıldığı üçü, işçilərin fitrəsi iş sahibinə deyil, özlərinə vacibdir.

Məsələ 1708: Hərbi hissə və döyüş meydanlarında olan əsgərlərin xərcləri dövlətin öhdəsindədir. Lakin, onların fitrəsi dövlətə vacib deyil. Əgər (deyilən) şərtlər onlarda varsa, öz zəkat fitrələrini şəxsən verməlidirlər.

Məsələ 1709: Əgər bir nəfər ayın son gününün qürbndan sonra dünyadan getsə, gərək onun və ailəsinin fitrəsini malından versinlər. Lakin, əgər qürubdan qabaq ölsə vacib deyil. Ailəsi vacib fitrənin şərtlərinə malik olduğu halda, özləri fitrə zəkatlarını ödəməlidirlər.

Fitrə zəkatının istifadə olunduğu yerlər

Məsələ 1710: Vacib ehtiyata əsasən, zəkatın fitrəsini müsəlman, on iki imam şiəsi olmaq şərti ilə yalnız fəqir və miskinlərə verməlidirlər. Habelə, ehtiyaclı olan şiə uşaqlarına da, onlar üçün istifadə edib, yaxud uşaqların başçıları vasitəsi ilə onlara sahib çıxmalarından asılı olmayaraq, fitrə vermək olar.

Məsələ 1711: Fitrə alan fəqirin adil olması lazım deyil. Lakin, vacib ehtiyata əsasən, içki içən və ya açıq-aşkar böyük günahlar edən, həmçinin, fitrəni Allaha günah edilən yerlərdə istifadə edən şəxslərə fitrə verilməsin.

Fitrə zəkatının hökmləri

Məsələ 1712: Vacib ehtiyata əsasən, fəqirə illik xərclərindən artıq və bir sa'dan (təqribən 3 kq.) az verilməsin.

Məsələ 1713: Əgər bir sa'nın yerinə, bir sa' adi ərzağın qiyməti qədər olan yarım sa' yaxşı mal verilsə kifayat deyil. Əgər onu fitrənin qiyməti məqsədi ilə də versə, eybi var.

Məsələ 1714: İnsan, hər ikisinin qarışığı o məntəqənin adi yeməklərindən sayıldığı halda, sa'nın yarısını bir növdən (məsələn, buğdadan), yarısını isə başqa növdən (məsələn, arpadan) verə bilər.

Məsələ 1715: Fitrənin zəkatı verildikdə ehtiyaclı qohumları yadlardan, sonra ehtiyaclı qonşuları digərlərindən, habelə, ehtiyaclı olan elm əhlini elm əhli olmayanlardan önə salmaq müstəhəbdir.

Məsələ 1716: Əgər fəqir hesab edib bir şəxsə fitrə verilsə, sonradan fəqir olmaması mə'lum olsa, o malı geri alıb müstəhəqqə verə bilər. Əgər geri almasa gərək öz malından fitrəni versin. Əgər aradan gedibsə, fitrəni alan şəxs aldığının fitrə zəkatı olduğunu bilsə, gərək onun əvəzini versin. Belə olmadığı halda əvəzini vermək ona vacib deyil. Əgər fitrə verən şəxs fəqir axtarışında səhlənkarlıq etməyibsə ona da bir şey vacib deyil.

Məsələ 1717: Ehtiyacı olmasını iddia edən şəxsə fitrə zəkatı vermək olmaz. Gərək onun fəqir olmasına əmin olsun. Ən azı xarici görünüşündən (fəqir olmasını) güman etməlidir. Yaxud, əvvəllər fəqir olduğunu bilir, (hazırda isə) fəqirliyinin aradan getməsi mə'lum deyil.

Fitrə zəkatının müxtəlif məsələləri

Məsələ 1718: Malın zəkatında olduğu kimi, fitrənin zəkatında da qürbət qəsdi lazımdır. Yəni, Allahın əmrinə itaət etmək məqsədi ilə fitrə zəkatı verilməlidir və fitrə niyyəti də şərtdir.

Məsələ 1719: Fitrə zəkatını ramazan ayından qabaq vermək olmaz. Verdiyi halda isə, Fitr bayramı günü yenidən verməlidir. Vacib ehtiyata əsasən, mübarək ramazan ayında da verməsin. Lakin, əgər ramazan ayından

əvvəl, yaxud ramazan ayında fəqirə borc versə, ona fitrə vacib olandan sonra öz borcunu fitrə yerinə hesab etməsinin maneəsi yoxdur.

Məsələ 1720: Fitrə zəkatında insanın şəxsən yediyi yemək me'yar götürülür. (Həmin) şəhər və yaxud məntəqənin adi yeməkləri meyar sayılır. Belə olan halda, həmişə düyü yeyən şəxs fitrə zəkatını buğdadan verə bilər.

Məsələ 1721: Fitrə zəkatında ərzağın yerinə pul vermək olar. Məsələn, bir "mən" buğdanın qiymətini hesablayıb onun pulunu o ünvanla fəqirə verə bilər. Lakin, gərək diqqət edilsin ki, qiymətin me'yarı rəsmi və topdan satış qiymət yox, azad bazarda müxtəlif şeylər satılandır. Başqa ifadə ilə desək, fəqir ona verilən pula həmin malı bazardan ala bilməlidir.

Məsələ 1722: Fitrə üçün verilən buğda və s. torpaq və ayrı şeylərlə qarışıq olmamalıdır. Çox az miqdarda olub, saya gəlmədikdə, istisnadır.

Məsələ 1723: Fitrə zəkatını eyibli maldan vermək olmaz. Lakin, camaatın çox istifadə etdiyi yemək növündən olarsa, eybi yoxdur.

Məsələ 1724: Bir neçə nəfərin fitrə zəkatını verən şəxsin hamısını bir növ maldan verməsi vacib deyil. (Məsələn) bə'ziləri üçün buğda, bəziləri üçün də arpa verə bilər.

Məsələ 1725: Fitrə zəkatının verilmə vaxtı Fitr bayramı günü, namaz qılmazdan əvvəldir. Bu baxımdan, fitr bayramı namazını qılan şəxs gərək fitrəni namaz qılmazdan əvvəl versin. Lakin, əgər bayram namazı qılmırsa, bayram gününün zöhrünə qədər gecikdirə bilər.

Məsələ 1726: Əgər fəqirə əli çatmırsa, öz malından bir miqdar fitrə niyyəti ilə ayırıb, nəzərdə tutduğu və yaxud hər bir müstəhəqq üçün kənara qoya bilər. Onu verdiyi hər bir vaxtda fitrə niyyəti etməsi vacibdir.

Məsələ 1727: Əgər fitrə zəkatının verilməsi vacib olan vaxtda fitrə verməyə və yaxud kənara qoymasa, ehtiyata əsasən, sonradan "ma fiz-zimmə"- əda və qəza qəsdi etmədən fitrəni verməlidir.

Məsələ 1728: Fitrə üçün kənara qoyduğu malı başqa bir malla əvəz edə bilməz. Gərək onun özünü fitrə üçün versin.

Məsələ 1729: Əgər fitrə üçün kənara qoyduğu malı səhlənkarlıq edib fəqirə vermədiyindən aradan getsə, onun əvəzini verməlidir. Lakin (fəqirə) verə bilmədiyi və (onun) qorunmasında səhlənkarlıq etmədiyi halda, ona bir şey vacib olmaz.

Məsələ 1730: Əgər insan, qiyməti fitrədən çox olan malının bir miqdarını fitrə verəcəyini niyyət etsə, eybi yoxdur.

Məsələ 1731: Vacib ehtiyata əsasən, fitrə zəkatı həmin məntəqədə istifadə edilməlidir. Məsələn, ayrı şəhərdə olan qohumları üçün göndərə bilməz. Əgər o məntəqədə müstəhəq olmadıqda isə istisnadır. O məntəqədə müstəhəqq olduğu halda fitrəni başqa bir şəhərə apardıqda tələf olsa, zamindir. Lakin, şəriət hakimi ehtiyaclıların məsləhəti üçün onu ayrı şəhərə aparmalarını icazə verə bilər.

Məsələ 1732: Əvvəllər qeyd edildiyi kimi, vacib ehtiyata əsasən, fitrə zəkatını fəqir və miskinlərdən başqa yerlərdə istifadə etmək olmaz. Habelə, onunla iş yerləri açıb mənfəətini ehtiyaclıların xidmətində qoymaq olmaz. Lakin, onunla ehtiyaclı şəxslər üçün, məişətlərini təmin etmək qədər sərmayə hazırlamaq caizdir.

HƏCC

Həcc və onun şərtləri

Məsələ 1733: Allahın evini ziyarət etməyə və həcc mənasikləri adlanan əməlləri yerinə yetirməyə "Həcc" deyilir və Həcc aşağıda qeyd edilən şərtlərə malik olan şəxslərə ömürndə bir dəfə vacibdir:

1-Həddi-büluğa çatmaq; 2-Aqil olmaq; 3- Həcci yerinə yetirməklə həccdən mühüm olan vacib bir əməl tərk olmasın; Şəriətdə (tərk olunmasının) əhəmiyyəti həccdən daha artıq olan haram bir işə qurşanmasın; 4-İstitaət. Bu , bir neçə şeylə hasil olur: 1) Yol azuqəsi, səfərdə ehtiyaclı olduğu şeylər, ehtiyac duyduğu minik və yaxud bunları hazırlaya biləcək mal; 2) Yolda maneçiliyin olmaması, canına, malına, namusuna yetişəcək təhlükə qorxusunun olmaması. Əgər yol bağlıdırsa və yaxud bir təhlükə qorxusu varsa, həcc ona vacib deyil. Lakin, uzaq olmasından aslı olmayaraq, əgər ayrı bir yol varsa, o yolla həccə getməlidir; 3)Həcc əməllərini yerinə yetirmək üçün canı sağlam olmalı; 4) Məkkəyə və həcc əməllərini yerinə yetirmək üçün kifayət qədər vaxtın olması; 5) Şəriət baxımdan və ya camaatın nəzərində xərcləri ona vacib olan şəxslərin xərclərinə malik olmaq; 6) Qayıdandan sonra məişətini təmin etmək üçün mala, ticarətə və yaxud işə malik olmaq.

İstitaətin hökmləri

Məsələ 1734: Ehtiyacları şəxsi evi olmadan tə'min olunmayan bir kəsə evin puluna malik olduğu halda həcc vacib olur. Lakin, əgər icarə, vəqf edilmiş və buna oxşar evlərdə yaşaya bilirsə, istitaətli (həccə imkanlı) hesab olunur.

Məsələ 1735: Əgər bir qadının həccə getmək üçün malı varsa, lakin, qayıtdıqdan sonra nə əri və nə də özü məişətini təmin edə bilməyəcəksə, həcc ona vacib deyil.

Məsələ 1736: Əgər bir nəfərin həccə getməyə xərci olmasa, lakin ayrısı həccə getmək üçün ona müəyyən mal bağışlayır və yaxud ixtiyarında qoyur və bu müddətdə arvad-uşağının da xərclərini ödəyirsə, belə bir şəxsə həcc vacibdir. Borclu olduğu və qayıtdıqdan sonra da məişətini təmin etmək üçün kifayət qədər vəsaiti olmadığı halda belə, ona bu hədiyyəni qəbul etmək vacibdir. Əgər onda (bağışlanılan və yaxud ixtiyarında qoyulan malda) minnət, zərər, dözülməz çətinlik olsa, istisnadır. Bu həcc onun vacib həccinə kifayət edir.

Məsələ 1737: Həcc xərclərinə malik olan borclu şəxs, öz borcunu qaytardığı halda həccə getmək imkanı əldən verərsə, belə bir şəxs istitaətli

deyil. Əgər borc aldığı şəxs tələsməsə və sonradan onun borcunu verməyə qadir olacağına əmin olsa, istisnadır.

Məsələ 1738: Əgər bir şəxsi və yaxud karvanda qulluq etmək üçün bir nəfəri əcir etsələr və bu minvalla öz həccini yerinə yetirsə, bu, onun vacib həcci hesablanır. Lakin, belə bir həcci qəbul etmək vacib deyil.

Məsələ 1739: Borc almaqla istitaətli ola bilən bir şəxsə həcc vacib deyil. Lakin, bir neçə nəfər bir şəxsin həcc və ailəsinin xərclərini verdiyi halda, ona həcc vacibdir.

Məsələ 1740: Həcc məsələlərini bilən şəxs, əvvəllər həcc yerinə yetirib-yetirməməsindən asılı olmayaraq, başqaları tərəfindən həcc əməllərini yerinə yetirmək üçün əcir ola bilər. Lakin, özü yerinə yetirə bilmədiyi halda onu (həccə məsələlərini yerinə yetirməyi) özgəsinə tapşıra bilməz. Əgər pul sahibinin icazəsi ilə olsa, istisnadır.

Məsələ 1741: Meyyit tərəfindən həcc üçün bir şəxsi əcir etməklə bu əməl onun üzərindən götürülmür. Əgər xatircəm olsa ki o, həcci yerinə yetirmişdir, əda olar.

Məsələ 1742: Zəkat malı və yaxud imam payı alıb həcc (əməllərini) yerinə yetirmək caizdir. Bu həcc, vacib həcc hesab olunur.

Məsələ 1743: İzdivac etməyə ehtiyaclı olan şəxsin, (izdivac) xərcindən artıq həccə getmək üçün pulu yoxdursa, istitaətli hesab olunmur.

Məsələ 1744: Əgər bir nəfərə həcc vacib olduqdan sonra onu yerinə yetirməzsə və istitaəti əldən gedərsə, hər vasitiə ilə olursa olsun, həcci yerinə yetirməlidir. Hətta borc almaq, əcir olmaqla olsa belə.

Məsələ 1745: İstitaətli olan şəxs həcc yerinə yetirməsə və sonra fiziki sağlamlığını əldən verərsə, belə ki, şəxsən həcc əməllərini yerinə yetirə biləcəyindən ümidsiz olsa, gərək öz tərəfindən başqa birisini həccə göndərsin. Bir nəfərin maddi imkanı yaxşı olsa, lakin, qocalıq və yaxud xəstəlik üzündən gücü olmasa, ona həcc vacib deyil. Lakin, müstəhəb ehtiyata əsasən, əcir tutsun.

Məsələ 1746: Bir dəfə vacib həcc yerinə yetirən şəxsin ikinci dəfə həcc yerinə yetirməsi müstəhəbdir. Əgər hacıların həddindən artıq izdihamı ilk dəfə həccə gedən hacılar üçün sıxıntı yaradacaqsa, müstəhəb həcci müvəqqəti olaraq təxirə salmaları yaxşıdır. Həmçinin, növbə tutulan vaxt öz növbələrini ilk dəfə vacib həcc yerinə yetirələnlərə vermələri yaxşıdır.

Əgər Allah evinin bir il zəvvarsız qalması fərz edilsə, şəriət hakiminə bir dəstəni, hətta vacib həclərini yerinə yetirmiş olsalar belə, həcc (əməllərini) yerinə yetirmək üçün göndərməsi vacibdir.

ALQI-SATQI

Məsələ 1747: Hər bir müsəlmana adətən ehtiyac duyduğu alver məsələlərini öyrənmək vacibdir. Bu hökmləri camaata öyrətmək də alimlərə vacibdir.

Vacib və müstəhəb müamilələr

Məsələ 1748: Həyat yoldaşı və uşaqlarının xərclərini ödəyə bilməyən şəxslərin ticarət, əkinçilik, sənət və s. vasitələrlə (onların) məişətlərini təmin etmək, həmçinin, rejimin qorunması, İslam cəmiyyətinin ehtiyaclarını ödəmək üçün çalışmaları, işləmələri, qazanc əldə etmələri vacibdir. (Sözü keçən işlər) başqa hallarda, xüsusi ilə, fəqirlərə kömək, ailənin rifahını genişləndirmək üçün təkid edilmiş müstəhəbdir.

Müamilələrin hökmləri

Məsələ 1749: Satıcının malın qiymətində müştərilər arasında fərq qoymaması, çətinlik yaratmaması, and içməməsi, müştəri peşman olub ondan müamiləni pozmasını xahiş edəndə qəbul etməsi müstəhəbdir.

Məsələ 1750: İnsan əncam verdiyi müamilənin səhih və ya batil olduğunu bilmədikdə aldığı malı işlədə bilməz. Lakin müamiləni icra edə bilər, amma malı işlətməzdən öncə, onun hökmünü soruşub, hökmə uyğun əməl etməlidir. Müamilə zamanı onun hökmünü bilib, müamilədən sonra düzgün icra edib-etməməsində şəkk etsə, onun müamiləsi düzgündür.

Məkruh müamilələr

Məsələ 1751: Əksər fəqihlər aşağıda qeyd edilən müamilələri məkruh bilmişlər və onlardan çəkinmək yaxşıdır:

1-Sərraflıq və insanı sələmçiliyə və yaxud hər hansı bir haram əməllərə sövq edən işlər; 2- Kəfən satmağın peşə halı alması; 3- Alçaq, zahirdə mallarının halal olmalarına baxmayaraq, müamilələri şübhəli olan şəxslərlə müamilə etmək; 4- Sübh azanı ilə günəşin doğuş arasında müamilə etmək; 5- Bir malı almağa başlayan şəxsin müamiləsi bitməmişdən öncə başqa birisinin müamiləyə müdaxiləsi.

Haram və batil müamilələr

Məsələ 1752: Aşağıdakı hallarda müamilə batildir:

1-Vacib ehtiyata əsasən, murdarın özünü, yəni, zatən murdar olan şeylərin (sidik və qan kimi) alqı-satqısı; Bu baxımdan, murdar peyinlərin alqı-satqısının eybi yoxdur. Lakin, onlardan istifadə etmək maneəsizdir. Amma zamanımızda yaralıların, xəstələrin xilası üçün istifadə edilən qanın,

həmçinin, keşikçi və ov itlərinin alqı-satqısı caizdir; 2- Qəsb edilmiş malın alqı-satqısı; Sahibi müamiləyə icazə versə istisnadır; 3-Adi mənfəətləri haram olan -musiqi və qumar alətləri kimi- şeylərin alqı-satqısı; 4- Bə'ziləri üçün dəyərli olmasına baxmayaraq, camaat arasında mal hesab olunmayan - əksər həşaratlar kimi – dəyərsiz şeylərin alqı-satqısı; 5- Sələmli müamilələr; 6- Alıcı keyfiyyətindən xəbərsiz olan əsil olmayan malı –su qatılmış süd, piy və ya başqa şey qatılmış yağ- satmaq. Bu işə "Ğəşş" deyilir və böyük günahlardan biri sayılır. Peyğəmbəri-əkrəmdən (s) belə nəql edilir: "Müsəlmanla müamilədə ğeşş edən, onlara zərər yetirən, saxtakarlıq və hiylə edən şəxs bizdən deyil. Allah müsəlman qardaşı ilə ğəşş edənin ruzisindən bərəkəti aparar, qazanc yolunu bağlayar və onu öz başına buraxar."; 7- Bədən üzvlərinin- böyrək və s. alqı-satqısı. Lakin, ehtiyata əsasən, bədən üzvünü özünə deyil, üzvü verən şəxsin bədən üzvünün götürülməsinə verdiyi icazə müqabilində pul ala bilər. Bu işin özü bədən sahibi üçün heç bir təhlükə yaratmadığı halda caizdir; 8- Yararsız yerlər əlamət vurmaqla kiminsə mülkünə çevrilmir və onun alqı-satqısı caiz deyil. Əksinə, onu canlandırmalı- əkib-becərmək üçün hazır etməlidir.

Məsələ 1753: Sonradan murdarlanmış, amma suya çəkilməsi mümkün olan pak bir şeyin- meyvə, parça, xalça kimi - murdar halda satılmasının eybi yoxdur. Lakin müştəri ondan yemək və ya paklıq şərt olan yerlərdə istifadə etmək üçün almaq istəsə, gərək ona (sözü keçən şeylərin murdar olması) deyilsin.

Məsələ 1754: Əgər suya çəkilməsi mümkün olmayan (yağ kimi) pak bir şey murdarlansa və yalnız yemək üçün istifadə edilsə, satılması batil və haramdır. Əgər pak olması şərt olmayan başqa yerlərdə istifadə etmək mümkündürsə (murdarlanmış neft kimi), müamiləsi düzgündür.

Məsələ 1755: Qeyri-islami ölkələrdən gətirilən qida və yaxud dərman kimi mə'mulatların murdar olması qəti olmadıqda, müamilələrinin eybi yoxdur. Məsələn, süd, pendir və yağın tam avtomatlaşdırılmış texniki üsulla istehsal edilməsinin ehtimal olunması.

Məsələ 1756: Qeyri-islami ölkələrdən gətirilən və yaxud kafirlərdən alınan ətlərin alqı-satqısı batildir. Lakin, onların şəriət göstərişi və yaxud müsəlman nəzarəti altında kəsilməsini (zibh edilməsini) bilsə, eybi yoxdur.

Məsələ 1757: Müsəlman bazarından və ya müsəlman əlindən alınan ətlərin alqı-satqısının eybi yoxdur. Lakin kafir ölkələrindən və ya kafirdən alan müsəlmanın heyvanının şəriət göstərişi ilə zibh edilib-edilməməsini araşdırmadığını bilsə, onun alqı-satqısı batil və haramdır. Əgər zahirdə dinə bağlı olan, araşdırdığı ehtimal olunan bir müsəlmandan alsa, müamiləsi düzgündür. Amma kafir ölkələrindən gətirilən dəriləri almaq icazəli və pakdır, hərçənd, onunla namaz qılmaq olmaz.

Məsələ 1758: Bütün növlərdən olan məstedicilərin alqı-satqısı haram və batildir.

Məsələ 1759: Qəsb edilmiş malın alqı-satqısı da haram və batildir və gərək satıcı pulu alıcıya qaytarsın. Lakin, alıcının qəsb edilmiş malı sahibindən başqasına vermək haqqı yoxdur. Əgər sahibini tanımırsa, şəriət hakiminin göstərişinə əməl etməlidir.

Məsələ 1760: Əgər alıcının qəsdi əvvəlcədən malın pulunu verməmək və yaxud haram pul vermək olsa, müamilənin iradı var. Əvvəlcədən qəsdi bu olmasa, lakin sonradan haram pul versə, müamilə düzgündür. Lakin verdiyi haram pul kafi deyil, yenidən halal pul verməlidir.

Məsələ 1761: Tar, saz və hatta kiçik saz kimi eyş-işrət alətlərinin alqı-satqısı haramdır. Əgər müştərk alət və ya oyuncaq olsa və yaxud eyş-işrət aləti sayılmasa, istisnadır.

Məsələ 1762: Halal məqsədlərlə istifadə olunan, əhəmiyyətli və şəriət baxımından heç bir iradı olmayan radio, televizor və s. cihazların alqı-satqısı caizdir. Lakin, istifadəsi halal olan bir şeyi yalnız haram işlərdə məsrəf edən (məsələn, üzümü şərab zavoduna satmaq) şəxsə satsa, müamiləsi haramdır.

Məsələ 1763: Heykəl düzəltməyin və (onun) alqı-satqısının eybi var. Lakin, üzərində heykəl şəkli və ya qabarıq rəsmlər olan sabunların alqı-satqısının eybi yoxdur.

Məsələ 1764: Qumar, oğurluq və batil müamilələrdən ələ gələn şeylərin alqı-satqqısı haram və batildir. Onlardan istifadə etmək caiz deyil. Onu alan şəxs əsil sahibinə qaytarmalıdır. Əgər sahibini tanımırsa, şəriət hakiminin göstərişinə əməl etməlidir.

Məsələ 1765: Əsil olmayan, məsələn, parafin və yaxud başqa malla qarışdırdığı yağı müəəyyən edib satsa, məsələn, bu yağı satıram, desə, müştəri başa düşdüyü vaxtda mümailəni poza (fəsx edə) bilər. Lakin onu müəyyən etməsə, filan miqdar yağı satıram, desə, lakin, satan vaxt əsil olmayan mal versə, müştəri onu geri qaytarıb, əsil cins ala bilər.

Sələm

Məsələ 1766: Sələmçilik haramdır və o, iki qisimdir:

Birincisi, borcda sələm. Allahın istəyi ilə, (bu haqda) "Borc" məsələsində söz açılacaq.

İkincisi, müamilədə sələm. Çəki və yaxud peymanə (mayeləri ölçmək üçün qab) ilə satılan malın eyni növdən olan çox mala satılması. Məsələn, bir "mən" ("mən" çəki vahididir, təqribən 3 kq-dır) buğdanı bir mən yarım buğdaya satsın. İslam rəvayətlərində sələm kəskin şəkildə tənqid edilib və çox böyük günahlardan biri hesab olunur.

Sələmin hökmləri

Məsələ 1767: Əgər o iki malın biri eyibli, digəri eyibsiz, biri keyfiyyətli, digəri keyfiyyətsiz və yaxud ayrı cəhətlərinə görə müxtəlif qiymətli olsalar, misal olaraq, 10 kq. keyfiyyətli buğdanı verib, 15 kq. keyfiyyətsiz buğda

alsa, sələm və haramdır. Bu baxımdan, düzəldilmiş qızılı verib, ondan daha çox olan düzəldilməmiş qızıl, düzəldilməmiş mis verib, ondan daha çox sınmış mis və ə'la növ düyü verib, ondan daha çox ikinci, üçüncü dərəcəli düyü alsa, sələm və haramdır. Habelə, eyni növdən olmayan bir şey artıq alsa, məsələn, 10 kq. keyfiyyətli buğda verib, 10 kq. keyfiyyətsiz buğda və əlavə olaraq 10 tuman alsa, sələm və haramdır. Əgər bir şey almasa lakin, müştərinin onun üçün bir işi görməsini şərt etsə, o da sələm və haram sayılır.

Məsələ 1768: Əgər bir nəfər (müəyyən edilmiş növdən) az verib ayrı bir malı da ona əlavə etsə, məsələn, 10 kq. buğda və bir metr parçanı 15 kq. buğdaya satsa, eybi yoxdur. Habelə, əgər hər iki tərəfə başqa bir şey əlavə etsələr, (yuxarıda qeyd edilən hökmlə eynidir). Lakin, bəziləri arasında adət halı almış, ciddi məqsəd güdülməyən sələm hiylələri kimi, bir nəfərə borc verib yüksək məbləğə malik olan mənfəətini bir sir (75 qrama bərabər olan çəki vahidi) nabatla razılaşmaları batil və əsassızdır və artıq məbləğ sələm hesab olunur.

Məsələ 1769: Çəki və peymanə ilə deyil, ədəd və metrlə satılan malları- yumurta, parça, bir çox qablar və yaxud müşahidə ilə satılan- əksər heyvanlar kimi, az sayı çox saya satmalarının eybi yoxdur.

Məsələ 1770: Bə'zi şəhərlərdə çəki və peymanə və bəzi şəhərlərdə isə sayla satılan malları əgər çəki və peymanə ilə satılan şəhərdə artıq alsalar, sələm və haramdır.

Məsələ 1771: Eyni növdən olmayan malların hər bir vasitə ilə alqı-satqısı, məsələn, 10 kq. düyünü 20 kq. buğdaya satmaq maneəsizdir.

Məsələ 1772: Eyni kökdən olan müxtəlif malların müamiləsi fərqlə iradlıdır. Məsələn, 10 kq. yağı 20 kq. pendirə, 50 litr südü 15 kq. kərə yağına satmaq kimi.

Məsələ 1773: Buğda və arpa sələmdə eyni növ hesab olunur. Bu baxımdan 10 kq. buğdanı 20 kq. arpaya və yaxud əksinə müamilə etmək olmaz. Hətta 10 kq. arpa alıb, xırman vaxtı 10 kq. arpa verməsi də haramdır. Çünki, arpanı nağd alır, bir müddətdən sonra isə buğdanı verir. Bu, artıq almaq kimidir.

Məsələ 1774: Bir neçə yerdə sələm almaq haram deyil:

1-Müsəlman şəxsin İslam sığınacağında olmayan kafirdən sələm alması;

2-Ata və övladın bir-birindən sələm alması;

3-Ər-arvadın bir-birindən sələm alması.

Alıcı və satıcının şərtləri

Məsələ 1775: Alıcı və satıcı üçün bir neçə şey şərt sayılır:

1-Həddi-büluğa çatmaq, 2-Aqil olmaq, 3-Malında təsərrüf etmək hüququndan məhrum olmamaq (bəzi şəxslər kimi, müflis olmaları ilə əlaqədar şəriət hakimi tərəfindən malında istifadə etmək hüququndan

məhrum olmamaq) 4-Qarşı tərəflərin müamilə etmək üçün ciddi məqsədləri olması. Zarafatla, "malımı satdım" deməsi təsirsizdir. 5-Kimsə onları məcbur etməməlidir. 6-Alınan və satılan mal ya onların şəxsi mülkü, ya mal sahibinin vəkil və yaxud da azyaşlı uşağın qəyyumu olmalıdır.

Məsələ 1776: Həddi-büluğa çatmamış uşaqla, qəyyumu ona icazə versə də belə, müamilə etmək batildir. Əgər müamilədə qarşı tərəf uşağın başçısı, uşaq isə yalnız pulu satıcıya və ya malı alıcıya çatdırmaq üçün vasitə olsa, bu halda eybi yoxdur. Amma, alıcı və yaxud satıcı uşağın pulu sahibinə çatdıracağına yəqin etməlidir.

Məsələ 1777: Əgər həddi-büluğa çatmayan uşaqdan bir şey alsa və ya satsa, müamiləsi batildir. Uşaqdan aldığı pulu onun özünə yox, sahibinə qaytarmalıdır. Əgər onun sahibini tanımırsa və yaxud onu tanımaq mümkün deyilsə, gərək onu şəriət hakiminin icazəsi ilə fəqirə versin. Əgər uşağın şəxsi malı olsa, onun qəyyumuna qaytarmalıdır. Həmçinin, uşağa veriyi pul və malı ondan ala bilər. Əgər tələf olubsa, əvəzini ala bilməz.

Məsələ 1778: Müamiləyə məcbur edilən alıcı və satıcı sonradan razılıq versə, (müamiləsi) düzgündür və müstəhəb ehtiyata əsasən, müamilənin siğəsini yenidən oxumalıdır.

Məsələ 1779: Əgər bir nəfərin malını onun icazəsi olmadan satsalar və o, sonradan icazə və razılıq versə, müamilə düzgündür.

Məsələ 1780: Uşaq üçün məsləhətli olduğu halda, ata və babasının, həmçinin, canişinin və şəriət hakiminin (vacib ehtiyata əsasən) uşağın malında istifadə etmək, alıb-satmaq hüququ var.

Məsələ 1781: Qəsb etdiyi malı satsa, sonradan malın sahibi ona özü üçün icazə versə, onun müamiləsi düzgündür.

Mal və onun əvəzinin şərtləri

Məsələ 1782: Satılan mal və onun əvəzinə alınan şeyin bir neçə şərti var: 1-Malın miqdarı çəki, peymanə və yaxud say hesabı ilə mə'lum olmalıdır; 2-Onu təhvil verməyə qadir olmalıdır. Bu baxımdan, hətta ona bir şey artırılsa belə (vacib ehtiyata əsasən), fərari heyvanın satılması düzgün deyil; 3-Cinsin dəyəri və camaatın müamiləyə maraq göstərməsində tə'siri olan xüsusiyyətlər müəyyən edilməlidir; 4-Malda və yaxud onun əvəzində başqa bir şəxsin haqqı olmasın. Bu baxımdan, bir nəfərin yanında girov qoyulan malı onun icazəsi olmadan satmaq olmaz. Həmçinin, alıcı pulun yerinə mülkünün mənfəətini verə bilər. Məsələn, bir nəfərdən xalça alıb, əvəzində evinin bir illik mənfəətini onun öhdəsində qoya bilər. Alıcı və satıcı malın qiymətini tə'yin etməkdə azaddır. Lakin, bu azadlıq bəzi vaxtlarda fəsada, İslam cəmiyyətinin iqtisadi durumunun pozulmasına səbəb olsa, belə hallarda şəriət hakimi mala qiymət tə'yin edib hamını ona əməl etməyə məcbur edə bilər.

Məsələ 1783: Müamiləsi görməklə baş tutan malların, məsələn, ev, avtomobil, müxtəlif xalçalar kimi, müşahidəsiz müamiləsi düzgün deyil.

Məsələ 1784: Əgər bir şəhərdə malı çəki, peymanə və başqa bir şəhərdə isə saymaq, yaxud müşahidə ilə müamilə edirlərsə, gərək hər şəhərin adət-ən'ənəsinə uyğun rəftar edilsin.

Məsələ 1785: Yuxarıda qeyd edilən şərtlərdən biri olmadıqda müamilə batildir. Lakin, alıcı və satıcı, müamilənin batil olmasına rəğmən, bir-birlərinin mallarında istifadə etməyə razı olsalar, maneəsi yoxdur.

Məsələ 1786: Vəqf edilmiş malların müamiləsi batildir. Lakin, xarab olması ilə əlaqədar vəqf edilən məqsəd üçün yararsız olsa, məsələn, məscidin xalçası söküldüyündən ondan məsciddə namaz üçün istifadə edə bilmirlərsə, onun satılmasının eybi yoxdur. Həmçinin, təmir və yenidənqurma zamanı artıq qalan köhnə avadanlıqların (hökmü yuxarıda qeyd edilənlərlə eynidir). Lakin, gərək satdıqdan sonra onun pulunu həmin məsciddə eyni məqsəd üçün istifadəyə çatdırsınlar. Əgər mümkün olmasa, vəqf edən şəxsin məqsədinə (yaxın olan şeylərə sərf etsinlər). Əgər (buna) ehtiyac olmasa, başqa bir məsciddə istifadə etsinlər.

Məsələ 1787: Xüsusi vəqflərdə, onlar üçün vəqf edilmiş malda bə'zi şəxslər arasında elə ixtilaf yaransa ki, malı satmadıqda fəsadın üzə çıxması, qan tökülməsi və yaxud hansısa malın tələf olması qorxusu olsa, bu halda o malı sata və vəqf edənin məqsədinə yaxın olan yerlərdə sərf edə bilərlər.

Məsələ 1788: Malın sahibi ayrısına icarə verdiyi evi sata bilər və onun icarəsi batil olmur. İcarə müddətində o mülkdən istifadə etmək icarə edən şəxsin hüququdur. Lakin, alıcı o mülkün icarəyə verilməsini bilməsə və yaxud icarə müddətinin az olmasını güman etsə, xəbərdar olandan sonra müamiləni poza bilər.

Müamilə siğəsi

Məsələ 1789: Müamilə edən tərəflər bildikləri hər dildə siğə oxuya bilərlər. Məsələn, əgər satıcı türkcə "Mən bu malı filan qiymətə satdım" və alıcı "qəbul etdim" və yaxud bu mə'nanı verən başqa bir ifadə ilə desələr, müamilə düzgündür. Lakin, siğə oxumadan satıcı satmaq məqsədi ilə malını birinə versə və o da almaq qəsdi ilə (müamilə şərtlərinin onda cəm olması şərti ilə) alsa kifayat edər.

Məsələ 1790: Bütün müamilələrdə sənədlərin yazılıb imzalanması, istər rəsmi ofislərdə, istərsə də qeyrisində, dil ilə oxunan siğənin canişini ola bilər. Lakin, izdivac və təlaq siğələrində, vacib ehtiyata əsasən, siğə dil ilə oxunmalıdır.

Məsələ 1791: Müamilə siğəsi oxunan zaman hər iki tərəf inşa qəsdi etməlidirlər. Yəni, bu iki cümlələri deməkdə məqsədləri alqı-satqı olmalıdır. Həmçinin, əməli olan alver dil ilə oxunan siğənin əvəzi olduqda da inşa qəsdi olmalıdır. Həmçinin, həqiqi və hüquqi şəxslərin hər ikisi malik

müamilə tərəfləri ola bilərlər. Bu baxımdan, təsis olunan hər bir xeyriyyə və pullu müəssisələr hüquqi şəxsiyyətə malik olsalar, bu baxımdan həqiqi şəxsiyyətlərlə fərqləri yoxdur.

Ağacda olan meyvələrin alqı-satqısı

Məsələ 1792: Sarı və yaxud qırmızı olan xurma, yaxud çiçəyi tökülən, dənəsi bağlanan meyvə zərərdən sovuşduğu halda, alqı-satqısı düzgündür. Həmçinin qoranın (yetişməmiş üzüm) ağaca satılmasının eybi yoxdur. Lakin, onların miqdarı mütəxəssislərin təxmini vasitəsi ilə mə'lum olmalıdır.

Məsələ 1793: Ağacda olan meyvəni çiçəyi tökülməmişdən qabaq satmaq istəsələr, ehtiyata əsasən, yerdə cücərən şeylərdən, məsələn, mövcud göyərtilər kimi, onunla satsınlar.

Məsələ 1794: Xiyar, badımcan və müxtəlif göyərtilər (tərəvəzlər), məsələn, ildə bir neçə dəfə dərilənlər kimi, zahir və aşkar olduğu halda alqı-satqılarının eybi yoxdur. Lakin, müştərinin onu ildə neçə dəfə dərməsini müəyyən etməlidirlər.

Məsələ 1795: Dənə bağlayandan sonra buğda və arpa sünbülünün satılmasının eybi yoxdur. Lakin onu buğda və arpaya satmaq iradlıdır. Həmçinin, yetişməsinə qədər qalmasını şərt etməsi və yaxud yalnız otundan istifadə etmək istəyindən asılı olmayaraq, tarlanın özünü sünbüllər zahir olmazdan qabaq almaq olar.

Nəqd və nisyənin müamiləsi

Məsələ 1796: Əgər bir mal nəqd satılarsa, satıcı və yaxud alıcı müamilə bitəndən sonra malını və yaxud pulunu tələb edə, onu təhvil ala bilərlər. Ev, torpaq və buna oxşar şeylərin təhvil verilmə qaydası, onu istifadə edə biləcək halda alan şəxsin ixtiyarında qoymaqdır. Daşınan əşyaların, məsələn, xalça, paltar və s. kimi təhvil verilmə qaydası, onu başqa yerə aparmaq istədikdə heç bir maneə olmayacaq halda alıcının ixtiyarında qoymaqdır.

Məsələ 1797: Nisyə müamilədə müddət tam şəkildə müəyyən edilməlidir. Onun üçün bir tarix müəyyən edilməsə, müamilə batildir.

Məsələ 1798: Bir mal nisyə satıldıqda, müddət vaxtı sona çatmazdan qabaq onun əvəzini tələb edə bilməz. Lakin, müştəri dünyadan köçəndən sonra, hətta, vaxt sona çatmazdan öncə, satıcı borcunu meyyitin malından tələb edə bilər.

Məsələ 1799: Əgər müddətin vaxtı bitəndən sonra müştəri pulu ödəyə bilməsə, ona möhlət verilməlidir.

Məsələ 1800: Əgər nəqd olaraq bir malı bir qiymətə, nisyə olaraq ondan baha müamilə etsələr, məsələn, bu malı nəqd olaraq filan qiymətə, nisyə isə

on faiz baha verirəm, desələr və müştəri qəbul etsə, maneəsi yoxdur və sələm hesab olunmur.

Məsələ 1801: Əgər bir nəfər malı nisyə satsa, lakin sonradan öz alacağından bir miqdar azaldıb, qalan hissəni nəqd alsa, eybi yoxdur.

Sələf müamiləsi və onun şərtləri

Məsələ 1802: Müştərinin bir müddətdən sonra alacağı malın pulunu qabaqcadan ödəməsinə sələf müamiləsi (öncədən ödəmə) deyilir. (Müştərinin) "bu pulu verirəm, məsələn, altı aydan sonra filan miqdarda olan malı səndən təhvil alaram" və satıcının "qəbul etdim" demələri kifayət edir. Hətta siğə oxumasalar da alıcı bu məqsədlə pulu versə və satıcı alsa, düzgündür.

Məsələ 1803: Əgər sələf pulun özünü satıb, əvəzinə pul alsa, müamilə batildir. Lakin, sələf bir malı satsa və əvəzinə pul və yaxud başqa mal alsa, düzgündür. Baxmayaraq ki, müstəhəb ehtiyata əsasən, həmişə malın əvəzinə başqa mal yox, pul almaqdır.

Məsələ 1804: Sələf müamiləsinin altı şərti var:

1-Gərək malın qiymətdə təsir qoyan xüsusiyyət və keyfiyyətləri müəyyən edilsin. Lakin, çox diqqət (etmək) lazım deyil. "Onun keyfiyyətləri mə'lum olub", deyilməsi kifayət edir. Bu baxımdan da xüsusiyyətlərinin vəs olunması mümkün olmayan malların (bə'zi dəri, ət və xalçalar kimi) sələf müamiləsi batildir; 2-Alıcı və satıcı bir-birlərindən ayrılmazdan qabaq qiymətin hamısı ödənilməlidir. Əgər qiymətin müəyyən hissəsini ödəsə, müamilə həmin miqdarda düzgündür. Lakin, satıcı müamiləni poza bilər; 3-Müddəti tamamilə müəyyən etməlidir, məsələn, malı xırmanın ilk vaxtı təhvil verərəm, desə (və xırmanın ilk vaxtı müəyyən olmasa,) müamilə batildir; 4-Malı təhvil vermək üçün elə vaxt təyin etməlidirlər ki, adətən həmin vaxtda o mal olur; 5-Vacib ehtiyata əsasən, hansı şəhərdə, məntəqədə malın təhvil verilməsi məkanı tə'yin edilsin. Əgər onların sözlərindən məkan mə'lum olsa, istisnadır; 6-Gərək onun çəki və peymanəsini tə'yin etsinlər. Amma, adətən görməklə müamilə olunan mal olsa (müxtəlif növlü əksər xalçalar kimi), xüsusiyyətləri sadalamaqla sələfə satsa, işkalı yoxdur. Lakin, onların hər birinin fərqləri camaatın əhəmiyyət vermədiyi miqdarda az olmalıdır.

Sələf müamiləsinin hökmləri

Məsələ 1805: Sələfin aldığı malı müddətindən öncə başqasına sata bilməzlər. Lakin, vaxtı çatdıqdan sonra onu təhvil almasa, başqasına satması maneəsizdir.

Məsələ 1806: Əgər sələf müamiləsində satıcı daha yaxşı mal təhvil versə, (yə'ni müqavilə zamanı tə'yin edilmiş xüsusiyyətlərdən əlavə, başqa yaxşı keyfiyyətlərə də malik olan) müştəri qəbul etməlidir. Lakin o xüsusiyyətlərdən bəzilərinə malik olmasa, müştəri qəbul etməyə bilər.

Məsələ 1807: Əgər satıcı müqavilədəki malın yerinə başqa mal və yaxud həmin malı aşağı keyfiyyətlərlə təhvil versə, müştəri razı olduğu halda, eybi yoxdur.

Məsələ 1808: Əgər sələfə satılan mal təhvil zamanı tapılmaz olduğundan, onu hazırlaya bilməsə, müştəri səbr edə bilər və həm də müamiləni ləğv edib, verdiyi qiyməti geri almağa hüququ var.

Qızıl və gümüşün alqı-satqısı

Məsələ 1809: Əgər qızılı qızıla və yaxud gümüşü gümüşə satsalar (sikkə olub, olmamasından asılı olmayaraq), onların birinin çəkisi artıq olduğu halda, müamilə haram və batildir. Baxmayaraq ki, bir qızıl düzəldilib, digəri isə düzəldilməyib və yaxud düzəldilmə formaları keyfiyyət baxımından fərqli və yaxud əyarları müxtəlif olub, məsələn, 18 əyarlı bir qram yarım qızılı, 14 əyarlı bir qram yarım qızıla versə, bütün bunlar haram və batildir. Lakin, çəkilərinin bərabər olub-olmamasından asılı olmayaraq, qızılın gümüşə satılmasının eybi yoxdur.

Məsələ 1810: Qızılın qızıla, gümüşün gümüşə müamiləsində satıcı və alıcı ayrılmazdan öncə malı və onun əvəzini bir-birlərinə təhvil versinlər. Əgər təhvil verməsələr müamilə batildir. Əgər yalnız bir miqdarını təhvil versələr, müamilə yalnız o miqdara əsasən düzgündür və qarşı tərəf müamiləni poza bilər.

Müamiləni pozmağın mümkün olduğu yerlər

Məsələ 1811: Müamiləni pozmaq hüququna "Fəsx (müamiləni pozma) ixtiyarı" deyilir. Satıcı və alıcı 11 halda müamiləni poza bilərlər:

1-"Məclis ixtiyarı": Müamilə məclisindən dağılmazdan öncə;

2-"Ğəbn ixtiyarı": İki tərəfdən biri məğbun (aldadıldığı halda) olduğu halda;

3-"Şərt ixtiyarı": Müəyyən müddətə qədər hər ikisinin, yaxud birinin (müamiləni) poza bilmə hüququna malik olmasını şərt etmək;

4-“Tədlis ixtiyarı”: Satıcı, yaxud alıcı saxtakarlıq edib, öz malını (həqiqətdə) olduğundan daha yaxşı tanıtdırsın;

5-“Şərtdən təxəllüf ixtiyarı”: Satıcı və yaxud alıcı tərəf müqabili üçün müəyyən bir iş görməyi, yaxud malın xüsusi tərzli olmasını şərt edib, sonra şərtə əməl etməməsi; Bu halda qarşı tərəf müamiləni poza bilər.

6-“Eyb ixtiyarı”: Əvvəlcədən xəbərsiz olduqları və malların birində və yaxud hər ikisində eyib olduğu halda;

7-“Təbəuuzu səfqə və yaxud şirkət ixtiyarı”: Satılan malın müəyyən miqdarı başqasının olduğu mə’lum olsa və əgər onun sahibi müamiləyə razı olmasa alıcı müamiləni poza, yaxud satıcının malı olan miqdarda müamiləni qəbul edib qalanının pulunu geri ala bilər;

8-“Rö’yət ixtiyarı”: Satıcı müştərinin görmədiyi müəyyən malın bəzi xüsusiyyətlərini bəyan etməklə satsa və sonra (malın) dediyi kimi olmadığı mə’lum olsa, bu halda müştəri müamiləni poza bilər; Bu hökm əvəz etmək haqqında da qüvvədədir.

9-“Tə’xir ixtiyarı”: Müştəri nəqd aldığı malın pulunu üç günə kimi ödəməsə və satıcı da malı təhvil verməyibsə, satıcı müamiləni poza bilər; (Əgər müştəri müəyyən vaxta qədər (malın) pulunu verməsini yubadacağını şərt etsə, istisnadır). Əgər satılan mal bə’zi meyvə və göyərtilər kimi bir gün üstündən ötdükdə xarab olursa, bu halda gecəyə qədər onun pulunu ödəməsə, satıcı müamiləni poza bilər.

10-“Heyvan ixtiyarı”: Heyvan alan alıcı üç gün ərzində müamiləni poza bilər;

11-“Təəzzürü təslim ixtiyarı”: Satıcı satdığı malı təhvil verə bilmədiyi halda, müştəri müamiləni poza bilər.

Müamiləni poza bilmə hüquqlarının hökmləri

Məsələ 1812: Əgər alıcı malın qiymətini bilməsə, yaxud səhvən (qafil olub) malı adi qiymətindən baha alsa, belə ki, çox baha aldıqda camaat onu məğbun (zərər çəkən) hesab etsə, müamiləni poza bilər. Bu hökm satıcı qiyməti bilməyib, məğbun olduğu halda da caridir.

Məsələ 1813: “Şərt-bey” müamiləsində, məsələn, 100, 000 tümənlik evi agah halda 50,000 tümənə satırlar və şərt edirlər ki, əgər satıcı müəyyən edilmiş vaxtda pulu verərsə, müamiləni poza bilər və həqiqətən, qarşı tərəflərin alqı-satqı məqsədləri olsa, müamilənin eybi yoxdur. Əgər təyin edilmiş vaxtda pulu verməsə, mal alıcının olacaq.

Məsələ 1814: Əgər saxtakarlıq edib ə’la növ çayı pis çayla qarışdırıb “ə’la növ çay” adı ilə satsa, müştəri müamiləni poza bilər.

Məsələ 1815: Əgər alıcı aldığı malın eyibli olduğunu bilsə, məsələn, aldığı parça və yaxud xalçanın sökük və yaxud çürük olduğunu bilsə, əgər eyib müamilədən qabaq həmin malda olub, o, bilməyibsə, müamiləni poza və yaxud da eyibsiz malla eyibli malın qiymətini müəyyən edib satıcıya

verdiyi pula mütənasib olaraq pulu geri ala bilər. Məsələn, 100 tümənə aldığı malın eyibli olduğunu başa düşsə və bazarda onun sağlam və eyiblisinin fərqi dörddə biri qədərdisə, dördə birinin pulunu yəni, 25 tüməni satıcıdan ala bilər. Vacib ehtiyata əsasən, bu iş qarşı tərəfin razılığı ilə icra edilməldiir. Bu hökm, əvəzdə eyb olduğu halda da caridir.

Məsələ 1816: Əgər müamilədən sonra və mal təhvil alınmazdan öncə onda bir eyib tapılsa, müştəri müamiləni poza bilər. Həmçinin, o malın əvəzində, müamilədən sonra lakin, mal təhvil alınmazdan öncə malda bir eyib tapılsa, satıcı müamiləni poza bilər.

Məsələ 1817: Əgər müamilədən sonra malın eyibli olduğunu bilib, tez müamiləni pozmasa, ehtiyata əsasən, onun (müamiləni pozma) hüququ qüvvədən düşür. Lakin, fikirləşmək qədər təxirin olmasının maneəsi yoxdur və müamiləni pozan zaman satıcının hazır olması şərt sayılmır.

Məsələ 1818: Bir neçə halda (mal) eyibli olsa müamiləni poza və yaxud qiymətin fərqini ala bilməz:

1-Alan zaman malın eyibli olmasını bilsə; 2-Sonradan razı olduğu halda; 3- Satıcı malı bütün eyibləri ilə yanaşı satıram desə. Lakin eyibi müəyyənləşdirib, bu eyiblə satıram, desə və sonradan başqa eyiblərin də olması məlum olsa, alıcı müamiləni poza bilər; 4- Alıcı malı alan zaman, "malın eyibi olsa, müamiləni pozmaz və qiymət fərqini almaram", desə.

Məsələ 1819: Bir neçə halda alıcı malın eyibli olmasını bilsə müamiləni poza bilməz, lakin qiymət fərqini ala bilər:

1-Müamilədən sonra malda bəzi dəyişikliklər apardığı üçün camaat, "alınan mal olduğu kimi qalmayıb" desə; 2-Müamilədən sonra malın eyibli olduğunu bilsə, lakin müamilə hüququnu qüvvədən salmış olsa; 3-Malı təhvil alandan sonra başqa bir eyib onda tapılsa. Lakin, eyibli heyvan alıb, üç gün ötməzdən öncə başqa bir eyib tapsa, yenə də onu geri qaytara bilər. Həmçinin, əgər alıcı üçün yalnız müəyyən müddət daxilində müamiləni poza bilmə hüququ təyin edilsə və o müddətdə başqa bir eyib tapsa, onu təhvil almasına baxmayaraq, bu halda da müamiləni poza bilər.

Alqı -satqının müxtəlif məsələləri

Məsələ 1820: Əgər satıcı malın satış qiymətini müştəriyə deyib, onun əsasında müamilə etsə, qiymətin azalıb-çoxalmasına səbəb olan bütün şeyləri bəyan etməlidir Məsələn, onu nəqd və yaxud nisyə hansı qiymətə aldığını (onu həmin qiymətə, baha və yaxud ucuz satmasından asılı olmayaraq) bildirməlidir.

Məsələ 1821: Əgər malı bir şəxsə verib, onu bu qiymətə mənim üçün sat və hər nə qədər baha satsan, (xeyri) sənin olsun, desə, müamilə düzgündür və artıq miqdar dəllalınkıdır. Həmçinin, əgər bu malı bu qiymətə sənə satdım və o da, qəbul etdim desə, o qiymətdən nə qədər baha satsa, onunkudur.

Məsələ 1822: Əgər qəssab dişi əti erkək əti adı ilə (əti müəyyən edib, “bu erkək ətidir” desə) satıbsa, müştəri müamiləni poza bilər. Əgər müəyyən etməyibsə, onu qaytarıb, erkək əti almaq hüququna malikdir.

Məsələ 1823: Əgər müştəri parça satana “rəngi sabit olan bir parça istəyirəm” desə və o, rəngi sabit olmayan parça versə, müştəri müamiləni poza bilər.

Məsələ 1824: Müamilədə haqq olduğu halda and içmək məkruh, yalan danışdığı halda isə haramdır.

ŞİRKƏT (ŞƏRİK OLMAQ)

Məsələ 1825: Əgər iki mal elə qarışsa ki, bu işin məqsədli və məqsədsiz baş verməsindən asılı olmayaraq, onları bir-birindən seçmək və ayırmaq mümkün olmasa, o malda şəriklik hasil olur. Həmçinin, şirkət siğəsini ərəb, fars və yaxud hər hansı bir dildə oxusalar və yaxud bir-birləri ilə şirkət etmək istəklərini məlum edən bir iş görsələr, onların şirkətləri siğə oxuduqları mallarda düzgündür və iki malın bir-birinə qarışdırılması lazım deyil.

Şirkətin hökmləri

Məsələ 1826: Əgər bir neçə nəfər aldıqları muzdda bir-birləri ilə şərik olduqlarına müqavilə bağlasalar, məsələn, bir neçə dəllal əldə etdikləri bütün mənfəətləri birgə böləcəklərinə razılaşsalar, onların ortaqlığı düzgün deyil.

Məsələ 1827: Əgər iki nəfər , hərənin öz e'tibarı ilə müəyyən bir mal alıb, onun qiymətinə özü borclu olmasını, lakin, malda və onun istifadəsində bir-biri ilə şərik olmalarını şərt etsələr, düzgün deyil. Amma onlardan birinin başqasını, malı onun üçün müştərək şəkildə almağa vəkil etməsinin maneəsi yoxdur, bu halda şirkətləri düzgündür.

Məsələ 1828: Şirkət müqaviləsi bağlamaq istəyən şəxslər həddi-büluğa çatmış və aqil olmalı, məqsədli və öz ixtiyarı ilə addım atmalıdırlar. Habelə, öz malında istifadə etmək hüququndan (öz malından istifadə etməyi bacarmayan, onu hədər yerə tələf edən ruhi xəstələr kimi) məhrum olmamalıdırlar.

Məsələ 1829: Şirkət müqaviləsində, işləyən adamın çox qazanc götürməsini şərt etməyinin maneəsi yoxdur. Yaxud əksinə, işləməyən və yaxud az işləyən şəxsin çox qazanc götürməsini də şərt etmək (güzəşt və ayrı səbəblərə görə) olar. Amma, əgər bütün mənfəətləri bir nəfər götürsün, deyə şərt etsələr, düzgün deyil. Lakin, əgər bütün zərəri və yaxud onun əksər hissəsini bir nəfər ödəsin, deyə şərt etsələr, düzgündür.

Məsələ 1830: Şəriklərin hər biri öz sərmayələrinə uyğun mənfəət aparır və yaxud zərər çəkirlər. (Lakin,) şirkət müqaviləsində xüsusi bir şərt qeyd etsələr, istisnadır. Bu baxımdan, sərmayəsi şərikinin sərmayəsindən iki dəfə çox olan şəxsin mənfəət və zərər payı da şərikinə nisbətdə iki bərabər olacaq. Amma, paylarının bərabər olmalarını şərt etmələrinin maneəsi yoxdur.

Məsələ 1831: Şirkət müqaviləsində hər ikisi birgə alqı-satqı edə bilmələrini, yaxud hər biri fərdi olaraq və yaxud da yalnız onlardan birinin müamilə etməsini şərt edə bilərlər. Hər halda, müqaviləyə əsasən əməl

etməlidirlər. Əigər bunu müəyyən etməsələr, heç biri digərinin icazəsi olmadan o sərmayə ilə müamilə edə bilməz.

Məsələ 1832: Müamilə etmək üçün şirkət sərmayəsi ixtiyarında qoyulmuş şəxs eyni ilə müqavilə və qeyd edilən şərtlərə əsasən əməl etməlidir. Məsələn, əgər onunla nisyə verməməyi, filan müəssisə və yaxud şirkətlə alver etməməyi və yaxud nisyə verdikdə vəsiqə almağı şərt etsələr, həmin müqaviləyə əməl etməlidir. Əgər ona bu haqda şərt qoymayıblarsa, öz müamilələrini ümumi adətə uyğun olaraq yerinə yetirməlidir.

Məsələ 1833: Şirkət sərmayəsi ilə müamilə edən şəxs, onunla bağladıqları müqavilənin əksinə alqı-satqı etsə və müəyyən bir xəsarət ortaya çıxsa, zamindir. Həmçinin, onunla hər hansı bir müqavilə bağlamasalar və o, ümumi adətin əksinə əməl etsə, zamindir.

Məsələ 1834: Şirkət sərmayəsi ilə müamilə edən şəxs onun qorumasında səhlənkarlıq edib, ifrata varmayıbsa, hansısa hadisə zamanı sərmayənin hamısı və yaxud bir hissəsi tələf olsa, zamin deyil.

Məsələ 1835: Şirkət sərmayəsi ilə müamilə edən şəxs sərmayənin səhlənkarlıq və israfçılıq etmədən tələf olduğunu iddia etsə və qarşı tərəf isə onun xəyanət etdiyini iddia edib, dediyinə dəlil gətirməsə, əgər müamilə edən şəxs şəriət hakiminin yanında and içsə, onun sözü qəbul edilməlidir.

Məsələ 1836: Müamilələrdə şirkət lazımdır. Yəni, qarşı tərəflərdən heç biri birtərəfli olaraq müamiləni poza bilməz və habelə, şirkət müddəti bitməzdən öncə sərmayəni bölməyi xahiş etmək hüququna malik deyil. Əgər müqavilədə onun üçün belə bir hüquq nəzərdə tutulubsa, istisnadır.

Məsələ 1837: Əgər şəriklərdən biri ölsə və yaxud dəli və ya səfeh olsa, digər şəriklər şirkət malında təsərrüf edə bilməzlər. Lakin, müvəqqəti huşsuzluğun təsiri yoxdur.

Məsələ 1838: Əgər şərik nisyə olaraq bir şeyi özü üçün alsa, zərər və mənfəəti öünə aiddir. Əgər müqaviləyə uyğun, şirkət məqsədi ilə alsa, hər ikisinin malıdır.

Məsələ 1839: Əgər şirkətin sərmayəsi ilə müamilə etsələr, sonra şirkətin batil olması məlum olsa, bütün şəriklər o müamiləyə icazə verdikləri halda düzgündür və onun gəliri hamınındır. Bu arada şirkət üçün bir iş görən şəxslər öz zəhmətlərinin haqqını təbii halda ala bilərlər.

SÜLH

Məsələ 1840: Bir şəxsin başqası ilə ixtilaflı, yaxud ixtilaf və qarşıdurmaya səbəb ola biləcək bir məsələdə öz malının, qazancının və yaxud haqqının bir miqdarını ayrısına verməsinə, yaxud o da əvəzində öz malından, mənfəətindən bir miqdarını ona versin deyə, öz tələbindən, haqqından keçməsinə razı olmasına "sülh" deyilir. Yaxud öz tələbindən, haqqından keçməsinə "muəvvəz sülhü" deyilir. Əgər bu həvalə etmə əvəzsiz olsa, "qeyri-muəvvəz sülhü" adlanır və hər ikisi düzgündür.

Sülhün hökm və şərtləri

Məsələ 1841: Bir şeyi digərinə sülh edən şəxs həddi-büluğa çatmış və aqil olmalıdır. Onu (bu işə) heç kəs məcbur etməməli və sülh qəsdində ciddi olmalıdır. Səfeh (malını hədər yerə xərcləyən) olmamalı və habelə, şəriət hakimi ona malında təsərrüf etməyini qadağan etməməlidir.

Məsələ 1842: Sülhü hər dildə, məsələn, ərəbcə, farsca və s. siğəsi ilə oxumaq olar. Habelə, qarşı tərəflərin sülh və razılığa gəlməsini aydınlıqla göstərən hər bir əməl kafidir.

Məsələ 1843: Əgər bir şəxs öz tələbini nəyinsə müqabilində və yaxud əvəzsiz olaraq digərinə sülh etmək istəsə, qarşı tərəf qəbul etdiyi halda düzgündür. Lakin, öz tələbindən, haqqından keçmək istəsə, qarşı tərəfi qəbul etmək lazım deyil və bu da bir növ sülhdür.

Məsələ 1844: Əgər insan aldığı borcun miqdarını bildiyi halda unutduğunu izhar etsə və ona borc verən şəxs (bunu) bilməsə və öz borcunu olan miqdardan aza sülh etsə düzgün deyil, borclu şəxs artıq miqdara borcludur. Əgər (borc verən şəxs) öz borcunu bildiyi halda da bu sülhə razı olacaqdısa, istisnadır.

Məsələ 1845: Əgər çəkisi mə'lum olan və bir maldan olan iki şeyi bir-birlərinə sülh etmək istəsələr, sələm qarşıya gəlmədiyi halda düzgündür. Yəni hər ikisinin çəkisi eyni olmalıdır. Əgər onların çəkisi mə'lum olmasa, az və yaxud çox olmasını ehtimal versələr, sülh etməyin iradı var.

Məsələ 1846: Əgər birinin başqasında vaxtı çatmayan borcu varsa, borcunu az bir miqdarla sülh etsə və məqsədi də bu olsa ki, alacağının bir miqdarını (ona) bağışlasın və qalanını isə nəqd alsın, (bunun) eybi yoxdur. Məsələn, altı aydan sonra 10 min tumən alacağı var, onun min tumənindən imtina edib, qalanını qarşı tərəfin razılığı ilə nəqd şəkildə alır.

Məsələ 1847: Sülh müqaviləsini qarşı tərəflərin razılığı ilə pozmaq olar. Həmçinin, əgər müqavilə əsnasında qarşı tərəflərdən biri və yaxud hər ikisi üçün müqaviləni pozma hüququ təyin edilsə, o şəxs sülhü poza bilər.

Məsələ 1848: Alqı-satqı hökmlərində qeyd edildi ki, 11 halda müamiləni pozmaq olar. Bütün bu 11 halda sülhü də pozmaq olar. Lakin, məclis,

heyvan və təxir ixtiyarları istisnadır. Yəni, əgər razılaşma məclisində sülh bitəndən sonra qarşı tərəflərdən biri peşman olsa, fəsx (müamilənə poza bilmə) hüququ yoxdur. Habelə, heyvan razılaşmasında fəsx hüququ ilk üç gündə sabit deyil. Həmçinin, əgər bir malı nəqd olaraq sülh etsə və onun əvəzini ödəməkdə yubansa, həmin ilk gündə fəsx hüququ qarşı tərəf üçün sabitdir və üç gün keçməsinə ehtiyac yoxdur.

Məsələ 1849: Əgər sülhə götürdüyü bir şey eyibli olsa və ondan xəbəri olmasa, sülhü poza bilər. Lakin, eyibli və düzgün qiymət fərqlərini almaq qarşı tərəflərin razılığından asılıdır.

İCARƏ

Məsələ 1850: Mülk və yaxud şəxsi mənfəətin başqasına həvalə edilməsinə icarə deyilir. İcarəyə verən və icarə edən həddi-büluğa çatmış və aqil olmalıdır. Öz qəsd və ixtiyarı ilə icarəni əncam verməli və habelə öz malında təsərrüf etmək hüququna malik olmalıdır. Bu baxımdan öz malını doğru şəkildə idarə etməyi bacarmayan və onu hədər yerə xərcləyən səfehin icarəsi batildir.

İcarənin hökmləri

Məsələ 1851: İnsan başqası tərəfindən vəkil olub, onun malını icarə verə bilər. Həmçinin, az yaşlı uşağın (səğir) və qəyyumu onun məsləhətini riayət etməklə, malını icarəyə verə bilər. Ehtiyata əsasən, onun həddi-büluğdan sonrakı zamanını icarəyə daxil etməsinlər. Əgər onsuz az yaşlı uşağın (səğirin) məsləhəti hasil olmasa, istisnadır. Başçı və qəyyumu olmadıqda isə şəriət hakimindən icazə alınmalıdır. Əgər adil müctəhid və yaxud onun nümayəndəsinə müraciət etmək imkanı olmasa, uşağın məsləhətini riayət edən adil mö'min şəxsdən icazə almaq olar.

Məsələ 1852: İcarədə siğəni hər dildə- ərəbcə, farsca və s. oxumaq olar (məsələn, malik, bir şəxsə filan mülkümü, filan məbləğə, filan müddət ərzində sənə icarə verdim, desin və o da, qəbul etdim, desin). Həmçinin, öz mülkünü icarə qəsdi ilə icarə edənin ixtiyarında qoyması və onun da təhvil alması kafidir.

Məsələ 1853: Əgər bir şəxs siğə oxumadan bir işi görməyə əcir olub, qarşı tərəfin tələbi ilə işə məşğul olarsa, icarə düzgündür.

Məsələ 1854: Danışmaq qabiliyyəti olmayan şəxs əgər işarə ilə başa salsa ki, öz mülkünü müəyyən müddət və məbləğ daxilində icarəyə vermiş və yaxud icarə etmişdir, düzgündür.

Məsələ 1855: İcarə etdiyi ev və yaxud dükanı başqasına icarə verə bilməz. Əgər belə bir haqq icarə edənə verilibsə, istisnadır.

Məsələ 1856: Ev, mağaza və yaxud bir otaq icarə edib onu başqasına verməyə hüququ olan bir şəxs, (onu) icarə etdiyindən daha çox məbləğə icarə verə bilməz. Əgər orada onun bərabərində bir az artıq (məbləğ) almaq

üçün iş görübsə (təmir, ağartı işləri aparmaq və yaxud şkaf, xalça qoymaq) istisnadır.

Məsələ 1857: Əgər bir işçi, fəhlə özünü başqasının xidmətinə və icarəsində qərar versə, onu başqasının xidmət və icarəsinə verə bilməz. Əgər əməl və yaxud kəlamının zahiri mənası, icarə edənin bu cəhətdən azad olması başa düşülsə, istisnadır. Bu halda, əgər onu o məbləğdən çox təhvil versə eybi var. Lakin, ev, mağaza və əcirdən başqasında eybi yoxdur.

İcarənin şərtləri

Məsələ 1858: İcarə verilən malın bir neçə şərti var:

1-Müəyyən olmalıdır. Bu baxımdan, əgər, ev və yaxud avtomobillərimdən birini icarə verirəm, desə, düzgün deyil; 2-İcarə edən onu görməli və yaxud malik onun xüsusiyyətlərini təmami ilə bəyan etməlidir; 3- Onu təhvil vermək mümkün olmalıdır. Belə isə, icarə edənin onu tutmasına qadir olmayan fərari atı icarəyə vermək batildir; 4- O mal istifadə etməklə aradan getməməlidir. Bu baxımdan, çörək, meyvə və bu kimi şeyləri icarəyə vermək düzgün deyil; 5- İcarə verilən maldan istifadə etmək mümkün olmalıdır. Əkinçilik üçün yararlı və yaxud kifayət qədər suyu olmayan torpağı icarəyə vermək batildir; 6- İcarə verdiyi şeyin maliki, yaxud onun icarə verilməsində vəkil və yaxud qəyyum olmalıdır.

Məsələ 1859: Ağacın, bağın, otlağın meyvə və yaxud otundan istifadə etmək üçün icarəyə verilməsi düzgündür.

Məsələ 1860: Qadın, südündən istifadə etmələri üçün əcir ola bilər və ərindən icazə alması lazım deyil. Lakin süd vermək vasitəsi ilə ərinin hüququ pozularsa, onun icazəsi olamadan caiz deyil.

Məsələ 1861: Mənfəəti (faydası) üçün icarəyə verilən malın bir neçə şərti var:

1-Halal olmaq. Bu baxımdan, mağaza və maşının spirtli içkiləri satmaq və yaxud daşımaq üçün icarəyə verilməsi batildir; 2- Camaatın nəzərində belə bir mənfəətin qarşısında pul vermək faydasız olmasın; 3-Əgər o malın müxtəlif faydaları varsa, hansı fayda üçün icarə verdiyini müəyyən etməlidir. Məsələn, həm minik və həm də yük daşımaq üçün yaralı olan heyvanı hansı biri üçün icarəyə verdiyini müəyyən etməlidir. Əgər hər ikisi nəzərdə tutulubsa, yenə də müəyyən edilməlidir; 4-İcarənin müddəti də müəyyən edilməlidir.

İcarənin müxtəlif məsələləri

Məsələ 1862: Əgər icarənin nə vaxtdan başlamasını müəyyən etməsələr, onun başlanğıcı siğə oxunduqdan və yaxud təhvil alındıqdan sonradır.

Məsələ 1863: Əgər bir evi və yaxud mülkü, məsələn, bir illik icarəyə versələr və onun başlanğıcını siğə oxunduqdan bir ay sonra müəyyən etsələr, siğə oxunduğu zaman o ev başqasının icarəsində olmasına baxmayaraq, icarə düzgündür.

Məsələ 1864: Əgər icarə edən evi bir aylıq min tumənə sənə icarəyə verirəm və hər nə qədər çox qalsan, həmin qiymətədir, desə, yalnız ilk ayda icarə düzgündür. Çünki, başqa (ayları) müəyyən etməyibdir. Əgər ilk ayı da müəyyən etməyibsə və yalnız hər ay min tuməndir, desə, icarə təmamilə batildir.

Məsələ 1865: İnsanın orada nə qədər qalması mə'lum olmayan mehmanxana və hotellərdə bir gecə üçün 100 tumən verilməsinə qərara gəlsələr və (buna) hər iki tərəf razılaşsa, eybi yoxdur. Lakin, icarə müddətini müəyyən etmədiklərinə görə icarə düzgün deyil. Bu baxımdan, onun sahibinin razılığı olana qədər (orada) qala bilər, əks halda (orada qalmaq) hüququ yoxdur. Amma, qaldığı gecələrin sayını əvvəlcədən müəyyən etsələr, müddətin sonuna qədər (orada) qalmaq hüququ var.

Məsələ 1866: Əgər torpağı buğda və arpa əkmək üçün icarə versə və icarə malını (da) həmin torpağın buğda və arpasından qərar versə, icarə düzgün deyil, həmçinin, torpağın digər məhsullarının qarşısında.

Məsələ 1867: Bir şəxsin icarə verdiyi şeyi təhvil verməzdən öncə icarə malını tələb etmək hüququ yoxdur. Həmçinin, əgər bir iş görmək üçün əcir olubsa, işi görməzdən öncə öz əcir olmağının haqqını tələb etmək hüququ yoxdur.

Məsələ 1868: Əcir olmuş fəhlənin muzdunu təri qurumazdan öncə vermək müstəhəbdir. Əgər fəhlənin buna meyli olmasa, məsələn, muzdunu hər ayda almaq istəsə, istisnadır.

Məsələ 1869: Əgər icarə verdiyi şeyi icarə edən təhvil versə, amma o, təhvil almasa və yaxud təhvil alıb, ondan istifadə etməsə, icarənin malını ödəməlidir.

Məsələ 1870: Əgər bir şəxs, müəyyən bir gündə hansısa bir işi görmək üçün əcir olsa və təyin edilmiş gündə işi görmək üçün hazır olsa, lakin iş sahibi onu işlətməsə, onun muzdunu verməlidir. Məsələn, əgər bir bənnanı müəyyən gündə bina tikmək üçün əcir etsə və bənna həmin gündə işləməyə hazır olsa, lakin iş sahibi boyun qaçırsa və bənna o gündə işsiz qalsa, onun muzdunu verməlidir. Lakin özü və yaxud da başqası üçün iş görsə, ehtiyata əsaəsn, yalnız (qiymət) fərqini birinci iş sahibindən (ikinci muzd az olan halda) ala bilər.

Məsələ 1871: Əgər icarə müddəti tamam olandan sonra və yaxud icarə əsnasında icarənin batil olmasını anlasa, icarə edən gərək icarə malını adi dəyər (qiymət) miqdarında (müqavilənin qiymətindən az və yaxud çox olmasından asılı olmayaraq) mülk sahibinə versin. Əgər adi dəyər bir ayda min tumandirsə, o, beş yez tümənə və yaxud iki min tumənə icarə edibsə, gərək həmin min tuməni versin.

Məsələ 1872: İcarə etdiyi şey tələf və yaxud eyibli olsa, əgər onu qorumaqda səhlənkarlıq etməyib və onun istifadəsində ifrata varmayıbsa, zamin deyil. Məsələn, dərziyə verdiyi parçanı oğru aparsa və yaxud yanğın zamanında tələf olsa, onu qorumaqda səhlənkərlıq etmdəyi halda məs'uliyyət daşımır. Lakin, səhv və yaxud da başqa səbəblər üzündən onu öz əli ilə korlasa və yaxud eyibli etsə, zamindir. Əgər eyib malın özündən olsa, istisnadır. Məsələn, parça elədir ki, ütü vurmaqla xarab olur, bu halda (dərzi) zamin deyil.

Məsələ 1873: Əgər qəssab bir heyvanın başını kəsib, (pullu və pulsuz kəsməsindən asılı olmayaraq,) onu haram etsə, heyvanın qiymətini sahibinə ödəməlidir və bir muzd da tələbkar deyil.

Məsələ 1874: Əgər bir şəxs heyvanı sına biləcək malı aparmaq üçün icarəyə versə, o heyvan titrəyib və yaxud hürküb yükü sındırsa, heyvanın sahibi zamin deyil. Lakin, əgər vurmaq və ona oxşar şeylərin vasitəsi ilə və yaxud xatircəm yollarla heyvanı aparmaqda səhlənkarlıq etsə, heyvan yerə yıxılıb, yük sınsa, zamindir. Habelə, avtomobillərin aşması nəticəsində malların tələf olması da yuxarıda qeyd edilən hökmlə eynidir. Əgər onun qanuna riayət etməməsi və yaxud səhlənkarlığı malın tələf olmasına səbəb olsa, zamindir. Amma saz avtomobilin hansısa səbəbdən bir hissəsi sınıb aşsa, mal tələf olsa, zamin deyil.

Məsələ 1875: Əgər həkim xəstə üzərində əməliyyat apardıqda, uşağı sünnət etdikdə səhlənkarlıq üzündən xəstəyə, uşağa bir zərər yetirsə və yaxud onların ölümünə səbəb olsa, habelə, səhv edib, hansısa ziyana səbəb olsa, zamindir. Lakin, səhlənkarlıq və səhv deyil, başqa səbəblər

nəticəsində, xəstə eyibli olsa, yaxud ölsə, bir şərtlə ki, əgər uşağı onun sahibinin icazəsi ilə müayinə edibsə, zamin deyil.

Məsələ 1876: Əgər həkim xəstə üçün bir dərman nüsxəsi yazsa, ona göstəriş versə, şəxsən dərmanı ona yedirtsə və yaxud iynə vursa, müalicəsi səhv olduğundan xəstəyə zərər yetişsə və yaxud ölsə, zamindir.

Məsələ 1877: Etdiyi səhv və xətalar qarşısında zamin olmaq istəməyən həkim və ya cərrah xəstəyə və yaxud onun qəyyumuna- əgər hansısa diqqətsizlik üzündən xəstəyə bir zərər yetişsə zamin deyil, desə, onlar qəbul etdikləri halda lazımi diqqət və ehtiyat etməsi ilə yanaşı xəstəyə zərər yetişsə və yaxud ölsə, həkim və yaxud cərrah zamin deyil.

Məsələ 1878: İcarə edən və malik bir-birlərinin razılığı ilə icarəni poza bilərlər. Habelə, icarədə fəsx hüququ onlardan biri və yaxud hər ikisi üçün nəzərdə tutulubsa, ona uyğun olaraq icarəni poza bilərlər.

Məsələ 1879: Əgər icarə verən və yaxud icarə edən aldandığını bilsə, əvvəlcədən qiymətdən xəbəri olmadığı halda icarəni poza bilər. Lakin icarədə, əgər zərərə düçar olsam belə, müqaviləni pozmaq hüququm yoxdur, deyə şərt etsə, icarəni poza bilməz.

Məsələ 1880: Əgər nəyisə bir şəxsə icarəyə versələr, icarə edənə təhvil verməzdən öncə başqası onu qəsb etsə, icarə edənin icarəni pozmaq hüququ var. Habelə səbr edib, qəsb edən şəxsin istifadəsində olan müddətdən icarəsini adi qaydada ondan ala bilər. Amma təhvil aldıqdan sonra başqası onu qəsb etsə, icarəni poza bilməz.

Məsələ 1881: Əgər icarə müddəti bitməzdən öncə mülkü icarə edənə satsa, icarə pozulmur və icarə edən icarə haqqını ödəməlidir. Habelə, əgər başqasına satsa, yenə də icarə qüvvəsində qalır.

Məsələ 1882: Əgər icarə müddəti başlamazdan öncə mülk istifadə olunmaz halda xarab olsa və yaxud müqaviləyə uyğun istifadə edilməsi mümkün olmasa, icarə batil olur və icarə edənin mülk sahibinə verdiyi pul ona qaytarılır. Lakin, istifadə edilməsindən bir müddət keçdikdən sonra xarab olsa, icarənin qalan müddəti batil olur.

Məsələ 1883: Əgər, məsələn, iki otaqlı evi icarəyə verdikdən sonra onun bir otağı xarab olsa və onu tez təmir edib, istifadə üçün yararlı hala gətirsə, icarə batil olmur və icarə edənin də müqaviləni pozmaq hüququ yoxdur. Lakin təmir işləri uzansa və icarə edənin istifadə etməsi üçün (otaq) bir müdət yararlı olmasa, o otağa nisbətdə icarə batil olur və qalanında da müqaviləni pozmaq hüququ var.

Məsələ 1884: İcarə mülk sahibi və yaxud icarə edənin ölümü ilə batil olmur və o hüquq (icarə) müddətin sonuna qədər onların varisləri üçün qüvvəsində qalır. Əgər başqasını yox, yalnız icarə edənin ondan istifadə etməsini şərt etsələr, mülk sahibinin icarənin qalan müddətini pozmaq hüququ var.

Məsələ 1885: Əgər iş sahibi bənnanı onu tikinti işləri üçün fəhlə gətirməyə vəkil etsə və fəhlələrə verdiyi muzddan artıq, iş sahibindən pul alsa, haramdır. Lakin, binanı müəyyən məbləğ daxilində sona yetirməsini qəbul etsə və xərclədiklərindən artıq olsa, eybi yoxdur. Amma ehtiyata əsasən, özü bənnalıq, ona (bənnalığa) nəzarət və yaxud avadanlıqların alınması kimi bir iş görməməlidir.

Məsələ 1886: Əgər rəngsaz parçanı, müəyyən şəkildə rəngləməyi şərt etsə və başqa cür rəngləsə, muzd almaq hüququ yoxdur. Əksinə, parçanın xarab olmasına və yaxud keyfiyyətinin aşağı düşməsinə səbəb olubsa, zamindir. Bu məsələ (hökm) dərzi, pinəçi və s. haqqında da qüvvəsində qalır.

MÜZARİƏ

Məsələ 1887: Yer sahibinin öz torpağını əkinçilik üçün əkinçinin ixtiyarında qoymasına və məhsulun müəyyən hissəsini malikə verməsinə "müzariə" deyilir. Müzariə siğəsi həm şifahi olaraq, məsələn, (torpaq sahibi) "mən bu torpağı iki il ərzində məhsulun üçdə birini almaqla sənin ixtiyarında qoyuram" və əkinçi də "qəbul etdim" deyə oxumaq olar və həm də siğə oxunmadan, torpağı əkinçilik etmək üçün əkinçinin ixtiyarına versin və o da təhvil alsın. (Əlbəttə (müzariənin) müddəti və məhsulun (hissə) neçə faizini alacağı və s. üçün lazımi danışıqlar əvvəlcədən müəyyən edilməlidir).

Müzariənin şərtləri

Məsələ 1888: Müzariənin bir neçə şərti var:

1-Torpaq sahibi və əkinçi həddi-büluğa çatmış, aqil olmalı, öz ixtiyarları ilə müzariə etməli, şəriət hakimi onları mallarından istifadə etmələrinin qarşısını almamalı və səfeh olmamalıdır; 2-Torpağın bütün məhsulu o iki nəfərdən birinə məxsus edilməməlidir; 3-Hər birinin payı (ümumi məhsuldan) "muşa" halında -məhsulun yarısı, üçdə biri və s. olmalıdır. Bu baxımdan, əgər bir növ məhsulun birinə, başqa növün isə ayrısına məxsus olmasını və yaxud torpağın bir hissəsinin məhsulunu birinə, ayrı hissəsini isə ikinciyə malik olmasını şərt etsələr düzgün deyil. Həmçinin, torpaq sahibinin "bu torpağı ək və istədiyin qədər mənə ver" deməsi batildir; 4-Torpağın əkinçinin ixtiyarında olma müddəti müəyyən edilməli və müəyyən edilən müddət ərzində məhsulun yetişməsi mümkün olmalıdır; 5-Torpaq əkinçilik üçün yararlı olmalıdır. Əgər torpaq əkinçilik üçün münbit olmasa, lakin hansısa vasitələrlə əkinçilik üçün yararlı hala gətirilməsi mümkün olsa, müzariə düzgündür; 6- Əkinçilik növü müəyyən edilməlidir. Əgər əkinçilik növünün onların və kütlənin nəzərində heç bir fərqi olmasa və yaxud torpağın hansı məhsul üçün yararlı olması mə'lum olsa, istisnadır; 7-Torpaq müəyyən edilməlidir. Bu baxımdan, bir şəxsin bir neçə torpaq sahəsi olsa, onlardan birini müzariə üçün verdim, desə və torpaq sahələri keyfiyyətdə bir-birlərindən fərqli olsa, müzariə batildir. Lakin, o torpaqlar (keyfiyyət baxımından) bərabər olsalar və məsələn, bu torpaq sahəsinin 5 hektarını sənə verirəm, desə, maneəsi yoxdur. Habelə, əkinçi torpağı görmədiyi halda, (torpaq sahibi torpağın) keyfiyyətini ona bəyan edə bilər; 8-Əkinçilik, toxum və s. xərclərin kimin öhdəsində olması müəyyən edilməlidir. Lakin, onların hər birinin nə qədər xərc etmələri o məntəqənin camaatı arasında məlum olsa, kafidir.

Müzariənin hökmləri

Məsələ 1889: Əgər malik və yaxud əkinçi məhsulun müəyyən bir hissəsinin (məsələn, bir xarvar- 300 kq.) onun olmasını və qalan hissəsini iki nəfər arasında (öz aralarında) bölüşdürmələrini şərt etsə, eybi var.

Məsələ 1890: Əgər müzariənin müddəti sona yetsə və əkinçinin səhlənkarlığı üzündən məhsul ələ gəlməsə, torpaq sahibi əkinçini əkini biçməyə məcbur edə bilər; lakin, ilin təxirə düşməsinə görə olsa (rəsm olduğu kimi) malik səbr etməlidir. Əgər heç biri olmasa, əkini dərmək əkinçinin zərərinə səbəb olsa və malik bir zərər görməsə, yenə də səbr etməlidir. Amma zərər ona yönəldiyi halda əkinçini əkini dərməyə məcbur etməyə haqqı var.

Məsələ 1891: Əgər hansısa bir hadisə ilə bağlı torpaq sahəsində əkinçilik mümkün olmasa, məsələn, yeraltı su kanalları xarab olub, su kəsilsə, bu zaman, bir az ələ gələn əkin, hətta heyvanlara verməyə yararlı olan ot olsa belə, o miqdar, müqaviləyə əsasən, onların hər ikisinin malıdır, qalan hissəsində müzariə batildir.

Məsələ 1892: Əgər əkinçi, torpaq onun ixtiyarında olduğu halda əkinçilik etməsə, gərək o müddətin icarəsini malikə versin. Əgər torpaqda bir qüsur meydana gəlibsə, ona da zamindir.

Məsələ 1893: Torpaq sahibi və əkinçi bir-birlərinin razılığı olmadan müzariəni poza bilməzlər. Lakin, müqavilə zamanı hər ikisi və yaxud onlardan biri üçün müqaviləni pozmaq hüququ müəyyən ediblərsə, müqaviləyə uyğun olaraq, müamiləni pozsun.

Məsələ 1894: Əgər müqavilədən sonra torpaq sahibi və yaxud əkinçi ölsə, müzariə pozulmur və varisləri onların yerlərinə gələcəklər. Lakin, əgər əkinçi ölsə, şəxsən özü əkinçilik etməsini şərt etsə, müzariə pozulur. Əgər əkin cücəribsə onun payını varislərinə verməlidirlər. Lakin, varis torpaq sahibini əkinin torpaqda qalmasına məcbur edə bilməz. Əgər onu dərmək onların zərərinə olarsa, istisnadır.

Məsələ 1895: Əgər əkinçilikdən sonra və məhsul sona yetməzdən qabaq müzariənin batil olmasını başa düşsə, toxum torpaq sahibinin olsa, əkin ona (torpaq sahibinə) məxsusdur və əkinçinin muzdunu rəsmə uyğun olaraq ödəməlidir. Əgər toxum əkinçinin olsa, əkin onundur və rəsmə uyğun olaraq icarə haqqını torpaq sahibinə verməlidir. Əgər müddətin sonuna qədər əkinin öz torpağında qalmasına razılıq verməsə, əkinçi onu biçməlidir. Lakin, bu iş onun zərərinə səbəb olsa, istisnadır. Həmçinin (əkinin) torpaqda qalması, malın icarə haqqını ödəməsi malik üçün zərər yaratmamalıdır.

Məsələ 1896: Əgər məhsul toplandıqdan, əkin müddəti bitəndən sonra əkinin kökü torpaqda qalıb, ikinci il yenidən məhsulnu verərsə və yer sahibi, əkinçi ondan üz döndərmədikləri halda, ikinci ilin məhsulu birinci ilə uyğun olaraq bölünməlidir.

MUSAQAT

Məsələ 1897: Əgər bir şəxs öz meyvə ağaclarını müəyyən müddət ərzində suvarıb qulluq etmək üçün başqasına versə və əvəzində ona meyvə payı ayırsa, belə müamiləyə "musaqat" deyilir.

Məsələ 1898: Meyvə ağaclarından əlavə, güllərindən gülab və s. kimi istifadə edilən gül kollarının, yarpaqlarından istifadə edilən xına, sedr ağaclarının və yaxud şirə və qətranından istifadə edilən ağacların musaqat müamiləsi düzgündür. Lakin, bu xüsusiyyətləri olmayan ağaclar haqqında musaqat düzgün deyil.

Məsələ 1899: Musaqat müamiləsində siğə oxumaq olar. Həmçinin, əgər ağac sahibi musaqat məqsədi ilə onu işləyən şəxsin ixtiyarında qoysa və o da həmin məqsədlə təhvil alsa, siğə oxumadıqları halda belə, müamilə düzgündür. (Lakin müddət və bə'zi şərtlər üçün əvvəlcədən lazımı danışıqlar aparılmalıdır.)

Musaqatın şərtləri

Məsələ 1900: Musaqatın bir neçə şərti var:

1-Malik və bağ qulluqçusu həddi-büluğa çatmış, aqil olmalıdır; 2-Heç kəs onları bu işə məcbur etməməlidir; 3-Öz malından istifadə etmək hüququndan məhrum olmamalıdırlar; 4-Musaqatın müddəti məlum olmalıdır. Əgər onun başlanğıcını müəyyən etməyib, axırını o ildə məhsulun yetişdiyi vaxtı təyin etsələr, düzgündür; 5-Hər birinin payı yarısı, üçdə biri və yaxud bunlara oxşar olmalıdır. Bu baxımdan, məsələn, bir ton meyvə bağ sahibinin, qalanı isə bağda işləyənin olmasını şərt etsələr, müamilə batildir; 6- Müamilənin şərtləri meyvələr cücərməzdən öncə tə'yin edilməlidir. Əgər meyvələr cücərəndən sonra, lakin yetişməzdən öncə təyin etsələr və belə ki, meyvənin inkişafı üçün lazım olan suvarmaq, dərman səpmək kimi işlər qalmış olsa, musaqat düzgündür, əks təqdirdə iradı var. Əgər yalnız meyvələri dərmək, onları qorumaq kimi işlərə ehtiyac duyulsa, onların müqaviləsi düzgündür, lakin musaqat deyil.

Musaqatın hökmləri

Məsələ 1901: Əgər yemiş, xiyar və s. bitkilər üçün aydın şəkildə müqavilə bağlayıb, dərilənlərin sayını və hər birinin payını müəyyən etsələr, musaqat olmamasına baxmayaraq, (müamilə) düzgündür.

Məsələ 1902: Yağış suyu və yaxud yerin rütubətindən qidalanan ağacların suvarmağa ehtiyacı olmasa və lakin başqa işlərə-bellənməyə, peyinlənməyə, meyvələrin çoxalması və keyfiyyətli olması üçün dərmanlanmağa ehtiyacı olsa, bu halda musaqat müamiləsi düzgündür.

Məsələ 1903: Müamilənin qarşı tərəfləri bir-birlərinin razılığı ilə musaqat müamiləsini poza bilərlər. Habelə, əgər müqavilə əsnasında onların hər ikisi və yaxud biri üçün müqaviləni pozmaq hüququ nəzərdə tutulubsa, müamiləni poza bilərlər. Əgər musaqat müqaviləsində müəyyən edilən şərtə əməl olunmasa və (bu) şərt xeyrinə olan şəxs qarşı tərəfi onun icrasına məcbur edə bilməsə, müamiləni poza bilər.

Məsələ 1904: Bağ sahibinin ölümü ilə musaqat müamiləsi pozulmur və varisləri onların canişinləri hesab olurlar. Lakin, ağaclara qulluq etmə işləri tapşırılan şəxs ölsə və şəxsən onun özünün bağbanlıq etməsini şərt ediblərsə, müamilə pozulur. Belə şərt etmədikləri halda, varisləri onun canişinləri olurlar.

Məsələ 1905: Hər iki tərəfin öhdəsində olan- yeraltı su kanallarının, su nasosunun tə'miri, peyin və dərman səmpək üçün cihaz hazırlamaq və s. işləri qabaqcadan müəyyən etməlidirlər. Əgər (bunları müəyyən edən) bir qanun həmin məntəqədə camaat arasında adət olsa, kafidir.

Məsələ 1906: Əgər musaqat müamiləsinin batil olması mə'lum olsabağın meyvələri bağ sahibinindir. Lakin, suvarma və s. işlərin pulunu, adətə uyğun olaraq, ağaclara qulluq edən şəxsə verilməlidir.

Məsələ 1907: Ağac əkmək üçün torpağı bir şəxsə verib, məhsulun hər iki tərəfin olmasını şərt etsələr, bütün cəhətləri aydınlaşdırdıqları halda, musaqat olmamasından asılı olmayaraq, müamilə düzgündür.

Məsələ 1908: Musaqat müqaviləsində qarşı tərəflər çox ola bilərlər. Yəni, bağ sahibi onu bir neçə nəfərin öhdəsinə verərək onlarla müqavilə bağlaya bilər.

MƏHCURLAR

Öz mallarından istifadə edə bilməyən şəxslərə "məhcurin" deyilir.

Məsələ 1909: Həddi-büluğa çatmayan uşaq öz malından istifadə edə bilməz. Həddi-büluğa çatmağın əlamətləri üç şeydən biri ola bilər:

Birincisi, qəməri təqvimi ilə kişilərdə 15, qadınlarda isə 9 yaşın tamam olması.

İkincisi, spermanın xaric olması;

Üçüncüsü, cinsiyyət üzvünün ətrafında qalın tüklərin bitməsi;

Məsələ 1910: Səsin qalınlaşması, üzdə, bığ yerində və s. qalın tüklərin bitməsi, və s. həddi-büluğa çatmağın əlaməti sayılmır. Əgər bunların vasitəsilə həddi-büluğa çatmaq yəqin olunsa, istisnadır.

Məsələ 1911: Dəli və səfeh, yə'ni öz malını əbəs yerlərə sərf edən və onları, müamiləni qorumağı bacarmayan şəxs öz malından istifadə etmək hüququ yoxdur; bu kimi işlər onların qəyyumlarının nəzarəti altında olmalıdır.

Məsələ 1912: Müflis, yənu borcu mövcud sərmayəsindən çox olan şəxsə borc verənlər şəriət hakimindən onu malından istifadə etməkdən məhrum etmələrini tələb etsələr, hakimin hökmündən sonra onun öz malından istifadə etmək hüququ yoxdur.

Məsələ 1913: Bəzi vaxtlarda ağıllı, bəzən isə dəli olan bir şəxsin, dəli olduğu vaxtlarda öz malından istifadə etməsi düzgün deyil.

Məsələ 1914: İnsan ölümündən qabaq, xəstə və sağlam olmasından asılı olmayaraq, malından istədiyi qədər kiməsə bağışlaya, malı qiymətindən ucuz sata və yaxud özünün, ailəsinin, qonaqlarının istifadəsinə verə bilər. Lakin, ehtiyata əsasən, həmin xəstəliklə

dünyadan getdikdə (ölüm astanasında) malının üçdə birindən çox hissəsində belə istifadə etməsin. Əgər varislərinin icazəsi ilə olsa, istisnadır.

VƏKALƏT

Məsələ 1915: İnsanın şəriət əsasında dəxalət və təsərrüf edə biləcəyi bir işi onun tərəfindən yerinə yetirməsi üçün başqasına tapşırmasına vəkalət deyilir. Məsələn, onun evini satmaq, yaxud bir qadını onun nikahına gətirmək üçün bir şəxsi vəkil etməsi, bütün şərtlər olduğu halda, düzgündür.

Məsələ 1916: Vəkil və müvəkkil (vəkil edən) ağıllı, həddi-büluğa çatmış və rəşid (malını əbəs yerə xərcləməyən) olmalı, məqsədli və öz ixtiyarları ilə vəkaləti yerinə yetirməlidirlər.

Məsələ 1917: Vəkalət müqaviləsini hər dildə - farsca, ərəbcə, türkcə və s.- oxunan siğə ilə yerinə yetirmək olar. Həmçinin, əməli olaraq birini başa salsa ki, onu vəkil seçib və o da əməli olaraq başa salsa ki, qəbul etmişdir, (məsələn, malını satmaq üçün onun öhdəsində qoysun və o da qəbul etsin) bu da düzgündür.

Məsələ 1918: Əgər insan başqa şəhərdə yaşayan bir şəxsi vəkil seçib, ona vəkalətnamə göndərsə və o da qəbul etsə, vəkalət düzgündür. Vəkalətnamə bir müddət keçdikdən sonra onun əlinə çatsa da, vəkalətnamə çatandan və onu qəbul edəndən sonra vəkilin işləri düzgün olacaq.

Məsələ 1919: Haram, əqli və yaxud şər'i baxımdan vəkilin icra edə bilmədiyi işlərdə vəkalət batildir. Məsələn, ehram halında olan şəxsin izdivac nikahının siğəsini oxumaq ixtiyarı olmadığı üçün, başqası tərəfindən siğə oxumağa vəkil ola bilməz.

Məsələ 1920: İnsan bir şəxsi tamam və yaxud bə'zi işləri (məsələn, malına aid olan hissə) üçün vəkil etsə, caizdir. Lakin müəyyən etmədiyi işlərdən biri üçün vəkil etsə, düzgün deyil.

Məsələ 1921: Əgər bir şəxs vəkilini ixrac etsə, bu xəbər ona çatdıqdan sonra vəzifəsindən azad olur. Lakin, bu xəbər ona çatmazdan öncə bəzi işləri yerinə yetiribsə, düzgündür. Amma, vəkil istədiyi vaxtda, hətta onu vəkil edən şəxs olmadığı halda belə, vəkalətdən imtina edə bilər.

Məsələ 1922: Vəkil ona tapşırılan işin icrası üçün ayrısını vəkil edə bilməz. Əgər onu vəkil edən şəxs özünün və yaxud onun tərəfindən vəkil tutmağa icazə veribsə, istisnadır. Belə olan halda, ona icazə verilən şəkildə əməl edə bilər.

Məsələ 1923: Əgər insan, öz müvəkkilinin (onu vəkil edənin) icazəsi ilə onun tərəfindən bir şəxsi vəkil tutsa, o vəkili işindən uzaqlaşdıra bilməz. Əgər birinci vəkil ölsə, yaxud vəkalətdən imtina etsə, ikincinin vəkaləti batil olmur. Lakin, əgər müvəkkilin icazəsi ilə bir şəxsi özü tərəfindən (vəkil tərəfindən) vəkil tə'yin etsə, həm müvəkkil və həm də birinci vəkil onu vəzifəsindən uzaqlaşdıra bilər. Əgər birinci vəkil ölsə, yaxud vəzifəsindən uzaqlaşdırılsa, ikincinin vəkaləti də aradan gedir.

Məsələ 1924: Əgər bir neçə şəxsi hansısa işi görmək üçün vəkil edib, onlara, hər biriniz mənim vəkilimsiniz, desə və belə olan halda onlardan hər biri işi icra etsə, düzgündür və əgər onlardan biri ölsə, başqalarının vəkaləti batil olmaz. Əgər (onlara), siz birlikdə mənim vəkilimsiniz və təklikdə heç bir iş görə bilməzsiniz, desə və onlardan biri ölsə, başqalarının vəkaləti də batil olur.

Məsələ 1925: Əgər vəkil və yaxud müvəkkil dünyadan köçsə, dəli olsa və dəlinin sonradan ağıllı olmasına baxmayaraq, vəkalət batil olur. Ehtiyata əsasən, müvəqqəti dəlilik vəkalətin batil olmasına səbəb olur. Lakin, müvəqqəti huşsuzluq vəkalətin batil olmasına səbəb olmur.

Məsələ 1926: Əgər bir şəxsi hansısa bir işi görmək üçün vəkil təyin edib, onun üçün zəhmət haqqı nəzərdə tutsalar, işdən sonra onu ödəməlidirlər.

Məsələ 1927: Əgər vəkil ixtiyarında olan malın qorunmasında səhlənkarlıq etsə və yaxud icazəli işlərdən başqa bir iş gördükdən sonra o mal aradan getsə və yaxud naqis olsa, zamindir. Lakin o işlərdən sonra mal qalsa və onda icazəli işləri görsə etsə, o işlər düzgündür.

CÜALƏ

Məsələ 1928: İnsanın onun üçün icra edilən bir işin müqabilində müəyyən malı verəcəyini şərt etməsinə cüalə deyilir. Məsələn, "hər kəs mənim itirdiyi şeyi tapsa ona min tumən verərəm" deməsi kimi. Bu şərti qoyan şəxsə cael və işi icra edənə isə amil deyilir. Cüalə ilə bir nəfəri bir işi görmək üçün əcir etməyin fərqi bundadır ki, icarədə əcir siğəsi oxunduqdan sonra işi yerinə yetirməlidir və onu əcir edən şəxs də ona zəhmət haqqı borclu olur. Cüalədə isə amil işə başlamaya və yaxud iş əsnasında ondan imtina edə bilər. Həmçinin, amil işini icra etməyənə qədər cail ona borclu deyil.

Məsələ 1929: Cüalənin müəyyən edilməyən və yaxud müəyyən edilən şəxslə baş tutması mümkündür. Məsələn, əgər "bir həkim uşağımın xəstəliyini müalicə etsə, filan miqdar ona verəcəyəm" və yaxud bir dalğıca "əgər mənim itirdiyimi dənizdən çıxartsan, sənə min tümən verərəm" deyə bilər və hər iki halda düzgündür.

Cüalənin şərtləri

Məsələ 1930: Cail ağıllı, həddi-büluğa çatmış olmalı, vöz iradə və ixtiyarı ilə müqavilə bağlamalı və şəriət hökmlərinə əsasən, öz malından istifadə etmə hüququna malik olmalıdır. Bu baxımdan, malını əbəs yerə xərcləyən səhef adamın cüaləsi düzgün deyil.

Məsələ 1931: Müqaviləsi bağlanan iş haram olmamalı və onun əqli bir nəticəsi olmalıdır. Bu baxımdan, əgər "bir nəfər şərab içsə və yaxud gecə qaranlıq bir yerə getsə, filan məbləği ona verərəm" desə, cüalə düzgün deyil.

Cüalənin hökmləri

Məsələ 1932: Əgər bir malı müəyyən edib, məsələn, "hər kəs mənim atımı tapsa bu buğdanı ona verərəm", desə, ehtiyata əsasən, onun qiymətində tə'sirli olan miqdar və xüsusiyyətlərini müəyyən etməlidir. Əgər malı müəyyən etməsə, məsələn, "mənim atımı tapan şəxsə 100 kq. buğda verərəm" desə, buğdanın qiymətində tə'sirli olan xüsusiyyətləri müəyyən etməlidir. Lakin, əgər cail bu iş üçün müəyyən muzd tə'yin etməyib, "hər kəs mənim itirdiyimi tapsa ona pul verərəm və yaxud (məndən) bir hədiyyə qazanacaq" desə, cüalə batildir. Əgər bir nəfər bu işi görsə, onun muzdunu, yerinə yetirdiyi işin camaatın nəzərində dəyəri olduğu qədər ödəməlidir. Əgər, cailin nəzərində tutduğu məbləğ ondan az olsa, istisnadır. Bu halda nəzərində tutduğunu verməlidir.

Məsələ 1933: Əgər iş görən müqavilədən qabaq o işi icra etsə, həmçinin, müqavilədən sonra işi muzd almamaq qəsdi ilə görsə, muzd almağa heç bir haqqı yoxdur.

Məsələ 1934: Əgər bir nəfər "hər kəs mənim itirdiyim şeyi tapsa onun yarısını ona verərəm" desə və iş görən o şeyin qiymət və xüsusiyyətlərindən xəbərsiz olsa, cüalənin iradı var.

Məsələ 1935: Cail və amil işə başlamazdan öncə cüaləni poza bilər. İşə başlayandan sonra da cüaləni poza bilər, lakin, cail (cüaləni) pozmasa, gərək gördüyü işin muzdunu ona versinlər.

Məsələ 1936: Qeyd etdiyimiz kimi, amil işi natamam saxlaya bilər, lakin, (işi) natamam qoymaq cailin zərər və ziyanına səbəb olsa, onu başa çatdırmalıdır, əks təqdirdə isə zamindir. Məsələn, əgər xəstəyə "gözümdə əməliyyat aparsan filan məbləğdə sənə verərəm" desə və o da əməliyyata başlasa və bu işi natamam saxlamaq gözün naqis olmasına səbəb olsa, heç bir haqqı yoxdur və ona vurduğu zərər və ziyana da zamindir.

Məsələ 1937: Əgər amil, natamam qaldıqda faydasız olan bir işi yarıda saxlasa, məsələn, itən əşyanı bir az axtarıb, sonra bu işi davam etdirməsə, heç bir hüququ yoxdur. Həmçinin, işin bir miqdarını görmək faydalı olsa (məsələn, paltarın bir hissəsini tiksə), əgər muzdü tamam iş üçün şərt edibsə, yenə də heç bir hüququ yoxdur. Lakin, məqsədi hər nə qədər iş görsə, o qədər muzd almaq olsa, görülən işin muzdu dərziyə verilməlidir.

BORC

Məsələ 1938: Borc vermək çox böyük müstəhəb işlərdəndir. Qur'an ayələrində və məsumların (s) hədislərində ona çox tə'kid edilmişdir. İslam Peyğəmbərindən (səlləllahu əleyhi və alihi və səlləm) belə nəql edilib: *"Müsəlman qardaşına borc verən şəxsin malı artar və mələklər ona rəhmət göndərərlər. Əgər ona borclu olan şəxslə anlaşsa, hesabsız və sür'ətlə Sirat körpüsündən keçəcək. Əgər bir şəxs müsəlman qardaşından borc istəyəndə verməsə, cənnət ona haram olar."* Həmçinin başqa rəvayatdə qeyd edilib: *"Sədəqənin savabı on (10), borcun savabı isə on səkkiz qatdır".*

Borcun şərtləri

Məsələ 1939: Borc müqaviləsini həm şifahi siğə oxumaqla və həm də əməllə bağlamaq olar. Belə ki, bir şeyi borc məqsədi ilə başqasına versin və o da həmin niyyətlə qəbul etsin. Hər iki halda düzgündür.

Məsələ 1940: Borcda "miqdar" və "mal" müəyyən edilməli, borc verən və borc alan həddi-büluğa çatmış və ağıllı olmalı, habelə səfeh və öz malında istifadə etmək hüququndan məhrum olmamalı, bu işi məcburi, könülsüz və yaxud zarafatyana yox, (öz) iradəsi və məqsədli şəkildə həyata keçirməlidir.

Borcun hökmləri

Məsələ 1941: Əgər borc müamiləsində onun (borcun) ödənilməsi üçün bir zaman tə'yin ediblərsə, borc verən şəxs həmin zaman sona yetməyənə qədər borcunu tələb edə bilməz. Əgər zaman tə'yin edilməyibsə, istədiyi vaxtda borcunu tələb edə bilər.

Məsələ 1942: Borc üçün zaman tə'yin edildiyi halda borc alan şəxs zaman sona yetməzdən öncə borcunu qaytarmaq istəsə, borc verən şəxs onu qəbul etməyə məcbur deyil. Əgər zamanın tə'yin edilməsi yalnız borc alan şəxslə yola getmək olsa, borcunu vaxtından tez verdikdə, borc verən şəxs qəbul etməlidir.

Məsələ 1943: Əgər borc verən şəxs borcunu haqqı çatdığı zamanda tələb etsə, borclu şəxs tez onun borcunu qaytarmalıdır və onu yubatmaq günah sayılır. Lakin, borclu şəxsin oturduğu ev, ehtiyac duyduğu mənzil avadanlıqları və s. əşyalardan başqa bir şeyi olmasa, borc verən şəxs səbr etməli və onu ehtiyac duyduğu əşyalarını satmasına məcbur etməməlidir. Amma, borclu şəxs borcunu ödəmək üçün çalışmalı, ticarət, iş və yaxud şəriət hökmlərinə zidd olmayan hər hansı bir vasitə ilə qazanc ələ gətirərək, borcunu ödəməlidir.

Məsələ 1944: Borc aldığı insanı görə bilməyən və onu tapmağa ümidi olmayan şəxs, vacib ehtiyata əsasən, şəriət hakiminin icazəsi ilə, seyyid olub-olmamasından asılı olmayaraq, ondan aldığı borc qədər fəqirə verməlidir.

Məsələ 1945: Əgər meyitin malı vacib xərclərindən, yə'ni kəfən, dəfn və onun borcundan artıq olmasa, malını həmin yolda istifadə etməlidirlər və varislərə heç nə çatmır.

Məsələ 1946: Əgər bir şəxs işlək olan pul, qızıl, gümüş və yaxud bunlardan başqa bir şey borc alsa və sonradan onun dəyəri azalsa, yaxud neçə dəfə artsa, qiymətinin azalıb-çoxalmasından asılı olmayaraq, aldığı həmin miqdarı qaytarmalıdır.

Məsələ 1947: Əgər zaman yetişsə, borc aldığı şey eyni ilə qalsa və borc verən şəxs həmin şeyi istəsə, o malı ona vermək vacib deyil. Amma müstəhəb ehtiyata əsasən, həmin malı ona qaytarsa yaxşıdır.

Məsələ 1948: Borc verən şəxsin verdiyi miqdardan artıq alacağını şərt etməsi, malın çəki və yaxud ədədlə satılıb-satılmamasından asılı olmayaraq, sələm və haramdır. Habelə, borclu şəxsin onun üçün bir iş görməsini, başqa bir mal əlavə etməsini, məsələn, borc aldığı puldan başqa bir miqdar buğda da ona əlavə etməsini, yaxud, bir miqdar düzəldilməmiş qızıl ona borc verib, həmin miqdarı düzəldilmiş şəkildə geri almasını şərt etsə, bütün bunlar sələm və haramdır. Lakin, borc alan şəxsin şərtsiz olaraq, bir miqdar artıq qaytarmasının eybi yoxdur, əksinə, bu iş müstəhəbdir.

Məsələ 1949: Sələm almaq sələm vermək kimi haramdır. Sələm borcu alan şəxs onun (alınan şeyin) maliki sayılmır və ondan istifadə etmək caiz deyil. Lakin, sələm şərti olmadığı halda belə, pul sahibi borc alanın puldan istifadə etməsinə razı olardısa, belə bir halda borc alan şəxs ondan istifadə edə bilər.

Məsələ 1950: Əgər buğda və yaxud başqa bir toxumu sələm borcu ilə alıb, onunla əkinçilik etsə, ondan ələ gələn məhsul borc alanın yox, borc verənin malı sayılır.

Məsələ 1951: Əgər bir paltar alıb onun pulunu paltar sahibinə sələm borcdan və yaxud sələmə qarışıq olan halal puldan qaytarsa və aldığı zamanda məqsədi belə bir pul ilə onu ödəmək olsa, o paltarı geyinməyin və yaxud onunla namaz qılmağın eybi var. Əgər aldığı zaman məqsədi belə olmayıb, sonradan bu qənaətə gəlibsə eybi yoxdur. Lakin onun boynundakı (zimmə) haram pulla əda olunmur.

Məsələ 1952: İnsan başqa bir şəhərdə onun adamından az (pul) almaları üçün başqa bir şəxsə bir qədər pul verə bilər. Buna "bəraət sərfi" deyilir. Bu iş öz borcunun bir hissəsindən imtina etməyə bənzəyir. Lakin, bir müddətdən sonra başqa bir şəhərdə çox almağından ötrü bir qədər pul versə , məsələn, 1000 tümən verib, başqa şəhərdə 1100 tümən alsın, sələm və haramdır.

Məsələ 1953: Borclu şəxs dünyadan köçən zaman onun bütün borcları (vaxtı çatmasa belə) ödənilməlidir. Borc verən şəxslər borclarını tələb edə bilərlər.

HƏVALƏ

Həvalənin hökmləri

Məsələ 1954: Əgər borclu şəxs borc sahibinə borcunu başqasından alması üçün həvalə (qəbz) versə və borc sahibi qəbul etsə, borc o şəxsin (həvalə verilənin) öhdəsinə düşür və borclu şəxs borcdan xilas olur.

Məsələ 1955: Həvalə verən, borc sahibi və həvalə edilən şəxslərin hər üçü həddi-büluğa çatmalı, aqil olmalı, heç kəs onları məcbur etməməli, səfeh və öz malından istifadə etmək hüququndan məhrum olmamalıdırlar. Lakin, öz malından istifadə etmək hüququndan məhrum olan şəxsi ona borclu olmayan bir şəxsə həvalə etməyin eybi yoxdur.

Məsələ 1956: Əgər borclu olan şəxsin başını həvalə versələr, qəbul etməsi lazımdır. Lakin, borclu olmayan şəxsin başını həvalə verməsələr, qəbul etməsi lazım deyil. Həmçinin, insan borc sahibinə başqa bir mal həvalə vermək istəsə, məsələn, 100 kq. buğda alacağı var, onun əvəzində 100 kq. buğda almağı həvalə etsə, borc sahibi bunu qəbul etdiyi halda, (həvalə) düzgündür.

Məsələ 1957: Həvalə insan borclu olduğu halda düzgündür. Bir şəxsə "səndən sonradan alacağım borcları indidən həvalə edirəm" demək düzgün deyil.

Məsələ 1958: Həvalə verən və borc sahibi həvalənin miqdarını, növünü bilməlidirlər və bilmədikləri halda həvalə batildir. Əgər "verdiyin iki borcdan birini filan kəsdən al" deyilsə, düzgün deyil.

Məsələ 1959: Həqiqətən borc müəyyən olsa, lakin borc sahibi və borclu şəxs həvalə verilən zaman onun növünü və yaxud miqdarını bilməsələr, həvalə düzgündür. Məsələn, əgər bir nəfərin borcunu dəftərə yazsa və dəftəri görməzdən öncə həvalə versə, sonra dəftəri görsə və borc sahibinə borcunun miqdarını desə, həvalə düzgündür. Bir şərtlə ki, borcun hədləri mə'lum olsun.

Məsələ 1960: Borc sahibi, başı həvalə verilənin imkanlı və yaxud fəqir, hesabında düzgün olub-olmamasından asılı olmayaraq, həvaləni qəbul etməyə bilər.

Məsələ 1961: Əgər borclu olmayan bir şəxsin başını həvalə versələr, o, həvaləni ödəməzdən öncə onun miqdarını həvalə verəndən ala bilməz və əgər borc sahibi o miqdardan aza razılaşsa, yalnız o miqdarı həvalə verəndən ala bilər.

Məsələ 1962: Həm həvalə verən və həm də həvalə alan həvalə müqaviləsini poza bilməzlər, lakin hər ikisi razı olduqları halda, istisnadır. Əgər başı həvalə verilən şəxs həvalə verilən vaxtda fəqir olsa, (bunu) borc sahibi bilməsə, həvaləni poza bilər. Amma sonradan fəqir olsa və yaxud borc sahibi onun əvvəldən fəqir olduğunu bilibsə, müamiləni pozmaq hüququ yoxdur.

Məsələ 1963: Əgər borclu şəxs, borc sahibi və həvalə verilən adam və yaxud onlardan biri özü üçün fəsx (müqaviləni poza bilmə) hüququ qərar versə, ona uyğun olaraq həvaləni poza bilər.

Rəhn (girov)

Məsələ 1964: Borclu şəxsin borc aldığı şəxs ilə, malının bir miqdarını onun yanında qoymasına və borcunu vaxtında qaytarmadığı halda borcunu o maldan götürməsi üçün bağladığı müqaviləyə "rəhn" və yaxud "girov qoymaq" deyilir.

Məsələ 1965: Rəhni şifahi siğə ilə oxumaq olar. Məsələn, "bu malı o borc müqabilində sənin yanında qoyuram" desin və o da (rəhn yanında qoyulan)"qəbul etdim" desin və yaxud əməli olaraq yerinə yetirsinlər. Yə'ni, borclu şəxs öz malını girov qəsdi ilə borc sahibinə versin və o da həmin məqsədlə qəbul etsin.

Rəhnin şərt və hökmləri

Məsələ 1966: Girov qoyan və malı girov alan şəxs həddi-büluğa çatmış, aqil olmalı və kimsə onları məcbur etməməli, səfeh olmamalı və həmçinin, müflis olduğuna görə şəriət hakimi onu malından istifadə etmək hüququndan məhrum etməməlidir.

Məsələ 1967: İnsan şəriət baxımından istifadə edə bildiyi bir malı rəhn qoya bilər və əgər başqasının malını rəhn qoysa, düzgün deyil. Əgər mal sahibi icazə versə istisnadır. Əgər mal sahibi borc sahibinə "mən bu malı filan şxəsin borcu müqabilində rəhn qoyuram" desə və o da qəbul etsə, düzgündür.

Məsələ 1968: Girov qoyulan şeyin alqı-satqısı düzgün (şəriət baxımından icazəli) olmalıdır. Elə isə şərab, qumar alətləri və bunlara oxşar şeyləri girov qoymaq olmaz.

Məsələ 1969: Girov qoyulan malın mənfəəti, məsələn, heyvanın südü, ağacın meyvəsi və s. mal sahibinə məxsusdur.

Məsələ 1970: Vacib ehtiyata əsasən, girov borc sahibinə təhvil verilmədən baş tutmur. Lakin, girov qoymaq belə olsa, məsələn, evi qanuni sənədləşmə əsasında girov qoysalar və lazım olduğu vaxtda onu satmaqla öz borcunu götürə bilməsi üçün sənədi borc sahibinə versələr, borclu şəxsin o evdə yaşamasına baxmayaraq, maneəsi yoxdur.

Məsələ 1971: Girov qoymağın əksi olan hər bir istifadə caiz deyil. Bu baxımdan borc sahibi və borclu şəxs girov qoyulan malı digərinin icazəsi olmadan, başqasının mülkü edə bilməz; məsələn, onu bağışlaya və yaxud sata bilməz. Lakin, onlardan biri onu bağışlasa və yaxud satsa və sonra ayrısı icazə versə eybi yoxdur. Ehtiyata əsasən, başqasının icazəsi olmadan (onlardan) heç biri rəhnə xələl gətirməsə də belə, başqa istifadələr etməməlidir.

Məsələ 1972: Əgər borc sahibi girov götürdüyü şeyi borclu şəxsin icazəsi ilə satsa rəhn batil olur və onun pulu rəhn sayılmır. Əgər satmağa verilən icazə onun pulunu girovun yerinə qoymaq şərti ilə olsa, istisnadır.

Məsələ 1973: Əgər borclu şəxs təyin edilmiş vaxtda və borc sahibi borcunu tələb etdikdə borcunu verməsə, borc sahibi girov götürdüyü malı satıb öz borcunu götürüb, qalanını borclu şəxsə verə bilər. Əgər şəriət hakiminin yanına getmək mümkündürsə, vacib ehtiyata əsasən, bu işi onun icazəsi ilə görməlidir.

Məsələ 1974: Əgər borclu şəxs girov qoymamışsa və yaşadığı ev, mənzilin zəruri əşyalarından başqa malı olmasa, borc sahibi borcunu ondan tələb edə bilməz. Əksinə, (ona) möhlət verməlidir. Lakin, əgər girov qoyduğu mal ev və yaxud mənzilin zəruri əşyalarından olmasa, borc sahibi onu satıb borcunu götürə bilər.

Məsələ 1975: Camaat arasında (İranda) ev sahibinə borc verib, az da olsa icarə haqqı ödəmək şərti və yaxud ümumiyyətlə, icarə haqqı verməyərək evini girov götürmək adət halını alıb və ona rəhinli ev deyirlər. Bu iş sələm və haramdır. Doğru yol budur ki, ilk olaraq ev sahibi evi müəyyən məbləğdə, hətta az olsa belə, ona icarəyə versin və icarə əsnasında şərt etsin ki, ona filan qədər borc versin və onun müqabilində evi girov qoysun. Bu halda sələm deyil, halaldır.

ZƏMANƏT

Məsələ 1976: Əgər insan bir şəxsin borcunu ödəmək üçün zamin olmaq istəsə, siğəni fars, ərəb və yaxud hər hansı bir dildə şifahi olaraq oxuya bilər. Məsələn, "mən filan kəsin borcunu ödəməyə zaminəm" desin və borc sahibi də "qəbul etdim" deməklə qəbul etsin. Həmçinin, zəmanət müqaviləsini zəmanətnamə imzalamaq və yaxud da hər hansı bir vasitə ilə bu işi borc sahibinə başa salmaqla və o da əməli olaraq qəbul etdiyi halda, yerinə yetirmək olar.

Məsələ 1977: Zamin olduqdan sonra borclu şəxsin borcu zəmanətçinin öhdəsinə düşür və borclu şəxsin öhdəliyi götürülür. Əgər zəmanət borclu şəxsin xahişi ilə baş tutubsa, zəmanətçi borcu verdiyi zaman onu sabiq borclu şəxsdən ala bilər. Zamin olmağın başqa bir növü də var, belə ki, bir şəxs bu məsqsədlə başqasının zamini olur ki, əgər borclu şəxs borcunu verməkdə səhlənkarlıq etsə, onu ödəyə bilməsə, borc sahibi borcunu zamindan alsın. Bu növ zəmanət də düzgündür və əksər hallarda banklarda, yaxud kreditlər müqabilində olunan zəmanətlər bu formadadır.

Zəmanətin şərt və hökmləri

Məsələ 1978: Zəmanətçi və borc sahibi həddi-büluğa çatmış, aqil olmalı və kimsə onları məcbur etməməli, səfih olmamalıdır. Müflis olduğuna görə şəriət hakimi tərəfindən malından istifadəsi qadağan olunan borc sahibi zamin tuta bilməz (yəni borcunu başqasının öhdəsinə qoya bilməz).

Məsələ 1979: Borcuna zamin durulan şəxs borclu olmalıdır. Bu baxımdan, başqasından borc alan şəxs, onu almayana qədər, heç kəs onun zamini ola bilməz. Lakin, məsələn, "filankəsi işə götür, bir nasazlıq və yaxud xəyanət qarşıya çıxartsa mən zaminəm" desə, eybi yoxdur və bu zəmanət də e'tibarlıdır.

Məsələ 1980: Zəmanətdə "borc sahibi", "borclu şəxs" və "borc alınmış mal" müəyyən olmalıdır. Bu baxımdan, əgər iki nəfərin bir nəfərdə borcu varsa və insan "mən onların biri qarşısında zaminəm" desə, faydasızdır. Həmçinin, əgər iki nəfər bir adama borclu olsa və bir şəxs "mən o iki nəfərdən birinin borcunu verməyə zaminəm" desə, (onlardan heç birini) müəyyən etmədiyi üçün, batildir. Habelə, əgər bir şəxs başqasına 100 kq. buğda və 100 tümən pul borc veribsə və bir şəxs "mən iki borcdan birinə zaminəm" deyib, (hansı birini verəcəyini dəqiqliklə) müəyyən etməsə düzgün deyil.

Məsələ 1981: Əgər borc sahibi borcunu zəmanətçiyə bağışlasa, zəmanətçi borclu şəxsdən heç nə ala bilməz. Əgər onun bir miqdarını bağışlasa, o miqdarı tələb edə bilməz.

Məsələ 1982: Zəmanətçi zəmanəti borc sahibinin razılığı olmadan poza bilməz. Lakin, zəmanətçi və yaxud borc sahibi müqavilədə istədikləri vaxt müqaviləni poza bilmələrini şərt etsələr, maneəsi yoxdur.

Məsələ 1983: Zəmanətçi zamin olduğu vaxt borcu ödəməyə imkanı olsa, borc sahibi onun zəmanətini pozub, öz borcunu birinci borc verdiyi şəxsdən tələb edə bilməz. Həmçinin, əgər zəmanətçi o vaxtda fəqir olsa, lakin borc sahibi bunu bilib, onun zamin olmasına razılıq versə, müqaviləni pozmaq hüququ yoxdur. Lakin, zamin elə həmin vaxtdan fəqir olsa və borc sahibi də (bunu) bilməyib, sonradan xəbər tutsa, onun zəmanətçiliyini poza bilər.

Məsələ 1984: Əgər bir şəxs borclu şəxsin icazəsi olmadan onun borcunu ödəmək üçün zamin olsa, ondan bir şey alamağa hüququ yoxdur. Lakin, onun icazəsi ilə olsa, borc sahibinin borcunu ödədikdən sonra, borclu şəxsdən ala bilər.

KƏFALƏT

Məsələ 1985: Əgər birinin başqasına haqqı olsa (məsələn, borc, qisas, diyə və s. kimi), yaxud hansısa bir haqqın iddiasını etsə və onun iddiası isbat olunsa və bu halda bir insan, müttəhimi haqq və yaxud iddia sahibindən azad etdirib, istədiyi vaxt onu ona təhvil verəcəyinə zamin olsa, bu müqaviləyə "kəfalət" və bu işə zamin olan şəxsə "kəfil" deyilir.

Məsələ 1986: Kəfaləti şifahi siğə oxumaqla yerinə yetirmək olar. Məsələn, kəfil borc sahibinə "borclu şəxsi istədiyin vaxt sənə təhvil verməyə hazıram" desə və borc sahibi də qəbul etsə və yaxud şifahi oxunan siğənin mənasını verən, hansısa sənədi imzalamaq və s. kimi bir iş görsələr, kəfalət düzgündür.

Kəfalət və kəfilin şərtləri

Məsələ 1987: Kəfalətdə haqq onun öhdəsində olan şəxsin razılığı lazım deyil. Bu baxımdan borclu şəxsin razılığı şərt sayılmır.

Məsələ 1988: Kəfil həddi-büluğa çatmış, aqil olmalı, onu kəfalətdə məcbur etməməlidirlər və kəfili olduğu şəxsi zamanında hazır etmək gücünə malik olmalıdır.

Məsələ 1989: Bir neçə şey kəfaləti pozur:

1-Borc sahibinin borcunu vermək; 2- Borc sahibinin borcunu bağışlaması; 3-Borclu ölsə; 4- Borclu və yaxud müttəhim şəxsi borc sahibinə təhvil vermək; 5- Borc sahibinin öz haqqını kəfildən alması; 6-Kəfilin ölməsi; 7-Haqq sahibi borcunu həvalə və yaxud başqa vasitə ilə başqa bir şəxsə tapşırması.

Məsələ 1990: Əgər bir nəfər zorla borclu şəxsi borc sahibinin əlindən qaçırtsa, borc sahibinin onu ələ keçirməyə gücü çatmasa, onu borc sahibinə təhvil vermək vacibdir və yaxud onun borcunu ödəməlidir. Əgər bir və yaxud neçə nəfər qatili qan sahiblərinin əlindən alıb qaçırtsalar, şəriət

hakimi həmin şəxsi və yaxud neçə nəfəri, onların qohumları qatili təhvil verənə qədər zindana sala bilər. Əgər qatili təhvil vermək mümkün olmasa, qətlə yetirilmiş şəxsin diyəsini ödəməlidirlər.

Məsələ 1991: Əgər kəfalət borclu şəxsin icazəsi ilə olsa və kəfil çarəsizlik üzündən borc sahibinin borcunu versə, borclu şəxsdən onu almağa haqqı var. Əgər onun icazəsi ilə olmayıbsa haqqı yoxdur.

VƏDİƏ (ƏMANƏT)

Məsələ 1992: İnsanın öz malını əmanət ünvanı ilə başqasına qoruyub, saxlamaq qəsdi ilə verməsinə "vədi'ə" deyilir. Bu mətləbi şifahi siğə ilə oxumasından və yaxud siğə oxumadan əmanətdar şəxsə malı əmanət saxlamaq üçün ona verdiyini başa salsa və o da həmin məqsədlə qəbul etsə, sonradan qeyd ediləcək vədi'ə və əmanət hökmlərinə əməl etməlidir.

Məsələ 1993: Əmanətə xəyanət etmək haram və böyük günahlardan biri sayılır. Əmanəti qəbul edən şəxs onun qorunmasında səhlənkarlıq etməməli, əmanət sahibi əmanəti ondan istədikdə, əmanət sahibinin müsəlman olub-olmamasından asılı olmayaraq, qaytarmalıdır.

Əmanətin şərt və hökmləri

Məsələ 1994: Əmanətdar və malı əmanət qoyan şəxslərin hər ikisi həddi-büluğa çatmış, aqil olmalıdır. Bu baxımdan, həddi-büluğa çatmamış və yaxud dəli şəxsin bir malı başqasının yanında əmanət qoyması düzgün deyil. Həmçinin, həddi-büluğa çatmamış, dəli şəxsin yanında əmanət qoymaq olmaz. Lakin, müməyyiz (yaxşı-pisi ayıra bilən) və qəyyumu icazə verən şəxs əmanəti qəbul edə bilər.

Məsələ 1995: Əgər uşaq və yaxud dəlidən bir şeyi əmanət kimi alsalar, o şey uşağın və dəlinin şəxsi malı olsa, onu qəyyumuna qaytarmalıdırlar və onun özünə qaytara bilməzlər. Əgər mal başqasınındırsa, onun sahibinə qaytarmalıdırlar; hər bir halda, əgər o mal tələf olsa, onun əvəzini verməlidirlər. Lakin, bir nəfər uşağın və yaxud dəlinin əlində bir şey görsə və onu tələf edəcəyini ehtimal verib, (əlindən) alsa və onun qorunmasında səhlənkarlıq etməsə, zamin deyil.

Məsələ 1996: Əmanəti qorumağa gücü olmayan şəxs əmanəti qəbul edə bilməz. Lakin, malın sahibi onu qorumaqda daha aciz olsa və yaxşı qoruya biləcək bir şəxs də olmasa, onu qəbul etməyin maneəsi yoxdur.

Məsələ 1997: Əgər insan mal sahibinə onun malını qorumağa hazır olmadığını başa salsa, lakin o, malı qoyub getsə və bu şəxs malı götürmədiyindən o mal tələf olsa, əmanəti qəbul etməyən şəxs zamin deyil. Lakin, imkan daxilində malı qoruması yaxşıdır.

Məsələ 1998: Bir şeyi əmanət qoyan şəxs istədiyi vaxt onu geri ala bilər və əmanətdar şəxs də istədiyi vaxt onu sahibinə qaytara bilər.

Məsələ 1999: Əgər insan əmanəti qorumaqdan imtina edib, vədi'əni fəsx etsə, tez bir zamanda malı onun sahibinə, vəkilinə, qəyyumuna çatdırmalı və yaxud onlara mallarını aparmalarını xəbər verməlidir. Əgər üzürsüz olaraq malı onlara çatdırmasa və yaxud xəbər verməsə, mal tələf olduqda onun əvəzini verməlidir.

Məsələ 2000: Əmanəti qəbul edən şəxsin əmanəti qorumağa münasib yeri olmasa, (yeri) hazırlamalı və onu elə qorumalıdır ki, camaat "onu

qorumaqda səhlənkarlıq etməmişdir" desin. Əks təqdirdə, mal tələf olsa zamindir.

Məsələ 2001: Əmanəti qəbul edən şəxs onu qorumaqda səhlənkarlıq edib, ifrata varmasa və təsadüfən o mal tələf olsa, zamin deyil. Lakin, öz ixtiyarı ilə, zalımın bildiyini və onu aparacağını ehtimal etdiyi yerdə qoysa, tələf olduğu halda, zamindir. Əgər ondan yaxşı yer olmasa və malı sahibinə və yaxud daha yaxşı qoruya biləcək bir şəxsə verə bilməzsə, istisnadır.

Məsələ 2002: Əgər mal sahibi öz malını qormaq üçün bir yer tə'yin etsə və əmanətdar şəxsə "onu burada qoruyub başqa yerə aparmamalısan" desə, əmanətdar şəxsin onu başqa yerə aparmaq hüququ yoxdur. Əgər onun orada tələf olacağını ehtimal versə və oranı mal sahibinin nəzərində malı qorumaq üçün yaxşı olduğunu və buna görə də "başqa yerə aparma" deməsini bilsə, istisnadır. Lakin, bu sözün hansı səbəbə görə deməsini bilməsə, başqa yerə aparmamalıdır. Əgər aparsa və (mal) tələf olsa, vacib ehtiyata əsasən, onun əvəzini verməlidir.

Məsələ 2003: Əgər mal sahibi malın qorunması üçün bir yer müəyyən etsə lakin, əmanətdar şəxsə "onu başqa yerə aparma" deməsə və əgər əmanətdar şəxs (əmanətin) orda tələf olacağını ehtimal versə, onu qorumaq üçün daha yaxşı olan yerə aparmalıdır. Əgər mal əvvəlki yerində qalıb xarab olsa, zamindir.

Məsələ 2004: Mal sahibi dəli olduğu halda əmanətdar əmanəti tez onun başçısına çatdırmalı və ayxud malı aparmağı ona xəbər verməlidir. Əgər şəriət baxımından bir üzrü olmadığı halda bu işi görməsə və mal tələf olsa, zamindir. Əgər onun başçısı (vəlisi) əmanətin öz yerində qalmasına icazə versə, istisnadır.

Məsələ 2005: Əgər malın sahibi ölsə, əmanətdar şəxs malı onun varisinə çatdırmalı və yaxud ona malı aparmağı xəbər verməlidir. Əgər bu işdə səhlənkarlıq etsə, zamindir. Lakin, varisi tanımaq və yaxud ölən şəxsin başqa bir varisi də olub-olmamasını öyrənmək məqsədi ilə malı verməsə və mal tələf olsa, zamin deyil.

Məsələ 2006: Əgər ölən mal sahibinin bir neçə varisi olsa, əmanətdar malı bütün varislərə və yaxud onların hamısının vəkilinə çatdırmalıdır. Bu baxımdan, başqalarının icazəsi olmadan bütün malı yalnız bir varisə versə, başqalarının payına zamindir.

Məsələ 2007: Əgər əmanətdar ölsə və yaxud dəli olsa, onun vəlisi tez bir zamanda mal sahibinə xəbər verməli və yaxud əmanəti ona çatdırmalıdır.

Məsələ 2008: Əgər əmanətdar şəxs ölüm əlamətlərini özündə görsə, imkan daxilində əmanəti sahibinə və yaxud vəkilinə çatdırmalıdır. Mümkün olmadığı halda, ehtiyata əsasən, şəriət hakiminə verməlidir. (Şəriət hakiminə) əli çatmadıqda vəsiyyət etməli, şahid tutmalı və vəsiyyət etdiyi şəxslə şahidə mal sahibinin adını, malı, onun xüsusiyyətlərini və onun yerini deməlidir.

ARİYƏ

Məsələ 2009: İnsanın öz malını başqasının ixtiyarında istifadə etməsi üçün qoyub, ondan heç nə almamasına "ariyə" deyilir.

Məsələ 2010: Ariyəni iki formada yerinə yetirmək olar:

Birincisi budur ki, onun üçün hər hansı bir dildə siğə oxusun. Məsələn "mən bu malı sənə ariyə verirəm" desin və o da qəbul etsin. İkincisi isə budur ki, siğə oxumadan nəzərdə tutduğu malı ariyə qəsdi ilə başqasının ixtiyarında qoysun və o da o məqsədlə təhvil alsın.

Ariyənin hökmləri

Məsələ 2011: Qəsb edilmiş və yaxud insanın şəxsi malı olan lakin, mənfəəti başqasının öhdəsində qoyulmuş şeyi ariyə vermək düzgün deyil. Əgər haqq sahibi razı olub icazə versə, istisnadır.

Məsələ 2012: Mənfəəti insanın olan, məsələn, icarə edilmiş şeyi ariyə vermək olar, bu şərtlə ki, başqasının öhdəsinə vermək hüququ olsun.

Məsələ 2013: Dəli, həddi-büluğa çatmayan uşaq öz malını ariyə verə bilməz. Lakin, qəyyumu icazə versə və bu iş onların xeyrinə olsa, maneəsi yoxdur.

Məsələ 2014: Ariyə götürdüyü şey tələf olsa, zamin deyil. Əgər onu qorumaqda səhlənkarlıq edibsə, istisnadır. Habelə, ariyə verən şəxs zaminliyi şərt edibsə və yaxud ariyə verdiyi şey qızıl, gümüş və ya onlardan düzəldilmiş bəzək əşyaları olsa, bu iki halda da tələf olsa, onun əvəzini verməlidir.

Məsələ 2015: Ariyə verən şəxs ölsə, ariyə edilən şeyi onun varislərinə verməlidirlər və ariyə verən dəli olsa, onu qəyyumuna vermək lazımdır.

Məsələ 2016: Bir şeyi ariyə verən şəxs istədiyi vaxt onu geri ala bilər. Ariyə alan da onu geri qaytara bilər.

Məsələ 2017: Həm halal və həm də haram kimi iki cür istifadə edilən şeyi haram məqsəd üçün ariyə vermək caiz deyil.

Məsələ 2018: Qoyunu süd və yunundan və başqa heyvanları şəriət hökmlərinə uyğun istifadə etmək üçün ariyə vermək düzgündür.

Məsələ 2019:Əgər murdar bir qabı yemək-içmək, habelə murdar paltarı namaz qılmaq üçün ariyə versə, vacib ehtiyata əsasən, onun murdar olmasını ariyə verdiyi şəxsə deməlidir.

Məsələ 2020: Əgər ariyə etdiyi şeyi onun sahibinin icazəsi ilə başqasına ariyə versə, əgər birinci ariyə edən ölsə və yaxud dəli ölsə və onun əsil sahibi sağ olsa, ikinci ariyə batil olmur.

Məsələ 2021: Əgər sonradan ariyə etdiyi şeyin qəsbi olması məlum olsa, onu sahibinə çatdırmalıdır. Əgər sahibini tanımırsa, məchulul-malik

göstərişinə uyğun olaraq əməl etməlidir. Hər bir halda, onu ariyə verən şəxsə qaytara bilməz.

Məsələ 2022: Əgər qəsb edilmiş malın qəsbi olduğunu bilərək ariyə etdikdən sonra onun əlində tələf olsa, malik malın əvəzini ondan ala bilər və əgər ona əli çatmasa, malı qəsb edəndən tələb edə bilər. Həmçinin, ariyə edən istifadə etdiklərinin əvəzini də verməlidir. O malın qəsbi olduğunu bilmədiyi halda, əgər malik malın zərərini və yaxud mənfəətini alsa, o, malikə verdiyini qasib (malı qəsb edən şəxs) ariyə verəndən almalıdır. Əlbəttə, bu, bir halda baş verə bilər ki, ariyə verən zaminliyi şərt etməyib və ariyə verilən şey qızıl və gümüş cinsindən deyil.

İZDİVAC

Məsələ 2023: İzdivac müstəhəb əməllərdən biridir, lakin bir nəfərin evlənmədiyi halda harama düşmək qorxusu olsa, ona evlənmək vacibdir.

Məsələ 2024: İzdivac nikahı vasitəsi ilə qadın ilə kişi bir-birlərinə halal olurlar. Bu iki qismə bölünür: Daimi evlilik. Bu nikah oxunan qadına "daimə" deyilir. Müvəqqəti evlilik. Müəyyən müddət daxilində evlilik nikahı oxunur. Bu müddətin qısa və uzun olmasından asılı olmayaraq onu "müt'ə" və "siğə" də adlandırırlar.

Məsələ 2025: İstər daimi, istərsə də qeyri-daimi nikahda siğə oxunmalıdır. Qadın və kişinin təkcə razılıqları kifayat deyil. Əqd siğəsini ya qadınla kişinin özü oxumalı, ya da əqdi oxumaq üçün başqasını öz tərəflərindən vəkil etməlidirlər.

Məsələ 2026: Kişinin qadın, qadının kişi tərəfindən siğə oxumaq üçün vəkaləti maneəsizdir.

Məsələ 2027: Əgər qadın və kişi bir şəxsə nikah siğələrini oxumaq üçün vəkalət versələr, vəkilin siğəni oxuduğuna yəqin etməyincə, bir-birlərinə halal olmurlar. Lakin vəkil e'timadlı şəxs olsa və "oxumuşam" desə, kafidir.

Məsələ 2028: Əgər bir qadın müəyyən bir şəxsi, onu məsələn, 10 gün, yaxud iki ay müddətində bir nəfərin əqdinə keçirməsinə vəkil edib əvvəlini təyin etməsə, onun başlanğıcını əqd oxuduğu gün və saat hesab etməlidir.

Məsələ 2029: Müstəhəb ehtiyata əsasən, bir nəfər iki həyat yoldaşı (ər və arvad) tərəfindən əqd siğəsi oxumasın. Yə'ni əqdin iki tərəfi iki nəfər olsun. Həmçinin, müstəhəb ehtiyata əsasən, insan qadını özünə daimi və yaxud müvəqqəti əqd etmək üçün onun tərəfindən vəkil ola bilməz.

Daimi əqdin oxunma qaydası

Məsələ 2030: Daimi əqdin siğəsini oxumaq üçün qadının belə deməsi kafidir:

زَوَّجتُكَ نَفسِی علَی الصَّداَقِ المَعلُومِ

Zəvvəctukə nəfsi 'ələs-sədaqil-mə'lum - (yə'ni, özümü müəyyən olunmuş mehr müqabilində sənə arvad etdim).

Kişi də ondan sonra deyir:

قَبِلتُ التَزوِیجَ

Qəbiltut-təzvicə - (yə'ni, bu izdivacı qəbul etdim.)

Əgər başqasını bu işə vəkil etsə, qadının vəkilinin belə deməsi kafidir:

زَوَّجتُ مُوَكِّلَتِی مُوَكِّلَكَ عَلَی الصَّداَقِ المَعلُومِ

Zəvvəctu muvəkkiləti muvəkkiləkə ələs-sədaqil-mə'lum- (Yə'ni, öz müvəkkiləmi sənin müvəkkilimin arvadlığına, müəyyən edilmiş mehriyyə əsasında keçirtdim.)

Kişinin vəkili isə deyir:

قَبِلتُ لِمُوَكِّلِی...

(Mən də olduğu kimi müvəkkilim tərəfindən qəbul etdim.)

Qeyri-daimi əqdin oxunma qaydası

Məsələ 2031: Əgər qadın və kişinin özü qeyri-daimi siğə əqdini oxumaq istəsələr, müddəti və mehriyyəsi müəyyən olunduqdan sonra qadın

زَوَّجتُكَ نَفسِی فِی المُدَّةِ المَعلُومَةِ عَلَی المَهرِ المَعلُومِ

Zəvvəctukə nəfsi fil muddətil-mə'luməti ələl-məhril-mə'lum – (Yə'ni, özümü müəyyən edilmiş müddət və mehriyyə əsasında sənin arvadın etdim). Sonra isə kişi zaman fasiləsi olmadan

قَبِلتُ

Qəbiltu –(bu evlənməni qəbul etdim.)

desə, kafidir. Əgər başqasını vəkil etsələr, əvvəlcə qadının vəkili kişinin vəkilinə

مَتَّعتُ لِمُوَكِّلَتِی مُوَكِّلَكَ فِی المُدَّةِ المَعلُومَةِ عَلَی المَهرِ المَعلُومِ

Məttə'tu limuvəkkiləti muvəkkiləkə fil-muddətil-mə'luməti ələl-məhril-mə'lum – (yə'ni, öz müvəkkilimi müəyyən edilmiş müddət və mehriyyə əsasında sənin müvəkkilimin zövcəsi etdim.) Sonra zaman fasiləsi olmadan kişinin vəkili

قَبِلتُ لِمُوَكِّلِی هَكَذاَ

Qəbiltu limuvəkkili hakəza – (mən də öz müvəkkilim tərəfindən qəbul etdim.) desə, kafidir.

İzdivac nikahının şərtləri

Məsələ 2032: İzdivac nikahının bir neçə şərti var:

1-Ehtiyata əsasən, onun siğəsi ərəb dilində düzgün şəkildə oxunmalıdır. Əgər qadın və kişi siğəni ərəb dilində oxuya bilməsələr, öz dillərində oxuya bilərlər və ərəb dilində siğəni oxumaq üçün vəkil tutmaları vacib deyil. Lakin, elə kəlmələrdən istifadə etməlidirlər ki, ərəbcə oxunan siğənin mə'nasını anlatmalıdır.

2-Siğə oxuyan şəxsin inşa qəsdi olmalıdır. Yə'ni bu kəlmələri deməkdə məqsədi o iki nəfərin arasında ər-arvadlıq yaratmaq olmalıdır, qadın özünü kişinin arvadı etməli və kişi də bu mə'nanı qəbul etməlidir. Vəkilin də məqsədi belə olmalıdır.

3-Nikah siğəsini oxuyan şəxs aqil olmalı və başqasının tərəfindən vəkil olmasından asılı olmayaraq, ehtiyata əsasən, həddi-büluğa çatmalıdır.

4-Vəliyy və yaxud vəkil nikah siğəsini oxuduqda ər-arvadı müəyyən etməlidir. Bu baxımdan, əgər bir şəxsin bir neçə qızı olsa, kişiyə "zəvvəctukə ihda bənati" (yə'ni, qızlarımdan birini sənin arvadın etdim) deyə bilməz.

5-Qadın və kişi öz ixtiyarları ilə izdivaca razı olmalıdırlar. Lakin, onlardan biri zahirdə könülsüzlüklə icazə versə, amma ürəkdə razı olduğunu bilsək, nikah düzgündür.

6-Nikah siğəsi düzgün oxunmalıdır. Əgər onun mə'nasını əvəz edəcək bir halda səhv oxusalar, nikah batildir. Amma mə'na əvəz olmasa, eybi yoxdur.

Məsələ 2033: Ərəb dilinin qrammatikasını bilməyən, lakin nikah kəlmələrini düzgün tələffüz edən və onun mə'nasını da bilən şəxsin nikahı düzgündür.

Məsələ 2034: Əgər bir qadının nikahını bir kişi üçün onların icazəsi olmadan oxusalar, sonradan onlar razı olub icazə versələr, nikah düzgündür.

Məsələ 2035: Əgər bir qadın və kişini və yaxud onlardan birini izdivaca məcbur etsələr, lakin nikah oxunduqdan sonra razı olub icazə versə, ehtiyat vacibə əsasən, nikah siğəsini yenidən oxumalıdırlar.

Məsələ 2036: Ata və yaxud atanın atası zəruri halda həddi-büluğa çatmayan və yaxud dəli uşağı evləndirə bilərlər. Uşaq həddi-büluğa çatandan, dəli ağıllı olandan sonra, ehtiyat vacibə əsasən onu pozmamalıdırlar.

Məsələ 2037: Həddi-büluğa çatan və rəşidə - öz məsləhətini tə'yin edə bilən qız bakirə olsa, ehtiyata əsasən, atası və yaxud babasının (atanın atasının) icazəsi ilə evlənməlidir. Lakin qız üçün münasib ər tapılsa və ata buna qarşı çıxsa, onun icazəsi şərt deyil. Həmçinin, ataya və yaxud atanın atasına əl çatmasa və qızın da izdivac etməyə ehtiyacı olsa və yaxud qız

əvvəllər ərə gedibsə, bu iki halda da ata və babasının icazəsi yeni izdivacda lazım deyil.

Əqdi pozmağın mümkün olduğu eyblər

Məsələ 2038: Əgər kişi əqd oxunandan sonra qadında aşağıdakı yeddi eybdən biri olduğunu bilsə, əqdi poza bilər:

1-Dəlilik; 2-Xora xəstəliyi; 3-Bərəs (alaca) xəstəliyi; 4-Korluq; 5- Şil və şilliyinin aşkar olması; 6-Əfza olmaq (yə'ni, sidik və heyzin, yaxud heyzlə nəcisin məcrası bir olsa və yarıq cinsi əlaqə etmək üçün mümkün olmasın); 7-Qadında cinsi əlaqəyə mane olan artıq ət, sümük, vəz olsa.

Məsələ 2039: Qadın da bir neçə halda nikahı poza bilər:

1-Ərin dəli olması; 2-Ərinin kişilik aləti olmazsa; 3-Cinsi əlaqəyə bacarığı olmasa; 4-Kişinin yumurtaları çıxarılmış olsa (bu və sabiq məsələ haqqında fiqh kitablarında geniş söz açılıb.)

Məsələ 2040: Əgər qadın və ya kişi əvvəlki iki məsələdə deyilən eyblər səbəbilə əqdi pozsalar, tələq vermələrinə ehtiyac yoxdur, həmin fəsx kafidir.

Məsələ 2041: Əgər kişinin cinsi əlaqə bacarığı olmamasına görə qadın nikahı pozsa, ər onun mehriyyəsinin yarısını ödəməlidir. Lakin, (yuxarıda) qeyd edilən digər səbəblərə görə ər və yaxud arvad nikahı pozsa, bir-birləri ilə cinsi yaxınlıq etmədikləri halda, kişinin öhdəsinə heç nə düşmür və əgər (cinsi əlaqədə) olublarsa, vacib ehtiyata əsasən, (ər) bütün mehriyyəni ödəməlidir.

Evlənmək haram olan qadınlar

Məsələ 2042: İnsana məhrəm olan qadınlarla, məsələn, ana, qız, bacı, bibi, xala, qardaş qızı, bacı qızı, atanın arvadı, arvadın qızı, qaynana (bu haqda geniş mə'lumat veriləcək) evlənmək haramdır.

Məsələ 2043: Əgər bir kişi ilə bir qadının arasında nikah əqdi oxunsa, cinsi yaxınlıq etməməsinə baxmayaraq, anası, o qadının anasının anası, onun atasının anası və beləliklə hər nə qədər getsə, kişiyə məhrəm olurlar. Lakin, arvadın qızı, qız və oğlan nəvələri, o arvadla cinsi yaxınlıq etdiyi zaman kişiyə haram olur.

Məsələ 2044: Atanın bibi və xalası, atanın atasının bibi və xalası, ananın bibi və xalası və ananın anasının bibi və xalası hər nə qədər yuxarı getsə, insana məhrəmdirlər.

Məsələ 2045: Ərin atası, babası və bu minvalla hər nə qədər yuxarı getsə, oğlu və ərin oğul və qız nəvələri bu minvalla hər nə qədər aşağı gəlsələr, nikahdan qabaq və sonra doğulmalarından asılı olmayaraq, bu qadına məhrəmdirlər.

Məsələ 2046: Kişi bir qadını öz nikahına gətirdikdən sonra və o arvad onun əqdində olduğu zamana qədər, əqdin daimi və yaxud müvəqqəti olmasından asılı olmayaraq, arvadın bacısı ilə evlənə bilməz. Hətta, tələqdan

sonra iddəsi "ric'i" olsa (bu haqda "Tələq" kitabında mə'lumat veriləcək), (arvad) iddə müddətini saxladığı vaxtda onun bacısını ala bilməz və müstəhəb ehtiyata əsasən, tələqın iddəsində (bunun şərhi gələcək) və həmçinin, müt'ə iddəsində, müddətin tamam olmasından və yaxud müddəti bağışlamasından asılı olmayaraq, onunla evlənməsin.

Məsələ 2047: Ər, arvadının icazəsi olmadan onun bacısı və yaxud qardaşı qızı ilə evlənə bilməz. Lakin, icazəsiz onların nikahı oxunsa, sonra icazə versə, əqd düzgündür.

Məsələ 2048: Müsəlman qadın kafir kişi ilə evlənə bilməz. Həmçinin müsəlman kişi də ehtiyata əsasən, kafir qadınla daimi əqd əsasında evlənə bilməz. Amma kitab əhlinin qadınları ilə (yəhudi, məsihi (xristian)) siğə etməyin maneəsi yoxdur.

Məsələ 2049: Əgər ərli bir qadınla (bu işdən Allaha pənah aparırıq) zina etsə, o qadın həmişəlik ona haram olur. Yə'ni ərindən boşandıqdan sonra da (ehtiyata əsasən) onunla evlənə bilməz.

Məsələ 2050: Başqasının iddəsində olan bir arvadla zina etsə, vacib ehtiyata əsasən, tələqın ric'i və yaxud qeyri-ric'i olmasından asılı olmayaraq, o arvad ona haram olur.

Məsələ 2051: Əgər iddədə olmayan ərsiz bir qadınla zina etsə, sonradan onunla evlənə bilər. Lakin, müstəhəb ehtiyata əsasən, səbr etsin, qadın heyz olandan sonra onu öz nikahına gətirsin.

Məsələ 2052: Əgər başqasının iddəsində olan qadını özünə əqd etsə, kişi və qadın və yaxud onlardan biri qadının iddədə olmasını və habelə, iddədə olan qadınla əqd etməyin haram olduğunu bilsə, onunla cinsi əlaqədə olub-olmamasından asılı olmayaraq, o qadın ona əbədi haram olur. Lakin onlardan heç biri qadının iddədə olduğunu bilməyiblərsə və yaxud iddəli qadınla əqd etməyin haram olduğunu bilməyiblərsə, bir-birləri ilə cinsi yaxınlıq etdikləri halda, qadın ona haram olur; yaxınlıq etməyiblərsə qadın ona haram olmur. Əqd vəkil vasitəsi ilə oxunduğu hallarda əbədi haram hasil olmur.

Məsələ 2053: Əgər bir şəxs qadının ərli olduğunu bilib, onu özünə əqd etsə, gərək ondan ayrılsın. Vacib ehtiyata əsasən, onunla yaxınlıq etməməsinə baxmayaraq, sonradan da onunla evlənə bilməz.

Məsələ 2054: Ərli qadın zina etdiyi halda ərinə haram olmur, lakin, tövbə etməyib öz əməlini davam etdirsə ərin onu boşaması yaxşıdır, amma, mehriyyəsini verməlidir. Əgər zina etməklə məşhur olsa, vacib ehtiyata əsasən, ona tələq verilməlidir.

Məsələ 2055: Əgər bir nəfər ərli qadınla (nəuzu billah) zina etsə, tövbə etmək üçün onun ərinə bir şey demək lazım deyil; Allahın dərgahında tövbə etməlidir.

Məsələ 2056: Ləvat verən oğlanın (həddi-büluğa çatıb-çatmamasından asılı olmayaraq) anası, bacısı, qızı ləvat edən şəxsə haramdır. Lakin ləvat

edənin həddi-büluğa çatmasında və həmçinin, düxulun hasil olub-olmamasında şəkk etdiyi halda haram olmur.

Məsələ 2057: Əgər bir şəxsin anası, bacısı və yaxud qızı ilə evlənsə və evləndikdən sonra (Allah uzaq etsin) onunla ləvat etsə, onlar ona haram olmaz.

Məsələ 2058: Əgər bir şəxs həcc və ümrə əməllərindən sayılan ehram halında bir qadınla izdivac etsə əqdi batildir. Beləki, əgər bu halda arvad almağın haram olduğunu bilsə, onunla yaxınlıq edib-etməməsindən asılı olmayaraq, heç vaxt o arvadı öz nikahına gətirə bilməz.

Məsələ 2059: Əgər kişi həcc əməllərindən biri sayılan "nisa" təvafını yerinə yetirməsə, ehram bağlamaqla ona haram olan qadın halal olmur. Bu hökm qadınlar haqqında da sabitdir. Lakin, sonradan nisa təvafını yerinə yetirsələr bir-birlərinə halal olurlar.

Məsələ 2060: Əgər bir şəxs həddi-büluğa çatmayan bir qızı onun vəlisinin icazəsi ilə özünə əqd etsə, qızın doqquz yaşı tamam olmayınca, onunla cinsi əlaqədə olması haramdır. Doqquz yaşdan əlavə, əgər cismi baxımdan hazır olmasa, (onunla cinsi əlaqədə olmağın) iradı var. Hər bir halda, əgər yaxınlıq edib onu ifza etsə, o qadın ona harm olmur, xüsusi ilə əgər cərrahiyyə əmaliyatı və yaxud dərman vasitəsi ilə yaxşı olub, əvvəlki halına qayıtsa. Bu baxımdan arvadla yaxınlıq məsələsində doqquz yaşın tamam olmasından əlavə, cinsi yaxınlıq üçün cismin inkişaf etməsi də lazımdır. Əgər qadının ifza və naqis olma qorxusu olsa, həddi-büluğa çatmasından asılı olmayaraq, qadınla cinsi əlaqənin iradı var.

Məsələ 2061: Üç dəfə tələq verilən qadın ərinə haram olur. Amma əgər tələq kitabında deyilən şərtlər əsasında başqa kişi ilə nikah edib sonra tələq alsa, birinci əri ilə yenidən ailə qura bilər.

Daimi əqdin hökmləri

Məsələ 2062: Daimi əqd olunan qadın, ehtiyata əsasən, ərinin icazəsi olmadan evdən çölə çıxa və yaxud evdən xaric bir iş seçə bilməz (şifahi icazə və yaxud da bə'zi əlamətlərdən razılığının mə'lum olmasından asılı olmayaraq) və şəriət hökmlərinə əsasən bir üzrü olmadıqda onun cinsi yaxınlığına mane olmasın. Ərə də ona yemək, paltar, mənzil və başqa avadanlıqları hazırlaması vacibdir (hətta həkim, dərman və s. şeylərin pulunu da verməlidir). Əgər hazırlamasa, ehtiyata əsasən, buna imkanı olub-olmamasından asılı olmayaraq, ona borcludur.

Məsələ 2063: Əgər qadın qabaqkı məsələdə deyildiyi işlərdə ərinə itaət etməsə günahkardır və onun yemək, geyim, mənzil və bir yerdə yatmaq hüququ qüvvəsindən düşür. Lakin mehriyyə hüququ aradan getmir.

Məsələ 2064: Ev işlərini görmək, yemək bişirmək, təmizlik işləri aparmaq və s. qadının vəzifəsi deyil. Əgər öz meyli ilə (işləsə) istisnadır.

Əgər kişi onu bu işlərə məcbur etsə, bu işlərin müqabilində qadın ondan öz zəhmət haqqını ala bilər.

Məsələ 2065: Əgər bir şeyin xərcini tələb etsə və ər verməsə, qadın onun icazəsi olmadan həmən günün xərci qədər onun malından götürə bilər və vacib ehtiyata əsasən, bu iş şəriət hakiminin icazəsi ilə olsun. Əgər özü məişətini təmin etməyə məcbur olsa, işə məşğul olduğu vaxtda ərindən itaət etməsi vacib deyil.

Məsələ 2066: Kişi daimi arvadını nə ərli qadın kimi ərli, nə ərsiz qadın kimi ərsiz olması bilinmədiyi halda tərk edə bilməz. Lakin, vacib deyil hər dörd gecədən bir onun yanında qalsın. Əgər bir neçə arvadı varsa, bu cəhətdən onların arasında ədalətlə rəftar etməlidir. Bunun şərhi geniş fiqhi kitablarda verilmişdir.

Məsələ 2067: Ər dörd aydan artıq arvadı ilə cinsi əlaqəni tərk edə bilməz. Əgər qadın cavan olsa, bu zamanda onun günaha düşməsi qorxusu var. Ehtiyat vacibə əsasən, elə raftar etməlidir ki, o günaha düşməsin.

Məsələ 2068: Daimi nikahda mehriyyənin təyin edilməsi vacib deyil və onsuz əqd düzgündür. Lakin, sonradan onunla yaxınlıq etdiyi halda, mehriyyəsini onun kimi qadınlara uyğun olan halda verməlidir.

Məsələ 2069: Əgər nikahda mehriyyənin verilməsi üçün bir zaman tə'yin olunmayıbsa, qadının tez bir zamanda mehriyyəsini tələb etmək hüququ var. Hətta mehriyyəsini almazdan qabaq, ərin mehriyyəni verməyə imkanı olub-olmamasından asılı olmayaraq, əri ilə cinsi yaxınlığın qarşısını ala bilər. Əgər onun imkansızlığı əvvəlcədən mehriyyənin nəqd halında deyil, onun zimməsində olmasına işarə olsa, istisnadır.

Müvəqqəti evlənmənin hökmləri

Məsələ 2070: Müvəqqəti evlənmədə mehriyyənin və vaxtın miqdarı təyin edilməlidir və əks təqdirdə (bu evlənmə) batildir.

Məsələ 2071: Müvəqqəti evlənmə ləzzət qəsdi ilə olmaya da bilər. Bu iş qohumların o qızla məhrəm olması məqsədi ilə də olsa caizdir, bu şərtlə ki, müvəqqəti evləndirilən qız cinsi ləzzəti dərk etmə həddində olsun. Məsələn, əgər (qız) kiçikdirsə, vaxtı o qədər uzatmalıdırlar ki, qızın (cinsi ləzzəti) dərk etmə dövranına da şamil olsun. Hətta nikahdan sonra müddəti bağışlasalar belə.

Məsələ 2072: Vacib ehtiyata əsasən, müvəqqəti evlənmədə ər dörd aydan artıq yoldaşı ilə cinsi əlaqədə olmağı tərk etməməlidir.

Məsələ 2073: Müvəqqəti evlənmədə qadın kişinin onunla cinsi əlaqədə olmayıb, yalnız başqa ləzətləri aparmasını şərt edə bilər. Lakin, sonradan bu işə razı olsa, (onunla cinsi əlaqədə olmağın) maneəsi yoxdur.

Məsələ 2074: Müvəqqəti evlənmədə qadının xərc hüququ yoxdur, hamilə olduqda ərindən, əri də ondan irs aparmır və vacib olaraq bir yataqda yatmaq hüququ da yoxdur.

Məsələ 2075: Müvəqqəti həyat yoldaşı ərindən icazəsiz evdən çölə gedə bilər, evdən xaric özünə iş seçə bilər. Əgər çölə çıxmaq vasitəsi ilə ərinin hüququ pozulsa, istisnadır.

Məsələ 2076: Ata və yaxud atanın atası bir qadınla məhrəm olmaqdan ötrü onu müvəqqəti olaraq həddi-büluğa çatmayan oğluna əqd edə bilər (bu şərtlə ki, əqdin müddəti oğlanın cinsi faydalanma vaxtına da şamil olmalıdır) və habelə, həddi-büluğa çatmayan bir qızı (oğlan haqqında deyilən şərtlər əsasında) qohumlara məhrəm olması üçün, bir şəxsə əqd edə bilərlər. Hər iki halda, vacib ehtiyata əsasən, əqdin o iki nəfər üçün bir faydası olsun və fəsadı olmasın.

Məsələ 2077: Kişi müvəqqəti evlənmənin müddətini bağışlayaraq ona son qoya bilər. Bu halda, əgər qadınla cinsi yaxınlıq edibsə, onun bütün mehriyyəsini və əgər etməyibsə mehriyyəsinin yarısını verməlidir.

Məsələ 2078: Kişi müvəqqəti evləndiyi qadınla daimi əqd edə bilər. Lakin, ilk olaraq (müvəqqəti evlənmədən qalan) müddəti bağışlayıb sonra onu (daimi) əqd etməlidir.

Məsələ 2079: Müvəqqəti evlənmənin zamanı bitdikdən sonra tələq kitabında veriləcək şərh əsasında iddəsi var və ondan dünyaya gələn uşaqlar bütün övladlıq hüquqlarına malikdirlər; ər-arvadın bir-birlərindən irs aparmamasına baxmayaraq, uşaqlar ata, ana və qohumlarından irs aparırlar.

Baxmağın hökmləri

Məsələ 2080: Ləzzət qəsdi ilə baxıb-baxmamasından asılı olmayaraq, kişinin naməhrəm qadının bədəninə baxması haramdır. Qadının da naməhrəm kişinin bədəninə baxması bu hökmlə eynidir. Lakin ləzzət qəsdi, fəsad və günaha səbəb olmadan qadının üzünə, biləyinə baxmağın eybi yoxdur. Naməhrəm kişinin bədəninin adətən örtmədiyi yerlərinə, məsələn, baş, boyun, ayaq və əlin bir hissəsinə baxmaq da yuxarıdakı hökmlə eynidir.

Məsələ 2081: Həddi- büluğa çatmayan qıza baxmaq ləzzət qəsdi ilə olmasa və baxmaq vasitəsi ilə günaha düşmək qorxusu olmasa, caizdir. Lakin vacib ehtiyata əsasən, adətən örtdüyü yerlərə, məsələn, baldır, qarın və bu kimi yerlərə baxılmasın.

Məsələ 2082: Qadının bədənini, saçını naməhrəmdən örtməsi vacibdir və müstəhəb ehtiyata əsasən, yaxşı- pisi seçən, şəhvəti oyanan həddi-büluğa çatmayan oğlanın yanında da (bədən və saçını) örtməlidir. Lakin üzün, əlin biləyə qədər örtülməsi vacib deyil.

Məsələ 2083: Başqasının cinsi orqanına güzgü, saf su və s.- vasitəsi ilə baxmasından, məhrəm, naməhrəm, kişi və yaxud qadın olmasından asılı olmayaraq, baxmaq haramdır və vacib ehtiyata əsasən, yaxşını pisdən seçə bilən uşağın cinsi orqanına da baxmamalıdırlar. Lakin ərlə arvad bir-birlərinin bütün bədənlərinə baxa bilərlər.

Məsələ 2084: Bir-birləri ilə məhrəm olan kişi və qadın (bacı- qardaş kimi) məhrəmlər arasında adət olan qədər bir-birlərinin bədəninə baxa bilərlər; bundan qeyri halda, ehtiyata əsasən, baxmamalıdırlar.

Məsələ 2085: Kişi ləzzət qəsdi ilə başqa kişinin bədəninə baxa bilməz və qadının da ləzzət qəsdi ilə başqa qadının bədəninə baxması haramdır.

Məsələ 2086: Kişinin naməhrəm qadının şəklini çəkməsi haram deyil. Əgər çarəsizlikdən qadının üz və əlindən başqa bədəninə baxmalı olsa, istisnadır.

Məsələ 2087: Qadın dini hicabını qoruduğu halda onun hicabsız şəklinə baxmağın iradı var. Əgər onu tanımasa və baxmaq nəticəsində bir fəsad üzə çıxmasa, istisnadır.

Məsələ 2088: Əgər həkim və yaxud tibb bacısı çarəsizlikdən xəstənin cinsi orqanına əl vurmalı olsa, əlinə əlcək və s. geyinməlidir. Həmçinin kişi həkim və tibb köməkçisi çarəsizlikdən qadının və yaxud qadın həkim və tibb bacısı kişinin bədəninə əl vurmalı olsa, (əlinə əlcək və s. geyinməlidir). Lakin, çarəsizlikdən və zəruri halda eybi yoxdur.

Məsələ 2089: Zəruri halda kişi həkimin naməhrəm qadına müayinə və müalicə üçün baxması caizdir.

Məsələ 2090: Vacib hicab məsələsində qadın bədəninin üz və əlinin biləyə qədər hissəsindən başqa yerini hər vasitə ilə örtə bilər, xüsusi paltar şərt sayılmır. Lakin dar, bədənə yapışan və habelə bəzək paltarlarını geyinməyin eybi var.

Məsələ 2091: Kişinin evlənmək istədiyi qadının bədəninə yaxşı- pis xüsusiyyətlərini öyrənmək məqsədi ilə baxması caizdir. Əgər bir dəfə baxmaqla məqsədi hasil olmasa, bir neçə dəfə, müxtəlif məclislərdə (onun bədəninə) baxa bilər.

Məsələ 2092: Ləzzət qəsdi və günaha düşməyə səbəb olmadığı halda naməhrəm qadının səsini eşitməyin eybi yoxdur. Lakin, qadın səsinin tonunu təhrik edici etməməlidir.

Məsələ 2093: Məhkəmədə şahid durmaq və bu qəbildən olan digər mühüm işlərlə əlaqədar naməhrəm qadını tanımaqdan ötrü ona baxmaq caizdir.

Evlənmənin müxtəlif məsələləri

Məsələ 2094: Əgər nikahda qadının bakirə olmasını şərt bilsələr, sonradan qadının bakirə olmaması mə'lum olsa, izdivacı poza bilərlər.

Məsələ 2095: Vacib ehtiyata əsasən, naməhrəm kişi və qadın heç kəsin olmadığı və gələ bilmədyi xəlvət yerdə qalmasınlar. Hətta orada namaz qılsalar belə, onların namazları iradlıdır.

Məsələ 2096: Əgər kişinin məqsədi əvvəldən mehriyyəni ödəməmək olsa, əqd düzgündür və ona mehriyyəni ödəmək vacib deyil.

Məsələ 2097: Müsəlman atadan dünyaya gələn müsəlman şəxs mürtəd olsa, yəni Allahı, Peyğəmbəri (s) və yaxud İslam dininin bariz hökmlərindən birini, məsələn namazı, orucu inkar etsə və onları inkar etməyin mənası, Allahı, Peyğəmbəri (s) inkar etmək olsa, onun izdivacı batil olur və həyat yoldaşı ondan uzaqlaşıb vəfat iddəsi, yə'ni əri ölən qadın iddəsi saxlamalıdır və sonradan evlənə bilər. Əgər qadın yaisədirsə (aybaşı olmursa) və yaxud bu vaxta qədər cinsi yaxınlıq etməyibsə, iddə saxlaması lazım deyil.

Məsələ 2098: Əgər nikah zamanı ər öz həyat yoldaşını müəyyən bir şəhərdən başqa yerə aparmamasını şərt etsə, kişi onu o şəhərdən başqa yerə apara bilməz. Əgər onun razılığı olsa, istisnadır.

Məsələ 2099: Əgər bir şəxs bir qızı öz oğluna əqd etsə, özü o qızın anası ilə evlənə bilər. Həmçinin, əgər əvvəl özü o qızın anası ilə evlənsə, o qızı oğlu üçün ala bilər.

Məsələ 2100: Qeyri-qanuni yolla hamilə olan qadının uşağını abort etməsi caiz deyil, onun övladı hesab olunur, yalnız ondan irs aparmır.

Məsələ 2101: Əgər bir şəxs ərsiz və başqasının iddəsində olmayan bir qadınla zina etsə, sonradan onu əqd etməsi caizdir. Əgər sonra onlardan bir uşaq dünyaya gəlsə, halal və yaxud haram nütfədən olduqlarını ayrıd edə bilməsələr, o uşaq halalzadədir.

Məsələ 2102: Əgər qadın "ərim yoxdur" desə, onun sözünü qəbul etmək olar, bir şərtlə ki, müttəhim olmasın. Əgər yaisə olduğunu desə, onun iddiasını qəbul etməyin iradı vardır.

Məsələ 2103: Bir nəfər hansısa bir qadınla evlənsə və digər bir şəxs o arvadın ərli olduğunu söyləsə və qadının özü ərsiz olduğunu desə və həm də şəriət hökmlərinə əsasən (bu) məsələ sübuta yetməsə, qadının sözü qəbul edilməlidir. Lakin e'timadlı bir mö'min onun ərli olmasını təsdiq etsə, vacib ehtiyata əsasən, ona tələq verməlidir.

Məsələ 2104: Həddi-büluğa çatmış qızı ərə verməkdə tələsmək müstəhəbdir. Həmçinin, arvada ehtiyacı olan oğlan üçün arvad almaq da eyni hökmdədir.

Məsələ 2105: Zinadan dünyaya gələn bir şəxs evlənib, uşağı olsa, o uşaq halalzadədir.

Məsələ 2106: Əgər bir kişi mübarək ramazan ayı günündə və yaxud arvad aybaşı olduğu zaman onunla cinsi əlaqəyə girsə, günah etmişdir, lakin, onlardan dünyaya gələn uşaq halalzadədir.

Məsələ 2107: Əgər bir qadın ərinin səfərdə ölməsinə yəqin etsə və vəfat iddəsi (tələqın hökmlərində deyiləcək qədər) saxlayıb, sonra ərə getsə və sonradan əri səfərdən qayıtsa, ikinci ərindən ayrılmalıdır və birinci ərinə halaldır. Əgər ikinci əri onunla cinsi əlaqədə olubsa, qadın iddə saxlamalıdır və vacib ehtiyata əsasən, ikinci ər onunla bağladığı şərt əsasında mehriyyəsini ödəməlidir və əgər mehrul-misl (onun kimilərə layiq olan mehriyyə) çoxdursa, onu ödəməlidir.

SÜD VERMƏK (RİZA')

Məsələ 2108: Əgər bir qadın bir uşağa (sonradan qeyd ediləcək məsələlər əsasında) süd versə, o qadın onun anası, süd ona aid olan kişi isə onun atası hökmündədir və o kişinin atası, babası, anası nənəsi, qardaşı, əmisi, bacısı bibisi, övladları isə onun qardaş və bacıları hesab olunurlar. Həmçinin, o qızın atası onun ana babası, anası ana nənəsi, qardaşı dayısı, bacısı xalası hesab olunur. Həmçinin, qadının süd verdiyi qız onun ərinə haramdır (bu şərtlə ki, o qadınla cinsi əlaqədə olsun). Habelə insan arvadının süd anası ilə evlənə bilməz, çünkü arvadının anası hökmündədir.

Başqa ifadə ilə, əgər uşağa aşağıda qeyd ediləcək halda süd versə, o uşaq bu qrup insanlara məhrəm olur:

1-O qadının özünə; ona süd anası deyilir.

2-Qadının ərinə; süd ona məxsusdur və ona da süd atası deyilir.

3-O qadının atası və anasına–nə qədər yuxarı getsələr də; hətta onun süd anası və süd atası da olsa.

4-O qadından dünyaya gələn, yaxud dünyaya gələcək uşaqlara;

5-O qadının övladlarının uşaqlarına, nə qədər aşağı getsə də; istər onun övladından dünyaya gəlsin, istərsə də onun övladı o uşaqlara süd vermiş olsun.

6-O qadının bacı və qardaşına, hətta süd vasitəsi ilə olsalar da;

7-O qadının əmisi və bibisinə, hətta süd vasitəsi ilə olsalar da;

8-O qadının xalası və dayısına, hətta süd vasitəsi ilə olsalar da;

9-O qadının süd ona məxsus olan ərinin övladlarına, nə qədər aşağı getsə və hətta onun süd vasitəsi ilə övladları olsalar da;

10-O qadının ərinin ata-anasına, nə qədər yuxarı getsə də;

11-Ərinin qardaşı və bacısına, hətta süd qardaşı və süd bacısı da olsa;

12-Süd ona aid olan ərin əmisi, bibisi, dayısı və xalasına, nə qədər yuxarı getsələr də, hətta südvermə yolu ilə də olsalar. Həmçinin sonrakı məsələlərdə deyiləcəyi kimi, bundan başqa bir neçə nəfər də südvermə yolu ilə məhrəm olurlar.

Südvermənin hökmləri

Məsələ 2109: Əgər qadın bir uşağa, sonradan deyiləcək şərtlər əsasında süd versə, uşağın atası o arvaddan dünyaya gələn qızlarla və vacib ehtiyata əsasən, süd ona məxsus olan ərin qızı ilə də evlənə bilməz. Vacib ehtiyata əsasən, onun süd qızları ilə də izdivac etməsinlər. Lakin, o arvadın başqa ərdən olan süd qızları ilə evlənməyin maneəsi yoxdur.

Məsələ 2110: Əgər bir qadın sonradan deyiləcək şərtlərlə uşağa süd versə o qadının əri (süd ona məxsusdur) o uşağın bacılarına məhrəm olmur, ancaq ehtiyat-müstəhəb budur ki, onlarla evlənməsin. Həmçinin ərin qohumları da o uşağın bacı və qardaşları ilə məhrəm olmur.

Məsələ 2111: Əgər qadın bir uşağa süd versə o uşağın qardaşlarına məhrəm olmur. Həmçinin o qadının qohumları da süd verdiyi uşağın bacı-qardaşlarına məhrəm olmurlar.

Məsələ 2112: Oğlan anasının və yaxud nənəsinin kamil süd verdiyi qızla evlənə bilməz. Həmçinin, bir şəxsin atasının arvadı onun atasına məxsus olan südlə bir qıza süd versə, oğlan o qızla evlənə bilməz.

Məsələ 2113: İnsan, bacısının, yaxud qardaşı arvadının qardaşına məxsus olan südlə kamil süd verdiyi qızla məhrəmdir və onunla evlənə bilməz. Həmçinin, insanın bacısı, yaxud qardaşı uşaqları, insanın bacısı, yaxud qardaşı nəvələri o qıza süd versələr, yuxarıda qeyd edilən hökmlə eynidir.

Məsələ 2114: Müstəhəb ehtiyata əsasən, qadın nəvəsinə və qızının ərinin başqa arvaddan olan uşağına kamil süd verməsin.

Məsələ 2115: Qadının öz oğlan nəvəsinə süd verməsinin maneəsi yoxdur.

Məhrəmliyə səbəb olan südvermənin şərtləri

Məsələ 2116: Əgər bir qadın bir uşağa süd versə, doqquz şərtlə məhrəmliyə səbəb olacaq:

1- Süd doğumdan olsun; Deməli uşaq doğulmamışdan qadının döşündən süd gəlsə və bir uşaq o südü əmsə, məhrəmliyə səbəb olmur.

2- Uşaq diri qadının döşündən süd əmsin; Deməli ölmüş qadının döşündən süd əmsə, faydası yoxdur (məhrəmlik yaratmır).

3- O qadının südü haramdan olmasın; Deməli zinadan dünyaya gələn uşağın südünü başqa uşağa versələr uşaq o süd vasitəsilə heç kəsə məhrəm olmur.

4-Südü döşdən əmməlidir. Lakin, vacib ehtiyata əsasən, əgər südü uşağın boğazına töksələr, o qadın və onun məhrəmləri ilə evlənməsinlər.

5-Südü başqa şeylə qarışdırmasınlar.

6-Süd bir ərə məxsus olmalıdır. Bu baxımdan, südü olan qadın tələq verib başqa birisinə ərə getsə və ondan hamilə olsa və doğuş vaxtı birinci ərinə aid olan süd qalsa, məsələn, bir uşağı səkkiz dəfə birinci ərinə aid olan südlə və yeddi dəfə ikinci ərinə aid olan südlə əmizdirsə, o uşaq heç kəsə məhrəm olmur. Həmçinin, bir qadın birinci ərinə aid olan südlə bir uşağa kamil süd versə və sonra ikinci ərinə aid olan südlə başqa bir uşağa süd versə, o iki nəfər bir-birlərinə məhrəm olmurlar.

7-Uşaq xəstəlik səbəbilə əmdiyi südü qaytarmasın. Əgər qaytararsa ehtiyat vacibə görə gərək süd əmmək vasitəsilə o uşağa məhrəm olacaq şəxslər onunla evlənməsinlər və ona məhrəm baxışlarla baxmasınlar.

8-Uşaq 15 dəfə və yaxud bir gecə-gündüz, sonrakı məsələdə qeyd ediləcək halda kamil süd yesə və yaxud ona, camaatın "o südlə sümüyü bərkimiş, bədəni ətə gəlmişdir" dediyi qədər süd versələr və müstəhəb ehtiyata əsasən, əgər 10 dəfə süd yesə, süd yemək vasitəsi ilə ona məhrəm olanlar, onunla evlənməsinlər və ona məhrəm baxışlarla baxmasınlar.

9-Uşaq iki yaşa çatmamış olsun. Bu baxımdan, iki yaş tamam olandan sonra ona süd versələr, kimsə məhrəm olmur. Hətta iki yaşı tamam olmazdan öncə 14 dəfə və sonra bir dəfə süd yesə, bir kəslə məhrəm olmur. Lakin, arvadın doğuş tarixindən iki ildən çox ötmüş olsa və həmin südlə bir uşağı yedirtsə, vacib ehtiyata əsasən, süd yeməklə ona məhrəm olan qadınlarla evlənməsin və məhrəm baxışlarla onlara baxmasın.

Məsələ 2117: Öndə qeyd edilən məsələdə deyildiyi kimi, bir uşaq bir gecə-gündüz bir qadının südünü yesə, məhrəmliyə səbəb olar. Lakin, bir gecə-gündüz arasında başqa arvadın yemək və yaxud südünü yeməməlidir; amma yemək çox az olduğundan hesaba gəlməsə, istisnadır. Həmçinin, 15 dəfə süd yemək arasında başqa bir arvadın südünü yeməməli və hər dəfədə doyunca süd yeməlidir. Ehtiyata əsasən, 2 dəfə naqis halda (qidalanmaq) nə iki dəfə hesab olunur, nə də bir dəfə.

Məsələ 2118: Əgər bir qadın bir ərə məxsus olan süddən bir neçə uşağa süd versə, onların hamısı bir-birlərinə, ərə və onlara süd verən arvada məhrəm olurlar. Habelə, bir nəfərin bir neçə arvadı varsa və onlardan hər biri bir uşağa kamil süd versələr, o uşaqlar bir-birlərinə, o kişiyə və o qadınların hamısına məhrəm olurlar.

Məsələ 2119: Əgər bir qadın ərinə məxsus olan süddən bir oğlan və bir qıza kamil süd versə onlar bir-birinə məhrəm olurlar. Lakin, onların bacı-qardaşları bir-birlərinə məhrəm olmurlar.

Məsələ 2120: Kişi arvadının icazəsi olmadan arvadın süd bacısı və yaxud qardaşı uşaqları ilə evlənə bilməz. Habelə, vacib ehtiyata əsasən, bir oğlanla (Allaha pənah aparırıq) ləvat edibsə, o oğlanın süd qızı və süd anasının bacısı ilə evlənməsin.

Məsələ 2121: Bir kəsin qardaşına süd verən qadın həmin şəxsə məhrəm olmur. Amma ehtiyat müstəhəb budur ki, onunla evlənməsin.

Məsələ 2122: İnsan iki bacı ilə – hətta süd bacısı olsalar belə, evlənə bilməz. Əgər iki qadını nikah edib sonradan bacı olduqlarını başa düşsə, birinci nikah düzgün, ikincisi isə batildir. Əgər nikah eyni zamanda olubsa, hər ikisi batildir.

Məsələ 2123: Əgər qadın ərinə məxsus olan süddən aşağıdakı şəxslərə süd versə əri ona haram olmur lakin, bu işi etməməsi daha yaxşıdır:

1-Öz bacı və qardaşına;
2-Öz əmisi, bibisi, dayısı və xalasına;
3-Əmisi və dayısı övladlarına;
4-Öz qardaşı övladlarına;
5-Ərinin qardaşını, yaxud ərinin bacısına;
6-Öz bacısı uşaqları və yaxud ərinin bacısı uşaqlarına;
7-Ərinin əmisi, bibisi, dayısı və xalasına;
8-Ərinin başqa arvaddan olan nəvəsinə;

Məsələ 2124: Əgər bir kəs insanın bibisinin və ya xalasının qızına süd versə, həmin şəxsə məhrəm olmur. Amma ehtiyat müstəhəb budur ki, onunla evlənməsin.

Məsələ 2125: Bir kişinin iki arvadı olsa və onlardan biri o biri qadının əmisi uşağına süd versə, onun əmi övladlarına süd verən qadın öz ərinə haram olmur.

Südvermənin qaydaları

Məsələ 2126: Heç kəs uşağa süd vermək üçün anadan üstün deyil və yaxşı olar ki, uşağına verdiyi südün müqabilində ərindən muzd almasın; baxmayaraq ki, bu işə görə muzd alamağa hüququ var. Əgər ana dayədən artıq muzd almaq istəsə, ər uşağı ondan alıb, dayəyə verə bilər.

Məsələ 2127: Rəvayətlərdə qeyd edilibdir ki, uşaq üçün seçilən dayə ağıllı, imanlı, iffətli və gözəl üzlü olmalı və dəli, möminə olmayan, eybəcər, pis əxlaqlı və yaxud zinazadə dayə seçməməlidirlər. Həmçinin, uşağı zinadan dünyaya gələn, südü zinadan olan dayəni seçməkdən pəhriz edilməlidir.

Südvermənin müxtəlif məsələləri

Məsələ 2128: Qadınlar hər uşağa süd verməsələr yaxşıdır. Çünki, hansı şəxslərə süd vermələrini unutmaları ehtimalı var və sonra iki nəfər məhrəm bir-birləri ilə evlənə bilər. Xüsusi ilə müasir dövrdə quru süd və s.-dən istifadə etmək mümkün olduğu üçün başqalarının uşaqlarına süd vermək zərurəti çox azdır.

Məsələ 2129: Süd vermək vasitəsi ilə qohum olan şəxslərin bir-birlərinə ehtiram göstərmələri müstəhəbdir, lakin qohumluq hüquqları yoxdur və bir-birlərindən irs aparmırlar.

Məsələ 2130: İmkan daxilində uşağa düz iki il süd vermək müstəhəbdir.

Məsələ 2131: Qadın ərinin hüququ pozulmamaq şərti ilə, ondan icazəsiz olaraq başqasının uşağına süd verə bilər. Lakin, bir uşağa süd vermək vasitəsi ilə öz ərinə haram olacağı təqdirdə, o uşağa süd verməsi caiz deyil.

Məsələ 2132: Əgər bir kişi qardaşı arvadının ona məhrəm olmasını istəsə, bir südəmər qızı onun vəlisinin icazəsi ilə özünə əqd etməli və bu halda qardaşı arvadı o qıza kamil süd verməlidir. Vacib ehtiyata əsasən, əqdin müddəti qızın cinsi faydalanma həddinə çatması qədər olmalı və həmçinin, belə bir əqd qızın məsləhətinə uyğun olmalıdır.

Məsələ 2133: Məhrəmliyə səbəb olan süd vermə iki yolla sübut olunur:

Birincisi, insanın yəqin tapdığı bir dəstənin xəbər verməsi ilə;

İkincisi, İki adil kişi və yaxud dörd adil qadının şəhadət verməsi ilə. Hətta, vacib ehtiyata əsasən, bir kişi və yaxud qadının şəhadəti ilə də kifayətlənsinlər. Lakin, şahidlər süd vermənin şərtlərini də deməlidirlər. Məsələn, onlar "filan uşaq 15 dəfə filan arvadın döşündən (2116-cı məsələdə qeyd edildiyi kimi) kamil süd yemişdir" deməlidirlər. Əgər

onların bütün şərtləri bilmələrini və onda eyni nəzərə malik olmalarını bilsək, onu şərh vermək lazım deyil.

Məsələ 2134: Əgər uşağın məhrəmliyə səbəb olacaq qədər süd yeyib-yemədiyini bilməsələr, məhrəm olmaq sabit olmur, gərək yəqinə çatsınlar.

TƏLAQ

Məsələ 2135: Öz arvadına tələq verən kişi aqil, ehtiyat vacibə görə həddi-büluğa çatan olub öz ixtiyarı üzündən tələq verməlidir. Əgər onu, arvadına tələq verməyə məcbur etsələr, tələq batildir. Həmçinin gərək tələq vermək niyyəti olsun. Deməli, tələq siğəsini zarafatyana desə düzgün deyil.

Məsələ 2136: Vacib ehtiyata əsasən, tələq siğəsi düzgün ərəb dilində oxunmalıdır və iki adil kişinin onu eşitməsi vacibdir. Əgər ər özü tələq siğəsini oxumaq istəsə, arvadının adı, məsələn, Fatimədirsə, deyir:

زَوجَتِي فَاطِمَةُ طَالِقُ

(Zəvcəti Fatimətu taliqun- yəni, arvadım Fatimə arvadlıqdan azaddır).

Əgər başqasını vəkil etsə, o vəkil deməlidir:

زَوَجَةُ مُوَكِّلِي فَاطِمَةُ طَالِقُ

(Zəvcətu muvəkkili Fatimətu taliqun- yəni, müvəkkilimin arvadı azaddır.)

Məsələ 2137: Qadın tələq zamanı heyz, nifas qanından pak olmalı və habelə, o paklıq zamanı əri onunla cinsi yaxınlıq etməməlidir. Əgər ondan qabaqkı paklıqda olan nifas və ya heyz halında onunla yaxınlıq etsə, ehtiyata əsasən, tələq kifayat deyil; ikinci dəfə aybaşı olub, sonra pak olmalıdır (bu iki şərtin izahı sonrakı məsələlərdə gələcək).

Məsələ 2138: Üç yerdə heyz və nifas halında tələq vermək düzgündür:

1-İzdivacdan sonra ər mütləq halda onunla cinsi əlaqədə olmayıbsa; 2-Hamilə olsa; 3-Qadın hazır olmadığı (qaib olduğu) üçün əri bilməsin və yaxud qadının pak olmasını başa düşmək onun üçün müşkül olsun.

Məsələ 2139: Əgər bir şəxs qadını heyz qanından pak hesab edib tələq versə, sonradan tələq vaxtı heyz halında olduğu mə'lum olsa tələqı batildir. Əgər qadının heyz halında olduğunu hesab edərək tələq versələr və sonra pak olduğu mə'lum olsa, onun tələğı düzgündür.

Məsələ 2140: Öz arvadının heyz və ya nifas halında olduğunu bilən şəxs qaib olsa (məsələn, səfərə getsə) və ona tələq vermək istəsə, amma qadının halından xəbər tuta bilməsə, qadınların adətən heyz və ya nifasdan pak olacaqları müddətə qədər gözləməlidir.

Məsələ 2141: Əgər arvadı ilə cinsi yaxınlıqda olub, ona tələq vermək istəsə, heyz görüb, pak olmasına qədər səbr etməlidir. Lakin hamilə olsa, cinsi yaxınlıqdan sonra fasiləsiz olaraq tələq verə bilər. Həmçinin, əgər yaisə olsa, yəni yaşı 50-dən çox olsa, yuxarıdakı hökmlə eynidir.

Məsələ 2142: Əgər heyz və nifasdan pak olan arvadı ilə cinsi əlaqədə olsa, sonra səfər getsə və qadının halından xəbər tutmaq üçün araşdırma

aparmaq imkan olmasa, əgər ona təlaq vermək istəsə, vacib ehtiyata əsasən, ən azı bir ay səbr edib sonra təlaq verməlidir.

Məsələ 2143: Xəstəlik və yaxud başqa səbəblə əlaqədar aybaşı olmayan qadına əri təlaq vermək istəsə, onunla cinsi əlaqədə olduğu vaxtdan üç ay onunla cinsi yaxınlıqdan çəkinməli və sonra ona təlaq verməlidir.

Məsələ 2144: Müvəqqəti evlənmənin (siğənin) təlaqı yoxdur, müddəti bitdikdə və yaxud kişi ona müddəti bağışladıqda onun arvadlığından azad olur. Onun aybaşıdan paklanması və iki nəfər şəxsi şahid tutmaq lazım deyil.

Təlağın iddəsi

Məsələ 2145: Ərindən təlaq alan qadın iddə saxlamalıdır; əri ümumiyyətlə onunla cinsi əlaqədə olmasa, doqquz yaşına çatmazdan öncə təlaq versə və yaxud qadın yaisə olsa, yə'ni yaşı əllini ötübsə, istisnadır. Bu halda təlaqdan sonra fasiləsiz olaraq ərə gedə bilər.

Məsələ 2146: Aybaşı olan qadınlarda iddə müddəti, ehtiyata əsasən, səbr edib ikinci dəfə aybaşı olduqdan sonra pak olmalı və üçüncü heyzi gördükdə onların iddəsi tamam olur.

Məsələ 2147: Aybaşı olmayan qadın, əgər aybaşı olan qadınlarla yaşıd olsa, əri cinsi əlaqədən sonra ona təlaq versə, təlaqdan sonra üç ay iddə saxlamalıdır. Üç aydan məqsəd budur ki, əgər ayın əvvəlidirsə üç qəməri ayı tamam və əgər ayın başqa günüdürsə, məsələn, 5-i, 10-u, dördüncü ayın 5-i, 10-u çatdıqda, onun iddəsi tamam olur. Məsələn, rəcəb ayaının **5**-də təlaq alıbsa, şəvval ayının 5-də iddəsi tamam olur.

Məsələ 2148: Hamilə qadınların iddəsinin sonu uşağın doğulması və yaxud abort olunmasıdır. Hətta təlaqdan bir saat keçdikdən sonra uşaq dünyaya gəlsə, onun iddəsi tamam olur və ərə gedə bilər.

Məsələ 2149: Müvəqqəti evlənmənin iddəsi müddət tamam olandan sonra aybaşı olduğu halda iki kamil heyz qədərdir, əgər aybaşı olmursa 45 gün tamamdır.

Məsələ 2150: Təlaq iddəsinin əvvəli qadının bilib-bilməməsindən asılı olmayaraq, təlaq siğəsinin oxunduğu vaxtdan etibarən başlayır. Əgər iddə qurtarandan sonra ona təlaq verilməsini başa düşsə, yenidən iddə saxlaması lazım deyil.

Əri ölən qadının iddəsi

Məsələ 2151: Əri ölən qadın daimi və yaxud müvəqqəti evlənmədən, ərinin onunla yaxınlıq edib-etməməsindən asılı olmayaraq, 4 ay 10 gün iddə saxlamalıdır; hətta yaisə qadın da vəfat iddəsi saxlamalıdır. Hamilə olduqda isə doğuşa qədər iddə saxlamalıdır. Lakin, uşaq 4 ay 10 gün keçməzdən qabaq dünyaya gəlsə, ərinin ölümündən 4 ay 10 gün keçənə qədər davam etməlidir.

Məsələ 2152: Vəfat iddəsində olan qadın bəzəkli paltar geyməkdən, sürmə çəkməkdən, həmçinin zinət sayılan sair işlərdən çəkinməlidir.

Məsələ 2153: Əgər qadın ərinin dünyadan getməsinə yəqinliyi olsa və vəfat iddəsi saxlayıb ərə getsə, sonradan ərinin ölməsi məlum olsa, ikinci ərindən ayrılmalıdır və vacib ehtiyata əsasən, əgər hamilədirsə, tələq iddəsində deyildiyi kimi, ikinci əri üçün iddə saxlamalıdır və ondan sonra birinci əri üçün 4 ay 10 gün vəfat iddəsi saxlamalıdır. Əgər hamilə deyilsə, birinci əri üçün vəfat iddəsi və sonra ikinci əri üçün tələq iddəsi saxlamalıdır.

Məsələ 2154: Qadının əri qaib, yaxud qaib hökmündə olsa, vəfat iddəsinin başlanğıcı qadının ərinin ölümündən xəbərdar olduğu vaxtdan başlanır.

Məsələ 2155: Əgər qadın "mənim iddəm tamam olub" desə, qəbul edilməlidir. Bir şərtlə ki, töhmət mövqeyində olmamalı və vacib ehtiyata əsasən, e'timadlı olmalıdır.

Bain və ric'i tələğı

Məsələ 2156: Tələq iki qisimdir: Bain tələğı və ric'i tələğı. Bain tələğı odur ki, kişinin arvadına dönmək hüququ yoxdur (dönməkdə məqsəd budur ki, kişi əqdsiz olaraq arvadı ilə barışıb, onu yenidən arvadlığa qəbul etsin).

Bain tələğı da öz növbəsində 5 qismə bölünür: 1- Doqquz yaşı tamam olmayan qadının tələğı; 2- Yaisə qadının tələğı – yə'ni yaşı əllini keçsə; 3- Evləndikdən sonra əri onunla cinsi əlaqədə olmayan qadın; 4- Üç dəfə tələq verilən qadının üçüncü tələğı; 5- Xül' və mübarat tələğı. Bunların şərhi sonradan gələcək. Başqa tələqlar isə ric'i tələq adlanır və qadın iddədə olduğu zaman kişi ona dönə bilər.

Dönməyin hökmləri

Məsələ 2157: Əgər kişi arvadına ric'i tələğı versə, onu iddə zamanı yaşadığı evdən çıxarda bilməz (bəzi xüsusi hallarda istisnadır). Həmçinin, qadının özünə də lazımsız işlərdən ötrü evdən çölə çıxması haramdır.

Məsələ 2158: Ric'i tələqda kişi nikah siğəsi oxumadan arvadına dönə bilər. Dönmək iki qismdir: 1- Sözünün mə'nası o arvadı yenidən arvadlığa qəbul etmək olsun; 2- Həmin mə'nanı çatdıran bir iş görməlidir.

Məsələ 2159: Kişinin döndüyü zaman şahid tutması, yaxud arvada xəbər verməsi lazım deyil. Hətta heç kəsin başa düşmədiyi halda "arvadıma döndüm" desə, düzgündür.

Məsələ 2160: Əgər kişi arvadından bir malıb, tələqdan sonra ona dönməyəcəyinə, yaxud dönmək hüququna malik olmamasına razılaşsa, dönmək hüququ pozulmur.

Məsələ 2161: Bir şəxs arvadına ikinci dəfə tələq verib, sonra əqd etsə və yaxud yenidən ona dönsə (vacib ehtiyata əsasən, hər dəfə cinsi yaxınlıq

edib, heyz görüb, pak olduqdan sonra ona tələq versin), üçüncü dəfə ona tələq versə, o qadın ona haram olar; o qadın yalnız bir halda ona halal olacaq ki, iddə keçdikdən sonra başqa bir ərlə daimi əqd edib, onunla cinsi yaxınlıq etsin və sonra ona tələq verilsin. Belə bir halda iddədən sonra birinci ər onunla evlənə bilər.

Xül' tələğı

Məsələ 2162: Əri ilə yaşamağa rəğbəti olmayan bir qadın onların ər-arvadlığı davam etdikdə günaha düşmək qorxusu olsa, ona tələq vermək üçün öz mehriyyəsini və yaxud başqa malını ərinə bağışlaya bilər. Bu tələğa xül' tələğı deyilir.

Məsələ 2163: Vacib ehtiyata əsasən, xül' tələğqı siğəsi aşağıda qeyd edilən şəkildə olsun:

Əgər ər özü tələq siğəsini oxumaq istəsə və qadının adı məsələn, Fatimə olsa, deməlidir:

زَوجَتِی فَاطِمَةُ خالَعتُهَا عَلَی مَابَذَلَت هِیَ طَالِقُ

(Zəvcəti Fatimətu xalə'tuha əla mabəzələt hiyə taliq-

yə'ni, "arvadım Fatiməni verdiyi şeylər müqabilində xul' tələğı verdim və o azaddır.")

Əgər onun vəkili siğə oxumaq istəsə, vacib ehtiyata əsasən, bir nəfər qadın və bir nəfər də kişi tərəfindən vəkil olur, bu halda məsələn, ərin adı Məhəmməd, arvadın adı Fatimə olsa, qadının vəkili deyir:

عَن مُوَکِّلَتي فَاطِمَةَ بَذلتُ مَهرَهَا لِمُوَکِّلِي کَ مُحَمَّدٍ لِیَخلَعَهَا عَلَیهِ

(Ən muvəkkiləti Fatimətə bəzəltu məhrəha limuvəkkilikə Muhəmmədin liyəxlə'əha ələyhi)

Ondan sonra kişinin vəkili dərhal deməlidir:

زَوجَةُ مُوَکِّلِي خَالَعتُهَا عَلَی مَابَذَلَت هِیَ طَالِقُ

(Zəvcətu muvəkkili xalə'tuha əla ma bəzələt hiyə taliqun). (Əgər qadın mehriyyədən başqa şey ərinə bağışlasa, siğə oxuyan zaman onun adını çəkməlidir).

Mübarat tələğı

Məsələ 2164: Əgər ər-arvad bir-biri ilə yaşamaq istəməsə və qadın öz mehriyyəsini, yaxud başqa malı kişiyə tələq verməsi üçün bağışlasa, belə tələqa "mübarat tələğı" deyilir.

Məsələ 2165: Vacib ehtiyata əsasən, mübarat siğəsini aşağıda qeyd edilən qayda ilə oxumalıdırlar. Əgər ərin özü mübarat siğəsini oxumaq istəsə və arvadının adı məsələn, Fatimə olsa, deyir:

بَارَأتُ زَوجَتِی فَاطِمَةَ عَلَی مَابَذَلَت فَهِیَ طَالِقُ

(Barə'tu zəvcəti Fatimətə əla ma bəzələt fəhiyə taliq)

(Yə'ni, arvadım Fatiməyə, mehriyyəsinin müqabilində mübarat verdim (bir-birimizdən ayrıldıq) və o azaddır.) (Əgər mehriyyədən başqa bir şey verirsə adını çəkməlidir) və əgər kişinin vəkili siğəni oxumaq istəsə deməlidir:

بَارَأتُ زَوجَةَ مُوَكِّلِی فَاطِمَةَ عَلَی مَابَذَلَت فَهِیَ طَالِقُ

(Barə'tu zəvcətə muvəkkili Fatimətə əla ma bəzələt fəhiyə taliq)

Əlbəttə, qabaqcadan qadın öz mehriyyəsini və yaxud ondan az olan bir şeyi mübarat tələğı müqabilində ərinə bağışlamalıdır.

Məsələ 2166: Vacib ehtiyata əsasən, xül' və mübarat tələqlarının siğələri ərəb dilində düzgün oxunmalıdır. Lakin, qadın malını bağışlamaq üçün ərinə "Mənə tələq vermək üçün filan malı sənə bağışladım" desə, maneəsi yoxdur.

Məsələ 2167: Əgər qadın xul', yaxud mübarat tələğı əsnasında öz bağışladığı şeyi vermək fikrindən dönsə, əri əqd oxumadan yenidən onu özünə arvad edə bilər.

Məsələ 2168: Mübarat tələğı üçün ərin aldığı mal mehriyyədən çox olmamalıdır. Hətta vacib ehtiyata əsasən, (mehriyyədən) az olmalıdır. Ancaq xul' tələğında hər nə qədər olsa, eybi yoxdur.

Tələğın müxtəlif məsələləri

Məsələ 2169: Əgər bir kişi bir qadının öz arvadı olduğunu güman edib naməhrəm qadınla cinsi yaxınlıq etsə, onun əri olduğunu bilib-bilməməsindən asılı olmayaraq, həmin qadın iddə saxlamalıdır (tələq iddəsi qədər). Əgər kişi o qadının öz arvadı olmamasını və qadınsa onu öz əri bilirsə, bu halda da vacib ehtiyata əsasən, iddə saxlamalıdır.

Məsələ 2170: Əgər bir kişi bir qadını öz ərindən tələq alıb, onun arvadı olması üçün aldatsa, o qadına verilən tələq və əqd düzgündür. Lakin, hər ikisi böyük günah iş görmüşdür.

Məsələ 2171: Əgər qadın nikah əsnasında ərin, məsələn, (uzunmüddətli) səfərə getdiyi, narkotik maddələrə qurşanıb narkoman olduğu, yaxud onun xərcini vermədiyi halda tələğın ixtiyarı onun əlində olmasını şərt etsə, bu şərt batildir. Lakin, o, əri tərəfindən vəkil olub, hər vaxt bu işləri yerinə yetirsə, özünə tələq verməsini şərt etsə, bu vəkalət düzgündür və belə bir halda özünə tələq vermək hüququ var.

Məsələ 2172: Ərindən heç bir xəbər olmayan qadın ərinin ölüb-ölməmədiyini bilmədiyi halda tələq alıb ərə getmək istəsə, adil müctəhidin yanına getməli və şəriətdə qeyd edilən xüsusi hökmlərə uyğun əməl etməlidir.

Məsələ 2173: Dəlinin atası və yaxud atasının atası, onun arvadına məsləhət olduğu halda tələq verə bilərlər. Azyaşlı uşağın vəlisi (hansı ki, onun üçün daimi arvad əqd etmişdir) vacib ehtiyata əsasən, ona tələq verə

bilməz. Amma onun üçün müvəqqəti arvad əqd ediblərsə məsləhət olduğu halda müddətin qalan hissəsini bağışlaya bilərlər.

Məsələ 2174: Əgər bir şəxs iki nəfəri adil bilib arvadına onların yanında təlaq versə və başqaları onları adil bilmirlərsə, vacib ehtiyata əsasən, o arvadı özünə və yaxud başqasına əqd etməməlidir. Lakin, onların ədalətli olmasında şəkk etsə, maneəsi yoxdur.

QƏSB

Məsələ 2175: İnsanın zülm ilə bir şəxsin malınıa, yaxud haqqını ələ keçirməsinə qəsb deyilir. Bu da böyük günahlardan biri sayılır və bu işi görən şəxs Qiyamət günündə ağır əzaba düçar olacaq. İslam peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayat olunub ki, hər kəs bir qarış torpağı başqasından qəsb etsə, Qiyamət günü o torpağı onun **7** təbəqəsi ilə boyunbağı kimi onun boynundan asacaqlar.

Məsələ 2176: Əgər bir şəxs camaatı məscid, mədrəsə, körpü və kütlənin istifadəsi üçün tikilən sair yerlərdən istifadə etməyə qoymasa, onların haqqını qəsb etmişdir. Habelə, bir şəxs məscid və başqa yerlərdə özünə yer tutub, başqası ondan istifadə etməyin qarşısını alsa (qəsb sayılır).

Məsələ 2177: Qanunsuz olaraq müsəlmanların beytül-malına hakim olmaq qəsb sayılır və qəsbin bütün hökmlərinə malikdir və bəzi cəhətdən məs'uliyyəti çoxdur.

Qəsbin hökmləri

Məsələ 2178: Bir şəxsin yanında girov (rəhn) qoyulan malı başqası qəsb etsə, malın sahibi və onu tələb edən şəxslərin hər ikisi malı ondan tələb edə və əgər aradan gedibsə, əvəzini ala bilərlər. O əvəz girov qoyulmuş malın əvəzi olacaq.

Məsələ 2179: Qasib (qəsb edən) şəxsin qəsb etdiyi malı tez bir zamanda sahibinə qaytarması vacibdir və yubatdığı qədər onun üçün çox günah yazılır və tələf olduğu halda onun əvəzini verməlidir.

Məsələ 2180: Əgər qəsb etdiyi maldan bir qazanc ələ gətirsə, məsələn, qəsb edilmiş bir qoyundan bir quzu dünyaya gəlsə və yaxud qəsb edilmiş bağda meyvə yetişsə, qasib şəxs zəhmət çəkmiş olsa da belə, o mülkün hamısı mal sahibinindir. Əgər bir şəxs bir evi qəsb etsə, evdən istifadə etməsə də belə, evin onun öhdəsində olduğu müddətin icarə haqqını adətə uyğun olaraq ödəməlidir. Avtomobil və s. mallar da bu hökmlə eynidir.

Məsələ 2181: Əgər bir şəxs uşaq və yaxud dəlidən bir malı qəsb etsə, onu onun vəlisinə qaytarmalıdır. Əgər uşaq və yaxud dəlinin özünə qaytarsa və (o mal) aradan getsə, zamindir.

Məsələ 2182: Əgər iki və daha çox adam bir malı birlikdə qəsb etsələr, onlardan hər biri malın bir hissəsinə zamindirlər. Onu təkbaşına qəsb edə bilib-bilməyəcəyindən asılı olmayaraq, (əgər iki nəfər olsalar hər biri yarısına, əgər üç nəfər olsalar, hər biri üçdə birinə zamindirlər).

Məsələ 2183: Əgər qəsb etdiyi mal başqa bir şeyə qarışsa, onları ayırmaq mümkündürsə, zəhməti çox olsa da belə, ayırıb sahibinə qaytarmalıdır. Əgər onu əlçatmaz bir yerdə qoyubsa, malı sahibinə çatdırmaq üçün çəkilən bütün xərclər qasibin öhdəsindədir.

Məsələ 2184: Əgər qəsb etdiyi qabı və s. xarab etsə, onu hasil olan qiymət fərqi ilə sahibinə qaytarmalıdır. Əgər (qiymət) fərqini vermək istəməsə və o malı əvvəlki kimi düzəldirəm desə, malik onu qəbul etməyə məcbur deyil və həmçinin, malik qasibi onu əvvəlki kimi düzəltməyə məcbur edə bilməz və yalnız qiymət fərqini ala bilər.

Məsələ 2185: Əgər qəsb etdiyi malda dəyişikliklər aparıb onu əvvəlkindən yaxşı (formaya) salsa, məsələn qəsb edilmiş qızıldan sırğa və boyunbağı düzəltsə, əgər mal sahibi, onu mənə həmin formada ver, desə, verməlidir və zəhmətinə görə muzd ala bilməz və hətta malikin icazəsi olmadan onu əvvəlki formasına qaytara bilməz. Əgər onun icazəsi olmadan qızılı əvvəlki formasına qaytarsa, vacib ehtiyata əsasən, qiymət fərqini verməlidir.

Məsələ 2186: Əgər qasib bir malda bə'zi dəyişikliklər aparıb onu əvvəlkindən yaxşı (formaya) salsa lakin, mal sahibi xüsusi bir məqsədlə, onu əvvəlki formasına salmasını istəsə, bu işi görmək vacibdir. Əgər onda bir eyib yaranmaqla qiyməti əvvəlkindən azalarsa, onun qiymət fərqini sahibinə verməlidir.

Məsələ 2187: Əgər qəsb edilmiş bir torpaqda əkinçilik etsə, yaxud ağac əksə, əkin, ağac və onun meyvələri qasib şəxsindir, lakin qəsb etdiyi torpağın, əkinin və ağacın onda olduğu müddətinin icarə haqqını sahibinə verməlidir. Habelə, iş əsnasında torpaq sahibi o torpaqda əkin və ağacın qalmasına razı olmasa, ona zərər dəyəcəyindən asılı olmayaraq, qasib tez onları yerdən çıxarmalıdır və əgər yerdə bir qüsur tapılsa, qiymət fərqini verməlidir. Qasib torpaq sahibini torpağı ona satmağa, icarə verməyə məcbur edə bilməz və həmçinin, torpaq sahibi qasibi əkin və yaxud ağacı ona satmağa məcbur edə bilməz.

Məsələ 2188: Əgər qəsb etdiyi mal aradan getsə və o şey az tapılan olsa, məsələn, bə'zi heyvanlar və ya əldə toxunulan xalçalar kimi olsa onun qiymətini verməlidir. Əgər onun qiyməti dəyişibsə, tələf etdiyi günə uyğun olaraq qiymətini verməlidir. Əgər buğda, arpa, fabrik xalçası və parçası və zavodda düzəldilən qablardan olsa və adətən onların oxşarı çoxdursa, qəsb etdiyi şeyin oxşarını verməlidir. Veriləcək mal tələf olan malın xüsusiyyətlərinə malik olmalıdır.

Məsələ 2189: Əgər qoyun kimi bir heyvan qəsb edildikdən sonra aradan getsə, belə ki, onun yanında olduğu vaxtda kökəldikdən sonra aradan gedibsə, onun kökəlmə vasitəsi ilə qiymət artımını da verməlidir.

Məsələ 2190: Əgər qəsb olunan malı başqa bir qasib birinci qasibdən alsa və o mal aradan getsə, ehtiyata əsasən, mal sahibi malın əvəzinin verməsini hər ikisindən tələb etməlidir.

Məsələ 2191: Əgər bir batil müamilə baş tutsa, məsələn, çəki ilə alınıb-satılmalı olan bir malı çəkisiz müamilə etsələr, nə alıcı malın və nə də satıcı qiymətin sahibi olmur. Lakin, hər ikisi müamiləni nəzərə almadan, bir-birlərinin malında təsərrüf etməyə razı olsalar, eybi yoxdur, əks təqdirdə, həmin mal qəsb edilmiş mal kimidir, onu qaytarmalıdırlar. Əgər birinin malı digərinin əlində tələf olsa, müamilənin batil olub-olmamasını bilib-bilməmədiklərindən asılı olmayaraq, onun əvəzini verməlidirlər.

Məsələ 2192: Əgər satıcıdan bir malı bəyəndiyi təqdirdə alacağı üçün alıb baxdıqda o mal tələf olsa, vacib ehtiyata əsasən, onun əvəzini sahibinə verməlidir.

İTİRİLMİŞ MALLAR

İtirilmiş malların hökmləri

Məsələ 2193: İnsan sahibini tanımaq üçün heç bir əlaməti olmayan bir itirilmiş malı tapsa (100 tuman əskinas və yaxud qızıl sikkə kimi), vacib ehtiyata əsasən, onu sahibi tərəfindən sədəqə verməlidir. Əgər özü sədəqə almağa müstəhəqdirsə, götürə bilər, əgər əhəmiyyətli maldırsa, ehtiyata əsasən, şəriət hakimindən icazə almalıdır.

Məsələ 2194: Əgər tapdığı malın bir əlaməti varsa və qiyməti bir dirhəmdən (bir dirhəm 12/6 noxud gümüş sikkəyə bərabərdir) azdırsa, sahibi mə'lum olduqda onun razılığı olmadan dirhəmi götürə bilməz; sahibi mə'lum olmasa götürüb yiyələnə və ondan istifadə edə bilər və tələf olduğu halda əvəzini verməsi lazım deyil. Belə ki, yiyələnmə qəsdi olmadığı halda, onun təqsiri olmadan tələf olsa, əvəzini vermək lazım deyil.

Məsələ 2195: Vacib ehtiyata əsasən, Məkkə hərəmində bir dirhəm və yaxud ondan çox olan bir dəyərdə bir şey tapsa götürməsin.

Məsələ 2196: Tapdığı malın əlaməti varsa və qiyməti bir dirhəm və yaxud ondan çoxdursa, onu bir il ərzində e'lan etməlidir (belə ki, tapdığı gündən bir həftə hər gün, ilin sonuna qədər isə həftədə bir dəfə cəmiyyət arasında e'lan etsə kafidir). O malın müsəlmana və yaxud müsəlmanların amanında yaşayan kafirə aid olmasından asılı olmayaraq, e'lan etmək vacibdir.

Məsələ 2197: Əgər şifahi e'lan etmək əvəzinə e'lanı yazılı olaraq camaatın gediş-gəliş mərkəzində yapışdırsa və oranın əksər camaatı savadlı olsa və yaxud savadlı şəxslər onu bisavadlar üçün oxusalar, bir il ərzində e'lan orada qalsa kafidir.

Məsələ 2198: Əgər bir il sona yetməzdən öncə onun sahibini tapmaqdan ümidsiz olsa və yaxud əvvəldən onun sahibini tapmağa

ümidi olmasa, vacib ehtiyata əsasən, o malı həqiqi sahibi tərəfindən fəqirə verməlidir.

Məsələ 2199: Əgər müqəddəs hərəmlərin birində və ya məscidlərdə tapılan əşyalar üçün bir yer tə'yin etsələr və camaat itirdikləri malı tapmaq üçün ora müraciət etməli olduqlarını bilsələr və o yerin idarəçiləri e'timadlı adamlar olsalar, itirilmiş malı ora təhvil vermək kafidir və onlar bir il onu saxlamalıdırlar və əgər onun sahibi tapılamasa, sonrakı məsələyə uyğun əməl etməlidirlər. Əgər bəzi məntəqələrdə itirilmiş əşyalar üçün belə bir yer nəzərdə tutulub və camaatın ondan xəbəri varsa, itirilmiş malı o yerə təhvil verməklə e'lan etmək vəzifəsi camaatın öhdəsindən götürülür.

Məsələ 2200: Əgər bir il ərzində e'lan etdikdən və yaxud e'lan edilən bir yerdə saxlanıldıqdan sonra malın sahibi tapılmasa, tapan şəxs dörd işdən birini yerinə yetirməkdə azaddır:

1- Hər vaxt sahibi tapılsa, mal mövcud olmadığı halda onun əvəzini ona verəcəyi məqsədi ilə onu özü üçün götürsün; **2**- Əmanət kimi malı onun üçün saxlasın; **3**- Allah yolunda sahibi tərəfindən sədəqə versin; **4**- Onu şəriət hakiminin öhdəsində qoysun və müstəhəb ehtiyat, sədəqə vermək və yaxud müctəhidin öhdəsində qoymaqdır.

Məsələ 2201: Əgər bir il e'lan etdikdən sonra malın sahibi tapılmasa və malı əmanət kimi onun sahibi üçün saxlasa və mal aradan getsə, beləki, əgər onu qorumaqda səhlənkarlıq etməyibsə və yaxud ifrata varmayıbsa zamin deyil; əgər sahibi tərəfindən sədəqə versə və sahibi tapıldıqdan sonra sədəqə verməyə razı olmasa, onun əvəzini verməlidir.

Məsələ 2202: Həddi-büluğa yetməyən bir uşaq bir mal tapsa, vacib ehtiyata əsasən, onun vəlisi e'lan etməlidir. Belə ki, bir il ərzində onun sahibi tapılmasa, ötən dörd göstərişə əsasən, uşağın məsləhətinə uyğun əməl etməlidir.

Məsələ 2203: Əgər e'lan etdiyi il əsnasında mal tələf olsa, zamin deyil. Əgər onun qorunmasında səhlənkarlı edib və yaxud ifrata varıbsa istisnadır.

Məsələ 2204: Əgər bir malı tapsa və öz malı olduğunu güman edib götürsə, sonra onun özününkü olmadığını başa düşsə, onu götürdüyü yerdə qoya bilməz və ötən göstərişlərə əsasən, bir il ərzində e'lan

etməlidir. Əgər öz ayağı ilə ona təkan versə, bu işin iradlı olmasına baxmayaraq, bu hökmə aid olmur.

Məsələ 2205: E'lan etdikdə əlamətləri aydın olmayan halda deməlidir. Əgər bir nəfər gəlib onun əlamətlərini desə və malın onunku olmasına əmin olsa, ona verməlidir. Lakin, əksər hallarda hətta mal sahibinin də diqqət yetirmədiyi əlamətləri deməsi lazım deyil.

Məsələ 2206: Əgər qiyməti bir dirhəm və yaxud ondan da çox olan bir malı tapsa, belə ki, e'lan etməyib onu məsciddə və yaxud camaatın toplaşdığı yerdə qoyduqdan sonra tələf olsa və yaxud başqası onu götürsə, onu ilk dəfə tapan şəxs zamindir.

Məsələ 2207: Əgər qaldıqda xarab olan bir mal tapsa, bə'zi qida maddələri və meyvələr kimi, onu xarab olmadığı vaxta qədər saxladıqdan sonra onun qiymətini müəyyən edib, özü onu istifadə etsə və yaxud satsa, pulunu saxlamalıdır və sahibi tapılmasa onun tərəfindən sədəqə verməlidir. Müstəhəb ehtiyata əsasən, əgər şəriət hakiminə əli çatırsa, ondan icazə alsın.

Məsələ 2208: Əgər tapdığı malı dəstəmaz aldıqda və yaxud namaz qıldıqda özü ilə yanaşı saxlasa və məqsədi bu yolla onu qoruyub, onun haqqında şəriət hökmlərinə əməl etmək olsa eybi yoxdur.

Məsələ 2209: Əgər bir şəxsin ayaqqabısını aparıb yerinə başqa bir ayaqqabı qoysalar, belə ki, qalan ayaqqabının onun ayaqqabısını aparan şəxsin olduğunu və bu işin bilərəkdən baş verdiyini bilsə və o şəxs əlçatmaz olsa, o ayaqqabını öz ayaqqabısı yerinə götürə bilər və şəriət hakiminə əli çatdığı halda ondan icazə almalıdır. Əgər onun qiyməti ayaqqabısının qiymətindən çox olsa, onun sahibi tapıldığı zaman, artıq qiyməti ona verməlidir. Əgər onu tapmaqdan ümidsiz olsa, əlavə (qiyməti) sahibi tərəfindən sədəqə verər. Lakin, əgər qalan ayaqqabı onun ayaqqabısını aparan şəxsin olmadığına ehtimal versə və yaxud əmin olsa, onun sahibini tapmaqdan ümidsiz olsa, onu sədəqə verməlidir.

Məsələ 2210: Əgər bir dirhəmdən dəyəri az olan malı tapıb məsciddə və yaxud başqa bir yerdə qoysalar və ona diqqət yetirməsələr, başqası onu götürsə, onun üçün halaldır.

Məsələ 2211: Tapılmış əşyanın həqiqi sahibi tərəfindən Allah yolunda sədəqə verildiyi hallarda onu seyid və qeyri-seyidə vermək olar; o şəxs özü də müstəhəq olsa, götürə bilər.

HEYVANLARIN BAŞININ KƏSİLMƏSİ VƏ OVLANILMASI

Məsələ 2212: Əgər əti halal olan bir hevanın ev və yaxud çöl (vəhşi) heyvanı olmasından asılı olmayaraq, sonradan deyiləcək şərtlərə uyğun başını kəssələr, onun ətini yemək halaldır. Lakin insanın cinsi yaxınlıq etdiyi heyvanın və hətta balasının da əti haramdır. Həmçinin nəcis yeyən heyvanın hökmü də yuxarıdakı ilə eynidir. Əgər ona şəriətdə qeyd edilən göstərişlərə uyğun pak yemək verib, pak etsələr, istisnadır.

Məsələ 2213: Əti halal olan çöl heyvanı, məsələn, ceyran, dağ keçisi, kəklik və s. və habelə, əti halal olan ev heyvanı çöl heyvanı olduqda, məsələn, inək, dəvə fərari olub, çöl heyvanına çevrilsə, əgər onu silah vasitəsi ilə (sonradan qeyd edilən göstərişlərə uyğun olaraq) ovlasalar, halaldır. Lakin əti halal ev heyvanını ovladıqda halal olmur; əhilləşdirilərək ev heyvanına çevrilən əti halal çöl heyvanı da eyni hökmə malikdir.

Heyvanların başının kəsilməsi və ovlanılmasının hökmləri

Məsələ 2214: Əti halal olan çöl heyvanı qaçmağa taqəti olduğu halda ovlanıldıqda halal olur. Belə olan halda qaça bilməyən ceyran və kəklik balası ovlanılmaqla halal olmur.

Məsələ 2215: Balıq kimi atıcı qanı olmayan halal ətli heyvanın özü suda ölsə pakdır lakin, onun əti haramdır.

Məsələ 2216: İlan kimi atıcı qanı olmayan heyvan başı kəsilməklə halal olmur, lakin cəsədləri pakdır.

Məsələ 2217: Başları kəsilmək və şikar edilməklə it, donuz halal olmur və onların əti də haramdır. Əti haram olan yırtıcı və ət yeyən heyvanlar, məsələn, canavar, pələng kimi, deyilən göstərişlərə uyğun başları kəsilsə, yaxud ovlanılsa pakdır, lakin onun əti halal deyil və əgər ov iti ilə də onu ovlasalar, eyni hökmə malikdir.

Məsələ 2218: Fil, ayı, buzinə, siçan və s. eləcə də ilan, kərtənkələ və bu kimi yerin altında yaşayan və atıcı qanı olan heyvan təbii olaraq ölsə murdardır, lakin onların başını kəssələr və yaxud ovlasalar pakdır.

Məsələ 2219: Əgər diri heyvanın qarnından ölü bala gəlsə və yaxud çıxartsalar, onun əti haramdır.

Heyvanların başını kəsmək qaydası

Məsələ 2220: Heyvanın başını kəsdikdə əgər hülqum və boyunun iki böyük damarını tam şəkildə kəssələr kafidir. Lakin, müstəhəb ehtiyata əsasən, dörd böyük damarını yə'ni, boyunun iki böyük damarı və əlavə

olaraq hülqum (nəfəs borusu), qida borusu boğazın altında olan çıxıntıdan kəsilməlidir.

Məsələ 2221: Əgər bu damarlardan bə'zilərini kəsib heyvanın ölməsinə qədər səbr edib sonra qalan (damarları) kəssələr faydasızdır. Hətta bu qədər səbr etməsələr də, təbii olaraq damarları ardıcıl kəsməsələr, heyvan diri olsa da belə, iradı var.

Məsələ 2222: Əgər canavar qoyunun boğazını, baş kəsildikdə kəsilməli olan damarlardan heç nə qalmadığı halda qopartsa, o heyvan haram olur. Lakin, o damarlar sağlam və qoyun diri olsa, onun, qeyd edilən qaydalara əsasən, başını kəssələr, halaldır. Həmçinin, əgər bir heyvanın qeyri-şəriət hökmlərinə əsasən, başı kəsilsə pakdır, amma onun ətini yemək haramdır. Bu baxımdan qeyri-islami ölkələrdən gələn heyvanların başlarının kəsilməsini bilsək, dəri və gönləri pakdır.

Heyvanların başının kəsilməsinin şərtləri

Məsələ 2223: Heyvanın başının kəsilməsinin beş şərti var:

1-Ehtiyat vacibə əsasən, başı kəsən müsəlman olmalıdır, nasibilər-Peyğəmbərin (səlləllahu əleyhi və alihi vəsəlləm) Əhli-beyti (ə) ilə düşmən olanlar kafir hökmündədirlər;

2-Heyvanın başı dəmir və yaxud başqa filizdən olan iti cisimlə kəsilməlidir. Lakin, heyvanın başını kəsməyə ehtiyac olduqda, dəmir tapılmasa və yaxud heyvanın başı kəsilmədikdə öləcəksə, hər bir iti şeylə (şüşə, daş, iti taxta) damarlarını kəsmək mümkün olsa, onun başını kəsmək olar;

3-Başı kəsən zaman heyvanın bədəni qibləyə tərəf olmalıdır və bilərəkdən qibləyə tərəf tutmasalar heyvan haram olur. Lakin unutqanlıq, məsələni bilməzlikdən və yaxud qiblənin səhv salınması nəticəsində heyvanı qibləyə tərəf tutmayıb başını kəssələr haram deyil;

4-Başını kəsən zaman Allahın adı çəkilməlidir. "Bismillah" "Subhanəllah", "La ilahə illəllah" deyilsə, kafidir və bunu hər bir dildə də (demək) caizdir. Lakin, baş kəsmək qəsdi olmadan Allahın adını desə, kafi deyil və unutqanlıq üzündən Allahın adını deməsə eybi yoxdur;

5-Başı kəsiləndən sonra heyvan hərəkət etməlidir. Heyvanın diri olması gözünü, quyruğunu tərpətmək, ayağını yerə döyməklə mə'lum olmalıdır. Vacib ehtiyata əsasən, ondan qan kifayət qədər axmalıdır.

Məsələ 2224: Heyvanın başını kəsən kişi, qadın və yaxud heyvanın başını kəsmək qaydalarını bilən həddi-büluğa yetməyən uşaq ola bilər. Lakin, kişi olduğu halda qadın və uşaqları bu işdən çəkindirmək yaxşıdır.

Məsələ 2225: Texniki cihazlarla heyvanların başını kəsmək, şəriətə uyğun şərtləri baş kəsmək bəhsində qeyd edilənlərə uyğun olsa, caizdir və belə bir heyvan pak və halaldır.

Məsələ 2226: Əgər bir neçə toyuq və yaxud heyvanı birgə kəssələr, bir dəfə "bismillah" demək kafidir. Həmçinin, cihazla vahid bir zamanda çoxlu heyvanın başını kəssələr (digər şərtlərlə malik olmaqla), bir "bismillah" (demək) kifayət edir və əgər cihaz daim hərəkətdədirsə, ehtiyata əsasən, hər dəfə Allahın adı çəkilməlidir.

Dəvəni öldürmək qaydası

Məsələ 2227: Dəvəni öldürmək üçün heyvanların başlarının kəsilməsində qeyd edilən beş şərtdən əlavə, bıçaq və dəmirdən olan kəsici şeyi, boyunun aşağısında olan çuxur yerə batırsınlar. Bu işə "nəhr" deyilir. Bə'zi rəvayətlərə əsasən, dəvənin ayaq üstə olması yaxşıdır. Dizlərini yerə vurduğu və yaxud böyrü üstə uzandığı halda bədəninin qabağı qibləyə tərəf olsa, bıçağı boyunun aşağısında olan çuxura batırsalar, bunun da iradı yoxdur.

Məsələ 2228: Əgər dəvəni nəhr etmək əvəzinə başını kəssələr və yaxud qoyunun, inəyin başını kəsmək əvəzinə nəhr etsələr, onların əti halal deyil. Lakin, bu işdən sonra heyvan diri olsa və tez onu şəriət göstərişlərinə uyğun öldürsələr əti haladır.

Məsələ 2229: Əgər heyvan inadkar olsa və onu şəriətdə müəyyən olan göstərişlərə əsasən kəsə bilməsələr, yaxud quyuya düşüb ölməsi ehtimal edilsə və şəriətdəki qaydalara əsasən kəsilməsi mümkün olmasa, bıçaq kimi kəsici bir şeylə bədənini yaralasalr və həmin yaralanma nəticəsində can versə halaldır və üzü qibləyə olması lazım deyil. Lakin, heyvanların başının kəsilməsi haqqında deyilən sair şərtlərə malik olmalıdır.

Heyvan kəsəndə müstəhəb və məkruh olan şeylər

Məsələ 2230: Bə'zi rəvayətlərə əsasən, heyvan kəsəndə bir neçə şey müstəhəbdir:

1-Qoyunun başını kəsən zaman əl-ayağını açıq saxlamalı, inəyin əl-ayağını bağlamalı, dəvəni öldürdükdə iki əlini aşağıdan və yaxud qoltuğunun altından bir-birinə bağlamalı, ayaqlarını isə açıq saxlamalı və toyuğun başını kəsdikdən sonra qol-qanad vurması üçün azad buraxmalıdırlar;

2-Heyvanı öldürən şəxs üzü qibləyə tərəf olsun;

3-Heyvanı kəsməzdən öncə qabağına su qoymalıdırlar;

4-Heyvanın əziyyət çəkməməsinə çalışmalıdırlar, məsələn, sür'ətlə başını kəsməlidirlər.

Məsələ 2231: Müstəhəb ehtiyata əsasən, ruhu çıxmazdan öncə başını bədənindən ayırmasınlar. Bu baxımdan, heyvanları kəsmək üçün başını tamamilə ayıran cihaz hazırlasalar, haram olmur, baxmayaraq ki, başı tamamilə ayırmasa, yaxşıdır. Hər bir halda, cihazla kəsildikdə bütün şərtlərə riayət edilməlidir. Həmçinin, müstəhəb ehtiyata əsasən, heyvanın onurğa

sümüyündə olan haram (onurğa) beynini can verməzdən öncə kəsməsinlər və heyvanın dərisini ayırmasınlar.

Məsələ 2232: Bə'zi rəvayətlərə əsasən, heyvanın başını kəsməkdə bir neçə şey məkruhdur:

1-Bıçağı heyvanın hülqumunun arxasına basıb qabağa tərəf gətirirlər ki, hülqum arxadan kəsilsin;

2-Heyvanı başqa heyvan gördüyü yerdə kəsmək;

3-Gecə vaxtı və yaxud cümə zöhründən qabaq heyvanın başını kəsmək, lakin ehtiyac duyulduğu halda eybi yoxdur;

4-İnsanın öz əli ilə bəslədiyi heyvanı kəsməsi.

Məsələ 2233: Günümüzdə heyvanların başını kəsməyin asan olması, hissiz olub, rahatcasına və yaxud cihaz vasitəsi ilə başlarını kəsmək üçün bə'zən onlara şok verirlər. Bu iş, şokdan sonra heyvan diri qalacağı halda iradsızdır.

Silahla heyvanın şikar edilməsinin şərtləri

Məsələ 2234: Əgər əti halal olan çöl heyvanını silah ilə ovlasalar **5** şərt ilə halal olur:

1-Qılınc, bıçaq, xəncər kimi kəsici silahlar və yaxud güllələrinin iti olub-olmamasından asılı olmayaraq, tüfəng və s. olmalıdır; heyvanın bədənini parçalamalı və ordan qan axmalıdır. Əgər heyvanı tora salmaqla, çubuq, daş və s. kimi şeylərlə şikar etsələr haramdır. Amma ona diri halında çatdıqdan sonra tutub başını şəriət qaydalarına əsasən kəssələr, haram olmaz.

2-Vacib ehtiyata əsasən, şikarçı müsəlman, yaxud yaxşı-pisi başa düşən müsəlman uşağı olmalıdır.

3-Silahı heyvanı şikar etmək üçün işlətsin. Amma məsələn, başqa yeri nişan aldıqdan sonra təsadüfən heyvana dəyib öldürsə, o heyvanın ətini yemək haramdır.

4-Silahı işə salanda Allahın adını desin. Amma unutsa, eybi yoxdur.

5-Heyvana çatanda ölmüş olsa, yaxud diri olsa da başını kəsmək qədər vaxt olmasa. Əgər baş kəsmək qədər vaxt olsa və heyvanın başını kəsməkdə səhlənkarlıq etdiyindən ölsə, haramdır.

Şikarın hökmləri

Məsələ 2235: Əgər iki nəfər bir heyvanı şikar etsələr, biri müsəlman, digəri kafir olsa və yaxud biri Allahın adını desə, digəri bilərəkdən deməsə, vacib ehtiyata əsasən, o heyvan haramdır.

Məsələ 2236: Əgər bir heyvanı güllə ilə vurduqdan sonra suya düşsə və onun güllə və suya düşmək vasitəsi ilə öldüyünü bilsə, halal deyil. Habelə, əgər yalnız güllə (ölüb-ölməmədiyində) şəkk etsə halal deyil.

Məsələ 2237: Əgər qəsb edilmiş silah və yaxud itlə bir heyvanı ovlasa, şikar halaldır və onun malı hesab edilir. Lakin günah etmişdir, silah və yaxud itin icarə pulunu sahibinə verməlidir.

Məsələ 2238: Şikar etmək düzgün olan silah və yaxud qılıncla, əvvəldə deyilən şərtlərə uyğun, bir heyvanı iki parça edib, baş-boyun bir tərəfdə qalsa, əgər heyvan öləndən sonra çatsa və həmçinin diri olub, lakin başını kəsməyə vaxt az olsa, hər iki tərəf halaldır. Amma başı kəsməyə vaxt varsa, baş olmayan tərəf haramdır və baş olan tərəf şəriət hökmlərinə əsasən kəsilsə halaldır.

Məsələ 2239: Əgər şikar etmək düzgün olmayan üsulla, məsələn, tora salma, çubuq, daş və s. vasitə ilə bir heyvanı iki parça etsə, baş-boyun olmayan tərəf hər bir halda haramdır. Amma baş-boyun olan tərəf əgər diri olsa və onun başını şəriət göstərişlərinə uğun kəssələr halaldır.

Məsələ 2240: Bir heyvanın başını kəssələr və yaxud şikar edib qarnından diri bala çıxartsalar, əgər o balanın şəriət qaydalarına əsasən başını kəssələr halal, əks təqdirdə isə haramdır. Amma bala anasını şikar etmək və yaxud başını kəsməklə ölsə, onun qarnında ölsə halaldır, bir şərtlə ki, bala kamil şəkildə formalaşmış olmalı, bədənində tük, yun çıxmalıdır.

Ov itləri ilə şikar etməyin şərtləri

Məsələ 2241: Əgər ov iti ilə əti halal olan çöl heyvanını ovlasalar, bu heyvan **5** şərtlə halal olar:

1-İt elə əhilləşdirilməlidir ki, ov dalınca göndəriləndə getsin, göndərilməyəndə getməsin. İtin ov etmək üçün əhilləşdirilməsi kifayət edir və hətta gözü şikara düşdükdə özü hərəkət edib, ova tərəf getsin. Lakin vacib ehtiyata əsasən, sahibi çatmazdan öncə ovu yeməyə adət edibsə, onun ovundan pəhriz edilməlidir. Amma bə'zən ovu və yaxud yalnız qanını yeyirsə eybi yoxdur.

2-İti göndərən şəxs vacib ehtiyata əsasən, müsəlman və yaxud yaxşı-pisi ayıra bilən müsəlman uşağı olmalıdır. Peyğəmbərin (s) Əhli-beytinə (ə) düşmənçilik edən şəxs müsəlman deyil və onun ovu iradlıdır.

3-İti göndərən və yaxud hərəkət edən zaman Allahın adını çəkməlidir, lakin unutqanlıq üzündən deməsə eybi yoxdur. İti göndərməzdən öncə Allahın adını çəkmək lazım deyil, əksinə it ova çatmazdan öncə Allahın adını desə halaldır.

4-Şikar itin dişindən aldığı yara nəticəsində ölsün. Bu baxımdan, əgər it ovunu boğsa, çox qaçmaqdan və yaxud qorxudan ölsə halal deyil.

5-İti göndərən şəxs şikar öləndən sonra çatsa və yaxud diri olsa, lakin başını kəsməyə vaxt olmasa, əgər baş kəsmək qədər vaxt olan bir zamanda çatsa, məsələn, gözünü tərpədir, ayağını yerə döyürsə, heyvanın başını şəriət göstərişlərinə əsasən kəsməlidirlər, əks təqdirdə haramdır.

Ov itləri ilə şikar etməyin hökmləri

Məsələ 2242: İti göndərən şəxs heyvanın başını kəsə biləcək bir vaxtda çatsa, lakin bıçağı olmasa və yaxud bıçağı tapmağa müəyyən vaxt lazım olsa, əgər heyvan ölsə vacib ehtiyata əsasən, ətindən çəkinmək lazımdır.

Məsələ 2243: Əgər bir neçə iti ov dalınca göndərsələr, onların hamısı yuxarıda deyilən şərtlərə malik olsa, şikar halaldır. Əgər onlardan bə'ziləri bu şərtlərə malik olmasa, şikar haramdır.

Məsələ 2244: Əgər əhilləşdirilmiş iti bir heyvanın dalınca göndərsələr, lakin o başqa heyvanı şikar etsə, eybi yoxdur; həmçinin, o heyvanı başqa bir heyvanla birgə şikar etsə, hər ikisi halaldır.

Məsələ 2245: Əgər bir neçə nəfər bir iti göndərsələr və onlardan biri kafir olsa və yaxud adətən Allahın adını çəkmirsə və yaxud bir neçə iti göndərsələr və onların biri əhilləşdirilməmiş olsa, vacib ehtiyata əsasən, o şikarın ətindən pəhriz etmək lazımdır.

Məsələ 2246: Əgər ov itindən başqa şahin və ov quşu bir heyvanı şikar etsə, o şikar halal deyil. Amma əgər heyvanın diri olduğu vaxt çatıb, şəriət qaydalarına əsasən başını kəssələr, halaldır.

Balıq ovu

Məsələ 2247: Halal balıq, pulunun az və yaxud çox, böyük və yaxud kiçik olmasından asılı olmayaraq, pullu balıqdır. Hətta pulu zəif olan, torda tutulan zaman tökülən balıqlar da halaldır. Əgər mikroskop və bu kimi s. cihazlarla göürünsə, lakin camaat ona pul deməsə faydasızdır.

Məsələ 2248: Əgər balığı suda diri tutduqdan sonra sudan xaricdə ölsə pak və halaldır. Hətta suda olan torda belə ölsə, halaldır.

Məsələ 2249: Əgər balıq sudan kənara düşsə, yaxud dalğalar onu kənara atsa, yaxud da su çəkilsə və balıq quruda qalıb ölsə, haramdır. Lakin ölməmişdən qabaq bir kəs onu əl ilə, yaxud başqa vasitələrlə tutduqdan sonra ölsə halaldır.

Məsələ 2250: Balığı tutan şəxsin müsəlman olması, onu götürən vaxt Allahın adını deməsi lazım deyil. Lakin, onu sudan diri tutması və yaxud tora düşdükdən sonra ölməsi mə'lum olmalıdır.

Məsələ 2251: Əgər balıq müsəlman bazarından və yaxud müsəlman şəxsdən alınsa, hətta onu sudan diri tutmaları mə'lum olmasa belə, halaldır və axtarış aparmaq da lazım deyil. Lakin kafirdən alınsa və balığın diri tutulub-tutulmaması, tora diri düşüb-düşməməsi mə'lum olmasa haramdır.

Məsələ 2252: Diri kiçik balıqları yeməyin iradı var. Əgər zəruri halda dərman kimi istifadə edilsə də iradı var.

Məsələ 2253: Əgər diri balığı kabab etsələr, yaxud sudan kənarda, can verməmişdən qabaq öldürsələr, yeyilməsinin eybi yoxdur.

Məsələ 2254: Əgər balığı sudan xaricdə iki yerə bölsələr, bir hissəsi diri halda suya düşüb ölsə, sudan kənarda qalan hissəni yeməyin iradı var.

Məsələ 2255: Krevet (meyqu) suda yaşayan halal heyvanlardandır. Amma quruda yaşayan, lakin balıq adı qoyulan səmənqur balığı haramdır. Əgər zəruri halda dərman kimi istifadə edilsə, istisnadır.

YEMƏLİLƏR VƏ İÇMƏLİLƏR

Halal və haram ətli heyvanlar

Məsələ 2256: Ev inəyinin, qoyununun, dəvəsinin və habelə çöl inəyinin, qoyununun, keçisinin, eşşəyinin, ceyranının ətini yemək halal, atın, qatırın və ulağın ətini yemək məkruh, ümumilikdə yırtıcı heyvanların və həmçinin fil, dovşan və həşaratların əti haramdır.

Məsələ 2257: Caynaqlı quşların, göydə uçarkən qanad çalmayan və yaxud qanad çalmaları süzmələrindən az olan quşların əti haramdır. Lakin qanad çalan quşların, yaxud qanad çalmaları süzmələrindən çox olan quşların, məsələn, göyrçin növləri, kəklik, qırqovul ətləri halaldır. Şanapipik quşunun əti isə məkruhdur.

Məsələ 2258: Əgər diri heyvanın bir hissəsini ayırsalar, quyruğu və əti olmasından asılı olmayaraq, onu yemək haramdır.

Əti halal olan heyvanların haram üzvləri

Məsələ 2259: Əti halal olan heyvanlarda (vacib ehtiyata əsasən, onların bə'zilərində) on dörd şey haramdır:

1-Qan; 2- Toxumluq; 3- Dişi heyvanın cinsi orqanı; 4-Uşaqlıq; 5- Vəzi; 6- Ağ ət; 7- Başın beyin nahiyəsində noxud formasında olan kiçik toxum; 8- Fəqərə sütunu arasında olan haram ilik; 9- Boyunun iki tərəfində yerləşən və fəqərə sütununa qədər uzanan damar; 10- Öd kisəsi; 11- Dalaq; 12- Sidik kisəsi; 13- Göz bəbəyi; 14- Böyük heyvanların dırnağı arasında olan hissə. Ərəblər buna "Zatul-şac'" deyir. Amma sərçə kimi kiçik heyvanalarda bunu ayırd etmək və yaxud ayırmaq mümkün olmadığı üçün yeyilməsinin iradı yoxdur.

Haram yeməlilər və içməlilər

Məsələ 2260: İnsanın təbiətinə zid olan çirkili, igrənc şeyləri (heyvanların fəzləsi, burun suyu və s.), pak olmasından aslı olmayaraq, yemək haramdır.

Məsələ 2261: Torpaq və gili yemək haramdır. Lakin, Seyyidlər ağası həzrət İmam Hüseynin (ə) türbətindən (bir noxuddan az) şəfa məsədi ilə yeməyin işkalı yoxdur. Həmçinin, müalicə üçün Dağıstan və İrəvan gilini yemək, əgər əlacı yalnız bunları yeməkdə olsa, caizdir.

Məsələ 2262: İnsana ciddi zərər vuran şeyi yeyib-içmək haramdır. Siqaret çəkmək və müxtəlif tütün məmulatları, xüsusi ilə, narkotik maddələr, iynə ilə vurulmasından, tüstü kimi çəkilməsindən, yeyilməsindən və hər bir vasitə ilə olmasından aslı olmayaraq, mütləq şəkildə haramdır. Həmçinin, istehsalı, alqı-satıqısı və onun yayılmasına göstərilən hər bir dəstək, haramdır.

Məsələ 2263: Əgər bir inək, qoyun və dəvə ilə yaxınlıq etsələr, onların ətlərinin haram olmasılndan əlavə, vacib ehtiyata əsasən, sidik və qaitləri nəcis, südlərini içmək isə haramdır. O heyvanların başı kəsilməli, leşləri yandırılmalıdır. Onlarla yaxınlıq edən şəxs pulunu sahibinə verməlidir.

Məsələ 2264: Şərab içmək haram və böyük günahlardan biridir və bə'zi rəvayətlərdə ən böyük günahlardan sayılmışdır. Onu halal bilən şəxs şərabı halal bilməyin Allahı, Peyğəmbəri (s) danmaq olduğunu bilsə, kafirdir. İmam Sadiqdən (ə) belə nəql edilib: "Şərab pisliklərin kökü, günahların mənşəyidir; şərab içən şəxs ağlını itirir və o halda Allahı tanımır və heç bir günahdan qorxusu olmur, heç kəsin ehtiramını saxlamır, yaxın qohumlarının hüquqlarına riayət etmir, aşkar pisliklərdən üz döndərmir; iman və allahşünaslıq ruhu ondan xaric olur və Allahın rəhmətindən uzaq olan bir ruh bədənində qalır; Allah, mələklər, peyğəmbərlər, mö'minlər ona lə'nət edir, qırx günə qədər namazı qəbul olmur və Qiyamət günü üzü qara olar!"

Məsələ 2265: Şərabdan məqsəd məstedici içkilərdir və pivə də onlardan biri sayılır və hətta bir damla və ondan da az şərab içmək haramdır.

Məsələ 2266: İçki düzülmüş süfrə kənarında əyləşməklə insan onlardan biri sayılarsa, orada oturmaq və yeməklərin halal olmasından asılı olmayaraq, bir şey yemək haramdır.

Məsələ 2267: Susuzluq və aclıqdan ölüm ərəfəsində olan müsəlman şəxsə çörək, su verib onu ölümdən xilas etmək hər bir müsəlmana vacibdir.

Yemək yeməyin müstəhəb və məkruh əməlləri

Məsələ 2268: Yemək halında bir neçə işi yerinə yetirmək, savab qəsdi ilə müstəhəbdir: **1**-Yemək yeməzdən öncə hər iki əli yumaq; **2**-Yemək yedikdən sonra da əlini yuyub dəsmalla qurulasın; **3**-Ev sahibi qonaqlardan öncə yemək yeməyə başlasın və hamıdan sonra əlini yeməkdən çəksin; **4**-Yemək yediyi zaman "Bismillah" sonunda isə "Əlhəmdulillah" desin. Əgər süfrədə müxtəlif çeşidli yemək varsa, onların hər birini yedikdə "Bismillah" desin; **5**-Sağ əli ilə yemək yesin; **6**-Əgər bir neçə nəfər bir süfrə kənarında yemək yeyirlərsə, hər biri qarşısına qoyulan yeməkdən yesin; **7**-Kiçik loğma götürsün; **8**-Tələsərək yemək yeməsin, uzun fasilə ilə yemək yesin və yeməyi yaxşı çeynəsin; **9**-Yeməkdən sonra xilal edib, yemək qırıntılarını dişlərinin dibindən təmizləsin və ağzını yusun; **10**- Yemək qırıntılarını kənara atmasın, səhrada yemək yediyi zaman yemək qalıqlarını quşlar və heyvanlar üçün saxlasın; **11**- Gün ərzində iki dəfə - günün və gecənin əvvəlində yemək yesin;**12**- Yeməyin əvvəl və axırında düz yesin; **13**- Bütün meyvələri yeməzdən öncə yusun; **14**- İmkan daxilində süfrəsinin kanarında qonağı olsun.

Məsələ 2269: Aşağıda qeyd edilən əməllər yemək halında məkruhdur:

1-Tox halda yemək yemək; **2**-Çox yemək; Nəql edilmişdir ki, Allahın hamıdan çox qarını dolu olan şəxslərdən xoşu gəlmir; **3**-Yemək halında başqalarının üzünə baxmaq; **4**-Yeməyi qaynar halda yemək; **5**-Yediyi, içdiyi şeyə üfürmək; **6**- Çörək süfrəyə qoyulduqdan sonra nəyinsə yolunu gözləmək; **7**- Bıçaqla çörəyi kəsmək; **8**-Çörəyi qabın altında qoymaq və ona edilən hər bir ehtiramsızlıq; **9**- (Qabığı ilə yeyilən) meyvələrin qabığını soymaq; **10**- Meyvəni tam yemədiyi halda uzağa atmaq.

Su içməyin müstəhəb və məkruh əməlləri

Məsələ 2270: Su içən zaman bir neçə iş tövsiyə edilmişdir: **1**-Suyu sovuraraq içsin; **2**- Gündüz ayaq üstə su içsin; **3** Su içməzdən öncə "Bismillah" və içdikdən sonra isə "Əlhəmdulillah" desin; **4**-Suyu bir nəfəsə yox, üç nəfəsə içsin; **5**-Suyu meyli olan halda içsin; **6**- Su içəndən sonra İmam Hüseyn (ə) və onun ailəsini xatırlasın və onun düşmənlərinə lə'nət oxusun.

Məsələ 2271: Rəvayətlərdə su içmək barədə bir neçə şey qadağan edilmişdir: **1**- Çox içmək; **2**-Yağlı yeməkdən sonra su içmək; **3**- Gecə ayaq üstə su içmək; **4**-Sol əl ilə su içmək; **5**- Kuzənin sınıq yerindən və yaxud qulp tərəfindən içmək.

NƏZİR VƏ ƏHD

Məsələ **2272:** İnsanın Allaha xatir xeyir bir işi öz öhdəsinə götürməsi və ya bəyənilməyən bir işi tərk etməsi nəzir adlanır.

Məsələ **2273:** Nəzirin iki növü var: şərtlə yerinə yetirilən nəzir (məsələn, bir şəxs deyir ki, xəstəm sağalsa, Allaha xatir filan işi öhdəmə götürürəm; belə bir nəzir şükür nəziri adlanır; ya da insan pis işi yol verəcəyi təqdirdi Allaha xatir xeyir bir iş görəcəyini öhdəsinə götürür); ikinci növ nəzir mütləq nəzirdir. Mütləq nəzir edən şəxs heç bir qeyd-şərtsiz deyir: "Mən Allaha xatir nəzir edirəm ki, gecə namazı qılım." Yuxarıda göstərilən şəkillərdə nəzir düzgün nəzirdir.

Nəzir və əhdin şərtləri və hökmləri

Məsələ 2274: Nəzir bu işdən ötrü siğə oxunduğu vaxt düzgün sayılır. Bu siğə həm ərəbcə, həm də başqa dillərdə ola bilər. Əgər bir şəxs "filan istəyim yerinə yetsə Allaha xatir fəqirə filan qədər mal verməyi öhdəmə götürürəm" söyləsə, onun nəziri düzgündür. Nəzir edən şəxs söyləsə ki, filan istəyim yerinə yetsə Allaha xatir filan işi yerinə yetirərəm, kifayət edər.

Məsələ 2275: Nəzir o zaman düzgün sayılır ki, nəzir edən büluğ həddinə çatmış, ağıllı şəxs olsun. Məcburi şəkildə, əsəbi halda edilən nəzir düzgün deyil.

Məsələ 2276: Malını boş yerə sərf edən səfeh adamın, eləcə də, müflis olduğu üçün şər'i hakim tərəfindən malına qadağa qoyulmuş şəxsin həmin maldan nəzir etməsi düzgün sayılmır.

Məsələ 2277: Əgər qadının nəzri onun ərinin hüquqlarını pozarsa, onun icazəsiz nəzri batildir. Əgər ərinin hüquqlarını pozmazsa, müstəhəb ehtiyat budur ki, ərinin icazəsi ilə nəzir etsin.

Məsələ 2278: Əgər qadın lazım gəldiyi halda ərinin icazəsi ilə nəzir edərsə, əri vacib ehtiyata əsasən onun nəzrini poza bilməz və ya bu nəzirin qarşısını ala bilməz.

Məsələ 2279: Övlad nəzir etmək üçün atasından icazə almaya bilər. Amma ediləcək nəzir ataya əziyyət olarsa, belə bir nəzir düzgün sayılmaz.

Məsələ 2280: Yalnız yerinə yetirilməsi mümkün olan işləri nəzir etmək mümkündür.

Məsələ 2281: İnsanın nəzir etdiyi iş şər'ən bəyənilməlidir. Beləcə, haram və ya məkruh işlərin görülməsini, vacib və ya müstəhəb işlərin tərk edilməsini nəzir etmək düzgün deyil.

Məsələ 2282: Nəzir ediləcək işini bütün xırdalıqlarının bəyənilməsi zəruri deyil. Əgər iş özü şər'ən bəyənilirsə, bu bəs edir. Məsələn, nəzir edilərsə ki, hər ayın ilk gecəsi gecə namazı qılınacaq, bu nəzir düzgündür və ona əməl edilməlidir. Əgər nəzir edilsə ki, yoxsullara müəyyən bir yerdə təam veriləcək, həmin nəzirə deyildiyi şəkildə əməl olunmalıdır.

Məsələ 2283: Yerinə yetirilməsi və ya tərk olunması eyni dərəcədə mübah olan bir işi nəzir etmək mümkün deyil. Amma həmin işi yerinə yetirmək və ya tərk etmək müəyyən bir baxımdan daha yaxşıdırsa, həmin məqsədlə nəzir etmək olar. Məsələn, nəzir edilsə ki, ibadətə qüvvə olması üçün bir şey yeyiləcək və ya ibadətdə süstlük yaranan bir qida tərk olunacaq, bu nəzir düzgündür.

Məsələ 2284: Bir şəxs nəzir etsə ki, oruc tutacaq, amma onun vaxtını və miqdarını müəyyənləşdirməsə, bir gün oruc tutsa bəs edər. Eləcə də, miqdarı və necəliyi müəyyənləşdirilmədən namaz qılmaq nəzir edilsə, iki rəkət namaz qılmaq bəs edər. Digər xeyir işlərin nəziri də belədir.

Məsələ 2285: Bir şəxs nəzir etsə ki, müəyyən bir gün oruc tutacaq, vacib ehtiyat budur ki, həmin gün səfərə çıxmasın və orucunu tutsun. Əgər həmin gün səfərə çıxsa nəzir etdiyi orucun qəzasını tutması vacibdir. Vacib ehtiyat budur ki, kəffarə də versin.

Məsələ 2286: Bir şəxs imkan olan halda nəzirini yerinə yetirməsə günaha yol vermişdir və kəffarə də ödəməlidir. Nəzirin kəffarəsi **60** fəqiri doyurmaq, ya iki ay ardıcıl oruc tutmaq, ya da bir qul azad etməkdir.

Məsələ 2287: Əgər bir şəxs müəyyən bir əməli müəyyən vaxtadək tərk edəcəyini nəzir edərsə, həmin müddət ötdükdən sonra həmin işi yerinə yetirə bilər. Vaxt tamam olmamış yaddan çıxardığı üçün və ya məcburi şəkildə həmin işi görsə, günah etməmişdir. Amma nəzərdə tutulan vaxtadək həmin işi görməməsi lazımdır. Bir şəxs üzürsüz səbəbdən nəzirini pozub həmin işi görərsə, ötən məsələdə deyildiyi kimi kəffarə verməlidir.

Məsələ 2288: Bir şəxs müəyyən bir əməli daimi olaraq tərk edəcəyini nəzir edərsə və vaxt müəyyənləşdirməzsə, ixtiyari şəkildə nəzrini pozduqda birinci dəfə kəffarə verir. Əgər nəziri elə bir şəkildə olarsa ki, hər dəfə uyğun əməli yerinə yetirdikdə nəzirdən sayılsın, hər dəfə kəffarə ödəmək vacib ehtiyatdır. Belə bir məqsəd olmasa və ya bu işi məqsədlə gördüyünə şəkk etsə, bir kəffarə bəs edir.

Məsələ 2289: Əgər hər həftənin müəyyən günü (məsələn, cümə günü) oruc tutmaq nəzir edilərsə, cümələrdən biri fitr və qurban bayramına düşdükdə, eləcə də, heyz kimi bir üzür olduqda, oruc tutmamalı, ehtiyatən, həmin orucun qəzasını yerinə yetirməlidir.

Məsələ 2290: Əgər bir şəxs müəyyən miqdarda pul sədəqə verməyi nəzir edərsə, sədəqəni verməmiş öldükdə onun malından həmin miqdarda sədəqə verilməlidir.

Məsələ 2291: Əgər müəyyən bir fəqirə sədəqə vermək nəzir olunarsa, həmin sədəqəni başqa fəqirə vermək olmaz və həmin fəqir ölərsə, ehtiyata əsasən, sədəqə onun varisinə verilməlidir.

Məsələ 2292: Əgər imamlardan birinin, məsələn, imam Hüseynin (ə) ziyarətinə getmək nəzir olunsa, başqa bir imamın ziyarətinə getmək bəs etmir. Üzürlü səbəbdən imamın ziyarətinə gedə bilməsə, eybi yoxdur.

Məsələ 2293: Ziyarətə getməyi nəzir etmiş şəxs ziyarət qüslü verməyi və namaz qılmağı nəzir etməmişsə, bu işləri görməsi vacib deyil.

Məsələ 2294: Əgər imam və ya imamzadələrdən birinin hərəmi üçün bir şey nəzir edilərsə, həmin şey hərəmə sərf olunmalıdır. Tə'mir işləri, xalı-xalça, işıqlandırma, hərəmə xidmət bu qəbildəndir. Amma hərəmin adını çəkmədən imam və ya imamzadə üçün bir şey nəzir olunarsa, həmin şeyi adı çəkilən işlərlə yanaşı əzadarlıq və anım mərasimlərinə, həmin şəxslərlə bağlı əsərlərin nəşrinə, onların ziyarətçilərinə sərf etmək olar.

Məsələ 2295: Nəzir olunmuş qoyunun yunu, çəkisindəki artım da nəzirdən sayılır. Nəzir olunmuş qoyun balalayarsa və ya süd verərsə, vacib ehtiyata əsasən balası və südü də nəzirə sərf olunmalıdır.

Məsələ 2296: Bir şəxs xəstəsinin sağalması, səfərdə olan yaxın bir insanın sağ-salamat geri qayıtması üçün xeyir bir iş nəzir edərsə, nəzir edənədək xəstəsi sağalsa və ya səfərdə olan yaxın adamı qayıtsa, həmin nəzirə əməl etməsi vacib deyil.

Məsələ 2297: Ata və ya ana qızını seyidə ərə verməyi nəzir edərsə, bu nəzir e'tibarlı sayılmır. Büluğ həddinə çatmış qızın ixtiyarı özündədir.

Məsələ 2298: Nəziri yerinə yetirmək vacib olduğu kimi əhdə də əməl etmək vacibdir. Bir şərtlə ki, əhd siğəsi oxunmuş olsun. Məsələn, deyilir: "Allahla əhd edirəm ki, filan xeyir işi görüm." Amma siğə oxunmasa və ya nəzərdə tutulan iş şər'ən bəyənilməsə, əhd e'tibarsız sayılır.

Məsələ 2299: Əgər bir şəxs yuxarıda qeyd olunan şərtlər daxilində əhdinə əməl etməsə, kəffarə verməlidir. Əhdin də kəffarəsi nəzirin kəffarəsi

kimidir. Yə'ni **60** fəqiri doyurmaq, **2** ay ardıcıl oruc tutmaq və ya bir qul azad etmək. (**2** ay orucun **31** günü ardıcıl tutulur).

AND İÇMƏK

And içməyin şərtləri

Məsələ 2300: Bir şəxs aşağıdakı şərtlər ödənməklə and içərsə, andına əməl etməlidir. Əks təqdirdə kəffarə ödəməsi vacibdir.

1. And içən şəxs büluğ həddinə çatmış və ağıllı olmalıdır. Öz malı ilə bağlı and içən şəxs səfeh olmamalıdır. Şər'i hakim bir şəxsə malını sərf etməyi qadağan edərsə, həmin şəxs malı ilə bağlı and içə bilməz. And məqsədli və könüllü olmalıdır. Bu səbəbdən də uşağın, ağılsız şəxsin və məcbur edilənin andı düzgün sayılmır. Bir şəxs əsəbləşərək istəksiz və məqsədsiz and içərsə düzgün deyil.

2. Andda nəzərdə tutulan iş haram və məkruh olmamalıdır. Vacib və ya müstəhəb bir işi tərk etməklə bağlı and içmək olmaz. Mübah bir işi yerinə yetirməklə bağlı and içilərsə, bu işin tərk edilməsi yerinə yetirilməsindən üstün sayılmamalıdır. Eləcə də mübah bir işi tərk etməklə bağlı and içildikdə həmin işin yerinə yetirilməsi tərk olunmasından üstün sayılmamalıdır.

3. Allahın adlarından birinə and içmək olar. Bu ad təkcə Allaha məxsus "Allah" adı və ya başqa ünvanlara da işlənən adlardan ola bilər. Sadəcə deyiləndən mə'lum olmalıdır ki, nəzərdə Allah tutulub. Amma bir şəxs Allahı nəzərdə tutmadan and içdikdə onun Allaha and içdiyi düşünülərsə, vacib ehtiyata əsasən, həmin anda əməl etməlidir.

4. And dilə gətirilməlidir. Andı qəlbdən keçirmək bəs etmir. Yazı ilə anda ehtiyatən əməl olunmalıdır. Amma lal adam işarə ilə and içə bilər.

5. Andın düzgün olması üçün onun yerinə yetirilməsi düzgün sayılır. Bir şəxs mümkün olmayan iş üçün and içib, sonra aciz qalarsa və ya məşəqqətə düşərsə, uyğun vəziyyət yaranan andan andı pozulur.

Andın hökmləri

Məsələ 2301: Əgər ata övladına and içməyi qadağan edərsə və ya ər öz arvadının and içməsinə mane olarsa, onların ad içməsi düzgün deyil. Övlad atadan, qadın ərdən icazəsiz and içdikdə onların andı düzgün sayılmır.

Məsələ 2302: Bir şəxs bilərəkdən andını pozarsa kəffarə verməlidir. Andı pozmağın kəffarəsi **10** yoxsulu doyurmaq və ya onlara libas verməkdir. Kəffarə olaraq bir qul da azad etmək olar. Bu kəffarələri yerinə yetirməyə qadir olmasa **3** gün oruc tutmalıdır.

Məsələ 2303: Bir şəxs unutqanlıqdan, çarəsizlikdən və ya məcburi olaraq andına əməl etməsə, kəffarəsi yoxdur. Vasvası adamın andı, məsələn "and

olsun Allaha, indi namaza başlayıram” deməsi və vasvasılıq səbəbindən ixtiyarsız olaraq andını yerinə yetirməməsinin kəffarəsi yoxdur.

Məsələ 2304: Bir şəxs müəyyən mövzunun isbatı üçün and içərsə, dediyi söz düzgün olduqda and içməsi məkruhdur. Əgər yalan desə, andı haramdır və kəbirə günah sayılır. Amma müsəlman bir şəxs zalımın şərindən qurtulmaq üçün and içə bilər. Hətta belə bir and vacibdir. Belə bir and öncəki andlardan fərqlənir.

VƏQF

Vəqfin hökmləri və şərtləri

Məsələ 2305: Bir şəxs öz mülkündən nəyisə vəqf etsə, (ümumi istifadə üçün mülkündən çıxarsa) nə özü, nə də başqaları həmin şeyi sata, bağışlaya bilməz, həmin şeydən irs verilməz. Amma 1786-cı məsələdə deyildiyi kimi, bə'zi hallarda bu şeyi satmaq olar.

Məsələ 2306: Vəqf siğəsini ərəbcə və ya başqa bir dildə demək olar. Məsələn, "evini filan məqsədlə vəqf edirəm" deyilsə bəs edər. Bu halda qəbula ehtiyac yoxdur. Həmin vəqf ümumi və ya xüsusi ola bilər. Amma müstəhəb ehtiyat budur ki, şər'i hakim ümumi vəqfdə və şəxslər onlara olunan vəqfdə qəbul siğəsi desinlər.

Məsələ 2307: Əgər müsəlmanlara vəqf məqsədi ilə məscid tikilsə və onların ixtiyarına verilsə, dildə siğə olunmasa belə bəs edər.

Məsələ 2308: Bir mülk vəqf üçün ayrılsa və vəqf siğəsi oxunmazdan öncə, həmin mülk vəqf edilənlərə verilməmişdən qabaq, vəqf edən şəxs peşiman olsa və ya ölsə, həmin vəqf düzgün deyil.

Məsələ 2309: Bir malı vəqf edən şəxs müstəhəb ehtiyat budur ki, vəqf siğəsi oxuduğu anda vəqf etmiş olsun. Amma mal həmişəlik vəqf olunmalıdır. Bir şəxs desə ki, bu malı ölümümdən sonra üçün vəqf edirəm, iradı var. Nəyisə müəyyən müddətə, məsələn, **10** illik vəqf etmək də eyiblidir. Vəqf daimi olmalı, siğə oxunduğu andan həyata keçməlidir.

Məsələ 2310: Vəqf o zaman düzgün olur ki, vəqf edilən mal vəqf olunanlara və ya onların vəkilinə verilsin. Amma məscid və mədrəsə kimi ümumi vəqflərdə onun təhvil verilməsi şərt deyil. Müstəhəb ehtiyat budur ki, vəqf siğəsi oxunduqdan sonra mal vəqf edilənlərə və ya onların vəkilinə verilsin.

Məsələ 2311: Vəqf edən şəxs büluğ həddinə çatmış, ağıllı, məqsədli və azad olmalıdır. Vəqf edən şəxsin öz malı üzərində istifadə haqqı olmalıdır. Səfeh, şər'i hakim tərəfindən malına qadağa qoyulmuş borclu şəxs öz malından nəisə vəqf edə bilməz.

Məsələ 2312: Hələ ki, dünyaya gəlməmiş şəxslər üçün vəqf etmək düzgün deyil. Amma vəqf edilənlərdən bə'ziləri dünyaya gəlmişsə və bə'ziləri dünyaya gəlməmişsə, (məsələn, övladlara vəqf) sonradan dünyaya gələnlər də həmin vəqfə şərikdir.

Məsələ 2313: Bir şəxs özünə vəqf edə bilməz. (Məsələn, bir mülkü yalnız öz istifadəsi və ya ölümündən sonra məqbərəsinə xərc üçün ayıra bilməz.) Amma özü də tələbə olan şəxs mədrəsə və ya əkin sahəsini tələbələrə vəqf edə bilər. Bu halda özü də başqaları kimi həmin vəqfdən istifadə edə bilər.

Məsələ 2314: Əgər vəqf olunmuş şey üzərində nəzarətçi tə'yin olunsa, onun göstərişi əsasında əməl edilməlidir. Əgər tə'yin olunmasa, bu işi şər'i hakim görməlidir. Xüsusi vəqfdə isə (məsələn, övladlara vəqf olunmuş mülk) növbəti nəslin mənfəətini nəzərə almaq üçün mövcud nəsil və şər'i hakimin razılıqla nəzarətçi tə'yin etməsi ehtiyatdır. Vəqf təkcə mövcud nəslə aiddirsə, onlar ixtiyar sahibidirlər. Bu nəsil büluğ həddinə çatmamışsa, ixtiyar onların qəyyumlarının əlindədir.

Məsələ 2315: Xüsusi vəqfdə (məsələn, övlada vəqfdə) sahib mülkü icarəyə verib dünyasını dəyişsə, icarə vəqf və gələcək nəsillərin xeyrinə olarsa, icarə batil deyil. Amma vəqf edən olmasa və birinci nəsil mülkü icarəyə versə, icarə müddətində dünyasını dəyişdikdə növbəti nəslin icarə üçün icazəsinə ehtiyac var. İcarəçi bütün müddət icarə haqqını ödəsə belə, birinci nəslin ölümündən sonra sonrakı nəslin haqqı alınıb ona verilir. (Bir şərtlə ki, onlar icarəyə icazə versinlər.)

Məsələ 2316: Əgər vəqf edilmiş mülk yararsız vəziyyətə düşsə, yenə vəqf sayılır.

Məsələ 2317: Mülkün bir hissəsini vəqf etmək olar. Evin və ya əkin sahəsinin bir hissəsini vəqf etdikdə şər'i hakim və ya sahib vəqf olunmuş malı mütəxəssislərin nəzarəti altında ayıra bilər.

Məsələ 2318: Əgər vəqfi yerinə yetirməli olan şəxs ümumi vəqfə xəyanət etsə, onu tə'yin olunmamış yerə sərf etsə, şər'i hakim e'tibarlı bir qəyyum tə'yin edə bilər. Xüsusi vəqfin qəyyumu xəyanət etsə, şər'i hakim mövcud nəslin razılığı ilə onlara qəyyum ayıra bilər.

Məsələ 2319: Hüseyniyyə üçün vəqf olunmuş xalçanı məsciddə namaz üçün istifadə etmək olmaz. Xalçanın Hüseyniyyəyə aid olub-olmaması bilinməsə də, onu başqa yerə aparmaq düzgün deyil. Vəqf olunmuş digər mallar da belədir. Hətta bir məscidin möhürünü o birinə aparmaq olmaz.

Məsələ 2320: Əgər məscidin tə'miri üçün bir mülk vəqf olunduqda (mülkün qazancı) həmin məscidin tə'mirə ehtiyacı yoxsa və yaxın vaxtlarda ehtiyac olacağı ehtimal edilmirsə, mülkün qazancını digər məscidlərin tə'mirinə sərf etmək olar.

Məsələ 2321: Mülkün vəqfində məqsəd budursa ki, onun qazancını məscidin tə'mirinə, imam-camaata, azançıya xərcləsinlər, hansı üçün nə qədər nəzərdə tutulmuşsa, həmin məbləğ də sərf olunmalıdır. Əgər miqdar müəyyən edilməmişsə, qəyyumun nəzəri əsasında məsləhət olan şəkildə addım atılmalıdır.

Məsələ 2322: Dövrümüzdə təsis olunan, qeydə alınmış və hüquqi şəxs sayılan müəssisə və cəmiyyətlər üçün mülk ayırmaq olar. Bu halda əsasnaməyə uyğun hərəkət edilməlidir. Bu qəbil müəssisələrin mal-mülkü vəqfə bənzəyir. Amma bu vəqf deyil. Həmin mülk müəssisənin malıdır. Müəssisə və ya təşkilatı idarə edən şəxs dünyasını dəyişərsə, həmin mal varisə çatmır. Amma əsasnamədə belə bir şərt qoyularsa, varisə irs çatar. Qeyd edilən qaydalar məsləhət əsasında təşkil olunmuş, amma hələ ki, rəsmən qeydiyyata alınmamış müəssisələrə də aiddir.

VƏSİYYƏT

Məsələ 2323: Vəsiyyət dedikdə insanın öz ölümündən sonra müəyyən işlərin görülməsini tapşırması nəzərdə tutulur. Belə vəsiyyət "əhdiyyə" adlanır. Kəfən, dəfn yeri və mərasimlərlə bağlı vəsiyyət bu qəbiləndir. Ya da deyə bilər ki, onun ölümündən sonra malından nəyisə, kiminsə mülkiyyətinə versinlər. Övladı üçün qəyyum da müəyyənləşdirə bilər.

Məsələ 2324: Vəsiyyət etmək istəyən kəs söz və ya yazı ilə məqsədini açıqlaya bilər. Danışmağa və ya yazmağa qadir olmasa, məqsədini işarə ilə çatdırmaqla vəsiyyət edə bilər.

Məsələ 2325: Vəsiyyətdən əlavə bütün müamilələri bu günki qaydada yazıb imzalaya bilər. Amma evlənmək və boşanmada yazmaqla kifayətlənmək iradlıdır.

Vəsiyyət edənin şərtləri

Məsələ 2326: Vəsiyyət edən şəxs büluğ həddinə çatmış və ağıllı olmalıdır. Yaxşını pisdən seçə bilən on yaşlı uşaq məscid, mədrəsə və xəstəxana tikintisi, eləcə də qohumları üçün münasib və ağılabatan vəsiyyət etsə düzgündür. Vəsiyyət edən şəxs səfeh olmamalıdır. Şər'i hakimin qadağa qoyduğu maldan vəsiyyət etmək olmaz. Şəxs məqsədli və azad şəkildə vəsiyyət etməlidir.

Vəsiyyətin hökmləri

Məsələ 2327: Bir şəxs intihar məqsədi ilə özünü yaralasa və ya zəhərli maddə içsə, mal-mülkü ilə bağlı vəsiyyət edib öldükdə onun vəsiyyəti düzgün sayılmır.

Məsələ 2328: Bir şəxs vəsiyyət etsə ki, malından kiməsə nə isə verilsin, ölümündən sonra nəzərdə tutulan mal həmin şəxsə məxsus olur. Belə bir vəsiyyətin qəbul edilməsinə ehtiyac yoxdur. Amma vəsiyyət edən şəxs həyatda olduğu vaxt qarşı tərəf vəsiyyəti rədd edərsə, ehtiyat budur ki, həmin mal sərf olunmasın.

Məsələ 2329: Özündə ölüm əlamətlərini görən şəxs dərhal xalqın əmanətlərini sahibinə qaytarmalıdır. Əgər borc vaxtı çatmışsa, borcunu ödəməli, borcu ödəmək vaxtı çatmamışsa bu barədə vəsiyyət etməlidir. Əgər vəsiyyətinə əməl edəcəyinə əmin deyilsə, şahid tutmalıdır. Amma vərəsənin borcu ödəyəcəyinə əmin olduqda vəsiyyət etmək lazım deyil.

Məsələ 2330: Özündə ölüm nişanələri görən şəxs dərhal xüms və zəkat kimi borclarını ödəməlidir. Ödəyə bilməsə öz malından və ya öz malı olmadıqda yaxınları tərəfindən borcun ödənməsi ilə bağlı vəsiyyət edir. Əgər öhdəsində vacib Həcc, qəza namazı və orucu varsa, vacib ehtiyata

əsasən, bu barədə vəsiyyət etməlidir. (Bu barədə icarə namazı və orucu haqqında danışılarkən açıqlama verildi.)

Məsələ 2331: Özündə ölüm nişanələri görən şəxsin kimdəsə malı olarsa və ya haradasa bir şey gizlədərsə, bundan xəbərsiz vərəsələrin haqqının tapdanmaması üçün bu barədə mə'lumat verməlidir. Əgər sağır övladları qalarsa, onların haqqının pozulmaması üçün e'tibarlı qəyyum müəyyənləşdirməlidir.

Məsələ 2332: Vəsiyyət edilən şəxs "vəsiyy" adlanır. İnsan vacib ehtiyata əsasən müsəlman, büluğ həddinə çatmış, ağıllı və e'tibarlı şəxsə vəsiyyət etməlidir.

Məsələ 2333: Bir şəxs özünə bir neçə vəsiyy müəyyənləşdirərsə, onların hər birinə müstəqil ixtiyar verildikdə vəsiyyətin yerinə yetirilməsi üçün bir-birlərindən icazə almaları vacib deyil. Əgər belə bir icazə olmazsa (vəsiyyət edərsə ki, bütün vəsilər birlikdə əməl etsin) vəsiyyətin yerinə yetirilməsində vəsilər bir-birləri ilə razılaşmalıdır. Bir araya gələ bilmədikdə vəsiyyətin yubanmaması üçün şər'i hakimə müraciət edilir.

Məsələ 2334: İnsan öz vəsiyyətini dəyişərsə (məsələn, əvvəlcə malının üçdə birini kiməsə vəsiyyət edir, sonra fikrindən daşınır) vəsiyyət batil olur. Eləcə də, vəsiyyətində öz sağır övladına qəyyum tə'yin edib, sonra fikrini dəyişərsə, vəsiyyəti batildir. Vəsiyyət edən şəxs vəsiyyət etdiyi malla bağlı elə bir iş görərsə ki, vəsiyyətini dəyişdiyi mə'lum olsun (məsələn, vəsiyyət etdiyi evi satır) öncəki vəsiyyət batildir.

Məsələ 2335: Əgər əvvəlcə bir şeyi müəyyən şəxsə vermək vəsiyyət edilərsə, sonradan həmin şeyin yarısının başqa bir şəxsə verilməsi vəsiyyət olunarsa, nəzərdə tutulan şey iki hissəyə bölünməli və hər tərəfə yarısı verilməlidir.

Məsələ 2336: Ölüm xəstəliyində olan şəxs malının bir hissəsini bir şəxsə bağışlasa və vəsiyyət etsə ki, öləndən sonra həmin malın bir miqdarını başqa birinə versinlər, nəzərdə tutulan ümumi miqdar malın üçdə birindən çox olarsa, ehtiyata əsasən vərəsədən icazə alınmalıdır.

Məsələ 2337: Bir şəxs vəsiyyət etsə ki, malının üçdə birini saxlayıb ondan gələn gəliri sərf etsinlər, bu vəsiyyətə əməl olunmalıdır.

Məsələ 2338: Bir şəxs ölüm xəstəliyində ikən bir şəxsə müəyyən miqdarda borclu olduğunu desə, vərəsələrə zərər vurmaqda ittiham olunduğu vaxt həmin miqdar malının üçdə birindən hesablanmalıdır. Belə bir ittiham olmazsa, həmin miqdar malın özündən çıxılır.

Məsələ 2339: Malın vəsiyyət olunduğu şəxs həyatda olmalıdır. Sonradan dünyaya gələcək uşağa vəsiyyət etmək nöqsanlıdır və ehtiyat budur ki, vərəsədən icazə alınsın. Amma ana bətnində olan körpəyə vəsiyyət edilsə, belə bir vəsiyyət düzgündür. Bətndəki körpəyə ruh daxil olmasa da belədir. Uşaq sağ-salamat doğulduqda vəsiyyət olunmuş mal ona verilir. Əgər dünyaya ölü gəlsə, vəsiyyət batildir və həmin mal vərəsələrə çatır.

Məsələ 2340: İnsan xəbər tutsa ki, bir şəxs vəsiyyətini ona ünvanlayıb vəsiyyəti qəbul etdiyini nəzərə çatdırdıqdan sonra vəsiyyət başqa birinə ünvanlansa, birinci vəsiyyət batildir. Amma vəsiyyət olunmuş şəxs vəsiyyət edən şəxs öldükdən sonra bundan xəbər tutsa, ya xəbər tutub razı olmadığını ona çatdırmasa, ya da razı olduğunu bildirdikdən sonra vəsiyyət edən şəxs başqa birini tapmasa, vacib ehtiyat budur ki, birinci şəxs vəsiyyətə əməl etsin. Bu iş əzab-əziyyətlə başa gəldikdə yerinə yetirilməyə bilər.

Məsələ 2341: Vəsiyy (vəsiyyət edilən şəxs) meyitin işlərini yerinə yetirmək üçün başqa birini seçə bilməz. Amma bilsə ki, meyitin məqsədi yalnız vəsiyyətinin yerinə yetirilməsi olub və kimin yerinə yetirməsinin fərqi yoxdur, öz tərəfindən başqa birini vəkil seçə bilər.

Məsələ 2342: Bir şəxs vəsiyyətinin icrası üçün iki nəfəri seçsə və onların bu işi birlikdə görməsini istəsə, həmin iki şəxsdən biri ölsə, ya ağılını itirsə, ya dindən çıxsa, şər'i hakim başqa birini tə'yin edə bilər. Əgər vəsiyyət olunanların hər ikisi bu işə aciz olarsa, şər'i hakim başqa iki nəfəri tə'yin edə bilər.

Məsələ 2343: Əgər vəsiyy meyitin işlərini təklikdə yerinə yetirə bilməsə və başqa birinin köməyindən istifadə etməyi bacarmasa, şər'i hakim ona kömək üçün bir şəxs tə'yin edə bilər.

Məsələ 2344: Əgər meyitin malının hamısı və ya bir hissəsi vəsinin əlində məhv olsa, səhlənkarlıq göstərməmişsə, eləcə də, meyitin göstərişlərinə əməl etmişsə, zamin deyil. Əks təqdirdə həmin mala zamindir.

Məsələ 2345: Bir şəxs özünə vəsiyy seçsə və söyləsə ki, həmin vəsiyy ölsə başqa biri vəsiyy seçilsin, belə bir vəsiyyət düzgündür. Birinci vəsiyy öldükdə ikinci vəsiyy onun canişini olur.

Məsələ 2346: Borclar, vacib Həcc, xüms və zəkat və bu kimi şeylər vəsiyyət edilməsə belə malın özündən ödənməlidir. Artıq bir şey qalsa vəsiyyət əsasında onun üçdə birini göstərilən ünvana sərf etmək lazımdır. Vəsiyyət etmədiyi halda üçdə bir xərclənmir. Borc ödəndikdən sonra artıq qalan mal vərəsəyə çatır.

Məsələ 2347: İnsan öz malının üçdə birindən artığını vəsiyyət edə bilməz. Yalnız vərəsənin icazəsi ilə bu iş mümkündür. Vərəsə meyyitin ölümündən qabaq və ya sonra icazə verə bilər. Vərəsə icazə verdikdən sonra sözünü dəyişə bilməz. Bu icazənin ölümdən qabaq və ya sonra verilməsinin fərqi yoxdur, vacib ehtiyat sözü geri götürməməkdir.

Məsələ 2348: Bir şəxs müxtəlif işlərlə bağlı çoxsaylı vəsiyyət etsə və həmin tapşırıqların yerinə yetirilməsi üçün malının üçdə biri çatmasa, onun vəsiyyətlərini ardıcıllıqla yerinə yetirmək lazımdır. Üçdə bir xərcləndikdən sonra qalan vəsiyyət batil olur. Yalnız vərəsənin icazəsi ilə bu işi görmək olar. Əgər meyit Həcc və xüms kimi vacib mövzularda vəsiyyət etmişsə bu xərclər malın özündən götürülür, qalan xərclər üçdə birdən ödənir.

Məsələ 2349: Bir şəxs iddia etsə ki, meyit filan malını mənə vəsiyyət edib, ya ədalətli iki kişi, ya ədalətli bir kişi, ya ədalətli bir kişi və iki qadın, ya da dörd ədalətli qadın onun dediklərini təsdiqləməli, and içməlidir. Bu halda deyilənə əməl olunur. Vəsiyyət zamanı ədalətli kişi iştirak etməsə ədalətli qadının şəhadəti ilə həmin malın dörddə biri iddiaçıya verilir. İki ədalətli şahid olsa, iddia etdiyi malın ikidə biri ona verilir. Üç ədalətli qadın şəhadət versə, həmin malın dörddə biri iddiaçıya çatdırılır. Dinində ədalətli sayılan iki kafir zimmi kişinin şəhadəti də belədir. Meyit çarəsiz qalıb ədalətli müsəlman kişi və qadın olmayan şəraitdə vəsiyyət etsə, vəsiyyətinə əməl olunmalıdır.

Məsələ 2350: Bir şəxs meyitin vəsisi olduğunu iddia etsə, mala və ya övladlara qəyyum tə'yin edildiyini bildirsə, yalnız iki ədalətli kişi onun dediklərini təsdiqlədikdə iddiası qəbul olunur.

Məsələ 2351: Bir şəxs müəyyən malı müəyyən şəxsə verməyi vəsiyyət etsə və həmin şəxs qəbul, ya rədd etməmiş dünyasını dəyişsə, onun varisləri veriləni qəbul edə bilər. Bu şəxsin vəsiyyət edən şəxsdən öncə və ya sonra dünyasını dəyişməsi şərt deyil. Bir şərtlə ki, vəsiyyət edən şəxs vəsiyyətini dəyişməmiş olsun.

İRS

Varislər

Məsələ 2352: Qohumluq səbəbindən irs çatanlar üç qrupdur:

1. Meyitin atası, anası və övladları; övlad olmadıqda silsilə boyu övladın övladı (əlbəttə ki, onlardan meyitə daha yaxın olanı); nə qədər ki, bu qrupdan bir nəfər var, ikinci qrupa irs çatmır.

2. Meyitin atası, babası və silsilə boyu babalar; meyitin anası, nənəsi və yuxarı getdikcə nənələri (nənə həm ata, həm də ana tərəfindən ola bilər); bacı və qardaş, bacı və qardaş olmadıqda onların övladları, övladlarının övladları; hansı meyitə daha yaxınsa, o da irs aparır; nə qədər ki, bu qrupdan bir nəfər var, üçüncü qrupa irs çatmır.

3. Əmi və bibi, dayı və xala, silsilə boyunca onların övladları; hansı meyitə daha yaxınsa, o da irs aparır; nə qədər ki, əmi və bibi, dayı və xaladan biri sağsa onların övladlarına irs çatmır; onların övladları sağ ikən övladlarının övladlarına irs verilməz; amma bir istisna var: əgər meyyitin atadanbir əmisi, atadanbir əmisinin oğlu, anadanbir əmisinin oğlu varsa, atadanbir əmiyə irs çatmır, mal ata və anadanbir əminin oğluna verilir.

Məsələ 2353: Əgər meyitin öz əmisi, bibisi, dayısı və xalası, eləcə də onların övladları olmazsa, növbə meyitin ata-anasının əmisi, bibisi, dayısı və xalasına çatır. Onlar olmadıqda irs övladlarına verilər; övladlar da olmasa baba və nənənin əmisi, bibisi, dayısı və xalasına irs çatır; onlar da olmadıqda irs övladlarına verilir.

Məsələ 2354: Ər-arvad bir-birlərindən irs götürürlər; bu barədə növbəti məsələlərdə danışılacaq.

Birinci qrupun irsi

Məsələ 2355: Əgər meyitin varisi birinci qrupdan yeganə şəxs olarsa (məsələn, ata və ya ana, ya da bir oğul və ya bir qız) meyitin bütün malı ona çatır. Əgər bir neçə oğul və ya bir neçə qız olarsa, mal onlar arasında bərabər bölünür. Əgər həm qız, həm də oğlan övladlar varsa mal elə bölünər ki, oğlanlar iki, qızlar bir pay götürsün.

Məsələ 2356: Əgər meyitin varisi yalnız onun ata və anası olarsa, mal üç hissəyə bölünür. İki hissəsi ataya, bir hissəsi anaya verilir. Amma meyitin iki qardaşı və ya dörd bacısı, ya bir qardaş iki bacısı olarsa, bütün övladlar ata-anadan və atadanbir olduqda ana malın altıda birini götürür, qalan hissə ataya çatır.

Məsələ 2357: Əgər meyitin varisi yalnız ata, ana və bir qız olsa, mal beş yerə bölünür, ata və ananın hər biri bir pay, qız üç pay götürür. Meyitin atadanbir iki qardaşı, ya dörd bacısı, ya da bir qardaş və iki bacısı olarsa, mal altı hissəyə bölünür, ata və ana hər biri bir pay, qız üç pay götürür.

Qalan bir pay ata və qız arasında bölünür. Ehtiyat budur ki, onlar ikisi bölgüdə razılaşsın.

Məsələ 2358: Əgər meyitin varisi yalnız ata və ana, bir oğul olsa, mal altı hissəyə bölünür, ata və ana hər biri bir pay götürür, oğula dörd pay çatır. Əgər bir neçə oğul və ya qız olarsa, qalan dörd hissə onlar arasında bərabər bölünür. Əgər həm oğul, həm də qız olsa, mal elə bölünür ki, hər oğul qıza münasibətdə iki pay götürsün.

Məsələ 2359: Əgər meyitin varisi yalnız ata və bir oğul, ya da ana və bir oğul olarsa, mal altı hissəyə bölünür, bir pay ata və anaya, beş pay oğula düşür.

Məsələ 2360: Əgər meyitin varisi yalnız ata, ya da oğul və qızla ana olsa, mal altı hissəyə bölünür, bir pay ata və ana götürür, qalan beş pay oğula iki, qıza bir pay verməklə bölünür.

Məsələ 2361: Əgər meyitin varisi yalnız ata və bir qız, ya ana və bir qız olarsa, mal dörd hissəyə bölünür, bir pay ata və ya anaya, üç pay qıza verilir.

Məsələ 2362: Əgər meyitin varisi ata və bir neçə qız, ya da ana və bir neçə qız olarsa, mal beş hissəyə bölünür, bir pay ata və ya anaya düşür, qalan dörd pay qızlar arasında bərabər bölünür.

Məsələ 2363: Əgər meyitin övladı olmasa onun oğul nəvəsi (nəvə qız olsa belə) meyitin oğluna düşəcək payı götürür. Qız nəvəyə isə (nəvə oğlan olsa belə) meyitin qızının payı verilir.

İkinci qrupun irsi

Məsələ 2364: Meyitdən qohumluq vasitəsi ilə irs götürən ikinci qrupa baba, nənə, qardaş və bacı daxildir. Meyitin qardaşı və bacısı olmasa, övladları onların payını alır. Bu qrupa o zaman irs düşür ki, əvvəlki qrupdan kimsə olmasın.

Məsələ 2365: Əgər varis bir qardaş və ya bir bacı olsa, bütün mal ona çatır. Əgər varis ata-anadanbir bir neçə qardaş və ya bir neçə bacısa, bütün mal onlar arasında bərabər bölünür. Əgər ata-anadanbir həm qardaş, həm də bacı olsa, hər qardaşa bacılara münasibətdə iki pay verilir.

Məsələ 2366: Ata-anadanbir qardaş və bacı olduqda yalnız atadanbir qardaş və bacıya irs çatmır. Amma ata-anadanbir qardaş və bacı olmadıqda atadanbir bir bacı və ya bir qardaş olarsa, bütün irs ona çatar. Əgər atadanbir qardaş və ya bacı bir neçə nəfərsə, mal onlar arasında bərabər bölünür. Əgər atadanbir qardaşla yanaşı atadanbir bacı da varsa, qardaş bacıya münasibətdə iki pay götürür.

Məsələ 2367: Əgər varis yalnız anadanbir bir bacı və ya bir qardaş olsa, ata tərəfdən meyitdən ayrı olan bu adamlar bütün mala sahib olur. Əgər anadanbir bir neçə qardaş və ya bir neçə bacı varsa, ya bir neçə qardaş və bacı varsa, istənilən halda mal onlar arasında bərabər bölünür.

Məsələ 2368: Əgər varis ata-anadanbir qardaş və bacı, atadanbir qardaş və bacı, anadanbir bir qardaş və bir bacı olarsa, atadanbir qardaş və bacıya irs çatmır. Mal altı hissəyə bölünür, bir pay anadanbir qardaş və ya bacıya, qalan hissə ata-anadanbir qardaş və bacıya verilir. Qardaşlar bacıya münasibətdə iki pay götürür. Amma anadanbir qardaş və ya bacı birdən artıq olarsa, mal üç hissəyə bölünür. Bir pay anadanbir qardaş və bacı arasında bərabər bölünür, iki pay ata-anadanbir qardaş və bacıya verilir. Hər qardaş iki, bacı isə bir pay götürür.

Məsələ 2369: Əgər varis yalnız atadanbir qardaş və bacı, anadanbir bir qardaş və ya bir bacı olsa, mal altı hissəyə bölünür. Bir pay anadanbir qardaş və bacıya verilir, yerdə qalan beş pay atadanbir qardaş və bacıya çatır. Hər qardaş bacı ilə müqayisədə iki pay götürür.

Məsələ 2370: Əgər varis yalnız atadanbir qardaş və bacı, anadanbir iki və ya bir neçə qardaş və bacı olarsa, mal üç hissəyə bölünər. Bir pay anadanbir qardaş və bacı arasında bərabər bölünər, iki pay atadanbir qardaş və bacıya çatar. Qardaş bacı ilə müqayisədə iki pay götürər.

Məsələ 2371: Əgər varis təkcə qardaş, bacı və zövcə olarsa, zövcə qarşıda ətraflı şəkildə bəyan olunacaq məsələ əsasında irs alar. Bacı və qardaş ötən məsələlərdə deyildiyi kimi irs götürər. Amma zövcə və ər irs götürdüyü üçün anadanbir qardaş və bacının payı azalmaz. Amma ata-anadanbir və atadanbir qardaş və bacının payı azalar. Məsələn, əgər varis ər, qardaş, anadanbir bacı, ata-anadanbir qardaş və bacı olarsa, malın yarısı ərə çatar, bütün malın üçdə biri anadanbir qardaş və bacıya verilər, qalan hissə ata-anadanbir qardaş və bacının payıdır. Məsələn, əgər bütün mal 6 min manat məbləğ olarsa, 3 min manatı ərə, 2 min manat anadanbir qardaş və bacıya, min manat ata-anadanbir qardaş və bacıya verilər.

Məsələ 2372: Meyitin bacı və qardaşı olmasa, onların payı övladlarına verilər. Anadanbir qardaş və bacının övladlarının payı onlar arasında bərabər bölünür. Atadanbir və ya ata-anadanbir qardaş və bacı övladlarının payı oğlanlara iki, qızlara bir pay verməklə ödənir. Amma əgər atadanbir və ya ata-anadanbir qardaş övladları eyni bir qardaşdan olarsa, ehtiyat budur ki, oğul və qız arasında pay bölgüsü razılaşdırılsın.

Məsələ 2373: Əgər varis təkcə bir baba və ya bir nənə olarsa, ata və ya ana tərəfindən olmasından asılı olmayaraq bütün mal ona verilər. Meyitin babası olduqda onun babasının atasına irs düşməz.

Məsələ 2374: Əgər varis təkcə ata tərəfdən baba və nənə olarsa, mal üç hissəyə bölünər, iki hissə babaya, bir hissə nənəyə verilər. Əgər baba və nənə ana tərəfdən olarsa, mal onlar arasında bərabər bölünər.

Məsələ 2375: Əgər varis ata tərəfdən təkcə bir baba və ya nənə, ana tərəfdən bir baba və ya nənə olarsa, mal üç hissəyə bölünər, iki hissə ata tərəfdən baba və ya nənəyə, bir hissə ana tərəfdən baba və ya nənəyə verilər.

Məsələ 2376: Əgər varis ata tərəfdən baba və nənə, ana tərəfdən baba və nənə olsa, mal üç hissəyə bölünər, bir hissə ana tərəfdən baba və nənə arasında bərabər bölünər, o biri iki hissə ata tərəfdən baba və nənəyə verilər. Baba iki pay, nənə bir pay götürər.

Məsələ 2377: Əgər varis təkcə zövcə ya ər, ata tərəfindən baba və nənə, ana tərəfindən baba və nənə olarsa, zövcə və ər gələcəkdə deyiləcək şəkildə irs götürür. Əsas malın üçdə biri ana tərəfindən baba və nənəyə verilir. Onlar bunu öz aralarında bərabər bölürlər. Qalan hissə ata tərəfindən baba və nənəyə çatır. Baba iki pay, nənə bir pay götürür.

Məsələ 2378: Əgər varis ana tərəfindən baba və ya nənə (ya da hər ikisi), ana tərəfindən qardaşlar olarsa, baba bir qardaş, nənə bir bacı hökmündədir. Onlar malı öz aralarında bərabər bölürlər. Əgər varis ata tərəfindən baba və nənə, atadanbir (ya ata-anadanbir) qardaşlar olsa, baba bir qardaş, nənə bir bacı hökmündədir. Onlar irsi öz aralarında bərabər bölürlər. Kişi iki pay, qadın bir pay götürür.

Üçüncü qrupun irsi

Məsələ 2379: Üçüncü qrupa əmi, bibi, dayı, xala və onların övladları aiddir. Birinci və ikinci qrupdan bir şəxs olmadıqda irs üçüncü qrupa çatır.

Məsələ 2380: Əgər varis təkcə bir əmi və ya bir bibi olarsa, ata-anadanbir, atadanbir və anadanbir olmalarından asılı olmayaraq, bütün mal ona çatır. Əgər bir neçə əmi və bir neçə bibi olarsa, hamısı ata-anadan və ya atadanbir olduqda mal onlar arasında bərabər bölünür. Amma əgər əmi və bibi hər ikisi varsa (hər biri ata-anadan və ya atadanbirsə) əmi iki pay, bibi bir pay götürür.

Məsələ 2381: Əgər varis anadanbir bir neçə əmi və ya bir neçə bibi olarsa, mal onlar arasında bərabər bölünür. Amma əgər təkcə bir neçə anadanbir əmi və bibi olarsa, vacib ehtiyata əsasən, mal bölgüsündə razılaşmalıdırlar.

Məsələ 2382: Əgər varis əmi və bibi olsa, bə'zisi atadanbir, bə'zisi anadanbir, bə'zisi ata-anadanbir olduqda, atadanbir əmi və bibi irs götürmür. Əgər meyitin təkcə anadanbir bir əmi və ya bir bibisi varsa, mal altı hissəyə bölünür, bir pay anadanbir əmi və ya bibiyə, qalan hissə ata-anadanbir əmi və bibiyə verilir. (Əmi iki pay, bibi bir pay götürür.) Əgər meyitin anadanbir bir neçə əmi və bibisi varsa (anadanbir iki əmi və ya iki bibi, bir əmi və bir bibi) mal üç hissəyə bölünür, iki hissə ata-anadanbir əmi və bibiyə verilir (əmi bibiyə münasibətdə iki pay götürür), bir hissə anadanbir əmi və bibiyə çatır. Vacib ehtiyat budur ki, onlar pay bölgüsündə razılaşsınlar.

Məsələ 2383: Əgər varis təkcə bir dayı və ya bir xala olarsa, bütün mal ona çatır. Əgər həm dayı, həm də xala olarsa (istər ata-anadanbir, istər atadanbir, istər anadanbir olsun) mal onlar arasında bərabər bölünür. Müstəhəb ehtiyat budur ki, bir-birləri ilə razılaşsınlar.

Məsələ 2384: Əgər varis təkcə anadanbir dayı və ya xala, ata-anadanbir dayı və xala, atadanbir dayı və xalasa, atadanbir dayı və xala irs götürmür. Mal altı hissəyə bölünür, bir pay anadanbir dayı və xalaya verilir, qalan hissə ata-anadanbir dayı və xalaya çatır. Onlar bu payı öz aralarında bərabər bölürlər.

Məsələ 2385: Əgər varis təkcə atadanbir dayı və xala, anadanbir dayı və xala, ata-anadanbir dayı və xalasa, atadanbir dayı və xalaya irs düşmür. Mal üç hissəyə bölünür, bir hissə anadanbir dayı və xalaya bərabər şəkildə bölünür, qalan hissə ata-anadanbir dayı və xalaya çatır. Onlar da bu payı öz aralarında bərabər bölürlər.

Məsələ 2386: Əgər varis bir dayı və ya xala, bir əmi və ya bibi olsa, mal üç hissəyə bölünür, bir hissə dayı və xalaya çatır, iki hissə əmi və ya bibiyə verilir.

Məsələ 2387: Əgər varis bir dayı və ya bir xala, əmi və bibi olsa, əmi və bibi ata-anadan və ya atadanbir olduqda, mal üç hissəyə bölünür, bir hissə dayı və ya xalaya verilir, qalan iki hissədən iki pay əmiyə, bir pay bibiyə çatır. Əgər malı doqquz paya bölsələr, üç pay dayı və ya xalaya, dörd pay əmiyə, iki pay bibiyə düşər.

Məsələ 2388: Əgər varis anadanbir bir dayı və ya bir xala, bir əmi və ya bir bibi, ata-anadan və ya atadanbir əmi və bibi olarsa, mal üç hissəyə bölünür, bir hissə dayı və ya xalaya verilir, qalan iki hissənin altıda biri anadanbir əmi və ya bibiyə, altıda beşi ata-anadan və ya atadanbir əmi və bibiyə verilir. Əmi bibi ilə müqayisədə iki pay götürür.

Məsələ 2389: Əgər varis bir dayı, ya bir xala, anadanbir əmi və bibi, ata-anadan və ya atadanbir əmi və bibi olsa, mal üç hissəyə bölünür, bir pay dayı və ya xalaya çatır, qalan iki hissə üç paya bölünür. Bir pay anadanbir əmi və bibiyə çatır (vacib ehtiyata əsasən, öz aralarında razılıqla bölürlər), iki pay ata-anadan və ya atadanbir əmi və bibi arasında bölünür. Əmi iki pay, bibi bir pay götürür.

Məsələ 2390: Əgər varis bir neçə dayı və ya bir neçə xala olsa, hamısı ata-anadan, ya atadan, ya anadanbirdirlərsə, meyitin əmi və bibisi olduqda, mal üç hissəyə bölünür. İki pay yuxarıda göstərildiyi qaydada əmi və bibi arasında bölünür. Bir pay dayılar və xalalar arasında bərabər bölünür.

Məsələ 2391: Əgər varis anadanbir dayı və ya xala, atadanbir və ya atadanbir bir neçə dayı və xala, əmi və bibi olsa, mal üç hissəyə bölünər, onun iki hissəsi yuxarıda göstərilən qaydada əmi və bibi arasında bölünür, qalan bir hissə anadanbir dayı və ya xala olduqda altı hissəyə bölünür, onun bir hissəsi anadanbir dayı və ya xalaya verilir, qalan hissəsi ata-anadan və ya atadanbir dayı və xalaya çatır. Onlar bunu öz aralarında bərabər bölürlər. Əgər anadanbir bir neçə dayı və ya bir neçə xala varsa, ya da həm anadanbir dayı, həm də anadanbir xala varsa, qalan bir hissə üç paya bölünür. Bir pay anadanbir dayılar və xalalar arasında bərabər bölünür, qalan hissə ata-

anadan və ya atadanbir dayı və xalalara verilir. Onlar bunu öz aralarında bərabər bölürlər.

Məsələ 2392: Əgər meyitin əmi və bibisi, dayı və xalası olmasa, əmi və bibinin payı onların övladlarına, dayı və xalanın payı onların övladlarına çatır.

Məsələ 2393: Əgər meyitin varisi əmi və bibi, atanın dayı və xalası, ya əmi və bibi, ananın dayı və xalası olsa, mal üç hissəyə bölünür, bir pay əmi və bibiyə, meyitin anasının dayı və xalasına çatır. (Onlar vacib ehtiyata əsasən bölgüdə razılaşırlar.) Qalan iki hissə üç paya bölünür. Bir pay atanın dayı və xalasına verilir və onlar bunu öz aralarında bərabər bölürlər. Qalan iki pay atanın əmi və bibisinə çatır. (Əmi bibi ilə müqayisədə iki pay götürür.)

Məsələ 2394: Əmi və bibinin, dayı və xalanın irsini (əgər ata-anadanbir olarlarsa) belə bölmək olar: bir əmi və ya bir bibiyə bütün mal çatır. Əgər varis bir neçə əmi və ya bir neçə bibisə, onlar arasında bərabər bölünür. Əgər həm əmi, həm bibi varsa, əmi iki pay, bibi bir pay götürür. Bir dayı və ya bir xala olduqda bütün mal ona çatır. Əgər bir neçə dayı və ya bir neçə xala varsa, ya da həm dayı, həm də xala varsa, mal bərabər şəkildə bölünür. Əgər əmi və bibi, dayı və xala olsa, əmi və bibi iki pay götürür, dayı və xalaya bir pay çatır. Əmi iki pay götürür, bibi bir pay. Dayı və xalanın payı isə bərabər bölünür.

Zövcə və ərin irsi

Məsələ 2395: Əgər daimi zövcə dünyadan köçərsə və onun övladı olmazsa, malının yarısı ərinə çatır, qalan hissə o biri vərəsələrə verilir. Əgər həmin ərdən və ya başqa bir ərdən övladı varsa, bütün malın dörddə biri ərə verilir, qalan hissə varislərə çatdırılır.

Məsələ 2396: Əgər ər dünyasını dəyişsə və övladı olmasa, malının dörddə biri daimi zövcəsinə çatır. Qalan hissə vərəsələr arasında bölünür. Əgər həmin zövcədən və ya başqa zövcədən övladı olarsa, malın səkkizdə biri zövcəyə verilir, qalan hissə varislərə çatdırılır.

Məsələ 2397: Qadın ərin bütün malından irs götürür. Amma torpaq və onun qiymətindən irs almır. Bu torpaq ev və ya bağ, əkin sahəsi və bu kimi bir şey ola bilər. Amma binanın tikili və ağac kimi fəzasından irs götürmür. Fəzada olanlar qiymətləndirilməli və onların qiymətindən irs verilməlidir.

Məsələ 2398: Qadın ərindən ona irs qalmamış torpaq və bina kimi bir şeydən istifadə etmək istəsə vərəsələrdən icazə almalıdır. Vərəsələr də irsin fəzasında olan tikili kimi bir şeyin qiymətindən ödəməmiş həmin şeydən qadından icazəsiz istifadə edə bilməzlər. Yalnız qadın icazə verdikdə onun payını ödəməmiş tikilini satmaq olar. Əks təqdirdə bu iş yolverilməzdir.

Məsələ 2399: Əgər bina və ağac kimi şeylərə qiymət qoymaq istəsələr hesab üçün nəzərə almalıdırlar ki, bu şeylər icarə haqqından əlavə hansı dəyərə malikdir.

Məsələ 2400: Su arxı və bu kimi şeylər torpaq hökmündədir. Həmin yerdə işlədilən kərpic və bu kimi şeylər tikintidən sayılır.

Məsələ 2401: Əgər meyitin birdən artıq zövcəsi olsa, övladı olmadıqda malının dörddən biri, övladı olduqda səkkizdən biri yuxarıda deyilən şəkildə qadınlar arasında bərabər bölünür. Ərin onlarla yaxınlıqda olub-olmamasının fərqi yoxdur. Amma ölümcül xəstəlikdə ikən bir qadınla evlənsə, yalnız yaxınlıq etdiyi halda həmin qadın irs götürür.

Məsələ 2402: Qadın xəstə halda ərə getsə və bu halda dünyasını dəyişsə ər ondan irs götürür. Burada yaxınlıq edib-etməməyin fərqi yoxdur.

Məsələ 2403: Qadına tələq hökmündə qeyd olunduğu kimi ric'i tələq verilsə (boşansa) və iddə vaxtında ölsə, ər ondan irs götürür. Qadının iddə vaxtında ər də ölsə qadın ondan irs alır. Amma bain tələq (boşanma) iddəsində ər və arvaddan biri ölsə digəri ondan irs götürmür.

Məsələ 2404: Əgər ər xəstəlik halında zövcəsini boşasa və bir ildən sonra (qəməri il) dünyasını dəyişsə, qadın üç şərtlə irs götürür: ər həmin xəstəliklə dünyasını dəyişsin; qadın tələq və iddədən sonra ərə getməmiş olsun; qadının boşanmaya razılığı olmasın. (Əgər razılığı olmuşsa, onun irs götürməsi müşküldür.)

Məsələ 2405: Ərin öz zövcəsi üçün aldığı libaslar, zinət əşyaları və bu kimi şeylər zövcənin malıdır. Bir şərtlə ki, yalnız bəzənmə məqsədi ilə alındığı sübuta yetməsin.

İrslə bağlı müxtəlif məsələlər

Məsələ 2406: Kişi dünyasını dəyişdikdə onun Qur'anı, üzüyü, qılıncı, libası (geydiyi və ya geymək üçün hazır saxladığı libas) böyük oğulun malıdır. Əgər meyit sadalanan şeylərdən ikisinə malik olmuşsa (məsələn, iki üzük) onların hər birindən istifadə etdiyi halda hamısı böyük oğula çatır.

Məsələ 2407: Meyitin borcu olsa və bu borc mal qədərində və ya maldan artıq həddə çatsa, yuxarıda adı çəkilən dörd şey böyük oğula verilmir, satılıb borcların ödənməsinə xərclənilir. Amma mal borcdan çox olarsa və borcu ödədikdən sonra vərəsələr üçün kifayət qədər mal qalarsa, həmin dörd şey böyük oğula çatır.

Məsələ 2408: Müsəlman kafirdən irs götürür, kafir meyitin atası və ya oğlu olsa da, müsəlmandan irs götürmür.

Məsələ 2409: Bir şəxs öz yaxın qohumlarından birini bilərəkdən və ya bilmədən öldürsə, ondan irs payı almır. Amma bilmədən öldürərsə, irs götürər. Məsələn, havaya atdığı vaxt təsadüfən həmin şəxsə dəyib öldürərsə, meyitdən irs payı çatır. Bu halda ehtiyata əsasən qətlin diyəsindən həmin şəxsə pay düşmür.

Məsələ 2410: Əgər meyitdən ana bətnində övlad qalarsa, eyni vaxtda övlad, ata və ana kimi varislər olarsa, irs bölərkən bətndəki körpə üçün iki oğlan övladının payı ayrılmalıdır. Dünyaya diri gəlsə irs ona çatdırılır. Bir oğlan və ya bir qız doğulsa, artıq qalan pay vərəsələr arasında bölünür. Əgər onunla birlikdə başqa varis olmazsa, sağ-salamat doğulduqda bütün mal ona çatır. Əks təqdirdə irs varislər arasında bölünür.

DİFA, ƏMR BE MƏ'RUF VƏ NƏHY ƏZ MÜNKƏR

Difanın (müdafiənin) hökmləri

Məsələ 2411: Düşmənin İslam məmləkətləri və onların sərhəddinə hücumu müqabilində müsəlmanların müdafiəyə (difaya) qalxması vacibdir. Difada insanın hücum edilən məmləkətdə yaşaması şərt deyil. Əcnəbilərin İslam məmləkətlərinə və İslami müqəddəsliklərə hücumu qarşısında bütün dünya müsəlmanlarının bir-birini müdafiə etməsi zəruridir. Müsəlmanlar malları, canları, istənilən bir vasitə ilə müdafiəyə qalxmalıdırlar. Bu işdə şər'i hakimin icazəsinə ehtiyac yoxdur. Amma müdafiə proqramlarının nizamlı şəkildə həyata keçməsi üçün şər'i hakimin nəzarəti altında imkan daxilində agah və e'tibarlı komandan tə'yin olunmalıdır.

Məsələ 2412: Əgər müsəlmanlar əcnəbilərin bilavasitə və ya daxili amillər vasitəsi ilə İslam məmləkətinə hücumundan ehtiyatlansalar bütün vəzifəlilərə vacibdir ki, istənilən bir vasitə ilə bu hücum qarşısında dayanıb İslam məmləkətini müdafiə etsinlər.

Məsələ 2413: Biganələrin siyasi, iqtisadi nüfuzlarını genişləndirməklə İslam məmləkətinə hakim olacaqlarına qorxu yaransa, bu nüfuzun qarşısını almaq hamı üçün vacibdir. Qeyri-İslami dövlətlərlə yaradılan siyasi rabitələr müsəlmanların zəifləməsinə və əsarətinə səbəb olmamalıdır. Bu rabitələr sayəsində qeyri-İslami məmləkətlərdən iqtisadi asılı vəsiyyətə düşmək yol verilməzdir.

Əmr be mə'ruf və nəhy əz münkər (yaxşılığa də'vət və pisliyə qadağa)

Məsələ 2414: Əmr be mə'ruf və nəhy əz münkər bütün ağıllı, büluğ həddinə çatmış şəxslərə müəyyən şərtlər daxilində vacibdir:

1. Əmr be mə'ruf və nəhy əz münkər etmək istəyən əmin olmalıdır ki, qarşı tərəf haram işlə məşğuldur və ya vacibi tərk etmişdir:

2. Əmr və qadağanın tə'sirli olacağı ehtimal edilməlidir. Bu tə'sir dərhal və ya tədrici, kamil və ya naqis ola bilər. Tə'sir ehtimalı olmadıqda bu iş vacib olmur;

3. Əmr və qadağada fəsad və zərər olmamalıdır; insan bilsə və ya qorxsa ki, onun əmr və qadağası onun özünün və ya mö'minlərin canına, malına və şəxsiyyətinə ciddi zərər vura bilər, bu iş vacib olmur. Amma əmr və qadağa müqəddəs İslam şəriətinin ciddi əhəmiyyət verdiyi işlərdən olsa (məsələn, İslam və Quranın, İslam məmləkətlərinin istiqlalının qorunması) zərərə baxmadan, candan və maldan keçməklə bu vəzifə yerinə yetirilməlidir.

Məsələ 2415: İslamda bid'ət yaransa (zalım dövlətlərin İslam adı ilə gördüyü çirkin işlər kimi) hər bir şəxsə, xüsusi ilə din alimlərinə vacibdir ki,

haqqı deyib, batili inkar etsinlər. Din alimlərinin sükutu elm və İslam alimlərinə sui-zənnə səbəb olarsa, istənilən bir şəkildə haqqı bəyan etmək vacibdir. Bunun tə’sirsiz qalacağı bilinsə də, addım atılmalıdır.

Məsələ 2416: Düzgün ehtimal edilsə ki, sükut pis işin yaxşı, yaxşı işin pis iş kimi tanınması ilə nəticələnəcək, hamıya, xüsusi ilə İslam alimlərinə haqqı demək vacibdir və sükut yolverilməzdir.

Məsələ 2417: Əgər İslam alimlərinin və başqalarının sükutu zalımı gücləndirərsə və ya ona cəsarət verərsə, haqqı deyib batili inkar etmək vacibdir. Bunun tə’siri ötəri olsa da addım atılmalıdır.

Məsələ 2418: Əgər bə’zi mö’minlərin və din alimlərinin zalım üsul-idarədə vəzifə tutması fəsad və günahın qarşısını alarsa, onlar bu vəzifəni qəbul etməlidir. Əlbəttə böyük zərər olduqda bu addım atılmır. Məsələn, mö’minlərin və ya alimlərin zalım rejimdə iştirakı xalqın əqidəsini süstləşdirərsə və ya İslam alimlərinə e’timada zərbə vurarsa, bu işə yol verilmir.

Məsələ 2419: Əmr be mə’ruf və nəhy əz munkərin mərtəbələri var. Bə’zi mərtəbələrin icrası üçün şər’i hakimin icazəsinə ehtiyac var. Dil, qəlb və nəsihətlə əmr be mə’ruf üçün şər’i hakimin icazəsinə ehtiyac yoxdur. Tərbiyələndirmə ümidi ilə e’tinasızlıq göstərmək əlaqələri kəsmək də bu qəbildəndir. Bu sayağı hərəkət tə’sir göstərməsə, tünd və qəzəblə danışmağa icazə verilir. Bu halda zorla olsa da, günahkarın qarşısı alınır. Ya da günah vasitələri günahkarın əlindən alınır. Amma əmr be mə’ruf və nəhy əz münkərdə zora əl atmaq, mülkə toxunmaq zəruri olarsa, şər’i hakimin icazəsi olmadan addım atmaq olmaz. Bu qəbil rəftarlarda şər’i hakim tərəfindən tə’yin olunmuş ölçülərə riayət edilməlidir.

EHTİYAC DUYULAN AKTUAL MƏSƏLƏLƏR

Bank və xeyriyyə fondlarının müamilələri

Məsələ 2420: Xalqın banklardakı cari hesablara yatırdığı pullar qərzül-həsənə, yə'ni xeyriyyə məqsədi ilə borc mahiyyəti daşıyır. Onlar istədikləri vaxt bu pulu geri ala bilər. Əgər verilən pul müqabilində qazanc nəzərdə tutularsa haramdır. Bu halda borc da batildir və bank həmin puldan istifadə edə bilməz.

Məsələ 2421: İnsanların banka yatırdığı qısa müddətli və uzun müddətli pullar və nəzərdə tutulan qazanclar yalnız şər'i ölçülər çərçivəsində halaldır. Bu pullar müzaribə və şirkət kimi dini müamilələr şəklində mümkün sayılır. Pul verən şəxs əmin olmalı və ya ehtimal etməlidir ki, bank onun vəkili olaraq müştəri ilə müamilələrdə şər'i ölçüləri nəzərdə saxlayacaq. Amma əmin olsa ki, bütün deyilənlər zahiridir və kağız üzərindədir, götürülən qazanc haram olur.

Məsələ 2422: Şəxslərin banklardan qərzül-həsənə adı ilə götürdüyü pullar və ödədikləri əlavələr yalnız şər'i ölçülərlə nizamlandıqda halaldır. Şər'i ölçülər nəzərdə tutulmasa bu əməliyyatlar sələm yönümlü olur.

Məsələ 2423: İnsan bilsə ki, bankda həm halal, həm də haram pullar var, amma hansı puldan ona verildiyini bilməsə, həmin pulu ala bilər. Amma əmin olsa ki, ona verilən pul haram puldur, bu puldan istifadə edə bilməz. Bu qəbil pullar vacib ehtiyata əsasən şər'i hakimin icazəsi ilə onun əsil sahibi tərəfindən sədəqə verilməlidir. Bu əməliyyatlarda bankın daxili və ya xarici, dövləti və ya qeyri-dövləti olmasının fərqi yoxdur.

Məsələ 2424: Xarici, qeyri-müsəlman banklarından qazanc almaq olar. Amma müsəlman banklarından qazanc almaq haramdır.

Məsələ 2425: Bank və ticarət köçürmələri halaldır. Bank və ya tacir bir şəxsdən pul alıb, ona qəbz verir və həmin pulu başqa bir yerdə ona ödəməyi öhdəsinə götürür. Pulun köçürülməsi üçün pul sahibindən nə isə alır. Belə bir müamilə halaldır. Köçürmə haqqını həmin puldan çıxmaq və ayrıca götürmək olar. Eləcə də, bank və ya müəssisə bir şəxsə pul verib onu başqa bir məhəldə bankın şö'bəsinə çatdırmağı tapşırarsa, ona verdiyi zəhmət haqqı halaldır.

Məsələ 2426: Girov bankları borc verib qazanc götürmək məqsədi ilə girov alsalar həm borc batildir, həm bankın girov malı satmağa haqqı yoxdur. Girov malı alan şəxs də ona sahib olmur.

Məsələ 2427: Xeyriyyə fondlarının əmək haqqı ünvanında pulların saxlanması üçün verdiyi haqlar halaldır. Amma vacib ehtiyat budur ki, bu məbləğ bankın ümumi xərclərinə uyğun olsun. Belə olmasın ki, pulun qazancı əmək haqqı adı ilə alınsın. Xeyriyyə fondları (qərzül-həsənə

sandıqları) verilən borc müqabilində heç bir şərt qoya bilməz. Məsələn, deyə bilməzlər ki, verilən borca görə işçiyə əmək haqqı verilməlidir. Demək, alınan əmək haqqı borcdan ayrı olmalıdır.

Məsələ 2428: Bə'zi xeyriyyə fondları öz sərmayələrini ticarət və sərmayə işlərinə yatırır. Beləcə, götürülən qazancla fondun xərcləri ödənir. Bu iş o zaman mümkündür ki, pul sahibləri əməliyyatlardan xəbərdar olub buna icazə versinlər. Götürülən qazanc da yalnız bankın xərclərinə sərf edilsin.

Siftə və çek

Məsələ 2429: "Siftə" dedikdə pul yox, borcu təsdiqləyən sənəd nəzərdə tutulur. Bu kağızla müamilə başa çatmır. Siftə iki qisimdir:

1. Borclunun borc sahibinə verdiyi siftə həqiqi siftədir;

2. Bir dostun borclu olmadığı dosta verdiyi siftə dostcasına siftədir. Dostcasına siftə verilir ki, bu siftə üçüncü bir şəxsə çatdırılsın və ondan nağd pul götürülsün.

"Çek" də siftə kimi iki qisimdir:

1. Həqiqi və müddətli çek bir şəxsin o birindən tələbini göstərir. (Məsələn, mal əvəzində çek verilir.) Bu qəbil müddətli çeki aşağı qiymətə tələbkar şəxsə nağd vermək olar. Onu üçüncü bir şəxsə az qiymətə satmaq da olar;

2. Dostcasına çek odur ki, bu çek tələb edilmədiyi halda verilir. Belə bir halda onunla müamilə edilməsinə irad var.

Məsələ 2430: Həqiqi siftəni bir şəxs başqa birinə aşağı məbləğə versə, (üç ay müddəti olan 1000 manatlıq siftəni 900 manata nağd dəyişsə) bu qəbil siftə müamiləsinə irad yoxdur. Amma dostcasına siftə ilə müamiləyə irad var. Çünki burada həqiqi borc yoxdur. Problemin aradan qaldırılması üçün göstərilən yolların heç biri nöqsansız deyil.

Məsələ 2431: Siftədə imzası olan şəxsə müraciət edilə bilər. Yə'ni siftə verən borcunu vaxtında ödəməsə borc sahibi siftə üzərində imzası olan şəxsdən tələb edə bilər. Siftəni imza edənlər borca zamin qalır. Həmin şəxs ödəmədikdə imza edənlər ödəyir.

Məsələ 2432: Müxtəlif valyutaların müamiləsi halaldır. Yə'ni İran pulunu Səudiyyə rialına müamilə etmək olar. Amma bir şəxsə müəyyən miqdarda borc verən şəxs həmin pulun İran və ya xarici pul olmasından asılı olmayaraq, verdiyi qədər ala bilər. Aldığı artıq sələm sayılır və haramdır. Məsələn, bir şəxs **100** dollar borc versə, sonra əvəzində iran rialı almağa məcbur olsa, günün qiyməti ilə hesablaşmalıdır.

"Sərqofli"

Məsələ 2433: "Sərqofli" dedikdə icarəçinin sahibə ödədiyi və ona icarədə üstünlük haqqı verən pul nəzərdə tutulur. Bu pulu ödəyən icarəçi mülkün icarəsində başqalarından önəmli haqqa malikdir. Qədimdə sərqofli

olmamışdır. Bu gün belə bir məfhumdan istifadə olunur və sərqofli aşağıdakı şərtlərlə düzgün sayılır:

Sərqofli miqdarı mə'lum olmalıdır. Tərəflər razılıqla müamiləni yerinə yetirməlidir. Onlar büluğ həddinə çatmış, ağıllı, yetkin olmalı, sərqofli və onun şərtlərini bilməlidirlər.

Məsələ 2434: Mülk sahibi öz mülkünü icarəyə verib icarə haqqından əlavə sərqofli ala bilər. Bu halda sahib icarə haqqı başa çatsa da öz mülükünü başqasına icarəyə verə bilməz. Amma sərqofli ödəmiş icarəçi razı olsa, mülkü başqa birinə icarəyə vermək olar. Birinci icarəçi mülkün sərqoflini başqa birinə az və ya çox qiymətə həvalə edə bilər.

Məsələ 2435: Əgər sərqofli ödənmiş mülkün icarə müddəti başa çatsa, sahib mülkü həmin icarəçiyə və ya onun razılıq verdiyi başqa birinə təqdim etməyə vəzifəlidir. Belə bir məqamda icarə haqqı günə uyğun mütəxəssis qiyməti əsasında tə'yin edilir.

Məsələ 2436: Mülkü icarəyə götürmüş və sərqofli ödəməmiş şəxs sərqofli müddəti başa çatdıqdan sonra ev sahibindən icazəsiz həmin mülkdə qala bilməz. Əgər evi boşaltmasa qəsbkar və mülkə zamin sayılır. İcarə qiyməti, artımlar onun öhdəsinədir. Mülk sahibinin icazəsi olmadan belə birindən mülkü icarəyə götürmək olmaz.

Məsələ 2437: Bir şəxs sərqofli verməklə bir mülkü icarəyə götürsə, icarə müddəti tamam olmamış mülkü digər birinə icarəyə verə bilər. O həmin şəxsdən istədiyi miqdarda sərqofli ala bilər. İcarəçinin dəyişməsində mülk sahibinin də razılığı şərtdir. Amma bu haqq öncədən icarəçiyə verilmişsə, mülk sahibinin razılığına ehtiyac yoxdur.

Sığorta

Məsələ 2438: Sığorta sığortalanan şəxs və sığorta şirkəti arasında müqavilədir. Sığortalanan şəxs şirkət və ya şəxsə ödədiyi pul müqabilində düşdüyü zərərlərin ödənməsini həmin tərəfdən tələb edə bilər. Ticarət malları, tikililər, avtomobillər, gəmilər, təyyarələr, fəhlə və qulluqçular, insanın həyatı və bu kimi digər şeylər sığortalana bilər.

Məsələ 2439: Sığorta müqaviləsində iştirak edən tərəflər büluğ həddinə çatmış və ağıllı olmalıdır. Onlar müqaviləni öz istəkləri ilə imzalamalıdır. Tərəflərdən heç biri ağılsız olmamalı, sığortada aşağıdakı şərtlər nəzərdə tutulmalıdır:

1. Sığorta ünvanı tə'yin edilməlidir. Məsələn, hər hansı nəqliyyat vasitəsi, tikili və şəxs;

2. Sığorta müqaviləsində tərəflərin tə'yini;

3. Sığortalanan şəxsin ödəməli olacağı məbləğin müəyyənləşdirilməsi;

4. Sığorta müddətinin tə'yini. Məsələn, filan gündən filan günədək və ya bir il müddətinə;

5. Hansı zərərlər müqabilində sığorta haqqının ödənməsi. Məsələn, yanğın, xəstəlik, oğurluq, ölüm və başqa bu kimi səbəblər;

6. Sığortalanan şeyin qiymətinin tə'yini. Məsələn, evin 30 milyon və ya başqa bir qiymətə sığortalanması.

Məsələ 2440: Sığorta əqdi siğəsini istənilən bir dildə oxumaq olar. Sığorta müqaviləsi yazılıb imzalana bilər.

“TƏLQİH” (QADININ MAYALANDIRILMASI)

Məsələ 2441: Tibbi vasitələrlə kişinin spermasını onun zövcəsinin bətninə köçürmək olar. Amma bu işdə müqəddimələr şər’i və halal olmalıdır, haramdan çəkinmək zəruridir.

Məsələ 2442: Kişinin sperması zövcəsinin bətninə köçürüldüyü zaman (halal və ya haram müqəddimələrlə) doğulan uşaq halalzadə sayılır. Bu uşaq həmin kişi və qadının uşağıdır. Ona bütün övlad hökmləri tətbiq edilir. (İrs, nəfəqə və s.)

Məsələ 2443: Naməhrəm kişinin spermasını qadının bətninə köçürmək olmaz. Bu işdə qadın və ya onun ərinin icazəsi şərt deyil. Belə bir iş görülsə və uşaq doğulsa, iş şübhəli vəziyyətdə həyata keçmişsə (kişi güman etmişsə ki, öz zövcəsidir və qadın güman etmişsə ki, öz ərinin spermasıdır və sonradan mə’lum olmuşsa ki, belə deyil) uşaq həmin kişi və qadınınkı sayılır və bütün övladlıq haqlarından faydalanır. Amma bu iş bilərəkdən görülsə, doğulan uşaq onların övladı sayılmır, irs və bu kimi haqlardan faydalanmır. Amma doğulan uşaq sperma sahibi, qadın və onun yaxınları ilə məhrəmlik haqlarına malik olur.

Orqanların köçürülməsi

Məsələ 2444: Ürəyin, böyrəyin, bədən üzvlərinin köçürülməsi mümkündür. Bu üzvlər diri və ölü şəxsdən götürülə bilər. Meyitin müsəlman və ya qeyri-müsəlman olmasının fərqi yoxdur. Amma müsəlman meyitin orqanını o vaxt götürmək olar ki, başqa bir müsəlmanın həyatı bundan asılı olsun. Hər halda ehtiyata əsasən müsəlman meyitdən götürülən üzvün diyəsini fiqh kitablarında göstərildiyi qaydada ödəmək lazımdır.

Məsələ 2445: Əgər bir şəxs həyatda olduğu vaxt orqanlarından istifadə üçün icazə versə və ya öldükdən sonra onun qəyyumları belə bir icazə versə, diyə və digər hökmlər dəyişmir və ehtiyat budur ki, istənilən bir halda diyə ödənsin.

Məsələ 2446: Sağlam insanın bədən üzvünü götürüb başqa bir insana köçürmək, məsələn, iki böyrəyi olan şəxsin bir böyrəyini böyrəyi fəaliyyətdən düşmüş insana köçürmək orqan sahibinin razılığı ilə mümkündür. Amma böyrəyi götürülənin həyatı üçün təhlükə yaranmamalıdır. Ehtiyat budur ki, pul aldıqda üzvün özünə görə yox, onun götürülməsinə icazə müqabilində alsın.

Məsələ 2447: Müalicə, əməliyyat və ya həyatı qorumaq məqsədi ilə bir insanın qanını o birinə köçürmək olar. Bu qanın müsəlman və ya kafir, kişi və ya qadın qanı olmasının fərqi yoxdur. Bu məqsədlə qan alış-verişinin eybi yoxdur.

Məsələ 2448: Ölüdən və ya diridən hər hansı orqanı götürsələr və digər bir şəxsə köçürsələr bu orqan murdar və meyit sayılmır və onunla namaz qılmaq olar.

Məsələ 2449: Tibbi məqsədlə müsəlman meyitini bir neçə şərt ödəndikdə yarmaq olar:

1. Bu işdə məqsəd müsəlmanların qurtuluşu məqsədi ilə tibbi mə'lumatlar əldə edilməsi olmalıdır. Belə ki, meyiti yarmadan bu mə'lumatları əldə etmək mümkün olmasın;

2. Qeyri-müsəlman meyiti əldə etmək mümkün olmasın;

3. Ehtiyac həddi ilə kifayətlənmək lazımdır. Deyilən şəraitdə meyitin yarılması hətta vacibdir. Qeyri-müsəlman meyitini yarmaq üçün isə bu şərtlər ödənməyə də bilər.

Məsələ 2450: Yarılacaq meyit müsəlmansa və ona qüsl verilmişsə, ona toxunmaqla qüsl vacib olmaz. Başqa hallarda hər dəfə ölüyə toxunduqdan sonra meyitə toxunmaq qüslü vacib olur. Qüsl vermək məşəqqətə səbəb olarsa, təyəmmüm etmək olar. Amma yarılma işi ətsiz sümükdə və ya qəlb və beyin kimi bir orqanda aparılarsa qüslə ehtiyac yoxdur. Meyit yarılarkən əlcəkdən istifadə edilsə qüsl vacib olmaz.

Məsələ 2451: Əgər meyitin yarılması şər'i qaydada yerinə yetirilərsə onun diyəsi yoxdur.

MÜZARIBƏ

Məsələ 2452: “Müzaribə” dedikdə bir fərd və ya qrupun sərmayə yatırması, başqa fərd və ya qrupun bu sərmayə ilə işləməsi nəzərdə tutulur. Bu işin gəliri müqavilə şərtlərinə uyğun olaraq bölünür və hər kəs öz payını götürür.

Məsələ 2453: Müzaribənin qızıl və ya gümüş sikkələri ilə aparılması vacib deyil. İstənilən bir malla müzaribə etmək olar. Eləcə də, şərt deyil ki, ticarət sahəsinə sərmayə yatırılsın. İstehsal sahələrinə də sərmayə yatırmaq olar. Bu əsasla fabrik və zavod səhmlərini alıb onların qazancından istifadə etmək düzgün sayılır.

Məsələ 2454: Müzaribədə iki tərəfin payı faizlə hesablanmaya da bilər. Onlar hansısa bir miqdar müəyyənləşdirə bilərlər. Məsələn, filan sərmayə müqabilində **10** min manat qazanc nəzərdə tutula bilər. Bir şərtlə ki, müzaribənin qazancı tə’yin olunmuş miqdardan artıq olsun. Əgər əskik olarsa, müzaribə düzgün deyil.

Məsələ 2455: Bankların şəxslərin pulu ilə həyata keçirdiyi müzaribədə şər’i qaydalar gözlənilərsə və iş təkcə kağız üzərində getməzsə, belə bir müzaribə düzgündür və onun qazancı halaldır.

Məsələ 2456: Müzaribədə işçinin günahı olmadan zərər yaranarsa, bu zərər sərmayəyə aiddir. Onu işçinin hesabına yazmaq və iki tərəf arasında bölmək olmaz.

MÜXTƏLİF MÖVZULARDA MƏSƏLƏLƏR

1. Meyitə təqliddə qalmaq: əməl edilmiş məsələlərdə meyitə təqliddə qalmaq olar. Meyit ə'ləm olmuşsa bu iş vacibdir.

2. Çəpik çalmaq: çəpik çalmağın eybi yoxdur. Amma məscidlərdə və hüseyniyyələrdə bu iş görülməməlidir.

3. Rəqs etmək: yalnız qadın öz əri üçün rəqs edə bilər. Qalan hallarda rəqs edilməsinə irad var.

4. Şahmat: əgər şahmat xalqın nəzərində qumar halından çıxmışsa və idman oyunu kimi tanınırsa, şahmat oynamağın eybi yoxdur.

5. Udub-uduzmadan kart (poker) oynamaq: əgər kart oyunu xalqın nəzərində qumar halından çıxmışsa və əyləncə sayılırsa, udub-uduzmadan bu oyunu oynamağın eybi yoxdur.

6. Saqqalı qırxmaq: ehtiyata əsasən bu işi görməmək lazımdır.

7. Musiqi: eyş-işrət, fəsad məclisinə münasib olan bütün səslər və musiqilər haramdır. Başqa musiqilər isə halal sayılır. Bu musiqiləri fərqləndirmək üçün ürf əhlinə müraciət olunur.

8. Ana əvəzi dayə: bu iş prinsipcə mümkündür. Amma adətən haram baxış və toxunmaqla müşayiət olunduğundan yalnız zəruri hallarda caiz sayılır.

9. Hamiləliyin qarşısının alınması: hamiləliyin qarşısını almaq üçün zərərsiz və şər'i bütün vasitələr kişidə və qadında sonsuzluq yaratmamaqla caizdir. Belə ki, bu vasitələr kişi və qadını birdəfəlik nəsilvermə qabiliyyətindən məhrum etməməlidir. Amma qeyri-şər'i baxış və toxunmaqla müşayiət olunduqda yalnız fərdi və ictimai zərurət səbəbindən mümkün sayılır.

10. Abort: ana üçün mütləq və mühüm bir zərər qorxusu olduqda ilk mərhələdə mümkün sayılır.

11. Cinsiyyətin dəyişdirilməsi: cinsiyyəti dəyişmək prinsipcə mümkündür. Amma bu işdə şər'i müqəddimələrdən istifadə edilməlidir. Yanı bu işdə haram baxış və toxunuş olmamalıdır. Yalnız xəstə həkimə müraciət etdiyi vaxt zəruri həddə caiz sayılır.

12. Bank yatırımlarının hökmü: şər'i qaydalar gözlənilsə, bank məs'ullarına bu şərtlərə riayət olunmaqla vəkalət verilsə halaldır.

13. Silsilə mağazaların aksiyaları: əgər məs'ullara şər'i qaydaları gözləməklə vəkalət verilsə, eybi yoxdur.

14. Televizorda naməhrəm qadınlara baxmaq: bu baxış fəsad və azğınlığa səbəb olmazsa caiz sayılır.

15. Məscid binasının sökülməsi: əgər məscidi tə'mir və genişləndirmək zəruridirsə, bunun eybi yoxdur.

16. Məsciddə istifadəyə yaramayan qab və əşyaların hökmü: əgər məscidin qab-qacaqları və əşyaları həmin məsciddə və ya digər məscidlərdə istifadəyə yararsızdırsa, onları satıb oxşar əşyalar ala bilərlər.

17. Dağılmış məscidin avadanlıqlarının köçürülməsi: əgər bu avadanlıqlar başqa məscidlərdə istifadə oluna bilərsə, onlara verilməlidir, istifadəyə yararsızsa satılmalı, pulu həmin məscidin ehtiyaclarına xərclənməlidir. Bunu başqa məscidlərə də xərcləmək olar.

18. Aylı gecələrdə namaz: namazın aylı və aysız gecədə qılınmasının fərqi yoxdur.

19. Böyük şəhərlərdə namaz və oruc: bu baxımdan böyük və kiçik şəhər arasında mühüm fərq yoxdur. Böyük şəhər dedikdə hər məhəlli müstəqil bir şəhər olan məkan nəzərdə tutulur. Amma Tehran və bu kimi şəhərlər böyük şəhər sayılmır. Bu şəhərlər iqamət və ya vətən məqsədi ilə eyni bir məhəl sayılır.

20. Yerə yapışdırılmış döşənəcəyin paklanması: belə döşənəcək boru xəttindən gələn su ilə paklanır. Onu bir qədər sıxmaq lazımdır. Yaxşı olar ki, ondan ayrılan su bir vasitə ilə toplansın.

21. Təqlid etdiyi mərcə dünyasını dəyişdikdən sonra diri müctəhidə təqlid edənin vəzifəsi: əvvəlcə təqlid etdiyi məsələlərdə həmin müctehidə tabe olmaqda davam edir. İkinci müctehidə təqlid etdiyi məsələlərdə diri müctehidin fətvasına tabe olur.

22. Ayın başa çatmasının sübuta: ayın göründüyü şəhərlərlə eyni və ya yaxın üfüqə malik şəhərlərdə ay görünmüş sayılır. Eləcə də ayın şərq məntəqələrində görünməsi qərb məntəqələri üçün dəlildir.

23. Şəbih (dini hadisələrin səhnələşdirilməsi): şər'i ölçülər pozulmadıqda, müqəddəsliklər təhqir edilmədikdə şəbihə irad yoxdur.

24. Əmək haqqı: burada bank və ya xeyriyyə fondu işçisinə verilən zəhmət haqqı nəzərdə tutulur. Bu qrupdan olanlar hesabların qorunması və digər xidmətlərinə görə zəhmət haqqı alırlar. Belə bir məqsədlə müştəridən alınan əlavə haqq düzgündür.

25. Borc götürmək: şər'i ölçülər həddində əlavə məbləğ ödəməklə bankdan borc götürmək olar və bu sələm sayılmır.

26. Xüms verməyən şəxsin evində dəstəmaz almaq, namaz qılmaq və nə isə yemək: qonaq ev sahibinin evinin və süfrəsində olanların xümsü verilməmiş puldan olduğuna əmin deyilsə, bunlardan istifadə edə bilər. Əgər bunların xümüslü olduğu mə'lumsa, istifadə etdikdən sonra həmin miqdarın xümsünü ehtiyaclı seyidlərə vermək olar. Əgər gücünüz çatmasa, öhdənizə götürün, imkanınız çatanda ödəyin.

27. Günün doğub-doğmadığını bilməyən şəxsin sübh namazında niyyəti: belə bir şəxs namazı vacib namaz və ya əda niyyəti ilə qıla bilər.

28. Cehizin xümsü: adi və ehtiyac duyulan cehizin xümsü yoxdur. Məsələn, qız ərə getmək yaşındasa və cehizi birdəfəyə almaq mümkün deyilsə, tədricən alınan cehizin xümsü yoxdur. Əks təqdirdə cehizə xüms verilməlidir.

29. Anası seyid olanlar: bu qəbil insanlar müəyyən baxımdan seyid, müəyyən baxımdan qeyri-seyid hökmündədir. Onlar xüms götürə bilməzlər, seyidlərə məxsus libasdan istifadə edə bilməzlər. Amma onlarda seyidlik şərafəti var.

30. Əgər qatqılı (müzaf) su o qədər çox olarsa ki, murdar onun bir tərəfinə düşdükdə o biri tərəfinə sirayət etməsin, murdar sayılmır. (Məsələn, böyük bir hovuzun bir tərəfinə murdar düşərsə, o biri tərəfi murdarlanmaz.)

31. Qeyri-şər'i üsulla kəsilən heyvan pakdır. Amma onun ətindən yemək haram sayılır. Demək, qeyri-islami məmləkətlərdən gətirilmiş heyvan dəriləri həmin heyvanın zibh olunduğunu bildiyimiz vaxt pak sayılır.

32. Bir yerdə uzun müddət qalmaq istəyənlər (məsələn, elmi hövzədə təhsil üçün bir neçə il orada qalanlar) həmin yerdə müsafir sayılmır. Onların qaldığı yer onlar üçün vətən hökmündədir və namazlarını tam qılırlar. Beləliəri 10 gün qalmaq niyyət etməsələr də, müsafir sayılmırlar.

33. Peşəsi səfərə çıxmaq olan (sürücü kimi) şəxslər və ya peşəsi üçün səfər müqəddimə olanlar (tədris üçün bir şəhərdən o biri şəhərə gedənlər) gedib gəldikləri yol 8 fərsəx və ya artıq olarsa, namazlarını tam qılır, ramazan ayının orucunu tuturlar.

34. İlin ehtiyaclarından sayılan ev, xalça kimi şeylər sonradan satıldıqda onların puluna xüms ödənmir. Xüsusi ilə, bu şeylər başqa biri ilə əvəz olunmaq üçün satılırsa.

35. Əgər heyvan maşın vasitəsi ilə şər'i qaydada kəsilərsə, bu iş düzgündür. Belə bir heyvan pak və halaldır.

36. Halal faydaları olan radio, televizor və bu kimi şeylərin alış-satışı caizdir.

37. Əgər balıq tora düşdükdən sonra suda ölərsə, halaldır.

38. Ciddi məqsədi olmayan hiylə əsasında qurulmuş sələm batil və əsassızdır, əlavə məbləğ sələm sayılır. Bə'ziləri arasında adət şəklini alıb ki, birinə borc verir, üstəlik alarkən əvəzində noğul verirlər. Bu kimi işlər batildir.

39. Bir çoxları ev icarəyə götürərkən rəhn adı altında pul verərək icarə haqqını əskildirlər. Bu iş bir halda düzgün, başqa bir halda batildir. Ev icarəyə götürüləndə icarə müqaviləsində şərt kəsilsə ki, ev sahibi müəyyən miqdar borc müqabilində evini girov qoyur, bu iş düzgündür. Amma öncədən borc və rəhn verilsə və icarə haqqı azaldılsa, bu iş haram və batildir.

40. Borcda bir başqasının zamin durması (başqasının borcunu öz öhdəsinə götürməsi) və ya borcunu ödəməyəcəyi təqdirdə bu borcu ödəyəcəyini bildirməsi düzgün və şər'idir.

41. Ölü torpaq sənədləşməklə kiminsə mülkü olmaz. Bu torpağı əkin üçün diriltmək lazımdır.

42. Cəzalandırma təkcə şallaqdan ibarət deyil. Bu işdə maddi cərimələr, həbs, hətta informasiya vasitələrində tanıtdırma kimi tədbirlər də nəzərdə tutulur. Bu cəza növlərindən istənilən biri şər'i hakim tərəfindən seçilir.

43. İslami hicabda libasın növü və rəngi mühüm deyil. Vacib olan budur ki, üz və əldən savayı bütün bədən örtülsün. Amma bədəni örtsə belə, zinətli libaslar geymək olmaz.

44. Həm həqiqi, həm də hüquqi şəxslər mülk sahibi ola bilər. Onların müamilədə tərəf olması qanunidir. Demək, hüquqi şəxs sayılan müəssisələr bə'zilərdən, yə'ni həqiqi şəxslərdən fərqlənmir.

45. Bütün müamilələrdə yazı və imza şifahi müqavilə siğəsini əvəz edə bilər. Amma vacib ehtiyata əsasən, izdivac və boşanmada şifahi də söylənməlidir.

46. Siqaret, tütün mə'mulatları, narkotik maddələrdən istifadə qəti haramdır.

47. Xəstənin həyatını xilas etmək üçün qan alış-verişi halaldır. Amma bədən üzvlərinin köçürülməsində, məsələn, böyrək köçürülməsində ehtiyat budur ki, bədən üzvünə görə yox, onu dəyişməyə icazə üçün pul alınsın. Bu iş o zaman caiz sayılır ki, bədən üzvünü verən şəxs üçün təhlükə olmasın.

48. Mala qiymət tə'yin edilməsində alıcı və satıcı azaddır. Amma bu azadlıq bə'zən fəsada, iqtisadi tarazlığın pozulmasına səbəb olarsa, şər'i hakim özü qiymət tə'yin edə bilər. Şər'i hakimin tə'yin etdiyi qiymət əsas götürülməlidir.

49. İslam məmləkətlərinin müdafiəsi vacibdir. Məmləkətin müdafiəsinə qalxmaq təkcə həmin ölkədə yaşayan müsəlmanlara aid deyil. Əgər hər hansı müsəlman ölkəsi və ya müqəddəsliyə hücum edilmişsə, bütün dünya müsəlmanlarına vacibdir ki, müdafiəyə qalxsınlar.

50. Aylı və aysız gecələrdə sübh azanının vaxtı sabitdir. Vaxtın tə'yinində me'yar üfüqdə işığın görünməsidir. Gecənin aylı olub-olmamasının fərqi yoxdur.

YENİ İSTİFTAAT (ŞƏR'İ SUALLAR)

Təqlid

Sual 1: 10 il təqlidsiz ibadət edənin hökmü nədir?

Cavab: Təqlidə başlamalıdır və yerinə yetirdiyi əməllər təqlid etdiyi müctəhidin göstərişlərinə uyğun olsa düzgündür. Uyğun gəlmədikdə ibadətlərini təzələməlidir.

Sual 2: Qadın İslam elmlərinə yiyələnib ictihad məqamına çata bilərmi?

Cavab: Mümkündür.

Sual 3: Bir təqlid mərcəsinə təqlid edib, ondan sonra ikinci mərcəyə üz tutan və o mərcə dünyasını dəyişdikdən sonra diri müctəhidə təqlid edənin hökmü nədir?

Cavab: Öncəki mərcəyə təqlid etdiyi məsələlərdə həmin hökmləri yerinə yetirsin. İkinci müctəhid də belədir. Qalan məsələlərdə diri müctəhidin fətvalarına tabe olsun.

MURDARLAR

Sual 4: Şər'i qaydada kəsilməmiş mal-qaranın sümüyündən alınan jelatinin hökmü nədir? Axı bütün həbb kapsulaları, hətta bə'zi şirniyyatlar bu maddədən hazırlanır.

Cavab: Zəruri hallarda bundan istifadə etmək olar.

Sual 5: Paklıq baxımından spirtin hökmü nədir?

Cavab: Texniki və tibbi spirt pakdır. Amma məstedici spirtli içkilər belə deyil.

Sual 6: Bu gün əksər parfimeriya mə'mulatları formalaşmamış körpə hormanından hazırlanır. Müsəlman qadınların bundan istifadəsinin hökmü nədir?

Cavab: Əgər qana bulaşmamışsa və ya şəkdəyiksə, pak sayılır.

Sual 7: Qeyri-islami məmləkətlərdən gətirilən ətin hökmü nədir?

Cavab: Əgər müsəlman bazarından və ya müsəlmandan alınarsa, onun şər'i qaydada kəsildiyi ehtimal olunduqda halaldır.

TƏHARƏT

Sual 8: Paltarı bir neçə dəfə yuyub suya çəkən avtomat maşınlarda yuyulan libaslar pakdırmı?

Cavab: Pakdır. Libasları yuyan zaman su xəttinə qoşulmasından və su kəsildikdən sonra işə başlamasından asılı olmayaraq.

Sual 9: Yerə yapışmış döşəməni paklamağın qaydası necədir?

Cavab: Borudan gələn su ilə paklanır. Azca sıxılır. Yaxşı olar ki, ondan çıxan su bir yolla toplansın.

DƏSTƏMAZ

Sual 10: İnsan üçün bir başqasının dəstəmaz və ya qüslünü yerinə yetirməsi düzgündürmü?

Cavab: Belə bir şəxsin dəstəmaz və qüslü batildir. Amma dəstəmaz və qüsl zamanı suyu onun bədəninə tökərlərsə və o özü yuyarsa eybi yoxdur. Amma zərurət olmayan hallarda bu iş məkruhdur.

Sual 11: Xüms verməyən şəxsin evində dəstəmaz almaq, namaz qılmaq və qidadan istifadə etməyin hökmü nədir?

Cavab: Ev və qidaların xümüslü olduğuna əmin yoxsa, ondan istifadə etmək olar. Yəqinlik olsa, icazə verilir ki, istifadədən sonra həmin miqdarın xümsü ehtiyaclı seyidlərə çatdırılsın. İmkan olmadıqda bu miqdar öhdəyə götürülür və imkan olan vaxt ödənir.

QÜSL

Sual 12: Qadının heyz halında imamların hərəminin zərihi ətrafına yaxınlaşmasının eybi varmı?

Cavab: Ətrafa yaxınlaşmağın eybi yoxdur, amma hərəmə daxil olmasınlar.

Sual 13: Cərrahi əməliyyatla körpəsi çıxarılan qadının bətnindən gələn qan nifas, yoxsa istihazə qanıdır?

Cavab: Nifas qanıdır.

NAMAZ

Sual 14: Kişilərin sarı, ağ qızıldan və platindən istifadə etməsinin hökmü nədir?

Cavab: Qızıl adlanan şeylə zinətlənmək kişilərə haramdır. Qızıl sarı, qırmızı və ya ağ olmasının fərqi yoxdur. Amma platin başqa bir filizdir və qızıl sayılmır.

Sual 15: Məsciddə şər'i ölçülərlə çəkilmiş film nümayiş etdirmək olarmı?

Cavab: Bu iş məscidin şə'ninə münasib deyil. Bu qəbil işlər üçün ayrıca yer nəzərdə tutulmalıdır.

Sual 16: Gündəlik yövmiyyə və cümə namazlarında qadınların iştirakının kərahəti varmı?

Cavab: Hazırkı şəraitdə onların iştirakı daha yaxşıdır, bə'zən isə zəruridir

Sual 17: İmam camaat bayram namazını iki yerdə camaatla qıla bilərmi?

Cavab: Çətindir. Amma yövmiyyə namazlarını iki qrupla iki dəfə qılmaq olar.

Sual 18: Namazın qunutunda qeyri-ərəbcə dua oxumaq olarmı?

Cavab: Düzgün məzmunlu istənilən bir duanı, istənilən bir dildə qunutda oxumaq olar.

Sual 19: Zaman ötdükcə qəsbi yerin hökmü dəyişirmi?

Cavab: Qəsbi yerdə namaz qılmaq haramdır. Zaman bu hökmü dəyişmir.

Sual 20: Sementə, mozaikaya, mərmərə səcdə etmək olarmı?

Cavab: Eybi yoxdur.

Sual: Qadın vətən məsələsində ərinə tabedirmi?

Cavab: Əgər qadının məqsədi bu məsələdə ərinə tabeçilikdirsə, tabe olacaq. Amma məqsədi ərini başqa bir yerə köçməyə təşviq etməkdirsə, tabe sayılmır.

Sual 22: Qəza namazı və orucu olan şəxs başqa birinin qəza namaz və oruclarını pulla yerinə yetirə bilərmi?

Cavab: Eybi yoxdur.

Sual: Aylı gecələrdə sübh namazı nə vaxt qılınır?

Cavab: Aylı və aylı olmayan gecələr arasında fərq yoxdur.

Sual 24: Günəşin doğub-doğmamasına şübhə edənin sübh namazında niyyəti necə olmalıdır?

Cavab: Vacib namaz və ya əda niyyəti ilə qıla bilər.

ORUC

Sual 25: Ayın görünməsinin sübutu hansı şəhərlər üçün dəlildir.

Cavab: Həmin şəhərlərlə eyni və ya yaxın üfüqdə olan şəhərlərdə, eləcə də, şərqdə göründükdə qərb məntəqəsində dəlil sayılır.

XÜMS

Sual 26: Diyə olaraq alınmış pulun il keçdikdən sonra xümsü varmı?

Cavab: Diyənin xümsü yoxdur.

Sual 27: Qocalıq təqaüdünə xüms düşürmü?

Cavab: Təqaüdə çıxdıqdan sonra dövlətin verdiyi pul həmin ilin qazancı sayılır. Əgər həmin ilin xərcindən artıq qalarsa, xümsü var.

Sual 28: İslam respublikasında verilən vergilər şər'i vergiləri əvəz edirmi?

Cavab: Vergi alış-veriş xərclərindən sayılır və şər'i vergini əvəz etmir.

Sual 29: Cehizə xüms düşürmü?

Cavab: Əgər cehiz adi və ehtiyac duyulan cehizdirsə, xümsü yoxdur. Başqa hallarda xüms vermək vacibdir.

Sual 30: Anası seyid olan şəxs seyid hökmündədirmi?

Cavab: Müəyyən baxımlardan seyiddir, müəyyən baxımlardan yox. Belə bir şəxs xüms ala bilməz, seyidlərə məxsus libas geyə bilməz. Amma müəyyən baxımdan seyidlərin şərafətinə malikdir.

HƏCC

Sual 31: Karvana xidmət üçün Həccə gedən şəxs vəzifəli olmadığı halda Həcci necə yerinə yetirməlidir? Vacib Həcc niyyəti etməlidirmi?

Cavab: Karvan xidmətçiləri vəzifəli sayılır. (Bir şərtlə ki, ailə-övladlarının Həcc müddətindəki xərcini ödəsin) Belə bir şəxs vacib Həcc niyyəti etməlidir. Əgər birinci dəfə gedirsə, kiminsə tərəfindən naib ola bilməz. Kömək üçün biri ilə Həccə gedən də belədir.

BAXIŞ (HİCAB VƏ BAXIŞIN HÖKMLƏRİ)

Sual 32: İnsanın bağ-bağçadan, gül-çiçəkdən ləzzət aldığı kimi kişi və ya qadına baxıb ləzzət alması haramdırmı?

Cavab: Adətən belə baxışlar cinsi ləzzətlə müşayiət olunduğundan eyblidir.

Sual 33: Qadınların qrup şəklində kişilərlə birlikdə mahnı oxumasının hökmü nədir?

Cavab: Eyblidir.

Sual 34: Əgər qadın özünü zinətləndirsə, çöhrəsinə zinət verib nişan üzüyü taxsa, üzünü və əllərini örtməsi vacibdirmi?

Cavab: Üzük kimi zinət əşyalarının eybi yoxdur. Amma üzünə bəzək verməsinə irad var.

Sual 35: Sürmə, qaşın alınması, əqiq üzük, saat, gözəl tibbi eynək qadın üçün zinət sayılırmı və o örtünməlidirmi?

Cavab: Zahirən bunlar qadağan olunmuş zinət sayılmır.

Sual 36: Qadının naməhrəm adamlara iynə vurmasının hökmü nədir?

Cavab: Qeyri-zəruri hallarda caiz deyil.

Sual 37: Qadın həkim olmadıqda, qadının kişi həkimə müraciət etməsinin hökmü nədir?

Cavab: Zəruri hallarda eybi yoxdur.

Sual 38: Qadının naməhrəm kişi ilə əlində əlcək olan vəziyyətdə görüşməsinin hökmü nədir?

Cavab: Yaxşı olar ki, bu iş görülməsin.

Sual 39: Naməhrəm qadının gülüşü fəsada səbəb olmazsa, onu eşitməyin hökmü nədir? Fəsad səbəbi olarsa hökm nədir?

Cavab: Fəsad qorxusu olmadıqda eybi yoxdur.

Sual 40: Adətən saçının bir hissəsi görünməyən çadralı qadının simasına baxmağın hökmü nədir? Beləliəri həmin qaydada örtünməyə adət etmişlər və xəbərdarlığa məhəl qoymurlar.

Cavab: Əgər ləzzət almaq məqsədi olmasa baxmağın eybi yoxdur.

Sual 41: İran İslam Respublikasının televiziyasından yayımlanan xarici filimlərə baxmağın hökmü nədir? Bu filimlərdə adətən örtüksüz xanımlar iştirak edir.

Cavab: Fəsad qorxusu olmasa eybi yoxdur.

VƏQF

Sual 42: Məsciddə istifadəyə yararsız qab və əşyaların hökmü nədir?

Cavab: Əgər onları heç vəchlə məscidlərdə istifadə etmək mümkün deyilsə, satıb, ona oxşar şeylər almaq olar.

Sual 43: Sökülmüş məscidin avadanlıqlarını başqa yerə işlətmək olarmı?

Cavab: Əgər başqa məscidlərdə istifadəsi mümkünsə, onlara verilsin. Əgər istifadəyə yararsızsa, satılsın və puluna həmin məscid üçün ehtiyac duyulan şeylər alınsın.

ƏMR BE MƏ'RUF VƏ NƏHY ƏZ MÜNKƏR

Sual 44: Əgər əmr be mə'ruf və nəhy əz munkər insanın müəssisədəki mükafatlardan məhrum edilməsi ilə nəticələnərsə, yenə də vacibdirmi?

Cavab: Əgər mühüm zərər olmasa, vacibdir.

Sual 45: İslam respublikasında əmr be mə'rufla məşğul olan cəmiyyətlər olduğu halda bu vəzifə fərdlərin öhdəsindən götürülürmü?

Cavab: Əmr be mə'ruf və nəhy əz münkər ümumi bir hökmdür və hər kəs öz gücündə bunu yerinə yetirməlidir. Əmr be mə'ruf və nəhy əz münkərlə məşğul olan təşkilatların varlığı fərdləri məs'uliyyətdən azad etmir. Bu mövzu ilə bağlı vəzifə bölgüsü proqramlı şəkildə həll olunmalıdır.

Sual 46: Əmr be mə'ruf və nəhy əz münkərdə Allaha yaxınlıq məqsədi şərtdirmi?

Cavab: Allaha yaxınlıq məqsədi şərt deyil. Amma belə bir məqsəd olmadıqda savab verilməz.

Sual 47: Qur'anı səhv oxuyan şəxsə xəbərdarlıq etmək vacibdirmi?

Cavab: Yaxşı olar ki, xoş dillə xəbərdarlıq edilsin.

CƏZALAR

Sual 48: Əgər həkim müalicədən imtina edirsə və nəticədə xəstə dünyasını dəyişirsə, onun cəzası nədir?

Cavab: Həkim cəzalandırılmalıdır. Cəzalandırmanın müxtəlif növləri var: zindan, cərimə, işdən müvəqqəti və daimi məhrumluq.

Sual 49: Şagirdi vurmaq olarmı?

Cavab: Şagirdi vurmaq caiz deyil. Yalnız tərbiyə məqsədi ilə və onun valideynlərinin icazəsi ilə istisna var. Bizim dövrümüzdə bu işdən çəkinmək daha yaxşıdır.

BANK

Sual 50: Banka yatırılan uzunmüddətli və qısamüddətli sərmayələrin hökmü nədir?

Cavab: Əgər bu işdə şər'i ölçülər gözlənilirsə və pul sahibinin tələbi olmadan bank hansısa məbləğ ödəyirsə, eybi yoxdur.

Sual 51: Bank yatırımlarının qazancı halaldırmı?

Cavab: Şər'i ölçülər gözlənilərsə və ya bu ölçüləri gözləyən məs'ullara vəkillik verilərsə halaldır.

HƏKİMLİK

Sual 52: Hamiləliyin qarşısını almağın hökmü nədir?

Cavab: Bu işin mühüm zərəri olmazsa, kişi və qadın daimi olaraq sonsuzluğa düçar olmazsa, caizdir. Amma hamiləliyin qarşısını alarkən qeyri-şər'i qaydada baxış və toxunma lazım gələrsə, yalnız fərdi və ictimai zərurət olduqda caiz sayılır.

Sual 53: Abort caiz sayılırmı?

Cavab: Ana üçün ciddi təhlükə yarandıqda bu təhlükənin qarşısını almaq üçün ilkin mərhələdə abort olar.

Sual 54: Cinsiyyəti dəyişmək olarmı?

Cavab: Cinsiyyətin dəyişilməsi prinsipcə qadağan deyil. Amma bu işdə şər'i ölçülərə əməl edilməli, qeyri-şəri baxış və toxunmaya yol verilməməlidir. Bu iş zərurət həddində mümkündür.

MÜXTƏLİF MƏSƏLƏLƏR

Sual 55: Vergilərdən yayınmağın, yol hərəkəti qaydalarını pozmağın, gömrük haqlarının azaldılmasının hökmü nədir?

Cavab: İslam hökumətinin qanunlarına müxalif addım caiz deyil.

Sual 56: Nə üçün səkkizinci imamın dəfn olunduğu yer "7-ci qiblə" adlandırılır?

Cavab: Mə'sumlar 7 məkanda (Mədinə, Bəqi, Nəcəf, Kərbəla, Kazimeyn, Samirra və Məşhəd) dəfn olunduğundan imam Rizanın (ə) məqbərəsi bə'ziləri tərəfindən 7-ci qiblə adlandırılmışdır. Əlbəttə ki, burada namaz qibləsi nəzərdə tutulmur.

Sual 57: Qəsbkar İsraillə iqtisadi əlaqələr qurmaq olarmı?

Cavab: Qəsbkar İsraili gücləndirən istənilən bir addım haramdır.

Sual 58: Qalstuk və yaxa kəpənəyindən istifadə etmək olarmı? Bir şəxs toy gecəsi qalstuk vurarsa bunun hökmü nədir?

Cavab: İslama biganələrin atributlarından çəkinin.

Sual 59: Qadınlar avtomobil sürə bilərmi?

Cavab: İslami hicab qorunsa və şər'i ölçülər gözlənilsə eybi yoxdur.

Sual 60: Qadınlar hərbi tə'lim keçə bilərmi?

Cavab: Bu iş caizdir. Bir şərtlə ki, günaha yol verilməsin.

Sual 61: Xidmət haqqının hökmü nədir?

Cavab: Xidmət haqqı dedikdə bank işçilərinə verilən maaş nəzərdə tutulur. Onlar bank hesablarını qoruyur və sair xidmətlər göstərirlər. Bu məqsədlə müştəridən əlavə haqq alına bilər.

Sual 62: Qadınlar kişilərin hüzurunda Qur'an oxuya bilərmi?

Cavab: Ahənglə oxumalarına irad var.

Sual 63: Fəsada səbəb olmasa ney çalmağın hökmü nədir?

Cavab: Eyş-işrət məclislərinə aid musiqilərin çalınması haramdır.

Sual 64: Bir şəxs soyuducu satana desə ki, 100 soyuducu alıram və bir həftədən sonra pulunu verirəm, bu müamilə düzgündürmü?

Cavab: Əgər soyuducular alıcıya verilsə, eybi yoxdur.

Sual 65: Müxtəlif yerlərdə çəpik çalmağın hökmü nədir?

Cavab: Çəpik çalmağın eybi yoxdur. Amma məscid və hüseyniyyə kimi yerlərdə bu işdən çəkinmək lazımdır.

Sual 66: Rəqsin növləri haqqında açıqlama verin.

Cavab: Yalnız qadın əri üçün oynaya bilər. Qalan rəqslərə irad var.

Sual 67: Şahmat haqqında fikriniz nədir?

Cavab: Əgər şahmat xalqın nəzərində qumar aləti halından çıxmışsa və idman sayılırsa eybi yoxdur.

Sual 68: Kart oynamağın hökmü nədir?

Cavab: Udub-uduzmaq olmadan kart oynamağın eybi yoxdur.

Sual 69: Saqqalı qırxmaq olarmı?

Cavab: Ehtiyat budur ki, bu iş görülməsin.

Sual 70: Hansı musiqilər halal, hansılar haramdır?

Cavab: Eyş-işrət məclislərinə aid olan bütün musiqilər haramdır və qalan musiqilər halaldır. Halal musiqini haram musiqidən ayırmaq üçün ürf əhlinə müraciət olunsun.

Sual 71: Dini hadisələrin səhnələşdirilməsi, şəbihə münasibətiniz nədir?

Cavab: Əgər şər'i ölçülər gözlənilsə və müqəddəsliklər təhqir olunmasa eybi yoxdur.

Sual 72: Öldürülən şəxsə görə pul almağın hökmü nədir?

Cavab: Diyə Allahın tə'yin etdiyi bir haqdır və onu almaq caizdir. Amma bağışlamaq bə'zi hallarda daha yaxşıdır.

Sual 73: Qeyri-müsəlman ölkələrə mühacirət və səfərin hökmü nədir?

Cavab: Əgər şəxs kafir ölkələrdə özünün və yoldaşlarının dinini qorumağa qadirsə və ya dini yaya biləcəksə, bu səfər caizdir.

Sual 74: Bir şəxs yanıb xəstəxanaya düşdükdə həkimin səhlənkarlığı ucbatından dünyasını dəyişərsə, eləcə də, məhkəmə tibbi ekspertiza həkimin səhlənkarlığını təsdiqləyərsə, həkimin hökmü nədir?

Cavab: Həkim günah etmişdir və cəzalandırılmalıdır.

Sual 75: Valideynlərim qeydə almadığından doğulduğum günü bilmirəm. Mənim üçün dini vəzifələr nə vaxtdan vacib sayılır?

Cavab: Büluğ həddinin kişilər üçün üç nişanəsi var: 15 yaşın tamam olması (digər əlamətlər olmasa 15 yaşın tamamlanmasına əmin olmadan vəzifə yoxdur); yuxuda və oyaq vaxtı az və ya çox sperma xaric olması; ayıb yer ətrafında cod tüklərin çıxması.

Sual 76: Bir şəxs dünyasını dəyişmiş atası üçün Qur'an oxutdurmaq məqsədi ilə pul və'd edərsə və Qur'an başa çatdıqdan sonra pul ödəməzsə, borclu qalırmı?

Cavab: Və'dinə zamindir.

77: Çek alış-verişi: Çek müamiləyə aid olarsa, borc sənədi sayılarsa, (dostcasına çek olmazsa) onun az və ya çox miqdarda alış-verişi caizdir.

78: Poker, şahmat və bilyard oyunları: əgər bu oyunlar qumar aləti halından çıxarsa və xalq arasında idman, əyləncə vasitəsi sayılarsa, udub-uduzmaq olmadan eybi yoxdur.

79: Musiqi: eyş-işrət məclislərinə aid olan bütün musiqilər haramdır. Haram musiqini halal musiqidən fərqləndirmək üçün bu işi bilən imanlı insanlara müraciət edilməlidir.

80: Hipnoz: Tibbi və bu kimi məqsədələrlə hipnoz olar. Amma gizli işləri aşkarlamaq, keçmişdən və ya gələcəkdən xəbər vermək məqsədli hipnoz caiz deyil.

81: Dodaq və qaşların döyəclənməsi, bu halda qüsl və dəstəmaz: bu iş ifrat bəzək sayılmasa və fəsada səbəb olmasa caizdir. Hər halda döyəclənmə ilə dərinin üzəri örtülmədiyindən bu halda dəstəmaz və qüsl düzgündür.

82: Bakirə qızların qaşını və üzünü alması: bu iş qızlar üçün şər'ən haram deyil. Amma xalq arasında qəbul edilmədiyindən ondan çəkinmək daha yaxşıdır.

83: Yatırım şərti: Əgər bu şəxs bank sahibinin yox, borc götürənlərin işini asanlaşdırarsa, eybi yoxdur.

84: Borc götürmək: Bankdan borc götürmək olar. Amma bu işdə şər'i ölçülər gözlənilməlidir. Bu ölçülər gözlənildikdə verilən əlavə haqq sələm sayılmır. Amma istənilən bir məqsədlə borc götürərkən müqaviləyə əməl olunmalıdır.

85: Yubandırma cəriməsi: yubandırmağa görə cərimə almağın eybi var. Amma borclu öz borcunu vaxtında ödəməlidir. Əks təqdirdə günahkar sayılır.

86: Borc imtiyazının alqı-satqısı: əgər bu iş borc verən bankın qanunlrına zidd olmasa eybi yoxdur.

87: Başqalarının sığorta dəftərçəsindən istifadə: bu iş sığorta təşkilatının qaydalarına zidd olduğundan və sığortalanan şəxslə öncədən şərt kəsildiyindən caiz deyil. Hətta sığorta idarəsi öz xidmətlərində səhlənkarlıq göstərsə də belədir.

88: Borc və infilyasiya: borc ödənən müddətədək ciddi infilyasiya baş verərsə, borclu şəxs infilyasiya faizini nəzərə alıb borcunu ödəməlidir. Banklardan ayrı-ayrı illərdə infilyasiya faizinin nə qədər olduğunu öyrənmək olar.

89: Həcc və ümrə yatırımları: Əgər şəxslərlə Həcc təşkilatları arasında müqavilə olmazsa və şəxslər öz istəyi ilə bu məbləği ödəyərsə eybi yoxdur. Bu fayda Həcc xərclərindən sayılarsa, onun üzərinə xüms gəlməz.

Sual 90: Həftədə üç gün tədris məqsədi ilə başqa şəhərə gedən müəllimlərin namaz və orucunun hökmü nədir?

Cavab: Bu səfər üç gün və ya daha artıq çəkərsə, onların namaz və orucları tamdır.

Sual 91: Həftədə üç gün təhsil üçün bir şəhərdən o birinə gedən tələbələrin namaz və orucunun hökmü nədir?

Cavab: Onların namaz və orucu tamdır. Amma 3 gündən az olarsa müsafir hökmündədirlər.

Sual 92: Bə'zi dövlət mə'murları işləri ilə bağlı həftədə üç gün bir şəhərdən o birinə gedirlər. Onların namaz və oruclarının hökmü nədir?

Cavab: Onların namaz və orucu tamdır.

Sual 93: Əgər hərbi xidmətdə olan əsgər valideynlərini görmək üçün həftədə üç gün bir şəhərdən o birinə gedirsə, onun namaz və orucunun hökmü nədir?

Cavab: Onların namaz və orucu tamdır. Ardıcıl şəkildə iş və təhsil üçün həftə ərzində 3 gün başqa yerə gedənlərin namaz və orucu tamdır.

Sual 94: Mübarək ramazan ayında günortadan sonra təbliğ üçün Qumdan 40 km. aralanan tələbə və təbliğçilərin namaz və oruclarının hökmü nədir?

Cavab: Namaz və orucları tamdır.

Sual 95: Büluğ yaşa, 9 yaşa çatmış, amma fiziki baxımdan möhkəmlənməmiş qızların oruc tutmasının hökmü nədir?

Cavab: Nəzərdə tutulan halda bu qızlara oruc tutmaq vacib deyil. Əgər bu zəiflik gələn ramazan ayınadək davam edərsə, həmin orucların qəzası da vacib olmaz. Hər gün üçün bir mudd (750 qr) təam vermək bəs edər.

Sual 96: İş məqsədi ilə Tehrandan Savəyə həftədə 4 gün səfərə çıxan mühəndis və fəhlələrin namaz və orucunun hökmü nədir?

Cavab: Onlar tez-tez gedib-gəldiyindən "kəsirus-səfər" sayılırlar, namaz və orucları tamdır.

Sual 97: İşlə bağlı hər gün Tehrandan Kərəcə səfərə çıxan qız və xanımların namaz və orucunun hökmü nədir?

Cavab: Namaz və orucları tamdır.

Sual 98: Həftədə üç gün müxtəlif məntəqələrə səfərə çıxan imam-cümələrin namaz və orucunun hökmü nədir?

Cavab: Onlar da "kəsirus-səfər" sayılırlar, namaz və orucları tamdır.

Sual 99: Həftədə üç gün daxil və xaricə uçuşu olan təyyarəçi və hava limanı işçilərinin namaz və orucunun hökmü nədir?

Cavab: Namaz və orucları tamdır.

Sual 100: Universitetlərdə yaşayıb, qidalanan yerli və xarici tələbələrin fitrə zəkatının hökmü nədir? Bu fitrə onların öz öhdəsinədir, yoxsa universitetin?

Cavab: Tələbələr qidanı adətən dükandan aldıqları üçün fitrə zəkatını ya özləri, ya da xərclərini ödəyən şəxs verməlidir.

Sual 101: Fabrik və müəssisələrdə işləyən işçilərin fitrə zəkatının hökmü nədir? Öz öhdələrinədir, yoxsa müəssisənin öhdəsinə?

Cavab: Həmin yerlərdə qidalanma maaşın bir hissəsi sayıldığından fitrə zəkatı onların öz öhdəsinədir.

Sual 102: Poçt kimi dövlət müəssisələrində işləyənlərin fitrə zəkatı kimin öhdəsinədir?

Cavab: Fitrə zəkatı onların öz öhdəsinədir.

Sual 103: Ramazan ayında müxtəlif şəhər və kəndlərdə mənzillərdə yaşayan ruhanilərin fitrə zəkatı kimin öhdəsinədir? Onlar adətən hər gecə iftar üçün bir mənzilə də'vət edilir.

Cavab: Onların fitrə zəkatını ödəmək kimsəyə vacib deyil. Ayın sonundan bir neçə gün bir yerdə qalsalar istisnadır. Səhərlər ardıcıl şəkildə bir mənzildə olsalar, fitrə zəkatını ev sahibi verməlidir.

Sual 104: Kimsəsiz xəstələrin müalicəsi üçün fitrə zəkatından istifadə etmək olarmı?

Cavab: Eybi yoxdur.

Sual 105: Müxtəlif büdrəmələr səbəbindən zindana düşən yoxsulların azadlığa çıxması üçün fitrə zəkatından istifadə etmək olarmı?

Cavab: Eybi yoxdur.

E’TİKAF

1. E’tikaf müstəhəb əməllərdəndir. Amma bu əməl nəzir və bu kimi yollarla vacib olur. E’tikafda ibadət məqsədi şərtdir.

2. E’tikaf 3 gündən çox da çəkə bilər. Amma iki gün artırsalar, 3-cü günü də əlavə etsinlər. (Vacib ehtiyata əsasən)

3. E’tikaf ibadəti came məscidində yerinə yetirilməlidir. Came məscidi dedikdə şəhərin müxtəlif zümrələrinin iştirak etdiyi məscid nəzərdə tutulur. Məhəl və bazar məscidi isə belə deyil.

4. Bilərəkdən məsciddən çıxdıqda e’tikaf ibadəti pozulur. E’tikaf edən şəxs unutqanlıqdan məsciddən çıxarsa, ehtiyata əsasən e’tikafı pozulmuşdur.

5. Qadınlar da e’tikaf saxlaya bilər. Amma vacib ehtiyat budur ki, ərlərindən icazə alsınlar.

6. Başqası üçün e’tikaf saxladıqda ehtiyat budur ki, hədiyyə məqsədi olsun. Bu məqsədlə həm diri, həm də ölü üçün e’tikaf etmək olar. Demək, bir neçə nəfər üçün də bu işi görmək mümkündür.

7. E’tikafda xüsusi oruc tutmaq zəruri deyil. Mübarək ramazan ayının orucunu və ya qəza orucu tutmaq olar. Amma muzdla oruc tutmaq iradlıdır.

8. Müstəhəb e’tikafı ilk iki gündə pozmaq olar. Amma 3-cü gün pozmaq caiz deyil.

9. E’tikaf ibadəti bir məsciddə yerinə yetirilsə, daha yaxşıdır. Amma bir-birinə bitişik iki məsciddə də e’tikaf saxlamaq olar.

10. Bir yerin məsciddən olub-olmadığı şübhəlidirsə və zahirən bu məhəlin məscid olması bilinmirsə, e’tikaf düzgün deyil.

11. Qadınlar da yalnız məsciddə e’tikaf saxlaya bilər.

12. Yaxşını pisdən seçən uşaqlar da e’tikaf edə bilər.

13. Aşağıdakı hallarda e’tikaf saxlayan şəxs məsciddən xaric ola bilər:

a) Şər’i və ürfi zəruri bir işə görə. Məsələn, ayaqyoluna getmək və ya zəruri qüsl etmək üçün.

b) Məhkəmədə şahidlik, cümə namazı, dəfn, xəstəni yoxlamaq üçün məsciddən çıxmaq olar. Amma hər müstəhəb iş üçün caiz deyil.

14. E’tikaf zamanı qəsbi xalça üzərində əyləşmək e’tikafı batil etmir. Ehtiyata əsasən, qəsbi xalça qəsbi yerdən fərqlənir.

15. E’tikafda niyyətin başlanğıcında şərt qoymaq olar ki, ürfi və şər’i üzür yaranarsa, e’tikaf dayandırılacaq. Bu halda üzür yaranarsa, hətta 3-cü gün e’tikafı pozmaq olar.

16. Tam 3-gündən az e’tikaf düzgün deyil. Gün dedikdə fəcr tülusundan günəşin qürubunadək olan vaxt nəzərdə tutulur.

17. Məscidin şəbistanında, sərdabədə, məscidin həyətində e’tikaf caizdir. Bir şərtlə ki, məscid həyətinin məscidə aid olmadığı sübuta yetməsin və zahirən mə’lum olmasın.

18. E'tikafda beş şey haramdır:

a) Zövcədən ləzzət almaq. İstər yaxınlıq, ehtiyata əsasən, istər toxunmaq vasitəsi ilə.

b) İstimna. Ehtiyata əsasən, zövcə vasitəsi ilə halal istimna olsa belə.

c) Ləzzət məqsədi olmasa belə ətir və xoş qoxuları iyləmək.

ç) Alış-veriş, hətta mütləq ticarət. Ehtiyata əsasən zərurət olmadıqda. Amma tikiş kimi halal dünyəvi işlərlə məşğul olmaq mümkündür.

d) Qələbə, üstünlüyü göstərmək məqsədi ilə dini və dünyəvi mövzularda höcətləşmək. Bu işin gündüz və ya gecə baş verməsinin fərqi yoxdur.

19. E'tikaf edən şəxs dünyəvi işlər görüb mütaliə edə bilər. Amma bu qəbil işlərdən uzaqlıq və ibadətə diqqət daha yaxşıdır.

20. Əgər e'tikaf edən şəxs qeyd olunan yollardan biri ilə e'tikafını batil etsə, e'tikaf vacib olmuşsa, qəzasını yerinə yetirməlidir. Əgər qeyri-müəyyən vacibsə və 3-cü gün pozulmuşsa, yenə qəzası yerinə yetirilməlidir. 1-ci və 2-ci gündə baş verdikdə qəzası vacib deyil. E'tikafın qəzasını dərhal yerinə yetirmək vacib deyil.

CƏNAB AYƏTULLAH-ÜZMA MƏKARİM ŞİRAZİNİN HƏYATINA ÖTƏRİ BİR BAXIŞ

Bərəkətli başlanğıc

Cənab Ayətullah-üzma Məkarim Şirazi hicri-qəməri 1345-ci ildə Şiraz şəhərində dindar bir ailədə dünyaya göz açmışdır. Bu ailə öz əxlaqi üstünlükləri ilə tanınmışdır. Cənab ustad ibtidai təhsilini Şirazda başa çatdırmışdır. Onun güclü yaddaşı və misilsiz istedadı şagirdlər arasında seçilməsinə səbəb olmuşdur.

Elmə maraq

Cənab ustadın ailə üzvləri arasında ruhani olmasa da, İslam maarifinə eşqi onu bu iftixarlı sahəyə sövq etmişdir. Ustad təqribən 14 yaşında Şirazın Ağababaxan mədrəsəsində dini təhsilə başlamışdır. Qısa bir müddətdə sərf, nəhv, məntiq, məani, bəyan və bədii sahəsində zəruri biliklərə yiyələnmişdir. Daha sonra fiqh və üsulla məşğul olmuş, fövqəladə istedadı sayəsində 4 il müddətində müqəddimə, orta və ali səth dərslərini başa çatdırmışdır. Həmin illərdə Şiraz elmi hövzəsinin tələbələri də onun biliyindən faydalanmışlar. Ustad özü təhsil almaqla yanaşı bə'zən bir gündə 8 sinifdə tədrislə məşğul olmuşdur.

Cənab ustad 18 yaşında ikən Qum elmi hövzəsinə daxil olmuşdur. Həmin vaxt dövrün böyük ustadları Ayətullah-üzma Bürucerdi, başqa ayətullahların dərsindən 5 ilə yaxın bəhrələnmişdir.

Gənclik dövründə hicrət

Cənab ustad böyük müəllimlərin düşüncələri ilə tanışlıq üçün hicri-qəməri 1369-cu ildə Nəcəf elmi hövzəsinə hicrət etmişdir. Orada Ayətullah Həkim, Xoyi, Seyid Əbdül Hadi Şirazi və başqa böyük ustadların dərslərində iştirak etmişdir.

Hövzənin qədim ən'ənəsi

Cənab ustad 24 yaşında ikən Nəcəfin iki böyük aliminin hüzurunda ictihad dərəcəsinə çatmışdır.

Quma qayıdış

Böyük ustad hicri-şəmsi 1330-cu ilin şəban ayında İrana qayıtmış, müqəddəs Qum şəhərində məskunlaşmışdır.

Yeni hövzə, yeni dərs

Cənab Ayətullah-üzma Məkarim Şirazi İrana qayıtdıqdan sonra üsul və fiqh dərsləri, ali səth dərsləri ilə məşğul olmuşdur. Hövzə 55 ilə yaxındır ki, ustadın xaric dərslərindən bəhrələnir. O bir çox mühüm fiqh kitablarını tədris etmiş, onlarda düzəlişlər aparmışdır. Hazırda cənab ustadın xaric dərsi ən çox dinləyicisi olan dərslərdəndir. Bu dərslərdə 2 minə yaxın tələbə və alim iştirak edir. Cənab ustad gənclik dövründən başlayaraq müxtəlif sahələrlə bağlı, o cümlədən əqidə, İslam maarifi, vilayət, təfsir, fiqh və üsul mövzusunda kitablar yazmışdır. Cənab Ayətullah-üzma Məkarim Şirazi İslam dünyasının böyük qələm sahiblərindən sayılır.

Siyasi həyat

Cənab ustad İslam inqilabında fəal iştirak etmişdir. Bu fəaliyyətlərinə görə dəfələrlə həbsə alınmış, Çabhar, Mehabad, Hənarək şəhərlərinə sürgün edilmişdir. Ustad ilk xibrə məclisinin əsas qanununun hazırlanmasında fəal iştirak etmişdir.

Cənab ustadın dəyərli xidmətləri

Zalım rejim hiss edirdi ki, Qum elmi hövzəsi ümumi bir nəşriyyəyə ehtiyaclıdır və bu nəşriyyə çoxsaylı fitnəkar nəşriyyələrin şübhələrini cavablandıra bilər.

Cənab ustad bir sıra alimlərlə həmkarlıq edib "İslam məktəbi" adlı aylıq nəşriyyəni çap etməyə başladı. Bu nəşriyyənin yayılmasına Qum elmi hövzəsinin böyük ustadları yardım göstərirdi. "İslam məktəbi" nəşriyyəsi şiə dünyasında görünməmiş bir xidmət idi. Yayım baxımından bu nəşriyyə elmi və dini jurnallar arasında bütün İslam dünyasında birinci yerdə dayanırdı.

Cənab ustadın əsərləri

Cənab Ayətullah-üzma Məkarim Şirazinin 132 cild kitabı nəşr olunmuşdur. Bu kitablardan bə'ziləri 30 dəfədən artıq təkrar çap edilmişdir. Kitablardan bir hissəsi dünyanın on dilinə tərcümə edilib, müxtəlif ölkələrdə yayılmışdır. Həmin əsərlərlə tanış olaq:

1. "Qur'ani-məcidin aydın və rəvan tərcüməsi";
2-28. "Təfsiri-nümunə";
29-38. "Qur'an bəyanının mövzu təfsiri";
39, 40. "Təfsirul-mizan"ın tərcüməsi;
41-43. "Qur'anda əxlaq";
44. "Filosofnümanlar";
45. "İslamda müdiriyyət və komandanlıq";
46. "Dünyanın ən üstün xanımı Zəhra (s. ə.)";
47. "Əxlaq işığında həyat";
48. "Haqq cilvəsi";

49. “Ruhlarla rabitə”;
50. “Dini suallar və cavablar”;
51. “İslam iqtisadiyyatının əsas yönümləri”;
52. “Dindarlıq amilləri”;
53. “Allahı necə tanıyaq?”;
54. “Varlığı yaradan”;
55. “Böyük rəhbərlər və məs’uliyyətlər”;
56. “Qur’an və son Peyğəmbər (s)”;
57. “Məad və ölümdən sonrakı həyat”;
58. “Müsəlmanın əqidəsi”;
59. “Böyük Mehdi (ə. c.) inqilabı”;
60. “Unudulmuş dəyərlər”;
61. “Marksizmin süqutu”;
62. “Təkamülün son fürsətləri”;
63. “Bizim ainlərimiz”;
64. “Gənclər üçün 50 əqidə dərsi”;
65. “Təhlükəli əyləncələr”;
66. “Namaz ali tərbiyə məktəbidir”;
67. “Me’rac, şəqqül-qəmər...”;
68. “Varlığın müəmması”;
69. “Şəhadət fəlsəfəsi”;
70. “Şərqin gerilik səbəbləri”;
71. “İslamın çöhrəsinə xülasə baxış”;
72. “Allah axtarışında”;
73. “Gənclərin cinsi problemləri”;
74. “İslamdan nəyi bilməyik?”;
75. “Materializm və kommunizm haqqında”;
76. “Qur’an və hədis”;
77. “Təqlid, yoxsa təhqiq”;
78. “Xüms istiqlalın sütunudur”;
79. “İntizar məsələsi”;
80. “Rə’y əsasında təfsir”;
81. “Ciddi mübarizə üçün təqiyyə”;
82. “Bu məsələ bütün gənclərə aiddir”;
83. “İslam və qulların azadlığı”;
84. “Həyatdan 150 dərs”;
85. “Nümunəvi ailədə qayğı”;
86. “İslam hökuməti proqramı”;
87. “Müqəddimə vəhy risaləsi”;
88. “İltiqat və iltiqatiha”;
89. “İmam Rizanın (ə) tarixi”;
90, 91. “Nəhcül-bəlağədə İslam əxlaqı”;

92. “Şəriət məsələləri risaləsi”;
93. “Gənclərin hökmləri risaləsi”;
94. “Qadınların hökmləri risaləsi”;
95. “Həcc mərasimi”;
96, 97. “Yeni istiftaat”;
98-100. “Hidayət nuru”;
101. “Ürvətul vüsqaya şərh”;
102, 103. “Fiqh qaydaları”;
104-108 “Ənvarul-füqahə”;
109-111. “Ənvarul-üsul”;
112-114. “İmamın tapşırığı” (Nəhcül-bəlağənin şərhi);
115. “Sələm və İslamda bank”;
116. “Sələmdən uzaqlıq yolları”;
117. “Qur’anın gözəl məsəlləri”;
118. “Əbədi öyüdlər”;
119. “Əxlaq sayəsində sağlam cəmiyyət”;
120. “Mühüm fiqh məsələləri”;
121. “Hökmul-əzhiyə”;
122. “Fərdi ümrə”;
123. “Xanımların Həcci”;
124. “Həccin ümumi ayinləri”;
125. “Həzrət Mehdinin (ə. c.) ümumdünya hökuməti”;
126. “Gənclərin sorağınca”;
127. “Həzrət Əlinin (ə) buyuruqlarından 110 öyüd”;
128. “Ayın görünməsi ilə bağlı bir neçə mühüm nöqtə”;
129. “Şər’i hiylələr və düzgün çıxış yolu”;
130. “Vilayət ayələri”;
131. “Yeni Məfateh”;
132. “Cəzalandırma”.

Əlhəmdulillahi-Rəbbil-aləmin

Mündəricat

MÜQƏDDİMƏ ____ *1*

Bir neçə zəruri xatırlatma ____ **1**

TƏQLİD ____ *3*

Təqlidin hökmləri ____ **3**

TƏHARƏT (DİNİ BAXIMDAN PAKLIQ) ____ *7*

Su növləri ____ **7**

1. Kürr su ____ 7
2. Az (qəlil) su ____ 8
3. Axar (cari) su ____ 8
4. Yağış suyu ____ 9
5. Quyu suyu ____ 9

Suların hökmləri ____ **10**

Ayaqyoluna getməyin (təxəllinin) hökmləri ____ **11**

İstibra (sidik kanalının şər'i qaydada təmizlənməsi) ____ **12**

Ayaqyolunda bəyənilən (müstəhəb) və bəyənilməyən (məkruh) əməllər **13**

Murdar şeylər ____ **13**

1, 2. Sidik və nəcis ____ 14
3. Sperma (məni) ____ 14
4. Heyvan ölüsü ____ 14
5. Qan ____ 15
6,7. İt və donuz ____ 16
8. Kafir və kafir hökmündə olanlar ____ 16
9. Məstedici maye ____ 17
10. Piyvə ____ 17
11. Murdar yemiş heyvanın təri ____ 17

Haram yolla cünub olmuş (özündən sperma xaric etmiş) şəxsin təri ____ **17**

Murdarlığın sübuta yetmə yolları ____ **18**

Murdarlığın sirayat etmə səbəbləri ____ 19
Murdarların hökmləri ____ 20

Pakedicilər ("Mutəhhirat") ____ **21**

1. Su ____ 21
2. Yer ____ 24
3. Günəş ____ 25
4. Əslin dəyişməsi ("istihalə") ____ 25
5. Hal dəyişməsi ("inqilab") ____ 26
4. Üçdə birin azalması ____ 26
7. Köçürmə ("intiqal") ____ 26
8. İslamın qəbulu ____ 27
9. Təsirlənmə ("təbəiyyət") ____ 27

10. Murdarın əslinin (“eyni-nəcasət”) təmizlənməsi 27
11. Murdar yemiş heyvanın təmizlənməsi (istibra”) 28
12. Müsəlmanın qeyb olması 28

Qabların hökmləri 29

Dəstəmaz 30
Dəstəmaz almağın qaydası 30
İrtimasi (“suya batmaqla) dəstəmaz 32
İrtimasi dəstəmazın hökmləri 32
Dəstəmazın duaları 32

Dəstəmazın şərtləri 33

Dəstəmazın hökmləri 36
Hansı hallarda dəstəmaz almaq vacibdir? 38
Hansı hallarda dəstəmaz batil olur? 39
“Cəbirə” dəstəmazın hökmləri 39

“Qüsl” (müəyyən hallarda dini qayda əsasında yuyunmaq) 40
Vacib qüsüllər 40
1. Cənabət 40
Cənabətin hökmləri 41
Cənabətli şəxsə haram olan işlər 42
Cənabətli şəxsə məkruh olan işlər 42
Cənabət qüslünün hökmləri 42
Qüslün qisimləri və hökmləri 43
2. “İstihazə” 45
Müstəhazə qanın hökmləri 45
3. Heyiz (aybaşı) 47
Heyz qadının hökmləri 47
Heyiz qadının növləri 50
1. “Vəqtiyyə” və “ədədiyyə” adəti olanlar 50
4. Vəqtiyyə adəti olan qadın 51
3. Ədədiyyə adəti olan qadın 52
4. Müztəribə 52
5. Mubtədiə 53
6. Nasiyə 53

Heyiz mövzusunda müxtəlif məsələlər 53
4. Nifas 54

Nifas qadının hökmləri 54

5. Meyyitə toxunmaq 55
Meyyitə toxunmağın hökmləri 55

Can verən insan (“möhtəzir”) 56
Can verənin hökmləri 56

Ölülər 57
Ölünün hökmləri 57

6. Meyyit qüslü 58
Meyyit qüslünün hökmləri 58

Kəfənləmənin hökmləri 59

"Hənutun" hökmləri 60

Meyyit namazı 61
Meyyit namazının qaydası 62
Meyyit namazının müstəhəb keyfiyyətləri 63
Dəfnin hökmləri 64
Dəfndə müstəhəb əməllər 65

Vəhşət namazı 68

Qəbrin açılmasının hökmləri 69

Şəhidin hökmləri 70
Müstəhəb qüsüllər 70

Təyəmmüm 72
Birinci hal 72
İkinci hal 73
Üçüncü hal 73
Dördüncü hal 74
Beşinci hal 74
Altıncı hal 74
Yeddinci hal 74

Nələrə təyəmmüm etmək olar? 75

Təyəmmümün qaydası 76

Təyəmmümün hökmləri 76

NAMAZ *79*

Namazın əhəmiyyəti 79

Vacib namazlar 80

Vacib yövmiyyə namazları 80

Cümə namazı 80

Cümə namazının hökmləri 80

Cümə namazının qaydası 81

Yövmiyyə namazlarının vaxtı 82
Günorta və ikindi namazlarının vaxtı 82

Şam və xiftən namazlarının vaxtı 82

Sübh namazının vaxtı 83

Namaz vaxtının hökmləri 83

Namazlarda tərtib 85

Nafilə (müstəhəb) namazlar 85

Gündəlik nafilələrin vaxtı ____ **86**

Ğufeylə namazı ____ **87**

Qiblənin hökmləri ____ **87**

Namazda bədənin örtülməsi ____ **89**

Namaz qılanın libası ilə bağlı şərtlər ____ **89**

Birinci şərt: ____ **90**
Paklıq ____ 90

İkinci şərt: ____ **91**
Libasın qəsbi olması ____ 91

Üçüncü şərt: ____ **91**
Ölmüş Heyvan hissələrindən hazırlanmış libas ____ 91

Dördüncü şərt: ____ **92**
Əti haram olan heyvanın hissəsi ____ 92

Beşinci şərt: ____ **92**
Qızıl sap parçalar ____ 92

Altıncı şərt: ____ **93**
Libas xalis ipəkdən olmamalıdır ____ 93

Hansı hallarda namaz qılan şəxsin libası və ya bədəni murdar ola bilər? ____ **94**

Namaz qılanın paltarı ilə bağlı müstəhəb və məkruh hallar ____ **95**

Namaz qılanın yeri ____ **96**

İkinci şərt: ____ **97**
Hərəkətsizlik ____ 97

Üçüncü şərt: ____ **98**
Namazın vacib şərtlərini yerinə yetirməyin mümkünlüyü ____ 98

Dördüncü şərt: ____ **98**
Kişinin qadından öndə dayanması ____ 98

Beşinci şərt: ____ **98**
Səcdə yerinin oturulan yerdən hündür olmaması ____ 98

Namaz qılınması üçün müstəhəb və ya məkruh olan yerlər ____ **99**

Məscidin hökmləri ____ **100**

Azan və iqamə ____ **101**

Hansı hallarda azan deyilmir ____ **102**

Namazın vacib şərtləri ____ **104**

Səcdənin hökmləri ____ **113**

Nələrə səcdə etmək olar? 115
Səcdədə müstəhəb əməllər 116
Səcdədə məkruh (bəyənilməyən) əməllər 117
Qur'ani-məcidin vacib səcdələri 117
Qunut 119
NAMAZIN TƏRCÜMƏSI 121
"Həmd" surəsinin tərcüməsi 121
"Qul huvəllah" ("İxlas") surəsinin tərcüməsi 121
Rükuda zikrin tərcüməsi 122
Səcdədə zikrin tərcüməsi 122
Təşəhhüdün tərcüməsi 122
Salamın tərcüməsi 122
Təsbihatın tərcüməsi 122
Qunutun tərcüməsi 123
Namazın tə'qibatı (namazın ardınca oxunan zikr, dua və Qur'an) 123
Namazın batil olduğu hallar 124
Namazda məkruh sayılan (bəyənilməyən) əməllər 127
Hansı hallarda namazı dayandırmaq olar 128
Namazda şəkk ("şəkkiyyat") 128
1. Namazı batil edən şəklər: 128
2. Hansı şəklərə əhəmiyyət verilməməlilir? 129
1.Vaxtı ötmüş şəkk 129
2. Salamdan sonra şəkk 130
3. Vaxt keçdikdən sonra şəkk 130
4. Çox şəkk edənin şəkki ("kəsirüş-şəkk") 131
5. İmam və ya mə'mumun şəkki 131
6. Müstəhəb namazlarda şəkk 132
3. Düzgün şəklər 132
Şəklə bağlı müxtəlif məsələlər 133
Ehtiyat namazının qaydası 134
Səcdeyi-səhvin vacib olduğu hallar 136
Səcdeyi-səhvin hökmləri 136
Səcdeyi-səhvin qaydası 137
Yaddan çıxmış səcdə və təşəhhüdün qəzası 137
Namazın hissə və şərtlərinin dəyişməsi 138

Müsafirin (səfərdə olanın) namazı 138

Birinci şərt: 138
Səfər şər'i səkkiz fərsəxdən az olmasın 138

İkinci şərt: 139
Əvvəlcədən səkkiz fərsəx getmək məqsədi olsun 139

Üçüncü şərt: 140
Yolda səfər məqsədinin dəyişməməsi 140

Dördüncü şərt: 140
Səkkiz fərsəx yol getməzdən qabaq vətənindən keçməsin və yolda on gün, on gündən artıq qalmaq qərarına gəlməsin. 140

Beşinci şərt: 140
Səfər haram iş üçün olmasın. 140

Köçəri həyat tərzi yaşamış olmasın 141

Yeddinci şərt: 142
Şəxsin peşəsi səfərə çıxmaq olmasın. 142

Səkkizinci şərt: 143
"Tərəxxüs həddinə" çatmaq 143

Səfəri səfər hökmündən salan hallar 143
1. Vətənə çatmaq 143
2. On gün qalmaq məqsədi 144
3. Bir yerdə niyyət etmədən bir ay qalmaq 146

Müsafirin namazı ilə bağlı müxtəlif məsələlər 146

Qəza namazı 147

Ata və ananın qəza namazı 148

Ata və ananın qəza namazlarının böyük oğula vacib olmadığı hallar 148

"İsticari" namaz 149

Camaat namazı 150

Camaat namazının şərtləri 151

Camaat namazının hökmləri 153

İmam-camaatla bağlı şərtlər 155

Camaat namazı hökmlərinin davamı 155

Camaat namazında müstəhəb olan işlər 157

Camaat namazında məkruh olan işlər 157

Ayat namazının hökmləri 158

Ayat namazının qaydası 159

Fitr və qurban bayramı namazı 160

Fitr və qurban bayramı namazlarının qaydası ____ **160**

Fitr və qurban bayramları namazlarında müstəhəb əməllər ____ **161**

Fitr və qurban bayramları namazının hökmləri ____ **162**

ORUC ____ ***163***

Orucun vacib olması ____ **163**

Orucu batil edən işlər ____ **165**

Orucu batil edən işlərin hökmləri ____ **165**

Oruc tutan şəxsə məkruh olan işlər ____ **171**

Qəza və kəffarə vacib olan yerlər ____ **172**

Orucun kəffarəsi ____ 172
Orucun kəffarəsinin hökmləri ____ 172
Orucun yalnız qəzası lazım olan yerlər ____ 174
Qəza lazım olmayan yerlər ____ 175
Qəza orucunun hökmləri ____ 176
Müsafir şəxsin orucunun hökmləri ____ 177
Oruc vacib olmayan şəxslər ____ 178

Ayın əvvəlinin sübut olunması yolları ____ **179**

Haram oruclar ____ **180**

Məkruh oruclar ____ **181**

Müstəhəb oruclar ____ **181**

Oruc tuta bilməyən şəxslər ____ **181**

XÜMS ____ ***183***

Yeddi halda lazım olan xüms ____ **183**

Yeddi halda lazım olan xüms və onun hökmləri ____ **183**

Xümsün istifadə olunma yerləri ____ **193**

ZƏKAT ____ ***195***

Mal zəkatının hökmləri ____ **195**

Zəkatın vacib olma şərtləri ____ **195**

Qızıl və gümüşün nisabı ____ **198**

Mal-qaranın zəkatı ____ **199**

Qoyunun nisab həddi ____ 200

İnəyin nisab həddi ____ **200**

Dəvənin nisab həddi ____ **201**

Zəkatın istifadə olunduğu yerlər ____ **202**

Zəkatın müstəhəqləri ____ **204**
Zəkatın niyyəti ____ **205**
Zəkatın müxtəlif məsələləri ____ **205**
Fitrə zəkatı ____ **208**
Fitrə zəkatının istifadə olunduğu yerlər ____ **210**
Fitrə zəkatının hökmləri ____ **210**
Fitrə zəkatının müxtəlif məsələləri ____ **210**
HƏCC ____ ***213***
Həcc və onun şərtləri ____ **213**
İstitaətin hökmləri ____ **213**
ALQI-SATQI ____ ***215***
Vacib və müstəhəb müamilələr ____ **215**
Müamilələrin hökmləri ____ **215**
Məkruh müamilələr ____ **215**
Haram və batil müamilələr ____ **215**
Sələm ____ **217**
Sələmin hökmləri ____ **217**
Alıcı və satıcının şərtləri ____ **218**
Mal və onun əvəzinin şərtləri ____ **219**
Müamilə siğəsi ____ **220**
Ağacda olan meyvələrin alqı-satqısı ____ **221**
Nəqd və nisyənin müamiləsi ____ **221**
Sələf müamiləsi və onun şərtləri ____ **222**
Sələf müamiləsinin hökmləri ____ **223**
Qızıl və gümüşün alqı-satqısı ____ **223**
Müamiləni pozmağın mümkün olduğu yerlər ____ **223**
Müamiləni poza bilmə hüquqlarının hökmləri ____ **224**
Alqı -satqının müxtəlif məsələləri ____ **225**
ŞİRKƏT (ŞƏRİK OLMAQ) ____ ***227***
Şirkətin hökmləri ____ **227**
SÜLH ____ ***229***

Sülhün hökm və şərtləri 229
İCARƏ *231*
İcarənin hökmləri 231
İcarənin şərtləri 232
İcarənin müxtəlif məsələləri 233
MÜZARİƏ *237*
Müzariənin şərtləri 237
Müzariənin hökmləri 238
MUSAQAT *239*
Musaqatın şərtləri 239
Musaqatın hökmləri 239
MƏHCURLAR *241*
VƏKALƏT *243*
CÜALƏ *245*
Cüalənin şərtləri 245
Cüalənin hökmləri 245
BORC *247*
Borcun şərtləri 247
Borcun hökmləri 247
HƏVALƏ *249*
Həvalənin hökmləri 249
Rəhn (girov) 250
Rəhnin şərt və hökmləri 251
ZƏMANƏT *253*
Zəmanətin şərt və hökmləri 253
KƏFALƏT *255*
Kəfalət və kəfilin şərtləri 255
VƏDİƏ (ƏMANƏT) *257*
Əmanətin şərt və hökmləri 257
ARİYƏ *259*
Ariyənin hökmləri 259

İZDİVAC _____ *261*
Daimi əqdin oxunma qaydası _____ **262**
Qeyri-daimi əqdin oxunma qaydası _____ **262**
İzdivac nikahının şərtləri _____ **263**
Əqdi pozmağın mümkün olduğu eyblər _____ **264**
Evlənmək haram olan qadınlar _____ **264**
Daimi əqdin hökmləri _____ **266**
Müvəqqəti evlənmənin hökmləri _____ **267**
Baxmağın hökmləri _____ **268**
Evlənmənin müxtəlif məsələləri _____ **269**
SÜD VERMƏK (RİZA') _____ *271*
Südvermənin hökmləri _____ **272**
Məhrəmliyə səbəb olan südvermənin şərtləri _____ **272**
Südvermənin qaydaları _____ **275**
Südvermənin müxtəlif məsələləri _____ **275**
TƏLAQ _____ *277*
Tələğın iddəsi _____ **278**
Əri ölən qadının iddəsi _____ **278**
Bain və ric'i tələğı _____ **279**
Dönməyin hökmləri _____ **279**
Xül' tələğı _____ **280**
Mübarat tələğı _____ **280**
Tələğın müxtəlif məsələləri _____ **281**
QƏSB _____ *283*
Qəsbin hökmləri _____ **283**
İTİRİLMİŞ MALLAR _____ *285*
İtirilmiş malların hökmləri _____ **285**
HEYVANLARIN BAŞININ KƏSİLMƏSİ VƏ OVLANILMASI ___ *289*
Heyvanların başının kəsilməsi və ovlanılmasının hökmləri _____ **289**
Heyvanların başını kəsmək qaydası _____ **289**
Heyvanların başının kəsilməsinin şərtləri _____ **290**

Dəvəni öldürmək qaydası 291
Heyvan kəsəndə müstəhəb və məkruh olan şeylər 291
Silahla heyvanın şikar edilməsinin şərtləri 292
Şikarın hökmləri 292
Ov itləri ilə şikar etməyin şərtləri 293
Ov itləri ilə şikar etməyin hökmləri 293
Balıq ovu 294
YEMƏLİLƏR VƏ İÇMƏLİLƏR *295*
Halal və haram ətli heyvanlar 295
Əti halal olan heyvanların haram üzvləri 295
Haram yeməlilər və içməlilər 296
Yemək yeməyin müstəhəb və məkruh əməlləri 297
Su içməyin müstəhəb və məkruh əməlləri 297
NƏZİR VƏ ƏHD *299*
Nəzir və əhdin şərtləri və hökmləri 299
AND İÇMƏK *303*
And içməyin şərtləri 303
Andın hökmləri 303
VƏQF *305*
Vəqfin hökmləri və şərtləri 305
VƏSİYYƏT *307*
Vəsiyyət edənin şərtləri 307
Vəsiyyətin hökmləri 307
İRS *311*
Varislər 311
Birinci qrupun irsi 311
İkinci qrupun irsi 312
Üçüncü qrupun irsi 314
Zövcə və ərin irsi 316
İrslə bağlı müxtəlif məsələlər 317
DİFA, ƏMR BE MƏ'RUF VƏ NƏHY ƏZ MÜNKƏR *319*

Difanın (müdafiənin) hökmləri ____ **319**

Əmr be mə'ruf və nəhy əz münkər (yaxşılığa də'vət və pisliyə qadağa) ____ **319**

EHTİYAC DUYULAN AKTUAL MƏSƏLƏLƏR ____ ***321***

Bank və xeyriyyə fondlarının müamilələri ____ **321**

Siftə və çek ____ **322**

"Sərqofli" ____ **322**

Sığorta ____ **323**

"TƏLQİH" (QADININ MAYALANDIRILMASI) ____ ***325***

Orqanların köçürülməsi ____ **325**

MÜZARIBƏ ____ ***327***

MÜXTƏLİF MÖVZULARDA MƏSƏLƏLƏR ____ ***329***

YENİ İSTİFTAAT (ŞƏR'İ SUALLAR) ____ ***333***

Təqlid ____ **333**

Murdarlar ____ ***333***

Təharət ____ ***333***

Dəstəmaz ____ ***334***

Qüsl ____ ***334***

Namaz ____ ***334***

Oruc ____ ***335***

Xüms ____ ***335***

Həcc ____ ***336***

Baxış (hİcab və baxışın hökmlərİ) ____ ***336***

Vəqf ____ ***337***

Əmr be mə'ruf və nəhy əz münkər ____ ***337***

Cəzalar ____ ***337***

Bank ____ ***338***

Həkİmlİk ____ ***338***

Müxtəlİf məsələlər ____ ***338***

E'tİkaf ____ ***343***

CƏNAB AYƏTULLAH-ÜZMA MƏKARİM ŞİRAZİNİN HƏYATINA ÖTƏRİ BİR BAXIŞ _____ 345

Bərəkətli başlanğıc _____ 345

Elmə maraq _____ 345

Gənclik dövründə hicrət _____ 345

Hövzənin qədim ən'ənəsi _____ 345

Quma qayıdış _____ 345

Yeni hövzə, yeni dərs _____ 346

Siyasi həyat _____ 346

Cənab ustadın əsərləri _____ 346